ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2022
№3 (69)

BAKI-2022

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2022
№3 (69)

BAKU-2022

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 304.42

## MÜSTƏQİLLİYƏ GEDƏN YOLDA DİL AMİLİNİN ROLU

**İRADƏ NURİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Humanitar fənlər”kafedrasının professoru, siyasi elmlər doktoru*

*E-mail: iradanuri@gmail.com*

Hər bir xalqın formalaşması üçün zəruri şərtlər dil birliyi, ərazi bütövlüyü, mədəniyyət vahidliyi, məhəlli iqtisadi əlaqələr ümumiliyidir. Bu şərtlərin təşəkkül tapması üçün uzun tarixi bir dövr tələb edilir. Xalqın və onun dilinin təşəkkülündə mühüm amillərdən biri ərazi birliyidir. Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımızın dəstəyi ilə qəhrəman ordumuz 27 sentyabr-10 noyabr 2020-ci il tarixlərində ərazi bütövlüyümüzü bərpa etdi.

Digər əsas amillərdən biri isə dil sayılır. Ana dili xalqın, millətin kimliyini, tarixi keçmişini və mədəniyyətini, dünyagörüşünü özündə daşıyan, əsrlər boyu nəsildən nəslə ötürülən əvəzsiz milli sərvətdir. Hələ Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə 1918-ci il iyunun 27-də Azərbaycan dili dövlət dili elan edilmişdi.

1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra respublikada anti-Azərbaycan siyasəti yeridilməyə başlandı: milli adət-ənənələri yasaq etmək, İslam dininə, İslam mədəniyyətinə qadağa qoymaq, məscidləri dağıtmaq, rus dilini dövlət dili səviyyəsinə çatdırmaq, milli kadr qıtlığı bəhanəsilə qeyri millətlərin nümayəndələrini Azərbaycana gətirmək, “beynəlmiləl” şəhər elan edilən Bakıda əhalinin milli tərkibini köklü surətdə dəyişdirmək, rəhbərlikdə olan milli kadrlar arasında süni olaraq qarşıdurma yaratmaq, Azərbaycanın milli sərvətlərini hərraca qoymaq, onun əzəli torpaqlarını zaman-zaman qonşulara bəxşiş etmək.

Azərbaycan MİK və Azərbaycan SSR XKS 1928-ci il iyulun 21-də “Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması” haqqında Qərar qəbul etdi [9]. Bu qərar 1929-cu il oktyabrın 11-də Azərbaycan MİK-in IV sessiyasında təsdiq edildi [7, s. 345]. 1929-cu il yanvarın 1-dən latın qrafikalı, 1940-cı ilin yanvarın 1-dən isə kirill qrafikalı əlifbaya keçildi (Azərbaycan SSR Ali Sovetində 1939-cu ilin iyulunda qəbul edilən qanun əsasında) [7, s. 347]. 1947-1951-ci illərdə ÜİK(b)P MK dilçilik, fəlsəfə, fiziologiya, biologiya, siyasi iqtisad və bir sıra başqa elmləri “hakim ideologiya”ya tabe etmək siyasətini həyata keçirdi ki, bu da elmin inkişafına mənfi təsir göstərdi. Azərbaycan xalqının tarixinin saxtalaşdırılması, xalqın soykökünün öyrənilməsində məqsədyönlü dolaşıqlığa yol verilməsi, Rusiyanın Şimali Azərbaycanı istilası, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin və digər tarixi proseslərin ciddi şəkildə təhrif edilməsi ən yüksək mərhələyə çatmışdır. 1954-cü il fevralın 14-16-da Azərbaycan Kommunist Partiyasının XX Qurultayında Azərbaycan KP MK-nın Birinci katibi seçilmiş akademik İmam Mustafayev Azərbaycan dilinin rəsmi dövlət dili statusu elan edilməsi və kargüzarlıq işlərinin ana dilində aparılması istiqamətində tədbirlər gördü və 1956-cı ildə Konstitusiyaya dövlət dilinin Azərbaycan dili olması haqqında yeni maddə əlavə olundu [10], lakin bu qərar uğurlu nəticələnmədi. Reallaşdırmağa çalışdığı bu tədbirlərə görə 1959-cu ilin iyulunda Sov. İKP MK İmam Mustafayevi millətçilik ittihamı ilə vəzifəsindən azad etdi.

1969-cu il iyulun 14-də Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. 1969-1982-ci illərdə Ulu öndər Heydər Əliyev respublikaya rəhbərliyinin ilk illərində bir sıra tədbirlər gördü: milli mənəvi dəyərlərin öyrənilməsi və təbliği, tarixi araşdırmalar, bir çox elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan teatrının 100 illiyinin qeyd olunması, Nizami irsinin yenidən tədqiqi haqqında 1977-ci il Qərarının qəbulu, respublikanın milli kadr potensialının gücləndirilməsi, minlərlə azərbaycanlı gəncin SSRİ-nin müxtəlif təhsil və elm müəssisələrinə göndərilməsi və s. Heydər Əliyevin ən ali xidmətlərindən biri 1978-ci il aprelin 21-də Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsində “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir” ifadəsinin əks olunması idi. Postsovet dönəmində belə bir addım atmaq böyük cəsarət və iradə tələb edirdi.

Ümummilli Liderin dediyi kimi: “Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf et-

dirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir".

1991-ci ildə Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərqərar olması, iqtisadi-siyasi sabitliyin və beynəlxalq münasibətlərin genişlənməsi, hökumətin xalqın mənafeyi naminə həyata keçirdiyi bir sıra tədbirlər azərbaycançılıq məfkurəsinin, dilimizin daha da inkişaf etdirilməsinə zəmin yaratdı. İdeoloji fəaliyyətin əsas istiqamətlərindən biri xalqımızın özünəməxsus milli-mənəvi dəyərlərinin inkişaf etdirilməsi, gənc nəslin vətənpərvərlik, xalqına, dilinə, dininə, zəngin mədəni irsinə humanizm və müstəqillik uğrunda tarixi mübarizə yolu üçün milli qürur ruhunda tərbiyə edilməsi olmuşdur. 1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi öz əksini tapmışdır. Konstitusiyanın 21-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir və Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

Ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində dilimizin inkişafına xüsusi diqqət yetirilib, bu istiqamətdə müxtəlif fərman və sərəncamlar qəbul edilib. Ana dilinə hər zaman həssaslıqla yanaşan, dilimizin dərin bilicisi olan Ümummilli Lider deyirdi: "Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Bizim çox gözəl, zəngin dilimiz var".

Ümummilli Lider 2001-ci il iyun ayının 18-də "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Dövlət başçısı yanında "Dövlət Dil Komissiyası" yaradıldı [8]. 2002-ci il sentyabr ayının 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qəbul edildi. 1991-ci ilin dekabrın 24-də latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında Qanun qəbul edildi. 18 iyun 2001-ci il tarixli Fərmanla Azərbaycanda 2001-ci il avqustun 1-dən latın əlifbasına keçid, o cümlədən mətbuatın, təhsilin, rəsmi yazışmaların və çıxışların ana dilində aparılmasını təmin etmək üçün tədbirlər həyata keçirildi. Ulu öndər Heydər Əliyev 2001-ci il avqustun 9-da "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" Fərman imzaladı. Bu Fərmanla avqustun 1-i respublikada Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Respublika Prezidenti İlham Əliyev dövlətimizin həyata keçirdiyi dil siyasətini uğurla davam etdirərək verdiyi 12 yanvar 2004-cü il tarixli 56 nömrəli sərəncamı ilə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" [1], 12 yanvar 2004-cü il 55 saylı "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" [2], 2013-cü il 9 aprel tarixli 2837 nömrəli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" [3], 1 mart 2019-cu il 1001 saylı "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" [4], 17 iyul 2018-ci il 346 nömrəli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" [5] sərəncamlar, 01 noyabr 2018-ci ildə "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" [6] Fərman və bir sıra tədbirlər bir daha sübut edir ki, Müstəqil Azərbaycan Respublikası yüksək yazı mədəniyyətinə, zəngin söz ehtiyatına malik olan ana dilimizə daim diqqət və qayğı ilə yanaşır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında //https://e-qanun.az/framework/5427*

*2. Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında //https://e-qanun.az/framework/5426*

*3. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında //https://e-qanun.az/framework/25537*

*4. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 3375 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə //https://e-qanun.az/framework/41650*

*5. Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında //https://e-qanun.az/framework/39503*

6. *Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı //https://president.az/az/articles/view/30563*
7. *Azərbaycan tarixi. 7 cilddə, VI c.(aprel 1920-iyun 1941). Bakı: "Elm", 2008, 568 s.+48 s. illüstrasiya.*
8. *"Respublika" qəzeti, 19 iyun 2001-ci il*
9. *ARDA, f. 379, s. 16, i. 70, v. 11, 225*
10. *SSRİ MNA, f. 14295, s. 484, 337, i. 1, v. 12.*

**İRADƏ NURİYEVA**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, "Humanitar fənlər" kafedrasının professoru, siyasi elmlər doktoru**

## MÜSTƏQİLLİYƏ GEDƏN YOLDA DİL AMİLİNİN ROLU

**Xülasə**

Məqalədə Azərbaycan dilinin xalqın, millətin kimliyini, tarixi keçmişini və mədəniyyətini, dünyagörüşünü özündə daşıyan, əsrlər boyu nəsildən nəslə ötürən əvəzsiz milli sərvət olması, bu istiqamətdə Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən verilən sərəncam və fərmanlar, dövlətin dilimizin daim qorunub inkişaf etdirilməsi üçün gördüyü tədbirlər öz əksini tapmışdır.

**Açar sözlər:** *ana dili, dövlət dili, mənəvi dəyər, milli kimlik, xalqın sərvəti.*

**ИРАДА НУРИЕВА**
**Доктор политических наук, профессор кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета Нефти и Промышленности**

## РОЛЬ ЯЗЫКОВОГО ФАКТОРА НА ПУТИ К НЕЗАВИСИМОСТИ

**Резюме**

В статье нашло свое отражение то, что азербайджанский язык является бесценным национальным достоянием, несущим в себе самобытность, историческое прошлое и культуру, мировоззрение народа и нации, передаваемые из поколения в поколение, приказы и указы Общенационального лидера Гейдара Алиева и Президента Ильхама Алиева и меры, принимаемые государством для постоянной защиты и развития нашего языка.

**Ключевые слова:** *родной язык, государственный язык, нравственные ценности, национальное самосознание, национальное достояние.*

**IRADA NURIYEVA**
**Doctor of Political Sciences, professor at the Department of Human Sciences of Azerbaijan State Oil and Industry University**

## THE ROLE OF LANGUAGE FACTOR ON THE ROAD TO INDEPENDENCE

**Summary**

The article reflects the fact that the Azerbaijani language is an invaluable national treasure that carries originality, historical past and culture, the worldview of the people and the nations, passed down from generation to generation, orders and decrees of the National Leader Heydar Aliyev and President Ilham Aliyev and measures adopted by the state for the permanent protection and development of our language.

**Key words:** *mother language, state language, moral value, national identity, wealth of the people*

УДК 327; 339.9

# РОЛЬ ИНФОРМАЦИОННЫХ СЛУЖБ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

**ГЮЛЬНАЗ ГАСАНОВА**
*Докторант кафедры Международные отношения факультета Международных отношений и экономики Бакинского Государственного Университета*

*E-mail: gulnazhasanova1016@gmail.com*

На протяжении всей истории человечества общество развивалось по определённым устоям и традициям, которые диктовала сама жизнь, и формировало новые основы в соответствии с текущими реалиями. На всех этапах человек сталкивался с проблемами, которые влияли на его поведение, образ жизни, ценности. В процессе выживания на него, кроме естественно природных факторов, большое влияние оказывали и последствия научно-технического прогресса. И эти факторы были как положительны, так и губительны.

Желая улучшить свое социальное положение и с целью обеспечить свою безопасность во всех сферах, человек всегда опирался на имеющуюся у него информацию. Образование государств, их непрекращающаяся борьба за превосходство, развитие связей, природные явления побуждали к постоянному поиску информации об упомянутых событиях, дабы контролировать происходящее и быть хозяином положения. Со временем информация стала составляющей основой общества, от которого зависит его успех и достойное развитие.

Сегодня информация вступила на новый этап своего развития и, практически, является одной из движущих сил, способствующих успеху, но, в то же время, и краху в международных отношениях. Это объясняется тем, что информация, увы, не всегда, способствует достижению желаемых результатов, а, зачастую, является причиной серьёзных нарушений, установленных устоев, правовых норм, и способствует вспыхиванию нежелаемых конфликтов и войн.

Главной проблемой добычи информации является её достоверность. От этого зависит политика государств. В связи с чем источники информации являются сегодня приоритетным направлением государственной политики для любой страны. А посему значение структур, занимающихся получением информации и дальнейшего представления её обществу, их деятельность и оценка является актуальным вопросом для научного исследования.

Следует принять, что у информации широкие возможности: она позволяет ориентироваться в общей обстановке, уменьшать или, наоборот, повышать риск, следить за внешней средой, оценивать деятельность, вырабатывать и корректировать стратегию государства во всех областях.

Люди очень рано ощутили и осознали потребность и необходимость сохранения для будущих потомков сведений, сообщений, в которых концентрировался опыт прошлого. Стремление расширить возможности человеческой памяти привело к зарождению в государствах древних цивилизаций особого культурного института – письма, а затем и библиотек как собраний памятников письменности. Библиотеки возникают как учреждения, обладающие собиранием средств хранения информации: свиток папируса, рукопись на пергаменте. Они предоставляют услуги по общественному пользованию имеющимися материалами.

В большинстве случаев библиотеки древности находились во дворцах царей, при храмах столичных и провинциальных городов, при школах писцов. Основной услугой этих библиотек была выдача книг читателям. Для этого наиболее востребованные из них имелись в нескольких копиях.

Интересным фактом являются способы и формы хранения информации. К примеру, в библиотеке ассирийского царя Ашурбанипала имелся каталог и система хранения клинописных глиняных табличек, что облегчало получение необходимой информации. В Древнем Египте каталоги библиотеки высекались на стенах помещений и хранилищ. Однако библиотеки древности были доступны немногим.

Характерной чертой государства является то, что оно всегда испытывало потребность в распространении информации среди широких слоев населения с идеологическими целями. Для

этой задачи служили глашатаи. Их обязанностью было объявление народу специальных известий. Эту же функцию выполняли и летопись побед египетских царей, высеченная на стенах храма фараона Рамсеса II в древней столице Египта Фивах, и, знаменитая стена царя Вавилонии Хаммурапи, с высеченным на ней «Кодексом» - собранием законов.

В древности ощущается и общественная потребность в распространении информации о товарах, видах услуг с целью оповещения и создания спроса. В развалинах древнего египетского города Мемфиса найдена надпись, высеченная на камне «Я, Рино, с острова Крит, по воле богов толкую сновидения». На сегодняшнем языке мы назвали бы такую информацию рекламным объявлением с целью поиска работы.

В древний период информация фиксируется на досках, коже, свинце, папирусе. Особой отраслью информационного сервиса становятся переписка, копирование книг. В Афинах существовала широкая сеть мастерских, производящих книги. На заказ мастерские изготавливали книжные лавки для их реализации.

Разделение информации по отраслям знаний, произведенные греческими философами, сыграло важную роль при систематизации книг и создании каталогов в библиотеках более позднего времени.

Рекламная информация о зрелищах различного рода, и других услугах размещалась на специально выстроенных щитах или на стенах домов. В системе информационного сервиса Древней Греции должен быть упомянут и античный театр, служивший (наряду с народными собраниями) своеобразным средством массовой информации того времени.

Первой по-настоящему публичной библиотекой может считаться созданное Птолемеем, первым при содействии ученых того времени, собрание рукописных книг (до семисот тысяч рукописей) в Александрийском Мусейоне - совокупности научных и учебных учреждений в Александрии египетской. Впервые здесь был налажен учет, сбережение рукописей, созданы систематизированные каталоги.

Информационный сервис получает широкое распространение в Древнем Риме. В римских библиотеках появилась новая услуга. Книги здесь выдавались на дом, хотя уже существовали и читальные залы. Появляются также специализированные библиотеки: собрания книг, отобранных по определенному признаку.

Исходя из изложенного, следует вывод, что уже в античное время определяются многие направления информационного сервиса, которые получают развитие в дальнейшем. Информатизация открывает новые возможности приобщения к культуре, создания, сохранения и распространения различных услуг в обществе.

XXI век – время глобальных изменений в мире, характеризуемое новыми угрозами и вызовами для человечества. В такой атмосфере значение информации носит стратегическое значение. Поэтому роль информационных служб, их деятельность, непрерывно находятся в центре внимания государства и общественности.

На современном этапе в мире большое количество информационных служб. Следует отметить, что ими являются организации, собирающие и пересылающие новости. Как правило, они составляют основу национальной и международной систем распространения новостей. Корреспонденты этих служб занимаются сбором и дальнейшей продажей новостей подписчикам.

Однако, информационные службы также испытывают проблемы в своей деятельности. Большой объём информации не даёт возможность одному человеку качественно обрабатывать материал. С учётом того, что основная масса информации преподносится обычно на бумаге, и имеет разнообразную форму представления, это серьёзно затрудняет и замедляет её предварительную обработку. Во время обработки и преобразования данных в электронный вид возникает вероятность ошибок и ввода неправильной информации. Это, соответственно, чревато искажениями реальной ситуации, а, значит, и выработки неверных рекомендаций.

Из-за того, что, в основном, информация содержится на бумажных носителях, со временем скапливается огромный объём печатных изданий, их копий, а посему поиск становится объёмной, даже непосильной задачей. В связи с этим главным и важным аспектом становится проблема предоставления достоверной информации, ибо она должна быть лаконичной, конкретной и легко читаемой.

Во имя решения упомянутых проблем возникает необходимость в создании информационной системы, которая даст возможность наладить упорядоченность в деятельности информационных служб. В этом плане информационное обслуживание является, на наш взгляд, важным моментом проблемы.

В данном вопросе сегодня первичным является доступ к информации. Доступность ныне признается как одна из важнейших ценностей цивилизации. [4] Следует отметить, что этот аспект является предметом национального законодательства современных государств. Свобода доступа к информации, которая во всем мире признается открытой, и которая не представляет государственной или коммерческой тайны гарантируется основным законом страны. Согласно ст.1 Закона Азербайджанской Республики «О свободе информации», статья 50 Конституции гарантирует право законными путями, поиска, сбора информации, её передачи, применения и распространения. [9] Законами страны также гарантируются и нормы безопасности доступной информации.

Однако, в истории известны и факты ограничения доступа, что, порой, не оправдано. «Китайский император Цинь Шихуанди, объединивший Китай в 221 г.до н.э., распорядился сжечь все книги за исключением трудов по истории династии Цинь и справочников по медицине, гаданию и сельскому хозяйству». [4]

Преследование книг имело место и в Риме. «В годы правления императора Тиберия (14 г. до н. э. - 37 г. н. э.) был осужден историк Кремуций Корд за то, что преклонялся перед последними защитниками Республики Брутом и Кассием. До него другой историк, книги которого были сожжены по велению Сената, не смог пережить их истребления и покончил жизнь самоубийством.» [4]

Службы предоставляют пользователям возможность доступа к определенным информационным ресурсам, хранящимся в Интернете. Ныне фактически все газеты, журналы, радиостанции, телевизионные каналы имеют собственные сайты в Интернете. На них можно ознакомиться с новостями, прослушать и посмотреть сообщения, в том числе и в режиме реального времени. Электронная версия газеты позволяет не только прочесть свежий выпуск, написать и отправить в редакцию свой отзыв о прочитанном, но и получить доступ к подшивке старых выпусков газеты. На сайтах телеканалов можно просматривать программы новостей и телепередачи, участвовать в режиме on-line в различных конференциях и форумах, обсуждать увиденное, делиться мнением. На сайтах радиостанций можно прослушать программы новостей и радиопередачи.

Современная жизнь человека и государства и реалии, в которых они развиваются, безотрывно связаны с деятельностью информационных служб. А потому услуги, осуществляемые этими службами, одна из актуальных вопросов. Следует констатировать, что у информационных служб большие возможности. Сегодня сложилась такая ситуация, что практически все необходимые обществу услуги, как бытовые, так и деловые, так или иначе связаны с деятельностью служб. Поэтому их усовершенствование – самое важное направление информационной политики государства.

Какие же услуги способна предоставить информационная служба? Сфера услуг настолько обширна и безгранична, что для служб имеется большое поле деятельности, требующее постоянного улучшения и разработки новых форм и методов, отвечающих требованиям сегодняшнего дня.

Необходимо признать, что сегодня автоматизированная информационная система стала составляющей частью деятельности человека. В условиях жёсткой конкуренции за качество обслуживания, работа информационных служб и её соответствие реалиям является предметом постоянных дискуссий. Ярким объектом в этой связи можно отметить процесс доставки. Службы, занимающиеся доставкой, имеют проблемы, мешающие созданию более чёткого и слаженного механизма. В числе таких проблем, исследователями выявлен ряд недостатков: «Вероятность утери документов, в связи с отсутствием электронных копий; отсутствие базы постоянных клиентов; разрозненность информации; длительность информирования клиента о статусе заказа; отсутствие информативного списка заявок; трудности со сбором информации о заявках, что приводит к затруднениям в получении

отчетов по основным средствам предприятиям; необходимость вручную обрабатывать большое число обращений; проблемы организации параллельной обработки; основные виды деятельности проводятся вручную, такие как обработка входящей почты и отправка исходящих писем (ответов).» [8] Справочно-информационные услуги также требуют внимания. Доступ к ним позволяет получить полную информацию об интересующих вопросах медицинского, правового, потребительского, делового, развлекательного характера. К примеру, информация о месте нахождения интересующих структур (адреса, связные телефоны, род оказываемых ими услуг, цены, режим работы).

Сервисная информация позволяет узнать о положении на финансовых рынках страны и мира, о наличии медикаментов в аптеках, расписание рейсов самолетов, фактическое время прилета и вылета конкретного рейса, заказ авиабилетов с доставкой на дом или в офис, железнодорожные перевозки на междугородных и международных маршрутах, время нахождения в пути, заказ железнодорожных билетов с доставкой на дом и в офис, расписание движения междугородных и международных автобусов, адреса, контактные телефоны гостиниц, наличие в них мест, стоимость проживания и бронирование номеров в гостиницах, трансфер. В пакет сервисных услуг относится и информация о репертуаре театров, кинотеатров, концертных залов, консерваторий, цирков; сведения о театральных премьерах, спектаклях, мюзиклах, концертах, шоу-программах, стоимость и наличие билетов, бронирование билетов с последующей доставкой, заказ такси и т.д.

Информационные службы сегодня способствуют и поиску работы. Возможность рассылки о деловых навыках и способностях посредством услуг службы увеличивает шансы поиска в короткие сроки, что для человека является принципиально важным. Большая роль информационных служб ощущается в процесс обмена деловыми данными. Это касается научной сферы, коммерческих структур и др.

Деятельность информационных служб необходима и в работе государственных органов. На правовой основе практически все министерства и комитеты страны пользуются услугами этих служб, и возможностями в коммуникационной сфере с гражданами. Созданы официальные электронные сайты, посредством которых граждане имеют возможность обращения за помощью к необходимым государственным службам. На сайтах содержится информация о ведомстве, а также новости и новшества этой структуры. Благодаря возможностям информационных служб государственные органы связываются с подведомственными организациями, что максимально отражается на оперативном решении проблем (онлайн совещания, конференции, переговоры), связанных с обслуживаем населения. Создаются электронные порталы, ускоряющие работу государственных учреждений, и обеспечивающие эффективность их функционирования. В качестве примера, можно назвать созданную в Азербайджане https://www.taxes.gov.az/ru. Электронные услуги, предоставляемые этой службой достаточно широки. Они охватывают налоговую службу, законодательство, обращения… Помощь оказывается в составлении заявлений, подачи деклараций, электронные уплаты, в регистрации юридических лиц, хозяйствующего субъекта (объекта) налогоплательщика в режиме онлайн, внесение изменений в учетные данные физического лица в режиме онлайн, предоставлении различных документов и т.д.

Ярким примером развития и значимости информационных служб, на наш взгляд, можно назвать создание службы ASAN xidmət. Услуги оказываемые, этой службой, позволяют гражданину, будучи в одном здании, решить вопросы, касающиеся разных сфер: получение паспортов (и внутренних, и заграничных), выплата налогов и штрафов, получение документов и свидетельств о собственности, возможность решения нотариальных услуг. Концентрирование фактически всех государственных органов в одном помещении – это большая помощь в сокращении сроков в получении нужных документов, сокращение расстояний. Нужно отметить также, что данная служба предусматривает и выездные услуги, что позволяет максимально лаконично и всесторонне обеспечить решение проблемы населения в правовом русле.

Наряду с регулярными выездными услугами, оказываемыми в автобусах ASAN xidmət, оказываются также услуги в связи с исполнением

Указа Президента Азербайджанской Республики от 7 октября 2021 года, № 1455, о некоторых вопросах в связи с регулированием земельных отношений.

Основная цель выездной службы ASAN xidmət заключается в оказании населению государственных услуг более удобными, новыми и инновационными методами и средствами, обеспечение максимального комфорта и достижение гражданской удовлетворенности.

Посредством созданных электронных сайтов государственных органов, министерств и ведомств, население имеет возможность решать свои вопросы, максимально ограничиваясь многочасовыми поездками по городу, ожиданиями в пробках, создавания очередей немыслимых размеров.

Однако, надо учитывать и естественные проблемы современного общества, которые требуют обеспечения безопасности. И в этой сфере роль информационных служб также заслуживает внимания.

При Министерстве связи и высоких технологий Азербайджанской Республики на основании части 5 Указа Президента Азербайджанской Республики № 708 от 26 сентября 2012 года был создан Центр электронной безопасности. Указом Президента Азербайджанской Республики «О некоторых мерах по усовершенствованию управления в сфере транспорта, связи и высоких технологий» от 12 января 2018 года этот центр был включен в структуру Министерства транспорта, связи и высоких технологий как Служба электронной безопасности. Эта служба является государственным органом, являющимся координирующей структурой, обеспечивающей координацию деятельности субъектов информационной инфраструктуры в сфере кибербезопасности. Она призвана осуществлять информирование на уровне страны о существующих и потенциальных электронных угрозах, просвещение населения, частных и других структур, т.е. пользователей, в сфере кибербезопасности и оказание им методической помощи.

Данная служба оперативно получает обращения граждан в области информационной и электронной безопасности посредством веб-сайта cert.az, горячей линии "16-54" и своей страницы в социальных сетях. Служба электронной безопасности держит в центре внимания обращение каждого гражданина, проводит соответствующие расследования по тому или иному вопросу и обеспечивает методологическую и координационную поддержку. Большое значение придается просвещению граждан в сфере кибербезопасности, ибо лучший способ защитить себя от любой атаки – это быть информированным. А потому изречение «информирован, значит вооружён» актуально сегодня как никогда.

Служба электронной безопасности проводит мероприятия образовательного характера: вебинары и семинары на тему кибербезопасности. Учитывая ограничения, вызванные пандемией, с целью повышения осведомленности в этот период, обучение студентов, старшеклассников и родителей осуществлялось дистанционно.

С начала 2022 года Служба электронной безопасности Азербайджана проводит тренинги учителям на тему безопасного использования интернета, что является сегодня очень важным и необходимым, поскольку международная компьютерная сеть сегодня затрагивает абсолютно все сферы деятельности человека, в том числе, носит психологическую и воспитательную окраску для молодого поколения. До сведения аудитории доводятся материалы о киберугрозах и их нежелательных последствиях. Участвующие в тренингах учителя организовывают открытые уроки для обучения учащихся безопасному использованию Интернета. Большую поддержку в этой деятельности оказывает Министерство образования страны, поскольку основная часть аудитории – это школьники, студенты.

Отметим также, что Международный день безопасного Интернета с 2004 года по инициативе Европейской комиссии ежегодно отмечается во второй вторник февраля.

В рамках данного исследования и учитывая вышеизложенные факты и аргументы, необходимо констатировать, что информация и роль информационных служб в международных отношениях заняла весьма основательное место и требует не менее основательного изучения. Поэтому в последние годы эта необходимость отражается в учебных программах современных средних и высших учебных заведений. В учебные планы вводятся новые дисциплины, целью которых является ознакомление обучающихся

с информационных технологиями, определения факта их наличия и анализа последствий их применения для населения и государства. В рамках эти курсов обучающиеся овладевают навыками систематизации, поиска, оценки, анализа различных источников информации; верификации информации различных уровней достоверности, информационного синтеза. Студенты также знакомятся и с практическими приемами информационной работы как в процессе лекций, так и в процессе практических занятий на семинарах. Практика этих дисциплин основана на изучении наиболее актуальных примеров-кейсов, связанных с различными видами информационного обмена и воздействия различных акторов международных отношений: от самого «низового» уровня общественной дипломатии до коммуникации на высшем уровне.

Сфера международных отношений специфична. Информация же является неотъемлемой частью этой специфичности. Внедряя новые курсы, связанные с информационными технологиями, преследуются конкретные цели во имя улучшения и обеспечения максимальной безопасности в международных связях государств. Главным результатом обучения предвидится способность анализа особенностей дипломатической работы в условиях неизбежной открытости XXI столетия. В этой связи важна оценка роли медиа в международных конфликтах. Не требует доказательств тот факт, что изменение технологий повлияло на международную медийную среду и взаимодействие государств. Стало быть, выявление и определение базовых характеристик современной глобальной информационной среды небезосновательно.

Важным моментом в сфере международных отношений является проблема информационной открытости, а именно, выделение основных публичных форм представления информации о международных отношениях (индексы, рейтинги). Ну и, вполне логичным и завершающим моментом является анализ влияния на современную внешнюю политику ключевых событий в истории международных отношений.

Ярким примером следует назвать политику «мягкой силы» государств, в осуществлении которой она признаётся в качестве способа включения информационного инструмента в международные отношения. К таковым инструментам относят международные форумы, неправительственные организации и другие.

На взаимодействие государств влияет изменение форм коммуникации. Изучая историю взаимной связи информации и технологий, следует отметить, что это проявилось в период Первой мировой войны, когда информационные технологии влияли на ход конфликта и Zeitgeist (с нем. «дух времени» - философская концепция из области истории философии).

Затрагивая современность, необходимо затронуть характерную черту нового века: формирование глобального пространства, наличие глобальных проблем и противостояние государств в этой ситуации. Радикальные изменения, которые повлияют на судьбу цивилизации, будут отмечены именно в гуманитарной сфере. И центральным вопросом является глобализация информационного пространства. Здесь отмечается и создание глобальной сети телевидения и радио, информационно-коммуникационных сетей (интернет), глобализация телефонной связи (мобильной). За последние годы появились совершенно новые средства и технологии для информационных коммуникаций: персональные цифровые коммуникаторы, т.е. портативные устройства, обеспечивающие интеграцию функций мобильного телефона, терминала интернет, миниатюрной видеокамеры…

В мировой общественности широко обсуждаются возможные гуманитарные последствия происходящего. Неоспоримо то, что идёт процесс создания нового глобального информационного пространства. Мнений много. И, прежде всего, угроза глобализации сознания. Почему угроза? Потому, что, на наш взгляд, идёт процесс создания единого сознания, унификация. Сам факт однообразия уже создаёт определённые негативы и вопросы, ибо мир разнообразен, и, это, на наш взгляд, должно быть сохранено. Природа создала много цветов и красок. И сохранить это наследие – главная задача человека.

Важным моментом является быстрое повышение уровня информационной коммуникабельности общества. Усиливается обмен информацией между субъектами международных отношений. Это и государства, и региона, и организации, а также отдельные люди. Растёт интенсивность

международных связей, что отражается на абсолютно всех сферах жизнедеятельности индивида и страны.

Роль информационных служб знаменует, по нашему мнению, начало нового этапа в международном разделении труда и занятости населения. Особенно это ярко проявляется в информационной сфере. Перед человечеством открываются большие возможности в интеллектуальной сфере информационного общества: доступ к качественному образованию для все более широких слоёв населения. Достаточно упомянуть фактор дистанционного обучения. В новом аспекте выступает в этих условиях и педагогическая информатика. Увеличивается поток студентов, стало быть потребность в квалифицированных педагогах возрастает вдвое. Идёт процесс формирования открытого образования, так называемые «виртуальные университеты».

Таким образом, небольшое данное исследование позволяет сделать некоторые выводы, касающиеся роли информации и информационных служб в современном обществе.

Во-первых, неоспорим тот факт, что информация стала неотъемлемой частью нынешнего и будущего развития мира.

Во-вторых, огромный поток информации требует образования международной информационной системы, а для её качественного функционирования создания стабильного механизма.

В-третьих, упомянутый механизм требует чёткой и слаженной деятельности информационных служб, поскольку именно они являются ключевой фигурой мировой информационной системы, обеспечивающей, в конечном счёте, и безопасность общества в этом направлении.

В-четвёртых, немаловажным является подготовка кадров для работы в информационных службах. Все исследуемые в статье проблемы этих служб, в массе своей фокусируются именно, на наш взгляд, на некомпетентности, неподготовленности, на отсутствии элементарных навыков, необходимых для качественного их функционирования.

В-пятых, обеспечение на государственном уровне обучения информационным технологиям, но, конечно, с соблюдением медицинских требований, ибо здоровье и безопасность нации является приоритетным направлением государственной политики.

В-шестых, создания и усовершенствования законодательной базы в сфере информационных служб. Поскольку область информационных услуг и возможностей масштабна и специфична, её правовое регулирование очень важно. Это связано, в первую очередь, с национальной безопасностью страны, и во имя этого защита от угроз, от всевозможных диверсий посредством информационных коммуникаций, предотвращений блокад, ложной информации требует наличия законов (как внутренних, так и международных).

В-седьмых, в эпоху глобализации все страны являются членами каких-либо международных, региональных структур, и информационные службы, так или иначе, задействованы в организации их работы. Поэтому регулирование их деятельности на международном уровне также требует от стран внимания к данной области. Со стороны ООН, как ведущей и объединяющей мировой организации, сфера информационных услуг и служб должна находиться в центре внимания и быть предметом принимаемых ею отраслевых конвенций, деклараций, актов, протоколов и т.д.

Ключевые слова: информация, информационные службы, интернет, библиотеки, глобальные изменения, носители, международные организации, кибератаки, киберугрозы, законодательная база.

## СПИСОК ЛИТЕРАТУРЫ:

*1. Брежнева В. В., Минкина В. А. Информационное обслуживание: продукты и услуги, предоставляемые библиотеками и службами информации предприятий / В. В. Брежнева, В. А. Минкина; СПбГУКИ. СПб. Профессия, 2004. -304 с.*

*2. Баренбаум И.Е., Шомракова И.А. Всеобщая история книги //Современное библиотечно- информационное образование. Учеб. тетради. Вып.1/МК РФ; Спб. гос. академия культуры. Библ.- информац. фак. - Спб, 1996. - 127 с.*

*3. Болдуин Р. Великая конвергенция: информационные технологии и новая глобализация. Перевод Левченко О.; под научной редакцией Белых А. Издательский дом «Дело» РАНХиГС. Серия:*

*Книжная коллекция благотворительного Фонда «Система». 2018. – 416с.*

*4. Дворкина М.Я. Информационное обслуживание: социокультурный подход. М.: ИПО "Профиздат, 2001. -112 с.*

*5. Клочкова Е.Н Инструментарий оценки развития информационного общества в условиях глобализации. Москва. Издательство Проспект. 2017.-208с.*

*6. Панарин И.Н. Информационная война и дипломатия. Москва. Издательский дом «Городец». 2004.-528с.*

*7. Панарин И.Н., Панарина Л.Г. Информационная война и мир. Москва. ОЛМА-ПРЕСС. 2003. – 384с.*

*8. Шихов Д.С., Сичинава З.И. Информационная система для автоматизации приема и обработки заявок службы доставки. Журнал Инновационная наука. № 05. 2017.-с.135-137.*

*9. https://e-qanun.az*

*10. https://www.taxes.gov.az/ru.*

**Gülnaz Həsənova**

**Beynəlxalq münasibətlər məlumat xidmətlərinin rolu**

**XÜLASƏ**

İnformasiya bu gün beynəlxalq münasibətlərdə ciddi və əhəmiyyətli yer tutur. Qloballaşma şəraitində informasiya xidmətlərinin fəaliyyəti cəmiyyətin inkişafında mühüm aspektlərdən birinə çevrilir. İnformasiya xidmətlərinin rolu və əhəmiyyəti, onların fəaliyyətinin problemləri elmin predmetinə və tədqiqat obyektinə çevrilir. Əsərdə bəzi məqamlar əsasında bu sahənin reallığını əks etdirən nəticələr çıxarılmışdır. Yeni reallıqlar nəzərə alınmaqla informasiya xidmətlərinin işinin təkmilləşdirilməsi istiqamətində addımlar formalaşdırılıb və təklif olunub.

**Açar sözlər:** *informasiya, informasiya xidmətləri, İnternet, kitabxanalar, qlobal dəyişikliklər, media, beynəlxalq təşkilatlar, kiberhücumlar, kiber təhlükələr, hüquqi baza.*

**Gulnaz Hasanova**

**The role of information services in international relations**

**SUMMARY**

Information today occupies a serious and weighty niche in international relations. In the context of globalization, information services provided by information services are becoming one of the important aspects in the development of society. The role and importance of information services, the problems of their activities become the subject of science and the object of research. In this paper conclusions are drawn that reflect the reality of this topic. Steps have been formulated and proposed to improve the work of information services, taking into account new realities.

**Key words:** *information, information services, Internet, libraries, global changes, media, international organizations, cyber-attacks, cyber threats, legal framework.*

УДК 321:330.342.151

# ЭВОЛЮЦИЯ МИГРАЦИОННОЙ ПОЛИТИКИ США: ОСНОВНЫЕ ЭТАПЫ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ

**ФАРИДА АЛИЕВА**
*Докторант кафедры Политологии и политического управления Академии государственного управления при Президенте Азербайджанской Республики*

*E-mail: faliyeva.dia@gmail.com*

В настоящей статье делается попытка рассмотрения эволюции миграционной политики Соединенных Штатов Америки в ее взаимосвязи с основными задачами и проблемами, появлявшимися на политическом горизонте за последние сто лет. Соединенные Штаты Америки, с одной стороны, в прошлом были типичной переселенческой колонией, а с другой – на протяжении своей истории всегда были страной, в которой существовало абсолютное большинство населения (белые американцы), намного, в несколько раз, превосходящее все остальные этнические и расовые группы вместе взятые. Отношение к миграционным процессам в США остается сложным. С одной стороны, они обеспечивают приток в США рабочей силы, что соответствует интересам развития экономики, а с другой обостряются социальные проблемы, растет преступность, а после 11 сентября 2001 года миграция рассматривается в связке с проблемами обеспечения национальной безопасности.

Для Соединенных Штатов иммигранты являются как очень важной проблемой, тесно связанной с преступностью, оборотом наркотиков, торговлей людьми и т.д. так и важной составной частью экономики. Сегодня именно иммигранты, в том числе и нелегалы, занимают ключевые позиции в таких отраслях как сельское хозяйство (сезонные работники), строительство, коммунальное хозяйство, сфера обслуживания, младший и вспомогательный медицинский персонал и домашняя прислуга. Без их труда, эти отрасли недосчитались бы многих тысяч рабочих рук, которых некем заменить. Однако система контроля над мигрантами и система, предоставляющая им легальные рабочие места, до такой степени уже не соответствуют потребностям, что скорее создаёт новые проблемы, чем способствует решению уже существующих. Несмотря на то, что доля лиц без школьного аттестата или только со средним образованием среди иммигрантов значительно выше, чем среди коренных американцев, доля приезжих с высшим образованием и учеными степенями постоянно растет и практически уже сравнялось с аналогичным показателем среди коренных американцев. Потребности США в специалистах в таких отраслях как информационные технологии, медицина и промышленное производство в значительной степени удовлетворяются за счет приезжих.

Еще одна важная проблема, с которой стали в последние годы сталкиваться США – это проблема адаптации и интеграции иммигрантов в американское общество. По мнению профессора социологии Стэндфордского Университета Т.Р. Хименеса интеграция может быть успешной при достижении следующих 5 показателей: овладение английским языком, подъема по социальной лестнице, участие в политической партии, наличие постоянного места жительства и социального взаимодействия с местным населением (3). Наличие же большого числа нелегалов способствует именно этому, поскольку именно в отношении них трудовое законодательство нарушается чаще всего, а они не могут жаловаться властям. В результате от дискриминации страдают как нелегалы, которые вынуждены трудиться за меньшую сумму, чем это предусмотрено законом, так и коренные американцы, которых не принимают на работу, поскольку всегда есть нелегалы, готовые трудиться за более низкую оплату.

С момента получения независимости США развивались как страна иммигрантов. Вплоть до Первой мировой войны среди них преобладали выходцы с Британских островов, стран Западной и Северной Европы. Нужды освоения новых земель, бурное развитие индустрии требовали постоянного притока все новых и новых рабочих рук и поэтому политика правительства США имела достаточно либеральный характер. Ограничительный характер в этот период она носила только по отношению к тем, кто гарантированно бы не смог нормально интегрироваться в общество – к лицам, страдающим заболеваниями, не-

грамотным или неспособным себя самостоятельно содержать (1, 49).

Совершенно иное отношение практиковалось к выходцам из стран Восточной и Южной Азии, а именно к китайцам, индусам, японцам и т.д. Им в конце XIX-начале XX века иммиграциия в США была запрещена. Первый акт, направленный на ограничении иммиграции из конкретной страны, был принят в 1882 году и он касался китайцев (4, 27). Здесь причиной послужила как опасность конкуренции на рынке труда, поскольку азиаты работали за сумму в разы меньшую, чем другие, так и стремление защитить США от проникновения столь резко отличающихся от местного населения элементов. Одновременно власти США запретили въезд в страну политических эмигрантов, участников противоправительственных выступлений и восстаний (2).

Переворот в миграционной политике США происходит, начиная с 1921 года, когда устанавливаются квоты для вновь въезжающих, определившие как численность лиц, допускаемых в страну ежегодно, так и количество лиц из каждой отдельной страны которые могли въехать в США. Последнее ограничение было поставлено в зависимость от количества уже проживающих в США выходцев из данной страны и было направлено на недопущение изменения национальной структуры населения США. В противном случае могла бы произойти дезорганизация как социальной системы, так и рынка труда. В результате применения системы квот в означенный период выходцы из стран Западной и Северной Европы составляли более 4/5 от общего числа приезжих, из Восточной и Южной Европы - до 1/6, а на долю всего остального мира приходилось только 2% от всего объёма. Система этнических квот была еще раз утверждена двумя актами от 1929 (National Origins Act) и 1952 года (Immigration and Nationality Act). Система квотирования стала основной миграционной политики США в последующие десятилетия, за пределами которой оставили лишь некоторые профессии, признанные необходимыми для стимулирования развития США (учителя, врачи, ученые и т.д.).

Либерализации и дальнейшему совершенствованию иммиграционной политики США способствовал принятый в 1965 году Закон об иммиграции и гражданстве (Immigration and Nationality Act, 1965). На его принятие оказывали влияние как объективные потребности развития экономики США, требовавшие постоянного притока рабочих рук, так и несоответствие дискриминационного законодательства США, фактически запрещавшего иммиграцию выходцев из стран Азии и Африки, новым принципам американской политико-правовой системы, осуждавшей всякие проявления избирательности по отношению к небелым. В этих условиях старое законодательство рассматривалось как пережиток прошлого, отождествлявшийся со временами расовых ограничений. Новая система определила общий объём ежегодной законной иммиграции в США в 290 тыс. человек, из которых 40% принадлежало странам Западного полушария, а остальные сохранялись для стран Восточного полушария причем на долю каждой из них не могло приходиться более 20 тыс. человек. В дальнейшем были отменены квоты для полушарий, а для каждой страны был введен порог лишь в 7% от общего числа выдаваемых виз. В результате среди иммигрантов резко возросла доля выходцев из стран Азии, Африки, Южной и Восточной Европы. Новый закон об иммиграции 1990 года не только устранил ограничения идеологического характера, но и увеличил число ежегодно допускаемых в страну иммигрантов до 700 тыс. человек.

Одновременно с увеличением числа легальных мигрантов росло и количество тех, кто хотел незаконным путем проникнуть в США. Для борьбы с незаконной имиграцией в 1986 году был принят Закон об иммиграционной реформе и контроле (Immigration Reform and Control Act of 1986) который провозгласил амнистию для нелегальных иммигрантов, а также разрешил ежегодно принимать на работу до 350 тыс. сезонных рабочих.

Еще одним законодательным актом, направленным на борьбу с нелегалами стал принятый в 1986 году Закон о борьбе с нелегальной имиграцией и ответственности иммигрантов (Illegal Immigration Reform and Immigrants Responsibility Act of 1996). К этому времени численность нелегалов в США оценивалась в 4 млн. человек. Закон предполагал ужесточение пограничного контроля, введение мер уголовной ответственности, для тех, кто занимался организацией нелегальной доставки людей в страну и изготовлением фаль-

шивых документов. Были усложнены условия, на которых предоставлялся статус беженца, введена ответственность для тех, кто превышал разрешенные сроки пребывания в США.

В начале XXI века в США неоднократно предпринимались попытки реформы законодательства, поскольку все более становилось очевидно, что существующая система излишне забюрократизирована, не способствует привлечению в страну тех, кто действительно готов и способен внести свой вклад в ее развитые, а с другой стороны делает весьма легким въезд тех, кто лишь только хочет воспользоваться лазейками в законодательстве. Реформа должна сделать миграционную систему более гибкой и способной дифференцировано отвечать на потребности рядовых американцев и всего общества в целом. Необходимость привлечения в США извне рабочей силы связана, в первую очередь, с такими процессами, как старение рабочий силы, ее невысокий рост, недостаток квалифицированных кадров в целом ряде быстроразвивающихся и перспективных отраслей производства. Предполагается, что миграция поможет решить эти проблемы, как это было всегда в истории США. Но политика США на данном этапе ничем не способствовала решению этой задачи. Американская миграционная система крайне консервативна и поэтому в борьбе за таланты США все больше уступают своим конкурентам (Австралия, страны Европы, Канады).

Необходимость реформирования всей системы органов по контролю и регулировано миграционных процессов требует, во-первых, модернизации системы контроля над въездом в страну и над пребывающими в нее мигрантами. Запрос на проведение комплексной реформы в данной сфере понимал и президент Обама, в начале своей второй предвыборной компании заявивший, что она должна нанести удар по недобросовестным предпринимателям, использующим труд нелегалов, а также открыть доступ на американский рынок труда для иностранных специалистов, которые призваны покрыть дефицит рабочей силы, от которого страдает экономика.

Одним из первых шагов, совершенных в этом направлении был указ о запрете депортации из США нелегалов, прибывших в США детьми (Deferred Action for Childhood Arrivals) в июне 2012 года, которым молодым людям давалось право на получение разрешения на работу, водительских прав, социального страхования и финансирования учебы. Однако Обама столкнулся с противодействием республиканской партии, обладавшей большинством в Конгрессе. Она отвергала возможность амнистии для нелегалов, одновременно указывая на необходимость укрепления пограничного контроля, призванного не допустить новых нелегалов в страну. Поэтому переизбрание Обамы на пост президента США было во многом обеспечено голосами иммигрантов, которым импонировала его значительно более либеральная позиция по этому вопросу, а не высказывания республиканцев в чисто охранительном духе. В 2013 году в Сенат был предложен проект иммиграционной реформы, названый «Акт о безопасности границ, экономических возможностях и модернизации иммиграционной системы» (Bodrer Security, Economic Opportunity and İmmigration Modernication Act), разработанный группой сенаторов, как демократов, так и республиканцев и поддержанный Белым Домом. 27 июня проект был одобрен Сенатом двумя третями голосов. Предлагалось не только предпринять меры, направленные на укрепление границ США с целью недопущения проникновение нелегалов, но и предоставление временного промежуточного статуса всем нелегалам, прибывшим в США не позднее 2011 года, а таких насчитывалось по оценкам более 11 млн. человек. Получившие такой статус могли в дальнейшем претендовать на получение разрешения на постоянное проживание и на гражданство США. В течение всего этого периода бывшие нелегалы не могли получить социальную помощь и могли находиться на территории США в случае наличия у них легального места работы. Одновременно предлагалось принять меры направленные на недопущение трудоустройства нелегалов путем введения единой электронной системы идентификации, а также изменить состав въезжающих в США на легальных основаниях, путем увеличения доли въезжающих по трудовым визам за счет снижения доли въезжающих по семейным визам и отмены визовой лотереи, что позволило бы поднять число самих работников до 1/5 от общего числа легальных иммигрантов, а вместе с членами их семей до 40%, что в три раза больше чем было изначально, предусматривалось как увеличение разрешений

на временное трудоустройство для высококвалифицированных специалистов, так и предоставление промежуточного статуса необходимого для получения green card для низкоквалифицированных работников, в частности сезонных сельскохозяйственных рабочих (5).

Эти меры должны были способствовать снижению нелегальной занятости и позволить более оперативно реагировать на изменения на рынке труда. Проект реформы получил смешанные оценки со стороны экспертов: с одной стороны указывалось, что она окажет благоприятное воздействие на рост экономики в будущем, а с другой – что она приведет к немедленному увеличению расходов бюджетов различных уровней. Но по этой и целому ряду других принципиальных причин в нижней палате Конгресса вокруг данного проекта реформ разгоралась ожесточенная борьба. Республиканцы, обладавшие большинством в нижней палате, выступили с собственным альтернативным проектом реформы под названием «Стандарты иммиграционной реформы». Главным ее отличием был отказ от комплексных мер в пользу одиночных законодательных актов, а также непредставление нелегальным иммигрантам возможности получения гражданства США даже в случае легализации их статуса. Этот проект получил поддержку на съезде республиканской партии, однако и составленные на его основе законопроекты не смогли пройти процедуру согласования в специальных группах Палаты представителей, состоявших из конгрессменов обеих партий.

Попытка президента Обамы решить проблему нелегалов принятием президентского указа, расширившего сроки и масштабы амнистии, завершилась тем, что он был приостановлен и отменен решением суда. Во время президентской кампании перед выборами 2016 года иммиграционная проблема стала одним из наиболее принципиальных моментов в программах как кандидатов-республиканцев, так и демократов. Если Хилари Клинтон выступила с заявлением о полной поддержке проекта комплексной реформы в данной сфере, то Джеб Буш, Майк Хакаби и М. Рубио выступили с критикой данной реформы, а именно ее положений о возможности представления гражданства нелегальным мигрантам. Крайнюю позицию среди республиканцев занял Дональд Трамп, пообещавший депортировать всех мигрантов, не исключая и малолетних.

Избрание на пост президента Дональда Трампа фактически поставило крест на попытках реформирования иммиграционной системы США – тем более он является яростным противником ее либерализации, а проповедуемые им цели являются недостижимыми, по вполне объективным причинам, о которых мы уже говорили.

Таким образом, миграционная политика США в своем развитии адекватно отвечала на основные вызовы, стоявшие перед американским обществом. Она создавала необходимые предпосылки для привлечения в США квалифицированной рабочей силы из тех стран, которые в культурном отношении были наиболее близки Соединенным Штатам. В настоящее же время эти страны уже не могут служить в качестве основных доноров-поставщиков рабочей силы из-за очевидного снижения темпов прироста численности населения в Европе. Однако запрос на привлечение рабочей силы из-за рубежа продолжает только увеличиваться. Постоянно увеличивающаяся социально-экономическая и политическая напряженность в странах Третьего мира способствует взрывному увеличению числа трудовых мигрантов и беженцев, которые устремляются в страны т.н. «Золотого миллиарда». Они зачастую не обладают даже минимально необходимым объемом знаний и навыков, а с другой стороны – их присутствие в странах Запада сопряжено с ростом преступности и возникновением конфликтов на культурной и религиозной почве между ними и местным населением. С другой стороны, различные политические силы в США зачастую рассматривают этот вопрос не с точки зрения поиска наиболее эффективных механизмов его решения, а в контексте краткосрочных интересов, того насколько приверженность тому или другому варианту решения будет способствовать росту или снижению их популярности в преддверии очередных выборов. Подобное положение дел способствует оттягиванию принятия важных принципиальных решений, замене их полумерами, поиску ненужных компромиссов, которые, в конечном счете, способствуют накоплению проблем, наслаиванию одних на другие, консервации ситуации, что чревато резкими и неконтролируемыми социальными взрывами. Таким образом, создавшаяся си-

туация требует проведения эффективной миграционной политики, с одной стороны осторожной, а с другой – последовательной.

**Ключевые слова:** *миграционная политика, незаконная миграция, квоты, реформа.*

## ЛИТЕРАТУРА

*1. Тен В.А.Иммиграционная политика США в XVII-XX вв. Краткий исторический очерк. М. 1998*

*2. Филиппов С. В. США: иммиграция и гражданство М.1973*

*3. Jimenez T. R. Replenished Ethnicity: Mexican Americans, Immigration, and Identity*

*4. Rodriguez N. P. Hagan J. US Polices to Restrict Immigration/D. L. Leal N. P. Rodríguez Migration in an era of restriction and recession: Sending and receiving nations in a changing global environment. Springer, 2016*

*5. Sumption M. Bergeron C. Remaking the U.S. Green Card System: Legal Immigration under the Border Security, Economic Opportunity, and Immigration Modernization Act of 2013: Цит. по: http://www.migrationpolicy.org/pubs/CIRbrief-LegalFlows.pdf*

## XÜLASƏ

Məqalədə XIX əsrin sonlarından başlayaraq günümüzə kimi ABŞ-da miqrasıya siyasətinin formalaşma tarixi nəzərdən keçirilir. Müxtəlif inkişaf mərhələlərində onun xüsusiyyətləri açıqlanır, müasir durumu təhlil olunur, problemlər və onların həlli formaları göstərilir.

**Açar sözlər.** *Miqrasiya siyasəti, qanunsuz miqrasiya, kvota, islahat.*

## SUMMARY

The article examines the history of the formation of the US migration policy from the end of the 19th century to the present day. Its characteristics are given at various stages of development, the current state, the main problems and approaches to their solution are revealed.

**Key words:** *Migration policy, illegal migration, quotas, reform.*

UOT 32

# SOYQIRIM + GENOSİD CİNAYƏTİNƏ BEYNƏLXALQ SİYASİ - HÜQUQİ BAXIŞ

**RƏNA MİRZƏZADƏ**
*AMEA, FSİ, "Siyasətin fəlsəfəsi və sosiologiyası" şöbəsinin müdiri, Fəlsəfə elmləri doktoru, professor*

*E-mail: gunay_cabarova@mail.ru*

Soyqırım… Terrorlar… - günümüzün ən aktual problemləridir. Terror və Soyqırımı – bu, düşünülmüş kütləvi insan Qətlidir. Soyqırımlar… Holokosta-yəhudilərin soyqırımı insanlığa qarşı edilmiş ən böyük cinayətdir! Xocalı genosidi XX əsrin sonu insanlığa qarşı ən vəhşi terrordur. 2001-ci il 11 sentyabr ABŞ-da baş verən hadisə insan qətliamı deyilmi…? Bəs, Bakıda 19 mart 1994-cü ildə metronun partladılması nədir…? Adi "xəbər" mətnli insan qətliamımı…?

**18 yanvar 2018-ci ildə Prezident İlham Əliyev "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzalayıb.** Sərəncamda da qeyd olunur ki: "1998-ci il 26 martda Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib". (AzərTac, 18.01.2018). Bu fərman və sərəncam öz milli tarixinə qiymət vermək, ona sahib durmaq fəlsəfəsidir.

Bəşər tarixi zaman-zaman **Soyqırımı Siyasəti** kimi bir həqiqətin reallığına şahid olub və olur. **Soyqırımı** hadisələri bəşəri cinayətlər kateqoriyasına aid olan proseslərdir.

**Soyqırımı-Genosid** terminləri, bəs, mənaca nəyi ehtiva edir? **Genosid** sözü ilk dəfə İkinci Dünya müharibəsi ərəfəsində yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin tərəfindən işlənib. R. Lemkin faşistlər tərəfindən **Avropa yəhudilərinin kütləvi məhv etmə** siyasətini məhz **genosid** adlandırmışdı. Ona görə genosid - **"əhalinin qəsdən məhv edilməsi cəhdidir"**. **"Genosid"** termini beynəlxalq hüquqda **"qəsdən və sistemli şəkildə dövlətin milli, irqi, dini, siyasi və etnik qrupu tam və hissəvi şəkildə məhv etməsi"** kimi işlədilməyə başladı. R.Lemkin bu anlayışı elmə tətbiq etməklə, Soyqırımın, müəyyən insan qruplarının mövcudluğuna, onun vacib əsaslarının məhvinə doğru yönəlmiş və çox müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunmuş, əlaqəli, bəlkə də, planlaşdırılmış sürətdə həyata keçirilməsini nəzərdə tuturdu (Bax: Soyqırımı cinayəti. Beynəlxalq aktlar, normativ sənədlər, müraciət və şərhlər toplusu, Bakı – 2010, səh.3).

1945-ci ildə Nürnberq Beynəlxalq Hərbi Tribunalı məhz II Dünya müharibəsinin cinayətlərini, vəhşicəsinə insanlığın məhvinə yönəlmiş belə hadisələri "faşist liderlərinin bəşəriyyət əleyhinə cinayətləri" ittihamı ilə cəzalandırdı. Qeyd edək ki, Nürnberq tribunalının bu ittiham aktında "soyqırımı" termini **de yure**, yəni hüquqi anlamda deyil, proses və hadisələri təsvir edən anlamda verilmişdir. Nəzərə yetirək ki, 1948-ci il 9 dekabrda BMT tərəfindən "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya (SCQACK) qəbul edildi. Bu Konvensiya 1951 – ci il 12 yanvarda, 20 ölkə Konvensiyaya üzv olduqdan sonra beynəlxalq hüquqi qüvvə aldı. Buna baxmayaraq, həmin dövrdə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən yalnız 2-si razılaşmaya tərəfdar olduğundan, dörd onillik ərzində Konvensiya zəif işlək gücdə olaraq qalmışdır. Bu Konvensiya keçmiş SSRİ tərəfindən 1954-cü ildə, Birləşmiş Krallıq tərəfindən 1970-ci ildə, Çin Xalq Respublikası tərəfindən 1983-cü ildə, ABŞ tərəfindən isə 1988-ci ildə ratifikasiya olunmuşdur. Buna görə də bu beynəlxalq hüquqi akt yalnız 1990-cı illərdə artıq işə düşmüşdür. Beləliklə, bəşər tarixində **ilk dəfə** beynəlxalq hüquqda **insan qruplarının milli, etnik, irqi, dini fərqlərinə görə kütləvi məhvinə yönələn cinayətlər soyqırımlar kimi qəbul edildi.** Bu Konvensiyanı qəbul edən, ona qoşulan ölkələrin üzərinə bu kimi cinayətlərin qarşısının alınması və belə cinayətləri törədənlərin cəzalandırılması öhdəliyi bir vəzifə kimi qoyulurdu. 1946-cı ildə BMT Baş Assambleyası **genosidin** mütləq cəzalandırılmalı olmasını elan edib. Həmin bəyannamədə göstərilir ki, **genosid** istər sülh, istərsə də müharibə şəraitində **bir fərdin, qrupun və ya dövlətin öz əhalisinə və ya digər dövlətin əhalisinə qarşı beynəlxalq tribunalda mühakimə olunmalıdır.** **Soyqırımı**-etnik, irqi, dini və ya

milli qrupun düşünülmüş və sistemli olaraq tam və ya qismən məhv edilməsidir. **Soyqırımı** – milli mənsubiyyətinə görə dinc əhalinin məqsədli şəkildə kütləvi qətliamıdır. Bu haqda "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın preambulasında qeyd edilib ki, **"soyqırım"** yalnız beynəlxalq hüquq üzrə, BMT-nin mahiyyətinə və məqsədlərinə zidd, sivil dünya tərəfindən cinayət hesab olunan cinayət hesab edilmir, həmçinin **"bütün tarixi dövrlərdə soyqırımı bəşəriyyətin amansız böyük itkisi"** hesab edilir. Beynəlxalq hüquq normalarında soyqırımı törədən şəxslərin (fərdlərin) cinayəti mühakimə olunmalı və cəzalandırılmalıdır. Beynəlxalq hüquq **"soyqırımı cinayəti"** terminini müəyyənləşdirməklə, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də açıqlayır. "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 5-ci maddəsinə əsasən "iştirakçı dövlətlər soyqırım cinayətini törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbir görməlidir". Konvensiyanın 6-cı maddəsinə görə "həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayanda, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir" (bax: www.wikipediya.soyqırım.az).

Beynəlxalq Cinayət Məhkəməsi (BCM) isə yalnız 1 iyul 2002-ci ildə və ondan sonra törədilmiş cinayətləri mühakimə edə bilər.

Bəs, elmi sözlük, lüğət və ya ensiklopediyalarda bu anlayış necə verilir? Belə ki, **"soyqırım, sözü" – soyqırımı cinayəti, genosid cinayəti, gizli bir planın icrası** sürətilə **milli, etnik, irqi və ya dini bir qrupun tamamilə və ya qismən yox edilməsi** məqsədilə bu qrup üzvlərinin öldürülməsi, fiziki və ya digər ruhi ağır zərərə məruz qalması, qrupun tamamilə və ya qismən yox edilməsi nəticəsində ortaya çıxacaq şərtlərdə yaşamağa məcbur edilməsinin həyata keçirilməsidir (Türkce –azerice hüquq lüğəti, Türkiyə 2013, s. 447).

**"Soyqırımı" – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növüdür.** Belə ki, soyqırımının mənası **Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin103-cü maddəsində** nəzərdə tutulmuşdur ki: "hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərinin öldürülmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmədə ifadə olunur." (A.Quliyev "Hüquq ensiklopediyası" B, 2007, s.944).

Bəs, **genosid** nədir? **Genosid**-(yunanca Genos-qəbiləni, nəsli, tayfanı; lat. Cadere- məhv etmək, öldürmək) – **ayrı-ayrı əhali qruplarının irqi, milli, yaxud dini motivə görə əhalinin ayrı-ayrı qruplarının kütləvi surətdə məhv edilməsidir** (http://www.google.az/search?redir_esc və ya azerdict.com).

**Genosid cinayətləri** faşizmi, irqi və milli ədavəti, ali irqlərin "aşağı" irqlər üzərində hökmranlığını və s. təbliğ edən mürtəce "nəzəriyyələrə" əsaslanır. Burada sual yaranır: **Hansı halda kütləvi insan qətllərinə qırğın, hüquqi dildə insanlıq əleyhinə cinayət deyilir, hansı halda genosid?** Həyatda adi insanlar üçün mühüm əhəmiyyəti olmasa da, bu yanaşma beynəlxalq hüquqda vacib əhəmiyyət kəsb edir. Belə ki, London Universitetinin professoru Philippe Sandsa görə, **"insanlıq əleyhinə cinayət və genosid"** konseptləri arasındakı adi fərqlər belədir:

a) insanlıq əleyhinə cinayət deyəndə, fərdlərin kütləvi sayda qətli, məhvi nəzərdə tutulur. **Sistematik, davamlı kütləvi qətllər varsa, bu insanlıq əleyhinə cinayətdir**.

b) **Genosidə** yanaşma isə bir qədər fərqlidir. Belə ki, **genosid** məsələsində insanların kütləvi qətli nəzərdə tutulmur, çünki həm də bütöv qrupların məhvi nəzərdə tutulur. Başqa sözlə, **məhz hər hansı bir qrupa aid olduğu üçün öldürülən çoxlu sayda insanın qətli genosiddir.**

Bu baxımdan, bu iki yanaşmanın da fərqli tərəfləri vardır. **Birinin** məqsədi fərdləri qorumaqdır, **digərinki** isə qrupları.

Bu mənada yenə sual yaranır ki, **bütün kütləvi qırğınlara** genosid demək olarmı? Yenə P. Sandsa müraciət edək. P.Sands yazır ki, "**Genosid** termininin tərəfdarları iddia edir ki, insanları sadəcə fərd olduğu üçün qrup halda məhv etmirlər. **Onları sırf hansısa dini, irqi və ya milli qrupa aid olduqlarına görə qırırlar.** İnsanlıq əleyhinə cinayət termininin tərəfdarları isə inanırlar ki, insanları sırf hansısa qrupa aid olduqlarına görə yox, bir fərd kimi qəbul edib-qorumaq lazımdır. Təbii ki, yalnız bu yolla kütləvi qırğınların qarşısını almaq olar. (http://www.azadlıq.orq/content/article/2493331/

ontmr) P.Sandsın da açıqlamasından görünür ki, bu iki anlayışın, yəni **soyqırımı və genosidin** sanki bir-birinə qarşı olmasına baxmayaraq, 1998-ci ildə Romada Beynəlxalq Cinayətlər Məhkəməsini quranda **ağır cinayətlər arasında genosidi də, insanlıq əleyhinə cinayəti də saldılar.** Çünki bu cinayətlərə görə **məsuliyyət bölgüsündə** də fərqlər vardır.

Bəs, bu **məsuliyyət fərqi nədir**? Təbii ki, insanlıq əleyhinə cinayət deyəndə, bu cinayəti törədən və törətməyə əmr verən ayrı-ayrı fərdlər məhkəməyə çıxarılır. Genosid ittihamı isə fərqlidir. **Genosiddə** fərdlər deyil, bir qrupun digər qrupu məhv etməsi, yox etməsindən bəhs olunur. Burada məhz qurban olan qrup sübut etməlidir ki, **genosid** törədən, ittiham olunan şəxslər bu prosesi sırf öz istəkləri ilə həyata keçirməyiblər. Bu, bir qrupun siyasəti olub. Məhz bu səbəbdən də qərar verəndə tarix də, münaqişəni və ya cinayəti yaradan səbəblər, onun keçmiş tarixi-siyasi faktorları da diqqətlə araşdırılmalıdır. Çünki, P.Sands qeyd etdiyi kimi: **"genosid kimi ittihamlar yanlış anlamlara və qruplararası ədavət kimi fəsadların yaranmasına səbəb ola bilər** ("Phillipe Sands CV. Matrix champers.18 november 2009// http:// en.m.wikipedia/orq/wiki/phillipe-sands).

Məlumdur ki, II Dünya müharibəsi illərində hitlerçilər işğal etdikləri ölkələrdə əhaliyə qarşı kütləvi miqyasda **genosid cinayətləri** törətmişlər. Genosidin cəzalandırılması nüfuzlu beynəlxalq hərbi tribunalların (Nürnberq və Tokio proseslərinin) nizamnaməsində, habelə "Genosid cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" Beynəlxalq Konvensiyada müəyyən edilsə də, BMT 1965-ci ildə **"İrqi seçkiliyin (aparteidin) bütün formalarının ləğvi haqqında" Konvensiyanı** da qəbul etmişdir (A.Quliyev. Hüquq ensiklopediyası. B, 2007, s. 425).

Bu nöqteyi-nəzərdən də hər hansı tarixi mərhələdə olan hadisələrin **soyqırımı**, hansıların isə daha az kriminal və ya qeyri-insani əməl olduğunu, **genosid** olmasını müəyyən etmək mürəkkəb prosesdir. **Soyqırımı ittihamlarının**, **genosid məsələsinin** cərəyan etdiyi hər bir hadisədə müxtəlif tərəflərin mövqelərini məhz faktların çox müxtəlif cəhətlərini təşviq edərək nəzərə alırlar. Hadisənin şərhləri, təfərrüatları müzakirə edilərək qərar çıxarılır. Sözsüz ki, **soyqırımı ittihamı** tam aydın olmur və demək olar ki, **həmişə fikirlərdə ziddiyyətlər olur**, mülahizə və qənaətlərdə dolaşıqlıq yaranır, yanaşmalar çarpazlaşır. Beləliklə də, uzun illər **"soyqırımı"** və **"genosid"** termininə yanaşmada hadisələrə qiymət verilməsi çözülmür.

Cinayətlər içində ümumi hökmlər var ki, onlara da kütləvi qətllər və insan alveri də daxildir. **Soyqırımı** da beynəlxalq cinayətlər silsiləsindən olub, ən çox **müharibə**, **immiqrant qaçaqçılığı** və **terrorizm** kontekstində ehtiva olunur.

**Soyqırımı** sözünə bir termin kimi tərif verilməsi və ya izahı, qeyd etdik ki, müxtəlif sözlük və lüğətlərdə, demək olar ki, təxmini eyni məzmunu ifadə edir. Bəs tədqiqatçılar bu haqda nə yazır? **M.Hassan Kakar** çoxsaylı təcrübi araşdırmalarından sonra "Sovet müdaxiləsi və Əfqan cavabı: 1979-1982" kitabında göstərir ki: "soyqırımın" beynəlxalq tərifi çox məhdud verilmişdir. Çünki bu anlayışa **"mütləq siyasi və ya soyqırımı törədənlər tərəfindən müəyyən olunan hər hansı bir qrup"** ifadəsi də əlavə edilməlidir. M.H.Kakar məhz bu yerdə Frenk Çok və Kurt Conassondan nümunə verərək yazır: **"Soyqırımı - soyqırımı törədənin müəyyənləşdirdiyi bir qrupun dövlət və ya başqa hakimiyyətin məhv etməyə çalışdığı birtərəfli kütləvi qırğının bir formasıdır**". Beynəlxalq hüququn soyqırımına verdiyi hal-hazırkı təriflə qane olmayan bəzi tədqiqatçılar da qeyd edirlər ki, bu tərifə o dövrdə məhz keçmiş SSRİ rəhbəri olmuş Stalinin qismən təsiri olub, buna görə də orada **"siyasi qruplar"** sözü nəzərdə tutulmayıbdır (M.Hassan Kakar Afyhanistan. The Soviet İnvasion and the Afghan Response, 1979-1982. Berkeley: University of California Press. 1995).

Digər bir tədqiqatçı, Havay Universitetinin (ABŞ) professoru **R.C.Rammel "soyqırımı" termininin** iki müxtəlif aspektdə məna şərhini göstərir. Birincisi, **ənənəvi məna,** yəni hakimiyyət tərəfindən insanların milli, etnik, irqi və ya dini mənsubiyyətinə görə qətli, məhv edilməsidir. İkinci, **leqal məna,** beynəlxalq razılıqla Konvensiyada (SCQACK) ifadə edilən termindir. Belə ki, bura həm də **gender stratifikasiyası** baxımından **gendersidi -** doğumların qarşısının alınması, yəni, abortlar, uşaqların zorla bir qrupdan digərinə köçürülməsi kimi öldürməklə əlaqəli olmayan hərəkətlər də aiddir. Bu isə məhz qrupun məhvinə yönələn hərəkətdir. Əsas şərh, **ənənəvi məna** izahıdır. Bundan əlavə, bura **siyasi tənqidçilərin də hakimiyyət tərəfindən öldürülməsi** və digər **beynəlxalq səviyyəli qətllər** də daxildir. Bu qarışıqlığı ayırmaq üçün R.Rammel

üçüncü bir izah üçün **“demosid” (“democide”)** terminini istifadə etmişdir. **Demosid** – yunan mənşəli olub, “xalq” və “öldürmə” sözlərindən ibarətdir. Bu anlayışı R. Rammel belə izah edir: “Demosid” “ölkədəki bir iqtidarın qərarları nəticəsində reallaşan **(genosid, soyqırım)**, **politisid** (siyasi qırğın) və kütləvi qiyamlara daxil olan hər cür ölümdür. **Soyqırımı** anlamının hüquqi tərifi içində “**müxtəlif ölümlər** də” yer alır. Digər tərəfdən, dövlətlərin döyüşlərdə öldürdükləri, mühakimə etmədən edam etdikləri insanlar və ya əsgərlərin bir hərbi hədəfə qarşı edilən silahlı hücumu ilə reallaşan hər cür qeyri-ölümləri demosid sayılmaz. R. Rammel hökumətlərin yol açdığı ölümlərlə bağlı 8000 hesabatı tədqiq etmişdir. O, XX əsrdə **demosidlə bağlı 262 milyon ölümün** reallaşdığını hesablamışdır (http://liberteryen.orq/2010/12/demosid).

**Politisid** – bu, əsasən özündə **siyasi qırğınları** ehtiva edir.

Bu terminlə paralellikdə **etnik təmizlik - bir etnik qrupa mənsub insanların zorla yerindən edilməsini** məqsəd qoyan, dəyişik siyasəti ifadə edir. Ümumiyyətlə, **zorla köçürülmə,** müəyyən bir əhalinin yerini dəyişdirmə kimi tətbiqlərin nəticəsində ortaya çıxır. Bu termin yəni **politisid** də **etnosid** və **genosid** ilə yaxından əlaqəlidir. (http://tr.m.wikipedia.orq/wiki/Etnik-temizlik) Bir sözlə, **etnosid** - cəmiyyətdə etnik monolitliyi, müxtəlif etnik köklərə malik insanların bir-birindən fərqlənmədiyini iddia edən fikrin cəmiyyətə təlqin və tətbiq edilməsindən ibarət şüurlu siyasətdir.

Digər bir tədqiqatçı **Adam Cons** “Soyqırım: Ətraflı giriş” kitabında yazır ki: “Tarix boyu insanların başqa qrupları yad kimi görmə qabiliyyətləri olub”. **A. Cons** fikrinə davam edərək, F. Cok və K. Conassondan sitat gətirir: “Tarixi və **antropoloji** insanların özləri üçün həmişə **bir adları** olub. Əksər hallarda **bu ad “xalq”** olub və hər hansı yolla özlərindən daha keyfiyyətsiz hesab etdikləri başqa adamlara qarşı bu ad üzərində sahibliklərini yaradıblar. “Xalq” və bəzi başqa cəmiyyətlər arasındakı **fərqlər din, dil**, **metod, adətlər** və s. ilə bağlı xüsusilə böyük olduğundan digərləri adi insana nisbətdə daha az qiymətləndirilib – kafirlər, barbarlar və ya hətta heyvanlar.” [F.Çok və K.Conasson, “Soyqırımın tarixi və sosiologiyası”,1990, s. 28) (http://m.vk.com/wall-43561927_310)]

A.Cons fikrini belə ifadə edir: **“Çox az xalq başqa bir qrupla daha rahat yaşaya bilir**, çünki yadlar insandan daha aşağı qiymətləndirilir. Buradan isə qısa bir arqument əldə edilir ki, bizim yaşaya bilməmiz üçün **onlar və ya biz məhv edilməliyik**. Bu qiymətləndirmədən sonra A.Cons belə davam edir: “Frenk Çok və Kurt Conassonun erkən araşdırmalarında qeyd edildiyi kimi, çətinlik ondadır ki, belə tarixi qeydlərin mövcudluğu ikibaşlı və qeyri-mötəbərdir. Belə ki, bu gün tarix bəzi “sadiq”, “obyektiv” faktlarla, onu yazanın öz rəhbərini tərifləmək məqsədinə xidmət edən hesablamalarına və öz **fikirlərinin** daha ali olmasını əsaslandırmaqla yazılır”(Yenə orada. səh. 29).

Təhlillərdə bir anlam da var: **gendersidi.** Bəs, **gendersidi** nədir? **Soyqırımı (genosid)** və **cinslərin öldürüldüyü hal gendersidi** fərqidir. Uşaqlar (xüsusilə qızlar) və qadınların Fukididin “Melian dialoqu”nda məhz göstərdiyi faktlar **gendersidi** məsələsini ehtiva edir.

Digər bir tədqiqatçı **Devid Stannard** özünün “Amerika holokostu” əsərində göstərir ki, “Amerikanın yerli əhalisinə qəsdən **etnosid kimi** - yəni bilərəkdən **xəstəliklərin bioloji silah olaraq** tətbiq olunmasıdır”. Bu ittiham ilk dəfə **Ceffi Amhorstün** başçılıq etdiyi Britaniya qüvvələrinə qarşı irəli sürülüb. Hər bir halda onun komandanlığı ilə **bakterioloji hərbin** tətbiqinə aid cəmi bir sənəd var. **D.Stannard yazır**: “Amerikanın yerli əhalisinə məhvi, avropalılar və onların varisləri tərəfindən “soyqırım zəncirində” dünya tarixinin ən kütləvi soyqırım aktıdır” (http://az.M.wikipedia.orq/wiki/soyq%c4%).

Bəs, **etnosid** nədir? Avropa dillərində **etnoside** və ya **cultureside**, ya da **cultural genocide** deyilən və Azərbaycan dilində **soyqırımı** adlandırıla bilən bu anlayış bir xalqın **milli varlığını, milli kimliyini, onu başqalarından ayıran milli və maddi-mənəvi kultural** dəyərlərini zorakı əritmə siyasəti ilə yox etməyə yönəlik **dövlət siyasətini** bildirir. Dünyadakı **soyqırım (etnosid)** faktları içərisində azərbaycanlıların adı göstərilməsə də, bir gerçəklikdir ki, bütün dünya üzrə soyqırımının ən klassik örnəklərdən biri **panfaşizm şovinizminin azərbaycanlılara qarşı zorakı əritmə siyasətidir**.

Bəs **“Holokost”** termini nə vaxt meydana çıxdı? Bu ifadə II Dünya müharibəsində Hitlerin başçılığı ilə Almaniyanın Milli Sosialist Alman Fəhlə Partiyası tərəfindən planlaşdırılan və həyata keçirilən **məhv proqramının** bir hissəsi kimi, təxminən 6 milyon Avropa yəhudisinin öldürülməsini ifadə etmək üçün

istifadə olunur. Alimlərin əksəriyyəti **Holokost anlayışına** başqa qrupları daxil etmir, bu termini **yalnız yəhudilərin soyqırımı** üçün saxlayırlar. Faşistlər bunu **"Yəhudi Məsələsinin Son Həlli"** adlandırırlar. Dünyada baş verən soyqırımı aktlarından amerikalıların hindulara, ermənilərin türklərə və azərbaycanlılara, almanların yəhudilərə, fransızların əlçazairlilərə qarşı təcavüzünü göstərmək olar. Nəzərə yetirək ki, Yel Universitetindən **Ben Kiernan** III Pun müharibəsinin sonunda Karfagenin dağılmasını **"ilk soyqırımı"** kimi qələmə verir. (http: // okamil.wordpress. Com/2012/07/05/)

Məskunlaşdığı ərazini özününküləşdirən, bir xalq kimi özləri də qondarma, özü yalan millət olan ermənilər saxta və uydurma "erməni soyqırımı"nı qeyd edirlər. Həqiqətdə isə, mahiyyət və xarakterinə görə o dövrdəki hadisələrə hüquqi, siyasi və tarixi mənəvi kontekstdən yanaşsaq, bu əsassız, yalan ifadə olan "erməni soyqırımı" sözünün özü **saxta** və **qondarmadır**. **Bu "erməni soyqırımı" sözü real həqiqətdən uzaq, boş və uydurma bir cəfəngiyyat üzərində yalan yazılan bir tarixi saxtalaşdırmadır.**

Digər bir fakta nəzər salaq: Bəs, 1918-ci il 31 mart hadisələrinin əsl həqiqəti nədir? Bu erməni – daşnak birləşməsinin qanunsuz siyasəti, yəni **müasir hüquqi sənədlər və qanunvericilik aktlarına əsasən dövlət ərazisində məskunlaşan bir qrup əhalinin onun konstitusiya quruluşuna qarşı etdiyi qiyamdır.**

Diqqətə çatdıraq ki, erməni-daşnak qüvvələri 1918-ci ildə Azərbaycanda tək azərbaycanlılara yox, bütövlükdə insanlığa qarşı dəhşətli, vəhşicəsinə cinayətlər törədiblər. 1918-ci ilin mart ayından etibarən erməni millətçiləri tərəfindən dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilib, insanlar diri-diri yandırılıb, nadir tarixi abidələr, xəstəxanalar, məktəblər, məscidlər dağıdılıb.

Nəzərə yetirək ki, hər il **Ulu Öndər Heydər Əliyevin** 26 mart 1998-ci il tarixli Fərmanı ilə **31 mart Azərbaycanlıların Soyqırımı Günü** kimi qeyd olunur.

Bəs **Xocalı faciəsi nədir**? **Xocalı soyqırımıdır**! **XOCALI kütləvi insan qətliamıdır**! Bu, Beynəlxalq cinayət kateqoriyasına aid olan soyqırımıdır.

Azərbaycanlılar zaman-zaman qonşu erməni daşnakları və onların havadarlarının köməyi nəticəsində təcavüzə - kütləvi insan tələfatına məruz qalmışlar. Prezident İlham Əliyevin məntiqi ilə desək: "XX əsrin sonunda bütün dünyanın gözü qarşısında törədilmiş, qəddarlığı və amansızlığı ilə fərqlənən **Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifəsi olmuşdur**. Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyəli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir" (http://az.prezidenti.az/articles/4388).

**Soyqırımı və genosid** anlayışlarına siyasi-hüquqi kontekstdə nəzər yetirdik. Bəli, bütün terminlər, o terminlərdən doğan digər anlamlar da, hüquqi mətndə aşkar edir ki, istər **soyqırımlar**, istər **genosid** faktı insanlığa qarşı törədilən **Terror Aktıdır!**

UOT 327;930.22

# İDLİB - SURİYA SƏHNƏSİNDƏ SON DÜYÜN

**SƏRXAN HÜSEYNLİ**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: serxan_service@yahoo.com*

Suriya konflikti çox mürəkkəb xarakterə malikdir. Belə ki, burada Suriyanın gələcəyi ilə bağlı tamamilə fərqli baxış bucaqlarına malik bir çox tərəf var. 2011-ci ildə alovlanan bu münaqişə Suriya rejimi və müxalifət gücləri arasında vətəndaş müharibəsinə çevrilmişdir. Bu münaqişə eyni zamanda məzhəb münaqişəsinə də çevrilmiş, şiə və ələvilərin sünni və kürd qruplar ilə savaşını yaratmışdır. Eləcə də, bu münaqişə böyük güclərin Suriyada vəkalət savaşları aparmasına gətirib çıxarmışdır. Bir tərəfdə Suriya rejimini dəstəkləyən Rusiya və İran digər tərəfdə isə Suriya müxalifətinə dəstək verən ABŞ,Türkiyə və müttəfiqləri mübarizə aparmışlar. Bununla birlikdə,Səudiyyə Ərəbistanı, İsrail, İraq, İordaniya, Livan və Körfəz ölkələri də münaqişədə bu və ya digər şəkildə iştirak etmişdirlər. Münaqişə sona yaxınlaşdıqca bəzi mürəkkəb məsələlərin həllini ertələmək mümkünsüz hala gəlmişdir. Hər bir maraqlı tərəf müxtəlif prioritetə malik olduğundan bu mübahisəli məsələlərin həlli daha da ağırlaşmışdır. Suriya rejimi bütün ərazi üzərində öz suverenliyini bərpa etməyə öncəlik verdiyi halda, İran və Rusiya daha çox buradakı cihadçı elementlərin məhvini vacib saymışdır. Münaqişənin ilk mərhələsində rejimin devrilməsini əsas məqsəd sayan Türkiyə isə bu hədəfindən geri çəkilmiş və əsas hədəfinin artıq bölgədə kürd muxtariyyətinin yaranmasını əngəlləmək və böyük köç dalğasının qarşısını almaq olduğunu bəyan etmişdir.

2011-ci ildə alovlanan münaqişə bugünədək həll edilməmiş qalır. 2015-ci ildə Suriya müxalifəti rejimə qarşı xeyli üstünlük əldə etmiş,lakin İran və Rusiyanın rejimə ciddi dəstəyi sonrasında müxalifət məğlub olmuşdur.Suriya rejiminin şiəliyə yaxın olan ələvilərdən təşkil edilməsi eləcə də regional məsələlərə rejim idarəçiləri və İran tərəfinin oxşar baxışlarının olması İranın rejimi dəstəkləməkdə heç bir güzəştə getməyəcəyini göstərir.Rusiya üçün isə Suriya həm Yaxın Şərq regionunda həm də Aralıq dənizi hövzəsindəki maraqları üçün qala rolunu oynamaqdadır.Odur ki,2015-ci ildə rejimə qarşı uğurlar qazanan silahlı müxalifət öz qarşısında İranın "milis gücləri"ni və Rusiyanın hərbi qüvvələrini görmüşdür. Beləliklə,Rusiya,İran və Əsəd rejimi Bəşər Əsəd rəhbərliyində yeni Suriyanı təsis etmək naminə hərbi müxalifətə qarşı ciddi əməliyyatlar aparmışdırlar.

Suriya hökumətinin dəvəti ilə əraziyə qoşun yeritmiş olan Rusiya buradakı varlığının legitimliyini əsaslandırmaq üçün istər Suriya daxilində, istərsə də beynəlxalq arenada diplomatik aktivlik nümayiş etdirmiş və rus qüvvələrinin uzun müddət Suriyada qalması üçün siyasi zəmin hazırlamışdır [1]. Rusiyanın bu diplomatik aktivliyi xüsusən də onun təşkilatçılığı ilə həyata keçirilmiş Astana prosesi ilə özünü göstərmişdir ki bu görüşlərdə Suriya münaqişəsinin həlli üçün Rusiya, İran və Türkiyə formatı əsas alınmış və BMT-dən müstəqil olaraq bu proses fəaliyyət göstərmişdir [2]. Astana prossesi həmçinin Rusiyaya özünü qlobal güc kimi təqdim etməyə şərait yaratmış və Rusiya bu münaqişənin həlli proseslərindən Qərb dünyasını uzaqlaşdırmağa çalışmışdır [3].

İdlib əyaləti Suriyanın şimal-qərbində yerləşən və Əsəd rejiminin Suriyadakı suverenliyi təmin edə bilməsi yolunda son əngəl olub, rejim müxaliflərinin sığındığı qalaya çevrilmişdir. Bu əyalət minlərlə müxalif dəstələrin yerləşdiyi yeganə Suriya əyalətidir. Əsəd və onu dəstəkləyən xarici güclər bu şəhəri də ələ keçirmək üçün xeyli cəhd etmiş, şəhəri tuta bilməsələr də əyalətin bir qisminə yiyələnə bilmişdir. Suriyanın faktiki olaraq parçalanmış olması nəticəsində ölkənin böyük bir qisminə Rusiya və İranın dəstəklədiyi Suriya rejimi nəzarəti bərpa etmiş olsa da, digər ərazilər ABŞ-ın, Türkiyənin və yerli kürd qruplaşmalarının nəzarətindədir. Bütün bu nüfuz dairələrindən kənarda qalmış İdlib şəhəri xarici maraqlı qüvvələrin mübarizə meydanına çevrilmişdir. Bu əyalətin üsyançıların nəzarətində olması və Rusiyanın hərbi bazaları yerləşən Latakiya şəhərinə yaxınlıqda yerləşməsi rus hərbi qüvvələri üçün təhdid yaratmaqdadır [4].

Bu müxalif qüvvələr həm də iki ən böyük Suriya şəhəri olan Dəməşq və Hələbi birləşdirən M5 magistral yolunu da nəzarətdə saxlayırdılar. İdlibdə Türkiyənin dəstək verdiyi Azad Suriya Ordusu və digər müxalif hərbi qüvvələrin olmasına baxmayaraq orada əsas güc Əl-Qaidənin törəmə təşkilatı olan Heyət Təhrir əl Şamdır [5]. Bütövlükdə İdlib əyalətində 3-4 milyon mülki şəxs və məcburi köçkünlər yaşamaqdadır [6].

Rusiya Suriyadakı hərbi əməliyyatları ilə və diplomatik fəaliyyətləri ilə öz mövqeyini, xüsusən də Türkiyə qarşısında möhkəmlətməyə çalışmışdır. Buna

səbəb hər iki ölkənin Suriyanın münaqişədən sonrakı quruluşu haqqında yanaşmalarının, eləcə də buradakı prioritetlərinin bir-birindən köklü şəkildə fərqlənməsidir [7]. Rusiya NATO üzvü olan Türkiyəni ABŞ-ın Suriyadakı maraqlarını yerinə yetirən bir aktor olaraq görür. Rusiya Suriyanın şərqindəki Deyr-əz Zor şəhərindən qərbdəki Latakiyaya qədər uzana biləcək ABŞ və Türkiyənin təsir zonalarının formalaşa biləcəyindən ehtiyatlanaraq ikitərəfli qabaqlayıcı addımlar atır [8].

İlk öncə Türkiyənin İdlibdəki fəaliyyətlərini məhdudlaşdırmağa çalışan Rusiya, eyni zamanda şərqi Suriyada ABŞ əleyhinə Türkiyə ilə birgə işləməyə çalışır. Zaman-zaman Bəşər Əsəd qüvvələrinin regionda apardığı hərbi əməliyyatlar İdlibdə gərginliyi xeyli artırmışdır. Xüsusən də rejim qüvvələri danışıqlarda mövqelərini möhkəmlədə bilmək üçün ərazidə də bir de fakto vəziyyət yaratmağa, yəni İdlibi işğal edərək müxalifləri təslimçi sülhə məcbur etməyə çalışır. Müxaliflərdən heç bir ciddi müqavimət görməyən rejim orduları 21 qəsəbə və bir çox kəndləri tutaraq irəliləmişdir. Mülki şəxslər də rejim qüvvələri və onları dəstəkləyən rus hərbçilərinin atəşinə məruz qalmışlar. Nəticədə 150.000 suriyalı zorakılıqdan qaçaraq Türkiyə sərhədlərinə doğru yol almağa başlamışdır. Türkiyə bunun üçün Əsəd rejimini günahlandırmış və onu Astana və Soçi proseslərini sabotaj etməkdə təqsirləndirmişdir.

Əsəd rejimi ərazidə əsas aktor olmadığından onun dəstəkləyicilərinin rolunu nəzərə almaq lazımdır.Bu mənada rejimin əsas dəstəkçisi Rusiyadır və o rejimin bütün hərbi əməliyyatlarını təşkil edir ona hava qüvvələri ilə də dəstək olur.Rusiya tərəfi həmçinin Türkiyəni Soçi razılaşmasına uymamaqda günahlandırır. Belə ki, bu müqaviləyə əsasən Türkiyə İdlib şəhərinin terrorçulardan təmizlənməsini təmin etməli idi.Lakin Türkiyə hələlik buna nail ola bilməyib.Rusiya Hmeymim hərbi bazasına ola biləcək terror hücumlarından narahat olduğundan özü preventiv əməliyyatlar başlatmışdır.İdlibdə gərginliyin əsas səbəblərindən biri də İran və onun regional maraqlarıdır.Lakin,ABŞ-ın İrana son vaxtlar tətbiq etdiyi sanksiyalar nəticəsində İranın Əsəd rejiminə dəstəyi zəifləmişdir.

İqtisadi və siyasi çətinliklərdən çıxa bilmək üçün İdlib regionu rejim üçün əsas məsələyə çevrilmişdir. 17 Sentyabr 2018-ci ildə Rusiya və Türkiyənin razılaşdığı Soçi müqaviləsi regionun gələcəyi ilə bağlı Türkiyənin böyük ümidlərini azaltdı.10 maddəlik razılaşmaya əsasən İdlibin gələcəyi üçün konkret məqsədlər qoyulmuş və bu məqsədlərə çatmaq üçün konkret tarixlər nəzərdə tutulmuşdur. Bu planlara əsasən Türkiyə regionda yerləşən 12 müşahidəçi postunu gücləndirir və Türkiyə Suriya sərhəddində 15-20 km enində silahsızlandırılmış zona yaradılır və 10 oktyabradək bütün döyüşən tərəflər regiondan geri çəkilirdi. Hələb və Latakianı birləşdirən M4, eləcə də Hələb və Hama şəhərini birləşdirən M5 yollarına nəzarəti isə Türkiyə və Rusiya orduları birlikdə həyata keçirməli idilər. Lakin bu müqavilə nəticəsində yaranmış vəziyyət bir sualı ortaya çıxarırdı. Türkiyə İdlibdəki təpədən dırnağa silahlanmış 30000 nəfərlik cihadçı qrupları silahsızlaşdıra biləcəkdimi?

Bunun baş verəcəyi, eləcə də baş verməyəcəyi halda nələr olacağı düşünülməsi vacib olan məsələlərdir. Aydındır ki, Türkiyə Soçi razılaşmasını imzalamaqla strateji yox, taktiki addım atmışdır. Xarici siyasətdəki tıxanıqlıq Türkiyənin Suriya ilə bağlı mövqeyinə düzəlişlər etməsini diktə etmişdir. Nəticədə Türkiyə Suriyadakı rejimi dəyişmək mövqeyindən geri çəkilmiş, İdlib məsələsində isə yalnız vaxt qazanmağa çalışmışdır.

Daha da qəribəsi odur ki, Ərdoğan hökuməti çox çətin və gücünün sərhədlərini aşan bir işə girişmişdir. Belə ki, Soçi müqaviləsi Rusiyaya uzunmüddətli strateji faydalar təmin etdiyi halda Türkiyəni çətin vəziyyətlə üz-üzə qoymuşdur. Türkiyə 17 sentyabr 2018-ci il tarixli Soçi müqaviləsinə əsasən nəzərdə tutulan tarixlərdə terrorçu qrupları şəhərdən təmizləmək məsuliyyətini üzərinə götürməklə çox böyük iqtisadi və siyasi risklər almışıdır. Müqaviləyə əsasən cihadçılara hücum etməməyi öhdəsinə götürən Rusiya tərəfi isə bu haqdan birdəfəlik imtina etməmiş hücum planlarını sadəcə olaraq ertələmişdir.

Bir çox diplomat bu müqavilənin Türkiyə üçün çox riskli olduğunu dilə gətirmişdir. Belə ki, İdlibdəki radikal cihadçı qruplarla digər müxalif qüvvələri ayırd etmək heç də asan iş deyildi. Silahsızlanma təklifini qəbul etməyən bəzi qruplar Türkiyənin özü üçün də başağrısına çevrilə bilərdi. Bununla birlikdə silahsızlanma təklifini sözdə qəbul edən terrorçu qrupların da sözünə güvənmək riskli idi.Türkiyə ictimaiyyəti də Soçi razılaşmasının bu çətin məqamlarından xəbərsiz idi. İdlib əyalətinin 60 faizinə nəzarəti həyata keçirən Heyət Tahrir əl Şam təşkilatının özü də Türkiyə tərəfindən terrorçu təşkilat kimi tanınmaqdadır. Şəhərin digər bölgələri isə müxtəlif cihadçı qrupların təsiri altındadır. Məsələ burasındadır ki, İdlib şəhəri rejim qüvvələri tərəfindən işğala məruz qalsa bu silahlı cihadçılar Türkiyəyə üz tutmalı olacaq ki, bu da Türkiyə üçün ən pis ssenaridir. Türkiyənin bu qruplardan Suriyadakı kürd qruplarına qarşı da istifadə edə bilməməsinin səbəbi ABŞ və Rusiyanın kürdlərə verdiyi siyasi dəstəkdir. Bununla belə, Türkiyə müxalif

cihadçı qruplardan asanlıqla da vaz keçə bilməz.Belə ki, əgər şəhər bu qruplardan təmizlənərsə, Rusiya dəstəkli Əsəd qüvvələrinin şəhəri ələ keçirməsinə heç bir əngəl qalmayacaq. Bu isə Türkiyənin maraqlarına böyük zərbə olardı. Odur ki, mövcud vəziyyətdə Türkiyə mümkün qədər status-kvonu saxlamağa və prosesləri ertələməyə cəhd edir.

Bəzi müşahidəçilərin fikrincə, Türkiyə üçün ən yaxşı çıxış yolu Rusiya və Suriya ilə kəşfiyyat məlumatlarını paylaşaraq cihadçılardan xilas olmaq, eləcə də, buna nail olarkən humanitar fəlakətlərdən xilas olmaq üçün beynəlxalq birliklə birlikdə hərəkət etmək olardı. Çünki əks-təqdirdə, İdlibə rejim tərəfindən əməliyyat başlanacağı halda bu, çox böyük fəlakətlərlə nəticələnəcək.

İdlib regionunun gələcəyi üçün 3 ssenari düşünülə bilər. Birinci ssenariyə görə, Əsəd rejimi məhdud hərbi əməliyyatlar keçirərək məhdud əraziləri geri qaytarır. Rusiyanın Hmeymim bazasının, eləcə də digər hərbi birlikləri cihadçıların hücumlarından mühafizə olunur.Türkiyə isə Tel Rıfat regionundan yönələ biləcək təhdidlərdən xilas olur. Bütün bunları isə Rusiya və Türkiyə birlikdə işləyərək həyata keçirirlər. Belə ki, Türkiyənin iştirakı olmadan buradakı terrorçulara qarşı mübarizədə uğur qazanmaq çətindir.

İkinci ssenariyə əsasən regionun iki əsas aktoru olan Rusiya və Türkiyə məsələyə yeni yanaşma sərgiləyirlər. Məhdud hərbi əməliyyat sonrasında status kvo dəyişir. Bu ssenaridə Türkiyənin məqsədi İdlibi Türkiyənin hərbi əməliyyatlar nəticəsində tutmuş olduğu ərazilərlə birləşdirərək burada Türkiyənin dəstəklədiyi müxalif qüvvələrin nəzarətini təmin etməkdir. Lakin bu əməliyyatın aparılması riski həddən çox yüksək olduğu halda nəticəsi qeyri-müəyyəndir.

Üçüncü ssenariyə əsasən, Astana prosesi və Soçi razılaşmasına son qoyulur. Lakin, bu ssenari siyasi-diplomatik baxımından ən təhlükəlisi humanitar baxımdan isə ən risklisidir.Bu ssenariyə görə geniş miqyaslı hərbi əməliyyatlar aparılır və sonda regionda terrorizmin və ekstremizmin səviyyəsi artmaqla birlikdə Türkiyə istiqamətində böyük köç dalğası başlayır.Burada yaşayan 3 milyon mülki əhalinin əməliyyatlar baş verəcəyi halda köç edəcəkləri ərazilər Türkiyə və inkişaf etmiş Avropa ölkələri olacaq. Lakin, nə Türkiyə, nə də Avropa buna hazır və razı deyil. Rusiyanın dəstəyi ilə Əsədin başlada biləcəyi hərbi əməliyyatlar Türkiyə üçün dağıdıcı nəticələr verə bilər. Bu Türkiyənin Suriyanın şimalındakı nəzarətini zəifləder və onun PKK və Suriyadakı qolu olan PYD ilə mübarizəsinə zərbə vurardı. Eləcə də bu, Türkiyənin və onun dəstəklədiyi müxalif qüvvələrin diplomatiya masasındakı mövqelərini xeyli sarsıtmış olardı.

**Açar sözlər:** *Türkiyə, ABŞ, Rusiya, Suriya, İdlib.*

## ƏDƏBİYYAT

*1. Frederick W. Kagan, Nataliya Bugayova, and Jennifer Cafarella, "Confronting the Russian Challenge: A New Approach for the U.S." Institute for the Study of War / Critical Threats Project, June 19, 2019.*

*2. Jennifer Cafarella with Jason Zhou, "Russia's Dead-End Diplomacy in Syria," Institute for the Study of War, November 2019.*

*3. Jennifer Cafarella with Jason Zhou, "Russia's Dead-End Diplomacy in Syria," Institute for the Study of War, November 2019.*

*4. "Two Drones Downed near Syria's Hmeimim Air Base: State TV," Reuters, February 3, 2020.*

*5. "Syria: Who's in Control of Idlib?" BBC News, June 22, 2019, Philip James Walker.*

*"Consequences of the HTS Take-Over in Northwest Syria," Atlantic Council, January 30, 2019.*

*6. BethanMcKernan, SaharAtrache, "500,000 flee Syrian Regime's Deadly Offensive in Idlib," Guardian, February 5, 2020.*

*7. OrhanCoskun, "Turkey Ready to Act after Reinforcing Syria's Idlib: Official," Reuters, February 9, 2020.*

*8. Mason Clark, "Russia in Review: The Kremlin Controls the Pace of Operations in Syria's Idlib," Institute for the Study of War, September 20, 2019.*

**Идлиб — последний узел на сирийской сцене**

**РЕЗЮМЕ**

В статье рассматриваются последние события в сирийском конфликте. Автор анализирует политику, проводимую Турцией в этом контексте. В региональной ситуации особое внимание уделяется Идлибскому узлу.

**Ключевые слова:** *Турция, США, Россия, Сирия, Идлиб.*

**Idlib is the last node on the Syrian stage**

**RESUME**

The following events are considered in the article on the Syrian conflict. The author analyzes the policy pursued by Turkey in this context. In the regional situation, special attention is paid to Idlib.

**Keywords:** *Turkey, USA, Russia, Syria, Idlib.*

UOT 327;930.22

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YAXIN ŞƏRQ SİYASƏTİNƏ DAİR

**ELVİN HƏSƏNOV**
*Gəncə Dövlət Universitetinin doktorantı*

*E-mail: e_hasanov@mail.ru*

Yaxın Şərq regionu tarixlər boyu öz geosiyasi və strateji əhəmiyyətinə görə diqqət mərkəzində olmuş, istər iqtisadi, istər siyasi, istərsə də beynəlxalq münasibətlərdə oynadığı rola görə aparıcı dövlətlərin mübahisə və münaqişə mənbəyinə çevrilmişdir. Yüz illər boyu bu ərazilərdə hökmranlıq edən türk hakimiyyətləri bölgənin etno-siyasi, sosial-mədəni və iqtisadi-ticari sisteminin formalaşmasında mühüm rol oynamışdır.

Bu bölgədə 1517-ci ildə Suriya və Misir yürüşləri ilə başlayan Osmanlı hökmranlığı, qərbdə Mərakeş, cənubda Yəmən və İraqı əhatə edən Ərəbistan yarımadasına qədər uzanan Yaxın Şərqin Şimali Afrika torpaqlarında 1918-ci ilə qədər təxminən 400 il davam etmişdi.

Asiyanın qərbində yerləşmiş Yaxın və Orta Şərq regionuna Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Əfqanıstan, İordaniya, İraq, İran, İsrail, Yəmən, Kipr, Küveyt, Livan, Misir, Oman, Səudiyyə Ərəbistanı, Suriya, Türkiyə və 1947-ci ildən dövlət kimi tam formalaşmağa imkan verilməyən Fələstin daxildir. İran və Əfqanıstan Orta Şərqə, digər dövlətlər isə Yaxın Şərqə aid edilir. Regional bölgü, həmçinin regionun adı şərtidir və müxtəlif müəlliflər tərəfindən müxtəlif şəkildə dəyişdirilir. Bəzi mənbələrə görə Yaxın və Orta Şərq regionu Misir və Sudan istisna olmaqla Cənub - Qərbi Asiya; Kipr, Misir, Sudan istisna edilməklə ön Asiya adlanır. Yaxın və Orta Şərq regionu üç qitə – Asiya, Avropa, Afrika və iki okean hövzəsinin qovşağında yerləşir. Enlik istiqamətində 4400 km [Pamir dağlarından Aralıq dənizindəki İmroz adasınadək], meridian boyu 3300 km [Qara dənizdəki Sinop burnundan Bab-əl-Məndəb boğazınadək] məsafədə uzanır. Yaxın və Orta Şərq regionunun Aralıq, Xəzər, Qara və Qırmızı dənizlərə çıxışı vardır. Yaxın və Orta Şərqin dünya mədəniyyəti, siyasəti və iqtisadiyyatında mühüm rol oynaması onun geosiyasi mövqeyinin üstünlüyü, maye yanacağı sərvətlərilə zəngin olması ilə izah olunur [16].

XX əsrdə olduğu kimi XXI əsrdə də Türkiyə Cümhuriyyəti bölgədə baş verən proseslərdə yaxından iştirak edir, Yaxın və Orta Şərqin siyasi və iqtisadi sisteminin formalaşmasında mühüm rol oynayır. Çünki Yaxın və Orta Şərqin bəzi dövlətləri ilə birbaşa sərhəd hüdudları olan Türkiyə istər öz təhlükəsizliyinin qorunmasında, istərsə də bölgənin ümumi təhlükəsizlik sisteminin formalaşması üçün əsas rol oynayan aktorlardan biridir.

1980-ci illərdə ortaya çıxan iki hadisə Türkiyənin Yaxın Şərq siyasətinə ciddi şəkildə təsir etdi. Bu dövrdə Türkiyənin cənub-şərqində meydana çıxan separatçı "PKK" terroru ilə mübarizə Türkiyə siyasətinin ən mühüm məsələlərindən biri oldu. Digər tərəfdən Suriya və İraqın PKK-ya dəstək verməsi Türkiyənin bu ölkələrlə münasibətlərində yeni problem yaratdı. Həmçinin Türkiyənin iqtisadi cəhətdən xaricə açılmağa başlaması və ixracyönümlü iqtisadi artım strategiyası qəbul etməsi Türkiyəni region ölkələri ilə yaxşı əlaqələr qurmağa sövq etdi. Dövrün baş naziri Turqut Özal regiondaxili iqtisadi əlaqələrin inkişafının bölgədaxili problemlərin həllində və sülhün təmin olunmasında təsirli olacağına inanırdı və bu dövrdə iqtisadiyyata əsaslanan xarici siyasət yürüdürdü [6, s.235].

Bu kontekstdə bölgə dövlətləri ilə yaxşı münasibətlər qurmaq və bu ölkələrin PKK-ya dəstəyinin qarşısını almaq üçün Türkiyə ilk növbədə cənub qonşuları Suriya və İraqla münasibətlərini yaxşılaşdırmağa çalışırdı. Bu baxımdan sərhədi keçən terrorçuların zərərsizləşdirilməsi üçün Türkiyə ilə İraq arasında imzalanmış müqavilə, Suriya ilə isə su paylaşımı müqaviləsi imzalanmışdır. Buna baxmayaraq, tərəflər arasında yaranan problemlərin tam həll oluna bilməməsi və "PKK"-nın fəaliyyətinin davam etməsi səbəbindən Türkiyənin regional siyasətində təhlükəsizlik məsələləri üstünlük təşkil etmişdir. Bundan əlavə, Türkiyənin cənubunda İran və İraq arasında uzunsürən müharibə [1980-1988-ci illər] və bu müharibə zamanı İraq kürdlərinin mərkəzi hökumətə qarşı separatçı hərəkətləri də Türkiyənin təhlükəsizlik siyasətinin ön planda olmasının vacibliyini diktə edirdi [10, s.87].

1980-ci illərin əvvəllərindən etibarən ümumilikdə Türkiyənin xarici siyasətində mühüm amil olan xarici iqtisadi əsaslara söykənən xarici siyasət xətti Yaxın və Orta Şərq siyasətində də təsirli olmuşdur. Əslin-

də bu dövrdə İraq və İran Türkiyənin mühüm ticarət tərəfdaşlarına çevrilmişdi. Bölgə daxilində ticarət və iqtisadi əlaqələri inkişaf etdirmək üçün Türkiyə, İran və Pakistan arasında İqtisadi Əməkdaşlıq Təşkilatı [İƏT] yenidən canlandırıldı. Türkiyə həmçinin İƏT üzvləri arasında iqtisadi əlaqələrin inkişafını nəzərdə tutan bir sıra əməkdaşlıq sazişlərinin imzalanmasında da vasitəçilik etmişdir. Bundan əlavə, xaricə açılmağa başlayan Türkiyə özəl şirkətləri Şimali Afrika və Körfəz ölkələrinə mühüm investisiyalar qoymağa başladı [4, s.67].

Türkiyənin iqtisadi xarici siyasət yeritməklə region dövlətləri ilə münasibətlərini inkişaf etdirmək təşəbbüsləri Türkiyənin xarici siyasətində "qərbyönlü" istiqamətin yerini dəyişmədi. Bu kontekstdə Türkiyə Avropa Birliyi [AB] ilə münasibətlərini yaxşılaşdırdı və 1987-ci ildə AİB-ə tamhüquqlu üzvlük üçün müraciət etdi. Bu dövrdə Türkiyə-Amerika münasibətlərində əvvəlki on ildə yaşanan problemlər aradan qaldırıldı və Türkiyə Qərb alyansındakı yerini qorudu. Lakin 1990-cı ildə soyuq müharibənin başa çatması və Sovet İttifaqının dağılmasından dərhal sonra türk elitası Türkiyənin Qərb üçün strateji əhəmiyyətinin azalacağından və beləliklə də Qərblə strateji münasibətlərinin sarsılacağından narahat olaraq, həm Qərblə, xüsusən də ABŞ ilə strateji əməkdaşlığı davam etdirmək, həm də Türkiyə üçün yeni geosiyasi təsir dairələri yaratmaq üçün Mərkəzi Asiya, Yaxın Şərq və Balkanlarda qərbyönümlü fəal xarici siyasət yürüdürdü [8, s. 103].

Türkiyənin bu "Qərbçi" siyasəti məhz 1990-91-ci illər Körfəz Böhranı zamanı Türkiyə hökumətinin ABŞ və müttəfiqləri ilə birlikdə hərəkət etməsinə səbəb olan əsas amillərdən biri idi. Qeyd edək ki, bu müharibə zamanı ərəb və islam ölkələrinin əksəriyyətinin ABŞ-ı dəstəkləməsi də Türkiyənin Qərbyönümlü siyasətini asanlaşdırırdı [7, s.185].

Türkiyə I Körfəz müharibəsinə dəstək verərək yürütdüyü fəal siyasətdən gözlədiyi nəticəni ala bilmədi. Bu müharibə və iqtisadi embarqolar Türkiyəyə baha başa gəlməklə yanaşı, yeni təhlükəsizlik problemləri də ortaya çıxardı. Birinci Körfəz Müharibəsindən sonra kürdlərin Şimali İraqda "muxtar" siyasi idarəçilik yaratması və "PKK"-nın terror fəaliyyətinin daha da artması Türkiyəni öz milli təhlükəsizliyinə yönəlik Yaxın Şərq siyasətini istiqamətləndirməyə vadar edirdi. Türkiyə bir tərəfdən müstəqil "kürd dövləti"nin yaranmasının qarşısını almağa çalışır, digər tərəfdən də "PKK"-ya qarşı hərbi mübarizə aparırdı. Bu çərçivədə bir müddətdir İran və Suriya ilə təhlükəsizlik sahəsində əməkdaşlıq etsə də, Suriya, İraq və İranın "PKK"-ya dəstəyini davam etdirdiyi iddialarının gerçək əsaslarının mövcud olması Türkiyəni bu ölkələrlə siyasətinə yenidən baxmağa vadar edirdi. Bundan əlavə, Türkiyənin bu dövrdə məruz qaldığı digər mühüm təhlükənin, radikal islamçı terrorizmin də İrandan qidalandığı faktı ciddi narahatlıq yaradırdı. Artıq Sovet İttifaqının olmadığı bir mühitdə türk hökuməti üçün Türkiyənin təhlükəsizliyinə ən böyük təhlükə cənubdan, yəni Yaxın Şərqdən gəlirdi. Bu düşüncə uzun müddət Türkiyənin Yaxın Şərq siyasətinin müəyyən olunmasında əsas amillərdən biri idi. Türkiyənin təhlükəsizliyi üçün Yaxın Şərqin təhdid mənbəyi və təhlükəsizlik problemi kimi görünməyə başlaması Türkiyənin xarici siyasətində hərbi-ordu amilinin artmasına və Yaxın Şərq siyasətinin müəyyənləşdirilməsində fəal rol oynamağa başladı [1, s. 343].

Bu dövrdə Türkiyə Yaxın Şərqdə fəal siyasət yürüdərək çevrə dövlətlərindən gələn təhlükəni neytrallaşdırmaq üçün xüsusi bir strategiya həyata keçirmişdi. Bu strategiya bir tərəfdən təhlükə mənbəyi sayılan ölkələrə qarşı siyasətin sərtləşdirilməsini nəzərdə tuturdu. Bu çərçivədə Suriya və İranla münasibətlər gərginləşərkən, "PKK"-ya qarşı hərbi mübarizə çərçivəsində İraqın şimalına tez-tez hərbi müdaxilələr edilirdi.. Bu strategiyanın digər tərəfi isə İsraillə əlaqələrin inkişafını nəzərdə tuturdu. Beləliklə, 1991-ci ildə başlayan Yaxın Şərq Sülh Prosesi ilə paralel olaraq bərpa edilən Türkiyə-İsrail münasibətləri qısa zamanda çox sürətlə inkişaf edərək iki ölkə arasında strateji əməkdaşlığa çevrilmişdi [5, 262-266].

Türkiyə - İsrail münasibətlərinin müsbət dinamika ilə inkişafı, Türkiyənin ərəb dövlətləri və İsraillə münasibətlərində balans siyasətinə son qoydu. Türkiyənin İsraillə münasibətlərini inkişaf etdirməsi ərəb dünyası və İranın ciddi reaksiyasına səbəb oldu. Bu dövrdə Türkiyə-İsrail münasibətləri yenidən Türkiyənin Yaxın Şərq siyasətində təsirli elementə çevrilsə də, Türkiyənin region ölkələri ilə əlaqələrini inkişaf etdirməsinə ciddi əngəl törədirdi. Bu səbəbdən 1997-ci ilin dekabrında Tehranda keçirilən İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında Türkiyə İsraillə münasibətlərinə görə sərt şəkildə tənqid olunmuşdu [10, s.89].

Bu dövrdə Türkiyənin NATO müttəfiqlərinin həyata keçirdiyi "Orta Şərq" siyasəti nəticəsində onun təhlükəsizliyinə yeni təhdidlərin yaranmasına sə-

bəb olmuşdur. Qərbin Yaxın Şərqdə atdığı addımlar, xüsusən də İraq siyasəti [İraqın şimalında "uçuş qadağan zonası"nın tətbiqi, ticarət embarqosu] nəticəsində Türkiyənin təhlükəsizliyinə yeni təhdidlərin yaranmasına səbəb olmuşdu. Üstəlik, Avropa ölkələri və ABŞ-ın Türkiyəyə qarşı bir növ gizli silah embarqosu tətbiq etməsi və "PKK" ilə mübarizəyə mane olması bəzi dairələrdə Türkiyənin Qərblə münasibətlərinin şübhə altına alınmasına səbəb olmuşdu. Sovet təhlükəsinin aradan qalxdığı və Qərb ittifaqının artıq Türkiyənin təhlükəsizliyinə ciddi dəstək vermədiyi bir mühitdə bu problemlər özünü qabarıq şəkildə göstərirdi. Bundan əlavə, Türkiyənin Aİ-yə üzvlük prosesinin ləng getməsi və ara-sıra kəsilməsi Qərblə əlaqənin yenidən dəyərləndirilməsini zəruri etdi. 1990-cı illərdə ortaya çıxan İslam və Qərb arasında qarşıdurma və "İslam fundamentalizmi"nin Qərbdə yüksələn təhlükə kimi qəbul edilməsi, həmçinin Türkiyə daxilindəki transformasiyanın əksi kimi yeni prinsiplərin müzakirələrinin başlanması Türkiyənin xarici siyasətində "Qərbçilik" və "Qərbyönlü" siyasət məsələlərində etirazlara səbəb olmuşdur. "Soyuq müharibə"nin sona çatması ilə Türkiyənin çevrə dövlətlərində yaranan hakimiyyət böhranları, münaqişələr Türkiyənin xarici siyasətdə yeni strateji istiqamətlərin [Balkan, Qafqaz, Asiya, Aralıq dənizi, Yaxın Şərq, İslam və s.] ön plana çıxmasına səbəb oldu. 1990-cı illərdə Türkiyənin təhlükəsizlik məsələlərinə yeni baxışların meydana gəlməsi və xarici siyasətdə gerçək reallıqların üzə çıxması Qərbə qarşı skeptisizmin tədricən artmasına, 1990-cı illərin sonlarında Türkiyənin xarici siyasətində çoxşaxəlilik axtarışlarına səbəb oldu [3, s.8].

XX əsrin sonlarında başlayan Körfəz böhranı tamamilə fərqli bir siyasi mühitdə başladı və inkişaf etdi. Dünyanın ikiqütblü quruluşunun nəticəsi olaraq gündəmə gələn və "Soyuq Müharibə"nin simvolu olaraq görülən Berlin Divarının 1989-cu ildə dağılması ilə beynəlxalq münasibətlər yeni forma almağa başladı. Körfəz böhranı zamanı, indiyə qədər bir-birinə zidd olan ABŞ və SSRİ bu böhran zamanı görünməmiş əməkdaşlıq nümunəsi göstərərək BMT çərçivəsində ardıcıl qərarların qəbulunu təmin etdilər.

İran-İraq müharibəsi zamanı və ondan sonrakı dövrdə İran təhdidinin qarşısını aldığı üçün beynəlxalq güclər tərəfindən mükafatlandırılan və silahlandırılan Səddam rejimi bu dəstəkdən istifadə edərək tarixi iddiaları olduğu Küveyti işğal etdi.

Bu hadisə beynəlxalq sülh və təhlükəsizliyə son dərəcə ciddi təhdid kimi qiymətləndirildi və dünya birliyi bu işğala ciddi reaksiya verdi. Nəticədə özünə qarşı böyük koalisiya tapan İraq bu məqsədinə nail ola bilmədi və hərbi-siyasi nüfuzuna böyük zərbə vurdu.

2 avqust 1990-cı ildə Səddam Hüseyn Küveytin Küveyt şəhərini bombalayaraq işğala başladı. O dövrdə İraq ordusu 955 min nəfərlik nizami və 650 minlik xalq ordusu ilə dünyanın quru qoşunlarına görə dünyanın 4-cü böyük ordusu idi. Təxminlərə görə ən azından İraq ordusunun 4500 tankı, 484 savaş ucağı və 232 savaş helikopteri vardı. İraq Ordusu 8 avqust 1990-cı ildə Küveytin işğalını başa çatdırdı. 28 avqustda Səddam Hüseyn Küveyti 19-cu bölgəsi elan etdi və qohumu Əli Həsən əl-Məcidi vali olaraq təyin etdi.

İşğaldan sonra ABŞ və Küveytin tələbi ilə BMT Təhlükəsizlik Şurası toplandı və öncə işğalı pisləyən 660 saylı, daha sonra embarqo təyin edən 661 və 665 saylı qərarlar verildi. Ərəb Birliyi də probleminin Ərəb ölkələri arasında çözülməsi və xarici güclərin müdaxilə etməməsi qərarı verdi. Səddam Hüseyn isə 12 avqustda etdiyi çıxışında işğal olunan torpaqlardan İsraılın çıxması, Ərəbistandan ABŞ qüvvələri yerinə Ərəb qüvvələrinin yerləşməsi, embarqonun dondurulması tələbləri yerinə yetirildikdən sonra Küveyt məsələsi müzakirə oluna biləcəyini elan etdi. Bunu qəbul etməyən ABŞ və digər ölkələr İraqın çəkilməli olduğunu bildirdilər [15].

BMT Təhlükəsizlik Şurasının 29 noyabr 1990-cı il tarixdə 678 saylı qərarı ilə İraqa 15 yanvar 1991-ci il tarixə qədər vaxt verildi. Bu vaxt ərzində Küveytdən çıxmazsa, İraqın zorla Küveytdən çıxarılması üçün hərbi əməliyyat həyata keçiriləcəkdi. 16 yanvar 1991-ci ildə ABŞ-ın rəhbərlik etdiyi hərbi birlik hərəkata başladı. 28 fevrala qədər sürən savaş 28 fevralda Səddam Hüseynin məğlubiyyəti ilə başa çatdı. Sülh danışıqları aprel ayının ilk həftəsinə qədər uzandı. Səddam Hüseyn bütün şərtlərin qəbul edildiyini elan etməklə savaş rəsmən bitdi [15].

Türkiyə Qərb dövlətlərinin və digər Yaxın Şərq ölkələrinin də iştirakı ilə Səddama qarşı qurulan koalisiyaya dəstək verdi və "Səhrada fırtına" [Desert Storm] əməliyyatı zamanı öz ərazilərini ABŞ-ın istifadəsinə açdı. Türkiyə 2,5 milyard dollarlıq ticarət həcminə sahib olduğu İraqa qarşı BMT-nin embarqo qərarında iştirak etdi. Bu istiqamətdə Kərkük-Yumurtalıq kəmərinin fəaliyyəti dayandırıldı. Bundan əlavə, Türkiyə ABŞ və NATO-nun hərbi qüvvələri-

nin istifadəsi üçün öz hərbi baza və obyektlərini də ayırmışdı [2, s.682].

Türkiyənin Körfəz böhranı zamanı bu cür yanaşmasının səbəbi İraqın Küveyti işğal etməsi ilə bölgədə hegemon mövqeyə yüksəlməsi və digər problemləri güc yolu ilə həll etməyə meyilli olması idi. Digər tərəfdən, bölgədəki neft ehtiyatlarının İraqın əlinə keçməsi səbəbi ilə neftin təhlükəsiz və davamlı olaraq Qərbə ötürülməsinə təhlükələrin yaranması ABŞ və Qərb dövlətlərini narahat edirdisə də, Türkiyəni bölgədə siyasi və iqtisadi tarazlığın pozulması narahat edirdi. Çünki böhrandan əvvəl su probleminə görə İraqla Türkiyə arasında münasibətlər gərginləşmiş və İraqın problemi diplomatiyadan çox güc yolu ilə həll etmək istəyi özünü büruzə vermişdir [2, s.682].

Yaxın Şərq bölgəsində Türkiyənin təhlükəsizliyi və geosiyasi maraqları üçün olduqca əhəmiyyət kəsb edən qonşu dövlətlərdən biri də Suriyadır.

Türkiyə ilə Suriya arasındakı problemlər hələ Fransanın Suriyanın müstəqilliyini nəzərdə tutan 1936-cı il müqaviləsi ilə başlamışdı. 1920-ci ilin oktyabrında Türkiyə ilə Fransa arasında bağlanan Ankara müqaviləsi ilə İsgəndərunun Fransanın mandat sərhədləri daxilində qalacağı qəbul edilsə də, xüsusi inzibati statusa malik olacağı və burada yaşayan türk əhalisinin hər cür imkanlardan faydalanacağı nəzərdə tutulmuşdu. 1936-cı ildə Fransa tərəfindən Suriyaya müstəqillik verən müqaviləyə görə, Fransa İskəndərun sancağındakı bütün suveren səlahiyyətlərini dolayısı ilə Suriyaya vermişdi. Lakin Türkiyənin cəhdləri nəticəsində 1938-ci ildə İsgəndərun Hatay adı ilə müstəqilliyini əldə etdi və bir il sonra [1939] Hatay Məclisi Türkiyə ilə birləşməyə qərar verdi. Bu problem 1946-cı ildə fransız əsgərlərinin Suriyadan çıxarılması ilə tam olaraq müstəqillik qazanan Suriya ilə Türkiyə arasında ciddi problemə çevrildi. Qeyd edək ki, Suriyanın bütün rəsmi xəritələrində Hatay Suriyanın sərhədləri daxilində göstərilir [2, s.696].

1920-1946-cı illərdə Fransanın Suriya üzərindəki mandatından sonra 1963-cü ilə qədər olan dövrdə sünni siyasətçilərin ölkə siyasətində əhəmiyyətli təsiri olmuşdur. Hatay məsələsinin iki ölkə arasında ciddi problemə çevrilməsi 1943-cü ildə Suriyada fəaliyyət göstərməyə başlayan BƏƏS Partiyasının 1950-ci illərin ortalarından etibarən Suriya siyasətində aparıcı mövqeyə malik olduğu illərə təsadüf edir. 1957-ci ildə Suriyanın sovetlər tərəfindən silahlanmasını öz təhlükəsizliyinə təhdid hesab edən Türkiyə ilə bu ölkə arasında münasibətlər hərbi-siyasi qarşıdurma halına qədər yüksəlmişdir. Xüsusilə də 1963-cü il Suriyada dövlət çevrilişi ilə hakimiyyəti ələ keçirən BƏƏS Partiyasının 1966-cı ildə partiyadaxili çevrilişi nəticəsində ələvi liderlərinin nəzarətinə keçməsi, Türkiyə-Suriya münasibətlərində Hatay məsələsinin daha ciddi şəkildə gündəmə gəlməsinə səbəb oldu. 1970-ci ildə çevriliş nəticəsində general Salih Cədid və prezident Nurəddin Atassini vəzifədən uzaqlaşdıraraq hakimiyyəti ələ keçirən Hafiz Əsədlə bu proses yeni mərhələyə qədəm qoydu [18].

Lazkiyadan olan Hafiz Əsəd Suriyada hakimiyyətə gəldikdən sonra ələvi dini-etnik təməlinə əsaslanan inzibati idarəçilik strukturu yaratmağa başlamışdı. Hafiz Əsəd dövründə Hataya xüsusi marağın artmasında bu bölgədə ələvi əsilli insanların yaşaması mühüm rol oynamışdı. Bu hakimiyyət dövründə Suriyada ciddi sünni-ələvi qarşıdurması baş vermiş, 1982-ci ildə Hama hadisələrində təxminən 30.000 suriyalı sünni həyatını itirmiş və çoxlu sayda insan itkin düşmüşdü.

Suriya hökuməti Türkiyədə sabitliyi pozmaqda bir vasitə kimi istifadə etdiyi PKK terror təşkilatına uzun müddət dəstək vermiş, PKK terrorçularına öz ölkəsində təlim imkanı yaratmış, PKK lideri Abdullah Öcalanın Dəməşqə sığınmasına şərait yaratmışdır. Həmçinin Suriya Türkiyənin 1984-cü ildən bəri mübarizə apardığı bu terror təşkilatından başqa sahələrdə də Türkiyə ilə bazarlıq vasitəsi kimi istifadə etməyə çalışmışdı [9, s.163].

Ancaq Suriyanın bu məsələlərdə tək olmadığı, İran və İraqın Körfəz böhranından əvvəl də Türkiyə əleyhinə olan kürd separatçı ünsürlərə və “PKK”-ya yardım etdiyi məlumdur. Bundan əlavə, Almaniya, Fransa, İngiltərə və ABŞ kimi ölkələr insan haqlarının qorunması adı altında Türkiyəyə qarşı bu cür separatçı birlikləri dolayı yolla da olsa dəstəkləmişlər. Bu dəstək, PKK-nın öz ölkələrində müxtəlif adlar altında təşkilatlanmasına, ictimai rəyin formalaşmasına və maliyyə dəstəyinin göstərilməsi formasında həyata keçirilmişdir. Bunlardan başqa, Suriya 1984-cü ilə qədər Türkiyənin diplomatik nümayəndələrinə hücum edən və bir çox diplomatını qətlə yetirən erməni terror təşkilatı ASALA-ya eyni dəstəyi verməkdən çəkinməmişdir [11].

Suriya hökuməti 1987 və 1992-ci illərdə Türkiyə ilə, “PKK”-nın ölkəsində fəaliyyət göstərməsinə icazə verməməyi nəzərdə tutan protokollar imzalasa da, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməmişdir. 1993-cü ildən Türkiyə buna görə Suriyaya qarşı

daha sərt siyasət yürütməyə başladı. 1998-ci ilin oktyabrında Öcalanı ölkədən xaric etmək ya da Türkiyə ilə qarşıdurmaya getmək kimi iki variantla qarşı-qarşıya qalan Suriya Türkiyə ilə toqquşmaqdansa, PKK liderini ölkəsindən çıxarmağa üstünlük verdi. Suriyanın bu addımı hər iki dövlət arasındakı münasibətlərdə mühüm dönüş nöqtəsi oldu. Bu hadisədən sonra Türkiyə ilə Suriya münasibətləri yeni mərhələyə qədəm qoydu [13].

1998-ci ilin oktyabrında imzalanan Adana razılaşması ilə terrorla mübarizədə hərtərəfli əməkdaşlığa qərar verən Türkiyə və Suriya digər məsələlərdə də əməkdaşlıq imkanlarını araşdırmağa başladı və iki ölkə arasında münasibətlərdə müəyyən mənada bu sahədə yeni bir səhifə açıldı [2, s.697].

Türkiyə ilə Suriya arasındakı digər bir mühüm problem Fərat və Dəclə çaylarında yaranan su problemidir. Türkiyə 1987-ci ildəki protokola uyğun olaraq Suriyaya saniyədə orta hesabla 500 $m^3$ su vermək öhdəliyi olsa da, Suriyanın Fərat suyu ilə bağlı arqumentləri həmişə radikal xarakterli olmuşdur. 1998-ci ilin oktyabrında Adana sülh prosesi ilə başlayan və Əsədin ölümündən sonra vüsət alan müsbət istiqamətli əlaqələr çərçivəsində tərəflər su problemi ilə bağlı da müsbət mesajlar verməyə başlamışlar [2, s.698].

1999-cu ilin fevral ayında Abdulla Öcalanın Türkiyə təhlükəsizlik qüvvələri tərəfindən ələ keçirilməsindən sonra “PKK”-nın fəaliyyəti böyük ölçüdə zəiflədi. Bununla da Türkiyənin bölgə dövlətləri ilə münasibətlərində əsas faktor olan təhlükəsizlik narahatlıqları müəyyən qədər azaldı. Təhlükəsizliklə bağlı narahatlıqların azalması ilə Türkiyə “Region mərkəzli xarici siyasət” yürütməyə, bölgə dövlətləri ilə siyasi və iqtisadi əlaqələrini normallaşdırmağa və inkişaf etdirməyə başladı. Dövrün xarici işlər naziri İsmail Cemin rəhbərlik etdiyi bu siyasətə görə, Türkiyə Osmanlı keçmişi ilə barışmalı, bütün tarixi, mədəni və iqtisadi imkanlardan istifadə edərək yaxın coğrafiya və qonşuları ilə yaxşı münasibətlər qurmalı idi. Türkiyə qeyri-regional güclərin dəstəyi ilə deyil, region ölkələri ilə yaxşı münasibətlər quraraq, öz regional maraqlarını qorumalı və bununla da mühüm qlobal aktora çevrilməlidir [1, s. 346].

XXI əsrin əvvəllərində Türkiyənin Suriya ilə inkişaf edən əlaqələrinin digər bir müsbət göstəricisi iki ölkə arasında yüksək səviyyəli hərbi təmasların olması idi. Suriyanın Türkiyə ilə münasibətlərini yaxşılaşdırmaq üçün Suriyanın daxili işlər naziri Harbanın 26 sentyabr 2000-ci ildə və Suriyanın vitse-prezidenti Həddamın 2-3 noyabr 2000-ci il tarixlərində Türkiyəyə səfərləri böyük əhəmiyyət kəsb etmişdir. 2002-ci ilin iyununda Suriyanın baş qərargah rəisi Türkmaninin Türkiyəyə səfəri zamanı “Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq haqqında Çərçivə Sazişi” və “Hərbi təhsil sahəsində əməkdaşlıq sazişi” imzalanmışdır. Bu dövrdə Türkiyə ilə Suriya arasında iqtisadi əlaqələr də sürətlə inkişaf etmiş, iki ölkə arasında ticarət dövriyyəsi 1 milyard dollara yaxınlaşmışdır [17].

Ümumiyyətlə, XXI əsrin əvvəllərində Türkiyə Cümhuriyyəti bölgədə baş verən proseslərdə yaxından iştirak edir, Yaxın və Orta Şərqin siyasi və iqtisadi sisteminin formalaşmasında mühüm rol oynayır. Çünki Yaxın və Orta Şərqin bəzi dövlətləri ilə birbaşa sərhəd hüdudları olan Türkiyə istər öz təhlükəsizliyinin qorunmasında, istərsə də bölgənin ümumi təhlükəsizlik sisteminin formalaşması üçün əsas rol oynayan aktorlardan biridir.

## ƏDƏBİYYAT SİYAHISI


1. *Altunışık M. “Güvenlik Kıskacında Türkiye-Ortadoğu İlişkileri,” G. Özcan ve Ş. Kut [der.], / En Uzun Onyıl: Türkiye’nin Ulusal Güvenlik ve Dış Politika Gündeminde Doksanlı Yıllar, İstanbul: Boyut Yayınları, 2000, s.329-351*

2. *Arı T. Geçmişten Günümüze Türkiye'nin Orta Doğu Politikasının Analizi ve İlişkileri Belirleyen Dinamikler. /21. Yüzyılda Türk Dış Politikası [pp.667-700], Nobel Yayınları, 2004.*

3. *Bağcı H. “Türk Dış Politikası: Genel Bir Bakış,” İ. Dağı [der.], /Türk Dış Politikasında Gelenek ve Değişim, Ankara, Siyasal Kitabevi. 1998, s. 1-14.*

4. *Bölükbaşı S. Türkiye ve Yakınındaki Ortadoğu. Ankara, Dış Politika Enstitüsü, 1992.*

5. *Bölükbaşı S. “Türkiye ve İsrail: Mesafeli Yakınlıktan Stratejik Ortaklığa.” Ş. Çalış, İ. Dağı ve R. Gözen [der.], /Türkiye’nin Dış Politika Gündemi: Kimlik, Demokrasi, Güvenlik, Ankara, Liberte. 2001, s. 262-66.*

6. *Gözen R. “Türkiye’nin Ortadoğu Politikası: Gelişimi ve Etkenleri,” /Türkler Ansiklopedisi, 17.C., Ankara, Yeni Türkiye Yayınları. 2002 s.233-268.*

7. *Gözen R. “Türkiye’nin II. Körfez Savaşı Politikası: Aktif Politika ve Sonuçları,” İ. Dağı [der.], / Türk Dış Politikasında Gelenek ve Değişim, Ankara, Siyasal Kitabevi. 1998, s.179-216*

8. *Makovsky A. “The New Activism in Turkish*

*Foreign Policy," SAIS Review [1989-2003], Vol. 19, No. 1 [Winter-Spring 1999], Published By: The Johns Hopkins University PressSAIS Review, pp. 92-113.*

*9. Sezer D.B. 'Turkey's New Security Environment, Nuclear Weapons and Proliferation', Comparative Strategy, Vol.14, No.2, April-June, 1995*

*10. Sinkaya B. Geçmişten Günümüze Türkiye'nin Ortadoğu Politikası ve Batı Etkisi. Adam Akademi, 2011/1: s. 79-100.*

*11. "Syria: The Cuba of the Middle East?" Commentary, July 1986, http://www.danielpipes.org/articles/198607.shtml*

*12. 'Terrorism: The Syrian Connection', The National Interest, Spring 1989, http://www.danielpipes.org/articles/1989a.shtml.*

*13. "The Word of Hafiz al-Asad", Commentary Magazine, October 1999, http://www.danielpipes.org/articles/199910.shtml*

***İnternet resursları***

*14. http://www.danielpipes.org/articles/1989b.shtml*

*15. https://www.bilgibitig.com/korfez-savasi.html*

*16. https://eastnews.org/news/18087.*

*17. http://www.mfa.gov.tr/turkce/grupa/odogu.htm*

*18. http://www.danielpipes.org/articles/1989b.shtml*

## XÜLASƏ

Mövcud məqalədə çoxsaylı və mötəbər qaynaqların, habelə əlçatan tarixşünaslıq ədəbiyyatının materialları əsasında qardaş Türkiyə Cümhuriyyətinin Yaxın Şərqdə yeritdiyi siyasətin başlıca xüsusiyyətləri nəzərdən keçirilir. Müəllif hesab edir ki, bu siyasət xüsusən də çağdaş dövrdə xeyli fəallaşmış və Ankara hökuməti Yaxın Şərqin bir sıra mühüm siyasi problemlərinin çözülməsində ciddi qüvvəyə çevrilmişdir.

**Açar sözlər:** *Türkiyə, Yaxın Şərq, Suriya, İraq, təhlükəsizlik məsələləri*

## О БЛИЖНЕВОСТОЧНОЙ ПОЛИТИКЕ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ

### Резюме

В настоящей статье на основе материалов многочисленных и достоверных источников, а также доступной историографической литературы рассматриваются главные особенности политики, которую проводит братская Турецкая Республика на Ближнем Востоке. Автор считает, что эта политика, особенно на современном этапе значительно активизировалась и правительство Анкары превратилось в серьезную силу в разблокировке ряда значительных политических проблем Ближнего Востока.

**Ключевые слова:** *Турция, Ближний Восток, Сирия, Ирак, вопросы безопасности*

## ON THE MIDDLE EAST POLICY OF THE REPUBLIC OF TURKEY

### Summary

This article, based on materials from numerous and reliable sources, as well as available historiographic literature, examines the main features of the policy pursued by the fraternal Republic of Turkey in the Middle East. The author believes that this policy, especially at the present stage, has significantly intensified and the Ankara government has become a serious force in unblocking a number of significant political problems in the Middle East.

**Keywords:** *Turkey, Middle East, Syria, Iraq, security issues*

UOT 32

# KLASSİK MÜHARİBƏLƏRİN TRANSFORMASİYASI VƏ DRONLAR

**VÜQAR İSMAYILOV**
*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin magistri*

*E-mail: ismayilovvuqar1982@gmail.com*

**Giriş**

Bu gün müharibələr kifayət qədər sistemləşmiş, müxtəlif alt kateqoriyalara bölünmüş, hətta varlığı və ya yoxluğu başa düşülməyən əməliyyatlara çevrilmişdir. Müharibələrin transformasiyaya uğraması ilə birlikdə insanların şüurunda müharibə anlayışı da dəyişib. Tarix bizə göstərir ki, bu dəyişiklik əslində tamamilə yenidir. Əvvəllər müharibələr daha çox müşahidə edilə bilən və proqnozlaşdırıla bilən əməliyyatlar olmuşdur. Müharibəni aparan komandirlər, əskərlər, alətlər və silahlar döyüş meydanında olmuş, canlı və zirehli qüvvələrin müqayisə oluna biləcəyi bir vəziyyət yaranmışdır. Bu gün isə artıq bu qüvvələr müqayisə oluna bilmir, düşmənin qüvvəsi barədə açıq-aydın məlumat əldə etmək çətinləşir. Bu baxımdan, artıq komandirlər, döyüş vasitələri və hətta əsgərlər belə döyüş meydanında olmur. Daha dərindən düşünsək, bu gün artıq döyüş meydanı anlayışı da yavaş-yavaş transformasiyaya uğrayaraq yox olmaqdadır.

**Klassik müharibə, yaxud 1-ci, 2-ci, 3-cü nəsil müharibələr**

Klassik müharibələr müəyyən məqsədlər üçün birləşən, hər hansı bir dövlət təşkilatına ehtiyacı olmayan siyasi qrupların yaratdığı və başqa bir hərbi quruluşa qarşı aparılan müharibələrdir. Daha əvvəl də qeyd edildiyi kimi, bu müharibələrin subyektləri, alətləri, vaxtları və yerləri aydındır: döyüşçülər döyüş meydanında vuruşmalıdırlar. Müharibə və ya döyüşü aparan komandir və sərkərdələr də həmin yerdə olmalıdırlar. Bu kimi müharibələrdə qüvvələrin gücünə əsasən müharibənin şiddətini proqnozlaşdırmaq mümkündür. Klassik müharibələr dövründə mülki şəxslərlə əsgərlər arasındakı fərqin kifayət qədər aydın olması da bu məqamda çox vacibdir. Hərbi qüvvələr düşmən ordusunu məhv etmək və ya zərərsizləşdirmək üçün hərəkət etməklə yanaşı, onların məqsədi təkcə düşmən ordusunu məhv etmək deyil, həmçinin düşmən ölkənin ərazisini də işğal etməkdir [15, s. 101].

Hərb tarixi araştırmaçısı olan Geoffrey Parker bu cür müharibələrdəki yerlər ilə bağlı iddia edir ki, bu ərazilər əslində dünyanın çox kiçik və spesifik nöqtələrində baş vermişdir [13, s. 431]. Parker bildirib ki, dünya tarixində dəniz döyüşləri həmişə müəyyən bölgələrdə olubdur. Məsələn, Aktium, Nafpaktos və Lepanto kimi dəniz döyüşləri, demək olar ki, eyni yerdə baş verib [13, s. 431]. Müəllif iqlim baxımından dünyanın əksər yerlərinin çox yüksək, rütubətli, isti və ya soyuq olduğunu, buna görə də müharibələrin quruda çox kiçik və spesifik ərazilərdə aparıldığını bildirir. Məsələn, Ədirnə bölgəsinin 1600 il ərzində on beş müharibə görməsinin səbəbi Avropanın Şərqdəki axırıncı düzənliyi olması və həm şərqdən, həm də qərbdən gələn qüvvələrin əldə etmək istədiyi bir yerdə yerləşməsidir [13, s. 432].

Klassik müharibələr ilə əslində birinci, ikinci və üçüncü nəsil müharibələr nəzərdə tutulur. Bu üçü arasında müəyyən fərqlər olsa da, bunlar kiçik fərqlərdir və bu müharibələrin əsas nöqtələri sabit qalmışdır. Birinci nəsil müharibəsi hərbi inqilabın tətbiq edildiyi müharibə üsullarından 19-cu əsrin ortalarına qədər olan dövrü əhatə edir. Təkcə birinci nəsil müharibəsində belə, döyüşçülər və döyüş maşınları çoxlu dəyişikliklər görmüşdür.

"Hərbi inqilab", 15-16-cı əsrlər boyu Avropanı mərkəz kimi götürən hərbi dəyişiklik və transformasiya nəzəriyyəsidir [1, s. 72]. Birinci nəsil müharibələr böyük təsirə malik olmuş və uzun müddət davam edəcək bir tendensiya yaratmışdır. Bu dövrdə böyük dağıdıcı gücə malik odlu silah döyüşlərə daxil edilmişdir. Buna uyğun olaraq yeni müdafiə, yeni hücum üsulları və arxitektura dəyişiklikləri meydana gəlmişdir. Silahlarda barıtın istifadəsi ilə başlayan bu proses sonda müasir dövlətə aparan bir zənciri başlatmışdır. Əlbəttə, müharibə texnologiyalarındakı cari inkişafın barıtın ixtirası və istifadəsindən daha az əhəmiyyət kəsb etdiyini demək düzgün olmaz. Ancaq barıtın ixtirası və istifadəsinin sonraki min illər ərzində müharibə anlayışına yön verdiyi də bir reallıqdır.

İkinci nəsil müharibələr isə Amerika vətəndaş müharibəsində ilk əlamətlərini gördüyümüz, əsas dəyişikliklərin isə Birinci Dünya müharibəsində baş verdiyi müharibələrdir. Bu dövrdə biz döyüş meydanlarında pulemyotlar, müasir haubitsalar və minaatanlar görürük [1, s. 55]. Müdafiə qüvvələri isə məftil hasarlarla və çoxlu sığınacaqların olduğu yerlərdə qorunurdular. Ancaq ikinci nəsil müharibələrində ən fərqli elementlər, şübhəsiz ki, təyyarələr, tanklar və kimyəvi qazlar idi. Bu ünsürlərin ayrı bir parametr kimi müharibəyə girməsi ilə

müharibə üsullarının və müharibə qavrayışının dəyişdiyini qəti şəkildə irəli sürmək mümkündür. Müqayisə etsək, yüz minlərlə, hətta milyonlarla əsgərin iştirak etdiyi birinci nəsil müharibələrdə gördüyümüz "qəhrəman əsgər" fiqurundan ikinci nəsil müharibələrdə ancaq təbliğat elementi kimi istifadə olunur [1, s. 162].

Bu müharibələrdə təkcə hərbi birləşmələr deyil, xalqlar da vuruşurdu. Bu kontekstdə təkcə ordular deyil, iqtisadiyyatlar və digər bütün resurslar da müharibə edirdi. Bu baxımdan, ikinci nəsil müharibələrdə sənayenin əhəmiyyətini vurğulamaq çox vacibdir. Bu müharibələrdə sənaye inqilabını uğurla başa vuran dövlətlər böyük üstünlüklərə sahib idilər.

Üçüncü nəsil müharibələrin isə ən böyüyü İkinci Dünya müharibəsidir. Üçüncü nəsil müharibələrdə döyüş platformaları dövrün ən inkişaf etmiş formasını almışdır və bu platformalar üçün doktrinalar işlənib hazırlanmışdır. Bu cür doktrinalara "ildırımsürətli müharibə"ni misal göstərmək olar. Üçüncü nəsil müharibələrdə inkişaf etmiş tanklar, döyüş təyyarələri və zirehli gəmilər həlledici döyüş maşınına çevrildi. Bundan başqa, bu tip müharibələrdə düşmənin güclü müdafiə xətlərini yarmaq üçün sızma hərəkətləri, manevr hərəkətləri və hava-desant taktikalarından istifadə olunmağa başlandı. Bu müharibələrdə bəlkə də ən böyük yeniliklərdən biri döyüş sahəsində oldu. Qərargahlar artıq radiolar vasitəsilə cəbhələrdən xəbərləri çox sürətlə ala bilir və bu, hücumda verilən reaksiyaların itiliyinin artmasına səbəb oldu. Bu həm də amfibiya və birgə əməliyyatlar kimi bir çox müxtəlif növ hərbi qüvvələr tərəfindən həyata keçirilə bilən əməliyyatları mümkün etdi.

Göründüyü kimi, müharibələrin ilk üç nəslinin şərti müharibələr olduğunu söyləyə bilərik. Düşmənlərin tez-tez bir-birini gördüyü üçüncü nəsil müharibələrdən başqa, digər nəsillərdə də görə bilərik ki, müharibə hələ də müəyyən yerdə və müəyyən vaxtda baş verir və istifadə olunan maşınlar döyüş meydanında olur. Diqqətçəkən məqam isə ondan ibarətdir ki, hər nəsildən sonra müharibələrin şiddəti daha da artır və döyüş meydanı böyüyür.

**Dördüncü nəsil müharibələri**

Müasir müharibələr dördüncü nəsil müharibələr adlanır. Dördüncü nəsil müharibələrinin tərifini vermək olduqca çətindir. Artıq döyüş meydanı yoxdur, ya da bu meydan bütün dünyadır. Ümumiyyətlə, burada "döyüş meydanı" termenindən daha çox "əməliyyat sahəsi" termini daha uyğun ola bilər [1, s. 66]. Dördüncü nəsil müharibələrin döyüş alətləri isə görünməmiş dərəcədə müxtəlifdir. Bundan əlavə, bu alətlərdən istifadə edən mütəxəssislərin əməliyyat sahəsində olmasına da ehtiyac yoxdur. Minlərlə kilometr uzaqlıqda onlar yalnız bir neçə düyməyə basmaqla silahlardan istifadə edə bilirlər. Belə müharibələrdə əsas məsələ digər nəsillərdə olduğu kimi düşmən ordusunu məğlub etmək və ya məhv etmək deyil. Düşmən ölkənin ərazisini işğal etmək də arzuolunmazdır. Məqsəd bir çox asimmetrik hərəkətlərlə birbaşa döyüşə girmədən siyasi hədəfləri tutmaq və ya zərərsizləşdirməkdir [1, s. 67].

Başqa sözlə desək, dördüncü nəsil müharibələrin dəqiq sərhədləri yoxdur. Sırf ağ və qara mövqelər əvəzinə çoxlu boz mövqeləri ehtiva edir. Bu nəzəriyyənin sahibi olan Lindin sözlərinə görə, bu cür müharibələr ilə müharibə və sülh arasındakı fərq sıfıra enəcək. Lindin bununla bağlı arqumentləri çoxdur [10, s. 23]. Müəllif texnoloji tərəqqiyə əsaslanan dördüncü nəsil müharibələrin həm üstünlüyü, həm də mənfi cəhətləri olduğunu irəli sürür. Mənfi tərəflər hekləmə və virus göndərmə kimi texnologiyaların istifadə edilməsidir. Bununla belə, yeni taktika və strategiyalar üçün süni intellektdən istifadənin də böyük üstünlükləri olacaq.

Ancaq üçüncü nəsil müharibələri kimi texnologiyaya deyil, ideyalara əsaslanan dördüncü nəsil müharibə ssenarisində Lind qeyri-Qərb ölkələrinin bu baxımdan daha üstün olduğunu və xüsusilə müsəlman və Asiya xalqlarının bu barədə uğura nail ola biləcəyini söyləyir. İslamofob bir üslub olsa da, Lindin bu məqamda terrorizmdən bəhs etdiyini xatırlamaq yerinə düşər. Bu məqamda Lind terrorçuların üstünlüyü kimi konkret bir uniformanın olmaması, klassik ordudan fərqli olaraq tam iyerarxiya strukturunda olmamaları kimi halları sıralayırlar [10, s. 23].

Bütün bunlara silah şirkətləri və müharibə üçün işçi qüvvəsi təmin edən şirkətlərin əlavə edilməsi işləri daha da mürəkkəbləşdirməklə yanaşı, demokratik dövlətləri bir-birinə müharibə elan edə bilməyən, lakin lazım bildikləri zaman "fəaliyyət göstərməyə" məcbur olan vəziyyətə salır. Dövlətlər muzdlu əsgərlər sayəsində nəinki ictimaiyyətə "şəhid" xəbəri çatdırmayacaq, həm də siyasi məqsədlərini reallaşdıracaq və beynəlxalq hüquqda "boz ləkə" olan bu sahədə istədikləri addımı ata biləcəklər. Bununla belə, dördüncü nəsil müharibələrə daha optimist yanaşanlar və bu nəzəriyyənin tam doğru olmadığını müdafiə edənlər də vardır [1, s. 99].

**Müharibə nəzəriyyəçiləri**

Texnologiyanın inkişafı və müharibələrə təsirinin artması ilə bütün dünyada, xüsusilə Avropada müharibə, siyasət və sülh kimi mövzularda yeni fikirlər, ideyalar və doktrinalar irəli sürülməyə başlandı. Bu hadisənin ənənə halını alması, müharibə və fəlsəfə tarixi ilə assosiasiya olunması ilə Klauzevitz, Jomini və Makiavelli

kimi mühüm nəzəriyyəçilər ortaya çıxdı.

**Klauzevitz**

Karl Fon Klauzevitz 1780-ci ildə Prussiyada anadan olmuşdur. Atası da zadəgan və hərbçi olan Klauzevitz cəmi 13 yaşında ikən hərbi xidmətə başlamışdır. Gənc yaşlarında ikən çoxlu müharibələr və hərbi kampaniyalar görən Klauzevitz 21 yaşında Prussiya Hərbi Akademiyasına daxil olur. O, burada Kant və Fixte kimi filosofların müharibə ilə bağlı fikirlərini öyrənmişdir. Ancaq birinci nəsil müharibələri kateqoriyasında onun həyatında və düşüncələrində ən böyük dəyişiklikləri Napoleon müharibələri etdi [4, s. 44]. Klauzevitz müharibə haqqında fikirlərini və bir çox konsepsiyalarını "Müharibə haqqında" əsərində yazmışdır. Klauzevitzin müharibə ilə bağlı düşüncə və nəzəriyyələrinin müasir dövr ilə uyğunlaşmadığı deyilsə də, əksinə, bir çox mütəxəssislər hətta bugünkü asimmetrik müharibələrin belə Klauzevitzin nəzəriyyəsi ilə uyğun olduğunu və "Müharibə haqqında" kitabının hələ də aktual olduğunu iddia edirlər [4, s. 45].

Klauzevitzin kitabındakı ən mühüm və məşhur iddialardan biri də müharibənin siyasətin davamı olduğunu söyləməsidir. “Müharibə haqqında” əsərində deyir: “Müharibə yalnız başqa vasitələrlə siyasətin davamıdır [4, s. 46]”.

Klauzevitz müharibəni siyasi vasitə görməklə yanaşı, siyasi niyyəti bir məqsəd, müharibəni isə bir vasitə hesab edir. Klauzevitsin fikrincə, müharibələr yalnız siyasi fəaliyyət kimi məqbuldur. Bir dövlət ordusunu səfərbər etməzdən əvvəl onun siyasi məqsədi olmalıdır. Əks halda, döyüşən ordunun ölkə üçün qazanacağı heç nə olmayacaq. Klauzevitzə görə, müharibənin tərifinin də siyasi mənası var. Yazıçı üçün müharibə ancaq siyasi subyektlər arasında aparılır. Yəni Klauzevitz müharibəni siyasi bir hadisə kimi görür. O, kitabında müharibə nəzəriyyəsini də açıqlayıb və siyasətsiz müharibələrin sırf zorakılıq olduğunu və bunu ancaq vəhşi qəbilələrin edə biləcəyini bildirib. O, müharibədə siyasi məqsəd və qazancın olması lazım olduğunu müdafiə edirdi [4, s. 49-50].

**Jomini**

1779-cu ildə İsveçrədə anadan olan Jomini peşəkar karyerasına bankir kimi başlamış, lakin tezliklə aşağı rütbədə Napoleonun ordusuna qoşulmuşdur. İddialı və istedadlı Jomini bu prosesdə özünü göstərməklə yüksəlməyə başlamışdır. Jomini Napoleonu ən yaxşı anlayan və dəyişən müharibənin dinamikasını asanlıqla qavrayan bir hərbçi idi [7, s. 15]. Onun əsərləri də bu istiqamətdə yazılmışdır. Onun “Müharibə sənəti” adlı kitabında xüsusilə zabitlərə bəzi praktiki məlumatlar verməyə meyilli olduğu görünür. Bununla belə, o, müharibə nəzəriyyəsi haqqında da yazıb [7, s. 16].

Jomini Klauzevitzin kitabında uzun sürməyən logistika və dəniz gücü kimi anlayışlara da toxunmuşdur. İkisi arasındakı əsas fərq müharibəni bir elm və ya sənət kimi görməkdir. Jominin strategiyada çox aydın qaydaları olmasa da, bəzi planlar həyata keçirildikdə bir tərəfə üstünlük verəcək şeylərin olduğunu iddia edir [7, s. 17]. Məsələn, Jomini "Müharibədə hər zaman yaxşı nəticələr əldə etməyə kömək olan prinsiplər vardır. Bu prinsiplər silah növlərinə, zamana və məkana görə dəyişmir" deyirdi. Göründüyü kimi, Jomini müəyyən mütləq qaydaların olduğunu və döyüşdə onları tətbiq edənlərin üstün tərəf olacağını iddia edir. Lakin Klauzevitzə nəzər saldıqda planlanan və həyata keçirilən arasında həmişə fərq olacağına inanır və bu işdə müəyyən qaydalar olmadığını, Jomininin müəyyən etdiyi prinsiplərə etibar etmədiyini deyir [7, s. 18].

**Makiavelli**

Makiavelli 3 may 1469-cu ildə İtaliyanın Florensiya şəhərində anadan olub. O, nəcib sayıla bilən, lakin kasıb bir ailədən idi. Buna baxmayaraq, yaxşı təhsil alan Makiavelli sonradan şəhərin idarəçiliyində müəyyən vəzifələr icra etməyə başlayır. Makiavellinin doğulub boya-başa çatdığı mühitdə İtaliya hələ Fransa və Almaniya kimi birləşə bilməmişdir. Yarımadada bir çox şəhər dövlətləri, həmçinin Venesiya, Milan və Vatikan kimi güclü dövlətlər var idi [9, s. 45]. Buna görə də İtaliyada daim müharibə və qarışıqlıq hökm sürürdü. Makiavelli belə bir siyasi proses daxilində öz ideya və düşüncələrini inkişaf etdirmişdir. Makiavellinin fikirlərinə əsasən, dövlət həmişə müharibədədir, amma faktiki müharibə hər zaman olmur. O bildirir ki, sülh olduqca müstəsna və nadir bir şeydir. Makiavelli “Müharibə sənəti” kitabında müharibə və sülh kimi anlayışlara baxışlarını yazmışdır [9, s. 46].

**Dəyişən müharibələr fonunda dronların təhlili**

Düşməni uzaqdan vuruşaraq zərərsizləşdirmək fikri, əlbəttə, yeni bir fikir deyil. Bəlkə də bəşəriyyət ilk dəfə özünü müdafiə etmək və ya vəhşi heyvanları onlara yaxınlaşmadan öldürmək üçün ibtidai nizə və ox icad etmişdir. İnsanlar bu alətləri istər-istəməz öz düşmənlərinə, yəni bir-birlərinə qarşı da istifadə edirdilər. Xüsusilə əhalisi az olan köçəri tayfalarda bu döyüş növü itkiləri minimuma endirmək üçün vacib üsul idi. Çünki canlı qüvvə itkisinə dözümlülüyün az olduğu qəbilələrdə döyüşdə bir nəfərin belə sağ qalması çox vacib idi. Bu anlayış indiki oturuşmuş cəmiyyətlərə də sirayət

etmişdir. Demokratik hökumətlərin artıq bir əməliyyatda insan itirməyə səbri yoxdur. Lakin bunun səbəbinin köçəri tayfalardan bir qədər fərqli olduğunu deyə bilərik. Hökumətlər onları hakimiyyətə gətirən vətəndaşlar qarşısında cavabdehlik daşıyırlar. Mümkün bir əməliyyatda onlara qarşı baş verəcək can itkisi nəticəsində daxili siyasətdə çox çətin günlər yaşayacaqları qaçılmazdır. Belə olduğu halda hökumətlər və ordular indi "sıfır itki ilə müharibəni" mümkün etmək yolunu seçiblər. Belə itkisiz əməliyyat üçün pilotsuz təyyarələrə bənzər texnologiyalardan istifadə etməyə başlamışlar [3, s. 15].

Pilotsuz uçan aparat daha əvvəl qeyd etdiyimiz adi döyüşlərdəki silahların tam əksinə olan bir silahdır. Silahı idarə edən döyüşçünün döyüş meydanında olması şərt deyil. O, texnologiyanın köməyi ilə silahını kilometrlərlə uzaqdan idarə edə bilir. Bu məsələ ilə bağlı pakistanlı amerikalı hüquqşünas Rafia Zakaria qeyd etmişdir [11, s. 9]: "ABŞ-ın bir yerində dron operatoru pultla kabinədə oturur və ölümcül bombalarla zənginləşdirilmiş pilotsuz təyyarəni idarə edir. Video oyununda olduğu kimi, peyk xəritəsində gördüyü hədəfləri nişan alır və vurur. Kəşfiyyat səhv olduğu üçün bəzən sağ tutulması lazım olan canlı hədəfi öldürür, bəzən də səhv hesablama nəticəsində sivillərə atəş açır".

Qeyd edildiyi kimi, bu keçiddə iki mühüm məqam pilotsuz təyyarə ilə bu silahı istifadə edən şəxs arasındakı əlaqə və pilotsuz təyyarə ilə zorakılığın qarşısının alınmasıdır. İndi həqiqətən də düşmən ərazisi elan edilmiş ərazidə düşmənin hərbi qüvvəsini zərərsizləşdirmək və həmin ərazini düşməndən təmizləmək video oyunu oynamaq qədər asandır. Şübhəsiz ki, bu vəziyyət Klauzevitzin əsərlərində qeyd olunan duel ideyasına qətiyyən uyğun gəlmir [3, s. 25]. Müharibə artıq bərabər və ya oxşar gücə malik iki strukturun dueli deyil. Digər bir məqam isə dronun şiddəti azaltmaq əvəzinə artırması ilə əlaqədardır. Döyüş meydanında məhv edilməsi lazım olan canlı qüvvənin öz əsgərlərinin həyatını təhlükəyə atmadan maşınlarla və cihazlarla öldürmək daha humanist görünə bilər. Ancaq əməliyyatlarda pilotsuz uçuş aparatlarından istifadə edilən əksər bölgələrdə bunun əksini görürük. Bu baxımdan, deyə bilərik ki, dron şiddəti azaltmır, əksinə artırır. Dron əməliyyatları sırf kəşfiyyat məlumatlarına əsasən aparıldığı üçün risklidir və ara-sıra çox sayda sivilin ölümü ilə nəticələnə bilir.

Bununla yanaşı, dron asimmetrik döyüş texnikalarından istifadə edən strukturlara qarşı nizami ordu tərəfindən istifadə edilən bir silahdır. Artıq bir-biri ilə müharibə aparmayan demokratik dövlətlərin orduları Yaxın Şərq və Saxara Afrikası kimi dünyanın bir çox yerlərində asimmetrik döyüşən strukturlara qarşı bu şəkildə mübarizə aparmağa çalışırlar. Ordular pilotsuz təyyarələrdən istifadə etsə də, bu texnologiyanın əksinə ordulara qarşı da istifadə oluna biləcəyini unutmaq olmaz [3, s. 33]. Mülki həyatda indi çox asan və çox ucuz əldə edilə bilən dronların terrorçular tərəfindən istifadəsi yenidən zorakılıq potensialının artmasına səbəb olur və yaxın gələcəkdə böyük bir təhlükəsizlik probleminə səbəb olacaqdır. Deməli, deyə bilərik ki, pilotsuz təyyarələr hərbi-taktiki mənada çox faydalı və effektivdir, lakin siyasi-strateji mənada fundamental problemləri həll etməkdən uzaqdır. Əksinə, o, problemi daha da dərinləşdirən silahdır.

Burada başqa bir məqama da toxunmaq lazımdır ki, "görünmədən görən gözlər" olan pilotsuz təyyarələr indi yeni döyüş növünün və döyüş meydanının ən önəmli oyunçularından biridir. Dördüncü nəsil müharibələrinin təbiətinə uyğun olaraq, bu silahlar əsgərlə onun silahı arasındakı boşluğu artırdı. Bu baxımdan, qeyd olunduğu kimi, dronlar video-oyun oynamaq kimi istifadə oluna və doğru, ya da yanlış məlumatla düşməni vura bilər. Ancaq indi təhlükəsizlik probleminə çevrilən pilotsuz təyyarələrlə bağlı yeni anti-dron atış sistemləri və silahları istehsal olunmağa başlayıb.

**Nəticə**

Tarix boyu müharibələr böyük dəyişikliklərə və transformasiyalara məruz qalmışdır. İnsanlar müharibələri həm istifadə etdikləri döyüş alətləri baxımından, həm də müharibəni qavradıqları dəyişikliklərə görə təsnif etməyə çalışmışlar. Onlardan biri Uilyam S. Lindin dördüncü nəsil müharibə nəzəriyyəsidir. Döyüşləri həm döyüşçü, həm də silah və mentalitet baxımından dörd nəslə bölən Lind bu gün ən çox xatırlanan müharibə nəzəriyyəçisidir. İlk üç nəsil müharibələr bir-biri ilə təbiəti etibarilə eynidir. Dördüncü nəsil müharibələr isə nəzəri-praktiki baxımdan tamamilə fərqli bir anlayışdır. Dronlar isə dördüncü nəsil müharibələrin ən əsas oyunçularından biridir. Dronlar uzaqdan idarə edilmək funksiyası ilə olduqca rahat idarə edilə bilir və döyüş mövqelərindən kilometrlərlə uzaqdan idarə olunaraq hədəfləri vurur. Ancaq müharibənin fundamental problemlərini həll edə bilməyən dronlar hədəfə düşməmək və mülki əhaliyə zərər vurmaq kimi çatışmazlıqlara malikdir.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Blum, W. Killing Hope: US Military and CIA Interventions Since World War II. London, Zed Books Ltd, 2003.*

*2. Bourke, J. The Second World War: A People's History. Oxford, Oxford University Press, 2003.*

*3. Chamayou, G. A Theory of the Drone. Paris, The New Press, Year, 2015.*

*4. Clausewitz, Carl Von. Savaş Üzerine. (çev. Selma Koçak) Doruk Yayımcılık, İstanbul, 2011.*

*5. Dougherty, D. Enter the Drone Zone. Las Vegas, Maker Media, Inc., 2015.*

*6. Howard, M. The first world war. Oxford, Oxford University Press, 2003.*

*7. Jomini, Antoine H. Savaş Sanatının Ana Hatları. (çev. Selma Koçak) Doruk Yayıncılık, İstanbul, 2002.*

*8. Kaag, J. and Kreps S. Drone Warfare. Polity Press, Cambridge, 2014.*

*9. Kardeş, M. E. Dijital Çağda Savaş: Dron Örneği. Üsküdar Üniversitesi İletişim Fakültesi Akademik Dergisi Etkileşim, 2018, Sayı:2, 96-106.*

*10. Lind, W. S. The Changing Face of War: Into the Fourth Generation. Marine Corps Gazette, 1989, 22-26.*

*11. Medea, B. Drone Warfare Killing By Remote Control. Verso, Londra, 2012.*

*12. Öz, T. ve Sert, S. The Present Role of Anti-Drone Technologies in Modern Warfare and Projected Developments. Güvenlik Stratejileri Dergisi, 2019, Cilt: XV, Sayı: 32, 691-711.*

*13. Parker, G. Cambridge Savaş Tarihi. (çev: Füsun Tayanç- Tunç Tayanç) Türkiye İş Bankası Kültür Yayınları, İstanbul, 2017.*

*14. Romya, B. K. Clausewitz'in Savaş Teorisi ve Yeni Savaş Çalışmaları. Millî Güvenlik ve Askerî Bilimler Akademik Dergisi, Cilt:II, Sayı:8, 39-61.*

*15. Sloggett, D. Drone Warfare: The Development of Unmanned Aerial Conflict. Chicago, Skyhorse Publishing, 2015.*

*16. Şengönül, A. Dördüncü Nesil Savaş Kapsamında Türkiye İçin Strateji Tartışmaları. Doktora Tezi, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü, Konya, 2018.*

## XÜLASƏ

Tədqiqatda ilk üç nəsil müharibələr araşdırılmış və əsas əhəmiyyət dördüncü nəsil müharibələrə verilmişdir. Hal-hazırda müharibənin ilk üç nəsilindəki kimi əsgər tipi, döyüş meydanı, silah və müharibə anlayışı yoxdur. Məqalədə bu anlayışların necə inkişaf etdiyinə dair tarixi dinamika təhlil olunur. Bu baxımdan, müharibə nəzəriyyəçilərinin fikirlərinə yer verilir, araşdırmanın son hissəsində isə dördüncü nəsil müharibələri əsasında dronların analizi aparılır. Asimmetrik döyüşlərdə istifadə olunmaq üçün nəzərdə tutulan pilotsuz təyyarələrin demokratik rejimlər tərəfindən daha çox və daha uğurla istifadə olunduğu vurğulanır. Məqalədə eləcə də dronların effektiv funksiyaları ilə yanaşı, çatışmazlıqlarından da danışılır, onların yanlış kəşfiyyat məlumatı ilə olduqca səhv mövqelərə atəş aça biləcəyi qeyd olunur.

**Açar sözlər:** *Asimmetrik müharibə, dördüncü nəsil müharibə, dron, müharibə.*

## TRANSFORMATION OF CLASSICAL WAR AND DRONES

### SUMMARY

The study examines the first three generations of wars and focuses on the fourth generation of wars. At present, there is no concept of soldier type, battlefield, weapons and war, as in the first three generations of the war. The article analyzes the historical dynamics of how these concepts developed. In this regard, the views of war theorists are included, and the last part of the study analyzes drones based on the fourth generation of wars. It is emphasized that drones designed for use in asymmetric combat are being used more and more successfully by democratic regimes. In addition to the effective functions of drones, the article also discusses their shortcomings, noting that they can fire at very wrong positions with false intelligence.

**Keywords:** *Asymmetric war, fourth generation war, drone, war.*

## ТРАНСФОРМАЦИЯ КЛАССИЧЕСКИХ ВОЙНОВ И ДРОНЫ

### РЕЗЮМЕ

В исследовании рассматриваются первые три поколения войн и основное внимание уделяется четвертому поколению войн. В настоящее время нет понятия типа солдата, поля боя, оружия и войны, как в первых трех поколениях войны. В статье анализируется историческая динамика развития этих понятий. В связи с этим включены взгляды военных теоретиков, а в последней части исследования анализируются беспилотные летательные аппараты на основе войн четвертого поколения. Подчеркивается, что дроны, предназначенные для использования в асимметричных боях, все успешнее используются демократическими режимами. Помимо эффективных функций дронов, в статье также раскрываются их недостатки, отмечая, что они могут вести огонь по очень неправильным позициям с ложной разведкой.

**Ключевые слова:** *Асимметричная война, война четвертого поколения, дрон, война.*

UOT 327;930.22

# SISTERS OF THE CALIPHATE. UNDERSTANDING AND ADDRESSING THE PROBLEM OF ISIS FEMALE RECRUITMENT

**FARAH MAMMADOVA**

*MA Student of Baku State University; Politics of the Middle Eastern Countries in the Modern Period*

*E-mail: farah.mammadova@abc.edu.az*

**Introduction**

Every terrorist organization has its own set of beliefs and behaviors. As a result, women's engagement in each organization is likely to differ. Traditionally, terrorism has been considered a male domain. Women are diverse. They must be seen as multidimensional individuals who, like men, are products of their social, cultural, and political circumstances. Historically, there are numerous examples of women involved in terrorism and violent extremist organizations – from the People's Will and the assassination of Tsar Alexander II, to the suicide bombers of the Liberation Tigers of Tamil Eelam (LTTE), to the Popular Front for the Liberation of Palestine (PPLP), and the Black Widows of Chechnya [4: p 65]. At the end of 2015, the number of combatants going to Syria and Iraq had reached between 27,000 and 31,000 from at least 86 countries. In the case of Western Europeans, it had risen from 2,500 in June 2014 to over 5,000 by December 2015.[7: p. 5]

ISIS as a revolutionary neo-fundamentalist group and has been seen in the West as a completely patriarchal organization in which women's roles were small and meaningless. However, ISIS was able to attract many Western women. ISIS is one of the largest and the most lethal terrorist groups to date. It functioned with its so-called Caliphate as a proto-state for over four years. At its zenith in 2014, ISIS had managed to take over approximately 40 percent of Iraq and 60 percent of Syria.[5: p.36]. Furthermore, it was one of the wealthiest terrorist organizations in history, with funding coming from a variety of sources, including bank fraud, ransom for hostages.It also benefited from looting, antiquities sales, human trafficking, population taxes.

The process of radicalization differs for each individual, but there are similar underlying ideological and psychological variables that contribute to one's susceptibility to terrorist propaganda. Although the motives for these women joining the organization and travelling to Syria and Iraq are similar to those of their male co-religionists, there are certain differences, as is the case with their profile. The messaging used to attract and recruit them, as well as the functions they perform within the organization, are all different.

It is difficult to estimate the number of Western women who traveled to Syria and Iraq to join DAESH and other terrorist organizations,but still,some sources suggest that women may represent 10-15% of those from Western countries who joined Islamic State. [13:p.48] The London-based International Center for the Study of Radicalization and Political Violence (ICSR) had also estimated 550 women Western foreigner to be in combat. [3: p.16] A new French hotline had also have a report of jihadist radicalization in 45 percent of inquiries on women who wanted to join the ISIS rebel movement.[2:p.9]

**Motives for visiting the "Islamic State" controlled territories**

Women in the Middle East often do face the same issues as men do: unemployment, inadequate governance, restricted access to basic social services, widespread corruption and injustices, and political tyranny and instability. Such circumstances predispose them to ISIL's unrealistic depictions of a well-equipped "state" that promises amenities tailored to women's needs. This leads to social isolation and dissatisfaction with present society, making certain people more open to propaganda portraying ISIS as a Muslim community of shared acceptance and "sisterhood." [4: p.2]

Women are told, "Free yourself from ignorance and learn the matters of your religion" so that you can become a mujahidah by entering "fierce battles between truth and falsehood". The specific phrases ISIS employs for these propaganda messages, such as "you (women of ISIS) are the hope of the Ummah" and "the Ummah will not rise without your help," celebrate women's capacities for action, strength and influence and combine to create sophisticated and complex appeals.[17: p.36-40]

Women are urged to "be tough and strong," and even to serve as mentors to their male partners.

Women are encouraged to migrate from Darul Kufr (country of the unbelievers) to "the land where Islam and its people are venerated," in the footsteps of their foremothers.

What are women's motivations for joining the Islamic State? Women's motivations for joining ISIS, like those of male combatants, are multifaceted. Depending on whether they are traveling alone or with their spouses, all women entering in IS-controlled territory can be classified into two groups. When a lady travels alone, she frequently enumerates the various reasons for his visit to Syria. Her decision is frequently based on the fact that she faces substantial and unpleasant challenges in the society in which she lives. The main reason for a woman to go to ISIS is often called the feeling of revenge in connection with the loss of the main of the men in her life: father, son, husband or brother.[8: p.7-8] Unmarried women in IS-controlled areas live in hostels and do not pay rent or utilities.They are given meals and money for trifling expenses on a monthly basis. The Islamic State pays a new arrival man $ 100 per month, a lady $ 50, and per each child $ 35.[14: p.17]

Many young ladies from Islamic nations have decided that they can marry a "mujahiddeen hero" here and establish a family since the Islamists have managed to create viable state structures and project a full-fledged state image in the media.

ISIS, on the other hand, states that if a woman wants to join the group, she must be married. The wedding takes place soon after the woman arrives in IS-controlled territory. If the husband dies, the second marriage is encouraged, and the procedure for starting a new marriage is simplified. Women and girls are increasingly encountering prejudice based on their skin color and/or their choice of apparel, such as the hijab, as a result of the rise of Islamophobia in the West and fear of religion in sections of Muslim-majority countries. Women may also assume that in an ISIS society, they will have more agency than they do in their own because their domestic tasks will be acknowledged, appreciated, and even praised.

One should notice, there is a particular demand for Russian-speaking girls. North Caucasus militants who feel alone amid their Arabic-speaking comrades need brides from the CIS nations, because the fathers of families in Syria forbid their daughters to marry foreign fighters.[1: p.4-5]

Some young girls were simply «bored» and unmotivated. They could not find any real meaning in their lives. For them, the possibility of being part of a movement that claimed to change the world was quite attractive. This new utopia also offered many women a supposed escape route and the feeling that by joining DAESH they would be empowered, have an exciting life and do something important that would give meaning to their existence. Many women are also motivated by feelings of isolation and disconnection from their national and cultural heritage. This is especially true for young females in Western countries who may find it difficult to reconcile their religious and national identities.

Although not sufficient to explain the desire to join the Caliphate, religious motivation is more prevalent among Western women than among their male counterparts. Some women saw the Caliphate as an opportunity to actively participate in a state-building process and contribute to the creation of a new society and imposes restrictions on them in fulfilling the precepts of their religion. These ladies do not speak of joining a terrorist organization, but of helping to the establishment of a new, ideologically pure society in which they may live "honorably" and "religiously" according to a rigid interpretation of Sharia law.

**Women's Roles In ISIS**

***Wife/Mother***

Women's primary responsibility in ISIS is to bear as many children as possible as fast as possible. ISIS propaganda depicts women as capable home managers. Furthermore, this position is viewed as spiritually right. Furthermore, these women are publicly urged to regard the death of their potential ISIS spouse as an honor; the honor of being a martyr's widow is frequently actively desired and aspired for. Women are required to raise their boys as ISIS militants, while daughters are expected to marry DAESH soldiers and have a big family for the same goal. Unmarried women and widows, and any children they have, are required to live in a "maqqar" (women's house) and they can only leave the house once a week.[8: p.5]

***Al-Khansaa***

The highest active position in which a woman can participate in is being a member of Al-Khansaa Bri-

gade of the Umm All-Rayaan. It is the formation of all-female religious police to enforce “hisbah” (that is, to ensure that Sharia law is followed) among other women. The Al-Khansaa Brigade, called ISIS’s "morality police," is entrusted with clamping down on women who fail to follow ISIS's stringent form of Sharia law, which requires women to be fully covered in public. The Umm al-Rayan Brigade was formed with the goal of exposing males who disguise themselves as women in order to evade incarceration at ISIS checkpoints[17: p.16] The ladies of Umm al-Rayan have the right to halt anybody wearing a headscarf, niqab, or burqa.

***Recruiters***

A second critical function for a woman in ISIS-held area is to recruit other ladies. Women who choose to participate online tend to reflect ISIS's radical side and frequently applaud the bloodshed inflicted by the self-proclaimed "caliphate."[14: p.12].These ladies issue threats against “kuffar” (disbelievers) and opponents, and encourage followers to carry out violent assaults overseas if they are unable to undertake “hijra” and join ISIS there. The genuine and significant threat that these ladies pose to international peace and security is their ability to encourage many more women to join ISIS. Blogs and forums offer practical advise on how to overcome family concerns, what clothing to bring, how to cross the ISIS territory, and what to anticipate upon arriving.

***Militant***

Historically, jihadist women and widows have mobilized and taken up weapons when their male counterparts' numbers have declined (for example, the Chechen female bombers known as "black widows"). According to ideology of the Al-Khansaa Brigade, women must not fight until a “fatwa” has determined that they must fight and participate in jihad because the Ummah's position has grown urgent, "like the ladies of Iraq and Chechnya did, with great agony."[6:p.26] These are the cases of the all-female Daesh terror cell behind a failed terrorist attack near Paris’s Notre Dame Cathedral, the women being trained for combat and suicide bombing attacks in Libya and the suicide attacks in Nigeria’s border areas orchestrated by Boko Haram.[9: p.58] The purpose of Figure 1 is to to demonstrate just the key responsibilities played by ISIS' network of women.

**Figure 1**




## Relational Development Approach

The theory of relational development describes how interactants—for example, spouses, negotiators, and so on—follow relationship phases in order to enhance their interpersonal communication or social tie. According to the notion, interpersonal discourse causes relationships to go through phases. There are 5 main phases which ISIS went through while it gained support and followers.

The ***initiating*** phase is likely the most crucial: the communication part of recruiting has just recently begun. The recruiter or sympathizer contacts an individual or potential recruit. People begin to recognize each other. ISIS operates websites and periodicals through online chat rooms, Facebook, and Twitter, all of which contribute to a favorable "first impression."

The second step is ***experimenting***. This stage occurs after the recruiter's initial impression is created and the interactants decide to seek further conversation. They tell potential recruits whatever they want to hear in order to win their attention and support. Dabiq (ISIS Magazine) describes in details ISIS's titanic wealth: in addition to build a five-star hotel in Mosul, the group promises a with a salary to the most devoted mujaheddeen and a property with a pool. [12: p.17-19] According to Driscoll, an ISIS fighter approached a lady who went undercover online in order to recruit her. He lavished her with flattery and assured her that "when you come here, you'll be treated like a princess."[10: p.36]

ISIS recruiters have already established contact

with people via SNSs or online chat rooms during the ***intensifying*** phase. To put it another way, ISIS has now established a comfortable discourse with whom they appear to be forming a long-term connection. At this point, interactants are no longer participating in casual conversation, but are instead getting more serious. At this stage, ISIS recruiters are encouraging the individual that they should join their group, and their interactions are growing more intimate. Females at this period are also more likely to engage in a "romantic type" connection online with an ISIS member. Most women are drawn in by messages of acceptance, affection, and appreciation. However, like other recruits, they are unaware of their true rights, housing situations, and lack of freedom until they arrive in Syria or Iraq.[15: p.22] Recruiters have even urged interested web users to speak with their loved ones to understand where they stand and maybe persuade them to join along with them. In other cases, recruiters have persuaded young people to disappear in order to avoid detection or arrest. Young Western women in particular have been put in danger. This was the situation with three British girls who went missing and were later discovered in Turkey attempting to enter the Syrian border. They were enticed to join the cause after months of internet communication with ISIS.[11: p.36]

The successful recruiting itself, in which new recruits relocate to Syria or Iraq to join ISIS, is referred to as ***integrating***.

***Bonding*** is the final stage of relationship escalation, in which individuals have developed a deep friendship and are totally dedicated to fighting with ISIS and upholding the loyalty they have vowed to Abu-Bakr al-Baghdadi. Members must also be "hazed" into the terrorist organisation in a form of public initiation in order to demonstrate their absolute commitment to ISIS. To be more specific, they must commit a public act of killing the enemy — even if it means killing their own mother.[7: p.5]

While most recruitment occurs online via various social media platforms, researches show that offline relational networks are also important. Women traveling to ISIS, for example, are frequently the sisters, daughters, and wives of male militants.

**Case Study:Leonora Messing**

When Leonora vanished unexpectedly in 2015, Mike Messing's entire life shifted. They were from Saxony-Anhalt,Eastern Germany. Six days after her disappearance, her father got a telegram notifying him that his daughter had "chosen Allah and Islam" and had "arrived in the caliphate." Maik had missed the fact that his daughter had become radicalized. Leonora had been leading a parallel Islamic life online, sharing her experiences in Facebook and WhatsApp groups. She was not afraid of living in the so-called Caliphate. She married high-ranking German IS terrorist Martin Lemke, who worked for IS intelligence after leaving Germany. Leonora, his third wife, began her married life in Raqqa. She used voice messaging and social media to communicate with her relatives back home. The psychological pressure on Maik Messing was so intense at times that he considered suicide. Meanwhile, Leonora's father did everything he could to return his daughter to Germany. She had been leading a double life and was going to a mosque in the western city of Frankfurt.

Prosecutors claim Messing participated in human trafficking after her husband "purchased" and later "sold" a 33-year-old Yazidi woman.She was imprisoned in a Kurdish-controlled camp in northern Syria after giving birth to two young kids.Martin Lemke, her husband, was taken in 2019 by the Syrian Democratic Forces, the Kurdish administration's de facto army, according to two of his wives at the time.

Messing was repatriated in December 2020 as part of one of four operations that returned 54 persons, the majority of whom were youngsters, to Germany.

When Messing arrived at Frankfurt Airport, she was imprisoned but subsequently freed.[18]

**Deduction.Tackle a problem.**

I have scrutinized not one female profile joining ISIS. Leonora Messing attracted my attention the most, because of her young age and fortitude. In my humble opinion, there are numerous factors which I emphasize as the most concise and bright ones. What do these women want us to see by taking this step? "Look at me,from now on I do take control of my own life, I gain power, I gain respect as a female jihadist, I am identified, I do belong to Sisterhood, which I have a very tight "bonds" with, not "fake" ones I had at home, I have raised my status as a woman, as a wife, from a girl I become a mother,

so I am honored.”-they think.

Young people have to differentiate what is Islam and Islamism,Jihad and Jihadism. A special,both online and offline programmes should take place in civil societies,in media, in schools. It must ne diversified in content, available in many languages so that a big scope of audience is captured.Twitter,Youtube and Instagram are the best platforms to do it. On the sample of ISIS,this stream of information must show what a propaganda is,how does it start,why do extremists depict a perfect community. So it should NOT be aimed only to counter a violence but first and foremost teach people to distinguish it and not confuse.

Secondly,should a rehabilitation and repatriation take place? I reckon,definitely yes. Leaving no alternatives to returnees and avoiding them is not a solution. Social enterprises and industries should help in this process[6: p.7].

**Conclusion**

Female extremism is a part of political struggle for identity and security. So in my study I revealed that the roots of a female motivation for joining to ISIS are coming from ‘emancipation’. It is a gender-specific interpretation. I did identify the driving forces such as an a) ideological and religious duty, b) the wish to have a “belonging”, c) empowerment, and it is a big step forward. But here is what we miss. We should have a look at our own societies. We miss the evanescent moment, when a space for being radicalization is being created.This happens when one feels isolated. We can easily miss it in our families, schools and etc. ISIS’ success in recruiting so many women has been unprecedented. It means that ISIS find out successfully how to catch up those parts we missed. By reading this article one can now see,that female jihadist propaganda is stronger than male’s. Reason? Because it always had been underestimated. Do those women hold a “back seat” in the Caliphate? Unquestionably, no. But, there is one issue one must notice. Despite its violence against women, female sex is irreplaceable in ISIS. Those women are recognized within, so does not matter if she is a mother, wife, an educator, or a doctor. When time comes,they are all involved in violent actions. Today, some western countries such as Denmark, France, Sweden and United Kingdom launched de-radicalization programs,but the reality does not match anticipations initially put on. One should consider that, becoming an ISIS member, those women once had ignored the prejudices and stereotypes, so being de-radicalized afterwards does not change the fact that those victims are still risk assessed and categorized.

**BIBLIOGRAPHY:**


*1. Aryn Baker, 'How ISIS Is Recruiting Women From Around the World', TIME, September 2014, 19 pp.*

*2. Bakker E., de Leede S. European female jihadists in Syria: Exploring an underresearched topic / International centre for counter terrorism (ICCT). – The Hague, April 2015, 13 pp.*

*3. Benedetta Argentieri, 'From brides to battlefield, women taking up new roles with ISIS', Al Arabiya News, May 2020, 35 pp.*

*4. Bhattacharya, Srobana. “Gender, insurgency, and terrorism: introduction to the special issue.” Small Wars & Insurgencies”,September 2019,1088 pp.*

*5. Bloom, Mia M.. "In Defense of Honor: Women and Terrorist Recruitment on the Internet." Journal of Postcolonial Cultures and Societies,Vol.4, No.1: January 2013,182 pp.*

*6. Dabiq Issue 7, From Hyprocrisy to Apostasy,February 2015,57 pp.*

*7. Frida Ghitis, “In Bitter Irony, Jihadi Women Serve as Useful Propaganda.” World Politics Review,January 2015, 77 pp.*

*8. Islamic State. “The Duty of Women Waging Jihad Against the Enemies,” Al-Nabā’, Vol. 100, October 2017, 11 pp.*

*9. Karen Jacques and Paul J. Taylor, Female Terrorism: A Review, Journal of Terrorism and Political Violence, March 2010, 515 pp.*

*10. Margarette Driscoll, “My ISIS Boyfriend: A Reporter’s Undercover Life with a Terrorist,” New York Post, March 2015, 78 pp.*

*11. Mazarr, Michael J. (2014), “The Age of Grievance: How to Play Resentment Politics”, Foreign Affairs, July 2014, 50 pp.*

*12. Nimmi Gowrinathan, “The Women of ISIS,” Foreign Affairs, August 2014, 30 pp.*

*13. Rafia Zakaria, Women and Islamic Militancy, Dissent Magazine,Philadelphia:The University of Pennsylvania Press,125 pp.*

*14. Saltman, E. M.Smith: Till Martyrdom Do Us*

*Part – "Gender and the ISIS Phenomenon",Institute for Strategic Dialogue, January 2015, 20 pp.*

*15. Sarah Ponder; Jonathan Matusit, "Examining ISIS Online Recruitment through Relational Development Theory", The Quarterly Journal,Issue No.4,January 2017,50 pp.*

*16. Sutten M.L. The rising importance of women in terrorism and the need to reform counterterrorism strategy / School of advanced military studies. – Fort Leavenworth,Kansas, 2009. – 54 pp.*

*17. Women of the Islamic State: A Manifesto by the Al-Khanssaa Brigade, Translation and Analysis by Charlie Winter of the Quilliam Foundation, February 2015, 49 pp.*

*18. Trial begins of 22-year-old German woman who joined IS group in Syria : https://www.euronews.com/2022/01/25/trial-begins-of-22-year-old-german-woman-who-joined-is-group-in-syria*

## ABSTRACT

Women are complicated human beings with a variety of goals, ideologies, and life experiences that influence their decisions. By romanticizing the life of women in the Caliphate, IS has exploited and attracted more women than any of its Jihadist predecessors. My research aims to uncover the factors that motivate women to flee their homes and join ISIS, as well as gain a deeper understanding of the radicalization process. ISIS was chosen for this study because of its unique capacity to efficiently leverage its female network. This article, however, contends that women should not be considered as mere victims of ISIS; rather, they must be held accountable for their roles inside the organization.

**Key words:** *caliphate, jihad, female, ISIS, islam, extremism, terrorism, DAESH, islamic state, recruitment, victim, ideology, jihadist, muslim*

**Фарах Мамедова**

## СЕСТРЫ ХАЛИФАТА. ПОНИМАНИЕ И РЕШЕНИЕ ПРОБЛЕМЫ ВЕРБОВКИ ЖЕНЩИН В ИГИЛ

## РЕЗЮМЕ

Женщины — сложные люди с разнообразными целями, идеологиями и жизненным опытом, влияющими на их решения. Романтизируя жизнь женщин в Халифате, ИГИЛ эксплуатировало и привлекло больше женщин, чем любой из его предшественников-джихадистов. Мое исследование направлено на выявление факторов, побуждающих женщин покидать свои дома и вступать в ИГИЛ, а также на более глубокое понимание процесса радикализации. ИГИЛ был выбран для этого исследования из-за его уникальной способности эффективного управления рычагом сетей женщин. Однако в этой статье утверждается, что женщин не следует рассматривать как простых жертв ИГИЛ; скорее, они должны нести ответственность за свои роли внутри организации.

**Ключевые слова:** *халифат, джихад, женщина, ИГИЛ, ислам, экстремизм, терроризм, ДАИШ, исламское государство, вербовка, жертва, идеология, джихадист, мусульманка*

**Fərəh Məmmədova**

## XİLAFƏTİN BACILARI. QADINLARIN İŞİD-Ə QƏBUL OLUNMASI PROBLEMİNİN ANLAYIŞI VƏ HƏLLİ

## XÜLASƏ

Qadınlar müxtəlif məqsədləri, ideologiyaları və həyat təcrübəsi olan mürəkkəb varlıqlardır və bu amillər onların qərar qəbuletmə prosesinə də mütləq təsir edir. Sələflərindən fərqli olaraq İŞİD xilafətdə qadınların həyatını "romantikləşdirmək", daha çox qadını cəlb etməyə nail olmuş və onları istismar etmişdir. Mənim tədqiqatım qadınları öz evlərini tərk etməyə və İŞİD-ə qoşulmağa sövq edən amilləri, həmçinin radikallaşma prosesinin daha dərindən başa düşülməsinə yönəlib. İŞİD qadınların şəbəkə qolunun effektiv idarə edilməsinin unikal qabiliyyəti səbəbindən bu tədqiqat üçün seçilmişdir. Lakin bu məqalədə qadınların İŞİD-in sadə qurbanları kimi qəbul edilməməklə yanaşı, onların təşkilatdakı rollarına uyğun olaraq məsuliyyət daşımalı olduqları xüsusilə vurğulanır.

**Açar sözlər:** *xilafət, cihad, qadın, İŞİD, islam, ekstremizm, terrorizm, DEAŞ, islam dövləti, işə götürmə, qurban, ideologiya, cihadçı, müsəlman.*

UOT 327;930.22

# İRAN XARİCİ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ MEXANİZMİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ

**HƏCƏR SƏFİYEVA**
*AMEA-nın Fəlsəfə İnstitutunun dissertantı*
*khadijakamal342@gmail.com*

Məkan, ərazi, sərhədlər və iqlim şəraiti baxımından İran misilsiz ölkədir. Dörd bölgədə on beş ölkə ilə dəniz və quru sərhədləri mövcuddur: Yaxın Şərq, İran körfəzi, Mərkəzi Asiya və Qafqaz və Hind yarımadası. İran dünyanın önəmli enerji regionları: İran körfəzi və Xəzər dənizi arasında yerləşir. Sosial və insan amilləri arasında səksən milyona yaxın əhali qeyd olunmalıdır, onun artım tempi Yaxın və Orta Şərqin ən böyük ölkələri ilə müqayisə oluna bilər.

1979-cu ildə İran "İslam Respublikası" elan edildikdən sonra İranın xarici siyasətinin məzmunu köklü dəyişikliyə və islamlaşmaya məruz qaldı. İran Kemp-Devid Sazişinə (1978) qarşı çıxdı və İsraillə əməkdaşlığı dayandırdı, FAT-ı rəsmən tanıdı və Fələstin probleminin həllində fəal iştirak etməyə səy göstərdi. Eyni zamanda, Tehran dünyanın müxtəlif ölkələrində və bölgələrində şiə əhalini dəstəkləyən fəal siyasət yürütməyə başladı. Dünya siyasətində İran İslam İnqilabının qələbəsinin qlobal əhəmiyyətini əks etdirən islam amili meydana çıxdı. İranın özündə islamlaşma prosesi dövlət həyatının bütün sahələrinə, o cümlədən xarici siyasətə təsir göstərdi.

"Soyuq müharibə"nin başa çatmasından sonrakı dövrə İran Cənub-Qərbi Asiyanın regional dövləti kimi qədəm qoydu, ölkənin geostrateji əhəmiyyəti artdıqca onun iki böyük bölgəyə - Yaxın Şərqə, Mərkəzi Asiya və Qafqaza təsiri də gücləndi. Bu regionların hər birində İranın xarici siyasəti onun iqtisadi məqsədlərini və təhlükəsizlik sahəsində tələblərini əks etdirir. Eyni səbəbdən, İranın Qərb ölkələri ilə ikitərəfli əlaqələri çoxşaxəlidir. Cənubda İran Körfəzinin Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına (İKƏDƏŞ) daxil olan ölkələrlə münasibətlərin xarakteri İranın xarici siyasətdəki yeni mövqeyindən xəbər verir. Bölgədə ABŞ silahlı qüvvələrinin mövcudluğu səbəbindən İranın Körfəz ölkələri ilə əməkdaşlığının əsas məqsədi təhlükəsizliyin təmin edilməsidir. Mərkəzi Asiyada İran siyasi vəzifələrin çoxaspektli xarakterinə əsaslanaraq münasibətlər qurmağa çalışır. İran qonşu Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrini iqtisadi əməkdaşlığa qoşulmağa təşviq etmək üçün böyük səylər göstərir. Onu da qeyd edək ki, son onilliklərdə İranın Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığının başlıca məqsədi iqtisadi mənfəət əldə etməkdir (4).

İslam müəyyən dünyagörüşü, İslam Respublikasının prinsiplərini və quruluşunu və dəyər yönümlərini müəyyən edən bütöv dini sistemdir. Bu sistemin legitimliyi dəyərlər sistemində hakimiyyətin nüfuzundan qaynaqlanır. Hökumətin istinad etdiyi İslam ideologiyası mədəni, irqi və etnik fərqlərə baxmayaraq, İran xalqının idarəetmədə birbaşa iştirakına, onun milli birliyinin möhkəmləndirilməsinə əsaslanır. Bu mövqeyə əsaslanaraq xarici siyasətin hədəfləri ehtiyaclardan asılı olaraq xarici şəraiti tənzimləyən İslam-şiə ideologiyasına söykənir. Qısa tarixə malik olmasına baxmayaraq İran İslam Respublikasının xarici siyasəti tez bir zamanda dünyada tanınmağa başlanmışdır (15).

Yuxarıda göstərilən amilləri nəzərə aldıqda İranın vəziyyəti yüksək dövlət potensialını və ölkənin xüsusi mövqeyini nümayiş etdirir.

İran İslam Respublikasında (İİR) siyasi sistemin iyerarxiyası əksər ölkələrdə qəbul edilmiş quruluşa bənzəyir, lakin hakimiyyətin ideoloji mahiyyətinə görə ayrıca qeyd edilməli olan spesifik xüsusiyyətlərə və mürəkkəbliyə malikdir. Bir tərəfdən, İranda hakimiyyətin strukturu digər ölkələrdən funksional baxımdan fərqlənmir. Digər tərəfdən, İranın siyasi sistemi özünəməxsus struktur və iyerarxiya əsasında qurulmuşdur.

İranın siyasi sisteminin əsas fərqləndirici xüsusiyyəti onun dini xarakter daşımasıdır. Əhali tərəfindən səkkiz illik müddətə seçilən 86 İslam alimindən ibarət Ekspertlər Şurası İran İslam Respublikasının Ali Dini Rəhbərini seçir və bütün hakimiyyət boyu onun fəaliyyətinə nəzarət edir.

İran İslam Respublikasında dövlət hakimiyyəti bir-birindən asılı olmayan qanunverici, icraedici və məhkəmə sahələri vasitəsilə ölkənin Ali Dini Rəhbərinin nəzarəti altında həyata keçirilir. İranın dövlət başçısı de-yure Prezidentdir, bununla belə o, Ali Dini Rəhbərə tabedir. İslam İnqilabının rəhbəri Ayətullah Xomeyninin ölümündən sonra 4 iyul 1989-cu il tarixində İran İslam Respublikasının yeni Ali Dini Rəhbəri vəzifəsinə ayətullah Seyyid Əli Xameneyi

seçilmişdir.

İranın Ali Dini Rəhbəri hakimiyyətin bütün qollarına nəzarət edir, daxili və xarici siyasətin əsas istiqamətlərini müəyyən edir; məhkəmə hakimiyyətinin başçısını, silahlı qüvvələrin və daxili qoşunların ali baş komandanlarını, İslam inqilabının mühafizə Korpusunun ali baş komandanını təyin edir; ümumxalq, birbaşa və gizli səsvermə yolu ilə seçilən Prezidentin təyinatı haqqında fərman imzalayır; Müşahidə Şurasına altı fəqihi təyin edir. Ona müharibə elan etmək və sülh bağlamaq, amnistiya elan etmək və ya məhkəmə hakimiyyəti başçısının təklifi ilə məhkəmə hökmünü yüngülləşdirmək hüququ verilmişdir.

Konstitusiyanın 113-cü maddəsinə uyğun olaraq Rəhbərdən sonra Prezident ölkənin ən yüksək vəzifəli şəxsidir. Prezident əhali tərəfindən dörd il müddətinə seçilir və bu vəzifəni iki dəfədən çox müddətə tuta bilməz. Prezident, icra hakimiyyətinin başçısı və hökumətin rəhbəri olaraq ölkənin cari işlərinin idarə edilməsinə görə məsuliyyət daşıyır, nazir vəzifəsinə namizədlər irəli sürür. O, Konstitusiyanın həyata keçirilməsinə cavabdehdir və Rəhbərin səlahiyyətləri xaricində bütün sahələrdə icra hakimiyyətinə rəhbərlik edir. Xarici siyasət qərarlarının qəbul edilməsi strukturunda prezident İran İslam Respublikasının xarici işlər nazirinin, səfirlərin və xüsusi nümayəndələrin namizədliyini təqdim edir və onları təsdiqləyir, xarici səfirlərin etimadnamələrini qəbul edir, İran hökumətinin digər dövlətlərlə protokollarını, müqavilələrini və beynəlxalq müqavilələrini imzalayır, eyni zamanda beynəlxalq birliklərin yaradılması haqqında müqavilələri imzalayır və s.

İranın ümumi siyasətinin həyata keçirilməsi, hər bir nazirliyin vəzifələri nəzərə alınaraq Rəhbərin İran Nazirlər Kabineti vasitəsilə verdiyi göstərişlərlə təmin olunur. Hər ilin əvvəlində hökumət Məclisə illik proqram təqdim edir, proqram təsdiqlənir və müvafiq vəsait ayrılır. Hökumət xarici siyasət fəaliyyətində mühüm rol oynayır. İcra hakimiyyəti diplomatik əlaqələrin qurulmasına və xitamına, habelə digər ölkələrlə münasibətlərin məhdudlaşdırılmasına və genişləndirilməsinə nəzarət edir.

İslam Məşvərət Şurası (Məclis, Parlament) - ölkənin ali qanunverici orqanıdır. Parlament seçkiləri əhaliyə dörd illik müddətə 290 deputat seçməyə imkan verir. Məclis bütün xarici siyasət müqavilələrini, konvensiyaları və sazişləri təsdiqlənmədən əvvəl yoxlayır. Bundan əlavə, Məclisin vəzifələrinə sərhədlərin dəyişdirilməsi, işlərin arbitraj məhkəmələrinə göndərilməsi, torpaq sahələrinin alınması və ya icarəyə verilməsi, habelə xarici mütəxəssislərin işə qəbul edilməsi ilə bağlı bütün məsələlər daxildir.

Konstitusiyanın 94-cü və 96-cı maddələrinə uyğun olaraq, Məclisin bütün qərarları Konstitusiya Mühafizləri Şurasına (KMŞ) göndərilməlidir, Şura qərarın konstitusiyaya və İslam normalarına uyğunluğu baxımından onu ən çoxu on gün ərzində nəzərdən keçirməlidir. Konstitusiya Mühafizləri Şurası Məclis tərəfindən təsdiq edilmiş qərarların İslam hüququna uyğunluğunun yoxlanmasına görə məsuliyyət daşıyır. Konstitusiya Mühafizləri Şurası qərarları bu standartlara zidd olduğu təqdirdə yenidən baxılması üçün İslam Məşvərət Şurasına göndərməlidir. Əks təqdirdə qərar qüvvəyə minir. Məclisin qərarları ilə İslam standartları arasında heç bir uyğunsuzluğun olmadığı rəyini KMŞ üzvlərinin əksəriyyəti qəbul etməlidir. Konstitusiyaya heç bir ziddiyyət olmadığı rəyi də Konstitusiya Mühafizləri Şurası üzvlərinin ümumi sayının əksəriyyətinin qərarı ilə verilir. Şura İİR Konstitusiyasının düzgün təfsirini təmin edir, eyni zamanda, Məclisin deputatlığına, ölkə prezidenti vəzifəsinə və Ekspertlər Şurasına namizədlərin ilkin seçimini həyata keçirir.

Dövlət məqsədəuyğunluğunun müəyyənləşdirilməsi üzrə Şura da qeyd edilməlidir. Dövlət məqsədəuyğunluğunun müəyyənləşdirilməsi üzrə Şura 1988-ci ildə Konstitusiyaya edilən dəyişikliklərdən sonra yaradılmışdır. Bu Şuranın 38 üzvü nüfuzlu siyasi xadimlər, partiya üzvləri və əhali qrupları arasından təyin olunur və ya vəzifəsinə görə onun tərkibinə daxildir (hakimiyyətin üç qolunun rəhbərləri və s.). Şuranın vəzifələri məclis və Mühafizlər Şurası arasındakı münaqişəli vəziyyətlərin həlli, zərurət olduqda rəhbərliyə məsləhət vermək və İslam Respublikasının ümumi siyasi strategiyasını təklif etməkdir. İİR Rəhbəri səlahiyyətlərinin bir hissəsini bu Şuraya vermək hüququna malikdir (16).

Ali Milli Təhlükəsizlik Şurası (AMTŞ) Konstitusiyaya yenidən baxıldıqdan sonra qurulmuşdur. Konstitusiyanın 176-cı maddəsinə uyğun olaraq, Prezidentin rəhbərliyi altında Ali Milli Təhlükəsizlik Şurası (AMTŞ) milli maraqları təmin etmək, İslam Respublikasının ərazi bütövlüyünü və milli suverenliyini qorumaq üçün yaradılmışdır. Şuranın rəhbəri prezidentdir, Şuranın özü isə İran İslam Respublikasının strateji orqanlarının birliyidir. Bu Şuranın üzvləri ali rəhbərliyin iki nümayəndəsi, hakimiyyətin üç qolunun rəhbərləri (prezident, Məclisin sədri və məhkəmə

hakimiyyətinin başçısı), xarici işlər naziri, daxili işlər naziri, informasiya naziri, müdafiə naziri, Silahlı Qüvvələrin növlərinin komandanları, o cümlədən ordu və İslam İnqilabının Mwhafizə Korpusunun (İİMK) başçılarıdır. Ali Milli Təhlükəsizlik Şurası milli təhlükəsizlik, xarici siyasət, müdafiə strategiyaları ilə məşğul olur. Şuranın qərarları ali rəhbərlik tərəfindən təsdiqlənir. Şuranın vəzifələrinə aşağıdakılar daxildir:

-ölkə rəhbərinin müəyyən etdiyi ümumi siyasət çərçivəsində müdafiə və təhlükəsizlik siyasətini müəyyənləşdirmək;

-müdafiə və təhlükəsizlik sahəsində ümumi tədbirlərlə əlaqədar siyasi, sosial, informasiya, mədəni və iqtisadi fəaliyyətin əlaqələndirilməsi;

-daxili və xarici təhdidlərə qarşı ölkənin maddi və intellektual imkanlarından istifadə.

Xarici siyasət məsələlərinin xeyli hissəsinin həlli məhz Ali Milli Təhlükəsizlik Şurasının səlahiyyətlərinə aiddir.

Məhkəmə sisteminin İranda xarici siyasət qərarlarının qəbul edilməsində birbaşa iştirak etməməsinə baxmayaraq, onun təsiri iki istiqamətdə həyata keçirilir. Birincisi, o, ölkənin inkişafına dair məhkəmə prosesləri və Xarici İşlər Nazirliyinin BMT İnsan Hüquqları Komissiyası və Cenevrə İnsan Hüquqları Komitəsi kimi insan hüquqları təşkilatlarının işində iştirak etmək öhdəliyi ilə bağlı məsələlərdə iştirak edir. İkincisi, o, İnzibati Məhkəmənin və İran Ali Təftiş Təşkilatının vasitəsilə Xarici İşlər Nazirliyinin fəaliyyətinə nəzarət edir (10).

İran Konstitusiyası İranın xarici siyasətinin prioritetlərini dəqiq müəyyənləşdirmişdir: müsəlman ölkələri, qonşu ölkələr və Qoşulmama Hərəkatı (5). Əslində, xarici siyasət prioritetləri sırasına dörd qrup ölkələr daxildir:

1.İranla qonşu ölkələr;

2.müsəlman ölkələri;

3.üçüncü dünya ölkələri;

4.İran üçün siyasi, iqtisadi, sosial və ya hərbi maraq kəsb edən ölkələr.

Dövlət quruluşunun strukturu, qərarların qəbulu sxemi və ölkə siyasətinin istiqamətlərinin müəyyənləşdirilməsi mexanizmləri dövlət potensialının mənbələri hesab oluna bilər. Diplomatik korpusun idarə olunmasında və ölkənin iqtisadi, mədəni, hərbi və sosial məqsədlərinin təmsil edilməsində siyasi rəhbərliyin rolu mütləqdir. İran İslam Respublikası hökuməti ardıcıl xarici siyasətin işlənib hazırlanması və həyata keçirilməsi üçün səmərəli struktur yaratmışdır. İran İslam Respublikasının Rəhbəri institutu, İİR Prezidenti, Ali Milli Təhlükəsizlik Şurası, Məclis və Xarici İşlər Nazirliyi kimi struktur mərkəzlərinin və orqanlarının mövcudluğu ölkəyə İslam İnqilabının missiyasına, prinsiplərinə və məqsədlərinə uyğun olaraq xarici siyasət həyata keçirməyə imkan verir. Ölkənin beynəlxalq nüfuzu müasir dünyada sənayenin inkişafı, elmi tərəqqi, yüksək həyat səviyyəsi standartları və s. ilə əlaqələndirilir.

İranın xarici siyasətinin məqsədlərini müəyyən edən ən mühüm mənbə İİR Konstitusiyasıdır. Onun müddəalarına uyğun olaraq, İranın beynəlxalq aləmdəki mədəni, sosial, siyasi və iqtisadi məqsədlərini müəyyənləşdirmək mümkündür.

İranın xarici siyasətinin əsas məqsədləri aşağıdakılardır:

-"İnsan cəmiyyətinin idealının təcəssümü ilə insan xoşbəxtliyinə nail olmaq" (maddə 154);

-"Bütün təzyiq və avtoritarizm növlərinin inkar edilməsi və ya ədaləti, siyasi, iqtisadi, sosial və mədəni müstəqilliyi, habelə milli birliyi təmin edə biləcək alilik növünün tanınması" (maddə 2);

- "Ölkə üzərində və ya ölkə tərəfindən hər hansı hökmranlığın inkar edilməsi; bütün sahələrdə müstəqilliyin və ərazi bütövlüyünün qorunması; bütün müsəlmanların hüquqlarının qorunması; hegemon dövlətlər qarşısında öhdəlik götürməmə; ölkəyə qarşı düşmən niyyəti olmayan dövlətlərlə sülh münasibətləri" (maddə 152);

-"Müstəmləkəçiliyin tamamilə inkar edilməsi və xarici təsirin qarşısının alınması (maddə 3,4,5), ölkədə müstəqilliyin, ərazi bütövlüyünün və islam quruluşunun qorunması üçün ümumi hərbi təhsil vasitəsilə milli müdafiə potensialının gücləndirilməsi" (maddə 3, bənd 11);

-"Ölkənin iqtisadiyyatı üzərində xarici iqtisadi hökmranlığın qarşısının alınması" (maddə 43, bənd 8);

- "Təbii və iqtisadi sərvətlər, mədəniyyət, ordu və dövlət həyatının digər sahələri üzərində xarici hökmranlığın qurulmasının qadağan edilməsi" (maddə 153);

-"Ölkəyə qarşı düşmən niyyəti olmayan dövlətlərlə sülh münasibətləri";

-"Beynəlxalq müqavilələrə vicdanla və dürüst riayət etmək".

Ümumiyyətlə, xarici siyasətin məqsədlərini aşağıdakı kimi xarakterizə etmək olar: xarici siyasət beynəlxalq aləmdə, digər dövlətlər, birliklər və

beynəlxalq təşkilatlarla münasibətlərdə və dünya hadisələrinə münasibətdə hökumətin fəaliyyətinin məqsəd və prinsiplərini əks etdirir.

Konstitusiyanın və 9 aprel 1985-ci ildə qəbul edilmiş Xarici İşlər Nazirliyinin vəzifələri haqqında Qanunun müddəalarına uyğun olaraq Xarici İşlər Nazirliyi xarici siyasətin həyata keçirilməsinə görə məsuliyyət daşıyır, lakin nazirliyin rolu iki səbəbə görə məhdud hesab oluna bilməz. Birincisi, onun rəhbərliyi hökumət, Ali Milli Təhlükəsizlik Şurası və Dövlət məqsədəuyğunluğunun müəyyənləşdirilməsi üzrə Şura kimi əksər idarəetmə strukturlarının tərkibinə daxildir. İslam Məşvərət Şurasının qərarları Xarici İşlər Nazirliyinin nümayəndəsinin iştirakı ilə qəbul edilir. İkincisi, sürətli qərar qəbul olunmasını tələb edən hallar yarandıqda nazirlik bütün bürokratik prosedurların tamamlanmasını gözləyə bilməz. Belə hallarda qərarı xarici işlər naziri qəbul edir və bu barədə digər orqanlara məlumat verir. Bundan əlavə, nazirlik nəzarət, müvafiq instansiyalara məlumat vermək, habelə rəhbər vəzifəli şəxslər və dövlət strukturları üçün xarici məlumatlar toplamaq sahəsində məsuliyyət daşıyır.

Xarici siyasət qərarlarının icrası prosesi daxili siyasətin həyata keçirilməsindən xeyli fərqlənir. Daxili siyasi kursu həyata keçirərkən, dövlət öz vətəndaşlarına münasibətdə həyata keçirilən suverenlik və nəzarət əsasında qərarların icrasına təminat verir. Lakin xarici siyasətdə dövlətlərin bir-birinə nəzarət etmək hüququ yoxdur. Xarici siyasət qərarlarının həyata keçirilməsinin birinci mərhələsi qərarların müəyyən dövlətin xeyrinə verildiyinə inandırıcı sübutdur (13). Fikir mübadiləsi (danışıqlar) davam etdikcə müəyyən siyasi kursu həyata keçirmək niyyətində olan subyekt digər subyektlərin cəlb edilməsi vasitələrindən faydalana bilər. Xarici siyasət qərarlarının həyata keçirilməsi texnologiyaları və vasitələri barəsində aşağıdakılar qeyd edilməlidir.

-Siyasi vasitələr əsasən məqsədyönlü fəaliyyəti və ixtisaslı kadrları ehtiva edir. Onlar ölkənin siyasi maraqlarına uyğun olaraq istənilən nəticəni əldə edə bilərlər;

-Diplomatik vasitələr müəyyən ölkələrdə hökumətin nümayəndələrini əhatə edir. Onların vəzifəsi milli əhəmiyyətli maraqlar barədə razılığa gəlmək üçün müvafiq ölkələrlə danışıqlar aparmaqdır.

-Rabitə və kommunikasiya vasitələri müvafiq ölkələrin ictimaiyyətinə (ictimai rəyin formalaşdırılması) və mediasına məlumat verilməsi vasitəsi kimi çıxış edir;

-İqtisadi vasitələr, əsasən, varlı inkişaf etmiş ölkələrin sərəncamındadır və xarici siyasətin həyata keçirilməsində ən təsirli vasitələrdir. Müvafiq ölkə nə qədər asılıdırsa, siyasi qərarların təşviqi tədbirləri bir o qədər səmərəli olur.

-Hərbi vasitələr digər tədbirlər yetərli olmadıqda tətbiq olunur (11).

İranda xarici siyasət qərarlarının qəbul edilməsi proseduru çox mürəkkəbdir. İran İslam Respublikasının xarici siyasəti hökumət və qeyri-hökumət subyektləri arasında mürəkkəb və çoxkomponentli qarşılıqlı fəaliyyətin nəticəsidir.Bu subyektlərin hər biri fərqli, bəzən isə əks məqsədlər güdür. Lakin İranda xarici siyasət qərarlarının qəbul edilməsi proseduru olduqca dəqiq şəkildə göstərilə bilər (12).

Ümumiyyətlə, İranın xarici siyasətini İslamçı və ya İrançı görüşlərlə əlaqəli iki mövqedən səciyyələndirmək olar. Bu iki mövqe kontekstində İslamçı və İrançı özünüeyniləşdirmə ayrı-ayrılıqda nəzərdən keçirilir.

Birinci qrup İran İslam Respublikasının özünüeyniləşdirməsini İslam inqilabı və İslam dəyərlərinə qayıdışla əlaqələndirir.İran İslam Respublikasını qorumaq məqsədilə aşağıdakı tədbirlər təklif edilir:

- Bütün müsəlmanlarla qardaşlıq birliyinin qurulması;
- İslam ölkələri ilə sıx əlaqələrin qurulması;
- İslam ümmətinin təhqir edilməsinə görə cavabdeh olan ABŞ-la danışıqlardan imtina.

İkinci qrupun fikrincə, İran, müasir dünyada hər hansı digər siyasi birlik kimi, milli dövlətidir və beynəlxalq aləmdə böyük oyunçu kimi qalmalıdır. Beləliklə, İranın geosiyasi statusu və iqtisadi mövqeyi də çox mühüm əhəmiyyət kəsb edir. Bu mövqeyin tərəfdarları hesab edirlər ki, İranın milli maraqlarını qorumaq üçün ilk növbədə xarici iqtisadi fəaliyyətə dəstək vermək və siyasi diplomatik münasibətlər qurmaq zəruridir.

Beləliklə, İranın siyasi təsisatları 1979-cu ildə referendumda qəbul edilən və 1989-cu ildə keçirilmiş növbəti referendumda yenidən baxılan Konstitusiya ilə müəyyən edilmişdir. Onlar əsas dayaqlar olan İslam və respublika (cümhuriyyət) prinsiplərinə söykənir, hakimiyyətin qanuniliyinin iki mənbəyi qismində ilahi vəhy (maddə 2) və xalqın iradəsi (maddə 1 və maddə 6) çıxış edir. İnstitusional idarəetmə "velayət-e fəqih" prinsiplərinə əsaslanır. Onun birbaşa nəzarəti altında ordu, hüquq-mühafizə və məhkəmə orqanları

fəaliyyət göstərir. İranda idarəçilik inqilab nəticəsində yaradılan və dövlət aparatını təkrarlayan, Rəhbərdən tam asılı olan strukturlar kimi fəaliyyət göstərən təşkilat və qurumları ehtiva edir. Bunlara İnqilab Mühafizləri ("pasdarlar"), nizami ordu ilə yanaşı daimi fəaliyyət göstərən hərbi təşkilat olan "Bəsic", inqilabi tribunallar və komitələr və s. aiddir. Beləliklə, dövlət orqanlarının strukturu həm siyasi rejimi, həm də xarici siyasət xəttini aydın şəkildə əks etdirir.

İranda İslam inqilabından sonra ölkənin xarici siyasətinin fərqləndirici xüsusiyyəti onun islamlaşması olmuşdur. İnqilabdan sonra İranın xarici siyasəti ilk növbədə İslam dəyərlərinə söykənirdi. Bütövlükdə inqilabdan sonra Tehranın beynəlxalq fəaliyyəti xüsusilə inqilabdan sonrakı ilk illərdə və İran-İraq müharibəsi dövründə daha sərt idi (7).

İran İslam Respublikasının xarici siyasətini başa düşmək üçün "siyasi İslam" anlayışı təhlil edilməlidir. İranda bu ideologiyanın tarixi Ayətullah Xomeyninin Məhəmməd Rza Pəhləvi siyasətini tənqid etdiyi 60-cı illərin əvvəllərinə gedib çıxır. 1979-cu il İran İslam İnqilabından sonra islamçılar hökuməti ələ keçirdilər. İslam Respublikasının qurulmasından sonrakı ilk onilliklərdə İranın siyasi həyatının bütün sahələrində İslam maraqları üstünlük təşkil edirdi. Bu kurs hamı tərəfindən qəbul edilmiş beynəlxalq davranış normalarına uyğun gəlmirdi (19). O vaxtdan bəri İslam bu günə qədər İranın xarici siyasətində çox mühüm rol oynamışdır, bu da ölkənin məqsədlərini və onlara nail olmaq yollarını açıqlayır (18).

İran İslam inqilabı İslam Respublikasının Konstitusiyasının preambulasında belə xarakterizə olunur: "İnqilab ... İranda və bütün dünyada məzlumların zalımlar üzərində qələbəsi uğrunda hərəkatdır. İnqilab beynəlxalq xarakter daşıyır, o, digər İslam xalq hərəkatları ilə əlaqələrin inkişafı yolu ilə vahid dünya İslam ümmətinin yaradılması yolunu tapmağa və bütün dünyada məzlum xalqların qurtuluşu uğrunda mübarizənin güclənməsinə təkan verməyə yönəlmişdir" (3).

İmam Xomeyni bu fikri 3 sentyabr 1983-cü ildə belə izah etmişdi: "Müsəlmanların öz etiqadını müdafiə etmək hüquqlarını inkar edən qondarma milliləşdirmə və avropalaşma təbliğatına qarşı mübarizənin yeganə yolu müsəlmanların birləşməsi və daha da vacibi - dünyadakı bütün məzlum insanların birləşməsidir". Bu fikir daha çox xalqın inqilabi ruhunu qorumağa çağırırdı.

İran Konstitusiyasının 152-ci maddəsində deyilir: "İran İslam Respublikasının xarici siyasəti İran üzərində və ya İran tərəfindən hər hansı hökmranlığın inkar edilməsinə, bütün sahələrdə müstəqilliyin və ərazi bütövlüyünün qorunmasına, bütün müsəlmanların hüquqlarının qorunmasına və hegemon dövlətlər qarşısında öhdəlik götürülməməsinə, İrana qarşı düşmən niyyəti olmayan dövlətlərlə dinc münasibətlərə əsaslanır" (3).

Konstitusiyanın 154-cü maddəsində deyilir: "İran İslam Respublikası bütün insan cəmiyyətində insan xoşbəxtliyinə nail olmağı öz idealı hesab edir və müstəqilliyi, azadlığı, qanunun aliliyini və ədaləti dünyanın bütün xalqlarının hüququ hesab edir. Buna görə İran İslam Respublikası, digər ölkələrin daxili işlərinə hər hansı bir müdaxilədən çəkinərək, mustadafunun (məzlumların) bütün dünyada mustakbaruna (zalımlara) qarşı ədalətli mübarizəsini dəstəkləyir"(3).

Konstitusiyada bu iki əks məqsədin necə uzlaşması açıqlanmır. Xarici ölkələrin daxili işlərinə qarışmamaq prinsipi dövlətin oradakı məzlum əhalini dəstəkləməsinə imkan vermir. Bununla yanaşı, İran rəhbərlərinin fikrincə, bütün məzlumların hüquqlarının qorunması İslam Respublikasının üzərinə böyük məsuliyyət qoyur, çünki ideoloji və İslamçı maraqlar milli maraqlardan üstündür.

İslam Respublikası yarandıqdan sonra ilk onillikdə xüsusi dövlət quruluşu və yeni siyasi kurs qəbul edildi. İran İslam hökumətinin prioritetləri sırasında 18 fevral 1979-cu ildə "Təcavüzkar İsrail" ilə diplomatik münasibətlərin kəsilməsi mühüm yer tuturdu.

İslam Respublikası beynəlxalq birliyin təzyiqi ilə üzləşdi. Bunun nəticəsi ölkənin beynəlxalq səviyyədə fəaliyyətinin məhdudlaşdırılması oldu. İraqın təcavüzü ciddi qınaqla qarşılanmadı. İran rəhbərləri bu təcavüzü Qərb qüvvələrinin dəstəyi ilə mühafizəkar ərəb dövlətlərinin qəsdinin nəticəsi kimi qiymətləndirdilər.

İslam İnqilabı dövründə iki şüar İran əhalisi və elitası arasında yeni fikirlərin yayılmasına xidmət edirdi: "İstiqlal, azadlıq, İslam Respublikası" və "Nə Şərq, nə də Qərb - İslam Respublikası". Bu şüarlar İran İslam Respublikasının xarici siyasətinin məqsədlərini də ümumi şəkildə xarakterizə edir: "saf İslam" əsasında İslam cəmiyyətinin qurulması, İsrail və Qərb, xüsusən ABŞ ilə qarşıdurma, müsəlmanların qorunması və azadlıq hərəkatları.

Ümumi xüsusiyyətlərə gəldikdə, qərarların qəbul olunması prosedurunun əsasında siyasi və dövlət xa-

dimlərinin prinsipləri, görüşləri və inancları durur. Mahiyyət etibarilə idarəetmə formaları və onların legitimliyi xarici siyasət sahəsində fəaliyyətin əsas prinsiplərinə, eləcə də daxili siyasətə təsir göstərir. "Məqsəd" kontekstində hesab olunur ki, hər hansı bir dövlətin dünya səhnəsində iştirakı onun daxili məqsədləri və amilləri ilə şərtlənir. Dövlət sərhədlərindən kənara çıxan məqsədlər xarici siyasət proseslərində iştirak edən subyektlərin ehtiyaclarını və ilkin mövqelərini və bu vəzifələrin ətrafında formalaşan fikirləri əks etdirir. Belə vəzifələr xarici siyasət vəzifələrinə aiddir (8).

Dini lider İmam Xomeyninin siyasi ideologiyası İslam prinsiplərinə, o cümlədən Qurana və sünnəyə əsaslanırdı. Əslində xarici siyasətin strukturu şəriət qanununun tətbiqinə söykənir. Məsələn, məzlumların qorunması kimi xarici siyasət prinsipi müqəddəs Qurandan qaynaqlanır.

Xarici siyasət prinsipləri İslam idarəçilik sisteminin subyektləri üçün zəruri davranış bazası kimi çıxış edə bilər, bu prinsiplərə riayət etmək İslam İranını digər idarəetmə formalarından ayırmağa imkan verir. Əlbəttə, İslam Respublikası hökuməti öz məqsədlərinə çatmağa yönəlmiş müəyyən prinsiplər əsasında fəaliyyət göstərir. İmam Xomeyninin xarici siyasət prinsiplərini İran İslam Respublikasının siyasi strukturunda qərarların qəbulu prosesində rəsmi ilkin əsaslar hesab etmək olar. İranın yeni rəhbəri Əli Xameneyinin İranın siyasətinin ümumi xəttinin İmam Xomeyninin göstərdiyi xətlə üst-üstə düşdüyünü ifadə etməsi əlamətdardır (9).

Bu kontekstdə "inqilab ixrac"ına xüsusi əhəmiyyət verilir. "İxrac" dedikdə İslam İnqilabı təcrübəsinin dünyanın digər ölkələrinə ötürülməsi nəzərdə tutulur. İran inqilabının ixracı məsələsinə dair Ruhulla Ramazani göstərir: "İnqilab ixracı anlayışı xarici siyasətin əsas nüvəsidir, İran inqilabının özü ilə bərabər İranın xarici siyasətinin dinamikasını əks etdirir" (6). Əslində İran xarici siyasətinin başlıca məqsədi İslam inqilabı paradiqması olmuşdur; bu məqsəd Quranın müsəlmanlar qarşısında qoyduğu dini tələbləri bütün dünyada yaymaq vəzifəsindən irəli gəlir. R.Ramazani İmam Xomeyninin inqilabın ixracını tələb etməsinin onun ideologiyasına və siyasi mədəniyyətinə söykəndiyini vurğulayır (6). İmam Xomeyninin fikrincə, inqilabın ixracı İslam Cümhuriyyətinin vəzifələrindən biridir. Nəticədə məzlum xalqlara yardım və islamçı dövlətçiliyə dəstək məna və əhəmiyyət qazanır.

Beynəlxalq təzyiqlərə və daxili böhranlara baxmayaraq, müstəqillik prinsipi İranın təcrid olunmasını nəzərdə tutmurdu. Sözsüz ki, siyasi müstəqillik İslam cəmiyyətinin ləyaqətinə hörməti təmin edən prinsiplərdən biridir. Söhbət ölkənin xarici siyasətinin müstəqilliyindən getdikdə, müstəqillik siyasi, mədəni, iqtisadi, müdafiə və digər sahələrdə qərarların qəbul edilməsini və həyata keçirilməsini ifadə edir. Siyasi müstəqilliyin əhəmiyyətinə baxmayaraq, İslam dövləti baxımından mədəni müstəqillik daha da vacibdir (14).

Qeyd etmək lazımdır ki, İslam Respublikasının xarici siyasətinin əsasları onun prinsip və məqsədlərinə təsir göstərir. İlk növbədə, fövqəlmilli vəzifələrin prinsip və məqsədlərini və onların müvafiq əsaslarını müəyyənləşdirmək zəruridir. Lakin nəzərə alınmalıdır ki, müdaxiləyə ehtiyac duyulan hallar azdır və hətta bu şəraitdə də prinsip və məqsədlərin kompromissi müşahidə olunur. Xarici siyasət həmişə siyasətin ən ziddiyyətli sahəsi olmuşdur, bu sahədə İran İslam Respublikasına təsir göstərən bir çox amil mövcuddur.

İslamın xarici siyasət paradiqmasına çevrilməsi, İranın xarici siyasətinin isə İslamçı xarakter kəsb etməsi olduqca önəmli amildir. İnqilabdan sonra "islamlaşma" termini yeni inkişaf vektorunu təsvir edərkən yeni prioritetləri, o cümlədən İslam ümmətinin birliyini, müstəqilliyi, "Nə Şərq, nə də Qərb" şüarını dəqiq şəkildə xarakterizə etməyə imkan verir. İran qarşılıqlı hörmətə əsaslanan müstəqil xarici siyasət seçməklə öz məqsədlərinə çatmağa çalışır. İran təzyiq göstərməmə və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan xarici siyasət qərarlarının qəbul edilməsi və həyata keçirilməsi sahəsində müstəqillik əldə etmək məqsədi güdür.

**Açar sözlər:** *İran, xarici siyasət, İslam inqilabı, ideologiya, islamlaşma.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Rafiq bəy İsmayıl. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. 1-ci kitab. Bakı, 2002*

*2. Rafiq bəy İsmayıl. Nərgiz Axundova. Aida Bağırova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. 2-ci kitab. Bakı, 2003.*

*3. Конституция Исламской Республики Иран 1979 с дополнениями 1989//URL: http: //rc. majlis. ir/ fa/ content/ iran_ constitution*

*4. Afrasiabi K. L. After Khomeini: New Directions*

*in Iran"s Foreign Policy // Westview Press. Boulder CO. 1994.*

*5. Ardebili H. K. Return to neither West nor East policy // Diplomatic Citizen, 1996.*

*6. Esposito J. The Iranian revolution and its global reflection, translation by Doctor Shanechi M.M. Article issuing the Iranian revolution: politics, objectives and instruments, Ramezani R.K. // Tehran: Center for the recognition of Islam and Iran, 2003.*

*7. Graham E. Fuller. The center of the universe: The geopolitics of Iran (Rand Corporation Research Study) // Orbis, 1992.*

*8. Haghighat S. S. Confluence Theory & Religious Leadership Theory // Mofid University, Qom, Iran, Ошибка! Недопустимый объект гиперссылки. 080041.pdf*

*9. Izadi B. On the foreign policy of the Islamic Republic of Iran // Qom: book boostan,1992.*

*10. Kar M. The future of Iran: judicial reform. Who are the judges in the Islamic Republic of Iran // Legatum Institute. [electronic source]. Available at: https://www.li.com/docs/ default- source/future-of-iran/2012-future-of-iran-by-mehrangiz-kar-who-are-the-judges-in-the-islamic-republic-of-iran.pdf?sfvrsn=2*

*11. Khoshghat M.H., Foreign Policy Decision-making Analysis // Tehran, Publishing institute, Ministry of Foreign Affairs. 1996.*

*12. Lim K. National Security Decision-Making in Iran // Taylor & Francis. 2015. [electronic source]. Available at: http://www.tandfonline.com /doi/abs/ 10.1080/01495933.2015.1017347*

*13. Moghattar H. Discussions on International Politics and Foreign Policy // Tehran, Faculty of Political and Social Sciences. 1979.*

*14. Sotoudeh M. Imam Khomeini and theoretical foundations of foreign policy // Political science quarterly, 1999*

*15. Velayati A. A. First Speech // Foreign Policy Magazine No. 1. 1986.*

*16. What are statuses and duties of the "Expediency Council" in the Iranian system? 2017.[electronic source]. Available at:*

*17. http://english.khamenei.ir /news/5072/What-are-statuses-and-duties-of-the-Expediency- Council-in-the (дата обращения: August 21, 2017).*

*18. Wolfarm E. Hanrieder, Foregn Policies and the International System: A Theoretical International // New York: General Learning Press, 1971.*

*19. Wolfram F. Hanrieder. Compatibility and Consensus: A Proposal for the Conceptual Linking of External and Internal Dimensions of Foreign Policy // American Political Science Review, 1965.*

**Dissertant at the Institute of Philosophy of ANAS**
**Safieva Hajar Kamal**

**Iran Foreign Policy Implementation Mechanism and its priority areas**

**SUMMARY**

The article provides an overview of the mechanism for implementing Iranian foreign policy. The author considers the main priorities of Iran's foreign policy. Particular attention is paid to changes in Iran's foreign policy in the modern era.

**Keywords:** *Iran, foreign policy, Islamic revolution, ideology, Islamization.*

**Диссертантка Института Философии НАНА.**
**Сафиева Хаджар Камал кызы**

**Механизм реализации внешней политики Ирана и ее приоритетные направления**

**РЕЗЮМЕ**

В статье дается обзор механизма реализации иранской внешней политики. Автор рассматривает основные приоритеты внешней политики Ирана. Особое внимание уделяется изменениям во внешней политике Ирана в современную эпоху.

**Ключевые слова:** *Иран, внешняя политика, исламская революция, идеология, исламизация.*

UOT 32

# DAVAMLI İNKİŞAF KONSEPSİYASININ FORMALAŞMASI VƏ ƏSAS MÜDDƏALARI

**SİMNAR MAMEDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*
*E-mail: simnar86@gmail.com*

Ictimai inkişaf problemi əsrlər boyu mütəfəkkir və alimlərin diqqət mərkəzində olub. Onlar belə hesab etmişlər ki, inkişafın öz-özlüyündə nemət olması aşkar faktdır. Yalnız ötən əsrin ortalarında bəşəriyyət bu faktı dərk edib ki, inkişaf öz-özlüyündə nəinki bəşəriyyətin əsas problemlərini həll edir, hətta yeni-yeni fəlakətlər törədə bilir. Məhz o zaman yeni şəraitdə, yaranmış zəmin və tələbatlar nəzərə alınmaqla bütün tərəf və tərkib elementlərinin harmonik uzlaşdırıldığı inkişaf kimi başa düşülən davamlı inkişaf konsepsiyası formalaşmağa başlayır.

Davamlı inkişaf konsepsiyasının formalaşması iqtisadi və sosial tərəqqinin ətraf mühitin mühafizəsi və təbii ehtiyatların səmərəli istifadə edilməsi ilə balanslaşdırılmış şəkildə həyata keçirilməsi zərurətindən irəli gəlmişdir (1; s. 41). Belə hal iqtisadi artımın cəmiyyətin rifahına və cəmiyyət üzvlərinin hər birinin həyat şərtlərinin yaxşılaşdırılmasına xidmət etməsi ilə bağlıdır. İnsanların minimal tələbatlarının ödənilməsinin təminat altına alınması, onları əhatə edən mühitin yaşayış baxımından əlverişliliyinin təmin olunması, mövcud təbii ehtiyatların gələcək nəsillərin inkişafı baxımından istifadə edilməsi iqtisadi inkişafın sosial tərəfinin gücləndirilməsi ilə bağlıdır. Bununla yanaşı, tələbatların ödənilməsinin ierarxiyası baxımından yüksək inkişaf səviyyəsi daaha yüksək davamlı inkişaf məqsədlərinin müəyyən olunmasına səbəb ola bilər.

Davamlı inkişaf baxımından C.Xiks tərəfindən gəlirə verilən tərif əsas götürülə bilər. Onun fikrincə, praktiki həyatda gəlirin səviyyəsinin müəyyən edilməsi insanlara özlərini kasıblaşdırmadan nə qədər istehlak edə bilmələrini göstərmək məqsədi daşıyır (3; s. 289). Bu baxımdan, gəlirlərin istehlakla qənaət arasında optimal bölgüsü məsələsi iqtisadi inkişafın dayanıqlılığını müəyyən edən əsas amillərdən biridir. Təbii resurslardan (məsələn, neftdən, qazdan) əldə edilən gəlirlərin gələcək nəsillərin mənafeyi baxımından düzgün istifadə edilməsi onların əhəmiyyətli hissəsinin qənaət edilməsini nəzərdə tutur. Amerika iqtisadçısı C.M.Xartvik istehsal funksiyasının miqyasdan sabit verimlə xarakterizə olunduğu, texniki tərəqqinin olmadığı və əhalinin artım tempinin sıfıra bərabər olduğu qapalı iqtisadiyyatda uzunmüddətli dövr ərzində istehlakın həcminin sabit qalması üçün təbii resurslardan əldə edilən rentanın tamamilə investisiyaya sərf edilməsinin zəruri olduğunu müəyyən etmişdir (7). Bu, Xartvik qaydası adlanır. Amerika iqtisadçısı R.Solou göstərmişdir ki, Xartvik modelində elmi-texniki tərəqqinin nəzərə alınması istehlakın sabit templə artmasını təmin edəcəkdir (12). Təbii resurslardan (məsələn, neft, qaz və digər faydalı qazıntı hasilatından) əldə edilən gəlirlərin birincisi, ölkədə fiziki kapitala (əsas kapitala) qoyula bilər. Ölkədə əsas kapitala investisiya gələcəkdə gəlirlərin yüksəlməsinə və iqtisadi artım tempinin artmasına səbəb olur. İkincisi, qeyd edilən gəlirlər xarici ölkələrdə aktivlərin alınmasına yönəldilə, yəni maliyyə investisiyası şəklində qoyula bilər. Bu zaman, təbii resurslar tükəndikcə, maliyyə kapitalı yığılır və təbii resurslardan əldə edilən gəlirləri maliyyə kapitalından əldə edilən gəlirlər əvəz etməyə başlayır. Maliyyə investisiyaları hesabına əldə edilən gəlirlər alınan faizlərlə məhdudlaşdığı halda, ölkədə əsas kapitala investisiya qoyuluşu əməkhaqqının, faiz gəlirlərinin, rentanın və mənfəətin artmasına səbəb olur. Bu baxımdan, nəsillərarası ədalət baxımından təbii resurslardan əldə edilən gəlirlərin milli iqtisadiyyata investisiya qoyuluşlarına istiqamətləndirilməsi məqsədəuyğundur. Belə hal təbii resurslar hesabına yaranan gəlirlərin milli sərvətin artırılması hesabına həm indiki, həm də gələcək qeyd edilənlərlə yanaşı, cari istehlakın uzunmüddətli kreditlər hesabına maliyyələşdirilməsi nəsillərarası ədalətin pozulmasına səbəb olur.

Qeyd etmək lazımdır ki, yaranan gəlirlərin istehlak və investisiya arasında optimal bölüşdürülməsi iqtisadi artımın davamlılığı baxımından vacibdir. Bunun təmin edilməsi üçün ölkələrdə investisiya norması ümumi daxili məhsulun 15-20 faizi arasında olması tələb olunur (8; s. 62).

Bütövlükdə, bazar mexanizmi qərarvermə prosesində iqtisadi amillərin ətraf mühit və sosial amillərə münsibətdə əhəmiyyətli şəkildə nəzərə alınmamasına səbəb olur. Belə hal isə gələcəkdə iqtisadi artımın

davamlılığını təhlükə altında qoyur. Davamlı inkişaf baxımından iqtisadi inkişafla ətraf mühitin qorunması arasındakı ziddiyyət haqqında müzakirələr bir tərəfdən, bazarın gözə görünməz əli ilə digər tərəfdən, dövlətin görünən tənzimləyici əli arasında müzakirələrlə bağlı olmuşdur (5). Belə ki, bazar mexanizmi gələcək nəsillərin rifahını təmin etmək üçün kifayət edən resursların saxlanması üçün stimulları yaratmır, buna görə də dövlət siyasəti gələcək rifahın təmin olunması üçün bazar mexanizminin fəaliyyətinin nəticələrini korrektə edir (6).

Davamlı inkişafın elmi ədəbiyyatlarda müxtəlif səpgilərdə şərh olunmasına baxmayaraq, onun əsas mahiyyətini insanların tələblərini ödəməyə qadir olan və onların gələcək tələbatlarını ödəməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin idarə edilməsinin yeni forması təşkil edir (2; s. 513).

İlkin dövrlərdə davamlılıq probleminin həlli yolları təbii resurslardan istifadə ilə bağlı olmuşdur. Belə ki, Almaniyada meşə resurslarından, Hollandiyada balıq resurslarından istifadədə davamlılığın təmin edilməsi məsələsinin həlli ilə bağlı addımlar atılmışdır. 1972-ci ildə İsveçin paytaxtında 113 ölkənin və 19 beynəlxalq təşkilatın iştirakı ilə ekoloji məsələlərə həsr olunmuş konfransda ekspertlər qrupu qeyd etdi ki, ayrı-ayrı hallarda ekoloji və iqtisadi prioritetlər arasında konflikt olsa da, onlar mahiyyətinə görə bir sikkənin iki tərəfidir (13). Stokholm Konfransında BMT-nin Ətraf mühit üzrə proqramı yaradıldı və bu proqramın əsas məqsədi kimi, gələcək nəsillərə ziyan vurmadan millətlərin və insanların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün onları təhrik etmək və məlumatlandırmaqla ətraf mühitin qorunması sahəsində liderliyin təmin edilməsi və əməkdaşlığın dəstəklənməsi müəyyən edilmişdir. Bununla yanaşı, davamlı inkişaf məsələsi 1987-ci ildə Q.Brutlandın rəhbərliyi ilə BMT tərəfindən təşkil edilmiş Ətraf mühit və inkişaf üzrə Beynəlxalq Komissiyanın hazırladığı “Bizim ümumu gələcəyimiz” hesabatından sonra aktuallaşmışdır. Brutland Komissiyasının hesabatına əsasən davamlı inkişaf dedikdə, hazırkı nəslin öz ehtiyaclarını ödəməklə gələcək nəslin ehtiyaclarını qarışlamaq imkanlarını təhlükə altına qoymayan inkişaf nəzərdə tutulur (11; s.47). Bu baxımdan, davamlı inkişaf konsepsiyası hazırda iqtisadi qərarların qəbul edilməsi zamanı uzunmüddətli iqtisadi, sosial və ekoloji nəticələrin nəzərə alınmasını tələb edir. Qeyd edilən konsepsiyanın əsasında insan inkişafı durur.

Qeyd etmək lazımdır ki, davamlı inkişaf konsepsiyası iqtisadi artım qarşısında bir sıra məhdudiyyətlər müəyyən edir. Bu məhdudiyyətlər təbiətin, həyat təminatının və cəmiyyətin davamlılığı ilə bağlıdır. Cəmiyyət, təbiət və həyat təminatının davamlılığının təmin olunması bir sıra məqsədlərin reallaşdırılmasını müəyyən edir.

2000-ci ildə "Minilliyin Sammiti"ndə Minilliyin Bəyannaməsi qəbul edilmişdir. Bu bəyannaməyə əsasən 2015-ci ilə kimi minilliyin məqsədləri kimi aşağıdakılar müəyyən edilmişdir:

1. İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq;
2. Ümumi ibtidai təhsilə nail olmaq;
3. Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək;
4. Uşaq ölümü hallarını azaltmaq;
5. Ana sağlamlığını yaxşılaşdırmaq;
6. İİV/QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;
7. Ətraf mühitin davamlılığını təmin etmək;
8. İnkişaf üçün qlobal tərəfdaşlığı inkişaf etdirmək.

Bu məqsədlər davamlı inkişafın iqtisadi, sosial və ekoloji prinsipləri arasında tarazlığı ifadə edirdi. Minilliyin Bəyannaməsində inkişaf sahəsində məqsədlərin müəyyən edilməsi dünyanın yoxsul əhalisinin yaşayış və rifahı imkanlarına çıxışı, təhlükəsizliyin təmin edilməsi və həssaslığın aradan qaldırılması məsələlərini konseptuallaşdırdı (4). Habelə, yoxsulluq, aclıq, xəstəliklər, zəif məktəb təhsili, gender bərabərsizliyi və ətraf mühitin çirklənməsi ilə bağlı qlobal problemlərin 8 məqsəddə birləşdirilməsi, onlara nail olunması ilə bağlı ölçülərin və zaman çərçivələrinin müəyyən edilməsi qeyd edilən sahələrdə qlobal maarifləndirmənin aparılmasına, hökumətlərin hesabatlılıqlarının artırılmasına səbəb olmuşdur. Belə ki, artıq qeyd edilmiş 8 məqsədə uyğun 18 vəzifə müəyyən edilmişdir ki, bunlar da, öz növbəsində, 48 indikatorla müəyyən edilirdi. 2000-2015-ci illər əhatə edən minilliyin məqsədlərinin həyata keçirilməsi dünyada yoxsulluğun azaldılması, ibtidai təhsilin əldə edilməsi, uşaq ölümü və digər sahələrdə əhəmiyyətli nəticələr əldə edilmişdir. Belə ki, ifrat yoxsulluq səviyyəsi 1990-cı ildə 47 faizdən 2015-ci ildə 14 faizə qədər, ifrat yoxsulların sayı müvafiq olaraq 1926 mln. nəfərdən 836 mln. nəfərə qədər, məktəbə getməyən ibtidai məktəb yaşında olan uşaqların sayı müvafiq olaraq 100 mln. nəfərdən 57 mln. nəfərə, 5 yaşa qə-

dər uşaqların ölüm sayı müvafiq olaraq 12,7 mln. nəfərdən 6 mln. nəfərə qədər azalmış, boru suyuna çıxışı olanların sayı müvafiq olaraq 2,3 mlrd. nəfərdən 4,2 nəfərə qədər artmışdır (9; s. 4-6).

Minilliyin məqsədlərinin reallaşdırılmasında əhəmiyyətli nailiyyətlər əldə edilməsinə baxmayaraq dünyada yoxsulluğun səviyyəsi, təhsil və səhiyyə xidmətləri ilə təminat, layiqli məşğulluğun təmin olunması, ətraf mühitin qorunması və digər sahələrdə ciddi problemlər qalmaqdadır. Buna görə də, BMT-nin 2012-ci il 20-22 iyun tarixlərində Braziliyanın Rio de Janeryo şəhərində keçirilən “Rio+20” konfransında 2016-2030-cu illəri əhatə edən 17 qlobal məqsədi əks etdirən Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi qərara alındı. Bu məqsədlər Minilliyin məqsədlərini də özündə əks etdirir və daha əhatəlidir. Belə ki, Minilliyin məqsədləri əsasən inkişaf etməkdə olan ölkələri əhatə edirdisə, davamlı inkişaf məqsədləri bütün ölkələri əhatə edir. Davamlı inkişaf məqsədlərinə aşağıdakılar aiddir:

1. Hər yerdə yoxsulluğun bütün formalarını ləğv etmək. Bu yoxsulların sosial müdafiə sisteminin inkişafını, layiqli məşğulluğunun və yaşamaq qabiliyyətinin artırılmasının təmin edilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi yolu ilə yoxsulluğun aradan qaldırılmasını nəzərdə tutur. Yoxsulluq insanların aclıqla yaşamasına və kifayət qədər qidalanmamasına, təhsilə və digər xidmətlərə məhdud çıxışına, sosial diskriminasiyasına və s. bu kimi mənfi hallarla qarşılaşmasına səbəb olur. Cəmiyyətdə bərabərsizliyin artması iqtisadi artıma mənfi təsir etməklə cəmiyyətdə siyasi və ictimai ziddiyyətlərin artmasına səbəb olur. Bu məqsəd çərçivəsində aşağıdakı vəzifələrin həll edilməsi nəzərdə tutulur:

- 2030-cu ilə qədər dünyada bütün insanlar üçün hazırda gündəlik 1,25 ABŞ dollarına bərabər gəlir səviyyəsi ilə müəyyən olunan ifrat yoxsulluğun ləğv edilməsi;

- 2030-cu ilə qədər dünyada milli meyarlara müvafiq olaraq müəyyən olunan bütün ölçülərdə yoxsulluqda yaşayan bütün yaşlardan olan kişi, qadın və uşaqların payını yarıya qədər azaltmaq;

-Hamı üçün milli sosial müdafi sistemi və tədbirlərinin tətbiq etmək və 2030-cu ilə əhalinin yoxsul və həssas qruplarını əhəmiyyətli şəkildə əhatə etmək;

- 2030-cu ilə bütün kişi və qadınların, xüsusilə onların yoxsul və həsas təbəqəsinin iqtisadi resurslara bərabər hüquqlarını, habelə əsas xidmətlərə, torpaq və digər əmlak üzərində sahibliyə və nəzarətə, mirasa, milli resurslara, müvafiq yeni texnologiyalara və maliyyə resurslarına, o cümlədən mikromaliyyələşdirməyə çıxışlarını təmin etmək;

- 2030-cu ilə kasıbların və həssas durumda olanların dayanıqlılığını yaratmaq, fövqəladə hadisələrin və digər iqtisadi, sosial və ekoloji fəlakət və bəlalara onların həssaslığının azaldılması;

- Yoxsulluğun bütün aspektlərində onun ləğv edilməsi üçün inkişaf etməkdə olan ölkələri, xüsusilə az inkişaf etmiş ölkələri adekvat və proqnozlaşdırılan vasitələrlə təmin etmək üçün müxtəlif mənbələrdən, o cümlədən inkişaf məqsədləri üçün əməkdaşlığın genişləndirilməsi yolu ilə resursların əhəmiyyətli şəkildə səfərbər edilməsini təmin etmək;

-Yoxsulluğun ləğvi üzrə tədbirlərə investisiya qoyuluşlarının artırılmasını dəstəkləmək üçün kasıbların mənafelərinə xidmət edən və gender amillərini nəzərə alan inkişaf strategiyaları əsasında milli, regional və beynəlxalq səviyyələrdə etibarlı siyasət çərçivələrini yaratmaq.

2. Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və yaxşılaşdırılmış qidalanmaya nail olmaq və kənd təsərrüfatının davamlı inkişafını dəstəkləmək. Bu, insanların tam şəkildə və keyfiyyətli məhsullarla qidalanmasının təmin edilməsinə istiqamətlənmişdir. Bu məqsəd çərçivəsində 2025-ci ilə qədər insanların kifayət qədər qidalanmamlarının bütün formalarını ləğv etmək, 2030-cu ilə kənd təsərrüfatında məhsuldarlığı iki dəfə artırmaq və kiçik qida məhsulları istehsalçılarının gəlirlərini yüksəltmək, toxumların, becərilən bitkilərin, kənd təsərrüfatı və ev heyvanlarının, onlarla əlaqəli vəhşi növlərin genetik müxtəlifliyini saxlamaq, inkişaf etməkdə olan ölkələrdə, o cümlədən zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının məhsuldarlığını artırmaq üçün kənd yerlərində infrastrukturun inkişafına, kənd təsərrüfatı tədqiqatlarına və biliklərin yayılması xidmətlərinə, texnologiyanın, bitki sortlarının və heyvan cinslərinin inkişafına investisiyanın artırılması və s. vəzifələr müəyyən edilmişdir.

3. Bütün yaş qrupları üçün sağlam həyat tərzini təmin etmək və rifah səviyyəsini yüksəltmək. Bu reproduktiv sağlamlığın, ana və uşaq sağlamlığının möhkəmləndirilməsini, xəstəliklərin azaldılmasını, tibbi xidmətlərlə təminatın yaxşılaşdırılmasını nəzərdə tutur.

4. Hamını əhatəli və keyfiyyətli təhsillə təmin etmək və həyat boyu öyrənməni dəstəkləmək. İn-

sanların həyat səviyyələrinin artırılması və davamlı inkişafın təmin edilməsi onların təhsil səviyyələrinin artırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Bu məqsəd təhsilə cəlb edilən insanların, xüsusilə qadın və qızların sayının artırılmasını, təhsilin səviyyəsinin yüksəldilməsini nəzərdə tutur.

5. Gender bərabərliyinə nail olmaq, qadın və qızların hüquq və imkanlarını genişləndirmək. Bu qadınların diskriminasiyasının aradan qaldırılmasına, onların hüquq və imkanlarının artırılması üçün daha aktiv səyələrin göstərilməsinə istiqamətlənmişdir.

6. Hamı üçün suya və sanitar xidmətlərə çıxışı təmin və bunları səmərəli idarə etmək. Bu əhalinin içməli su, sanitariya və gigiyena ilə bağlı problemlərinin həllini nəzərdə tutur. Antisanitariya şəraitində və təmiz su ilə təmin olunmadan əhalinin səhiyyə, təhsil və yoxsulluq səviyyəsinin azaldılması ilə bağlı problemləri həll etmək imkanları məhduddur.

7. Hər kəsin münasib, etibarlı, davamlı və müasir enerji mənbələrinə çıxış imkanlarını yaratmaq. Bu məqsədə nail olmaq üçün əhalinin elektrik enercisinə və yemək bişirilməsi üçün ekoloji baxımdan təmiz digər enerji növlərinə çıxışı, habelə enerji səmərəliliynə və bərba olunan mənbələrdən enerji istehsalının payının artırılması tələb olunur.

8. Hamı üçün dayanıqlı, əhatəli və davamlı iqtisadi artım, tam və məhsuldar məşğulluq və layiqli iş imkanı yaratmaq. İqtisadi artım cəmiyyətin inkişafını müəyyən edən əsas amillərdəndir. Onun dayanıqlılığı və daha çox əhatəliliyi şəraitində əhalini tam və məhsuldar məşğulluqla təmin etmək imkanları yaranır. İqtisadi artımın mənfi effektlərini məhdudlaşdırmaq üçün bu artım ekoloji cəhətdən təhlükəsiz metodlarla təmin edilməsi tələb olunur.

9. Dayanıqlı infrastruktur yaratmaq, əhatəli və davamlı sənayeləşməni dəstəkləmək və innovasiyanı stimullaşdırmaq. İnfrastrukturun inkişaf etdirilməsi, sənayeləşmə və innovasiyanın dəstəklənməsi iqtisadi artımı müəyyən edən əsas amillərdəndir.

10. Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq. Bu ölkədaxili və ölkələrarası bərabərsizliyin azaldılmasını, tənzimlənən və təhlükəsiz miqrasiyanın təmin edilməsini, beynəlxalq iqtisadi və maliyyə institutlarında qərarların qəbulunda inkişaf etməkdə olan ölkələrin mövqelərinin gücləndirilməsini nəzərdə tutur.

11. Şəhərləri və insanların yaşayış məkanlarını əhatəli, təhlükəsiz, çevik və davamlı etmək. Dünyada urbanizasiya prosesinin artdığı bir dövrdə şəhərlərdə lazımi mənzil təminatı olmayan insanların sayının artması, ətraf mühitin çirklənməsi, ilkin xidmətlərin və infrastruktur obyektlərin çatışmaması kimi problemlərin yaranmasına səbəb olur. Bu, qeyd edilən problemlərin həllinə istiqamətlənmişdir.

12. Davamlı istehlak və istehsal medellərinə keçidi təmin etmək. Davamlı istehlak və istehsal modellərinə keçid məhdud iqtisadi resurslardan səmərəli istifadəyə və iqtisadi fəaliyyətin ətraf mühitə təsirini məhdudlaşdıra bilər. Bu məqsədə nail olmaq üçün davamlı istehlak və istehsal modelləri milli inkişaf planlarının tərkib hissəsini təşkil etməli, habelə kimyəvi maddələrin və tullantıların idarə edilməsində beynəlxalq normalara əməl edilməlidir.

13. İqlim dəyişikliyi və onun nəticələri ilə mübarizə aparmaq üçün operativ surətdə tədbirlər görmək. Bu, dünya üzrə qlobal temperaturun artımının qarşısının alınmasını, təhlükəli iqlim hadisələri və təbii fəlakətlərə müqavimət qabiliyyətinin artırılmasını nəzərdə tutur.

14. Davamlı inkişaf məqsədləri üçün okeanları, dənizləri və dəniz resurslarını qorumaq və onlardan səmərəli istifadə etmək. Bu, okean və dənizlərin çirklənməsinin qarşısının alınması, balıq və digər resurslardan davamlı istifadə üçün tədbirlərin görülməsini nəzərdə tutur.

15. Yerüstü ekosistemi mühafizə, bərpa etmək və ondan səmərəli istifadəni dəstəkləmək, meşələrdən davamlı şəkildə istifadə, səhralaşmaya qarşı mübarizə aparmaq və torpaqların deqradasiya prosesini dayandırmaq və aradan qaldırmaq və biomüxtəlifliyin itirilməsi prosesini dayandırmaq. Sağlam ekosistemlər ondan asılı olan canlıların rifahı üçün mənbə rolunu oynadığından, ekosistemlərin qorunması və bərpa edilməsi iqlim dəyişikliyinin, habelə baş verən fəlakətlərin ətraf mühitə təsirinin məhdudlaşdırılması baxımından mühüm rol oynayır. Habelə, biomüxtəlifliyin qorunması, torpaqların məhsuldarlığının saxlanması, meşələrin rasional idarə edilməsi və s. bu kimi Yer kürəsində mövcud resurslardan davamlı istifadənin mühüm istiqamətlərindəndir.

16. Davamlı inkişaf məqsədilə dinc və hamı üçün bərabər imkanlar yaradan cəmiyyətləri dəstəkləmək, hər kəsə ədalətə çıxış imkanı vermək və bütün səviyyələr üzrə səmərəli, məsuliyyətli və əhatəli institutlar yaratmaq. Ədalətin və sülhin təmin edilməsi, səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan qurumların yaradılması, dinc və açıq cəmiyyətin dəstəklənməsi davamlı inkişaf məqsədlərinə nail

olunmasının mühüm əsaslarındandır.

17. Davamlı inkişaf üçün qlobal tərəfdaşlığın həyata keçirilmə vasitələrini gücləndirmək və onu aktivləşdirmək. Davamlı inkişaf məqsədlərinə nail olmaq üçün tərəfdaşlıq münasibətlərinin gücləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi, davamlı inkişafla bağlı siyasətlərin bütün səviyyələrdə əlaqələndirilməsi tələb olunur.

2030-cu ilə qədər olan dövrdə 17 məqsədin reallaşdırılmasına çağırış hökumətlərin və onların tərəfdaşlarının, o cümlədən biznes və beynəlxalq qurumların öz fəaliyyət strategiyalarında, proqramlarında və xidmətlərində bu məqsədləri nəzərə almalarını nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, 17 məqsəddən 3-ü birbaşa ətraf mühit problemlərinin, 7-si infrastruktur problemlərinin, 6-sı isə maddi rifah problemlərinin həlli ilə bağlıdır. Bu məqsədlərin əsasında insanların maddi rifahı daynır. Davamlı inkişaf məqsədləri milli hökumətlər üçün sosial siyasət sahəsində əsas prioritetləri üçün müəyyən istiqamətləndirici sənəd rolunu oynayır.

Bütövlükdə, davamlı inkişaf paradiqması inkişafın mərkəzinə insanı qoyur və iqtisadi artımın təmin edilməsində indiki nəsillə yanaşı, gələcək nəsillərin də həyat tələbatlarının təmin olunması imkanlarının və bütün canlıların həyatlarının asılı olduğu təbii sistemin qorunmasına əsaslanır. Bu insanların həyat təminatının ekoloji tərəflərinə uyğun olan iqtisadiyyatın yaradılmasını, resurs və imkanların həm də indiki və gələcək nəsillər arasında, həbelə insanlarla digər bioloji növlər arasında ədalətli bölgüsünü nəzərdə tutur. Belə inkişaf yoxsulluğun azaldılması, layiqli məşğulluq, insanların imkanlarının davamlı şəkildə artırılması, sosial inteqrasiya və ətraf mühitin qorunmasına üstünlük verir. Bu baxımdan, davamlı inkişaf iqtisadi, sosial və ekoloji sistemlərin həyat qabiliyyətini saxlamaqla iqtisadi subyektlərin (məsələn, istehlakçı, firma, icma və s.) öz iqtisadi maraqlarını reallaşdırmaq qabiliyyətini artırır (10).

Milli və beynəlxalq səviyyədə davamlı inkişaf məqsədlərinin və vəzifələrinin həyata keçirilməsi iqtisadi, sosial və ekoloji siyasət tədbirlərinin hazırlanması və həyata keçirilməsindən asılıdır. Artıq qeyd edildiyi kimi, bazar qüvvələri davamlı inkişaf məqsədlərinin əksəriyyətinin həllini təmin etmir. Bu dövlətin gəlirlərin yenidən bölgüsü, təhsil və səhiyyənin maliyyələşdirilməsi, ətraf mühitin qorunması siyasətindən asılıdır. Qeyd edilən istiqamətlərdə həyata keçirilən tədbirlər gələcəkdə cəmiyyətin rifahının artırılması və gəlirlərinin yüksəldilməsi ilə bağlıdır.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı: Təhsil, 224 s.*

*2. Şəkərəliyev A. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2011, 542 s.*

*3. Хикс Дж.Р. Стоимость и капитал. М., Прогресс, 1988, 488 с.*

*4. Adger Neil, Winkles Alexandra. Vulnerability, poverty and sustaining wellbeing / published in Handbook of Sustainable Development, Cheltenham: Edward Elgar Publishing Limited, 2007, pp. 206-216.*

*5. Carley Michael, Ian Christie. Managing Sustainable Development. Minneapolis: University of Minnesota Press, 1993, 303 p.*

*6. Farmer Michael C., Randall Alan Policies for Sustainability: Lessons from an Overlapping Generations Model // Land Economics, Vol. 73, № 4, Defining Sustainability, Nov., 1997, pp. 608-622*

*7. Hartivik J.M. Intergenerational equity and the investing of rents from exhaustible resources // The American Economic Review, vol 67, №2, 1977 (dec.), p. 137-175.*

*8. Human Development Report: 1990. New York: Oxford University Press, 1990, 141 p.*

*9. Millennium Development Goals Report 2015. United Nations, New York: 2015, 74 p.*

*10. Munasinghe M. Sustainable Development in Practice: Sustainomics Methodology and Applications. New York: Cambridge University Press, 2009, 634 p.*

*11. Report of the World Commission on Environment and Development. Our common future. New York: Oxford University Press, 1987, 374 p.*

*12. Solow R. On the intergenerational allocation of natural resources // Skandinavian Journal of Economics, № 88 (1), 1986, p. 141-149.*

*13. Vogler John. The international politics of sustainable development / published in Handbook of Sustainable Development, Cheltenham: Edward Elgar Publishing Limited, 2007, pp. 430-446.*

## XÜLASƏ

Məqalədə davamlı inkişafın öyrənilməsi sahəsində müasir nailiyyətlər tədqiq olunur. Davamlı inkişaf konsepsiyasının bütövlükdə dərkində yanaşma və təmayüllər təhlil edilir. Davamlı inkişafa münasibətdə elmi fikrin əsas istiqamətləri aşkarlanır. Davamlı inkişafın məqsədləri BMT-nin əsas sənədlərində formulə edildiyi şəkildə göstərilir. Həmçinin qeyd olunur ki, davamlı inkişaf konsepsiyasının mərkəzində istər indiki, istərsə də gələcək nəsillərin neməti olan insanın özü dayanır.


**Açar sözlər:** *Davamlı inkişaf konsepsiyası, qlobal problemlər, davamlı inkişafin məqsədləri, Birləşmiş Millətlər Təşkilatının Minilliyin Bəyannaməsi, təbii resurslar, təbii renta, Xartvik qaydası.*


## RESUME

This paper investigates the current achievements in the area of sustainable development. Besides, the current research discusses the notion of sustainable development in terms of guidelines and approaches. In addition, the research paper explores main scientific directions in respect to sustainable development. Moreover, the SDG’s goals are shown as it formulated in the UN’s documents. More importantly, even for current or the future generations the main focus area as an inheritance has always been the human factor.


**Key words:** *Concept of sustainable development, global problems, goals of sustainable development, United Nations Millennium Declaration, natural resources, natural rent, Hartwick rule.*


## РЕЗЮМЕ

В статье исследуются современные достижения в области изучения устойчивого развития. Анализируются подходы и тенденции в осмыслении концепции устойчивого развития в целом. Выявляются основные направления научной мысли в отношении устойчивого развития. Показываются цели устойчивого развития в том виде, в котором они были сформулированы в основополагающих документах ООН. Отмечается также, что в центре концепции устойчивого развития стоит сам человек, благо как нынешних, так и грядущих поколений.


**Ключевые слова:** *Концепция устойчивого развития, глобальные проблемы, цели устойчивого развития, Декларация тысячелетия Организации Объединённых Наций, природные ресурсы, природная рента, правило Хартвика.*

UOT 32

# COERCIVE POWER FROM A LIBERAL PERSPECTIVE: CONSIDERATIONS ON COERCING POLITICALLY UNREASONABLE PERSONS

**KANAN AHMADZADA**
*ANAS Institute of Philosophy and Sociology, doctoral student*
*E-mail: kanan.ahmad@outlook.com*

**Introduction:**

In this article, from the standpoint of liberal philosophy, I examine the legitimacy of controlling individuals who display conflict-ridden behaviors through the coercive force of the liberal state in a contemporary democratic society characterized by belief pluralism. As we observe, modern liberal democratic societies consist of citizens who adopt different and incompatible moral and political beliefs. Given citizens' conflicting values, opposition and disagreement will inevitably arise as each party seeks to dominate the public realm. At this point, we usually expect that the state manages or eliminates conflict and reestablishes peace through the exercise of coercive force.

So, in this paper, I want to pay attention to a specific case: individuals who reject liberal democratic constitutional ideals, or so-called unreasonable people. Religious fundamentalists, right-wing populists, and others in modern politics are examples of such people. The observable pattern here is that, while the liberal state acts as a neutral and conciliatory party by allowing every citizen to live as he or she wishes based on different beliefs, unreasonable people's values and political manners are directly opposed to the fundamental values of that liberal ideology. As a result, these people reject a liberal democratic regime in favor of one in which their ideals are politically dominant. This is a direct threat to the sovereignty of the liberal state and the political autonomy of its citizens who have adopted other doctrines. Inevitably, at this point, there will arise a pragmatic need for that state to take control of the situation by coercive force. However, at first glance, this approach does not seem to be compatible with the terms of legitimacy that liberalism imposes on the use of power. Given that liberalism considers the use of coercion against people to be legitimate only with the consent of those subjected to it, to what extent does the liberal state's use of force against unreasonable people without their consent be compatible with liberalism's own theoretical integrity?

Additionally, the issue of the coercion of unreasonable people by a liberal state has received little attention in the scholarly literature. So, I think that the issue needs to be clarified. For this aim, I will first examine coercive power and its place in liberal philosophy, followed by an examination of how political liberalism, as a new form of liberalism, legitimizes the use of political power in the face of doctrinal pluralism. After that, I will go into the characteristics of politically unreasonable people and the theoretical underpinnings of liberalism's use of compulsion against them. In the end, I will argue that political liberalism, by allowing the exercise of coercion against unreasonable individuals, doesn't contradict its own theoretical coherence. I will also add that ontologically it is not a neutral ideology, but rather one of the partisan political actors.

**Coercion and its place in the liberal tradition**

Coercion is a certain sort of power wielded by one actor over another to achieve its goals through the use of threats backed up by punishments [10, p. 340]. If the subject of coercion does not comply with the demands of the coercing actor, he can experience sanctions ranging from the loss of his life, health, freedom, welfare, social status, respect, friendship, and even harm to his loved ones. So, these threatened damages can hustle the coerced agent to choose to do what is demanded of him [10, p. 343]. For conceptual clarity, I should point out that in a relationship of coercion, the coerced person is typically free. Because, despite the significant threat of coercion, this person has the capacity and freedom to choose and hence bears moral responsibility for his actions. As a necessary consequence, the very capacity to choose leads us, for example, to hold those who break the law accountable [10, p. 342].

We can easily observe countless forms of coercive relations of power in all domains of our social life. These kinds of relationships can be found not just in politics and administration but also in families, cultural groups, religious organizations, and voluntary associations. Coercive action is essential for any actor or organization to function, so it has long been a vital part of social and political life, as well as being at

the heart of political theory. In political philosophy, one of the most important approaches to exercising coercive power is to determine the criteria of a legitimate or permissible act of coercion. Classic political debates have centered on questions such as "can one actor, particularly the state, coerce another actor to do anything, and to what extent and in what range?" and "in what range should the state permit coercion?" [5, p. 5-6].

To respond to such problems, first and foremost, liberal thinkers consider coercion to be a morally evil act that should be minimized, or if it is possible, be eliminated from social relations [10, p. 349]. Namely, one of liberalism's most distinctive characteristics is that it places normative and practical constraints on the exercise of coercive political power and attempts to confine political action to moral bounds [15, p. 21]. Hereby, political power should be regulated so that it doesn't entail tyranny over people who are dominated by rulers. In other words, for liberals, it would be inadmissible to coerce people to do things they would not choose to do if there was no force or threat of force [16, p. 533].

This seemingly antithetical position of liberalism towards coercive political acts originates from the fact that liberalism as an ideology is founded on the principles of liberty, and its prescriptive ideas are oriented towards the defense of people's freedom in political society [5, p. 179]. In general, we can understand the concept of liberty as the notion that encapsulates the unconstrained exercise of powers of individual deliberation, personal choice, and the deliberate initiation of action. According to this concept, which might be referred to as "negative liberty," an individual can act uninhibitedly without encountering interference from other actors [17, p. 130]. Given that coercion can be viewed as one of the forms of interference in a person's conduct, it poses a threat to the freedom of the person, and from the standpoint of liberals, it is necessary to be constrained. Nevertheless, it doesn't necessarily follow that liberals simply ignore coercive political power or political community entirely by the adoption of an anarchic mindset [17, p. 134]. In fact, by embracing the pragmatic necessity of living together under common political authority, they desire a particular sort of political community in which its members adopt fundamental political principles that govern and sustain their society as an utterance of their own will rather than the forceful imposition of other actors [15, p. 22]. That is, in liberal society, when rulers coerce people to do certain things, they do it to realize the interests of members of the political community, not for their own interests and goals. Thus, coercive political power has been regulated in a democratic way that reflects the collective will of the individuals of a liberal society to secure the freedom of people from facing the risk of oppression and, hence, be reconciled with individual freedom [5, p. 179].

On a theoretical level, liberal ideology tries to reduce the tension between individual freedom and the coercive power of the social system in a distinctive manner. Given the central importance liberals place on individual liberty, it's no coincidence that they stipulate that the exercise of political compulsion be justified in terms of everyone's perspective [17, p. 135]. In principle, the individual can only come to terms with and obey political rule as a form of coercive power over himself if he sees the principles of that governance as admissible in his mind [17, p. 135]. Liberals believe that the right to rule and the right to demand obedience are determined by principles of political authority that are based on intelligible arguments from an individual's perspective [17, p. 135-136]. So the very legitimacy of authority is provided through reference to the standpoint of each individual [17, p. 135]. If the basic tenets and ideals of political power are admissible, an individual chooses to live under the social order and agrees to uphold its commitments. As a result, people do not submit their fate to the irrational impulses and subjective interests of any group, and they function within the political atmosphere that embodies their ideas and values.

The model of the social contract is one of the liberal tradition's approaches to justifying the political legitimacy of coercive power and grounding the obligations of citizens. This model reflects the establishment of political authority as the result of a hypothetical agreement among persons who are free and equal, and the authority's process of gaining legitimacy through such a contract [1, p. 1287]. People who are initially in a state of nature, which is an anarchic condition, are under the threat of war as a natural consequence of conflicting interests and objectives. It is self-evident that a state of war will ultimately result in inequalities, violations of human rights, expropriation of personal property, and, in general, a decrease in the quality of human life. To avoid such unpleasant situations, people reach an agreement on basic poli-

tical principles among themselves, and in this way, they set up popular sovereignty, through which its coercive control leads to the transformation from a state of war to a peaceful and just political community. Just as the established political power safeguards the rights and liberties of its citizens, so do the citizens fulfill their obligations arising from this commitment. Due to citizens' approval of the underlying political principles of the established state, they deliberately and voluntarily agree to be subject to the restriction of their independence and, hence, concede to obeying the laws under coercion [1, p. 1326-1330].

Here, it is striking that the liberal framework portrays the individual who acknowledges the authority of the coercive laws of the state enforced on him as the one who imposes his own made law on himself as a free agent. In the liberal tradition, although many thinkers had examined the aforementioned relationship between human freedom and public law, Immanuel Kant was the one who had made the most comprehensive and influential treatment of the issue [15, p. 23]. Firstly, I want to point out that ascribing dignity to the individual's freedom or autonomy is the central point of Kant's philosophy. According to him, freedom is "independence from being constrained by another's choice" and the "right every man possesses by virtues of his humanity" [8, p. 63]. In that case, to have a right to freedom means not only that an agent can do anything he wishes as long as he is not harming others, but also that he can't be bound by external laws and limits without his consent. So, public law is only legitimate when an individual willingly embraces its principles [8, p. 125]. Because, in principle, public law isn't imposed forcefully on the individual, conversely, an agent enters social life voluntarily by assigning the requirements of public law as duties to himself. Thus, Kant regards human beings as morally self-legislating agents, or, in other words, autonomous agents. An autonomous person is one who has the capacity to govern himself and to enjoy his life according to motives that are held as his own and not the product of manipulative external forces [2]. It is obvious that autonomy will entail the agent's determination of his objectives for himself and following them, as well as the adoption and, in his practical life, carrying out of some religious beliefs and philosophical views that are acceptable to him. This, according to Kant, is the agent's primary right by virtue of only being human.

Secondly, I would like to draw attention to the explicit notion that individuals' freely pursuing their ideas of good can lead to conflict by colliding with other autonomous people's similar endeavors. Regarding this concern, Kant provides formal equality and equal dignity to all autonomous persons in terms of moral and political standing, as well as his famous universal law that governs their interactions. The philosopher argues that each rational being should not be regarded "as a means to be used by this or that will", but rather "he must … always be regarded at the same time as an end" [7, p. 37]. That is, it is imperative that when people try to achieve their goals, they shouldn't do it in violation of other agents' rights. Hence, by applying this principle in a political community or state, it might be possible to prevent people from exploiting one another. Kant argues that the state should be allowed to eliminate exploitation through exercising coercion through universal laws. Because, "if a certain use of freedom is itself a hindrance to freedom in accordance with universal laws, coercion that is opposed to this is consistent with freedom in accordance with universal laws" [8, p. 57]. So, it is legitimate for political power to coerce people in order to prevent them from restricting the freedom of others via their own coercive actions.

In summary, we can conclude that liberalism recognizes the moral acceptability of the exercise of coercive power only if the functional principles of authority are compatible with personal autonomy. Here again, it is striking that liberals see consent as the basis of legitimacy. One of the reasons for this consideration is, as Waldron remarks, "our need for control over what happens to us, as part of our general interest in controlling the course of our lives" [17, 137]. So having control over our lives reflects our autonomy. Another reason is that we, as social beings, tend to live together through mutual collaboration. The very notion of consent plays a basis role to enter voluntarily into social cooperation. It is self-evident that for us to give consent to something, it is necessary that in principle it should be justifiable for us. If this is the case, we can say that the legitimacy of coercive power in a liberal society is based on the consent of all members of that community [17, 137].

**Political liberalism's account of coercion under the conditions of doctrinal pluraslim**

Our empirical observations provide us with the

warrant to claim that in modern times, democratic societies are characterized by a pluralism of beliefs or doctrines. These societies incorporate various individuals or groups who endorse divergent and incompatible religious, philosophical, and moral doctrines [1, p. 1065]. Given that adopted political beliefs are derived from a variety of metaphysical foundations and conceptions of morality regarding the good life or from comprehensive doctrines as in political theory jargon, we can anticipate that social actors' political attitudes will inevitably lead to disagreement on public issues. As a consequence of this disagreement, conflict can emerge within society, posing a threat to the peaceful order. Regarding this, we can interfere from liberalism's fundamental concerns that it has two key issues with the problem of disagreement: 1) by relying on their comprehensive doctrines, social actors' unfair exercise of power over one another to pursue their ends; and 2) the destabilization of the state, which provides people with a high-quality life by maintaining a peaceful order among social actors.

Traditionally, the liberal narrative has been built on the social contract paradigm, which encompasses social world agents reaching consensus by respecting the dignity of personal freedom and, as a result, creating a central authority, as we see in Kant's political philosophy. However, this model can't provide an adequate abstract normative framework due to the doctrinal pluralism that we face in contemporary times [15, p. 36]. This is because, as Rawls pointed out, under the terms of freedom, which is preserved by constitutional democratic regimes, it is perfectly reasonable that people adopt different religious, philosophical, and moral ideas as responses to fundamental questions about the existence of humanity. It is even inevitable. Because even if we were to entirely eliminate our natural temptations, prejudices, irrational impulses, and self-interest, we would arrive at diverse conclusions while looking for answers to such deep questions. The reasons, according to Rawls, are the vagueness of concepts and our different interpretations of them; the complexity of pieces of evidence, and thus the difficulty of evaluating them. Additionally, if we'd agreed on the same pieces of evidence, we would have concluded different judgments about them. Even if we'd affirmed the same judgments, we would have diverse normative considerations about this fact. [13, p. 55-57]. So, it is plausible to conclude that singular comprehensive doctrines cannot serve as the basis for commonly accepted political principles among different parties. Because this may lead to citizens oppressing one another within society. In such a scenario, the agent with more power would oppress other agents in order to further its own goals. Thus, liberalism encounters again the problem it emerged to solve, but in a new form: how can autonomous individuals who have diverse beliefs and life plans live under common coercive power without sacrificing their basic rights and liberties? [3, p. 326] Intuitively, we might infer that it is necessary to find neutral common ground that brings parties together despite their differences. Because neutrality implies not taking the side of one particular party, and thus, leads to discovering opportunities for commonality among them. So the question is this: what kind of neutral foundation can bring people together under coercive political power?

Responses by John Rawls, a prominent American political theorist, to such important questions reflect the current dominant liberal attitude. By taking into account the requirement for neutrality or impartiality, he aims to develop a project that holds a mediating position that will lead to unanimity among parties and set up fair terms of cooperation [13, p. 12]. Here, we can notice that he maintains conciliatory patterns of the social contract model. Firstly, it is necessary to mention that, according to Rawls, coercive power should be the product of cooperation and "is fully proper only when it is exercised in accordance with a constitution the essentials of which all citizens as free and equal may reasonably be expected to endorse in the light of principles and ideals acceptable to their common human reason" [13, p. 137]. This demonstrates that Rawls attempts to reveal the situation of neutrality by recognizing the same political status for all and establishing common ground on the basis of the parties' shared human reason. That is, politically free and equal agents accept fair terms of cooperation derived from reasoning based on common human reason and, hence, create political power.

Secondly, to maintain neutrality, Rawls proposes that parties should elude themselves from the lens of their broad metaphysical and moral conceptions when determining the terms of cooperation. Because parties have adopted incompatible broad conceptions, it is impossible to bring them together around a single one. In this manner, by considering that traditional liberalism is also a comprehensive doctrine,

Rawls assesses the acceptability of broad liberalism by every agent in such a doctrinal pluralistic circumstance as unreal [15, p. 31]. Therefore, he attempts to reestablish liberalism as a political conception by putting aside its philosophical and moral underpinnings [13, p. xvi]. Although Rawlsian political liberalism, still maintains core values such as autonomy, political equality, and the inalienability of basic rights, he presents them not as metaphysically grounded notions but merely as political values [3, p. 354]. In this way, unlike Kant, Rawls doesn't give moral weight to autonomy and individuality. He views these values as things providing the same "mold" to all parties in the public sphere. It means that, notwithstanding their doctrinal differences, parties are represented in the form of having the same political status and rights under the fair terms of collaboration. As a result of this, in the public realm, social actors will treat one another as autonomous and equal participants.

Third, Rawls contends that fair terms of cooperation should be offered on the assumption that the principles of coercive power should be justified for those over whom power is exercised [3, p. 354]. Thus, he advocates for parties' active engagement in justificatory dialogue regarding decision-making on basic political matters of society. In this dialogue, people propose reasons for constitutional issues based on their own conceptions of justice and, thereafter, make commonly binding decisions [15, p. 32]. Here, there is one indispensable term, and that is the principle of reciprocity. In such a way, by setting aside their comprehensive doctrines, each party should propose only arguments that are considered acceptable to their opponent parties. As a result, citizens ensure that their political community's basic structure can be interpreted and justified for their fellow citizens without relying on incompatible moral assumptions with which they disagree, by explaining their preferred conception solely on grounds that people share [12, p. 770]. Because we can't expect all parties to accept reasons that are derived from a singular comprehensive moral conception adopted by a particular party. Thus, citizens who propose reasons "must also think it at least reasonable for others to accept them, as free and equals, and not as dominated or manipulated, or under the pressure of an inferior political or social position" [12, p. 770].

As a result, the principles that underpin political power are founded on a political conception that all parties can agree on. According to Rawls, despite the parties' adoption of irreconcilable comprehensive views, for them, it is possible to come to an "overlapping consensus"—to settle on a liberal political conception that all can accept [12, p. 801]. In this case, the parties may regard that conception as compatible with or derived from their own doctrines. To put it differently, there are some different doctrines that can either find a place for the same liberal political principles or can justify them by using their theoretical premises [12, p. 774].

The basic function of overlapping consensus is to provide well-grounded stability for a society [3, p. 366]. Namely, there is a potential danger that a situation of conflict will arise, as the formation of political stability only on the basis of a balance of advantages carries the possibility that this equilibrium may be disturbed when interests change. However, the stability of the system through overlapping consensus arises not only from the mutual realization of their interests but also from the fact that such cooperation carries a moral weight in the ideological position of the parties. That is, parties are bound to that cooperation with an ideological basis. So this makes stability longer and more consistent [3, p. 368].

Most importantly, Rawls argues that only reasonable people join in such overlapping consensus. Reasonability must be defined in terms of two characteristics. First, reasonable people are willing to offer and follow fair rules of cooperation for the mutual advantage of free and equal individuals [13, p. 49-50]. Second, they recognize the inevitability of people's achieving different opinions about the world and morality and accept its consequences. [13, p. 54]. At the same time, as Rawls pointed out, people in modern democratic societies don't only believe in reasonable doctrines but also in unreasonable ones [13, p. 64]. People who adopt such ideologies don't come to an overlapping consensus with others, and so they aren't bound to the liberal cooperation system. The question is this: what is the place of unreasonable people as citizens in a liberal regime? Let me review the characteristics of politically irrational people before I discover the answer to this issue.

**Who are the unreasonable people?**

Primarily, unreasonable people are those citizens who see their comprehensive ideologies as epistemologically true and axiologically good, whereas see

others are false and bad. Hence, according to them, the only viable option for the configuration of a public sphere is their ideology. Furthermore, they tend to build their beliefs' hegemony over their community, thereby establishing dominance over other citizens. Another trait of unreasonable people is their denial of the idea of free and equal citizens as core liberal political values. Namely, they lack the liberal mindset that coercive power should be justified for those who are subjected to it [4, p. 27]. That is, they don't have the belief that they should "act in relation to others on terms that they also can endorse" [13, p. 19].

In my opinion, it can be said that the existence of unreasonable people poses a direct threat to a liberal democratic society. Because, firstly, these people will be inclined to commit crimes by infringing on the rights of others for the sake of furthering their ideals in the public realm. Secondly, unreasonable people, by refusing to accept constructive norms of the liberal political system, which is founded on the principles commonly accepted by multiple parties with divergent beliefs, will isolate themselves from this system and, hence, will regard themselves as separate political subjects. This, in turn, will create a problem of political stability for the liberal community. Let's look at two real-world examples of this.

One of the main political factions rising as an unreasonable trend in the current political arena is religious fundamentalism (RF). Emerging in the last third of the twentieth century and then appearing almost all over the world since the beginning of the twenty-first century, RF can be seen as a challenge for liberal democratic societies [11, p. 4-5]. Christian right-wing organizations in the United States and Islamist fundamentalist groups in Egypt, Turkey, Iran, Afghanistan, and Pakistan are two good examples of this trend. The RF is a serious source of concern among nations, especially because of its militaristic and aggressive inclinations [6, p. 321]. Now, we'll look at the basic characteristics of the RF and its contradictions with political liberalism.

Fundamentalism is a style of thinking in which certain principles and beliefs are perceived as fundamental truths that cannot be objected to. By that approach, supporters of RF believe that their idiosyncratic comprehensive doctrines teach one and ultimate truth, and those other ideologies are false. Additionally, they interpret events and objects in terms of dichotomous and Manichean concepts such as "good and bad," "true and false," and "light and darkness" and ascribe their approach to the first part [11, p. 5]. We can also understand this approach as the polar opposite of relativity [6, p. 327]. So, this is the foundation of their perception that "X religion is the only doctrine that has the right to dominate the public realm." From this point, we can conclude that, aside from their religion, supporters of the RF believe that no other doctrines have any intellectual or moral weight in shaping the political realm. It means that religiously fundamentalist people are not willing to engage in reciprocal cooperation with those who have different comprehensive conceptions when it comes to formulating constitutional principles. This paradigm is clearly in contradiction with the claim of political liberalism that principles that govern the basic structure of society should be determined by overlapping consensus.

**Considerations on the coercion of unreasonable people in political liberalism**

At this step, a crucial question arises: Given the inevitable fact that in modern democracies some people reject the core values of liberalism, what is the political place of such people within society from a liberal point of view? According to Rawls, a liberal regime views such groups of people as one of the undesirable instances, such as war or disease, and it is that regime's responsibility to regulate them [13, p. 64]. Because unreasonable people refuse to accept the liberal society's constitutional foundation, they endanger the society's stability, which is founded on overlapping consensus. Namely, peaceful coexistence between reasonable and unreasonable people in a society is not possible through overlapping consensus but only in the form of equilibrium of mutual advantages. So there is a risk that political stability may be endangered if unreasonable parties regard conflict as more advantageous than peace [13, p. 489]. At this point, the question arises as to what kind of control policy this regime will pursue against unreasonable people. Although Rawls doesn't address this problem, according to liberal theorist J.Quong, this control strategy should be a "policy whose primary intention is to undermine or restrict the spread of ideas that reject the fundamental values …" [9, p. 300]. Consequently, unreasonable citizens will be in a specific position controlled by the liberal state. In other

words, liberals in power will use coercive power over such individuals for the sake of their doctrines being dominant in the public sphere.

Important questions here are: on what grounds may political liberals use coercive force against unreasonable people and demand that they obey liberal laws? If political liberals legitimize the exercise of power by the admissibility of principles that belong to that power in the minds of individuals who are subjected to it, then to what degree is using force on unreasonable people coherent with the own philosophical premises of liberalism about exercising power?

First and foremost, Rawls justifies the exercise of political power only to those parties who are willing to cooperate, or so-called reasonable people, within the framework of liberal molds of representation. By doing so, he excludes the unreasonable people, who believe that their idiosyncratic comprehensive doctrines should rule the public realm, from the "legitimation pool". Because they are not the people of the legitimation pool "whose endorsement would confirm the legitimacy of Rawls's political liberalism—or whose rejection would confirm its legitimacy" [4, p. 16]. In other words, for Rawls, unreasonable people's values and priorities have no theoretical weight in discussions of constitutional issues like how political authority should be established and exercised [4, p. 16]. However, from this point, it shouldn't be understood that by eliminating unreasonable people, liberals will violate or disrespect their basic rights and liberties. As J. Quong emphasizes, a liberal state will "treat all citizens as free and equal, and as entitled to a fair share of resources that will permit them to cooperate with others on fair terms" [9, p. 313]. By dismissing the compositional moral and political values of liberal philosophy, unreasonable people are just "beyond the reach of liberal public reason" [9, p. 314]. In other words, they lack the capacity to enter the deliberative platform commonly shared by reasonable people. Intuitively, we can conclude from here that such people can essentially enjoy their basic rights and liberties in liberal democracies, only threatful behaviors of them to the political stability will be restricted by the regime.

But does the coercion of unreasonable citizens in the form of restrictions imposed by liberal institutions generally accord with the philosophical integrity of liberal doctrine itself? I think that to prevent such people from creating danger to the stability of the liberal system, coercion in the form of restrictions is coherent with the general framework of liberal theory. The first reason for this is the rightfulness of using coercion by the liberal political system to defend itself against destructive influences. If a liberal society has the right to wage war to protect itself against external enemies, then it will also be right for that society to fight internal threatful elements through the use of coercive force. The second reason for this is the pragmatic necessity of deploying coercive power to realize the requirements of justice. For instance, when we punish criminals, we don't take into account whether the criminal believes his/her action is wrong. Similarly, when unreasonable people share their threatening ideas with society, liberals shouldn't need to get those people's consent to prevent their toxic propaganda from spreading throughout society.

Nevertheless, in such a case, the liberal regime as a political subject displays a tendency to dominate other subjects who adopt different ideologies without any ideological overlap between them. So, by acting like this, to what extent does liberalism as a doctrine comply with the root terms of its own normative understanding of legitimacy, even if it does so to maintain stability and peace? In this connection, scholar M. Sleat claims that although political liberals allow deploying coercive force over unreasonable citizens, theoretically they "cannot connect the will of non-liberals with the principles according to which political power is employed" [14, p. 361]. According to his argument, since liberal philosophy grants legitimacy to coercive power only when those who are subjected to it willingly agree with its principles, then coercing unreasonable people without their consent should be regarded as an illegitimate act. Simultaneously, this means that when people don't reach a consensus with liberals, the liberal regime doesn't recognize those individuals as persons who have a right to determine their destiny as free and equal beings. As a result, liberalism is not a doctrine that can be supported universally by all individuals despite their incompatible comprehensive doctrines, but rather it is ontologically one of the self-interested and partisan parties in the political sphere [14, p. 362, 364].

In this case, I believe his thesis is more plausible in terms of traditional liberalism than political liberalism. Specifically, the traditional liberal theory is the one that has an idiosyncratic moral framework and its principles derive from these very moral theses. So,

it would be right to claim that the tendency of liberalism to establish hegemony over those who have adopted different ideologies is incompatible with its core moral ideas such as autonomy, self-legislation, etc. However, the distinctness of political liberalism is that it promotes liberal values not due to its moral grounds but due to its being molds of representation. The purpose of political liberalism, by considering the fact of belief pluralism which is an inevitable feature of modern democracies poses a threat to political stability, is to bring different parties together on a shared platform. For this aim, by inviting parties with different beliefs to enter the determined political molds, political liberalism provides a shared deliberative platform that will serve to make political decisions universally accepted. Though the values of political liberalism originated from Kantian moral philosophy, this liberal approach sets aside the moral roots of those values due to the fact of pluralism and keeps them as molds of behavioral approach which will allow parties to enter into cooperation. So, individuals who acknowledge political values in one way or another enter the deliberative platform, reveal normative principles of political power, and then, obey the rules derived from those principles. On the other hand, people who are not willing to shape themselves according to liberal molds will remain outside of the "legitimation pool" and naturally will define and see themselves as distinct political actors. If they start to exert destructive influences on the liberal regime, they will face a response as a self-defense act of that system in the form of coercion. At this point, in my opinion, political liberalism doesn't display a manner that contradicts its theoretical integrity as a philosophy. Because, as we saw above, its theoretical scope does not include the realization of each political subject's interests within society. It certainly has a limited scope, serving only those parties who cooperate within the framework of liberal political values or behavioral molds.

Does it ontologically render political liberalism as one of the partisan parties, as Sleat advocated? In my opinion, yes. Namely, a democratic society, which is based on political liberalism as a network of social relationships, does exist with cooperation, which is derived from commonly accepted principles. On the other hand, people who reject liberal molds of representation base their political identity on different values. So, we can conclude that either liberal or other political subjects are partisan parties from an ontological standpoint. In conclusion, I want to emphasize that ontologically being a partisan party is not a flaw for political liberalism in the context of theoretical integrity due to the reasons mentioned above.

## REFERENCES


*1. Bevir, Mark, ed. Encyclopedia of Political Theory: A-E. Sage, 2010.*

*2. Christman, John. "Autonomy in moral and political philosophy." Stanford encyclopedia of philosophy (2008). https://stanford.library.usyd.edu.au/archives/spr2008/entries/autonomy-moral/*

*3. Freeman, Samuel. Rawls. Routledge, 2007.*

*4. Friedman, Marilyn. "John Rawls and the political coercion of unreasonable people." The idea of a political liberalism: Essays on Rawls (2000): 16-33.*

*5. Hampton, Jean. Political philosophy. Dimensions of philosophy series. WestviewPress, 1997.*

*6. Heywood, A. Siyasal ideolojiler (Genişletilmiş 5. Edisyondan Çeviri). BB101 Yayınları, Ankara, 2019*

*7. Kant, Immanuel. "Groundwork of the Metaphysics of Morals, translated by M. Gregor." Cambridge University Press, 1997.*

*8. Kant, Immanuel. "The Metaphysics of Morals, translated by M. Gregor." Cambridge University Press, 1991.*

*9. Quong, Jonathan. Liberalism without perfection. Oxford University Press, 2011.*

*10. McCloskey, Henry J. "Coercion: its nature and significance." The Southern Journal of Philosophy 18, no. 3 (1980): 335-351.*

*11. Pedahzur, Ami, and Leonard Weinberg. Religious fundamentalism and political extremism. Routledge, 2004.*

*12. Rawls, John. "The idea of public reason revisited." The University of Chicago Law Review 64, no. 3 (1997): 765-807.*

*13. Rawls, John. Political liberalism. Columbia University Press, 2005.*

*14. Sleat, Matt. "Coercing non-liberal persons: Considerations on a more realistic liberalism." European Journal of Political Theory 12, no. 4 (2013): 347-367.*

*15. Sleat, Matt. "Liberal realism: A realist theory of liberal politics." In Liberal realism. Manchester University Press, 2015.*

*16. Stears, Marc. "Liberalism and the Politics of*

*Compulsion." British Journal of Political Science 37, no. 3 (2007): 533-553.*

*17. Waldron, Jeremy. "Theoretical foundations of liberalism." The Philosophical Quarterly (1950-) 37, no. 147 (1987): 127-150.*

**SUMMARY**

Belief pluralism, which characterizes modern liberal democratic societies, is one of the main reasons for the contradictions among citizens in political practice. In particular, the antagonistic attitude towards the regimes of so-called unreasonable groups that reject the core values of liberal democracy is a threat to political stability. In this case, the use of coercive power to control the situation becomes a pragmatic need for a liberal state. However, given that liberalism considers the enforcement of power on people to be legitimate only with the consent of those who are subjected to it, then coercing them without getting the consent of unreasonable citizens rightfully raises questions about the theoretical validity of liberalism. Furthermore, while liberalism presents itself as a neutral and conciliatory political approach between the parties, it demonstrates a biased attitude by imposing coercion on such people.

In this paper, I will argue that political liberalism, a special form of liberal ideology, does not contradict its own provisions by using force against unreasonable people. I will also add that ontologically it is not a neutral ideology, but rather one of the partisan political actors.

**XÜLASƏ**

Çağdaş dövrün liberal demokratik cəmiyyətlərini səciyyələndirən inanc plüralizmi vətəndaşlar arasında siyasi praktikadakı ziddiyyətlərin əsas səbəblərindəndir. Xüsusilə də, nəzəriyyədə "qeyri-əqli" adlandırılan ekstremist qrupların liberal demokratiyanın kök dəyərlərini rədd edərək, həmin rejimə antaqonistik tövr qoyması siyasi stabilliyə qarşı bir təhdiddir. Belə olan halda, situasiyaya nəzarət məqsədilə məcburi güc tətbiq etməsi liberal dövlət üçün praqmatik bir ehtiyaca çevrilir. Lakin nəzərə alsaq ki, liberalizm insanlar üzərində məcburi gücün icrasını yalnız buna məruz qalan şəxslərin rızası olduğu halda legitim hesab edir, onda qeyri-əqli vətəndaşların rızası olmadan onların məcbur edilməsi liberalizmin öz nəzəri tutarlılığı ilə bağlı suallar yaradır. Əlavə olaraq, liberalizm özünü tərəflər arasında neytral və uzlaşdırıcı siyasi yanaşma kimi təqdim etməsinə baxmayaraq, bu tövrü ilə tərəfkeş şəkildə davranmış olur.

Məqalədə apardığım tədqiqatlara əsasən, liberal ideologiyanın xüsusi forması olan siyasi liberalizmin qeyri-əqli insanlara qarşı güc tətbiq etməklə öz müddəaları ilə ziddiyyətə düşmədiyini; bununla belə, onun siyasi sferada neytral bir ideologiya yox, ontoloji cəhətdən partizan tərəflərdən biri olduğunu müdafiə edəcəyəm.

**РЕЗЮМЕ**

Плюрализм убеждений, характеризующий современные либерально-демократические общества, является одной из основных причин противоречий между гражданами в политической практике. В частности, антагонистическое отношение к режимам так называемых неразумных групп, отвергающих основные ценности либеральной демократии, представляет собой угрозу политической стабильности. В этом случае использование принудительной силы для управления ситуацией становится прагматической потребностью либерального государства. Однако если либерализм считает навязывание власти людям правомерным только с согласия тех, кто ей подвергается, то принуждение их без получения согласия неразумных граждан правомерно ставит вопросы о теоретической обоснованности либерализма. Кроме того, хотя либерализм представляет собой нейтральный и примирительный политический подход между партиями, он демонстрирует предвзятое отношение, навязывая таким людям принуждение.

В этой статье я буду утверждать, что политический либерализм, особая форма либеральной идеологии, не противоречит своим собственным положениям, применяя силу против иррациональных людей. Добавлю также, что онтологически это не нейтральная идеология, а скорее один из пристрастных политических акторов.

UOT 327;930.22

# KİPR PROBLEMİ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINDA

**LƏMAN ZÜLQƏDƏROVA**
*Gəncə Dövlət Universitetinin doktorantı*
*E-mail: l.zulqadarova@mail.ru*

Müasir dövrdə Türkiyənin xarici siyasətinin ana xətlərindən birini Kipr probleminin həlli təşkil edir. Zaman-zaman müxtəlif beynəlxalq təşkilatlarda və ikitərəfli görüşlərdə müzakirə olunan bu mövzu hələ də öz həllini tapmamışdır. Kipr probleminin dramatik vəziyyəti XX əsrin ortalarına təsadüf edir. Belə ki, 1952-1954-cü illər arasında Yunanıstanın Kiprə yiyələnmək məqsədi ilə İngiltərəyə etdiyi müraciətlərə rədd cavabı verildi. İngiltərə bildirdi ki, adanın status-kvosu dəyişdirilməyəcəkdir. 1954-cü ilin avqustunda Yunanıstan Kipr məsələsi ilə bağlı BMT-yə müraciət etdi. Bundan sonra Türkiyə dövləti də öz rəsmi mövqeyini açıqladı. Türkiyə adanın İngiltərənin nəzarəti altında qalmasını istədi. Türkiyə həmin tarixdən Kipr məsələsi ilə xarici siyasətinin ən əsas məsələlərindən biri kimi məşğul olmağa başlamışdır. 1959-cu ildə Sürix və Londonda imzalanan sazişlərə əsasən, Kiprdə müstəqil respublika yaradılmasına qərar verildi. Saziş Kiprdə enozis və bölünməni qadağan edir, Türkiyə, Yunanıstan və Böyük Britaniyaya qurulacaq dövlətdə qanuni rejimi qorumaq üçün qarant hüququ verirdi. 60-70-ci illərdə Kiprdə yenidən siyasi və hərbi böhran yarandı. Belə bir mürəkkəb siyasi durumda Birləşmiş Millətlər Təşkilatının əhəmiyyətli rolu olmuşdur. Həmçinin Kipr məsələsi Türkiyə -BMT münasibətlərinin inkişafında önəmli rola malikdir.

XX əsrin 60-70-ci illərində Kipr məsələsi Türkiyənin xarici siyasətinin əsasını təşkil edirdi. 11 fevral 1959-cu ildə imzalanmış "Sürix" və ardınca 19 fevral 1959-cu ildə imzalanmış "London" anlaşmaları ilə müstəqil Kipr Respublikasının yaranması və Kipr Türklərinin bu Cümhuriyyətin statuslu qurucu ortağı olması rəsmən təsdiq edilmişdir.

1960-cı ildə Kıbrıs Respublikasının yaradılması, prezidenti yunan, vitse-prezidenti türk və 35-i yunan, 15-i türk olmaqla 50 nəfərlik parlamentdən ibarət dövlət qurulmalı idi. Hər icma parlamentə öz nümayəndələrini seçəcəkdi. Kıbrısın türk icmasına üç nazirlik həvalə olunmuşdu: müdafiə, səhiyyə və kənd təsərrüfatı nazirlikləri. Kıbrıs Respublikası İngiltərə, Yunanıstan və Türkiyənin zəmanəti və müdafiəsi altında olacaqdı [11, s. 204].

Lakin Makarios hökuməti 1963-cü il dekabrın 21-dən etibarən Kiprin türklər üzərinə açıq hücumlarını təşkil etməyə başladı. Məqsəd Kipr adasının Yunanıstana zorla enosisini həyata keçirməkdən ibarət idi.

1964-cü ildə Kipr ətrafında vəziyyət yenidən gərginləşdi və Kiprdə baş verən böhran Türkiyəni adaya kiprli türklərin müdafiəsi məqsədilə qoşun çıxarmaq məcburiyyətində qoydu. Bu məqsədlə, Türkiyənin baş naziri İsmət İnönü radio ilə çıxış edərək bildirdi ki, Kipr böhranını dinc yolla nizama salmaq mümkün olmadı. Buna görə Türkiyə Kiprdə türk icmasının təhlükəsizliyini qorumaq məcburiyyətindədir. Belə bir mövqe Türkiyənin NATO üzrə müttəfiqləri tərəfindən qəbul edilmədi.

Kipr adasında vəziyyət o dərəcədə gərginləşmişdi ki, BMT Təhlükəsizlik Şurasının fövqəladə sessiyası 1964-cü il martın 4-də 186 saylı qətnamə ilə Kiprdə sülhü təmin etmək üçün BMT silahlı qüvvələrinin yaradılması və həmin qüvvələrin yunan və türk icmaları arasında yerləşdirilməsinə qərar verdi. Lakin Yunanıstanın gizli yollarla oraya gətirdiyi 20 min nəfərdən yuxarı hərbi qüvvə türk icmasının əvvəlcə ayrı-ayrı anklavlara, daha sonra isə adanın cəmi üç faizini təşkil edən hissəyə pənah etməyə vadar etdi. Türk diplomatlarının xristian həmrəyliyi qarşısında səsi və etirazları demək olar ki, eşidilməz olmuşdu [3, s. 75].

Yaranmış vəziyyət qətiyyətli addımların atılmasını tələb edirdi. Xarici siyasətin aktual məsələlərini müzakirə etmək məqsədi ilə Türkiyənin 11 xarici ölkə və beynəlxalq təşkilatdakı səfiri təcili olaraq Ankaraya çağırıldı. 1966-cı il yanvarın 20-də Türkiyə Xarici İşlər Nazirliyində Vaşinqton, London, Paris, Roma, Moskva, Tokio, Qahirə, Akra, Lefkoşadakı səfirlərinin, BMT və NATO-dakı nümayəndələrinin iştirakı ilə ölkənin xarici siyasət məsələlərinə həsr edilmiş müşavirə keçirildi [3, s. 179].

Müşavirədə baş nazir S.Dəmirəl nitq söylədi. Türkiyənin Kipr məsələsində türk icmasının qanuni hüquqlarını qətiyyətlə qoruyacağını bildirdi. Eyni zamanda Türkiyənin Qərblə yaxınlaşma siyasətinin davam, sovetlərlə isə mehriban qonşuluq münasibətlərinin inkişaf etdiriləcəyini vurğuladı. O, “Türkiyə Kipr məsələsində İngiltərədən kömək ummamalıdır. Çünki SSRİ adanın həm birləşdirilməsinə, həm də bölüşdürülməsinə qarşıdır. Son il yarımda SSRİ-nin Kipr məsələsində siyasəti dəyişməmişdir” dedi. Ədalət

Partiyasının hakimiyyətə gəlməsinin SSRİ ilə münasibətlərə təsir etmədiyini vurğuladı. SSRİ-nin BMT Təhlükəsizlik Şurasının iclasında Kiprin müstəqil dövlət olmasına, adanın hər iki icmasının hüquqlarının mühafizəsinə, ərazi bütövlüyünə, xarici müdaxilə olmadan suverenliyinin qorunmasına tərəfdar olduğunu qeyd etdi [7, v.94].

Ağ ev bu zaman əvvəlki illərdə olduğu kimi Kipr hökumətini SSRİ ilə birgə hərəkət etməkdən çəkindirməyə çalışırdı. 1966-cı ildə ABŞ dövlət katibi Rusk BMT-dəki nümayəndəliyə teleqram göndərərək "Kipr məsələsində Kipr hökumətinin sovetlərlə birgə hərəkət etməsi və ya sovetlərin onun həllinə birbaşa girişməsi arzu edilən deyildir" deyə göstəriş verdi. Onun fikrincə, Kipr məsələsi hər zaman Qərbin birinci maraq dairəsində olmuşdu, NATO ilə sovetlər arasında Aralıq dənizinin şərqindəki münasibətləri əks etdirirdi [12, s.466].

Belə bir siyasi şəraitdə Türkiyənin dəstəyi ilə Kıbrıs Müvəqqəti Türk Yönətimi Məclisi (1970-ci il iyunun 18) fəaliyyətə başladı. Məclisin Nizamnaməsinin 1-ci maddəsinə görə, "16 avqust 1960-cı il Konstitusiyasının bütün maddələri həyata keçməyincə, türk bölgələrində yaşayan türklər, Müvəqqəti Türk Yönətiminə bağlanırdı". 1970-ci il iyulun 18-də keçirilən məclisin ilk iclasında Nəcdət Ünel – sədr, Fazil Kiçik – başqan, Rauf Denktaş – başqan yardımçısı seçildilər.

Kipr hadisələrinin dönüş nöqtəsi Yunanıstanda baş vermiş 15 iyul 1974-cü il hərbi çevrilişi ilə bağlıdır. Hərbi xuntanın Yunanıstanda hakimiyyəti ələ keçirməsi nəticəsində Makariosun Kipr yunan hökuməti adadan qovuldu, prezident Samson başda olmaqla yeni Kipr hökuməti yaradıldı. Kiprin enosisi elan edildi.

Makarios 1974-cü il iyulun 2-də BMT Təhlükəsizlik Şurasına məktub göndərərək Kipr probleminin müzakirəyə çıxarılmasını tələb etdi. Makariosun xahişi və iştirakı ilə iyul ayının 20- də keçirilən BMT Təhlükəsizlik Şurası adada yaranmış vəziyyəti müzakirə etdi [4, s.145].

1974-cü il iyulun 20-də BMT Təhlükəsizlik Şurası Kiprə dair 353 nömrəli qətnaməni qəbul etdi. Təhlükəsizlik Şurası bütün dövlətləri Kiprin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməyə; hərbi əməliyyatlarda iştirak edən tərəflərə birinci addım kimi atəşkəs elan etməyə, vəziyyəti kəskinləşdirən hərəkətlərə yol verməməyə çağırdı; Kipr Respublikasına qarşı xarici hərbi müdaxiləni dərhal dayandırmağı; adadakı xarici hərbi heyətin beynəlxalq sazişlərə uyğun olaraq çıxarılmasını tələb etdi. Yunanıstan, Türkiyə və Böyük Britaniyanı yubanmadan bu rayonda sülhün, Kiprin qanuni hökumətinin bərpa edilməsi məqsədilə danışıqlara başlamağa; bütün tərəfləri mandatı yerinə yetirmək üçün BMT-nin sülhməramlı qüvvələri ilə əməkdaşlıq etməyə çağırdı [3, s.390].

İyulun 22-də Kiprdə hərbi əməliyyatlar dayandırıldı. Yunanıstanda A. Andruçopulisin rəhbərlik etdiyi hərbi xunta hökuməti ölkə daxilində böhrana, beynəlxalq aləmdə təcridçiliyə düşdüyündən istefaya getdi. Hakimiyyətə K. Karamanlis başda olmaqla mülki hökumət gəldi. Elə həmin gün Kiprin yalançı prezidenti Samson saraydan uzaqlaşdırıldı. Kipr Respublikasının müvəqqəti prezidenti ölkə parlamenti nümayəndələr palatasının sədri G. Kliridis oldu.

BMT Təhlükəsizlik Şurasının 353 №-li qətnaməsinin yerinə yetirilməsi dayandırıldı. İyulun 25-də Cenevrədə Yunanıstan, Türkiyə və Böyük Britaniya xarici işlər nazirlərinin görüşü keçirildi. Lakin müzakirələr heç bir nəticə vermədi. Atəşkəs haqqında saziş pozuldu. Xarici ordu hissələri adadan çıxarılmadı.

Belə şəraitdə sovet hökuməti BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırmağı tələb etdi. Təhlükəsizlik Şurasının iclası iyulun 28-29-da toplandı. Sovet hökumətinin bəyanatı təqdim edildi. Bəyanatda yunan hərbçilərinin və onların əlaltılarının yardımı ilə BMT üzvü olan Kipr Respublikasının müstəqilliyi və suverenliyi üçün qorxu yarandığı deyilirdi. NATO-nun müəyyən dairələrinin Aralıq dənizinin şərqində hərbi-strateji mövqelərini möhkəmləndirməyə çalışdıqları qeyd edilirdi. Adada yerləşən xarici hərbi bazaların vəziyyəti daha da kəskinləşdirdiyi, terror və zorakılığın əhali üçün fəlakətli nəticələrə gətirə biləcəyi deyilirdi. Bəyanatda "Samson hakimiyyətdən getsə də, adada hakimiyyət faktiki olaraq qiyamçıların əlindədir" yazılırdı. Göstərilirdi ki, Makarios başda olmaqla qanuni hökumətin öz funksiyalarını həyata keçirməsi üçün şərait yoxdur, Kipr məsələsinə kobud müdaxilə davam edir. Bəyanatda kiprli yunanlara və kiprli türklərə vətənlərində öz talelərini müəyyənləşdirmək hüququnun təmin edilməsi tələb olunurdu. Kipr hökumətinin Cenevrə danışıqlarında iştiraka cəlb olunması, BMT Təhlükəsizlik Şurasının 20 iyul tarixli qətnaməsinin yerinə yetirilməsi, vəziyyəti öyrənməkdən ötrü adaya xüsusi missiya göndərilməsi təklif edilirdi [9, s.11].

1974-cü il 30 iyul tarixdə Türkiyə, Yunanıstan və Böyük Britaniyanın xarici işlər nazirləri döyüşən orduların təhlükəsizlik zonasını və orada yerləşən BMT ordularının xəttini keçməmələri, Kipr Respublikasında silahlı qüvvələrin, silahların və hərbi materialın

azaldılması barədə bəyanat qəbul etdilər. Vəziyyət Kiprin bölünməsinədək gəlib çıxdı. Avqust ayının 8-də başlanacaq üçtərəfli danışıqlara türk və yunan icmalarının dəvət olunması tövsiyə edildi.

Avqustun 6-da Kiprdə türk ordusu ilə milli qvardiya arasında demarkasiya xətti müəyyənləşdirildi. İki gün sonra Cenevrədə Kiprin iki icmasının da iştirakı ilə danışıqlar başladı. Danışıqlarda Türkiyə və adanın türk icması Kiprdə iki muxtar kontonun yaradılmasını, Kiprin türk və yunan kontonlarından ibarət federasiya əsasında qurulmasını təklif etdi. Yunanıstan və adanın yunan icması 1960-cı ildə müəyyənləşdirilmiş dövlət sistemini saxlamağı və türk icmasının hüquqlarını genişləndirməyi irəli sürdü. Danışıqlar avqustun 14-də kəsildi. Yunan təcavüzündən dinc türk əhalisini qorumaq məqsədi ilə Türkiyə adada hərbi əməliyyatları genişləndirdi. Bir neçə gün ərzində türk ordusu Kiprin şimal və şimal-şərq rayonlarını Famaqusta, Nikosiya və Levkə xəttinədək tutdu. Ada ərazisinin 40%-i türk ordusunun nəzarətinə keçdi. Bundan sonra adanın şimalındakı yunanlar cənuba, cənubdakı türklər isə şimala köçməyə başladılar. Qaçqın problemi kəskinliyi ilə ortaya çıxdı [6, s.1500].

BMT Təhlükəsizlik Şurası avqust ayının 10-da təcili iclasını çağıraraq hərbi əməliyyatların dayandırılması, Kiprdə sülh və konstitusiya quruluşunun bərpası məqsədi ilə yeni qətnamə qəbul etdi. BMT-dəki sovet nümayəndəsi yaranmış vəziyyət üçün məsuliyyəti NATO-nun üzərinə qoydu. Adadan bütün xarici hərbi qüvvələrin çıxarılmasını tələb etdi.

Avqustun 16-da BMT-nin köməyi ilə adada atəşkəs haqqında saziş qüvvəyə mindi. Avqustun 22-də sovet hökuməti bəyanatla çıxış etdı. Bəyanatda deyilirdi ki, Kiprdə vəziyyət gərgin olaraq qalır, Kipr Respublikasını müstəqil və suveren dövlət kimi ləğv etmək, onu NATO-nun Aralıq dənizinin şərq hissəsində bazaya çevirmək cəhdləri davam edir. Sovet hökuməti qiyamı pisləyir, xalqın xəbəri olmadan problemin diplomatik cəhdlərlə həllini onun mənafelərinə zidd hesab edirdi. Adada baş verən qanlı qarşıdurmadan, on minlərlə kiprlinin qaçqına çevrilməsindən narahatlıq hissi keçirilir, bütün bunların ölkənin onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırdığı göstərilirdi. Bəyanatda xarici hərbi müdaxilənin dərhal dayandırılması, xarici orduların çıxarılması və konstitusiya quruluşunun bərpa edilməsinin vacibliyi vurğulanırdı. SSRİ-nin Kiprin müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə hörmət etdiyini göstərirdi. Kipr işlərinə xarici müdaxiləni, problemin zor gücünə həlli cəhdlərini yolverilməz hesab edirdi. Kipr, Türkiyə, Yunanıstan və BMT Təhlükəsizlik Şurasının bütün üzvlərinin iştirakı ilə beynəlxalq konfrans çağırılmasını təklif edirdi [8, s. 134-136].

Beləliklə, sovetlər problemin iki icma arasında danışıqlar yolu ilə həllindən imtina edərək beynəlxalq konfrans çağırmaq təklifini irəli sürdü. Təklifin səsləndirilməsi əbəs deyildi. Sovetlər konfransın çağırılması ilə problemin həllində əsas dövlətlərdən biri olmağa çalışırdı. Belə bir təklif SSRİ-nin NATO-nu zəiflətməyə, Aralıq dənizinə enməyə dair ümumi strateji niyyətlərinin tərkib hissəsi idi. Lakin təklif birmənalı qarşılanmadı. BMT çərçivəsində konfrans çağırılması təklifinə Kipr və Yunanıstan hökumətləri tərəfdar, ABŞ, Türkiyə və Böyük Britaniya isə əleyhinə çıxdılar. Çin də eyni mövqeni nümayiş etdirdi. Nəticədə sovet təklifini həyata keçirmək mümkün olmadı.

1974-cü il oktyabrın 1-dək «Kıbrıs Türk Yönətimi Məclisi» adı altında fəaliyyət göstərən parlament 1974-cü il hərəkatının doğurmuş olduğu yeni şəraitdə «Muxtar Kıbrıs Türk Yönətimi Məclisi» olaraq fəaliyyətini davam etdirdi. 1975-ci ildə fevralın 13-də Kipr Türk Federal dövləti elan edildi. Beləliklə, ada iki millətdən ibarət 2 dövlətə bölündü.

Oktyabr ayında Kipr hökumətinin təklifi ilə problem BMT Baş Məclisinin XXIX sessiyasında müzakirə olundu. Kipr nümayəndəsi ölkəsinin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və bloklara qoşulmamaq siyasətinə bütün dövlətləri hörmət etməyə çağıran sənəd təqdim etdi. Qətnamə layihəsində Kipr işlərinin xarici müdaxilə olmadan həll edilməsi, bütün xarici qüvvələrin adadan çıxarılması, problemin icmalararası danışıqlar yolu ilə həlli nəzərdə tutulurdu. Noyabr ayının 1-də Baş Məclis müvafiq qətnamə qəbul etdi. Burada icmalara problemləri danışıqlar yolu ilə həll etmək təklif olunurdu.

1974-cü il dekabrın 7-də respublika prezidenti arxiyepiskop Makarios Kiprə qayıtdı. 1975-ci il yanvarın 15-də Kipr probleminin həllinə dair icmalararası danışıqlara başladı. Fevralın 10-da Türkiyə Kiprin federativ və konton sistemi əsasında formalaşdırılmasını nəzərdə tutan təklifi təkrar səsləndirdi. Lakin bu təklif qəbul olunmadığından fevralın 13-də adadakı türk icması dövlətinin yaradıldığını elan etdi.

Kipr hökuməti BMT Təhlükəsizlik Şurasına yaranmış vəziyyətin müzakirəsini keçirməyi xahiş etdi. Fevral ayının 17-də sovet dövləti bəyanat verdi. Bəyanatda sovet dövlətinin əvvəlki mövqeyi, problemə dair beynəlxalq konfrans çağırmaq təklifi təkrar edilirdi. Lakin böyük dövlətlər sovet təklifini qəbul etmədilər [8, s. 134-136].

Bu dövrdə türk hökumətinin Kipr siyasəti qətiy-

yətli mövqeyi ilə seçirdi. Baş nazir Süleyman Dəmirəl prezident Korutürklə görüşdən sonra Türkiyənin Kiprin hər hansı bir yerindən çıxmasının mümkün olmadığını dedi. Türkiyənin Kiprə münasibətdə siyasətinin əsasını “Kipr türkün olmuşdur və türkün olaraq qalacaqdır” təşkil edirdi.

1975-ci il sentyabr ayında keçirilən BMT Baş Məclisinin XXIX sessiyasının gündəliyinə Kipr problemi daxil edildi. SSRİ xarici işlər naziri A. Qromıko və Türkiyənin xarici işlər naziri T. Güneş Nyu-Yorkda bu məsələni müzakirə etmək üçün görüşdülər. Qromiko Kiprə dair BMT çərçivəsində beynəlxalq konfransın çağırılmasının vacibliyini bildirdi. Güneş belə bir təklifin problemin həllinə kömək edəcəyinə az inanırdı. Sessiya iclasında nitq söyləyən Qromıko Kipr faciəsinin lokal xarakterdə olmadığını vurğuladı. Onun doğurduğu nəticələrə diqqəti yönəltdi.

BMT Baş Məclisi Kiprə dair qətnamə qəbul etdi. Sənəddə bütün dövlətlər Kiprin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və bloklara qoşulmamaq siyasətinə hörmət edilməyə çağırılırdılar. Adadan bütün xarici orduların və hərbi heyətin təcili çıxarılması, qaçqınların öz evlərinə qayıtması tələb edilirdi. Artıq bu zaman adadakı türk və yunan rayonları hərbçilərin yaratdıqları dəhlizlə ayrılmışdı [3, s.404].

BMT 1983-cü il mayın 13-də Kipr Türk Federal Dövlətinin ləğv edilməsi haqqında qərar qəbul etdi. Bu hadisədən sonra Kiprin türk əhalisi mayın 20-də dövlət başçısı Rauf Denktaşa əlavə səlahiyyətlər verərək ondan respublikanın elan edilməsini tələb etdi və noyabrın 15-də Şimali Kipr Türk Respublikası (ŞKTR) elan olundu. Lakin noyabrın 17-də BMT Təhlükəsizlik Şurasının 541 saylı qərarı ilə Şimali Kipr Türk Cümhuriyyətinin qurulmasına ehtiyacın olmadığı bildirilir və türklərin bu qərardan imtina etmələri təklif olunurdu. Lakin BMT-nin bu qərarı nə Türkiyə, nə də ŞKTR tərəfindən qəbul edilmədi. Türkiyə Respublikası Şimali Kipr Türk Respublikasını rəsmən tanıdı və 1984-cü ildə qarşılıqlı səfirlər qəbul edildi. 1985-ci il martın 12-də ŞKTR-nin Parlamentində Konstitusiya layihəsi qəbul edildikdən sonra mayın 5-də ümumxalq səsverməsi nəticəsində Konstitusiya qəbul edildi. İyunun 9-da isə prezident seçkilərində Rauf Denktaş Quzey Kipr Türk Respublikasının ilk prezidenti seçilir. Hazırda ölkənin prezidenti Məhəmməd Əli Təlat, xarici işlər naziri və baş nazirin müavini isə Sərdar Denktaşdır [1, s.21].

ŞKTR-in qurulmasından sonra da danışıqlar davam etdirilirdi. Belə ki, 1985-ci ilin yanvarın 17-də və 1986-ci ilin martın 29-da BMT Baş Katibinin hazırladığı "Kipr məsələləri üzrə anlaşma protokolu" Kipr türkləri tərəfindən qəbul edildisə də, rumlar tərəfindən rədd edildi. 1987-ci ilin mayın 22-də Avropa Birliyi ilə Kipr arasında 18 ay davam edən danışıqlardan sonra Gömrük Birliyi haqqında saziş imzalandı. 1988-ci ilin yanvarında isə bu sazişin adaya şamil edilməsi qərara alındı [2, s. 57].

1990-cı ildə Nyu-Yorkda keçirilən görüşlər də bir nəticə vermədi. Kiprin Rum tərəfi Avropa Birliyinə üzvlüyü üçün bu quruma müraciət etdi. 1991-ci ildən etibarən isə Türkiyənin prezidenti Turqut Özalın danışıqların dörd tərəf – ŞKTR, Türkiyə, Kiprin Rum tərəfi və Yunanıstan arasında aparılması təklifi BMT tərəfindən qəbul edildi [5, s.36].

Türkiyə və Yunanıstan arasında münasibətlərin yumşalması 2002-ci ilin noyabrın 10-da BMT TŞ-nin Kipr probleminin nizamlanmasına dair yeni təkliflərin meydana gəlməsini şərtləndirdi. Bu təkliflərdə Kiprdə İsveçrə konfederasiyası nümunəsində dövlətin qurulması nəzərdə tutulurdu. Konfessional sistemin yeni variantı olan bu təklifin reallaşması hər iki icmanın, ilk növbədə yunanların "çoxluq hüququndan" nə dərəcədə imtina etməsi ilə bağlı olmuşdur.

Bütün bu cəhdlərə baxmayaraq adanın türklər yaşayan hissəsi bu günə qədər dünya birliyi tərəfindən müstəqil dövlət kimi tanınmamışdır. 1992, 1994, 1997, 2001-ci illərdə BMT vasitəsilə aparılan danışıqlar öz nəticəsini verməmişdi. Bununla bərabər, adanın Rum tərəfinin birtərəfli qaydada Avropa Birliyinə qəbul edilməsi isə vəziyyəti daha da gərginləşdirdi.

Kipr problemini həll etmək üçün hazırlanan Annan planı 24 apreldə 2002-ci ildə qəbul edilməsə də, problemin mərhələsində qarşıya qoyulan hələ də əhəmiyyətli bir yerə sahibdir və bu üzdən də araşdırılması vacib olan bir problemdir. BMT Baş katibi tərəfindən hazırlanan Annan Planı 11 noyabr 2002-ci il Denktaş və Kleridesə təqdim olunmuşdur. Plan əsas etibarilə bir tərəfdən türk tərəfinin bərabər dövlət tələblərini yerinə yetirərkən, digər tərəfdən, yunanlara torpaq güzəşti və müəyyən ölçülər çərçivəsində geri dönmək hüququ vermək sahəsində müəyyən qədər tarazlıq yaratmışdır. Plan Kipr problemində iştirak edən bütün tərəfləri müəyyən ölçüdə razı salaraq problemin çözülməsini qaydaya salmışdır [10, s. 134].

24 aprel 2004-ci ildə Kiprdə gerçəkləşdirilən referendumdan sonra adanın 1 mayda AB üzv olması ərəfəsində adadakı hər iki xalq birləşmə istiqamətində təşəbbüs göstərdilər. Referendumun nəticələrinə görə yunanların 75%-i birləşmənin əleyhinə səs verərkən, türklərin isə 66%-i lehinə səs verdilər. Yunanların bu

qeyri-konstruktiv addımı problemin həllini yarımçıq qoydu. Ümumiyyətlə, yunan hakimiyyətinin və onların tərəfdarlarının birtərəfli və antitürk siyasəti bu gün də Kipr probleminin həllinə maneə olmaqdadır.

### ƏDƏBİYYAT SİYAHISI


*1. Heydərova S. Böyük Britaniyanın xarici siyasətində Kipr problemi. (Avtoreferat). Bakı, 2012, 26 s. s.21.*

*2. Qarayeva. G.İ. Kipr böhranının Türkiyə-ABŞ münasibətlərinə təsiri. Bakı Universitetinin Xəbərləri. №3 Humanitar elmlər seriyası 2014, s.53-59. S.57.*

*3. Qasımlı M. SSRİ -Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). I cild. 1960-1979. Bakı, "Adiloğlu" nəşriyyatı, 2007. S. 75.*

*4. Gögtepe C., Tuba Ü.B. İngiliz güvenlik ve dış politikasında Kıbrıs (1945-1974). Bilig. KİS, 2014. Sayı 66. s.141-167, s.145.*

*5. İrkiçatal E. İkinci dünya savaşı sonrası İngiltere'nin ortadoğu politikaları için Kıbrıs'ın stratejik önemi ve Kıbrıs meselesinin ortaya çıkışı. Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü DergisiYıl: 2012/1, Sayı:15. s.31-59. S.36.*

*6. Vatansever. M. Kıbrıs sorununun tarihi gelişimi. Dokuz Eylül Üniversitesi Hukuk Fakültesi Dergisi Cilt: 12, Özel s., 2010, s.1487-1530 Basım Yılı: 2012, s.1487-1530, s.1500.*

*7. АВПРФ, ф.132, референтура по Турции, оп.56, папка 179, д. 8, л.94, 156.*

*8. Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1974 год, док.№53, с. 134-136.*

*9. Заявление ТАСС. К событиям на Кипре. - Газ. "Правда", 1974, 21 июля, №202 (20441). S.11.*

*10. Шмаров В.А. Кипр в средиземноморкой политике НАТО. М.: Наука, 1982. S.134.*

*11. Annexation of Cyprus by Great Britain". The American Journal of nternational Law, Cilt 9, No. 1, 1915, p. 204.*

*12. Rusk.Telegram From the Department of State to the Mission to the United Nations.Washington, January 29, 1966.- Foreign Relations of the USA. 1964-1968.Vol.XVI. Cyprus, Greece, Turkey, doc.№220, p.466.*


### XÜLASƏ


Mövcud məqalədə Kipr probleminin kəskin fazasının başladığı dövrdən onun ən iri və nüfuzlu beynəlxalq təşkilatın – müxtəlif beynəlxalq problemləri, qarşıdurmaları həll etməli olan, bütün dünyada sülhü qorumalı olan Birləşmiş Millətlər Təşkilatının divarları arasındakı müzakirələri ilə əlaqədar olan məsələlər nəzərdən keçirilir. Gətirilmiş materiallar inandırıcı şəkildə sübut edir ki, uzun onilliklər boyunca BMT, Aİ və b. beynəlxalq təşkilatlar bu qartımış problemi dinc yolla həll etmək üçün hər cür cəhdlər göstərsələr də yunan tərəfinin qeyri-konstruktiv mövqeyi üzərindən bu cəhdlər əbəs olmuşdur.



**Açar sözlər:** *ABŞ, Kipr, BMT, Türkiyə, Yunanıstan, enozis, Nikosiya, Levkoşa.*


### Кипрская проблема в Организации Объединенных Наций
### РЕЗЮМЕ


В данной статье рассматриваются вопросы, связанные с обсуждением кипрской проблемы с начала ее острой фазы в стенах самой крупной и влиятельной международной организации – Организации Объединенных Наций, которая призвана разрешить различные международные проблемы, противостояния и сохранить мир во всем мире. Приведенные материалы убедительно доказывают, что хотя ООН, ЕС и др. международные организации в течение долгих десятилетий всячески стремились урегулировать мирным путем эту закореневшую проблему, но благодаря неконструктивной позиции греческой стороны все эти попытки оказались тщетными.



**Ключевые слова:** *США, Кипр, ООН, Турция, Греция, энозис, Никосия, Лефкоша.*


### Cyprus problem at the United Nations
### SUMMARY


This article deals with issues related to the discussion of the Cyprus problem from the beginning of its acute phase within the walls of the largest and most influential international organization - the United Nations, which is designed to resolve various international problems, confrontations and maintain world peace. The materials cited convincingly prove that although the UN, the EU and other international organizations have been trying in every possible way to resolve this rooted problem peacefully for many decades, but thanks to the unconstructive position of the Greek side, all these attempts have been in vain.



**Keywords:** *USA, Cyprus, UN, Turkey, Greece, enosis, Nicosia, Lefkosa.*

UOT 327;930.22

# ORTA ŞƏRQ NÜMUNƏSİNDƏ PROQNOZLAŞDIRILAN SU MÜHARİBƏLƏRİ

**AYTƏN QURBANOVA**
*AMEA Hüquq və İnsan Haqları İnstitutu, dissertant*

*E-mail: ayten.qurbanovaa@gmail.com*

Su problemi son zamanlarda beynəlxalq təhlükəsizliyə ən böyük hədələrdən biri olaraq qiymətləndirilir. Hətta antik dövrdə baş vermiş bir çox müharibələrin əsas səbəbi su mənbələri üzərində hökmranlıq əldə etmək uğrunda olmuşdur. Şumerlərlə Laqaş və Umma tayfaları arasında Dəclə çayı uğrunda baş vermiş münaqişəni buna misal göstərmək olar. Su ən vacib həyat mənbəyi olduğu üçün su qaynaqlarının azalmasının nəticələri də çox ağır olur. Təbii ehtiyatlar getdikcə tükənməkdədir və bu da dövlətləri sahib olduqları mənbələr üzərində nəzarəti saxlamaq üçün gücdən istifadə etməyə məcbur edir.

**ABŞ, İsrail və Orta Şərqdə su problemi**

Orta Şərqdə mövcud su mənbələri hələ ötən əsrin əvvəllərindən etibarən dünya dövlətlərinin diqqət mərkəzində olmuşdur. 1918-ci il avqust ayının 13-də İngiltərənin baş naziri Artur Balfur öz çıxışında bununla bağlı bu sözləri demişdir: *“... nə prezident Vilson, nə də bir başqası Dəclə və Fərat çayı hövzəsindəki geniş ərazini Osmanlıların idarəsinə buraxmaq niyyətində deyil. Belə olduqda soruşmaq istəyirəm, Mesopatomiyadakı zəngin su mənbələrinə qədər öz ordularımızla irəliləmək bizim üçün daha məqsədə uyğun deyilmi? Buna nail olduqda zəngin neft yataqlarını da ələ keçirmiş olarıq.*” [1, s. 57]

Bu çıxışda da ifadə olunduğu kimi Orta Şərq regionu zəngin enerji mənbələrinə, su qaynaqlarına və bütövlükdə əlverişli coğrafi mövqedə yerləşdiyinə görə tarixin müxtəlif mərhələlərində Avropa dövlətləri ilə yanaşı Amerika Birləşmiş Ştatların da diqqətindən kənarda qalmamışdır. Rəsmi Vaşinqton hər zaman həm Xarici İşlər Nazirliyi daxilində fəaliyyət göstərən Orta Şərq və Cənubi Asiya şöbələri, həm də bu ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklər vasitəsilə regionda baş verən hadisələrilə çox yaxından izləmişdir. Orta Şərqdə baş verənlərin nəzarət altında saxlanması və daim izlənməsi üçün ABŞ Xarici İşlər Nazirliyi ilə yanaşı ABŞ Beynəlxalq İnkişaf Təşkilatının fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Təşkilat bu günə qədər regiondakı su problemi ilə bağlı 5 (beş) milyard dollardan artıq pul xərcləmişdir. ABŞ Strateji Araşdırmalar Mərkəzinin məlumatına əsasən, əgər yaxın keçmişə qədər Amerikanın regiondakı maraqlarında neft üstünlük təşkil edirdisə, artıq su da eyni dərəcədə əhəmiyyətli siyasi silah rolunu oynayır. Bu nöqteyi-nəzərdən yanaşdıqda, Qərb dövlətlərinin Körfəz neftinə olan maraqları nə qədər çox olsa da, bunu əminliklə deyə bilərik ki, bu əsrin sonuna qədər su regionun siyasi vəziyyətini formalaşdıran əsas amil olacaq. Orta Şərqdəki su mənbələrinin inkişaf etdirilməsi Amerika üçün həll edilməsi ən çətin xarici siyasət mövzusudur və təbii olaraq belə vəziyyət su və ərzağın Orta Şərqin ən mühüm siyasi silahı olan neftin önünə keçdiyinin bariz nümunəsidir. ABŞ-ın İraqı işğalı da regionda baş verən hadisələri fərqli yönə istiqamətləndirməklə yanaşı, onun Orta Şərq siyasətinin əsl mahiyyətini bir növ aydınlatmış oldu. Belə ki, bu işğal nəticəsində ABŞ regiondakı su bölgüsünə təsir edərək onu ciddi su problemi yaşayan İsrailin xeyrinə dəyişə biləcəyini planlaşdırırdı. Ancaq hadisələrin fərqli istiqamətdə inkişafı buna mane oldu [2: s. 13].

***“Böyük Orta*** Şərq ***Layihəsi”*** və onunla oxşarlıq təşkil edən ***“Böyük*** İsrail ***Strategiyası”*** reallaşacağı təqdirdə, regionun su bölgüsünün tamamilə dəyişdirilməsi planlaşdırılır. Bu da aydın şəkildə göstərir ki, böyük güclər artıq bölgədəki zəngin neft və qaz yataqları ilə bərabər su ehtiyatlarını da ələ keçirməklə regionun iqtisadi siyasəti üzərində ciddi nəzarət tətbiq etməyə çalışırlar. Bunun üçün də ***“Böyük Orta*** Şərq ***Layihəsi”*** regiondakı neft və su mənbələrinin vahid mərkəzdən idarə olunmasını təmin edə biləcək bir vasitədir. Amerika Birləşmiş Ştatları Orta Şərqdəki su qaynaqlarının araşdırılması üçün bir çox universitetlərə və dərnəklərə maliyyə yardımı ayırır. 1983-cü ildə yaradılan, Pensilvaniya Universitetinin rektorlarından biri Tomas Naffın rəhbərliyi ilə bu problemin araşdırılmasına dair xüsusi ***“Könüllü*** İşçi ***Qrupu”*** fəaliyyət göstərmişdir. Bu qrupun 1984-cü ildə “Orta Şərqdə Su: münaqişə, yoxsa əməkdaşlıq” adı altında çap olunmuş hesabatının arxa hissəsində bu araşdırmanın Müdafiə Nazirliyi tərəfindən dəstəkləndiyi qeyd olunmuşdur. ABŞ hakimiyyəti bunlarla kifayətlənməyərək su problemi ilə bağlı araşdırmalarını daim davam etdirmişdir. Belə ki, 2005-ci ilin sentyabr ayında bölgə problemləri ilə bağlı Türkiyəyə gələn nümayəndə heyətinin tərkibində Su Komissiyasının üzvləri olan senator Bob Marqet və Dik Akerman da olmuşdur. Region dövlətləri arasında

İsrail bəlkə də yeganə dövlətdir ki, onun su siyasəti qərb dairələri tərəfindən daim dəstəklənir. Təxminən doqquz milyon əhalisi və 21 min km² ərazisi olan kiçik İsrail dövləti siyasi mövqe etibarı ilə böyük əhəmiyyət kəsb edir. Dan Zaslavski su məsələsi ilə bağlı apardığı araşdırmalar nəticəsində İsrailin su problemini dörd kateqoriyaya ayırmışdır. Bunlardan ilki həddindən artıq su istifadəsidir. İkinci sırada suyun müxtəlif səbəblərlə çirkləndirilməsi, üçüncü qonşu dövlətlərlə birlikdə indi və ya gələcəkdə su istifadəsi ilə bağlı əməkdaşlıq, nəhayət sonuncusu isə qərar vermək və idarə etmək bacarığıdır [7, s. 52].

Mustafa Dolatyar isə "Orta Şərqdəki Su Siyasəti" adlı kitabında İsrailin su siyasətini dörd dövrə ayırmışdır: [7, s. 64]

1. Su üçün danışıqlar dövrü (1918-1948);
2. Milli və beynəlxalq su qaynaqlarını inkişaf etdirmə dövrü (1948-1967);
3. Yeni su mənbələrini işğal edərək onlardan istifadəni təmin etmək dövrü (1968-1990);
4. Yenidən danışıqlara qayıtmaq dövrü (1991-....)

İsrail dövləti yarandıqdan sonra Misir, Suriya, İordaniya, Livan və İraq birləşmiş qüvvələrinin Fələstinə daxil olması ilə Birinci İsrail-Ərəb dövlətləri müharibəsi başlamış oldu. İsrail müharibə dövründə təxminən bütün dünya dövlətlərinin dəstəyini aldı və nəticə etibarı ilə, ərazisini daha da genişləndirmiş oldu. 1948-ci ilin may ayında Ben Qurion İsrailin gələcək addımlarını və siyasətini açıq şəkildə ifadə etmək məqsədilə Qərargah Heyətinə bu strateji hədəfləri bildirmişdir: *"Livanı,* İordaniya *tərəfini və Suriyanı* əhatə *edəcək bir hücum* əməliyyatı üçün *hazır olmalıyıq. Livan* Ərəb *koalisiyasının zəif bir halqasıdır,* çünki cənub *sərhəddi Litani* çayı *olacaq bir Xristian dövləti qurulmalıdır. Onunla müttəfiq olacaq,* Ərəb *Birliyini yarıb Omanı bombaladığımız zaman* İordaniya *qolunu da zərərsizlə*şdirəcəyik. Əgər *Misir müharibəyə qoşulmağa cürət edərsə, Port Səidi, Qahirəni və İsgəndəriyyəni bombalayacağıq."* [8: s. 64]

Nəticə etibarilə İsrailin bu mövqeyi İordaniya çayını ən münaqişəli çaya çevirmiş oldu. İsrail, Livan, İordaniya, Suriya və Fələstin arasında böyük münaqişələrə səbəb olan çay ilə bağlı 1913-1955-ci illər arasında fərqli vaxtlarda Osmanlı tərəfindən "Frangais planı" (1913), Böyük Britaniya tərəfindən "Mavramatis planı" (1922) və "Henrigues planı" (1928), ABŞ tərəfindən "Lovlenmilk planı" (1944) və İordaniya tərəfindən "Mc. Donald Hesabatı" (1952) irəli sürülmüşdür. [5: s. 7]

Bu planların heç biri qəbul olunmamış və 1950-ci illərdən etibarən İordaniya çayı ilə bağlı məsələlər müxtəlif beynəlxalq təşkilatların müzakirə mövzusuna çevrilmişdir. Münaqişələrin baş verdiyi illərdə ABŞ-ın region ilə bağlı siyasətində neft başlıca yer tutduğu halda, hadisələrin də təsiri ilə Amerikanın xarici siyasi kursunda suyun əhəmiyyəti daha da artmışdır. O dövr ABŞ prezidenti Eyzenhauer 1953-cü ildə Erik Constonu İordaniya çayı sahilyanı dövlətləri arasında razılıq əldə etməsi üçün Orta Şərq regionuna göndərir. İki il davam edən danışıqlar nəticəsində İsrail, Suriya və Livan arasında bir sıra məsələlərə dair razılıq əldə olunsa da, ***"Conston Planı"*** ərəb dövlətləri tərəfindən qəbul edilməmiş bir siyasi sənəd olaraq tarixə düşür. İordaniya çayının yalnız sahilyanı dövlətlər tərəfindən istifadəsi isə İsrailin hərbi gücü hesabına əldə olunmuş bir nailiyyətdir. Bugünkü istifadə şərtləri isə "Conston Planı"ndan kifayət qədər fərqlidir. [2: s. 63]

**Su münaqişələri**

Hövzə dövlətləri tərəfindən formalaşdırılan qarşılıqlı asılılıq mühiti onlar arasında əməkdaşlıq yaratmaq əvəzinə, onları daha çox istifadə hüququ əldə etmək uğrunda mübarizə aparmağa və daim rəqabətdə olmağa sövq etdi. Bu məsələ, 1964-cü ilin yanvar-sentyabr aylarında toplanan Ərəb Birliyinin gündəliyinə də daxil edildi. İsrailin İordaniya çayının suyunu daşıma yolu ilə qeyri-hövzə dövlətlərinə çatdırılması təklifini ***"Conston Planı"***na zidd hesab edən Ərəb Dövlətləri ortaq bir su strategiyası müəyyənləşdirdilər. Beləliklə də, İordaniya çayının qaynaq qollarının İsrailə axmasına mane olacaq çevirmə planı təsdiqləndi. Bu çevirmə planına görə, Hasbani qolu çevrilərək Livanda Litani çayına və Banyas qolu çevrilərək Suriyada Yarmuk çayına axıdılmalı idi. Yarmuk çayına axıdılacaq sular İordaniya-Suriya sərhədində inşa ediləcək Mukhebba anbarına toplanacaq və Şərqi Qor kanalına ötürüləcək. İsrail baş naziri Levi Eskol isə öz növbəsində suyun İsrail üçün həyati önəm daşıdığını vurğulayaraq Ərəb dövlətlərinə bu təhlükəli addımı atmamaqla bağlı xəbərdarlıq edir və eyni zamanda, suların İsrailə axması üçün hər bir addımı atacaqlarını da bildirir. Digər tərəfdən, su təhlükəsizliyinin hövzədə böyük əhəmiyyət kəsb etdiyi dövrdə Fələstinin azadlığı uğrunda silahlı mübarizə aparan əl-Fətih 1965-ci ildə İsrailin su anbarlarına hücum etdi. Simvolik məna daşıyan bu hücum strateji əhəmiyyətli su anbarlarının da artıq hərbi hədəf olması faktını ortaya çıxarmış oldu. Qarşılıqlı gərgin mübarizə şəraitində 1966-ci ildə Suriya-İsrail qarşıdurması meydana gəldi və bu qarşıdurma 1967-ci ildə "Altı günlük müharibə" adı ilə tarixə düşdü. Müharibə nəticəsində Ərəb dövlətləri məğlub oldu. İsrail isə öz torpaqlarını dörd qat artır-

dı. Qəzza və bütün Sina yarımadasını ələ keçirdiyi üçün Süveyş kanalına qədər irəliləyən İsrail cənubda Şarm-əl-Şeyxi də tutaraq Tiran boğazının idarəsini ələ keçirdi. Şəria çayının qərbindəki bütün torpaqlar İsrailin nəzarəti altına keçdi və beləliklə də, Şəria çayı İordaniya ilə Şəria bölgəsi arasında sərhəd oldu. Digər mühüm bir nailiyyət isə Qolan təpələrinin ələ keçirilməsi oldu [1: s. 12].

Sonrakı dövrdə Orta Şərqdə sülhün yaradılması prosesində müəyyən irəliləyişlər əldə olunsa da, İordaniya hövzəsinin bölüşdürülməsi ilə bağlı heç bir dəyişiklik olmamışdır. 1967-ci il müharibəsi illərində İsrail ordu komandiri olan Moşe Dayan müharibə qurtardıqdan sonrakı çıxışlarından birində *"su İsrail üçün o qədər* əhəmiyy*ətlidir ki, biz 1967-ci ildə su qaynaqlarını nəzarət altında saxlaya bilmək üçün ərəblərlə müharibəyə girdik"* demişdir. İsrailin 1967-ci ildə Qolan təpələrini işğalından sonra bu məsələ yalnız İsrail-Suriya qarşıdurması olmaqdan çıxmış və beynəlxalq status qazanmışdır. Beləliklə də, altıgünlük müharibədən sonrakı dövrdə Orta Şərqdə sülh prosesi çərçivəsində aparılan bütün danışıqlarda Suriya Qolan təpələri ilə bağlı məsələni daim gündəmdə saxlamış və İsrail işğal etdiyi təpələrdən geri çəkilmədikcə heç bir razılığa gələ bilməyəcəklərini vurğulamışdır. 1967-ci ildən bugünə qədər İsrail Qolan təpələrindən qismən geri çəkilməyi qəbul etsə də, irəli sürdüyü şərtlər bunun heç də asan olmadığını sübut edir. İsrail bu bölgədə öncədən xəbərdarlıq sisteminin qurulmasını, Suriyanın Livandan geri çəkilməsini, təpələrə yaxın Suriya torpaqlarının silahsızlaşdırılmasını və suyun bölüşdürülməsini tələb edir. Benyamin Netanyahunun 1996-cı il iyulun 9-da ABŞ-a olan rəsmi səfəri zamanı verdiyi müsahibədəki bəzi ifadələr su probleminin hələ uzun müddət davam edəcəyini göstərir: *"Təhlükəsizliyimiz* üçün *Qolan təpələrini qorumalıyıq, siz bütövlükdə təpələrdə haqq iddia edirsiniz, biz də bu təpələr bizimdir deyirik. Suriya ilə danışıqlarımızın başlanğıc nöqtəsi budur"* [1: səh 52].

Regionun təxminən 50 %-nin quraq ərazilərdə yerləşməsi və həyat üçün vacib su mənbələrinin yetərli olmaması, bu dövlətləri həm öz aralarında, həm də beynəlxalq münasibətlərdə mənasız müqavilələr imzalamağa məcbur edir. Zəngin su mənbələrinə sahib bir neçə region dövləti isə sahib olduqları bu sərvətdən istifadə edərək əlverişli şərtlərlə daha çox qazanc əldə etməyə çalışırlar. Bu gün su problemi Səudiyyə Ərəbistanı və İordaniya nümunəsində olduğu kimi, eyni siyasi sistemlərə və dostluq münasibətlərinə malik ölkələr arasında da fikir ayrılıqlarına səbəb ola bilir. Digər tərəfdən, tam əksinə olaraq, İsrail və İordaniya nümunəsində olduğu kimi, köhnə düşmənləri əməkdaşlığa da sövq edir [1: s.33]. Coys Star isə 1991-ci ildə **Xarici Siyasət (Foreign Policy**) jurnalında ***"Su Müharibələri"*** başlığı ilə yazdığı məqaləsində Orta Şərqdəki su problemini heç bir dövlət və yaxud beynəlxalq qurumun qəbul etmək istəmədiyi bir strateji boşluq olaraq qiymətləndirmişdir. Star 1980-ci ildə ABŞ Kəşfiyyat İdarəsi tərəfindən aparılan araşdırmalar nəticəsində dünyada ən az on yerdə su müharibələrinin olacağı və bunların böyük əksəriyyətinin Yaxın və Orta Şərq regionunda baş verəcəyini bildirmişdir. Müəllif fikrini əsaslandırmaq üçün Misir prezidenti Ənvər Sədatın 1979-cu ildə olan çıxışındakı "bizi İsrail ilə müharibəyə heç bir şey sövq edə bilməz, su istisna olmaqla" sözlərinə istinad etmiş, hətta İordaniya Kralı Hüseynin də oxşar ifadələr işlətdiyini vurğulamışdır.

BMT-nin keçmiş baş katibi Butros Qali də bunlara oxşar fikirlər söyləyərək, Orta Şərqdə ola biləcək müharibələrin siyasi səbəblərlə deyil, məhz su problemi ilə bağlı olacağını vurğulamışdır. [3: s. 49] 1995-ci ildə Dünya Bankının prezidentinin köməkçisi İsmayıl Saragəldin də su problemini Orta Şərqdə yeni müharibələrin səbəbi kimi göstərmişdir. Şiva Saragəldinin bu fikirlərini "Su müharibələri" kitabında əsaslanaraq, onun proqnozlarını təsdiqləmişdir. [3: s. 13]

## NƏTİCƏ

Nəticə etibarilə su insan fəaliyyəti üçün çox lazımlı olduğu kimi, eyni zamanda tükənəndir. Əldə olan mənbələr tükəndiyində əlavə qaynaqlar yalnız yüksək maddi vəsait müqabilində əldə edilə bilər. Dövlətlər arasında ortaq istifadə olunan mənbələrdə su ehtiyatları azalarsa, məcburi olaraq dövlətlərin su payı artırılmalıdır. Bu isə dövlətlər arasında münaqişələrə səbəb ola bilər. Xüsusilə regiondakı ölkə liderlərindən əhalinin minimum ehtiyaclarının ödənilməsinin təmin etməsi tələb olunur. Əgər onlar bunu edə bilməsələr hakimiyyət üzərindəki iradələrini yavaş-yavaş itirərlər və ölkədə narazılıqlar başlayar. Belə vəziyyətdə lider iki yoldan birini seçməlidir: ya güc yolu ilə daxili narazılıqları aradan qaldırmağa çalışmalı, ya da hədəfini bu problemlərin səbəbkarı olaraq gördüyü düşmən dövlətə çevirməlidir. Birinci daxildə vətəndaş müharibəsi ilə, ikincisi isə dövlətlərarası müharibə ilə nəticələnir. Suyun Orta Şərqdə müharibələrə səbəb olacağını iddia edənlərlə yanaşı, onun regionda sülhü yarada biləcək bir qüvvə olduğu fikrini müdafiə edənlər də kifayət qədər var.

**Açar sözlər:** *dövlət, su müharibələri, təhlükəsizlik, etnik münaqişə, anarxiya, təhlükəsizlik dilemması, Orta Şərq.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Adel D., Bulloch J. Water wars: conflicts in the Middle East. London, 2001, 286 pages.*
2. *Altan T., The Middle East Water Question. Istanbul, 2001, 256 pages.*
3. *Amery A. H., Water in the Middle East: Geography of Peace. New-York, 2000, 342 pages.*
4. *Asit K., Biswas. International Waters of the Middle East: From Euphrates-Tigris to Nile, 1994, 244 pages.*
5. *Attili S., Israel's hydro – hegemony. SOAS, 2005, 17 pages.*
6. *Çandar C., Değişen dünya dengelerinde Türkiyenin stratejik öncelikleri. İstanbul, 1993, 198 sayfa.*
7. *Hodi M.A., Water in Palestine, Jerusalem, 2003, 257 pages.*
8. *Işık A., Meliha Benli. Türkiye ve Ortadoğu: tarih, kimlik, güvenlik. İstanbul, 1999, 250 sayfa.*
9. *Karpat K., Türkiye ve Ortadoğu. Milliyet, 1987, sayfa 6-7.*
10. *Плимак Ю. Главные альтернативы современности // Свободная мысль. 1996. № 8, 104 с.*
11. *Sönmezoğlu F., Türk dış politikasının analizi. İstanbul, 1994, 179 sayfa.*


**Aytən Qurbanova,**
***dissertant, AMEA Hüquq və İnsan Haqları İnstitutu***

## ORTA ŞƏRQ NÜMUNƏSİNDƏ PROQNOZLAŞDIRILAN SU MÜHARİBƏLƏRİ

Ərzaq və enerji təhlükəsizliyi konsepsiyaları və təbii sərvətlərə çıxış imkanları ötən bir neçə onilliklər ərzində əsas müzakirə mövzusu olmuşdur. Ancaq son zamanlarda ekologiya və təhlükəsizlik anlayışları arasındakı əlaqə daha da çox vurğulanmaqdadır. Xüsusilə də, su mənbələri ekoloji deqradasiya və münaqişələrin baş verməsinə təsir edən əsas amil olaraq qəbul edilir. Belə ki, təmiz su çatışmazlığı yalnız qeyri-stabilliyə səbəb olan amil deyil, eyni zamanda o münaqişələrin yaranmasına gətirib çıxaran potensial vasitə kimi birbaşa təhlükəsizliyə hədə təşkil edir.

**Açar sözlər:** *su problemi, Orta Şərq, təhlükəsizlik, Suriya, ABŞ, Türkiyə, müharibə, sülh, İsrail, region, dövlətlərarası* münasibətlər, xarici siyasət.

**AYTAN GURBANOVA,**
***Ph.D student, Institute of Law and Human Rights of ANAS***

## PREDICTED WATER WARS IN THE CASE OF THE MIDDLE EAST

Concepts of food security, energy security and access to natural resources have been widely discussed over the past few decades. But recently the relationship between the environment and security is increasingly acknowledged. In particular, water resources are an issue that reflects a link between environmental degradation and the outbreak of conflicts. As a security threat, fresh water scarcity is not just a direct cause of insecurity; it is also an indirect security threat, through its potential for causing conflicts.

**Key words:** *water issue, Middle East, security, Syria, U.S., Turkey, war, peace, Israel, region, interstate relations, foreign policy, international relations, enemy.*

**АЙТАН ГУРБАНОВА,**
***Аспирант, Институт права и прав человека НАНА***

## ПРЕДСКАЗАННЫЕ ВОДНЫЕ ВОЙНЫ НА БЛИЖНЕМ ВОСТОКЕ

Концепции продовольственной безопасности, энергетической безопасности и доступа к природным ресурсам, широко обсуждались в течение последних нескольких десятилетий. Но в последнее время отношения между окружающей средой и безопасностью все шире признается. В частности, водных ресурсов является вопросом, который отражает связь между ухудшением состояния окружающей среды и возникновения конфликтов. В качестве угрозы безопасности, дефицит пресной воды является не только непосредственной причиной отсутствия безопасности; это также косвенная угроза безопасности, через вероятность возникновения конфликтов.

**Ключевые слова:** *водная проблема, Ближний Восток, безопасность, Сирия, США, Турция, война, мир, Израиль, регион, межгосударственные отношения, внешняя политика, международные отношения, враг*

# Tarix

UOT 94(479.24)

**YƏHYA BABANLI**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun doktorantı, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: y_babanli@yahoo.com*

## AZƏRBAYCAN DİASPORUNUN TƏKAMÜL PROSESİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ LOBBİÇİLİK ELEMENTLƏRİ

**Diaspor ən təbii resurs kimi, qan yaddaşının daşıyıcısı və milli genofondun mühafizəçisidir. Diasporlar "özünüdərketmə və özünüidarəetmə platforması" vasitəsilə etnik kimliklərini qoruyub-saxlayır, dil, adət-ənənələrini yaşadır və gələcək nəsillərə ötürülməsinə səbəbkar olurlar. Diaspordan lobbiçiliyə keçid isə bu amillərlə yanaşı, proseslərə müdaxilə və problemləri həll etmək imkanına malik olmaqdır. Xarcdə yaşayan azərbaycanlılarla əlaqələrin qorunub-saxlanılması Azərbaycan xalqının genofondunun qorunmasında milli təhlükəsizlik və dünyəvi inkişaf kontekstində mühümlülük dərəcəsinə görə tükənməməsi, əksinə zənginləşdirilməsi həyati vacib əhəmiyyət daşıyır. Bunun üçün ideologiya və strategiya SMART (Konkretlik –Ölçülə bilən – Əldə edilə bilən –Aktuallıq –Zaman məhdudluğu) kateqoriyaya uyğun qurulmalıdır. Məhz Azərbaycan diasporunun interyeri yenidən dizayn edilərək hay-tek üslubun tətbiqinə başlanılmalı və lobbiçilik komponenti əlavə olunmalıdır.**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində 2020-ci il 27 sentyabr – 10 noyabr tarixlərində baş verən 44 günlük Vətən müharibəsində Azərbaycan diasporunun fəaliyyəti əhəmiyyətli oldu. Bu müddət ərzində Azərbaycan diasporu maksimum şəkildə öz fəaliyyət istiqamətləri, vəzifə və hüquqları çərçivəsində effektiv nəticə göstərməyə çalışdı və bunu məsuliyyətlə bacardı.

Xaricdə yaşayan azərbaycanlılar mütəşəkkil qaydada Vətənin haqq işinə dəstək göstərə, potensial qüvvəni real gücə çevirə bildi. Təkcə Azərbaycan diasporunu - xarici ölkələrdə yaşayan soydaşlarımızı və həmvətənlərimizi deyil, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları da buna dəstək verdi.

Şərti adı **"Dəmir yumruq" olan** hərbi əməliyyat zamanı ön cəbhədə döyüşən Azərbaycan ordusu, ölkə əhalisi ilə birgə-bərabər arxa cəbhədə vuruşan isə Azərbaycan diasporu oldu və **"Polad iradə"** sərgilədi. Dünya azərbaycanlıları vahid məqsəd - Ana Vətən naminə **"Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi"** prinsipi ətrafında birləşdi. Tarixi ədalətin bərqərar olmasında, **"Zəfər günü"**nün qazanılmasına maddi-mənəvi güc qatdı. Sərhədlər daxilində ədalət savaşı, hüdudlar xaricində sülh çağırışı ilə tandem təşkil etdi. Düşmənin qara piarına, saxta xəbərlərinə (fake news) və onlara dəstək verən KİV-ə, sarı mətbuata (yellow press) qarşı planlı iş görüldü. Dünya ictimaiyyətinə və beynəlxalq aləmə **"erməni yalan maşınının təhlükəli mexanizmi"** ifşa olundu. **[1]**

Təbii ki, Azərbaycan xalqının bütövlüyünü ehtiva edən bu unikal sahə - diasporla iş dövlət maraqlarımız və milli təhlükəsizliyimiz üçün həyati vacib əhəmiyyətə malikdir. Belə həssas məqamda üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşan Azərbaycan diaspor təşkilatları və nümayəndələri - ultravətənpərvər və peşəkar yanaşması, ayrı-seçkilik qoyulmadan ictimai mənşəyindən asılı olmayaraq hamını bir amala səsləməsi əldə edilən müvəffəqiyyətin əsas şərtidir.

Eyni zamanda, Diasporla İş üzrə Dövlət Komitəsi (Diaspor Komitəsi) mövcud tələblər çərçivəsində münasibətləri **"sağlam atmosferdə"** təşkil etməklə mərkəzi icra hakimiyyətinin orqanını sözün əsil mənasında, **"effektiv dövlət orqanı statusu"** ilə təmin etdi. Diaspor Komitəsinin gücləndirilmiş rejimdə işləmə həvəsi və bacarığı olduqca təqdirəlayiqdir. Bu dövrdə vaxtlı-vaxtında dünya azərbaycanlılarına və Azərbaycana dost münasibət bəsləyən xalqların diasporuna **"Yol xəritəsi"** mahiyyətli müraciətlərin edilməsi, diplomatik korpusla dövlət maraqlarına uyğun qarşılıqlı əlaqələrin qurulması və Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diaspor təşkilatları ilə yanaşı, Türkiyənin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsilə, Rumıniyanın Xaricdəki Rumınlar Departamentinin rəhbərilə və İsrailin Diaspor işləri nazirilə videogörüş keçirərək mürəkkəb situasiyada diasporlararası əməkdaşlığa diqqət çəkə bildi **[6]**.

Bir sözlə, qalibiyyətimizdə yeri və rolu olan dünya azərbaycanlılarının səfərbərliyinin hazırlığı və təşkili məsələləri düzgün həyata keçirildi.

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Trend İnformasiya Agentliyinə (22.10.2020) müsahibəsindəki aksonometriya qeyd*

*edilənlərin rəsmi şəkildə təsdiqidir:*

**“Əllərinə bayraq götürərək təcavüzkara etirazlarını bildirən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən xaricdə yaşayan soydaşlarımızı qeyd etməmək mümkün deyil. Azərbaycan xalqı ilə həmrəy olan, ona dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən dünyadakı bütün dostlarımıza minnətdaram” [7].**

Qarşıdakı yeni inkişaf mərhələsində dövlət-diaspor münasibətlərinə yanaşma belə operativ və obyektiv olarsa, faydalı iş əmsalından düzgün istifadə edilərsə və mövcud tələblərə uyğun idarəetmə təkmilləşdirilərsə, bu sahədən gələcək gözləntilər özünü doğruldacaqdır.

Nəzəri yanaşmalar və praktiki məsələlərin diqqətdən keçirilməsi ümumi işimizin xeyrinə ola bilər. Diaspor sosial-mədəni hadisə olub müxtəlif cəhətlərə malik etnik-milli məzmunun məcmusudur. Diaspor anlayışına konseptual şəkildə yanaşmaq, təhlil etmək və onun tədqiqinə ayrı-ayrı nəzəri-praktiki məsələləri vahid bir sistem halına gətirmək yerli və xarici tədqiqatçılar tərəfindən daim cəhd edilir. Əksər mütəxəssislər diasporu **"yeni həyat tərzinin davranışı"** adlandırırlar. Diasporlar yalnız tarixi vətənlərindən kənarda olan milli icmaların yaratdığı, etnik fəaliyyət növü olaraq təşkilatlanma prosesinə şamil edilir. Hazırda beynəlxalq aləmdə diasporlara marağın və diqqətin çox olduğunu söyləmək mümkündür. Faktiki olaraq müvafiq hərəkat sürətlə dəyişən iqtisadi və siyasi şəraitdə əhalinin miqrasiyasının adi vərdiş halına gəldiyi bir dövrdə geniş vüsət alır - **yenidən doğuş yaşayır**.

Bu gün heç kim daha yaxşı bir həyat axtaranların transatlantik axınları ilə təəccüblənmir. Daha parlaq və rahat bir gələcək üçün ayrılmaq, tarixi vətənlə birləşmək üçün inşa edilən körpülərin kərpicini sökmək olduqca çətindir və buna görə miqrantlar qrup halında bütövləşirlər, təşkilatlanırlar.

*“Həqiqətən, transmilli şəbəkələr donor ölkələrə təyinat ölkələrindəki diasporlarda cəmləşmiş bəzi vərdiş və istedadlardan effekt əldə eləməkdə yardım göstərə bilərlər, lakin bu, müəyyən həddə qədər mümkündür. İnsan kapitalının maliyyə kapitalına və texnologiyalara əlavə kimi vacibliyini nəzərə alaraq, ixtisaslı işçilərin miqrasiyası qeyri-mütəxəssislərin əmək haqlarını azaltmaq və vətəndə qalan insanların vəziyyətini pisləşdirmək səciyyəsinə malikdir. Beləliklə, hərəkət azadlığı dünya birliyinin get-gedə qütbləşməsinə və daxili sabitliyin pozulmasına gətirib çıxara bilər”* **[10, c. 154]**.

Bu yanaşmanın məğzi məhz ondan ibarətdir ki, məsələn, Azərbaycan diasporunun inteqrasiya mərhələsindən əziyyət çəkməməsinə, yeni cəmiyyətdə öz milli kimliyini qoruyub-saxlamaqla inkişafına kömək edir. Diasporlar dedikdə, müəyyən bir etnosu, milləti, doğma ərazilərindən kənarda yaşayan bir xalqın **“ümumi maraq - tək amal”** ətrafında toplayan vətəndaş cəmiyyəti nəzərdə tutulur.

Diaspor kollektiv fəaliyyət tələb edən bir sosial-mədəni modeldir. Bu kollektiv istinad nöqtəsi mənşə ölkəsinin kommunikativ davranışıdır (intuitiv rabitə kodu mənşə ölkəsi ilə eyniləşdirmə, kollektiv yaddaş və s.). Burada şəxslərin əsas elementi dəyər dünyalarının harmoniyası, dəyər sisteminin özəlliyidir. Xüsusilə, müəyyən mənəvi keyfiyyət yönümlərinin sıralanma mövqeyi (prioritet və üstünlük), müqayisəli mənası, aksioloji əlaməti (**"dəyərlər"** və ya **"anti-dəyərlər"**) sistemidir. **[4]**

İstənilən cəmiyyətin bu **"yeni öyrənilmiş"** üzvlərinin prioritet və üstünlükləri, aksioloji əlaməti **"dəyərlər"** və ya **"anti-dəyərlər"**ə münasibətləri ilə ölçülür. Diaspor üzvləri ilə ev sahibi ölkənin nümayəndələri arasında mədəniyyətlərarası əlaqə önəmlidir.

Eyni zamanda, diaspor nümayəndələrinin ünsiyyət və mədəniyyətlərarası bacarığı da birbaşa nisbətdədir.

Qeyd etmək lazımdır ki, mədəniyyətin öyrənilməsi eyni zamanda əsas şəxsiyyət daşıyıcıları ilə diaspor üzvləri arasında yaxın (evlilik, qohumluq) əlaqələrin yaranması diaspor cəmiyyətinə nüfuz etməyə imkan verir.

Məsələn, assimilyasiya konseptini qəbul edən şəxslər və spesifik xüsusiyyətlərini itirən milli azlığın nümayəndələri də bu kateqoriyaya aid edilə bilər. Ehtimal olunur ki, kənar müdaxilənin barometr və ötürücülüyünə baxmayaraq, diasporalar da birbaşa mütənasib bir münasibətdədirlər.

Diaspor bir sistem olaraq sabitdir və ətraf mühitin xarici təsirlərinə və daxili çətinliklərinə davamlıdır. Stabillik ümumiyyətlə qabiliyyət kimi başa düşülür ki, bu da daxildə yaranan dağıdıcı təsirləri yatırtmaq üçün sosial sistem təşkil edir. Yalnız, möhkəm durmağı bacaran qüvvə xarici dağıdıcılığı dəf etmək iqtidarındadır.

Münasibətlər exodus (yəhudi diasporunu öyrənən institutlar) tərəfindən müvafiq şəkildə öyrənilir. Xarici təhdidlərə qarşı duruş gətirmək və üstəlik, **“sabitlik”** mütləq dəyişməz deyildir, baxmayaraq ki, onu müəyyən bir hala daxil edə bilər. Diasporun göstərilən xüsusiyyətləri sistemin struktur xüsusiyyətlərinin nəticəsidir - onun rahatlığı və hərəkətliliyi ilə rabitə təşkil edir. Bundan əlavə, özünü inkişaf etdirən sosial sistem olaraq diaspor yeni icmaları çoxaldır.

Yeni çağırışlar sosial və rabitə şəbəkələrinin yenilənməsini qaçılmaz edir.

Beləliklə, diaspor xarici və daxili çağırışlara cavab olaraq daim dəyişməyə məhkum olur. Bunu edərkən istiqaməti proqnozlaşdıran nüanslara təsir edən bir çox amillərin olması səbəbindən diaspora da dəyişikliklərə məruz qalır. Onun qeyri-bərabər şəbəkə quruluşu son dərəcə mürəkkəbdir. Burada mürəkkəb sistemlərin xüsusiyyətlərindən biri özünü göstərir - gözlənilməzlik.

"**Diaspor** – mənşə ölkəsi" xətti boyunca münasibətlər çoxyönlü ola bilər. Əvvəla diasporlar elə etməlidir ki, daim yüksələn xətlərlə irəliləsinlər. Bunun üçün assimilyasiya yolunu deyil, inteqrasiya yolunu seçməlidirlər ki, onları bu təhlükədən yalnız bu işıqlı yol xilas edə bilər.

Proseslərin mövcudluğu - assimilyasiya və fiziki yaşlanma diaspor üzvlərinin bir hissəsinin itirilməsini nəzərdə tutur. Yeni üzvlərin axınının olmaması sistemin sadələşdirilməsinə səbəb ola və diasporun fiziki cəhətdən məhv olmasına gətirib çıxara bilər. Lakin diasporanın mövcudluğu, axın olmadan mümkündür - icmalarda əlverişli demoqrafik vəziyyət nəzərə alınmaqla və əsas xüsusiyyətin ötürülməsi üçün qurumların məhsuldar işləməsinə nail olmalıdır.

Digər yaşayış bölgələri əsas götürülə bilsə də, diaspor üzvünün əsas şəxsiyyətini müəyyənləşdirən mənşə ölkəsidir. Bu yöndə, **"diaspor mədəniyyət baxımından fərqlidir, ümumi vətən ideyasına əsaslanan və bunun üzərində qurulan cəmiyyət kollektiv ünsiyyətin, qrup həmrəyliyinin və nümayişkəranə münasibətin əsasıdır" [7].**

Etnik kimliyin qorunması və ən əsası, ana dilinin mühafizəsi labüddür.

Bir diasporun nə olduğu sualına cavab konkret olaraq belədir:

– miqrant birliklərini **"bir dövlət daxilindəki dövlətlərə"** çevirən eyni tarixi köklərə malik cəmiyyətlərin toplusudur. Beləliklə, hər hansısa diasporun mövcudluğu yalnız diaspordaxili münasibətləri deyil, eləcə də **"diaspor - mənşə ölkəsi"** və "**diaspor - yaşayış ölkəsi"** əlaqələrini nəzərdə tutur.

Diasporlar – **"mənşə ölkəsi"** və **"yaşayış ölkəsi"** arasında sosial-mədəni, hazırda isə siyasi-iqtisadi cəhətdən lokomativ funksiyasını daşıyırlar. Bəzi müəlliflər diasporların "üstünlüyü və həddən artıq güclənməsi" haqqında danışanda mövcud olduğu cəmiyyətdə ehtiyatı əldən vermir və gələcəkdə dominanta çevrilməsinə eyham vururlar.

Ancaq bu, heç də belə deyildir. Diasporların fəaliyyət strategiyası yaranma səbəb və nəticəsindən birbaşa asılıdır. Təbii yöndə, spontan, yəni, heç bir xarici təsir olmadan öz-özünə meydana çıxan diasporlar milli və bəşəri nöqteyi-nəzərdən daha səmərəli, xoşniyyət və sülhpərvər olurlar. Lakin məqsədli şəkildə formalaşdırılan və təşkilatlandırılan diasporlar isə konkret maraqlara xidmət edirlər. Bu da təhlükəli məqamlara, ələlxüsus, etnik qarşıdurmaya gətirib çıxara bilir. Ümumilikdə, diasporlar qarşılarına qoyduqları məqsəd və vəzifədən doğan fərqli cəhətləri özündə birləşdirir. Bunlar açıq–qapalı, aşkar–gizli, pozitiv–neqativ, xeyirxah–bədxah və s. qüvvələrin cəmidir **[7]**.

Bu yazıda iki diaspor haqqında - əks-qütblü, qoşa və qarşı taleyi paylaşan Azərbaycan və erməni diasporları ilə bağlı müəyyən mülahizələr yürüdəcəyik. Azərbaycan diasporunun tarixin diqtəsi ilə siyasiləşməsi, lobbiçiliyə doğru irəliləməsi zəruriliyinə dair bir sıra təklif və tövsiyələri qeyd edəcəyik. Diasporun mənfi və müsbət tərəflərini göstərməyə çalışacağıq.

Bununla, diasporun dağıdıcı ünsür olaraq, təxribat-pozuculuq fəaliyyətini biz erməni diasporunun timsalında görə bilirik. Tarixin müxtəlif dönəmlərində olduğu kimi, bu məkrli hərəkət yüksələn xətlə davam etdirilir. Çünki xisləti yalandan-şərdən-böhtandan yoğrulub.

Təsadüfi deyil ki, vaxtilə İngiltərənin xarici işlər naziri Lord C.Kerzon erməni liderlərini **"dəyərsiz kimsələr"** adlandırırdı. Həmin nazirliyin müşaviri C. Hardinq isə ermənilərin xarakterini yaxşı bildiyindən onların hərəkətlərinə təəccüblənmədiyini söyləmişdi. Eyni zamanda, Ermənistanda ABŞ-ın ali komissarı polkovnik U.Haskel erməni xalqını **"peşəkar dilənçi"** kimi səciyyələndirərək yazırdı: **"ermənilər oğru, yalançı, tamamilə alçalmış, özlərinə yardım göstərməyi bacarmayan və bir-birlərinə kömək etmək istəməyən və hər cür minnətdarlıq duyğularından yoxsul olan kimsələrdilər; erməni xalqı arasında yurd duyğusu olmadığı kimi, ölkəni idarə etmək qabiliyyəti, inkişaf üçün pul və mənbə də yoxdur; qaçqınlar üçün açılan xəstəxanalardakı naxoşlara muzdla baxan ermənilər dava-dərmanları oğurlayaraq satırlar və s." [2].**

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda Zəfər Paradındakı çıxışında Ermənistana qara diaspordan qurtulmağın **"çıxış yolu"**nu göstərdi: **"Ermənistan xalqının da özlərini yalanları ilə ovunduraraq yoxsulluğa məhkum edən diasporun əsarətindən qurtulmasını diləyirik". [8]**

Əslində, 2020-ci il 12 iyul tarixində Azərbaycanın Tovuz rayonu istiqamətində diversiya törədən Ermənistan Azərbaycan dövləti və diasporunun müasir inkişaf səviyyəsini nəzərə almadı. Azərbaycan diasporunun - dünya azərbaycanlılarının fəaliyyətlərinin formatının dəyişməsi, yəni, diaspordan lobbiyə keçid mərhələsinə diqqət vermədi. Nəticə etibarilə, tarixi

həqiqətlərə uyğun münaqişənin həlli istiqamətində konkret addımlar atıldı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qaynar fazaya daxil olması, 44 gün davam edən müharibədə açıq-aşkar hiss olundu. Bir çox ölkələrdə ənənəvi tədbirlərlə yanaşı, qeyri-ənənəvi, yəni, həmin dövlətlərin rəsmi şəxslərini, parlamentarilərini, senator və konqresmenlərini, yerli orqanlarını Azərbaycana qarşı haqlı münasibət bildirmələrinə nail olundu. Bir sıra ölkələrin nüfuzlu elm adamları, ictimai-siyasi xadimləri Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərini ifadə etdilər və Gəncə daxil, digər şəhər və rayonlarımızda mülki əhaliyə qarşı ermənilərin vandalizmi aktını pislədilər.

Eləcə də, xarici işlər naziri C.Bayramovun ABŞ-a səfəri ilə bağlı qitədə ən qocaman təşkilatımız olan Amerika Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Tomris Azərinin rəsmi sosial şəbəkə hesabından müraciəti - dövlət katibi M.Pompeoya xitabı və ABŞ prezidentliyinə namizəd Donald Trampın seçki kampaniyası çərçivəsində Pensilvaniya ştatının Allentoun şəhərində seçicilərlə görüşü zamanı bu ölkədə yaşayan bir qrup azərbaycanlıların diqqəti işğalçı Ermənistan ordusunun Gəncə şəhərində və ölkəmizin digər yaşayış məntəqələrində törətdiyi terror aktlarına yönəldilməsi lobbi addımı kimi dəyərləndirilə bilər. Eyni zamanda, BMT-nin Baş Qərargahının qarşısında soydaşlarımız və həmvətənlərimizin **"Qarabağ azərbaycandır!"** ədalət və sülh prinsipinə söykənən mövqeli şüarla aksiya təşkil etmələri üstünlük sayıla bilər.

Azərbaycan keçmiş çar Rusiyası və SSRİ ailəsinin üzvü olduğuna və uzun müddət həmin ailənin tərkibində olduğu dövrdə xaricə çıxışa məhdudiyyətlər qoyulduğuna görə azərbaycanlıların əksəriyyəti MDB dövlətlərində məskunlaşmışlar. Bu xüsusda, birbaşa xaricdə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması, dolayısilə Azərbaycan diasporunun hərəkət fəaliyyətlərinin müdafiəsi üçün ilk növbədə Rusiya və digər postsovet ölkələrinin aidiyyəti qurumları ilə müvafiq anlaşma müqavilələri imzalanmalıdır.

Diasporun strukturu düzgün qurulsa, sistem olaraq öz funksional hədəfləri ilə faydalı iş əmsalını artırar. BMT-nin bərabərhüquqlu subyektləri kimi, münasibətlər qurulmalı və humanitar mübadilələr həyata keçirilməlidir.

Məsələn, Azərbaycanın Rus İcması, Rus Pravoslav Kilsəsi Bakı və Xəzəryanı Yeparxiyası mövcuddur. Burada ruslar (malakanlar) abad kəndlərdə mehriban, multikultural, tolerant şəraitdə rahat yaşayır və cəmiyyətin bir üzvü kimi çıxış edirlər. Digər xalqların da milli icmaları vardır: onlar da sərbəst - bərabər hüquqlu yaşayırlar.

Bununla yanaşı, öz yurd yerlərindən didərgin salınmış 50 min nəfərədək axısqa türkü də 1990-cı ildə Orta Asiyadan Azərbaycanda sığınacaq tapmışdır **[3]**.

Hətta, qeyri-rəsmi statistikaya görə ölkəmizdə 50 minə yaxın erməni yaşayır.

Məhz zəngin palitralı - poloetnik və dini konfessiyalı dövlət olaraq, bütün bunlar monoetnik Ermənistanın simasında dünyaya görk etdirilməli və beynəlxalq ictimaiyyətin nəzər-diqqətinə çatdırılmalıdır. Nüfuzlu KİV-də bu faktları isbatlayan verilişlər, sənədli filmlər ərsəyə gətirilməlidir.

Rusiyanın keçmiş prezidenti və hazırda Federal Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedev **"PolitStartap"** layihəsinin iştirakçıları ilə görüşdə Ermənistan-Azərbaycan münaqişəsindən danışdığı zaman Rusiyada Azərbaycan və Ermənistandan gələnlərin qarşıdurması ilə bağlı diasporlara məsuliyyətli olması barədə xəbərdarlıq etməsi və **"Mənə elə gəlir ki, hüquq-mühafizə orqanlarımız istiqamətləndirilməlidir, ölkə daxilində bu mövzu zorakılıq və hər hansı toqquşma üçün səbəb yaratmamalıdır. Diasporlar da bu məsələdə öz məsuliyyətlərini hiss etməlidirlər"** deməsi hərəkətə keçmək üçün stimul olmalıdır **[4]**.

Çünki, qaragüruh erməni diasporu ilə eyniləşdirilməyimiz məyusedici və adekvat reaksiyanın verilməsinə səbəbdir ki, reallığı faş edək. Yəni, tədbirlər görülməli və Rusiya cəmiyyətində multikultural, tolerant keyfiyyətlərimiz, humanist və sülhpərvər imicimiz bərpa olunmalıdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılmış son addımları nəzərə alaraq, Azərbaycan diasporunun interyerinin dizayn edilməsi tarixi zərurətdən irəli gələn ən ümdə funksiyadır. Burada ən prioritet məsələ lobbiçilik elementlərinin və hədəflərinin müəyyənləşdirilməsidir.

Lobbiçilik qruplarının səmərəli fəaliyyəti üçün həmin cəmiyyətlərdə sayılıb-seçilən azərbaycanlıların nüfuzundan - adından layiqli şəkildə yararlanmaq gərəkdir. Çünki, həmin şəxslər artıq dünya və ayrı-ayrı dövlətlərdə Azərbaycanın milli brendinə çevriliblər - qızıl genefondu kimi qəbul edilirlər. **"Qafqaz Sülh Evi"** modelinin inteqrasiya məsələlərinin Diaspor Komitəsinə həvalə edilməsi məqsədəuyğundur. Bununla yanaşı,

**1.** Azərbaycan Respublikasının diasporla işi koordinasiya edən qurumunun funksiyalarına yenidən baxılması, fəaliyyət istiqamətləri, vəzifə və hüquqlarının müəyyənləşdirilməsi (eyni zamanda,

xarici siyasətin təzahürləri və mövcud münasibətlər sisteminin xüsusiyyətlərinə uyğun olaraq, iş planı hazırlanması, habelə müvafiq qurumlar ilə qarşılıqlı əlaqələrin həyata keçirilməsi, diaspor təşkilatlarının potensialının nəzərə alınması və funksiyaları ilə eynilik təşkil edilməsi);

**2.** Diaspor məlumat axtarış sisteminin istənilən elementində ən azı bir **"çıxış"** və bir **"giriş"** vardır ki, onun əhatə dairəsinin genişləndirilməsi;

**3.** Azərbaycan Respublikasının Diaspor Komitəsi ilə Rusiya Federasiyasının Müstəqil Dövlətlər Birliyi, həmvətənlər və xaricdə yaşayanlarla iş və beynəlxalq humanitar əməkdaşlıq üzrə federal agentliyi (Rossotrudniçestvo) arasında əməkdaşlıq memorandumunun imzalanması (Agentlik diaspor sahəsi üzrə Rusiya Federasiyasının icraedici hakimiyyətinin federal orqanıdır. **"Rossotrudniçestvo"** MDB-nin bütün ölkələrində, o cümlədən Azərbaycanda fəaliyyət göstərir);

**4.** Azərbaycan Respublikasının **"Dostluq"** ordeni ilə təltif edilmiş şəxslərdən ibarət **"Azərbaycanın dostları beynəlxalq klubu"**nun təsis edilməsi;

**5.** Kərim Kərimov adına Azərbaycan-Rusiya Elmi cəmiyyətinin qurulması;

**6.** Müslim Maqomayev adına Azərbaycan-Rusiya Mədəni-Humanitar Assosiasiyasının təsis edilməsi;

**7.** Fransada Nərimanbəyov adına Azərbaycan mərkəzi və ABŞ-da Lütfi Zadə adına Azərbaycan evinin açılması;

**8.** Beynəlxalq təşkilatlar yanında Azərbaycana dəstək dərnəklərinin təşkil edilməsi;

**9.** Dünya azərbaycanlılarının **"Zəfər"** qurultayının keçirilməsi və yeni mərhələ üçün strategiyanın müəyyənləşdirilməsi;

**10. "Zəfər"** yeni nəsil dünya azərbaycanlıları beynəlxalq assambleyasının təsis edilməsi.

SMART yanaşmanın tətbiqi nəinki bilikləri sistemləşdirməyə, eləcə də mövcud müşahidələrin müəyyən müddəalarını düzəltməyə, yeni tədqiqatlar üçün vektorlar verməyə imkan verir. Belə tətbiq sistematik yanaşma zamanı daha səmərəli olur. Əks təqdirdə, pərakəndəliyə yol açır və ümumi işin ziyanına işləyir.

**Birincisi,** elementar bir nüvənin ayrılmasını nəzərdə tutur-sistemləri (sistem-kompleks təhlili). Ayrılma metodu üçün elementlər sistemin bir başa və ya dolayı yolla sistemə əlavə olunan belə minimal komponentləri kimi başa düşülür.

İkincisi, bunun elementləri arasındakı daxili əlaqələri və asılılıqları müəyyənləşdirmək lazımdır - tədqiq olunan sistemin daxili quruluşu haqqında bir fikir əldə etməyə imkan verən sistem (sistem-struktur təhlili).

Eyni zamanda, sistemin bütövlüyünü təşkil və xüsusiyyətlərini təmin edən keyfiyyət mexanizmini (sistemin inteqrasiya təhlili) vurğulamaq vacibdir. Hər hansı bir sistem müəyyən məqsəd və funksiyaları yerinə yetirmələri ilə yaranır. Beləliklə, bu istiqamətdə hədəflər konkretləşməlidir.

İstər yeni növ koronavirus pandemiyası şəraitində, istərsə də sərhəd təxribatı zamanı bir daha məlum oldu ki, Azərbaycan dövlət-diaspor halqası möhkəmlənməlidir. Çünki, bu milli güc-qüvvət, bir sözlə, cahanşümül inkişaf üçün həyati-vacib əhəmiyyət daşıyır. Tarixilik və müasirlik baxımından dövlət-diaspor tandemi olduqca strateji mahiyyət kəsb edir.

Artıq mahiyyətcə və keyfiyyətcə yeni dövrünü yaşayan, tarixin sınaqlarından çıxmış Azərbaycan diasporu özünün mütəşəkkillik və möhkəmlənmə dövrünə qədəm qoymuşdur. Diasporun qüdrətini müəyyən etmək üçün müxtəlif ərazilərdə yaşayan və müvafiq qrumlarda təmsil olunan, birləşən həmvətənlərimizin ümumi məqsədlər və milli mənafe əsasında vəhdətinin olması bu sahədə əsas şərtlərdəndir. İlk dönəmlərdə görülən məqsədyönlü tədbirlər isə bunu deməyə əsas verir ki, ölkə sərhədlərinin hüdudlarında məskunlaşan soydaşlarımız və xaricdə fəaliyyət göstərən diaspor potensialımızın Azərbaycan həqiqətləri ilə birlikdə yaşaması və fəaliyyət göstərməsinin təməli qoyuldu.

Bununla, Azərbaycan nə qədər güclü olsa, daxildəki vətəndaşlarla yanaşı, xaricdəki soydaşlarımız da özlərini bir o qədər təhlükəsiz, rahat hiss edəcəklər. Dünyanın müxtəlif yerlərində məskunlaşan azərbaycanlılar nə qədər güclü olsa, milli maraqlarımız da bir o qədər mühafizə olunacaq, qorunacaqdır. Ona görə də, diaspor təşkilatlarının bütövlükdə və onların üzvlərinin fərdi qaydada real siyasətə, məqsədyönlü işlərə fəal şəkildə cəlb edilməsi olduqca arzuolunan bir məsələdir. Azərbaycan diasporu öz ruhu, dəst-xətti ilə hərəkət etməli, təkrarçılığa yol verməməlidir. Vahid ideologiyaya və strategiyaya uyğun fəaliyyət göstərməlidir.

XXI əsr açıq müharibələrin deyil, qapalı milli məfkurələrin mübarizəsi, beyinlərin toqquşması və ideyaların savaşı ilə xarakterikdir. Azərbaycan diasporunun bu yöndə hazırlıq səviyyəsini yüksəltmək gərəkdir. Estafet lobbiçiliyə ötürülməli və buna doğru revanş edilməlidir.

Azərbaycanlıların həyat tərzinə çevrilən multikultural dəyərlər, tolerantlıq keyfiyyətləri bütün dünyaya təqdim edilməlidir. Nümunəvi obraz yaradılmalıdır. Bu istiqamətdə Diasporla İş üzrə Dövlət Komitəsi və

Xarici İşlər Nazirliyi sinxron fəaliyyət göstərməlidir. Heydər Əliyev Fondunun geniş spektrli imkanlarından yararlanılmalıdır. Azərbaycan Diasporuna Dəstək Fondunun klasteri genişlənməli və donorların hədəf qrupu düzgün müəyyənləşdirilməlidir.

Azərbaycan xalqının Ümummilli Lideri və azərbaycançılıq siyasi təliminin yaradıcısı Heydər Əliyevin müdrikliyinin və uzaqgörənliyinin bir daha təsdiqi, vəsiyyətinin mənəvi və siyasi varisi, qətiyyətli dövlət başçısı İlham Əliyev tərəfindən yerinə yetirilməsi, onun rəhbərliyi ilə müzəffər Ordumuz tərəfindən Qarabağın azad olunması Azərbaycan diasporunun vəhdətinə zəmin yaratdı. Məhz bu prizmadan gələcək fəaliyyətə yaxınlaşıb, yeni müstəviyə çıxmaq lazımdır.

Dünya azərbaycanlılarını əldə edilən **"Zəfər"** arxayın salmamalıdır: çünki biz, sərsəm ideologiya ilə üz-üzəyik və aksent gedişat növbəti fazaya daxil olub. Unutmamalıyıq, **"yeni ərazilər üçün yeni müharibə"** prinsipinin dirijoru Ermənistan dövləti olsa da, ifaçısı erməni diasporudur. Bunun üçün biz qarşıda daha məqsədyönlü davranmalı və tədbirli olmalıyıq. Bu məsələdə Diaspor Komitəsinin üzərinə xüsusi missiya düşür və Azərbaycan diasporunun qarşısında uzun yol dayanır.

Bir sözlə, xarici ölkələrdə yaşayan soydaşlarımız və həmvətənlərimizlə əlaqələrin yeni dövrə qədəm qoyması milli dövlətçiliyimiz baxımından müasir həyatımızın ən vacib və son dərəcə mühüm olan bir sahəsidir.

**Açar sözlər:** *Azərbaycan diasporu, lobbiçilik, Vətən müharibəsi, Zəfər günü, Qafqaz sülh evi.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Zəfər Salnaməsi. Bakı, Şərq-Qərb nəşriyyatı, 2021, 536 s. ISBN 978-9952-537-48-2*

*2. https://aqreqator.az/az/siyaset/479874*

*3. https://az.wikipedia.org/wiki/Ax%C4%B1sqa_t%C3%BCrkl%C9%99rinin_deportasiyas%C4%B1*

*4. https://www.aznews.az/news/russia/258661.html*

*5. https://www.bakupost.az/diaspor-interyerinin-yeni-dizayni-hay-tek-uslubu-ve-lobbicilik-komponenti*

*6. http://diaspor.gov.az/hesabatlar/pdf/2020.pdf*

*7. https://president.az/az/articles/view/44041/print*

*8. https://president.az/az/articles/view/48788/print*

*9. https://mgimo.ru/upload/iblock/e4b/%D0%9A%D1%80%D0%B0%D1%81%D0%BD%D0% BE%D0%B2.%20%D0% A1%D0%BE%D0%B2% D1%80%D0%B5%D0%BC%D0% B5%D0%BD%D0%BD%D0% BE%D0%B5%20%D0%B3% D0%BE%D1%81%D1%83%D0%B4%D0%B0%D1%80%D1%81%D1%82%D0%B2%D0%BE.%20%D0%BA%D0%BD%D0%B8%D0%B3%D0%B0.pdf*

*10. Миграции без границ: эссе о свободном передвижении людей. Россия, 2007, 294 с. ISBN: 978-92-3-104024-5, 978-1-84545-346-6, 978-1-84545-360-2, 978-5-86103-070-0*


**Я.М.Бабанлы**

### Процесс эволюции, этапы развития и элементы лоббирования азербайджанской диаспоры

#### РЕЗЮМЕ


В статье акцентируется внимание на теоретических и практических подходах к феномену диаспоры, которой дается определение  как атрибуту эпохи модерна.

В контексте Армяно-Азербайджанского Карабахского конфликта была отражена деятельность Азербайджанской диаспоры в период 44-дневной Отечественной войны сентября-ноября 2020 года.

Был выдвинут ряд рекомендаций и предложений относительно целей Азербайджанской диаспоры в послевоенный период.


**Ключевые слова:** *Азербайджанская диаспора, лоббирование, Отечественная война, День Победы, Кавказский дом мира.*

**Y.M.Babanli**

### The evolutionary process, development stages and the elements of lobbying of the Azerbaijani Diaspora

#### SUMMARY


The article focuses on theoretical and practical approaches to the diaspora phenomenon which is identified as an attribute of the modern era.

In the context of the Armenian-Azerbaijani Karabakh conflict, the activities of the Azerbaijani Diaspora in the 44-day Patriotic War of September-November 2020 were reflected.

A number of recommendations and suggestions were made regarding the goals of the Azerbaijani Diaspora in the post-war period.


**Keywords:** *Azerbaijani diaspora, lobbying, Patriotic war, Victory day, Caucasus peace house.*

UOT 94(479.24)

# VII-IX ƏSRLƏRDƏ QARABAĞIN TARİXİ-SİYASİ COĞRAFİYASI

**AYNUR HƏŞİMOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: aynur.hashimova@arti.edu.az*

**Giriş.** VII əsrin əvvəllərində başlamış ərəb yürüşləri Atlantik okeanından Hindistana kimi olan ərazilərdə məskunlaşmış xalqların tarixi taleyində əsaslı dəyişikliyin baş verməsinə səbəb oldu. Ərəblər başqa ölkələrdə olduğu kimi Azərbaycan və Qafqaz Albaniyasına da əldə silahla gəldilər və bu ölkələri zor gücünə zəbt etdilər. Ərəb işğalları nəticəsində İspaniyadan Hindistana kimi geniş bir ərazinin siyasi xəritəsi ciddi dəyişikliyə uğradı. Baş vermiş dəyişikliklər bir çox ölkələrin tarixi-siyasi coğrafiyasına da əsaslı təsir göstərdi. Bu ərazilər ayrı-ayrı vilayətlər şəklində Xilafətin tərkibinə daxil oldular. VII-IX əsrlərdə Xikafətin tərkibinə daxil edilən ərazilərdən biri də məhz tarixi Qarabağ torpaqları olmuşdur.

**Ərəblərin gəlişi ərəfəsində Cənubi-Qafqazda siyasi vəziyyət.** Bizans-ərəb rəqabəti ilə əlaqədar olaraq, VII yüzilliyin əvvəllərində Cənubi Qafqazda vəziyyət gərginləşmişdi. Cənubi Qafqazın Bizans ilə mübarizədə strateji əhəmiyyətini başa düşən Xilafət Cənubi Qafqazı Bizansdan ayırmaq məqsədi güdürdü. Bunun üçün onları Bizansdan ideoloji cəhətdən ayrı salmaq siyasəti yürüdülürdü. Bu zaman Cənubi Qafqazda Bizansın siyasi nüfuzunun güclənməsi ilə əlaqədar olaraq alban kilsəsi diofizitliyi qəbul etmişdi. Sürətli hücumla Şərq ölkələrinin bir çoxunu işğal edən ərəblər Sasani imperiyasının ərazisinə daxil oldu (633-cü il). Ardıcıl olaraq davam edən ərəb hücumlarının- Sasanilərlə Xilafət arasında gedən döyüşlərin nəticəsində 651-ci ildə Sasani dövləti süqut etdi. İmperiyanın bütün ərazisi, ölkə və vilayətləri yeni, böyük bir dövlətin tərkibinə keçdi. Qeyd etmək lazımdır ki, ərəb mənbələrində Albaniyanın ərazisi bəzən “Arran”, bəzən də “Ərməniyyə” adlandırılmışdır. Lakin, bu nə ölkə deyil, nə də konkret bir ərazini əhatə etmir. Bəlazurinin (892-ci il) məlumatları ilə bu məsələyə aydınlıq gətirmək yerinə düşərdi. Müəllif yazır ki, “Şimşat, Xalxal, Hilat, Ərgiş, Bacunays- dördüncü Ərməniyyə adlanırdı; Bosvoracan, Dəbil, Siracan, Tayr və Baqravənd- üçüncü Ərməniyyə; Curzan ikinci Ərməniyyə; Sisacan, Arran və Tiflis birincidir. Buradan “Ərməniyyənin” məna və mahiyyəti aydın olur. Bu nə “Ermənistan”, nə də “erməni ölkəsi” demək deyil. Ərəblərin ermənlərin adı ilə adlandırdığı təxmini ərazi bölgüsüdür.

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanın cənub hissəsi VII yüzilliyin ortalarından etibarən Ərəb Xilafətinin hakimiyyəti altına düşmüş, şimal hissəsi olan Albaniya isə görkəmli Azərbaycan sərkərdəsi, Albaniyanın dövlət başçısı Cavanşirin yürütdüyü uzaqgörən daxili və xarici siyasət nəticəsində dövlət müstəqilliyini qoruyub saxlamışdı. Xilafətə vergi verməklə VIII yüzilliyin əvvəllərinədək Albaniya yerli hökmdarlar tərəfindən idarə olunmuşdur. Cavanşirin ölümündən sonra isə Albaniyada dövlətçilik və siyasi hakimiyyət tədricən zəifləmiş, dəfələrlə ərəblərin, xəzərlərin və bizanslıların hücumuna məruz qalaraq (688-690) müstəqilliyini tamamilə itirmiş, Xilafətin, Xəzər xaqanlığının və Bizansın asılılığına düşmüşdür.

Albaniya uğrunda gedən müharibələr VIII yüzilliyin başlanğıcında yenidən qızışdı. Mənbələrə görə Bizansın Cənubi Qafqazda mövqeyi zəifləyir, xəzərlərin isə üstünlüyü özünü göstərirdi. Xəlifə Əbdülmalik (685-705) Xilafət ərazisində sürətlə iqtisadi və hərbi islahatlar keçirməklə hakimiyyətini möhkəmlədərək Bizans və Cənubi Qafqaz cəbhələrində uğurlu əməliyyatlar apardı. Əbdülmalik Xilafət üçün iqtisadi və strateji cəhətdən əhəmiyyətli olan Albaniyada “qayda-qanun” yaratmağa başladı. O, Xilafətin şimal ərazilərini idarə etmək üçün Albaniya dövlətinin paytaxtı Bərdəni ərəb canişinlərinin iqamətgahına çevirdi. Əbdülmalik 705-ci ildə Alban hökmdarını hakimiyyətdən kənarlaşdırdı və edam etdirdi.

705-ci ildə Xilafət Albaniyanın paytaxtı Bərdəyə öz canişinlərini təyin edib, ölkənin idarəçiliyini ona tapşırdı. Bununla da, Alban dövlətinin idarəçiliyinə, onun siyasi müstəqilliyinə son qoyuldu. Ərəbdilli yazılarda, həmin dövrdən sonra, Albaniya ərazisi Arran (ər-Ran) adlandırılır. Albaniyanın paytaxtı ərəblərin “Arranın anası” adlandırdığı Bərdə şəhəri əvvəlki kimi mərkəzi şəhər olur. VIII yüzillikdən etibarən Bərdə Xilafətin şimaldakı mərkəzinə çevrilir.

Azərbaycan uğrunda gedən müharibələr VIII yüzilliyin əvvəllərində yenidən qızışdı. Ərəblərin növbəti hücumu 709-cu ildə baş verdi. Ərəb sərkərdəsi Mələmənin başladığı hücum Dərbəndə qədər davam et-

dirildi, lakin Şimali Qafqazda yerləşən Xəzər xaqanlığı ordusunun əks-hücumları nəticəsində darmadağın edildi. Böyük itki verən ərəb ordusu geri çəkildi.

Sonrakı illərdə də xəzərlərlə ərəblər arasında müharibə davam etdi. Bir-birinin ardınca tez-tez dəyişdirilən canişinlər, mütəmadi olaraq davam edən müharibələr, əhalinin üzərinə qoyulan ağır vergilər xalqı çox çətin vəziyyətə saldı.

Qarabağın tarixində VIII əsrdən etibarən mənəvi dəyişikliklər baş verdi. Azərbaycanın hər yerində olduğu kimi, Qarabağda da VIII yüzillikdən yeni dövr başlandı. Xristian dininin tam möhkəmlənmədiyi Azərbaycanda təşəkkül tapan İslam dini yeni bir mərhələnin başlanğıcını qoydu. Çox keçmədən ölkənin hər yerində, o cümlədən onun mərkəzi bölgələrindən biri olan Qarabağda da bütün keçmiş dini ibadətlərə son qoyuldu. Yeni və mütərəqqi din olan İslam bütün dinləri üstələdi, əhalinin böyük hissəsi İslamı qəbul etdi, müsəlman oldu, az bir hissəsi isə əvvəlki dini inanclarını (xristianlığı) saxladı.

Xilafətin Xəzəryanı ölkələri beynəlxalq ticarət meydanına çevirməsi ilə əlaqədar olaraq Qarabağ regionunun şəhərləri daha da inkişaf etdi, nəhəng sənət və ticarət mərkəzlərinə çevrildi. Həmin dövrdə Qarabağ regionunun mərkəzi şəhəri Bərdədə 100000-dən artıq əhali yaşayırdı (2, s. 59-61).

Arran və Xilafət tarixində çox böyük rol oynayan Bərdə Xilafətin bu rayonunda ən əhəmiyyətli bir şəhər idi. Bartold göstərmidir ki, Bərdə ərəblərin Zaqafqaziyadakı əməliyyatı və bütün ticarət yollarının mərkəzi və kəsişdiyi yer, şimal ilə tranzit ticarətinin mərkəzi idi (3, s.151).

M.Kalankatukluya görə bu şəhər Sasani şahı Perozun (Pərvizin) (459-488) əmrinə əsasən padşah Vaçe tərəfindən salınmışdır. Bəlazuri bildirir: "Kavad... Arranda bütün ölkənin (baş şəhəri) Bərdə şəhərini saldı". Həmdullah əl-Qəzvini yazır ki, Bərdəni Makedoniyalı İskəndər salmışdır, sonralar isə şəhəri Sasani Kavad (Qubad) abadlaşdırmışdır. Mirxond Bərdənin əsasının qoyulmasını Kavadın (Qubadın) şahlığı dövrünə, yəni V əsrə aid edir. Bu, axırıncı tarix M.Kalankatuklunun verdiyi belə bir məlumatla təsdiq olunur ki, padşah Vaçaqanın hökmranlığı dövründə (başlanğıcı 487-488-ci ildir) onun çağırdığı Aquen dini yığıncağında Partav arxiyepiskopu Şupxakişo və Partav (Bərdə) keşişi Mate iştirak edirdilər.

İranla Bizans arasında gedən müharibələr zamanı Bərdə 628-ci ildə Bizansın müttəfiqi olan Xəzərlər tərəfindən dağıdılmışdı. Şəhər yalnız birinci Əməvi xəlifəsi Müaviyə dövründə (661-680) Arran hakimi Əbd ül-Əziz ibn Hatəm tərəfindən bərpa edildi; o, "Bərdəni bərpa etdi, başqalarının dediyinə görə isə şəhəri tikdirdi və ətrafında möhkəm xəndək qazdırdı, çünki ondan əvvəl şəhər tamamilə dağıdılmışdı". Bəziləri belə güman edirlər ki, Bərdəni Əbd ül-Malik ibn Mərvanın xəlifəliyi zamanı Məhəmməd ibn Marağai təsis etmişdir. Vaqidi bildirir ki, "Əbd ül-Malik Bərdə şəhərini Hatəm ibn ən-Nöman əl-Bəxilinin və ya onun oğlunun köməyi ilə inşa etmişdir". Cəlaləddin əs-Suyuti təsdiq edir ki, Bərdə "hicri 85 (704)-ci ildə Əbd ül-Əziz ibn Hatəm tərəfindən təsis edilmişdi" (1, s.175-176).

Bərdənin ərəblər tərəfindən salındığı barədə, əlbəttə, danışıq ola bilməz, çünki hələ Sasanilər dövründə tarixçi şəhəri "böyük" adlandırmışdı və bu şəhər Arranın paytaxtı idi (5, s. 6, 32, 90, 135, 240).

Ərəblər Arranı işğal etməzdən əvvəl İran mərzbanlarının və 552-553-cü illərdə katalikosların Çoqadan köçürülmüş patriarx taxtının iqamətgahı Bərdədə idi. Ərəblər ölkəni işğal etdikdən sonra knyaz taxtı ilə birlikdə xəlifə canişinlərinin də iqamətgahı Bərdədə idi.

Əməvilərin hökmranlığı dövründə ərəblər Arranın daxili işlərinə demək olar ki, qarışmayıb, ölkədən bac almaqla kifayətləndikləri halda, 752-ci ildə Abbasilərin dövründə "Ağvan knyazlarının" əlindən alınan Bərdə Arran vilayətinin paytaxtı oldu və bu zamandan şəhər ərəblərin tam nəzarəti altına keçdi. Xəlifə Mənsurun hökmranlığı dövründə canişin Yəzid ibn Useyd olanda Bərdənin öz sikkəxanası var idi və burada "Bərdə" möhürü ilə pul kəsilirdi (5, s.60). Lakin M. Kalankatuklu bildirir ki, hələ 160 (712)-ci ildə canişin Əbd ül-Əziz ibn Hatəm əl-Bəxili Bərdədə qalmışdı və bu əhvalat xəlifə II Validin (705-715) hökmranlığı dövründə baş vermişdi (4, s.208). Buna görə belə güman etmək olar ki, ərəb sikkəxanası Bərdədə çoxdan var idi, çünki "Arran" möhürü ilə hicri 89 (707-708)-cu il tarixli sikkələr vardır (4, s.43).

Qarabağın müxtəlif yerlərindən tək-tək tapılmış böyük miqdarda mis, gümüş və qızıl pullardan əlavə beş böyük dəfinə (1924, 1925, 1929, 1940 və 1984-cü illərdə) aşkar edilmişdir. Qarabağdan tapılmış pulların tədqiqi göstərir ki, böyük bir xronoloji dövr ərzində (antik dövrdən 18-ci yüzilliyədək) sikkə zərb edilmiş, həmin sikkələr ticarət məqsədilə dünyanın bir çox ölkələrinə yayılmış, həmçinin dünya ölkələrinin pulları da Qarabağ ərazisinə gəlib çıxmışdır. Qarabağda aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş dünya ölkələrinin pulları deyilənləri bir daha

təsdiq edir.

Xəlifə Mərvan ibn Məhəmmədin hakimiyyəti dövründə Azərbaycanda iğtişaşlar başlandı. Yerlərdə Xilafət əleyhinə, onun əmir və canişinlərinin soyğunçu, qarətçi, zülmkar hərəkətlərinə qarşı üsyanlar qalxırdı. Hər dəfə də ərəb orduları üsyanı yatıraraq, iştirakçılarına divan tuturdular.

IX yüzillikdə- X yüzilliyin əvvələrində ərəblərin etnik zəmində olan təzyiqləri Qarabağ ərazisində də etiraz hərəkatlarının və çıxışların baş verməsinə səbəb olmuşdur. Mərvan ibn Məhəmmədin hakimiyyəti dövründə Azərbaycanda yerlərdə Xilafət əleyhinə, onun əmir və canişinlərinin, amirlərinin soyğunçu, qarətçi, zülmkar hərəkətlərinə qarşı üsyanlar qalxdı. Bu iğtişaşlardan biri Beyləqan sakini Müsafir ibn Kəsirin rəhbərliyi altında başlamış üsyan idi.

Əl-Kufi həmin hadisəni ətraflı təsvir edərək bildirir ki, "qiyamçılar Asimin buradakı canişinini tutub onunla birlikdə zindanın qapılarına yaxınlaşdılar, qapıları açdılar və (üsyan baçıları) Qüteybə ibn Sədəqəni və Aban ibn Məmunu azad etdilər. Bundan sonra qiyamçılar Beyləqanı tam ələ keçirdilər. Bütün ətraf nahiyələrdən Beyləqana adamlar axışdı. Tezliklə burada nəhəng bir ordu toplandı. Müsafir ibn Kəsir əl-Qəssabın rəhbərliyi altında onlar Beyləqandan çıxıb (Bərdəni tutmaq məqsədilə) gəldilər. Asim ibn Yəzid əl-Hilali bundan xəbər tutdu, tərəfdarlarını topladı və döyüşçülərini Bərdə şəhərinin qapıları yanında, Tərtər çayı boyunca yerləşdirdi.

Mənbələr bildirir ki, tərəflər Bərdə şəhəri yaxınlığında üz-üzə gəlib döyüşə başladılar. Əbdül-Malik ibn Müslüm bu döyüşdə öldürüldü, ordunun başına onun qardaşı İshaq ibn Müslüm əl-Üqeyli keçdi. İshaq ibn Müslümlə üsyançıların döyüşü xeyli davam etdi.

Abbasilərin ilk xəlifəsi Əbü-l-Abbas əs-Səffahın xəlifəliyi dövründə (750-754) Azərbaycanda Müsafir ibn Kəsir əl Qəssab üsyan qaldırmışdır. Xəlifənin göndərdiyi 100 minlik qoşunla uzunmüddətli döyüşlərdən sonra Müsafir və döyüşçüləri məhv edilmiş, üsyançılara ağır divan tutulmuşdu.

Ərəb canişinləri və inzibati idarəçilik orqanları işçilərinin törətdiklərindən narazı qalan yerli xalqlar üsyan edirdilər. Həmin üsyanlardan biri Bərdə şəhərində başlamışdı. Əl-Yaqubi yazır ki, "Ömər ibn-Əyyub əl- Kinani vəzifəsindən uzaqlaşdırıldı, onun yerinə isə Əşərilərin azad edilmiş qulu (maula) Əbus-Sabah təyin edildi. Həmin Əbus-Sabah Arran əhalisini sıxışdırmağa başladı, bərdəlilər də ona hücum edib öldürdülər. Bu hərəkat narazılıqların başlanğıcı idi. Bərdə üsyanı əhalinin xilafətə qarşı hamılıqla üsyana qalxmasına təkan verdi. Əl-Kufi bu barədə məlumat verir ki, "Bərdədə başlamış üsyan Azərbaycan əhalisinin hər yerdə üsyana qalxmasına səbəb oldu. Bunların ən şiddətlisi Beyləqanda "xarici" təriqətinə mənsub olan Müslümün rəhbərliyi altında baş verən üsyan idi. Beyləqanda Əbu Müslümün xəlifə Harun ər-Rəşidə qarşı başlanmış üsyanını yatırmaq üçün oraya İshaq ibn Müslüm əl-Üqeyli adlı sərkərdənin başçılığı altında min atlıdan ibarət İraq döyüşçüləri göndərildi. Bu barədə Əl-Yaqubi bildirir: "Xalid ibn Yəzid ibn Üseyd əs-Sulamini döyüşçülərinə beş min nəfər də əlavə edib göndərdi ki, Əbdü-l-Malik ibn-Xalid əl-Hərəşinin rəisliyi altında möhkəmlənsin. Onlar Əbu Müslümün dəstələri ilə toqquşdular və onları qaçmağa məcbur etdilər. Əbu Müslüm özü isə Gilab (Sisyanda) qalasına qarşı hərəkət etdi və onu ələ keçirdi. Ər-Rəşid bundan sonra vali vəzifəsinə İbn Abdullah əl-Bacalını təyin etdi. O, Bərdəyə gələn kimi beyləqanlılar ona qarşı üsyan etdilər, ancaq o, Bərdədə, iqamətgahında möhkəmləndi və Mədən əl-Xümsünü altı min nəfərlik (döyüşçü) ilə Əbu Müslüm Şəritə qarşı göndərdi". Əbu Müslüm Xəlifənin hakimiyyətinə qarşı uzun müddət gərgin mübarizə aparmış, lakin üsyançılar Xilafət qoşunları tərəfindən məhv edilmişlər.

9-cu yüzilliyin 1-ci yarısında Babəkin rəhbərliyi ilə Azərbaycanda gedən xalq hərəkatı (Xürrəmilər) Azərbaycanda Xilafət əleyhinə gedən mübarizənin ən güclüsü idi. Yalnız Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə ən qüdrətli siyasi hərəkat olan Babək hərəkatı (816-838) elə geniş vüsət almışdı ki, əl-Məsudinin dediyi kimi, Abbasilər hakimiyyətini məhv edəcək dərəcəsinə çatmışdı. Xilafəti dağılmaqdan qorumaq üçün Xəlifə əl-Mötəsim hətta rəqibi olan Bizansla da sülh bağladı və Babək hərəkatına qarşı qüvvələrini səfərbərliyə aldı.

Mənbələrin verdiyi məlumata görə, Babək ərəblərə qarşı 21 il mübarizə apardı (816-838), Xilafətin dayaqlarını laxlatdı, ancaq ərəblərə qarşı mübarizədə keçmiş müttəfiqi Səhl ibn Sumbat tərəfindən tutulub ərəblərə verildi. Babək 838-ci ilin mart ayında xəlifə əl-Mötəsimin əmri ilə Samirə şəhərində edam edildi. Babək edam edilsə də, onun tərəfdarları uzun müddət Xilafətə qarşı mübarizədə fəal iştirak etdilər.

Babək hərəkatı qüdrətli Abbasilər dövlətinin ayrı-ayrı dövlətlərə parçalanmasına səbəb olan əsas siyasi qüvvələrdən biri olmuşdur. Babək hərəkatı Xi-

lafət tarixində ən möhtəşəm xalq hərəkatlarından biri olmuş və 10-cu yüzilliyin ərəb müəlliflərinin dediyi kimi, az qala Abbasilər dövlətini yıxmışdı. Bu hərəkat xarici işğalçılara qarşı Azərbaycan xalqının apardığı uzunsürən qüdrətli müharibələrdən biri idi.

**Nəticə**

Nəticə olaraq demək olar ki, ərəblərin Azərbaycanda fütuhatı heç də asanlıqla davam etməmişdir. İslam dininin yüksək xüsusiyyətlərini dərk edən, həm öz mənafeləri baxımından əhəmiyyətli, həm də mütərəqqi din olmasından, yaxud başqa dini təzyiqlərin ağırlığından can qurtarmaq istəyindən asılı olaraq, islamın yayılması və genişlənməsinə baxmayaraq, ölkədə siyasi vəziyyət mürəkkəb idi. Yadellilərin işğallarına etiraz ilə cavab verən yerli əhali ölüm-dirim mübarizəsinə qalxaraq, itaətdən, istiladan can qurtarmağa çalışır, işğalçılara qarşı kəskin müqavimət göstərirdilər. Bütün bunlara baxmayaraq, 90 illik mübarizədən sonra ölkədə ərəb istilaları, əsasən başa çatdı.

O zaman Azərbaycana, həmçinin Qarabağa çoxlu ərəb tayfaları köçürülmüşdür. Onların köçürülməsi dövrün tələbinə və şərtinə uyğun olaraq iki məqsəddən irəli gəlirdi. Birincisi, xəlifələr və canişinlər tərəfindən Azərbaycan ərazisində hakimiyyətin möhkəmləndirilməsini təmin etmək üçün ərəb tayfaları köçürülüb yerləşdirildi, ikincisi Ərəbistan torpaqlarından fərqli olaraq, münbit, suvarılan torpaqlarda yaşamaq üçün çoxlu ərəb tayfaları özləri köçüb gəlirdilər. Arrana ən çox Abbasilər dövründə şimali ərəb tayfaları köçürülmüşdür ki, bunlar da nizarilər və bənu-rəbiyələr idi. Bunlar Azərbaycanda məskunlaşan zaman öz cənublu həmvətənlilərinin müqaviməti ilə qarşılaşırdılar.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Bünyadov Z, Azərbaycan VII-IX əsrlərdə, Bakı-2007, 424 səh.*

*2. Hacıyev Q, Qarabağ tarixi, Bakı-2014, 228 səh.*

*3. В.В.Бартольд. Историко-геогрофический обзор Ирана, Санкт-Петербург-1903, стр.176.*

*4. Е.А. Пахомов, Монеты Азербайджана. Вып. I. Баку-1959, стр 79.*

*5. Моисей Каганкатваци, История Агван, Санкт- Петербург-1861, стр.391*


## XÜLASƏ


Məqalə Qarabağın Ərəb Xilafəti dövründəki tarixi-siyasi coğrafiyasına həsr edilib. Məqalədə ərəblərin Azərbaycana, o cümlədən Qarabağa gəlişi və bu gəlişin tarixi-siyasi coğrafiyaya təsiri məsələləri işıqlandırılmışdır. Ərəblərin Azərbaycanı zəbt etmələri və Azərbaycanın Xilafətin tərkibində olması ölkənin tarixi-siyasi coğrafiyası ilə yanaşı, onun mənəvi həyatına, əhalinin etnik tərkibinə də güclü təsir göstərmişdir. Məqalədə həmçinin ərəblərin gəlişinin yerli əhalinin etnik tərkibinə təsiri mövzusu da araşdırılıb.


**Açar sözlər:** *Qarabağ, Ərəb xilafəti, Azərbaycan, tarix, coğrafiya.*

## HISTORICAL AND POLITICIAL GEOGRAPHY OF KARABAKH IN VII-IX CENTURİES
## SUMMARY


The article is dedicated to the historical and political geography of Karabakh during the Arab Caliphate. The article covers the arrival of Arabs in Azerbaijan, including Karabakh, and the impact of this visit on the historical and political geography. The conquest of Azerbaijan by the Arabs and the fact that Azerbaijan was part of the Caliphate, along with the historical and political geography of the country, had a strong impact on its spiritual life and the ethnic composition of the population. The article also examines the impact of the arrival of Arabs on the ethnic composition of the population.


**Key words:** *Karabakh, Arab Caliphate, Azerbaijan, history, geography.*

## ИСТОРИЧЕСКИ-ПОЛИТИЧЕСКАЯ ГЕОГРАФИЯ КАРАБАХА В VII-IX ВВ
## РЕЗЮМЕ


В статье были освещены прибытие арабов в Азербайджан, в том числе входящий в его состав Карабах, и влияние этого визита на исторически-политический географию. Завоевание Азербайджана арабами и вхождение Азербайджана в состав Халифата, наряду с исторически-политический географией страны оказали сильное влияние на его духовную жизнь и национальный состав населения. В статье также исследовалось влияние прибытие арабов на этнический состав населения.


**Ключевые слова:** *Азербайджан, Карабах, история, география, Арабский халифат.*

# İqtisadiyyat

UOT 338.242; 338.33

## AZƏRBAYCANDA QEYRİ-NEFT İXRAC POTENSİALININ YÜKSƏLDİLMƏSİNDƏ LOGİSTİKA-TİCARƏT SİSTEMİNİN STRATEJİ ASPEKTLƏRİ

**ZİBEYDƏ ŞƏKƏRƏLİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı,*
*iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: arifshakaraliyev1949@mail.ru*

Qeyri-neft sektorunun ixrac potensialının artırılması ilə bağlı tədqiqatlar göstərir ki, bu sahədə önəmli məsələlər sırasında xammal təminatı, ehtiyatların yaradılması, xammal resurslarının və hazır məhsulların axınının səmərəli təşkili və idarəedilməsi, başqa sözlə, ixrac potensialının artırılması üçün tələb olunan bütün proseslərin dinamikliyinə və faydalılığına imkan verən logistika, həmçinin ticarət sisteminin formalaşdırılması və inkişaf etdirilməsi, bu sistemlərin fəaliyyət dairəsinin genişləndirilməsi vacib şərtlərdəndir. Ümumiyyətlə, hər hansı bir fəaliyyətin logistika sisteminin və konsepsiyasının olması müasir dövrdə ön plana çıxmışdır, ölkələrarası və təsərrüfatlararası əlaqələrin qeyri-sabitliyi, qlobal təsirin artması, yaxud digər problemlərin yaranması baxımından istehsal və kommersiya proseslərinin sabitliyinin təmin olunması, ixrac potensialının gücləndirilməsi və xarici partnyorlar qarşısında uzunmüddətli dövrə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi üçün daha etibarlı və çoxfunksiyalı mexanizmlər işlənib hazırlanmalı, ehtiyatlar yaradılmalı və ixrac tərəfdaşları ilə əlaqələrin dərin etimad əsasında möhkəmlənməsinə nail olunmalıdır.

Logistika və ticarət sistemlərinin çevik və dəyişkən situasiyaya qısa müddət ərzində adaptasiya oluna biləcək mexanizmlərin və fəaliyyət alətlərinin tətbiqi daim diqqət mərkəzində saxlanılmalıdır [1]. İxrac edilən məhsulun istehsal prosesinin ahəngdarlığı və etibarlı şəkildə təmin edilməsi üçün əsas xammalların, digər mühüm yarımfabrikatların, məmulatların və detalların, avadanlıqların alternativ mənbələri və göndərənlərinin olması xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Pandemiya reallıqları göstərdi ki, dünya səviyyəsindəki proseslər qlobal xarakter daşısa da, antiböhran şəraitində dünya dövlətləri milli maraqlar, milli təhlükəsizlik kontekstində məcburi addımlar atmaqdan belə çəkinmirlər, sərhədləri bağlayırlar, məhdudiyyətlər tətbiq edirlər, nəqliyyat vasitələrinin hərəkətləri minimuma endirilir və s.

Bütün bunlar nəzərə alınmaqla ixrac potensialının alternativ manevr imkanları formalaşdırılmalı və xarici tərəfdaşlarla qeyri-sabit şəraitdə anlaqlı şəkildə fəaliyyətin təşkili mexanizmləri və istiqamətləri müəyyənləşdirilməlidir. Məhz bu proseslərdə logistika strategiyasının rolu və funksiyası mühüm səmərə verə bilər, yəni maliyyə və xammal axınlarının vahid konseptual yanaşmalar və fəaliyyət strategiyasının əsaslandırılması şərti ilə reallaşdırılması, itkilərin azaldılması, fəaliyyət zənciri üzrə xərclərin minimuma endirilməsi və optimallaşdırılması, emal proseslərinin məhsuldarlığının artırılması, maksimum likvid məhsullalrın istehsal olunması və xarici bazarların tələblərinə, standartlarına uyğun olaraq rəqabət qabiliyyətli və ixracyönlü məhsulların istehsalının dinamik olaraq təşkil edilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır [2].

Qeyd edək ki, logistika və logistika sisteminin mühüm aspektləri, iqtisadi mahiyyəti və məzmunu üzrə əsas yanaşmalar və prinsiplər, meyarlar bunlardan ibarətdir: 1) Logistika – logistika zəncirinin idarəetmə stukturunun əsas elementi kimi material və informasiya axınlarını, həmçinin logistika zənciri üzrə keçən pul vəsaitlərinin hərəkətini, istifadəsini koordinasiya edir; 2) Logistika sistemi – müəssisənin canlı orqanizm kimi fasiləsiz işləyən bir fəaliyyət sahəsidir və müəssisənin qarşısında duran strateji məqsədlərə çatmasında əhəmiyyətli rola malikdir; 3) Logistika – iqtisadi mahiyyətinə və məzmununa görə mal hərəkətləri axınının və ehtiyatlarının idarə edilməsindən ibarətdir; 4) Logistika – material resurslarının idarə edilməsi üzrə inteqral sistemdir; 5) Logistika – material və qeyri-material əməliyyatları, xammal və materialların istehsal müəssisələrinə və hazır məhsulun istehlakçılara çatdırılması üzrə nəqliyyat, anbar və digər proseslərin idarəetmə sistemidir; 6) Logistika – xammal və material axınlarının sistemli şəkildə idarə edilməsi elmidir, həm də bu sahədəki praktiki fəaliyyəti özündə birləşdirir; 7) Logistika – mal və material axınlarının hərəkəti üzrə maliyyə və digər əməliyyatları idarə edən bir sistemdir; 8) Logistika sistemi – müəssisənin yük axınlarının hərəkətinin idarə edilməsi üzrə ayrı-ayrı təsərrüfat strukturlarının və bölmələrinin məcmu

fəaliyyət sistemidir; 9) Logistika – qlobal sistemdə mal axınlarının idarə edilməsinə müsbət əsaslı ritm formalaşdırır, xammal və materialların müştərilərə çatdırılması proseslərindəki baryerləri maneəsiz keçməyə imkan verir; 10) Logistika sistemi – material, informasiya və maliyyə axınlarının optimallaşdırılması, bunların əsasında xərclərin minimuma endirilməsi üzrə proseslərin idarəetmə sistemidir; 11) Logistika – iqtisadiyyatın bir sferası olub, təminatın, istehsalın, bölgünün, nəqliyyatın, tələbin və istehlakın qarşılıqlı təsnifini və əlaqəsini əks etdirir; 12) Logistika – bazar iqtisadi sistemində material, əmək, maliyyə və informasiya axınlarının hərəkəti prosesinin planlaşdırılması, təşkili, funksional idarə edilməsi və nəzarətilə baglı nəzəri və praktiki fəaliyyət sahəsidir; 13) Logistika – kompleks fəaliyyət sahəsi kimi - həm də bir elm sahəsi kimi çıxış edir. Burada xammal axınlarının, materialların və hazır məhsulların hərəkətinin təşkili, onlardan istifadənin səmərəliliyi və idarə edilməsi prosesləri reallaşdırılır; 14) Logistika – bazar iqtisadiyyatı şəraitində material resurslarının vaxta və məkana görə yer dəyişməsi üzrə fəaliyyətinin bütün növlərini əhatə edir. Logistikanın funksiyaları istehsalın və material resurslarının bütün mərhələlərində həyata keçirilir. Onun başlıca məqsədi tələbin ödənilməsi, yüklərin vaxtında və daha az xərclə daşınmasının təmin edilməsi üçün material ehtiyatlarının və informasiya axınının səmərəli idarə edilməsidir; 15) Logistika – məhsul və mal istehsalçıları ilə onların istehlakçıları arasında olan iqtisadi maraqları özündə birləşdirən bir fəaliyyət sahəsidir. Logistika strategiyası əsasən müəssisədə çəkilən xərclərin azaldılması üzərində formalaşdırılır; 16) Logistika sistemi – bazar iqtisadiyyatı şəraitində material axınlarının hərəkətinin idarə edilməsi sistemidir və s.

Digər tərəfdən, logistika – iqtisadiyyatın tənzimləmə mexanizmi daxilində istehsal və istehlak sferalarının **işinin** fasiləsizliyinə, səmərəliliyinə, yüksək xidmət səviyyəsinə və strateji inkişafına təminat yaradan, rəqabət mühitinə tab gətirən, mikro və makroiqtisadi səviyyələrin sintezində menecmentin bütün metodlarını və funksiyalarını həyata keçirən prosesdir. Belə bir qənaətə gəlmək olar ki, logistika sisteminin iqtisadi mahiyyəti və nəzəri aspektləri üzrə dünya tədqiqatçılarının yanaşmalarına, elmi əsərlərinə və mülahizələrinə, həmçinin ölkəmizdə problemin öyrənilmə səviyyəsinə baxdıqda görürük ki, dövrümüzdə logistika **və** logistika sisteminin müasir iqtisadi mahiyyəti, iqtisadi məzmunu daha dərindən, ilk növbədə, praktiki proseslərin maksimum səmərəliliyi kontekstindən araşdırılmalıdır. Lakin logistika sisteminin iqtisadi mahiyyəti, iqtisadi məzmunu və bununla əlaqədar fəaliyyət mexanizmlərinin baxılması məsələsi gələcəkdə logistika sisteminin iqtisadi-təşkilati problemlərinə metodiki yanaşmalar və onların xüsusiyyətləri kompleks şəkildə **öyrənilməlidir**.

Logistika ölkəmiz üçün nisbətən yeni formalaşdırılan və eyni zamanda bazar iqtisadiyyatı prinsiplərinin dərinləşdiyi şəraitdə kifayət qədər mühüm xarakterizə olunan fəaliyyət sahələrindəndir. Belə ki, nəqliyyat strukturunun fəaliyyəti daxilində bu və ya digər formada logistika sisteminə aid olan funksiyalar mütəmadi olaraq yerinə yetirilmiş və hazırda da davam etməkdədir. Bundan başqa, iri müəssisələrin hər birində nəqliyyat, təchizat və satış kommersiya – marketinq funksiyalarını həyata keçirən struktur bölmələri fəaliyyət göstərirlər. Lakin bunlar heç də bütövlükdə logistika sisteminin kompleks, planlı və sistemli şəkildə yerinə yetirə biləcəyi funksiyaları və fəaliyyət dairəsini əhatə etmək iqtidarında deyildir. Buna görə də logistikanın fəaliyyət mexanizmlərini və prioritet istiqamətlərini, mühüm meyarların və prinsiplərin müəyyənləşdirilməsi, istifadə olunması və tətbiqi mexanizmləri müstəsna rol oynayır. Bu işdə, logistika fəaliyyətinin qanunvericilik bazasının mükəmməlliyi və təkmil olması onun mürəkkəb və çoxfunksiyalı komponentlərinin tətbiqi və reallaşdırılmasında əhəmiyyətli rola malikdir. Belə ki, korporativ idarəetmə sistemində hər bir fəaliyyət sahəsinin müəyyən standartları, normativləri və qaydaları hazırlanır və təsdiq olunur. Bunlarla yanaşı, mövcud qanunlar və qanunvericilik aktları, səlahiyətli mərkəzi orqanların ayrı-ayrı qərarları qanunvericilik aktları kimi baxıla bilər və bu baxımdan logistika sisteminin fəaliyyətinin təşkili, tənzimlənməsi və reallaşdırılması proseslərinin qanuni əsaslarının işlənib hazırlanması və tətbiqi daim diqqət mərkəzində olmalıdır. Logistika sisteminin ayrı-ayrı elementləri üzrə qəbul edilmiş qanunlar və qanunvericilik aktları (satınalmalar, satış auksionları, nəqliyyat fəaliyyəti, sığorta fəaliyyəti və s.) mövcuddur, amma bunlar müasir reallıqları əks etdirmir, logistika sisteminin fəaliyyəti ilə bağlı mürəkkəb şəraiti, çoxfunksiyalılıq prinsiplərini real olaraq tənzimləmək iqtidarında deyildir. Logistika fəaliyyətinin qanunvericilik bazasının dünya təcrübəsi əsasında baxılması və nəzərə alınması vacib şərtlərdəndir. Belə ki, artıq ölkəmizdə logistikanın inkişafına dair strateji yol xəritəsi icra olunmaqdadır [3]. Başlıca hədəflər sırasında logistika sisteminin inkişafı hesabına ölkə ÜDM-nün

həcminin artırılması, məşğulluğun gücləndirilməsi və daha çox investisiyaların cəlb olunmasıdır. Belə ki, logistika fəaliyyəti hazırda ölkəmizdə strateji iqtisadi hədəflərin yerinə yetirilməsində və davamlı iqtisadi inkişafa nail olmaqda vacib fəaliyyət sahələrindən biri kimi baxılır. Reallıqda isə logistika sistemi rəqabətli, şaxələndirilmiş, inklüziv və dayanıqlı iqtisadiyyatın qurulması proseslərinin mühüm komponenti və tərkib hissəsi kimi xarakterizə edilir. Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsi məqsədilə 3 mlrd. manatdan çox investisiyaların yatırılması gözlənilir. Belə ki, Ələt qəsəbəsində yerləşən yeni Bakı liman kompleksi artıq fəaliyyət göstərir və öz imkanlarını genişləndirməkdədir. Bakı-Tbilisi-Qars beynəlxalq dəmiryolu marşrutu istismara verilmişdir. Bu kimi layihələrin tamamlanması, istismara verilməsi, logistika sistemində və milli iqtisadiyyatın yeni inklüziv fəaliyyət istiqamətlərindən biri kimi bu sahədə logistik əməliyyatların genişləndirilməsi və təkmilləşdirilməsinə imkan vermişdir. Bakının regional əhəmiyyətli ticarət qovşağına çevrilməsi, bu məqsədlərlə dünya təcrübəsində özünü doğrultmuş fəaliyyət nümunələri, metodları və yanaşmaları əsas götürülməklə Bakı və onun ətrafında, həmçinin ölkənin müxtəlif regionlarında müasir texnologiyalar əsaslı inkişaf etmiş logistika mərkəzlərinin yaradılması, bu sahədə özəl sahibkarlığın inkişafının sürətləndirilməsi əsas fəaliyyət istiqamətləri kimi müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, dünyanın əsas və iri sənaye kompaniyalarında, sənaye müəssisələrində logistika sistemi inkişaf etmiş və kompleks fəaliyyət göstərən struktur bölmələrindən biri kimi fəaliyyət göstərir. Bu baxımdan logistika sisteminin kompleks və səmərəli təşkili sənaye müəssisəsinin əmtəə istehsalının sabit təşkilinə, istehsalın həcminin artırılmasına və ümumilikdə, müəssisənin uğurlu fəaliyyətinə, gəlirlə işləməsinə 15-20 % səviyyəsində təsir göstərmək potensialına malikdir. Ölkədə güclü qanunvericilik bazası, ilk növbədə, logistika mərkəzlərinə və logistika sisteminin inkişafına investisiya qoyuluşlarının intensivləşdirilməsi, xarici investorların bu sahələrə fəal cəlbinin stimullaşdırılması, logistika sisteminin inkişafı ilə bağlı mexanizmlərin və strateji yanaşmaların aydın və şəffaf formada təşkili ilə bilavasitə bağlıdır. Logistika sahəsində qanunvericilik, ümumilikdə, logistika zənciri üzrə proseslərin və logistik əməliyyatların həyata keçirilməsi mexanizmlərinin səmərəliliyinə imkan verməlidir. Strateji Yol Xəritəsi logistika və ticarət sahəsində iqtisadi inkişaf üzrə Azərbaycanın 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri müəyyən olunmuşdur. Bundan başqa, regionda fəaliyyət göstərən xarici şirkətlərin Bakıda baş ofislərinin yaradılmasını təşviq etmək üçün məqsədyönlü tədbirlər görülməkdədir və biznes fəaliyyətinin asanlaşdırılması yolu ilə bu işlərin həyata keçirilməsinə nail olunmaqdadır. Şübhəsiz, kommunal xidmətlərə çıxışın olması, əlverişli biznes mühiti, idxal-ixrac əməliyyatlarının aparılması üzrə sərfəli şərtlərin olması və zəruri kadrlar bazası beynəlxalq təcrübəyə uyğun şəraitin yaradılmasına imkan verəcəkdir. Müvafiq sektorlarda rəqabətqabiliyyətliliyi getdikcə artan uğurlu yerli şirkətlər şəbəkəsinin formalaşdırılması məqsədilə yerli şirkətlər həmin regiona yönləndiriləcəkdir. Belə bir vacib məsələni göstərmək lazımdır ki, Azərbaycanda ümumilikdə biznes üçün logistika və təchizat zəncirinin təşkilində və onun qanunvericilik bazasının gücləndirilməsində hələlik ləngliк müşahidə olunur. Belə ki, son illərdə ayrı-ayrı müəssisələrdə, o cümlədən kimya müəssisələrində, bütövlükdə ölkəmizdə logistika sisteminin inkişafına diqqət xeyli artmışdır və artıq bu istiqamətdə əhəmiyyətli tədbirlər görülməkdədir. Bununla belə, Dünya Bankının hər il üçün hazırladığı “Logistics Perfomance Index” (LPI) reytinq cədvəlində ölkəmiz nəqliyyat və logistika göstəricilərinə görə ilk 50-100 ölkə arasında yer almamışdır. Ölkəmizdə artan tələbi qarşılamaq üçün köhnə şəbəkə və infrastrukturu yeniləmək və dünyada olan yenilikləri, təcrübələri Azərbaycana da tətbiq etmək üçün əlverişli şərait və imkan mövcuddur. Ölkəmizdə “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının Qanunu 11 iyun 1999-cu ildə qəbul olunmuşdur [4]. Bu qanun vasitəsi ilə daşıma və yükdaşıma şərtləri, nəqliyyat vasitələrindən istifadə məsələləri, nəqliyyat sahəsində mülkiyyət münasibətləri, dövlət tənzimlənməsi məsələləri, nəqliyyat sektorunda fəaliyyətin əsasları, nəqliyyat-ekspedisiya xidmətləri tənzimlənir. Nəqliyyat haqqında və nəqliyyat vasitələrində istifadənin tənzimlənməsi məsələləri üzrə qanunvericilik bazasının güclü olması logistika sisteminin fəaliyyətinin mövcud qanunvericilik əsasında formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə Azərbaycandan Türkiyəyə, oradan isə Avropaya uzanan neft və qaz nəqli marşrutları, digər kommunikasiyalar ölkəmizin güclü logistik sistemə malik olmaq imkanlarından xəbər verir. Ümumiyyətlə, ölkəmizdə nəqliyyat-logistik potensialından regional və beynəlxalq səviyyədə,

eyni zamanda müəssisələr səviyyəsində maksimum səmərəli istifadə edilməsi məsələlərinin gücləndirilməsinə böyük ehtiyac vardır. Belə ki, səmərəli nəqliyyat sistemi, optimal logistika sturkturu, mobil nəqliyyat vasitələri xarici ticarət fəaliyyətinin gücləndirilməsində və iştirakçıların sayının artırılmasında başlıca amillərdən hesab olunur. Hesab edirik ki, yaxın perspektivdə Zəngəzur beynəlxalq nəqliyyat dəhlizinin açılması hesabına bu istiqamətdə potensial xeyli genişləndiriləcəkdir.

Qeyd edək ki, logistik fəaliyyətin əksər hissəsi həm də kommersiya əməliyyatları və kommersiya funksiyaları ilə sıx əlaqəlidir. Respublikamızda kommersiya əməliyyatlarının və bu əməliyyatların iştirakçıları üçün cəlbedici, qanunlar çərçivəsində olması məqsədilə, kommersiya sirlərinin qorunması, əmtəə və xidmətlər üzrə satınalma müqavilələrinin hüquqi-normativ əsaslarının qorunması vacib məsələlərdəndir. Bu baxımdan, 4 dekabr 2001-ci ildə qəbul edilmiş “Kommersiya sirri haqqında” Azərbaycan Respublikasının Qanunu mühüm əhəmiyyət kəsb edir [5]. Logistika sisteminin müxtəlif mərhələlərində və logistika əməliyyatlarının keçirilməsində kommersiya yönümlü fəaliyyət əsas tələb olunan fəaliyyət sahələrindən və mexanizmlərindədir. Logistika sisteminin əsas fəaliyyət dairəsi və əhatəsi əmtəə və xidmətlərlə bağlıdır. Respublikamızda bununla bağlı məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2003-cü il tarixli Qərarı ilə təsdiq edilmiş “Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi” əsasında tənizmlənir və sənədləşdirilir [6]. Belə ki, bu cür tənzimləmə dövlət müəssisələrinə aiddir. Logistika fəaliyyətinin qanunvericilik bazasının gücləndirilməsi proseslərində bir sıra prinsiplərə və meyarlara diqqət yetirilməlidir: 1) ölkədə mal və material resurslarından milli iqtisadi maraqlar çərçivəsində istifadə olunması; 2) emal şəbəkəsinin yaradılması; 3) rəqabətqabiliyyətli və ixrac potensiallı emal müəssisələrinin işinin məhsuldar təşkili üçün yerli xammal resursları ilə bərabər, kənardan xammal axınlarının ölkəyə gətirilməsi prinsipləri əsasında logistik fəaliyyətin təşkili; 4) logistika sistemlərinin yaradılması və inkişafı ilə bərabər olaraq ölkənin sərhədyanı zonalarında, liman komplekslərində, emal perspektivli iri xammal mənbələrinin yaxınlığında və yaxud, Sumqayıt kimi nəhəng potensiala malik sənaye mərkəzində logistik infrastrukturun və logistik mərkəzlərin yaradılması və s. Bu amillər baxımından qanunvericilik aktları və hüquqi baza investorlar, sahibkarlar və logistik fəaliyyətin bütün iştirakçıları üçün cəlbedici və səmərəli olmalıdır. Bunlar əsas götürülməklə, həmçinin dünya təcrübəsi nəzərə alınmaqla, Azərbaycanda “Logistik fəaliyyətin təşkili və inkişaf etdirilməsi haqqında” Qanununun işlənib hazırlanması və qəbul edilməsi daha çox səmərə verə bilərdi. Belə bir qanunun qəbul edilməsi respublikamızda logistika fəaliyyətinin daha da intensivləşməsinə yeni imkanlar yaratmaqla yanaşı, bu fəaliyyət sahəsinin iştirakçılarının iqtisadi fəallığının artmasına, bu sahədə infrastruktur obyektlərinin şəbəkəsinin genişləndirilməsinə, yeni iş yerlərinin açılmasına və iqtisadiyyatın əlavə dəyər yaradan mənbələrinin formalaşdırılmasına, son illərdə yaradılan nəqliyyat və logistika infrastrukturundan maksimum məhsuldar istifadə olunmasına imkan verəcəkdir. Məsələn, Sumqayıt Sənaye Mərkəzində logistika infrastrukturunun gücləndirilməsi vacibdir, belə ki, bu sənaye mərkəzi təkcə Azərbaycanda yox, regionda iri sənaye mərkəzlərindən, eyni zamanda güclü kimya və neft-kimya mərkəzlərindən hesab olunur [7].

## YEKUN

Beləliklə, artıq keçən illər ərzində ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq qurumlarla əməkdaşlıq yönündə xeyli işlər görülmüş və müsbət nəticələr əldə edilmişdir. Bütün bunlar qeyri-neft ixracının artımına imkan verən amillər kimi dəyərləndirilə bilər. Yaxın perspektivdə qeyri-neft ixrac potensialının artırılması istiqamətində logistika-ticarət sisteminin imkanlarından istifadəyə daha çox üstünlük veriləcəyini proqnozlaşdırmaq olar və bu amillərin nəzərə alınması vacibdir:

- yeni yaradılan Ələt Azad İqtisadi Zonasının və Ələt Beynəlxalq Ticarət Dəniz Limanının imkanlarından maksimum istifadə etmək hesabına ticarət-logistika sisteminin inkişafının sürətləndirilməsi;
- Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi kimi iqtisadi inteqrasiya əlaqələrinin daha da genişləndirilməsi və s.

**Açar sözlər:** *qeyri-neft sektoru, ixrac potensialı, qeyri-neft sektorunun ixrac potensialı, logistika sistemi, ticarət sistemi, logistika-ticarət sistemi, logistika-ticarət sisteminin strateji aspektləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. *Logistics vision 2020 Delonite/Cefic, 2011-s 40. - www.cefic.orq.chemical.*
2. *Matthew A.Waller, Stanley E.Fawcett.The Total Cost Consept of logistics: One of Many Fundamental*

*logistics concepts Beggin Bor Anwers/ Journal of Bussines logistics, issue 1, 2012, 33(1). p.1–3.*

3. *Azərbaycan Respublikasının Logistika və Ticarətin* İnkişafına *dair Strateji Yol Xəritəsi. AR Prezidentinin 06 dekabr 2016-cı il tarixli fərmanı B, 2016- 67 s.*

4. *"Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 11 iyun 1999-cu il.*

5. *"Kommersiya sirri haqqında" AR Qanunu. Bakı, 04.12.2001-ci il, №224.*

6. *Azərbaycan Respublikası Nazirlər Kabinetinin mallar* üzrə *satınalma müqavilələrinin nümunəsinin təsdiq edilməsi haqqında Qərar. Bakı, 28.02.2003.*

7. Алиев*, Т.Н Инновационное развитие промышленности Азербайджана: нефтепереработка, химия и нефтехимия.* Москва-Берлин, 2016, *232 с.*

## РЕЗЮМЕ

## СТРАТЕГИЧЕСКИЕ АСПЕКТЫ ЛОГИСТИКО-ТОРГОВОЙ СИСТЕМЫ В ПОВЫШЕНИИ ПОТЕНЦИАЛА НЕНЕФТЯНОГО ЭКСПОРТА АЗЕРБАЙДЖАНА

В статье рассматриваются стратегические аспекты логистико-торговой системы в повышении потенциала ненефтяного экспорта в новых условиях. Раскрывается сущность и проблемы обеспечения эффективности экспорта ненефтяной сферы экономики. Анализируются возможности расширения логистико-торговой системы с целью повышения объёма и расширения структуры ненефтяного экспортного потенциала. Обоснована необходимость разработки и реализации новых механизмов по продуктивному использованию транзитных возможностей Азербайджана. Рассмотрено эффективное использование потенциала международных логистико-торговых маршрутов для повышения потенциала ненефтяного экспорта. Подготовлены рекомендации и даны предложения по усилению роли логистико-торговой системы страны в повышении потенциала ненефтяного экспорта Азербайджана.

**Ключевые слова:** ненефтяной сектор, экспортный потенциал, экспортный потенциал ненефтяного сектора, система логистики, система торговли, логистико-*торговая система, стратегические аспекты* логистико-*торговой системы.*

## SUMMARY

## STRATEGIC ASPECTS OF THE LOGISTICS AND TRADE SYSTEM IN ENHANCING THE POTENTIAL OF NON-OIL EXPORT OF AZERBAIJAN

The strategic aspects of the logistics and trade system in increasing the potential of non-oil exports in the new conditions are considered in the article. The essence and problems of ensuring the efficiency of exports of the non-oil sector of the economy are disclosed. The possibilities of expanding the logistics and trade system in order to increase the volume and expand the structure of non-oil export potential are analyzed. The need to develop and implement new mechanisms for the productive use of Azerbaijan's transit capabilities is justified. Effective use of the potential of international logistics and trade routes to increase the potential of non-oil exports is considered too. Recommendations and proposals to strengthen the role of the logistics and trade system of the country in increasing the potential of non-oil exports of Azerbaijan are given in the end of the article.

**Keywords:** *non-oil sector, export potential, export potential of non-oil sector, logistics system, trade system, logistics-trade system, strategic aspects of logistics-trade system.*

UOT: 338.4:338.012

# AZƏRBAYCANDA EMAL SƏNAYESİNİN İQTİSADİ İNKİŞAF PROSESLƏRİNDƏ ROLU VƏ STRATEJİ ƏHƏMİYYƏTİ

**GÜLƏNDAM İSMAYILOVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

*E-mail: ismayilovagulendam@gmail.com*

Son illərdə Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas vəzifələrdən biri yeni müəssisələrin yaradılması, yüksək keyfiyyətli və məhsuldar iş yerlərinin təmin edilməsidir. Bu baxımdan ölkənin sənaye sektorunun əsas sahələrindən biri olan emal sənayesinin daha da inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir. Azərbaycanda emal sənayesinin iqtisadi inkişafda rolunun və strateji əhəmiyyətinin artırılması üçün həmin sənaye istehsalının səmərəliliyinin yüksəldilməsi yollarının müəyyən edilməsi və əsas istiqamətlərin aydınlaşdırılması vacibdir. Emal sənayesinin inkişafı respublikamızda prioritet vəzifələrdən biridir ki, bu da, əhalinin məşğulluğunun və həyat səviyyəsinin, yerli büdcənin gəlir potensialının yüksəldilməsinin təmin edilməsi baxımından əhəmiyyətlidir.

Emal sənayesi öz əhəmiyyətinə və miqyasına görə istənilən dövlətin ən mühüm sənaye sahələrindən biridir. Azərbaycanın iqtisadiyyatında emal sənayesinin əhəmiyyəti xüsusilə böyükdür. Çünki Azərbaycan, bu sənayenin geniş inkişafı üçün böyük imkanlara, şəraitə və xammal bazasına malikdir. Azərbaycan özünün tarixi xüsusiyyətlərinə və iqtisadi idarəetmə ənənələrinə görə emal sənayesinin inkişafı və rəqabət qabiliyyətinin artırılması üçün kifayət qədər böyük resurslara malikdir. Emal sənayesi müəssisələrinin yerləşdirilməsi və inkişafı mövcud ənənələrə görə, əsasən, respublikanın iri şəhərlərində cəmləşmişdir. Mövcud əsas fondlar emal sənayesinin gələcək inkişafı üçün əsas resurslardır və onların keyfiyyəti məhsulların rəqabət qabiliyyətini müəyyən edir. Emal sənayesinin ölkə iqtisadiyyatına və demoqrafik problemlərin həllinə böyük töhfəsi nəzərə alınaraq, bu sahəyə dövlət dəstəyi ölkənin inkişafının makroiqtisadi göstəriciləri nəzərə alınmaqla optimallaşdırılmalıdır.

Məlumdur ki, bütün məqsədyönlü insan fəaliyyəti səmərəlilik problemi ilə əlaqələndirilir. Bu konsepsiyanın əsasında məhdud resurslar, vaxta qənaət, mövcud resurslardan mümkün qədər çox məhsul əldə etmək anlayışları dayanır. Səmərəlilik problemi həmişə seçim problemidir. Seçim nə istehsal olunacağı, hansı növ məhsulların istehsal ediləcəyi, onların necə bölüşdürüləcəyi, cari və gələcək istifadə üçün nə qədər resursdan istifadə ediləcəyi ilə bağlıdır. Səmərəlilik səviyyəsi əmək şəraitinin yaxşılaşdırılması, inflyasiyanın azaldılması, həyat səviyyəsinin yaxşılaşdırılması, sürətli iqtisadi artım kimi bir sıra sosial və iqtisadi məsələlərə təsir göstərir. İstehsal prosesinin səmərəliliyi məhsulun məsrəflərə nisbəti kimi qəbul edilir. İqtisadi səmərəlilik əsas sosial-iqtisadi kateqoriyadır və dinamik, tarixi xüsusiyyətləri ilə xarakterizə olunur. İqtisadi fəaliyyətin səmərəliliyi bütövlükdə cəmiyyətin məhsuldar qüvvələrinin müxtəlif inkişaf səviyyələrinə aiddir. Sosial inkişafın bütün mərhələlərində hansı məsrəflər və vasitələr hesabına son istehsal nəticəsini necə əldə etmək həmişə sual doğurmuşdur. Son nəticəni maksimuma çatdırmaq və ya xərcləri minimuma endirmək fərdin və cəmiyyətin birinci məqsədidir [1, s.25]. Bu baxımdan, emal sənayesinin başlıca vəzifələrindən biri ən az xərclə və maksimum məhsul istehsalını həyata keçirməklə cəmiyyətin tələbatlarını ödəməkdir.

Məlumdur ki, respublikanın strateji əhəmiyyətli sektoru iqtisadiyyatın aqrar sektorunun inkişafına təsir göstərən emal sənayesidir. Emal sənayesinin əsas sahələrindən biri məhz aqrar sənayedir. Aqrar sənayenin, xüsusilə onun ixracyönümlü sahələrinin stimullaşdırılması və tarazlı inkişafı yolu ilə dövlət tərəfindən tənzimlənməsi emal sənayesinin səmərəliliyinin və rəqabətqabiliyyətinin artırılması probleminin həllinin ən mühüm şərtidir. Aqrar və emal sənayesi məhsullarının istehsalı və emalı daimi olaraq fəal dövlət tənzimlənməsinə ehtiyacı olan sahədir. Emal sənayesinin sabit inkişafı üçün aqrar sənaye məhsullarının istehsalının həcminin artırılması və keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, onun emalının yaradılması və inkişafı zəruridir.

Emal sənayesinin dövlət tənzimlənməsinin mühüm alətlərindən biri klaster yanaşmasıdır. Emal sənayesində klasterlərin yaradılması və inkişafında dövlətin rolu aşağıdakılardan ibarətdir: 1) klasterlərin aktivləşdirilməsi proseslərinin dəstəklənməsi və başlanması; 2) klasterlərin inkişafı ilə bağlı qərarla-

rın qəbulunda hökumət nümayəndələrinin iştirakı; 3) biznes, təhsil və elmi-tədqiqat müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi üzrə fəal işin aparılması və 4) beynəlxalq əməkdaşlığın təşkili və investisiyaların cəlb edilməsi [2, s.124]. Ölkənin emal sənayesinin klaster əsasında səmərəli inkişafı üçün dövlət tənzimlənməsinin köməyi ilə aşağıdakı problemləri həll etmək lazımdır: 1) istehsal vasitələri ilə təminatda və ilk növbədə avadanlıqların idxalında dövlətin maliyyə dəstəyinin göstərilməsi; 2) regionlarda klasterlərin təhsil və elmi-tədqiqat infrastrukturunun yaradılması və inkişafı; 3) klasterlərin inkişafının ilkin mərhələlərində qarşılıqlı hesablaşmaların və qiymətqoyma proseslərinin dövlət tənzimlənməsi sisteminin, nəzarət prinsipləri əsasında uçot və hesabat sisteminin yaradılması və 4) məhsulların istehsalında texnoloji əlaqəli dəyər zəncirlərinə birbaşa və dolayı dövlət müdaxiləsi tədbirləri kompleksinin tətbiqi.

Emal sənayesində bazarın tələblərini nəzərə alaraq davamlı inkişafın yeni forma və üsullarının axtarışı tələb edilir ki, bunlar aşağıdakılar ola bilər: 1) kooperasiya və inteqrasiyanın vahid bazar sisteminin formalaşdırılması; 2) idarəetmənin perspektiv formalarının inkişafı; 3) idarəetmə sisteminin təkmilləşdirilməsi; 4) məhsulların çeşidinin şaxələndirilməsi və 5) ETT-nin nailiyyətlərindən geniş istifadəni nəzərə alaraq texnika və texnologiyaların yenilənməsi [3, s.228]. Azərbaycanda emal sənayesinin inkişafı investisiya qoyuluşlarından asılıdır. İnvestisiya qoyuluşlarının əsas prioritet istiqamətlərini müəyyənləşdirərkən, ilk olaraq, emal sənayesinin hansı sahələrinə istehsal vasitələrinin yönləndirilməsi və onun digər sahələrin inkişafı ilə bağlılığı nəzərə alınmalıdır. Emal sənayesinin inkişaf səviyyəsi öz növbəsində investisiyanın istiqamətinin müəyyənləşdirilməsinə əhəmiyyətli təsir göstərir. Emal sənayesində rəqabətqabiliyyətli məhsulların istehsalının stimullaşdırılması üçün bu sahəyə investisiyaların artırılması, gömrük siyasəti köməyi ilə optimal rəqabət rejiminin yaradılması, ixracyönümlü istehsalın genişləndirilməsi əsas şərtlərdəndir [4, s.23]. Azərbaycanda 2020-ci ildə emal sənayesinə 2610, 5 milyon manat investisiya qoyulmuşdur ki, bu da, tədqiq olunan dövrlər ərzində ən yüksək xüsusi çəkiyə malikdir. Bu artım 2010-cu illə müqayisədə 5,1 dəfə, 2015-ci illə müqayisədə 5,4 dəfə, 2019-cu illə müqayisədə isə 5,8% çoxdur. 2020-ci ildə emal sənaye müəssisələrinə yönəldilən investisiyalar ölkə üzrə bütün sənayeyə yönəldilən investisiyaların 28,8%-ni təşkil etmişdir ki, bu da tədqiq olunan dövrlər ərzində ən yüksək göstəricidir [5].

Ümumilikdə, emal sənayesinin investisiya potensialı digər iqtisadi fəaliyyət növləri ilə müqayisədə ən böyük potensiala malikdir. Odur ki, müasir şəraitdə emal sənayesinin investisiya potensialını lazımi səviyyədə saxlamaqla yanaşı, onu təkmilləşdirmək də vacibdir. Ona görə də biz aşağıdakı tədbirləri təklif edirik:

– emal sənayesinin inkişafı sahəsində islahatları daha tez və səmərəli həyata keçirmək. Çünki investorlar həyata keçirilən islahatların ölkədə investisiya mühitini yaxşılaşdıracağına böyük ümidlər bəsləyirlər;

– investisiya fəaliyyəti üçün sabit şəraitin qanunvericilik səviyyəsində möhkəmləndirilməsi;

– faiz dərəcəsinin azaldılması yolu ilə kredit siyasətinin təkmilləşdirilməsi, güzəştli əsaslarla uzunmüddətli kreditlər verəcək investisiya banklarının yaradılması;

– torpaq münasibətlərinin tənzimlənməsi üçün səmərəli normativ hüquqi baza yaradılması;

– emal sənayesinin səmərəli fəaliyyətinə kömək edəcək elektron informasiya məkanının yaradılması;

– elmtutumlu istehsal proseslərinin, rəqabətqabiliyyətli emal sahələrinin mükəmməl mexanizminin formalaşdırılması;

– emal müəssisələrinin innovativ fəaliyyətinin səmərəli şəkildə stimullaşdırılmasının təmin edilməsi;

– inflyasiyanın və inflyasiya gözləntilərinin davamlı şəkildə azaldılmasına yönəlmiş siyasətin aparılması və s.

Emal sənayesinin investisiya cəlbediciliyinin artırılması üçün daha rəqabətqabiliyyətli və nanotexnologiyalı sahələrə xüsusi diqqət yetirilməsi vacibdir. Emal sənayesində innovativ fəaliyyətə investisiya qoyuluşunun təkmilləşdirilməsi və stimullaşdırılması belə fəaliyyətlə məşğul olan müəssisələrin maraqlarının milli iqtisadiyyatın maraqları ilə uzlaşdırılmasına kömək etməlidir. Başqa sözlə, dövlət proqramlarının innovasiya və investisiya məqsədləri üçün emal sənayesinə daxil olan müəssisələrin və təsərrüfat subyektlərinin maraqlarının tam şəkildə əlaqələndirilməsi, bu əlaqələndirmədə səmərəli və stimullaşdırıcı mexanizmlərdən geniş istifadə olunmasına nail olmaq vacibdir. Emal sənayesinə daxil olan müəssisələrin və təsərrüfat subyektlərinin inki-

şafı üzrə dövlət proqramlarında innovasiya fəaliyyətinin inkişafı, bu sahəyə investisiya qoyuluşunun təmin edilməsi və onun normativ-hüquqi bazasının təkmilləşdirilməsi, daha geniş güzəştlərdən istifadə edilməsi kimi məsələlər əsas götürülməlidir [6, s.142].

Emal sənaye müəssisələrində investisiyaların idarə edilməsi sahəsində səmərəli strateji planlaşdırma sisteminin tətbiqi zəruridir ki, bu da mövcud problemləri sistemləşdirmək və strukturlaşdırmaqla yanaşı, sənaye kompleksinin tarazlı inkişafını təmin etmək üçün maliyyə vəsaitlərinin yatırılmasının ən səmərəli istiqamətlərini müəyyən edir. Emal sənayesində investisiya layihələrinin səmərəli şəkildə reallaşdırılmasının ən vacib şərti, müəssisələrinin kreditləşdirilməsidir ki, bu zaman əsas rol maliyyə-kredit təşkilatlarının üzərinə düşür. Kredit təşkilatlarının emal sənayesinə investisiyaların həcminin artırılmasına marağının təmin edilməsi çox aktual vəzifədir. Həm banklar, həm də istehsal müəssisələri maraqlı tərəflərin maraqlarını nəzərə almaqla biznesin dəyərini, əldə etdikləri mənfəətin həcmini artırmağa, əməliyyat risklərinin məqbul səviyyəsini təmin etməyə, şirkətlərinin müsbət işgüzar nüfuzunu qorumağa çalışmalıdır. Mənfəətin artırılması ən vacib taktiki maraqlardan biridir. Bu, onunla izah olunur ki, məhz mənfəət hesabına şirkətlərin inkişaf xərcləri, habelə mülkiyyətçilərə dividendlərin və ya digər gəlirlərin ödənilməsi maliyyələşdirilir [7, s.93].

Ümumiyyətlə, emal sənayesinin inkişafı xeyli dərəcədə proqnozlaşdırma və strateji planlaşdırmadan asılıdır. Proqnozlaşdırma və strateji planlaşdırma emalı sənayesini və bütövlükdə iqtisadiyyatı tənzimləmək üçün təsirli alətlərdir. Proqnozlaşdırma və strateji planlaşdırma alətlərindən istifadə etməmək emal sənaye müəssisələrinin normal fəaliyyətini və inkişafını mümkünsüz edir. Planlaşdırma, uzunmüddətli perspektivdə yaşamanı təmin edən idarəetmə qərarlarının hazırlanması üçün müxtəlif fəaliyyət subyektlərinin planlı işinin müasir modelidir. Planlaşdırma dövrünün birinci mərhələsi məlumatların toplanması və emalı, habelə planlaşdırılan qərarların mümkün variantlarının nəticələrinin qiymətləndirilməsini əhatə edən problemlərin müəyyən edilməsi və formalaşdırılmasıdır. Bunun əsasında planlı qərar qəbul edilir. İcra üçün qəbul edilmiş planın hər bir mərhələsi həyata keçirildikdən sonra əldə edilmiş nəticələr haqqında məlumat əks-əlaqə sistemi vasitəsilə planlaşdırma orqanına ötürülür. O, baş verənləri qiymətləndirir, yeni problemlər formalaşdırır və bu proses bütün planlaşdırma dövrü təkrarlanır. Problemlərin formalaşdırılması, planlaşdırılmış qərarların qəbulu və nəticələrin qiymətləndirilməsi həmişə müəyyən məqsədə çatmağa tabedir. Odur ki, emal sənayesində bütün idarəetmə subyektləri tərəfindən qəbul edilən qərarların elmi əsaslılığının və səmərəliliyinin artırılmasının mühüm vasitəsi olan planlaşdırma və proqnozlaşdırma daim inkişaf etdirilməli və təkmilləşdirilməlidir [8, s.22]. Azərbaycanda emal sənayesinin iqtisadi inkişafda rolunun və strateji əhəmiyyətinin artırılması üçün elmtutumlu və innovasiya təyinatlı məhsulların istehsalı stimullaşdırılmalıdır. Bununla yanaşı, innovasiya məhsullarının istehsalını və satışını təşkil etmək iqtidarında olan müvafiq emal sənaye müəssisələrinin yaradılması və satış bazarlarına çıxışının təmin edilməsi prosesləri sürətləndirilməlidir. Bütün bu proseslərin sürətləndirilməsi və yüksək standartlara malik elmtutumlu, innovasiya məhsullarının istehsalının təşkil edilməsi üçün daha fərqli və çevik mexanizmə malik iqtisadi vasitələrin tətbiq edilməsi zəruridir.

Aparılmış tədqiqatlar və mövcud prioritet istiqamətlərin əsasında Azərbaycanda elm tutumlu və innovasiya təyinatlı emal sənaye sahələrinin inkişafında xüsusi iqtisadi zonalardan istifadə olunması da əsas şərtlərdəndir. Emal sənayesinin xüsusi iqtisadi zonalardan istifadəsi aşağıdakılar baxımından əhəmiyyətlidir: 1) elmtutumlu və innovasiya təyinatlı xüsusi iqtisadi zonalar bu istiqamətdə nəzərdə tutulan elmi-tədqiqat işlərinin və onların emal sənayesinə tətbiqi proseslərinin təşkili üçün əlverişli iqtisadi mühit kimi çıxış edə bilir və 2) elmtutumlu və innovasiya təyinatlı xüsusi iqtisadi zonalar müəyyən güzəştlər sisteminə malik olmaqla mürəkkəb proseslərdən keçən yüksək texnologiyaların işlənməsi, hazırlanması və onların tətbiqi tsiklləri üzrə olan problemləri həll etmək qabiliyyətinə malikdir [9, s.197]. Sənaye istehsalını yeni yüksək texnoloji səviyyədə canlandırmadan iqtisadi inkişafın yüksək templərini təmin etmək mümkün deyil. Emal sənayesinin innovativ inkişafı təkcə innovasiyaların mənimsənilməsinin əsas prosesini deyil, həm də onun uğurla reallaşdırılması üçün zəruri olan amillər və şərtlər sisteminin formalaşmasını nəzərdə tutur. Ona görə də emal müəssisələrini yenidən qurarkən və ya modernləşdirərkən həm xammalın emal dərinliyinin artırılması proseslərinə, həm də tullantısız istehsala keçid proseslərinə fikir verilməlidir [10, s.28].

## YEKUN

Azərbaycanda müəssisələrin əhəmiyyətli hissəsi özəl mülkiyyətdədir və dövlət modernləşdirməni və rəqəmsal texnologiyalara keçidi həyata keçirən müəssisə və təşkilatların maliyyələşdirilməsində öz vəsaitləri hesabına iştirak edə bilər. Qabaqcıl istehsal müəssisələrini dəstəkləmək üçün dövlət-özəl tərəfdaşlıq formasında qarşılıqlı əlaqə prosesi lazımdır. Dövlət də öz növbəsində bu sahədə aşağıdakıları təmin edə bilər:

- innovativ texnologiyalara sərmayə qoyan sahibkarlıq subyektlərinə güzəştli verginin verilməsi;

regional investisiya fəaliyyətlərinə dəstək göstərilməsi;

- texnoloji proseslərin rəqəmsallaşdırılması layihələrini idarə edə bilən mütəxəssislərin hazırlanması.

- emal sənaye müəssisələrinə dövlət dəstəyi əmək məhsuldarlığının və məhsulun keyfiyyətinin artırılmasına, optimal gəlir səviyyəsinin və zəmanətli satışın təmin edilməsinə, idxal olunan məhsulların axınından qorunmağa yönəldilməlidir.

- kreditlərin əlçatanlığının, onların verilməsi və ödənilməsi mexanizmlərinin təmin edilməsi, habelə sənayedə sığorta sisteminin tətbiqi istiqamətində maliyyə-kredit təşkilatlarının fəaliyyətini əhəmiyyətli dərəcədə aktivləşdirmək də lazımdır.

- emal sənaye məhsullarının təşviqini və onların dərindən emalını təmin edən sənaye və bazar infrastrukturunun yaradılması da aktualdır və s.

**Açar sözlər:** *emal sənayesi, emal müəssisələri, emal sənayesinin inkişaf problemləri, emal sənayesinin iqtisadiyyatda rolu, emal sənayesinin strateji əhəmiyyəti, emal sənayesinin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Талайбек, У.Т. Роль кредита в повышении эффективности перерабатывающей промышленности / У.Т. Талайбек, Г.Аттокурова // Известия ВУЗов Кыргызстана. – 2017. № 10. – с. 24-26.*
2. *Мамасыдыков А.А., Абдиев М.Ж., Аттокурова Г.М. Совершенствование государственного регулирования и поддержки развития пищевой и перерабатывающей промышленности. Международный журнал социальных и гуманитарных наук. – 2017. –Т. 2. №3, – с.123-126.*
3. *Кадырбердиева, А.С. Социально- экономические преобразования оборотных и основных фондов в пищевой и перерабатывающей промышленности, их влияние на экономику / А.С. Кадырбердиева, Э.Ш. Сатылганова // Вопросы устойчивого развития общества. – 2020. № 10, – с. 226-234.*
4. *Əfəndiyev, S.Q. Azərbaycanın emal sənayesi müəssisələrinin iqtisadi inkişafda rolu və onun təkmilləşdirilməsi mexanizmləri. i.f.d. dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin avtoreferatı. Bakı, 2021, – 28 s.*
5. *Azərbaycanın statistika göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, – 752 s.*
6. *Sadıqov, İ. Qeyri-neft sektorunun investisiya təminatının artırılması. "Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu" mövzusunda Respublika elmi konfransı. Naxçıvan, 29 fevral 2020, s.139-142.*
7. *Полетаева, В.М. Определение оптимальных условий банковско-государственного финансирования промышленных предприятий / В.М. Полетаева, А.М. Смулов // Экономика. Информатика. – 2021. – Т. 48. № 1. – с. 89-99.*
8. *Голоктионова, Ю.Г. Стратегическое планирование как инструмент управления развитием промышленного предприятия / Ю.Г.Голоктионова, О.Б. Васильева, Д. Ю. Клочков // Научные Записки ОрелГИЭТ. – 2017. № 3(21). – с. 21-34.*
9. *Əliyev Ş.T. Azad iqtisadi zonalar. Sumqayıt Dövlət Universiteti, 2013, – 280 s.*
10. *Развитие перерабатывающей промышленности / Т.А. Исригова, А.Я. Ганакаев, Д.С. Таибова [и др.] // Известия Дагестанского ГАУ. – 2021. № 3(11). – с. 27-31.*

## РЕЗЮМЕ
## РОЛЬ И СТРАТЕГИЧЕСКАЯ ВАЖНОСТЬ В ПРОЦЕССАХ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

В статье исследованы роль и стратегическая важность в экономических процессах развития перерабатывающей промышленности в Азербайджане. С этой целью рассмотрены перспективы и потенциал развития отдельных сфер перерабатывающей промышленности. Исследованы факторы влияющие на развитие аграрного сектора, который имеет стратегическое значение в перерабатывающей промышленности. Обра-

щено внимание на кластерные образования в развитиии и регулировании перерабатывающей промышленности. Раскрыта роль кластеров в повышении эффективности перерабатывающей промышленности и расширение структуры производства. Кроме того, обоснованы важнейшие коорерационные и интеграционные факторы новой формы и способы развития перерабатывающей промышленности. Дана важность осуществления комплексных мероприятий по повышению инвестиционной привлекательности перерабатывающей промышленности. Обосновано обеспечение инновативного развития в моделировании перерабатывающей промышленности. Подготовлены рекомендации и даны предложения по ускорению развития перерабатывающей промышленности Азербайджана в ближайшей и долгосрочной перспективе.

**Ключевые слова:** *перерабатывающая промышленность, перерабатывающии предприятия, проблемы развития перерабатывающей промышленности, роль перерабатывающей промышленности в экономике, стратегическая важность перерабатывающей промышленности, перспективы развития перерабатывающей промышленности.*

**SUMMARY**

**THE ROLE AND STRATEGIC IMPORTANCE OF THE PROCESSING INDUSTRY IN AZERBAIJAN IN ECONOMIC DEVELOPMENT PROCESSES**

The article investigates the role and strategic importance of the processing industry in the economic development of Azerbaijan. Also, perspective and potential for development of a number of areas of the processing industry were considered. Factors influencing the development of the strategically important agricultural sector were studied. Attention was paid to the issues of state regulation of the processing industry and especially the cluster approach. The role of clusters in expanding the structure of production and increasing the efficiency of the processing industry were presented. In addition, new forms and methods of sustainable development, including cooperation and integration factors, are justified, taking into account market requirements in the processing industry. It was noted that measures should be taken to increase the investment attractiveness of the processing industry. Ensuring innovative development in modeling the development of the processing industry is substantiated. Recommendations and proposals were made to accelerate the development of the processing industry in Azerbaijan in the short term.

**Keywords:** *processing industry, processing enterprises, problems of development of processing industry, role of processing industry in economy, strategic importance of processing industry, perspective of development of processing industry.*

UOT 334.021:35

# QARABAĞIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ

**CƏMİLƏ QULİYEVA**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs magistrantı*

*E-mail: calalzadecamila@gmail.com*

Azərbaycanın əzəli və əbədi yurdu olan Qarabağ ərazisi 30 illik işğaldan sonra, nəhayət ki, Müzəffər Ordumuz sayəsində düşmən tapdağından azad edildi. Torpaqlarımızın azad edilməsi dövlət və millət qarşısında bu ərazilərin bərpası və dirçəldilməsi kimi mühüm bir vəzifə qoymuşdur. Dövlət tərəfindən Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə bağlı mühüm tədbirlər planı hazırlanmış və bir sıra mühüm qərarlar qəbul edilmişdir. İşğaldan azad edilmiş ərazilərimizin bərpası ilə bağlı Prezident İ.Əliyev demişdir: "Qarabağ ölkəmizin ən gözəl və bərəkətli regionlarından biridir. Bu regionun perspektivləri Azərbaycanın davamlı inkişafı üçün çox vacib olacaq. Regionun bərpası ilə bağlı bizi çox böyük işlər gözləyir. Biz bütün bu yerləri bərpa edəcəyik. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik" [1].

Qarabağın bərpası və inkişafı regionların sosial-iqtisadi inkişafında mühüm və tarixi əhəmiyyətə malik. Bu istiqamətdə görülən və görüləcək tədbirlərin qanunvericilik bazasının təkmilləşdirilməsi də vacib amillərdən biridir. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində verilmiş qərarlardan biri Prezident İlham Əliyev tərəfindən 2020-ci ilin noyabrın 24-də imzalanmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" sərəncamdır [3]. Sərəncamda qeyd edildiyi kimi, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin rəhbərliyi ilə Əlaqələndirmə Qərargahı yaradılmışdır. 2022-ci ilin 3 mart tarixində Prezidentin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" müvafiq sərəncamında dəyişikliklər edilmişdir.

İşğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində verilən qərarlardan biri də iqtisadi rayonların yeni bölgüsünün qəbul edilməsi olmuşdur. Belə ki, 2021-ci il iyulun 7-də imzalanmış "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Bu fərman tarixi sənəd hesab edilməlidir. Fərmanda göstərilir ki, regionların inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası bu sahədə işlərin davam etdirilməsini və daha çox yeniliklər əldə olunmasına uğurlu zəmin yaradır [3].

İşğaldan azad edilmiş ərazilərin bərpası hazırda zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı üçün genişmiqyaslı tədbirlərin görülməsini tələb edir. Bu da respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi istiqamətində görülən tədbirlərin mühüm tərkib hissəsini təşkil edir. Təsadüfi deyil ki, iqtisadi rayonların yeni bölgüsünü təsdiq edən fərmanda qeyd edilmişdir ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası zamanı yeni bölgü nəzərə alınmalıdır.

Qarabağın bərpası istiqamətində qəbul edilmiş qərarlardan biri 2021-ci ilin yanvarında "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında olan Prezident fərmanıdır. Həmin ilin 19 yanvar tarixli "Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" fərmanla bu fondun fəaliyyət planı, nizamnaməsi təsdiq edilmişdir. Fondun fəaliyyətinin əsas məqsədi və mühüm istiqaməti işğaldan azad olunmuş ərazilərdə bərpa, yenidənqurma və dayanıqlı inkişafını təmin etmək üçün maliyyə dəstəyi göstərmək, həmçinin, sərmayələrin cəlb olunmasını həyata keçirmək, eləcə də bu istiqamətdə fəaliyyətin effektiv təşkili məqsədilə təbliğat-təşviqat və maarifləndirmə işi aparmaqdan ibarətdir [8].

2021-ci il iyunun 15-də Şuşada imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respubli-

kası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” də tarixi-siyasi əhəmiyyətilə yanaşı, həm də işğaldan azad edilmiş ərazilərimizin bu və ya digər dərəcədə inkişafına şərait yaradan beynəlxalq hüquqi sənəddir. Bəyannamədə ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyəti vurğulanmışdır. Burada göstərilir ki, müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə hər iki dövlətin fəaliyyətləri qarşılıqlı şəkildə əlaqələndirilməlidir [4].

Şuşa Bəyannaməsində Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması üçün birgə fəaliyyət nəzərdə tutulmuşdur. Bu istiqamətdə görüləcək tədbirlərdən biri də minalanmış ərazilərin təmizlənməsi sahəsində ortaq fəaliyyətdir. Bu tarixi-hüquqi sənəddə əks edilmiş mühüm məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması və bu dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin reallaşdırılmasıdır.

İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində quruculuq və bərpa işlərinin sürətləndirilməsi, bunun üçün operativliyin və səmərəliliyin artırılmasını təmin etmək məqsədilə qəbul edilmiş qərarlardan biri də bu ərazilərdə xüsusi nümayəndəliklərin təsis olunmasıdır. Belə ki, 2021-ci ilin 19 yanvar tarixində “İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında” ölkə başçısı tərəfindən fərman imzalanmışdır. Buna uyğun olaraq işlər davam etdirilməkdədir.

2021-ci ilin dekabrında “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Prezident tərəfindən sərəncam verilmişdir. Bu sərəncamın qəbul edilməsində əsas məqsəd işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılmasıdır. Sərəncamda görülməsi nəzərdə tutulan tədbirlərin əsas istiqamətləri aşağıdakılardan ibarətdir: [3]

- işğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi;
- işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi;
- işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsi;
- müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsi, habelə əmək miqrasiyası kvotasının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi;
- işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi;
- işğaldan azad edilmiş ərazilərdə ekoloji təmiz texnologiyaları tətbiq edən, “yaşıl artım” yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi;
- işğaldan azad edilmiş ərazilərdə yaşayış massivlərinin inşası ilə bağlı dövlət–özəl sektor tərəfdaşlığının inkişafı.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də Qarabağ ərazisinin dirçəldilməsi ilə bağlı mühüm məsələlər öz əksini tapmışdır. Bu sənəddə azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasının, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin Azərbaycanın inkişafına böyük töhfə verəcəyi qeyd edilmişdir.

44 günlük Vətən müharibəsinin yekunu olaraq Müzəffər Ordumuzun şücaəti nəticəsində torpaqlarımız düşmən tapdağından azad edilərək Azərbaycanın ərazi bütövlüyü təmin edilmişdir. Dövlət sərhədlərinin bərpa olunması Azərbaycanın hərbi və diplomatik zəfəri idi. Sözsüz ki, bu tarixi qələbənin təminatı və tamamlanması üçün doğma torpağından didərgün düşmüş soydaşlarımızın Vətənə qayıdışı

baş tutacaqdır. Sözügedən sənəddə Böyük Qayıdışın əhəmiyyəti bir daha vurğulanaraq qeyd edilmişdir ki, vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə məskunlaşması bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında körpü rolunu oynayacaqdır.

Şübhəsiz ki, Böyük Qayıdışın həyata keçirilməsi üçün ilk növbədə işğaldan azad edilmiş ərazilərdə bərpa, quruculuq işləri aparılmalı, layiqli həyat şəraiti bərpa olunmalıdır. Bu ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışının təmin olunması da mühüm məsələlərdən biridir.

2030-cu ilə kimi Azərbaycanın sosial-iqtisadi inkişafına dair beş Milli Prioritet müəyyənləşdirilmişdir ki, bunlardan birini də işğaldan azad olunmuş ərazilərə böyük qayıdış təşkil edir [8].

"Ağdam Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 28 may tarixli Fərmanı da işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafı istiqamətində qəbul edilmiş hüquqi sənədlərdən biridir [3]. Fərmana əsasən, Ağdamda sənaye parkının yaradılması nəzərdə tutulmuşdur. Əsas məqsəd Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin milli iqtisadiyyata sürətli inteqrasiyasını təmin etməkdən, eyni zamanda da, layiqli yaşayış şəraitinin qurulmasını həyata keçirməkdən ibarətdir. Sənaye parkının Ağdam ərazisində yaradılmasına səbəb kimi Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları, Logistika potensialının olması göstərilmişdir.

Həmin ilin 4 oktyabr tarixində Prezident tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması haqqında" Fərman verilmişdir [3]. Fərmana əsasən, göstərilən iqtisadi zonanın Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində yaradılması nəzərdə tutulmuşdur. Torpaqlarımız düşmən tapdağından azad edildikdən sonra ölkəmizin ərazi bütövlüyü təmin edilmiş, bununla da, Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yaranmışdır. Odur ki, bölgədə logistika, ticarət və digər xidmətlərin göstərilməsi, həmçinin qabaqcıl texnologiyalara və "yaşıl enerji" konsepsiyasına əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalının dəstəklənməsi məqsədilə qeyd olunan ərazidə Sənaye parkının yaradılması məqsədəuyğun hesab edilmişdir.

Bu sənaye parkının yaradılması üçün əlverişli şəraiti təmin edən işğaldan azad olunmuş Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və həmin bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olmasıdır. Bəhs etdiyimiz fərmanda Şərqi Zəngəzur iqtisadi rayonunun cənubunda – Cəbrayıl rayonu ərazisində yerləşən tarixi Xudafərin körpülərinin olduğu istiqamətdə sərhəd-gömrük keçid məntəqəsinin açılmasının səmərəli olacağı göstərilmişdir.

Müvafiq qanunvericiliyə əsasən, araşdırmlar nəticəsində müəyyən edilmişdir ki, işğal olunmuş ərazilərdə 1988-1994-cü illərdə 2,4 min sənaye, aqrar sahə obyektləri və digər müəssisələr tamamilə dağıdılmış, 5,2 min km avtomobil yolu, 350-ə yaxın körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7,6 min km su xətti, 2 min km qaz kəməri xətti, 76,9 min km elektrik xətti, 2,5 min ədəd transformator və s. infrastruktur obyektləri məhv edilmişdir. Təxminən 1 milyon hektar suvarılan torpaq, 34,6 min hektar üzüm və meyvə bağları, 220 min baş mal-qara işğalçılar tərəfindən ələ keçirilmişdir. Bildiyimiz kimi, Ermənistanın Azərbaycana qarşı məkrli əməlləri 80-ci illərdən Topxana meşələrinin qırılması ilə başlamış, 260 min 311 hektar meşə sahəsi işğal altında qalmışdır. Nəticədə bu ərazilərdəki meşələrin kütləvi şəkildə qırılması səhralaşmaya və torpaqların eroziyasına gətirib çıxarmışdır. İşğal nəticəsində Bəsitçay Dövlət Təbiət Qoruğu, Qaragöl Dövlət Təbiət Qoruğu, Daşaltı Dövlət Təbiət Yasaqlığı kimi 43 min hektar sahəsi olan xüsusi mühafizə olunan təbiət ərazilərində Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş 24 fauna və 70-dən çox flora növü məhv edilmişdir [9].

Ermənistanın tarixi torpaqlarımızı işğal etməsi nəqliyyata da çox ciddi zərər vurmuşdur. Belə ki, Dövlət Avtomobil Nəqliyyat Xidmətinin verdiyi məlumata görə, 30 il ərzində düşmən 22 avtonəqliyyat müəssisəsini, 10 avtovağzal və avtostansiya kompleksini, avtonəqliyyat müəssisələrinə məxsus Ağdamda 160, Füzulidə 60, Cəbrayılda 15, Zəngilanda 40, Şuşada 90, Xocalıda 70, Qubadlıda 50, Xankəndidə 350, Kəlbəcərdə 70, Ağdərədə 30, Xocavənddə 10, ümumilikdə, 1015 ədəd nəqliyyat vəsitələrini talan etmişdir [9].

Bütövlükdə 2017-ci il üçün verilmiş məlumata görə, hərbi təcavüz və işğal nəticəsində ölkəmizə dəymiş itki və ziyanların ümumi dəyəri 820 milyard dollar təşkil edir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Qarabağ ərazisində vaxtilə işləyən

müəssisələrin dağıdılması nəticəsində əldə edilməsi mümkün olmayan, itirilmiş gəlirləri və mənfəətləri nəzərə alsaq, bu rəqəmin xeyli yüksək olması istisna deyil [9].

Ermənistanın Azərbaycan torpaqlarını 80-90-cı illərdə işğalı nəticəsində dəymiş zərərin qiymətləndirilməsilə yanaşı, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistanın hücumunun vurduğu ziyanın müəyyənləşdirilməsi də aktual məsələlərdən biridir. Buna müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti 2020-ci il 06 noyabr tarixində "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Dövlət Komissiyası yaradıldı [3].

2021-ci il yanvarın 14-də Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov Dövlət Komissiyasının əldə etdiyi nəticələri açıqlamışdır. Bu Komissiyanın araşdırmalarına əsasən, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən, infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın məbləği ümumilikdə 91 milyon manatdır. Nəqliyyat vasitələri üzrə dəymiş ziyan 400 min manat məbləğində, kənd təsərrüfatı üzrə (mal-qara, texnika və s.) 1 milyon 311 min manat, sahibkarlıq subyektləri üzrə (avadanlıq, alət) 2 milyon 500 min manat, Tərtər Pambıq zavoduna 3 milyon 524,6 min manat, infrastruktur üzrə (avtomobil yolları, poçt, rabitə, elektrik, qaz və su təchizatı, informasiya təminatı) 27 milyon 410 min manat, fərdi yaşayış, çoxmənzilli evlər və digər tikililər üzrə 19 milyon 200 min manat və s. zərərlər qiymətləndirilmişdir [7].

44 günlük Vətən müharibəsi dövründə dəymiş zərərin qiymətləndirilməsi ilə bağlı müvafiq qərar və bu qərarın icrası ilə bağlı tədbirlərin aparılması təsadüfi deyildi. Belə ki, 2020-ci il dekabrın 14-də "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır [3]. Sərəncamda mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı müəyyən maddi yardımın dövlət tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur. Maddi yardımın məbləği müvafiq olaraq, dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat, digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 manat məbləğində müəyyən edilmişdir [3].

Şanlı Ordumuzun şücaəti nəticəsində tarixi torpaqlarımız düşmənlərdən azad edildi və respublikamızın ərazi bütövlüyü bərpa edildi. Bu da işğaldan azad edilmiş ərazilərin inkişaf etdirilməsi üçün qarşıya mühüm vəzifələr qoyur. Bu istiqamətdə müəyyən işlər həyata keçirilmiş və hələ də bu istiqamətdə işlər davam etdirilir. Hamımıza məlumdur ki, 44 günlük Vətən müharibəsi nəticəsində əldə etdiyimiz Zəfərin təməli Aprel döyüşlərində qoyulmuşdur. Aprel döyüşləri nəticəsində 2016-cı ildə Cəbrayılın Çocuq Mərcanlı kəndi işğaldan azad edilmiş və burada azərbaycanlıların yaşayışı təmin edilmiş, zəruri infrastruktur qurulmuşdur. Çocuq Mərcanlı Azərbaycan torpaqlarının təcavüzkar Ermənistan tərəfindən işğal olunması nəticəsində öz yurd-yuvasından didərgin düşmüş məcburi köçkünlərin doğma torpaqlarına qayıtdığı ilk yaşayış məskəni "Böyük Qayıdış"ın başlanğıcı olmuşdur.

Qarabağ ərazisində yaşayış üçün lazım olan infrastruktur sahələrinin bərpası və yenidən qurulması istiqamətində işlər davam etdirilir. Buna uyğun olaraq, 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə işğaldan azad edilmiş ərazilərdə mövcud vəziyyət və qarşıda dayanan görülməli işlər təhlil olunaraq növbəti il üçün prioritet istiqamətlər nəzərdə tutulmuşdur.

Ölkə başçısının 2021-ci ilin 6 iyul tarixli "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə və dövlətə məxsus nəqliyyat vasitələrinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına uyğun olaraq, 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan İqtisadiyyat Nazirliyinə 5,4 milyon manat vəsait ayrılmışdır. Daha bir sərəncam mülki əhalinin əmlakı-

na dəymiş ziyanın ödənilməsilə bağlı imzalanmış və sərəncama uyğun olaraq Maliyyə Nazirliyinə ayrılan vəsaitin miqdarı 5,2 milyon manat təşkil edir [5].

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində kənd təsərrüfatına dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncama uyğun olaraq 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Kənd Təsərrüfatı Nazirliyinə 1,4 milyon manat vəsait ayrılmışdır. Bundan başqa, Ermənistanın təcavüzü nəticəsində zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 30 milyon manat vəsaitin ayrılması ilə bağlı sərəncam verilmişdir [6].

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Bu, "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində göstərilmişdir [8].

**Açar sözlər:** *İşğaldan azad edilmiş ərazilər, Qarabağ, inkişaf, qanunvericilik, regional siyasət.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Anar T. Qarabağın dirçəldilməsi tarixi missiyadır. / https://xalqqazeti.com/az/news/75410*
2. *//https://marja.az/71657/kelbecerdeki-qizil-yatagi-turkiye-sirketine-verildi-serencam?fbclid=IwAR0aWBiFAfkzA_IAHFxniyYobltwZ7brE8xkQexJBvj1QuE6kUn8SZJ0tEQ*
3. *https://president.az/*
4. *https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/*
5. *https://marja.az/73319/ehaliye-ve-sahibkarlara-deymis-ziyanin-aradan-qaldirilmasi-ucun-pul-ayrildi-serencam*
6. *https://marja.az/73318/prezidentden-30-milyon-manatliq-serencam*
7. *https://nk.gov.az/*
8. *http://www.e-qanun.az/*
9. *http://unec.edu.az/application/uploads/2015/02/UE-2020.pdf*



## SUMMARY

The article deals with the topical issue – the restoration of our liberated territories. The 44-day Patriotic War set before both the state and all of us such a responsible task as the restoration and development of liberated territories. The state has done certain work in this direction and important decisions have been made. A lot of work is also planned to be done in connection with the restoration and reconstruction of Karabakh. The article provided information on decisions and legal documents adopted in connection with the restoration of Karabakh, talked about the work done and to be done.


**Keywords:** *liberated territories, Karabakh, development, legislation, regional policy.*


## РЕЗЮМЕ

В статье говорится о насущном вопросе – восстановлении освобожденных от оккупации территорий. 44-дневная Отечественная война поставила перед государством и всеми нами такую ответственную задачу, как восстановление и освоение освобожденных территорий. В этом направлении государством проделана определенная работа, приняты важные решения. Планируется также проведение многих работ, связанных с восстановлением и реконструкцией Карабаха. В статье была представлена информация о принятых решениях, правовых документах, связанных с восстановлением Карабаха, говорилось о проделанной и предстоящей работе.


**Ключевые слова:** *освобожденные от оккупации территории, Карабах, развитие, законодательство, региональная политика.*

UOT 330.356:661:338.24

# AZƏRBAYCANDA NEFT-KİMYA EMAL MÜƏSSİSƏLƏRİNİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI POTENSİALININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**AİDƏ BƏXTİYAROVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Unversitetinin doktorantı,*

*E-mail: aida.baxtiyarovaa1@gmail.com*

Qeyd edək ki, rəqabət hökumətin müxtəlif subyektlərinin və bütövlükdə ölkənin inkişafının əsasını təşkil edir. Bu, onunla əlaqədardır ki, əksər hallarda müəssisənin nəticələri müştəri məmnuniyyətinin dərəcəsindən və müştəri dəyəri yaratmaq qabiliyyətindən asılıdır. Ona görə də müəssisələr həm rəqiblərini, həm də istehlakçılarını öyrənməlidirlər. Rəqabət təhlili müəssisələrə müxtəlif iqtisadi proseslərdə rəqiblərin davranışlarını qabaqcadan görməyə və onların təhlilinin nəticələrindən öz işlərində istifadə etməyə kömək edir. Bu halda rəqiblərin davranışının hərtərəfli öyrənilməsi və onların qiymətləndirilməsi bazarda səmərəli fəaliyyət üçün vacib şərtlərdir. Bununla belə, müəssisələrin rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi ilə bağlı çoxlu problemlər mövcuddur. Bu, müəssisələrin fəaliyyətinin mobil makro və mikromühitdə baş verməsi ilə əlaqədardır. Bu, texnologiya, istehlakçılar, dövlət tənzimlənməsi, rəqabət və iqtisadiyyatın vəziyyəti ilə bağlı xarici amillərə aiddir. Müəssisələrin rəqabət qabiliyyətinə təsir edən amillərinin sayı çoxdur və onların rəqabətqabiliyyətlilik səviyyəsinin müəyyənləşdirilməsi problemləri hazırda çox aktualdır. Azərbaycanda sənaye sahələrinin potensialından və imkanlarından çıxış etsək, rəqabətqabiliyyətli sənaye sahələri kimi bunları fərqləndirmək mümkündür: 1) neft-kimya; 2) neft-qaz; 3) kənd təsərrüfatı və s. Onlar təbii rəqabət üstünlükləri olan sənaye sahələrinə aiddir və Azərbaycanın ixracatının əsas hissəsini təşkil edirlər.

Qloballaşma şəraitində ölkənin milli təhlükəsizliyinin təmin edilməsi, iqtisadi artım və texnoloji inkişaf neft-kimya sənayesi olmadan həyata keçirilə bilməz. Bu sənaye müxtəlif növ məmulatların və materialların istehsalı üçün əsas olmaqla bir sıra sənaye sahələrinə, o cümlədən, tikintiyə, kənd təsərrüfatına əhəmiyyətli təsir göstərir. Neft-kimya sənayesinin digər sahələrdən səciyyəvi xüsusiyyəti əməyin avtomatlaşdırılması və texnoloji inkişafının yüksək səviyyəsidir ki, bu da iqtisadiyyatın bütün sahələrində neft-kimya məhsullarından istifadənin intensivləşməsi ilə əlaqədardır [1, s.147].

Azərbaycanın neft-kimya sənayesi regionların və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Neft-kimya sənayesinin fəaliyyətinin nəticələri tədiyyə balansının formalaşması, milli valyutanın məzənnəsinin saxlanması üçün əsasdır. Bu gün demək olar ki, hər hansı bir dövlətin inkişaf səviyyəsi, ilk növbədə, istisnasız olaraq sənayenin bütün sahələrində istifadə olunan, yüksək istehlak xüsusiyyətlərinə malik neft-kimya məhsullarının istehsal səviyyəsindən asılıdır. Neft-kimya sənayesinin istehsal etdiyi məhsullardan demək olar ki, hər gün istifadə edirik. Neft-kimya müasir insanın həyatına möhkəm daxil olan sintetik materiallar istehsal edən bir sənayedir. Neft-kimya sənayesi müəssisələri geniş çeşiddə məhsul istehsal edir ki, onların da bir hissəsi sənaye məhsulları, digər hissəsi isə istehlak mallarıdır. Bu sənayenin müəssisələri propilen, etilen, polietilen, izopropil spirti, lak-boya, xlorid turşusu, neft koksu, neft bitumu, mazut, sürtkü yağları, ağ neft və digər məhsullar istehsal edir. Texnoloji cəhətdən yaxından əlaqəli müəssisələr, habelə təsərrüfat fəaliyyətinin digər sahələri (məsələn, avtomobillər və onların qoşquları, rezin və plastik məmulatlar, əczaçılıq istehsalları və s.) üçün ilkin xammal və reagent kimi məhz neft-kimya sənayesinin məhsulları çıxış edir [2, s.17]. Azərbaycanda elə neft-kimya məhsulları vardır ki, onlar xaricdən gətirilir. Lakin Azərbaycana xaricdən gətirilən neft-kimya məhsullarının əksəriyyəti üçün respublikada istehsal potensialı mövcuddur. Bu baxımdan həmin məhsulların istehsalı ilə məşğul olan müəssisələrin ölkəmizdə təşkil olunması məsələsinə baxılması məqsədəuyğundur.

Maraqlıdır ki, ölkəmiz xaricdən gətirilən əksər neft-kimya məhsulları üçün istehsal potensialına malikdir. Həmin məhsulların istehsal sahələrini yaratmaqla həm daxili tələbatı ödəmək, həm də bu məhsullar üzrə ixrac potensialını xeyli artırmaq mümkündür. Azərbaycanda aşağıdakı amilləri və imkanları nəzərə almaqla neft-kimya müəssisələri-

nin ixrac potensialın artırmaq və dünya bazarlarına rəqabət qabiliyyətli məhsullarla çıxmaq mümkündür: 1) neft-kimya emalı müəssisələrinin ixrac potensialının obyektiv təhlilini aparmaq; 2) neft-kimya emalı müəssisələrinin məhsul çeşidinə uyğun olaraq ölkəmizə idxal olunan məhsulların yerli məhsullarla əvəzlənməsi strategiyasını hazırlamaq; 3) yerli neft-kimya emalı müəssisələri şəbəkəsinin qurulmasına investisiyaların cəlb edilməsi istiqamətində tədbirləri həyata keçirmək; 4) neft-kimya emalı müəssisələrinin ixracyönümlü sahələrinin potensialından daha səmərəli istifadə etmək üçün əsas fondların yenilənməsinə və istehsal güclərinin artırılmasına məqsədli investisiyaları cəlb etmək; 5) neft-kimya emalı müəssisələrinin ixracyönümlü məhsullarının satışından əldə edilən maliyyə vəsaitlərinin bir hissəsinin yeni sahələrin yaradılmasına yönəldilməsi strategiyasını işləyib hazırlamaq və həyata keçirmək və s [3, s.192]. Neft-kimya sənayesində yüksək emal olunmuş məhsulların istehsalı yalnız səmərəli müasir istehsal müəssisələrinin köməyi ilə təmin edilə bilər. Azərbaycanda həmin müəssisələrin yaradılması və istismarı üçün əhəmiyyətli potensial vardır. Bu potensialı reallaşdırmaq üçün dövlətin neft-kimya müəssisələrinin və neft-kimya məhsulları istehlakçılarının düzgün və əlaqələndirilmiş siyasəti tələb olunur. Burada əsas fəaliyyət istiqamətlərindən biri dövlət dəstəyi tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsidir. Onların arasında: müəssisələrin texniki tənzimlənməsinin təkmilləşdirilməsi; son neft-kimya məhsulları üçün istehlak standartlarının dəyişdirilməsi; aşağı faizlə uzunmüddətli kreditlərin və dövlət zəmanətinin verilməsi və bir sıra digər tədbirlər. Bunlarla bərabər, ölkə başçısının fərman və sərəncamları ilə neft-kimya emalı müəssisələrinin inkişafına imkan verəcək bir sıra strateji tədbirləri də qeyd edə bilərik:

1) neft-kimya məhsullarının emalı üzrə yüksək texnologiyalı və rəqabətqabiliyyətli istehsal müəssisələrinin yaradılması;

2) texnoparklar şəbəkəsinin formalaşdırılması və inkişafı;

3) çoxfunksiyalı sənaye parklar şəbəkəsinin təşkili və onların bazasında ixracyönümlü neft-kimya məhsulları istehsalının artırılması;

4) regionlarda yeni neft-kimya emalı müəssisələrinin yaradılması;

5) regionlarda neft-kimya emalı müəssisələrinin yaradılmasına və inkişafına təkan verəcək aqrar-sənaye müəssisələrinin təşkilinin genişləndirilməsi;

6) yeni neft-kimya emalı müəssisələrinin yaradılmasına və inkişafına təkan verə biləcək xüsusi iqtisadi zonaların və sənaye klasterlərinin yaradılması üçün möhkəm təməlin formalaşdırılması və s. [4, s.68].

Bütün bunlar mövcud neft-kimya emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılmasına təkan verəcəkdir.

Neft-kimya emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün onların rəqabət mövqeyini qiymətləndirmək və təhlil etmək lazımdır. Neft-kimya müəssisələrinin rəqabət mövqeyini qiymətləndirmək və onun təkmilləşdirilməsi strategiyasını hazırlamaq üçün qiymətləndirmənin vəzifə və məqsədlərindən asılı olaraq həm fərdi, həm də qrup şəklində istifadə oluna bilən müxtəlif üsullar mövcuddur. Bu üsullarda əsas məqsəd potensial rəqiblərə münasibətdə tədqiq olunan bazarda müəssisələrin mövqeyini müəyyən etmək və gələcək davranış strategiyasını hazırlamaqdır. Hazırda müəssisənin rəqabətqabiliyyətliliyinin müəyyən edilməsi üçün konkret üsul demək olar ki, mövcud deyil. Onların sayı çoxdur, lakin hamısı birtərəflidir. Bu üsullar neft-kimya emalı müəssisələrinin fəaliyyətinin bütün tərəflərinin qiymətləndirilməsini əhatə edir. Bununla bərabər, ayrı-ayrı göstəricilərin təkrar istifadəsini aradan qaldırır və müəssisənin sənaye bazarında tez və obyektiv mövqe tutmağa imkan verir. Kompleks üsullar mövcud və potensial rəqabət qabiliyyətinin müqayisəsi ilə inteqral qiymətləndirməyə əsaslanır. Müxtəlif qiymətləndirmə cədvəlləri və matrislər əsasında ekspertlər müəssisənin rəqabət mövqeyini qiymətləndirirlər. Müəssisənin rəqabət qabiliyyətini qiymətləndirmək üçün kompleks üsullar iki elementi ehtiva edən inteqral qiymətləndirmə metodundan istifadə əsasında həyata keçirilir [5, s.376]. Əsas üstünlüyü rəqabət qabiliyyətinin dinamik qiymətləndirilməsində, hadisələrin baş verməsinin müxtəlif variantlarından asılı olaraq onun göstəricilərini proqnozlaşdırmaq imkanındadır.

Bazar şəraitində neft-kimya müəssisələrinin real imkanlarını qiymətləndirmək, rəqabət qabiliyyətini artırmaq və uğurunu təmin etmək üçün onların güclü və zəif tərəflərinin təhlilinə böyük əhəmiyyət verilməlidir. Marketinq tədqiqatları prosesində rəqabət qabiliyyətini qiymətləndirmək üçün müəssisələrin mövqeyinin sabitlik dərəcəsini, bazarı tələbat olan məhsullarla təmin etmək qabiliyyətini əks etdirən

göstəricilərdən istifadə olunur. İstehsal xərcləri az olan müəssisə daha çox gəlir əldə edir ki, bu da istehsalın miqyasını genişləndirməyə, onun texniki səviyyəsini, iqtisadi səmərəliliyini və məhsulun keyfiyyətini yüksəltməyə, eləcə də marketinq sistemini təkmilləşdirməyə imkan verir [7, s.85]. Neft-kimya emalı müəssisələrinin bazardakı rəqabət mövqeyini qiymətləndirərkən ən çox SWOT təhlilindən istifadə olunur. SWOT təhlil müəssisənin güclü və zəif tərəflərini, imkan və təhdidlərini, habelə istehlakçıların həmin müəssisələrə münasibətinə təsir edən amilləri araşdırmağa imkan verir.

Fikrimizcə, hazırda rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi üsullarının əksəriyyəti, neft-kimya məhsullarının rəqabət qabiliyyətinin hərtərəfli qiymətləndirilməsinə imkan vermir. Məsələn, neft-kimya məhsullarından olan polietilen boruların rəqabət qabiliyyətini qiymətləndirmək üçün məhsulun həyat dövrünün mərhələlərini təhlil etmək, məhsulun rəqabət qabiliyyətini xarakterizə edən ən vacib xüsusiyyətləri nəzərə almaq lazımdır. Bu üsullar rəqabətqabiliyyətlilik səviyyəsi haqqında tam təsəvvür yaratmır. Çünki onların tətbiqi zamanı müəyyən müəssisənin fəaliyyətinin bütün aspektləri nəzərə alınmır. Onlardan bir neçəsini eyni anda istifadə etmək məqsədəuyğundur. Bəzi hallarda müəssisənin rəqabət qabiliyyətinin qiymətləndirilməsində müxtəlif üsullardan istifadə edilməsi ziddiyyətli və qeyri-müəyyən nəticələrə gətirib çıxarır. Beləliklə, bu gün müxtəlif iş sahələrinin xüsusiyyətlərinə uyğunlaşma qabiliyyətinə malik olan müəssisələrin rəqabət qabiliyyətini qiymətləndirmək üçün etibarlı və obyektiv metodologiyanın formalaşdırılması aktual vəzifədir [8, s.143].

Qeyd edək ki, neft və kimya məhsulları istehsalı müəssisələri üzrə 2020-ci ildə 3389,4 milyon manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bunun da 2726,6 milyon manatı və ya 80,4%-i neft məhsulları istehsalı müəssisələri üzrə, 662,9 milyon manatı və ya 19,6%-i isə kimya sənayesi müəssisələri üzrədir. Kimya məhsulları müəssisələri üzrə məhsul istehsalı 2020-ci ildə əvvəlki illərlə müqayisədə ən yüksək rəqəmlə xarakterizə olunur. Lakin 2020-ci ildə neft məhsulları istehsalı müəssisələri üzrə məhsul istehsalı 2018 və 2019-cu illərlə müqayisədə azalmış, digər illər üzrə isə artmışdır. Belə ki, 2018-ci illə müqayisədə 3,8%, 2019-cu illə müqayisədə 7,0% azaldığı halda, 2015-ci illə müqayisədə 10,2%, 2016-cı illə müqayisədə 10,3%, 2017-ci illə müqayisədə isə 6,7% artmışdır **[9].** 2020-ci ildə Azərbaycanda neft-kimya emalı müəssisələri üzrə əsas kapitala investisiyaların həcmi 1891,8 milyon manat təşkil etmişdir ki, bunun da 75,48%-i kimya məhsullarının emalı müəssisələrinin, 24,52%-i isə neft emalı müəssisələrinin payına düşür. Sənayenin ümumi dəyərində neft emalı müəssisələrinin payının yüksək olmasına baxmayaraq, əsas kapitala investisiyalar daha çox kimya sənayesi müəssisələrinə yönəldilmişdir.

Neft-kimya sənaye məhsullarının artımı əsas nailiyyətlərdən biridir. Lakin unutmaq olmaz ki, istehsalın intensiv artımı ətraf mühitə təsir edir. Ona görə də az tullantı və tullantısız yeni proseslərin təkmilləşdirilməsi və inkişafı böyük əhəmiyyət kəsb edir [10, s.56 ]. Azərbaycanda ekoloji vəziyyətin təhlili göstərir ki, neft-kimya emalı müəssisələrinin intensiv istismarı zamanı ətraf mühitə olan yükün artması təkcə onun çirklənməsinə deyil, həm də ekosistemdə geri dönməz dəyişikliklərə səbəb olur, insan orqanizminə mənfi təsir göstərir [11]. Odur ki, neft-kimya emalı müəssisələrinin inkişaf etdirilməsi sahəsində qanunvericiliyi hazırlayarkən, həyata keçirərkən və təkmilləşdirərkən, habelə onun icrasına nəzarət edərkən ətraf mühitə təsir amili mütləq nəzərə alınmalı və qiymətləndirilməlidir. Ətraf mühitə təsirin qiymətləndirilməsi və ekoloji ekspertiza neft-kimya emalı müəssisələrində ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün ən mühüm profilaktik hüquqi alətlərdir. Neft-kimya emalı müəssisələrinin rəqabət qabiliyyətliliyini qiymətləndirərkən onların marketinq fəaliyyəti təhlil edilməlidir. Məhsulu satışa çıxarmazdan əvvəl müştərilərin ehtiyaclarını öyrənmək, məhsulun keyfiyyətini yüksəltmək və bazara çıxmaq, lazımsız məhsul istehsal etməmək və onun satışında çətinliklər yaşamamaq lazımdır[12]. Marketinq üstünlüyü olan firma daha çox müştəri yönümlü məhsullar istehsal edir. Bu, o deməkdir ki, istehsalçının məhsulunun bəzi xüsusiyyətləri rəqibinkindən daha üstündür və ya daha unikaldır. Məhsul müəssisənin rəqabət qabiliyyətinin göstəricisidir.

## YEKUN

Rəqabətli mübarizədə funksional məqsəd, etibarlılıq, davamlılıq, istifadəyə yararlılıq, xarici görünüş, qablaşdırma, xidmət zəmanəti, yəni alıcını rəqibin məhsulundan daha çox qane edəcək bütün xüsusiyyətlər nəzərə alınır. Məhsullar alıcıların ehtiyaclarına cavab verməli və ən yaxşı keyfiyyətinə görə

oxşar məhsullarla müqayisədə cəlbedici olmalıdır. Məhsulun istehsal dəyərinə görə rəqib məhsuldan üstün fərqləri olmalıdır. Keyfiyyət məhsulun maksimum dərəcədə və istehsalçıya itkisiz satılmasını təmin etməlidir. Başqa sözlə desək, məhsul istehsalçıya zərər vermədən qiymət və keyfiyyət baxımından oxşar məhsullardan üstün olarsa, rəqabət qabiliyyətli olacaqdır. Əgər müəssisə beynəlxalq bazara çıxmağa çalışırsa, o zaman onun məhsulları beynəlxalq keyfiyyət standartlarına uyğun və keyfiyyət sisteminin ISO 9000 beynəlxalq standartına uyğunluq sertifikatına malik olmalıdır. Satış bazarlarını axtararkən, istehsalçının və alıcının mümkün olan ərazi yaxınlığına diqqət yetirmək lazımdır ki, bu da nəqliyyat xərclərini və deməli, malın qiymətini azaldacaq. Yalnız rəqabətqabiliyyətli müəssisə ölkədə bazar münasibətlərinin formalaşması dövründə ayaqda qala, dövriyyəsini sabit səviyyədə saxlaya və ya onu tədricən artıra bilər:

- neft-kimya emalı müəssisələrinin fəaliyyətinin düzgün təhlili və qiymətləndirilməsi onların rəqabət qabiliyyətliliyinin artırılmasına gətirib çıxarar;
- rəqabət qabiliyyətinin artırılması müəssisənin istehlakçıya yönəldilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi, innovasiya siyasətinin tətbiqi, əmək şəraitinin yaxşılaşdırılması və bir sıra digər amillər hesabına əldə edilir;
- neft-kimya emalı müəssisələrinin fəaliyyətinin vaxtında tənzimlənməsi, rəqabət qabiliyyətinin artırılması onun uğurlu fəaliyyətinin, gələcəkdə maliyyə sabitliyinin əsas şərtidir;
- neft-kimya emalı müəssisələrinin rəqabət mühitinin öyrənilməsi davamlı olmalı və onların təkcə mövcud vəziyyətini deyil, həm də orada yaranan tendensiyaları əks etdirməlidir və s.

**Açar sözlər:** *neft-kimya, emal müəssisələri, rəqabətqabiliyyətlilik, rəqabətqabiliyyətlilik problemləri, emal müəssisələrinin potensialı, emal müəssisələrinin inkişaf perspektivləri, neft-kimya emal müəssisələri.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Шинкевич, А.И. Стратегии развития нефтехимических предприятий в условиях глобализации / А.И.Шинкевич // Сборник избранных статей по материалам научных конференций ГНИИ «Нацразвитие»: Материалы научных конференций, Санкт-Петербург, 24–28 февраля 2019, С. 147-149.*

2. *Abbasov, İ.M., Əliyev, T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı: Bakı Biznes Universiteti, 2018, 267 s.*

3. *Salmanov, M.C. Azərbaycanda neft-kimya kompleksi müəssisələrinin ixrac potensialının artırılmasının maliyyə aspektləri / Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivlər. Respublika elmi konfransı. Sumqayıt, 25-26 aprel, 2019, s.189-913.*

4. *Əliyev, Ş.T. Azərbaycanda qeyri-neft sənayesinin şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətləri // Audit № 4, Cild 26, 2019, səh.61-73.*

5. *Лазаренко, А.А. Методы оценки конкурентоспособности / А.А.Лазаренко. Текст: непосредственный // Молодой ученый. 2014. № 1 (60). С. 374-377.*

6. *Габибова, М.Ш. Пути повышения конкурентоспособности предприятия / М.Ш.Габибова. — Текст: непосредственный // Актуальные вопросы экономики и управления: материалы III Междунар. науч. конф. (г. Москва, июнь 2015 г.). — Москва : Буки-Веди, 2015. — С. 85-87.*

7. *Сенникова, А.Е., Шахов, И.В. Анализ конкурентоспособности фирмы // Colloquium-journal, 2019, №9 (33), с.141-143.*

8. *Тертышник, М.И. Оценка конкурентоспособности нефтехимических предприятий / М.И.Тертышник // Азимут научных исследований: экономика и управление. 2021. Т. 10. № 4(37). С. 263-266.*

9. *Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2021, 243 s.*

10. *Козлова, М.А. Нефтехимия / М.А.Козлова, С.В.Ступакова // Поколение будущего: Взгляд молодых ученых-2019: Сборник научных статей 8-й Международной молодежной научной конференции, в 6-х томах, Курск, 13–14 ноября 2019 года. – С. 54-57.*

11. *Aliyev, Sh.T. Strategic role of Sumgayit in the development of petrochemical industry of Azerbaijan / The International Conference on Actual Problems of Chemical Engineering - APCE 2020. - Azerbaijan State of Oil and Industry University. 24-25 december 2020. p.430-435.*

12. *Əliyev, Ş.T. Azərbaycanın kimya və neft-kimya komplekslərinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, 2012, 156 s.*

## РЕЗЮМЕ

**Анализ и оценка повышения потенциала конкурентоспособности нефтехимических перерабатывающих предприятий в Азербайджане**

В статье исследованы анализ и оценка повышения потенциала конкурентоспособности нефтехимических предприятий в Азербайджане. Исследована роль нефтехимических предприятий в экономике и отмечена их важность в повышении экспортного потенциала. Определены направления развития нефтехимических предприятий в современных условиях. Обращено внимание на проблемы развития перерабатывающей промышленности исходя из существующего потенциала нефтехимической сферы в контексте глобальных условий. Отмечена важность осуществления комплексных мероприятий по направлению развития конкурентоспособности нефтехимических перерабатывающих предприятий в взаимодействии с другими отраслями экономики страны. Подготовлены рекомендации и даны предложения по усилению конкурентоспособности и повышения роли нефтехимических перерабатывающих предприятий в ускорении развития экономических процессов в Азербайджане.


**Ключевые слова:** *нефтехимия, перерабатывающие предприятия, конкурентоспособность, проблемы конкурентоспособности, потенциал перерабатывающих предприятий, перспектива развития перерабатывающих предприятий, перерабатывающие предприятия нефтехимии.*


## SUMMARY

**Analysis and assessment of the potential to increase the competitiveness of petrochemical refineries in Azerbaijan**

The article analyzes and evaluates the potential to increase the competitiveness of petrochemical refineries in Azerbaijan. The role of petrochemical refineries in the economy was also studied and their importance in increasing export potential was noted. The directions of development of petrochemical enterprises were identified. Taking into account the existing potential of petrochemistry, the problems of development of the refining industry in the global context were discussed. It was noted that measures should be taken to increase the competitiveness of petrochemical refineries, including opportunities for interaction with various sectors of the economy. In the article recommendations and proposals were made to increase the role of petrochemical refineries and strengthen their competitiveness in accelerating the process of economic development in Azerbaijan in the short term.


**Keywords:** *petrochemistry, refineries, competitiveness, problems of competitiveness, potential of refineries, development perspective of refineries, petrochemical refineries.*

UOT 33:37.016

# İNNOVATİV İNKİŞAFIN TƏNZİMLƏNMƏSİNİN METODOLOJİ ASPEKTLƏRİ

**GÜLNARƏ ƏHMƏDOVA**
*Milli Aviasiya Akademiyasının doktorantı*

*E-mail: gahmadova@naa.edu.az*

Bütövlükdə innovasiya fəaliyyətinin (İF) idarə edilməsi (*i/e) metodologiyası* sistemli yanaşma olmaqla mürəkkəb layihələrin, texniki, əmək və material resurslarının səmərəli istifadəsini təmin edən işlərin, hadisələrin qarşılıqlı əlaqələrinə və asılılıqlarına əsaslanır. Mütəxəssislərin çoxu innovasiya layihələrinin idarə edilməsində sistem metodlarının tez yayılmasını elektron informasiya sisteminin inkişafı ilə əlaqələndirirlər.

İnkişaf etmiş ölkələrdə (İEÖ-də) yaradılmış innovasiya layihələrinin idarə edilməsi metodları investorların çoxunun istifadə etdiyi standartlara çevriliblər. Lakin milli məktəblərin təklif etdikləri və müxtəlif firmaların tətbiq etdiyi yanaşmalarda, metodlarda bir sıra fərqlər mövcuddur.

İqtisadiyyatın i/e-nin, o cümlədən innovasiya inkişafının, inzibati-amirlik metodunun əsas elementi həm bütün təsərrüfatçılıq kompleksinin, həm də elm və texnikanın inkişafının mərkəzləşdirilmiş planlaşdırılmasıdır. Elmi tədqiqatların və işləmələrin planları iqtisadi və sosial inkişafın planlaşdırılmasının dövlət sisteminin tərkib hissəsi olmuşdur. Elm və texnikanın inkişafının planlaşdırılması elmi-texniki tədqiqatların (ETT)-nin i/e-nin dövlət sisteminin bir zümrəsi kimi təmsil olunurdu və onun tənzimlənməsi vahid qanunvericilik bazası ilə təmin edilirdi. Bu sistem özünəfəaliyyət dövrü, məzmun və tapşırıqların xırdalanma dərəcəsinə görə fərqlənən i/e-nin bütün səviyyələrində tərtib olunan elm və texnika sahəsində planların işlənilməsini daxil etmişdir [5, s.54].

Bazar münasibətlərində təsərrüfatçılıqda texnoloji silsilənin fəaliyyətinin təşkilinin bütün yolları üçün vahid qayda-qanunun olması mümkün deyil. Bu və ya digər formal təşkilati struktur heç də həmişə "bir-biri ilə üst-üstə düşmə" prinsipinə uyğun gəlmir. Lakin bütün hallarda idarəetmənin formal iyerarxik sistemi ilə müqayisədə əməkdaşlığın üstünlüyü aşkar görünür.

İ/e-nin kombinə olunmuş metodları, o cümlədən, i/e-nin şaquli-horizontal formaları da mövcuddur. Bu zaman mühüm qərarlar "yuxarıda" qəbul edilirlər və aşağı pillələrdə hamı artıq bilir: onun tərəfindən hansı məsələnin həll edilməsi zəruridir.

Bazar iqtisadiyyatında innovasiya sahəsində layihə i/e-si üstünlük təşkil edir, innovasiya layihələrinin ekspertizası, onların iqtisadi səmərəliliyinin hesablanması, həmçinin ümumilikdə innovasiya tədbirlərinin səmərəliliyi məcmusunun hesablanması çox mürəkkəb prosesdir.

Hər bir innovasiya layihəsi müəyyən fazalardan keçir. İnnovasiya layihəsinin yaradılması: ideyanın formalaşması; innovasiya imkanlarının tətbiqi; kontrakt sənədləşdirmənin hazırlanması; layihə sənədləşdirmənin hazırlanması; inşaat – montaj işləri; obyektin istismarı; iqtisadi göstəricilərin monitorinqi adlanan mərhələlərdən ibarətdir:

İnnovasiya layihəsi bazar iqtisadiyyatının çox mühüm kateqoriyasıdır, layihə dedikdə, planlı şəkildə, sistematik və metodiki qaydalar üzrə qurulmuş biliklərin, ideyaların və maddi nəticələrin alınması üçün tədbirlər kompleksi başa düşülür.

Bizim fikrimizcə, innovasiya layihəsinə daha həcmli geniş, qənaətbəxş tərif Y.P.Dosenkonun məqaləsində verilmişdir: innovasiya layihəsi yenilik əlaməti ilə fərqlənən, məhsulun (texnologiyanın, xidmətlərin, işlərin) keyfiyyətinin (texniki səviyyəsinin) yüksəldilməsi və ya onun maya dəyərinin (m/d-nin) azaldılması hesabına istehsalatın intensiv inkişafını, o cümlədən əvvəllər işlənilmiş texnika və texnologiyadan istifadə etməklə istehsalatı genişləndirmək yolu ilə və ya əvvəllər mənimsənilmiş məhsulun satışı vasitəsilə təmin edən, yeniliyi ilə xarakterizə olunan planlaşdırılmış elmi-texniki tədbirlər kompleksidir [2, s.24].

Bazar iqtisadiyyatında məhsulun rəqabət qabiliyyəti mühüm əhəmiyyət kəsb edir və fikrimizcə, bazar münasibətlərinə əsaslanan yeni iqtisadi sistemini qurmuş AR-da bu nöqteyi-nəzərdən innovasiya meyarları əsasında innovasiya layihələrinin qiymətləndirilməsi iqtisadi inkişafın müəyyən edilməsində xüsusi əhəmiyyət kəsb edir. Özünün innovasiya sistemini hələlik tam formalaşdırmamış respublikamızda innovasiya layihələrinin qiymətləndirilməsində kompleks yanaşma zəruridir və ya hazırki, şəraitdə

innovasiya layihəsini xarakterizə edən çoxlu sayda bu və ya digər göstəricilərin nəzərə alınması mühümdür.

İnnovasiya prosesinin təşkili investisiyalar və yüksək xərc tələb etdiyi üçün bu göstəricinin qiymətləndirilməsi üçün aşağıdakı düstur tətbiq edilə bilər (bu düsturdan, həmçinin bütün investisiya layihələrinin qiymətləndirilməsində istifadə oluna bilər):

$$O \cdot Z = R \cdot P, \quad (1.1)$$

burada O-innovasiya xərclərinin çıxarılması dövrü (illərlə); Z-investisiya xərcləri (min manatlarla); R-rentabellik norması; P-innovasiyaların tətbiqindən təmiz gəlir (min manatlarla).

Yeniliklərin daxil edilməsinin qiymətləndirilməsi yeni texnika və texnologiyanın yaradılması xərclərinin təhlili ilə qarşılıqlı əlaqədədir. İnnovasiya layihələrinin seçilməsində kompleks yanaşma çoxlu sayda kəmiyyət və keyfiyyət göstəricilərinin hesaba alınmasını nəzərdə tutur.

Bu gün sistem metodologiyasının tətbiqi layihələrin işlənməsi və realizə olunma xərclərini, müddətlərini azaltmaqla təşkilatlara, dövlət orqanlarına praktiki faydalıdır. Belə metodologiyanın tətbiq olunması yüksək sosial səmərəyə nail olmağa şərait yaradır.

Bazara keçid dövründə İF-nin uğurla idarə edilməsi təşkilati strukturların və i/e sistemlərinin yenidən qurulmasına müvafiq yeni layihə yönümlü təşkilatların yaradılmasını tələb edir. Təcrübədə layihələrin idarə edilməsinin geniş tətbiqi yollarının və metodlarının qiymətləndirilməsi zamanı əsas amillər qrupunu təhlil etmək lazımdır. İlk növbədə, ölkədə baş verən sosial-iqtisadi dəyişikliklərin xarakteri nəzərə alınmalıdır.

İnnovasiya prosesinin (İP) innovasiya menecmentinin obyektinə çevrilməsinə nəzər salaq. İnnovasiya menecmenti birbaşa olaraq: müvafiq plan və proqramların işlənib hazırlanması və qiymətləndirilməsi, onların maliyyə-resurs təminatı; yeni məhsulun, texnologiyaların yaradılmasının gedişinin və tətbiqinin koordinasiyası və nəzarət edilməsi; yaradıcı kollektivlərin və məqsədli qrupların işinin koordinasiyası və nəzarət edilməsi ilə məşğul olur.

Aparılan elmi-tədqiqat işində artıq göstərildiyi kimi, innovasiya "innovasiya prosesi", "innovasiya fəaliyyəti", "innovasiya potensialı" və "innovasiyanın potensialı" kimi yaxın terminlərlə xarakterizə edilir. İP-yə yeniliyin "tədqiqat-istehsal-istehlak" proseslərindən keçməsi kimi baxılır. İnnovasiya fəaliyyəti isə yeniliyin yaradılması üzrə müxtəlif növ işlərin həyata keçirilməsidir ki, onların da tərkibinə axtarış-tətbiqi xarakterli tədqiqatlar, layihə-konstruktor və texnoloji işləmələr, təcrübi-eksperimental və istehsalat-istismar işləri daxildir.

İnnovasiya potensialı dedikdə cəmiyyətin, iqtisadiyyatın, regionun (respublikanın), elmi-istehsalat kompleksinin, müəssisələrin yeniliyə elmi-texniki, istehsal, əmək, maddi-resurs və digər imkanların nəzərə alınması ilə hazır olması və onları qəbul etməsi başa düşülür. İnnovasiyaların potensialı anlayışı adətən innovasiyanın elmi-texniki və sosial-iqtisadi əhəmiyyətində, onun miqyaslılığında istifadə edilir. Burada ekoloji əhəmiyyətin də daha əsaslandırılmış olmasını nəzərə almaq lazımdır. Buna istinad edərək innovasiyaların potensialını onun elmi-texniki, sosial-iqtisadi və ekoloji səmərəliliklə reallaşdırılması kimi şərh etmək düzgün olardı. Burada təbii ki, innovasiyanın təkmilləşdirilməsi (modifikasiyası, modernləşdirilməsi) və geniş yayılması imkanları da ön plana çəkilməlidir. İnnovasiya potensialı və innovasiyaların potensialı konkret obyektlərin (məs., regionun, təşkilatın) və ayrı-ayrı yeniliklərin (məmulatların, texnoloji proseslərin, istehsalın və i/e-nin metodlarının) təhlili əsasında qiymətləndirilə bilər.

İnnovasiya potensialının ehtiyat bazasının formalaşdırılması, innovasiya fəaliyyətinin məhsulunun yaradılması və onun bilavasitə istehsalat mühitində son nəticələrinin formalaşdırılması barəsində iqtisadi münasibətlər müvafiq olaraq innovasiya fəaliyyətinin ehtiyyat potensialını, innovasiya prosesinin özünü (ikinci səviyyə) və maddi istehsalatı (üçüncü səviyyə və iqtisadi münasibətlər) xarakterizə edir [4, s.117].

K.M.Misko innovasiya potensialına nail olunmuş imkan kimi yox, realizə olunmuş və realizə olunmamış imkanlar kimi baxır. O, ehtiyat potensialı anlayışından ictimai tələbatların təmin edilməsi prosesində ehtiyatlardan istifadənin realizə olunmuş və realizə olunmamış imkanlarının toplam kəmiyyəti kimi istifadə edilməsinin tərəfdarıdır. Aparılmış tədqiqatlar belə bir nəticəyə gətirir ki, potensialın artırılması, onun həcmi xarakteristikalarının yüksəldilməsi müstəvisində deyil, ehtiyatların dərin struktur-komponent təhlilindədir [6, s.42].

"İnnovasiya potensialı" və "innovasiya mühiti" – müxtəlif anlayışlardır. İnnovasiya mühiti – bazar iqtisadiyyatı şəraitində sahibkarlıq strukturlarının və dövlətin innovasiya fəaliyyətində iştirakının inteqrasiyasına əsaslanan istehsalat, paylanma, yeniliklərin

mübadiləsi və istehlakına dair iqtisadi münasibətlər sisteminin bir hissəsidir. Mlli iqtisadiyyatın elmi-texniki biliklərdən texnoloji və kommersiya məqsədli istifadə etmək qabiliyyəti innovasiya potensialını xarakterizə edir [1, s.120].

İP-nin xarakteristikası i/e obyekti kimi 3 aspekti özündə cəmləşdirir:

-innovasiya tsiklinin tərkibinin şərh edilməsini;

-innovasiyalar haqqında onların predmetinin (maddiliyinin) mahiyyəti üzrə dəqiq təsəvvürləri;

-innovasiya fəaliyyətinin və yeniliyin yaradılmasına istiqamətləndirilən elmi-texniki işləmələrin xüsusiyyətlərinin aşkar edilməsi.

Hər hansı bir prosesi ancaq onun əsas inkişaf istiqamətləri bəlli olduqda, i/e obyektinin xüsusiyyətləri və qanunauyğunluqları dərk edildikdə idarə etmək olar. Bazar münasibətlərində bir sıra obyektiv səbəblərə, şərtlərə və amillərə görə (ictimai ehtiyacların mürəkkəbləşməsi, cəmiyyətin sürətlə yenilənməsi, onların elmtutumluluğu və s.), təsərrüfatçılığın, ictimai istehsalın idarə edilməsi sisteminin dərəcəsindən asılı olmayaraq, İP-yə xüsusi təsir mexanizminin olması zəruridir. Bu isə o deməkdir ki, ictimai istehsalda, iqtisadiyyatda İP-lərin qarşılıqlı əlaqədar 2 i/e sistemi fəaliyyət göstərir.

1-ci sistem ictimai istehsalın i/e-nin ümumi sistemidir. Bu halda İP-nin i/e-si təsərrüfatçılığın i/e-si sisteminin əsas tərkib hissəsi kimi baxılır. Bu sistem bütövlükdə ictimai istehsalın problemlərinin həll edilməsi iqtidarında olmaqla yanaşı məlum həcmdə dolayı olaraq İP-nin inkişafını stimullaşdırır. Bunu İP-nin ekzogen (xarici) i/e sistemi adlandırmaq olar. 2-ci sistem birbaşa olaraq İP-nin i/e-sinin endogen (daxili) sistemi adlandırıla bilər.

Birbaşa olaraq İP-nin özünün i/e-si sistemi digər sosial-iqtisadi proseslərin i/e-sindən özünün məqsədinə, tərkibinə, funksiyalarına, prinsiplərinə və metodlarına görə əhəmiyyətli fərqlənir. İP-nin i/e-sinin məqsədlərinə aşağıdakılar daxildir:

-buraxılan məhsulun çeşidinin və nomenklaturasının, habelə tətbiq edilən texnikanın, texnologiyaların, istehsalın təşkili metodlarının daim yeniləşməsi;

- gələcəkdə ölkənin elmi və ET potensialının inkişafı, elmi cəhətdən yeni fürsətlərin yaradılması.

Dar mənada İP-lərinin i/e-nin mahiyyəti tədqiqat proseslərinə, layihə-konstruktor (layhə-texnoloji) işləmələrə və yeniliyin mənimsənilməsinə, xərclərin və yerinə yetirilmə müddətlərinin azaldılması, son nəticədə effektliyin (iqtisadi, sosial, ekoloji) yüksəldilməsi məqsədilə, məqsədyönlü təsir göstərməkdən ibarətdir. Ümumi halda i/e-nin mahiyyəti İP-nin ekzogen i/e sistemi nöqteyi-nəzərindən açıqlana bilər.

İP-lərinin i/e-si idarə olunmanın ümumi və spesifik prinsipləri əsasında həyata keçirilir ki, bu da innovasiyaların xüsusiyyətləri və İF-nin məzmunu ilə şərtlənir. Sonuncu İP-nin özünün i/e-sinin sisteminin formalaşması üçün, başqa sözlə endogen i/e sisteminin qurulması üçün vacibdir. İP-nin i/e-sinin spesifik prinsiplərinə çeviklik, vaxt amilinin nəzərə alınması, komplekslilik, innovasiya işlərinin müəyyən edilə bilməməsinin uçotunu, onların yaradıcı xarakterinin uçotu aid edilir.

İP-nin effektli i/e-si innovasiya mexanizmi vasitəsilə reallaşdırılır. İnnovasiya mexanizmi-təşkilati, idarəçilik, maliyyə-iqtisadi, hüquqi, informasiya, texniki və mənəvi-psixoloji amillərin, onların qarşılıqlı əlaqəli və qarşılıqlı təsirdə olmasının məcmusu olmaqla İF-nin uğurlu həyata keçirilməsinə və onun nəticələrinin effektliyinin yüksəldilməsinə səbəb olur. Bu təyinetmədən belə çıxır ki, innovasiya mexanizminin tərkibinin elementləri aşağıdakılar hesab edilirlər:

-innovasiya münasibətlərinin təşkilati formaları;

-innovasiyaların i/e metodları;

-innovasiyaların maliyyələşdirmə metodları;

-innovasiyaların nəticələrinin effektliyinin qiymətləndirilməsi metodları;

-innovasiya fondlarının (mərkəzləşdirilmiş və desentralizasiya edilmiş, dövlət və regional) formalaşdırılması qaydaları və istifadəsi;

- innovasiya qanunvericiliyi;

- innovasiya aktivliyinə mənəvi-psixoloji təsir metodları;

-İP prosesinin informasiya-texniki təchizatı tədbirləri və s.

Sazlanmış innovasiya mexanizmi, yuxarıdakı elementlərin birgə işləməsi ən çox onların bir-birindən asılılığı və əlaqəli, proporsional olması ilə müəyyən olunur. Həmin elementlərin əlaqəliliyi və strukturu, formaların, metodların və tədbirlərin əhəmiyyəti və optimallığı həyata keçirilən innovasiya siyasətinin i/e səviyyələrinə uyğun gəlməlidir.

Təsərrüfat mexanizminin innovasiyalara təsiri i/e-nin müəyyən üslubları və xüsusi strategiyaların köməyilə həyata keçirilir. Məcmu formada bu üsullar və strategiya innovasiyaların i/e-sinin xüsusi mexanizmini - innovasiya menecmentini əmələ gətirir [8, s.19].

İnnovasiya menecmenti innovasiyaların, İP-lərinin və iqtisadi münasibətlərin i/e-sinin sistemidir. Bunun bazasında aşağıdakı başlıca məqamlar dayanır:

1. Baxılan innovasiyanın yaradılması üçün onun əsası kimi götürülən ideyanın məqsədyönlü axtarışı.

2. İdeyanın innovasiyaya çevrilməsi üzrə nəzərdə tutulan kompleks təşkilati və texniki işlərin görülməsi.

3. İnnovasiyaların bazarda irəlilədilməsi və reallaşdırılması prosesi. Bu, yaradıcı yanaşma və satıcıların aktiv fəaliyyətlərini tələb edir.

İnnovasiya ETT-nin məhsulu olmaqla bazarla qarşılıqlı təsirdədir. Qane olunmayan bazar tələbatı yeniliyin yaradılmasını və tətbiqini stimullaşdırır. Bu da, öz növbəsində, innovasiyanın bazarda meydana gəlməsilə tələb və rəklif arasında nisbəti dəyişdirir, yeni bazar ehtiyaclarını törətməklə bazarda seqmentləri formalaşdırır (şəkil 1.1) [3, s.12].




**Şəkil 1.1. İnnovasiyaların bazarla qarşılıqlı əlaqəsi**

İP aşağıdakı aspektlərlə müəyyən edilir:

- tsiklik xarakter daşıyır - bir bazis yenilikçilik özünün arxasınca paket dəyişikliklər cəlb edir (məs., elektrik cərəyanının generatorunun kəşf edilməsi müxtəlif sahələrdə əhəmiyyətli dəyişikliklərə gətirdi);

- ehtimal xarakterlidir - innovasiyaların bazarda tətbiqi və irəlilədirlməsi həmişə qabaqcadan çətin xəbər verilən prosesdir. Belə ki, hesabat və faktiki göstəricilərin ayrılması ehtimalı mövcud olur;

- təşkilatlararası xarakterə malikdir. İP-ni həyata keçirmək üçün müxtəlif təşkilatların (Elmi Tədqiqat İnstitutlarının, injinirinq və məsləhət firmalarının, maliyyə təşkilatlarının) qarşılıqlı fəaliyyət göstərməsi zəruridir;

- sahələrarası xarakterə malikdir. Yenilikçilik iqtisadiyyatın müxtəlif sahələrində tətbiq edilə bilər, yayılma miqyası onların əhəmiyyətini əks etdirir [1, s.21].

Tsikl (yunanca kuklos-dairə) qarşılıqlı əlaqədar hadisələrin, proseslərin, işlərin məcmusu olmaqla hər hansı aralıq vaxt müddətində bitmiş bir dairəni yaradır. İnnovasiyanın həyat tsikli (İHT) konsepsiyası innovasiyaların istehsalının planlaşdırılmasında və İP təşkil edərkən böyük əhəmiyyət kəsb edir. Bunlar aşağıdakılarda özünü göstərir:

• innovasiyaların HT təsərrüfat subyektinin rəhbərinin və onun marketinq xidmətinin təsərrüfatçılığının indiki vaxtı, habelə onun inkişaf perspektivi nöqteyi-nəzərindən, başqa sözlə, gələcək zamanda mövqeyi baxımından fəaliyyətinin təhlillərinin aparılmasına sövq edir;

• innovasiyaların HT innovasiyalardakı buraxılışın planlaşdırılması üzrə (ideyanın axtarışı, innovasiya prosesinin təşkili, innovasiyaların yaradılması, onun bazarda irəlilədilməsi və diffuziyası), həmçinin innovasiyaların əldə edilməsinə görə (tələbin öyrənilməsi, marketinq, bençmarketinq) sistemli işlərin zəruri olmasını əsaslandırır;

• innovasiyaların HT konsepsiyası innovasiyaların təhlili və planlaşdırılması mexanizminin əsasıdır. İnnovasiyaları təhlil edərkən həmin innovasiyanın hansı həyat tsikli mərhələsində olmasını, onun yaxındakı perspektivliliyini, nə vaxt kəskin enməsinin başlamasını və nə zaman özünün mövcud olmasının bitməsini müəyyən etmək olar.

İnnovasiya məhsulunun HT dedikdə, yeni məhsulun işlənib hazırlanmasından onun bazara və köhnəlməsinə daxil olana qədər mərhələlərin məcmusu başa düşülür. İnnovasiyaların HT-nin mərhələlərinə: - yeniliyin yaradılması; - yeniliyin kommersiyalaşdırılması (çıxardılması); - istehlakçının yeniliyi əldə etməsi; - yeniliyin mənimsənilməsi (tətbiq edilməsi); - yeniliyin (digər məhsulun, yaxud texnologiyanın yenilənməsi daxil olmaqla) istehlak olunması daxildir.

İnnovasiyaların HT material və qeyri-material yenilikçilik üçün fərqlidir. Əmtəənin HT yeniliyin bazara daxil olması anından satış həcminin əksilməsindən və əmtəənin bazardan çıxmasına qədər olan mərhələlərin məcmusudur.

Məhsuldakı innovasiyaların HT-nin mərhələlərinə aşağıdakılar daxildir:

- məhsulun yaradılması üzrə elmi-texniki tədqiqatların konstruktor işləri (ETTKİ);

- məhsulun seriyalarla buraxılmasının texniki hazırlığı və təşkili;

- məhsulun miqyaslı istehsal edilməsi;

- məhsulun istehsal həcminin azalması və buraxılışının dayandırılması.

Texnologiyanın HT-texnoloji yeniliklərin yaranı-

şından onların köhnəlməsinə qədər olan mərhələlərin məcmusudur. Texnoloji innovasiyaların HT mərhələləri bunlardan ibarətdir:

- texnologiyaların yaradılması üzrə ETTKİ;
- texnologiyaların sənayedə mənimsənilməsi;
- texnologiyaların yayılması və tirajlanması;
- texnologiyaların köhnəlməsi.

Milli iqtisadiyyatımızda innovasiyaların həyata keçirilməsinə gəldikdə isə xarici təcrübənin nəzərə alınması olduqca vacibdir. Bu, həm vaxt itkisinin aradan qaldırılmasına və qabaqcıl təcrübədən hərtərəfli yararlanmağa imkan verə bilər. İnkişaf etmiş ölkələrlə yanaşı Avropa dövlətlərində həyata keçirilən innovasiya siyasətinin araşdırılması ölkəmizə bir sıra tədbirlərin təcili həyata keçirilməsinin zəruri olduğunu ortaya qoyur:

- təsərrüfatçılıq fəaliyyətində ETTKİ-yə vergi güzəştlərinin edilməsi;
- xüsusi iqtisadi zonaların meydana gəlməsi;
- elmi-tədqiqat mərkəzləri, ali təhsil müəssisələri və digər təşkilatların kooperasiya əlaqələrinin gücləndirilməsi nəticəsində tədqiqatların aparılmasının gücləndirilməsinə, yenilikçilik üzrə təhsil və kadr hazırlığına, intellektual mülkiyyətin qorunmasına dövlətin dəstəyi;
- rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi, onların daxili və xarici bazara çıxardılması üzrə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;
- mövcud resurslardan istifadə etməklə bölgələrdə regional innovasiya siyasətinin gerçəkləşdirilməsi;
- mülkiyyət formasından asılı olmayaraq dövlət və özəl sektorda yenilikçiliyin həyata keçirilməsinə sərmayə qoyuluşunun cəlb edilməsi;
- innovasiyaların sürətləndirilməsi məqsədilə yeni texnika və texnologiyaların alınması və istehsalata tətbiq edilməsinin sürətləndirilməsi və s. [7, s. 11].

Beləliklə, müasir iqtisadiyyatın İP-ləri olmadan, innovasiyaların yeni məhsullara və texnikalara təcəssüm etdirmədən təsəvvür etmək olmaz. Bu, bazar şəraitində iqtisadi inkişafın əsasıdır. İP təşkilatda, inzibati i/e orqanlarında, sosial-mədəni, sahibkarlıq və maarifləndirmə sferalarında hər hansı bir obyektin və dəyişikliyin hazırlanması ilə ifadə olunur. İF vahid tam təqdim edilə bilən bir neçə qarşılıqlı əlaqədar fazalardan ibarətdir. İP-nin bütün mərhələlərinin yerinə yetirilməsi nəticəsində reallaşdırılmış, istifadə edilmiş, iqtisadi faydalı dəyişiklik-innovasiya meydana gəlir. Bununla belə, qeyd olunmalıdır ki, müasir iqtisadi şəraitdə keçən İP-lər kifayət qədər mürəkkəbdir, çox vaxt aparır, təşkilatın bütün kollektivinin gərgin səylərini tələb edir.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Азоев Г.Л. и др. Управление организацией: учебник /Государственный университет управления; под ред. А.Г.Поршнева, З.П.Румянцевой, Н.А.Саломатина. 4-е изд., перераб. и доп. М.: ИНФРА-М, 2015. 735 с.*

*2. Доценко Ю.П. О трактовке понятия "инновационный проект". Наука и науковедение. № 1 , Киев −1998, с. 278*

*3. Исмагилова В.С., Ихтисамова Г.А. Инновационный менеджмент Уфимский Государственный Авиационный Технический Университет УФА 2014 с.176*

*4. Кондратьев Н.Д. Проблемы экономической динамики. Экономика. Москва − 1989. с.220*

*5. Методические указания к разработке государственных планов экономического и социального развития СССР. Экономика, Москва −1980, с. 145*

*6. Миско К.М. Ресурсный потенциал региона (теоретические и методические аспекты исследования), "Наука", Москва −1992.*

*7. A. Musayev İnnovasiya siyasəti: Avropa birliyi təcrübəsi və Azərbaycan şəraitinə adaptasiya imkanları, Azərbaycanın vergi xəbərləri № 5 2010 s.124.*

*8. Сабетова Т.В. Инновационный менеджмент: учебное пособие/ Т.В. Сабетова, Л.В. Брянцева, А.Г. Волкова.– Воронеж: ФГБОУ ВО Воронежский ГАУ, 2017. – 202 с., s.145*


## XÜLASƏ


Məqalə innovativ inkişafın layihə menecmenti çərçivəsində tənzimlənməsi aspektlərinə həsr edilmişdir. İnnovativ inkişafın bazar iqtisadiyyatında effektli layihə idarəetməsi mexanizmi vasitəsilə tənzimlənməsinə xüsusi diqqət yetirilmişdir. İnnovasiya layihəsi yeniliyi ilə xarakterizə olunan elmi-texniki tədbirlər kompleksi kimi nəzərdən keçirilir, investisiya proseslərinin idarə olunması,bazarla qarşılıqlı əlaqəsinin təmin edilməsi məsələləri tədqiq edilir,innovasiyaların həyat tsikli konsepsiyasının metodoloji müddəaları əsaslandırılır.



**Açar sözlər:** *innovasiya, proyekt, idarəetmə, proses, fəaliyyət, potesnial, bazar, tsikl, həyat.*

# Методологические аспекты регулирования инновативного развития

**Ахмедова Гюлнара Телман гызы**
**Национальная Авиационная Академия**
***e-mail: gahmadova@naa.edu.az***

**РЕЗЮМЕ**

Статья посвящается методологическим аспектам регулирования инновативного развития в рамках проектного менеджмента. Особое внимание уделено регулированию инновтивного развития посредством механизма проектного управления. Инновационный проект рассматривается как комплекс научно-технических мероприятий, характеризующихся новизной, исследуются проблемы оценки и управления инновационного процесса,взаимосвязи инноваций с рынком, обосновываются методологические положения концепции жизненного цикла инноваций.

**Ключевые слова:** *инновация, проект, управление, процесс, деятельность, потенциал, рынок, цикл, жизнь.*

# METHODOLOGICAL ASPECTS OF INNOVATIVE DEVELOPMENT REGULATION

**Gulnara Ahmadova Telman qizi**
**National Aviation Academy**
***e-mail:gahmadova@naa.edu.az***

**SUMMARY**

Article is dedicated to regulation aspects of innovative development within project management. Special attention was paid to regulation of innovative development in market economy through effective project management mechanism. Innovation project is considered as scientific-technical measures characterised by innovation, investment process management and issues of ensuring of mutual relationship with market are studied, methodological provisions of life cicle concept of innovations are substantiated.

**Keywords:** *innovation, project, management, process, activity, potential, market, life cycle.*

UOT 334.012: 334.012.32:334.012.33

# AZƏRBAYCANIN NEFT EMALI SƏNAYESİNDƏ SAHİBKARLIĞIN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**VÜQAR TAĞIYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı,*

*E-mail: vtaqiyev@mail.ru*

Azərbaycanın neft emalı sənayesi milli iqtisadiyyat üçün böyük əhəmiyyət kəsb edir. Bugünkü reallıqlarda Azərbaycanın neft emalı sənayesinin məhsullarına tələbat kifayət qədər ödənilir və onların satışından əldə edilən gəlirlər dövlət büdcəsinin formalaşmasında mühüm rol oynayır. Hazırda Azərbaycanın neft emalı müəssisələrində neftin emalının səmərəliliyinin və həcminin artırılmasına ehtiyac var ki, bu da, öz növbəsində, həmin sahədə istehsal güclərinin genişləndirilməsini və təkmilləşdirilməsini tələb edir. Prioritet istiqamət təkrar neft emalı prosesləri üçün avadanlıqların modernləşdirilməsidir. Bundan əlavə neft məhsullarının emalı məqsədilə istehsal güclərindən istifadənin səmərəliliyini artırmaq üçün ilkin neft məhsulları bazarını genişləndirmək lazımdır. Bunlar neft emalı sənayesinin inkişafının davamlılığına müsbət təsir göstərər.

Müasir şəraitdə neft emalı sənayesinin inkişafının davamlılığı Azərbaycan iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edir. Neft emalı müəssisələrinin davamlı inkişaf konsepsiyasında, ilk növbədə, yerli xammaldan maksimum istifadə, dünya bazarındakı tələbatı öyrənməklə yeni neft emalı sahələrinin yaradılması nəzərə alınmalıdır ki, bu da ölkəmiz üçün zəruri olan və yüksək iqtisadi potensiala malik mövcud istehsalın yenidən qurulmasını tələb edir [1]. Neft emalı müəssisələrinin bu sahə məhsulları bazarında mövqeyini möhkəmləndirən, həmçinin davamlı inkişafını təmin edən həmin müəssisələrin əsas sərvəti olan resurs potensialından istifadənin səmərəliliyinin artırılmasıdır. Təşkilati struktur və idarəetmə üsulları bu müəssisələrin resurs potensialından istifadə üzrə ən optimal idarəetmə qərarlarının qəbul edilməsinin səmərəliliyinə mühüm təsir göstərir. Neft emalı sənayesinin resurs potensialından maksimum səmərəli istifadəni təmin edən mühüm sahə istehsal ehtiyatlarının idarə olunması üçün alət və üsulların düzgün seçilməsidir. Neft emalı müəssisələrində ən mühüm idarəetmə vasitələri büdcələşdirmə, strateji planlaşdırma, nəzarət və proses yönümlü idarəetmədir [2, s.150].

Neft emalı sənayesi bir sıra sənaye sahələrinin inkişafına, o cümlədən, ağır sənaye və maşınqayırmaya kömək edir. “Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”ndə qeyd olunur ki, rəqabətqabiliyyətli neft emalı müəssisələri şəbəkəsinin istehsal gücünü şaxələndirmək və ölkənin ixrac potensialını artırmaq üçün müasir neft emalı müəssisələrinin yaradılması və inkişafının sürətləndirilməsi zəruridir [3]. Bu sahədə sahibkarlığın inkişafı da Azərbaycanın ixrac potensialının artırılması ilə bağlı kompleks məsələləri həll edə bilər. Neft emalı sənayesinin inkişafının davamlılığına bu sahədə sahibkarlıq fəaliyyəti güclü təkan verər. Neft emalı sənayesi üzrə iqtisadi uğurların, sənaye istehsalında yüksək artım templərinin əldə olunmasında sahibkarlığın inkişafı müstəsna rol oynayır. Müasir dövrdə milli iqtisadiyyatın qarşısına bir sıra mühüm vəzifələr qoyulur. Bu vəzifələr sırasına məhz neft emalı sənayesində sahibkarlığın inkişaf etdirilməsi vəzifəsini də aid etmək olar. Sahibkarlıq fəaliyyətini inkişaf etdirməklə bu sənaye sahəsinin şaxələndirilməsinə nail olmaq mümkündür. Bu, bütün sahibkarlıq subyektlərinin mənfəətinin artması ilə ifadə olunan birbaşa fayda verəcəkdir. Bu, həmçinin bütün səviyyəli büdcələrə əlavə gəlirlər gətirmək, iş yerlərinin yaradılmasına töhfə vermək, neft emalı məhsullarının rəqabətqabiliyyətlilik səviyyəsini yüksəltmək, neft emalı sənayesinin inkişafına təkan vermək baxımından da əhəmiyyətlidir. Qeyd edək ki, neft emalı müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılmasında sahibkarlığın inkişafının rolu və potensialı hələ də lazımi səviyyədə qiymətləndirilməyib və öyrənilməyib. Ona görə də neft emalı sənayesində sahibkarlığın inkişaf etdirilməsi istiqamətlərinin öyrənilməsinin və qiymətləndirilməsinin aktuallığı artır.

Sahibkarlıq iqtisadi fəaliyyətin xüsusi növü kimi çıxış edir. Çünki onun ilkin mərhələsi, bir qayda olaraq, yalnız ideya ilə, sonradan maddiləşmiş forma alan zehni fəaliyyətin nəticəsi ilə əlaqələndirilir. Sahibkarlığın inkişafı milli sərvətin və millətin rifahının artmasına gətirib çıxarır. Sahibkarlıq mühitinin formalaşması təkcə milli problem deyil, həm

də qlobal problemdir. Sahibkarlıq fəaliyyəti iqtisadi fəaliyyət növü kimi qanunla müəyyən edilmiş xüsusiyyətlərlə xarakterizə olunmaqla yanaşı, kommersiya fəaliyyətini də əhatə edir [4, s.126]. İqtisadiyyatın innovativ və məhsuldar inkişafının əsasını təşkil edən sahibkarlıqdır. Sahibkarlıq çoxşaxəli mürəkkəb hadisədir. Sahibkarlıq fəaliyyəti, ilk növbədə, fiziki və hüquqi şəxslərin fərdi təşəbbüsü əsasında həyata keçirilən, risklə əlaqəli, sistemli şəkildə mənfəət əldə etməyə yönəlmiş iqtisadi fəaliyyətdir. Bu konsepsiya sahibkarlıq fəaliyyətin digər iqtisadi fəaliyyət növlərindən fərqləndirən əsas xüsusiyyətləri ortaya qoyur: mənfəət üçün strateji məqsədyönlülük, fəaliyyətin müstəqilliyi, iqtisadi risk, yaradıcı və təşəbbüskar komponent, riskə daim hazır olmaq, yeni imkanların aktiv axtarışı, dinamizm. O, istehsalın ən mühüm amillərindən biridir. Onun inkişaf səviyyəsi və perspektivləri milli iqtisadiyyata mühüm təsir göstərir.

Qeyd edək ki, milli iqtisadiyyatın gələcək inkişafının mühüm mənbəyi sahibkarlığın inkişafıdır. İstənilən ölkədə sahibkarlıq fəaliyyəti sahəsində yaranan mübahisələrin tənzimlənməsinin predmeti hüquqi aktlardır. Sahibkarlığı bütövlükdə iqtisadiyyatın dinamik inkişafı alətlərindən biri kimi götürsək, o zaman bu fəaliyyəti rəqabət olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycan üçün sahibkarlığın inkişafı aktual problemlərdən biridir. Sahibkarlığın inkişafı bazarın inkişafının açarıdır. Ona görə də sahibkarlıq sahəsində bir çox problemlərin gündəmə gəlməsi həm də onun iqtisadiyyatdakı rolunun vacibliyindən xəbər verir. Sahibkarlıq fəaliyyəti sahəsində dövlət nəzarəti fərdi sahibkarlar və təşkilatlar tərəfindən normativ-hüquqi aktların müəyyən tələblərinin yerinə yetirilməsi üçün bir növ monitorinq sistemidir [5, s. 156]. Sahibkarlar heç də həmişə məhsullarını tam sata biləcəklərini bilmirlər. Sahibkarlıq fəaliyyətinin əsas fərqləndirici xüsusiyyəti riskin olmasıdır. Risk həmişə sahibkarlığı müşayiət edir. Yüksək dərəcədə qeyri-müəyyənlik və risk şəraitində fəaliyyətlər yekun mənfəət əldə etməyə zəmanət vermir. Odur ki, neft emalı sənayesində sahibkarlığı inkişaf etdirərkən risk amilini hökmən nəzərə almaq lazımdır. Bütün bunlar neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsini zərurətə çevirir.

Sahibkarlıq fəaliyyətinin maliyyə nəticələrinə təsir edən amillərin təhlili onun resurslarından istifadənin səmərəliliyini qiymətləndirməyə, istehsalın səmərəliliyini artırmaq üçün daxili ehtiyatları müəyyən etməyə və ölçməyə, aşkar edilmiş ehtiyatların dövriyyəyə cəlb edilməsinə yönəlmiş zəruri tədbirləri işləyib hazırlamağa imkan verir. Bu, daha sərt rəqabətin mövcud olduğu şəraitdə xüsusilə aktualdır. Hər bir şirkət mümkün olan ən yüksək gəlir əldə etmək üçün ən təsirli inkişaf yolunu tapmağa çalışır [6, s.253]. Neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin maliyyə nəticələrinə həmin sənayenin istehsal potensialı mühüm təsir göstərir. Amma, təəssüf ki, bu sahədə sahibkarlığın inkişafı hələ istənilən səviyyədə deyildir və istehsal olunan neft emalı məhsulları isə dövlət müəssisələrinin payına düşür. Belə ki, rəsmi mənbələrə görə 2020-ci ildə dizel yanacağının istehsalı 2019-cu illə müqayisədə 11,6 min ton və ya 0,6% azalmışdır. Avtomobil benzininin istehsalı isə 5,4 min ton və ya 0,5% artmışdır. 2020-ci ildə neft emalı müəssisələri üzrə 2726,6 milyon manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da ölkə üzrə sənaye məhsulunun ümumi dəyərinin 7,3%-i deməkdir [7**]**. Ölkə üzrə sənaye məhsulunun ümumi dəyərində neft emalı sənayesinin payının daha da artırılması üçün bu sahədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və ona təsir göstərən amillərin müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. Neft emalı sənayesində sahibkarlığın inkişafına bir sıra xarici amillər təsir göstərir ki, bu amillər, bir qayda olaraq, genişmiqyaslı xarakter daşıyır və müəssisələrin fəaliyyətindən və onların işçilərinin səlahiyyətlərindən asılı deyildir. Buna görə də onların müəssisələrin fəaliyyətinə təsirindən qaçmaq mümkün deyil. Bəzi hallarda, onları qabaqcadan görmək olar və onların mənfi təsirini minimuma endirmək və ya əksinə, müəssisənin xeyrinə istifadə etmək olar. Xarici amillərə aid edə bilərik: dövlətin idxal və ixrac siyasəti; ölkənin iqtisadi inkişaf səviyyəsi; keyfiyyətli maliyyə xidmətləri və kapital bazarlarının səmərəli fəaliyyəti; ölkədə infrastrukturun inkişaf səviyyəsi; elmi-texniki potensialın davamlı inkişafı; əmək ehtiyatları, onların ixtisasları və mövcudluğu; maliyyə-kredit, amortizasiya, vergi və gömrük siyasəti; dövlət sığortası; məhsulun sertifikatlaşdırılması və standartlaşdırılmasının dövlət sistemləri və onların yaradılması. Daxili amillərə gəldikdə, bunlar müəssisə işçilərinin peşəkar imkanları fəaliyyətin yekun nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Fəaliyyətin səmərəliliyini artırmaq üçün mümkün perspektivləri nəzərə alaraq, bu amillər qrupuna etibar etmək lazımdır. Daxili amillərə bunları aid etmək olar: 1) müəssisənin təşkilati-istehsal struk-

turları; 2) texnologiya; istehsal proseslərinin tənzimlənməsi; 3) kadrların ixtisas səviyyəsi; 4) idarəetmə keyfiyyəti; 5) normativ-metodiki və informasiya təminatı; 6) keyfiyyətli idarəetmə sisteminin işləməsi; 7) strateji idarəetmə; 8) satış şəbəkəsinin inkişafı; 9) informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi; 10) müasir informasiya texnologiyalarının tətbiqi səviyyəsi; 11) bilik iqtisadiyyatı; 12) istehsalın inkişafına daim investisiyaların cəlb edilməsi; 13) daimi və sadiq müştəri bazasının formalaşması; 14) müəssisənin reputasiyası; 15) malların keyfiyyətini yaxşılaşdırmaq üçün işçilərin motivasiyası; 16) rəqabət üstünlükləri; 17) rəqabət strategiyasının effektivliyi və s. Eyni zamanda, araşdırmalara görə belə bir fikir formalaşıb ki, neft emalı sənayesi üzrə innovativ sahibkarlığın inkişafı üçün böyük məbləğdə vəsait tələb olunur ki, bu vəsaitlər aşağıdakı problemlərin həllinə yönəldilməlidir: rəqiblərin texnoloji potensialı haqqında obyektiv məlumat bankının yaradılması və elmi-tədqiqat institutlarında, universitetlərdə və sənayenin aparıcı müəssisələrinin elmi-texniki mərkəzlərində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi; neft emalı sənayesinin texnoloji səviyyəsinin effektivliyini qiymətləndirmək üçün elmi-texniki ekspertizanın aparılması, sahə və sektorlararası (neft hasilatı və emalı) xarakterli problemlərin həlli üçün innovasiyaların idarə edilməsi və elmi-texniki tərəqqinin proqnozlaşdırılması üzrə mütəxəssis hazırlığının sürətləndirilməsi [8, s.103]. Neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılmasının əsas istiqamətlərinin qiymətləndirilməsi nisbətən az xərc tələb edən tədbirlərin öyrənilməsini nəzərdə tutur ki, onların həyata keçirilməsi əhəmiyyətli iqtisadi effekt verə və rəqabət qabiliyyətini artıra bilər [9]. Bu problem sektorlararası xarakter daşıyır və bazar şəraitində onun əhəmiyyəti artır. Son illər neft emalı sahəsində kiçik və orta müəssisələrin rolu son vaxtlar artmaqdadır. Məhz onlar rəqabət mühitini, qiymətlərin optimallaşdırılmasını və neft emalı məhsulları bazarında sabitliyi təmin edə bilirlər. Ona görə də onların inkişafı məsələsi ümummilli əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd edilənlərə əsaslanaraq neft emalı sənayesində sahibkarlıq fəaliyyətini inkişaf etdirmək üçün əsas prioritetləri aşağıdakı kimi göstərə bilərik:

- bazarda tələbat olan neft emalı məhsullarının istehsalı üçün mövcud müəssisələrin modernləşdirilməsi və yeni istehsal güclərinin yaradılması;
- neft emalı müəssisələrinin karbohidrogen xammalı ilə davamlı təminatı;
- neft emalı sənayesinin xammal bazasının şaxələndirilməsi;
- neft emalı müəssisələrini xammalla təmin etmək və hazır məhsulların istehlakçılara daşınması üçün infrastrukturun inkişafı;
- karbohidrogen ehtiyatlarının dərindən emalı sektorlarının formalaşdırılması məqsədilə kiçik və orta sahibkarlığın infrastrukturunun inkişafı;
- istehsal olunan neft emalı məhsullarının keyfiyyətinin yüksəlməsinə səbəb olacaq müəssisələrdə texniki avadanlıqların təkmilləşdirilməsinin və müasirləşdirilməsinin təmin edilməsi.

Bu problemlərə kompleks yanaşma ölkədə yerli neft emalı məhsullarını artırmaqla yanaşı, sahibkarlıq fəaliyyətini yeni keyfiyyət səviyyəsinə qaldıra biləcəkdir. Ümumilikdə, müəyyən edilmiş prioritet istiqamətlər Azərbaycanda neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin mütərəqqi dinamik inkişafını təmin edəcək və bütövlükdə ölkədə yüksək əlavə dəyərli neft emalı məhsullarının gələcək artımı üçün əsas təşkil edəcəkdir. Neft emalı sənayesində sahibkarlıq fəaliyyəti sahəsində həllini tələb edən problemlərin olması, onun səmərəli inkişaf strategiyasının işlənib hazırlanmasını və təkmilləşdirilməsini zərurətə çevirir. Odur ki, qeyd edilən sahədə sahibkarlığın inkişaf strategiyasını hazırlamaq və qəbul etmək lazımdır. Həmin strategiyada əsas strateji məqsədlər bunlardan ibarət ola bilər: 1) neftə və onun emalı məhsullarına daxili tələbatın sabit, fasiləsiz və iqtisadi cəhətdən səmərəli şəkildə ödənilməsi; 2) vətəndaşların daxili ehtiyaclarına və gələcək nəsillərin mənafelərinə xələl gətirmədən neft və neft emalı məhsullarının ixracının artırılması; 3) ölkənin icmal büdcəsinin mədaxil hissəsinə sabit gəlirlərin təmin edilməsi; 4) neft emalı müəssisələrinin fəaliyyətinin enerji, iqtisadi və ekoloji səmərəliliyinin artırılması üçün investisiya və innovasiya təminatının yaxşılaşdırılması və s. [10, s.474]. Neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin inkişafı dövlət tənzimlənməsi səviyyəsindən asılıdır. Neft emalı sənayesində sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi üçün sistemli, ardıcıl qanunvericilik bazasının yaradılması məqsədəuyğundur.

Sahibkarlıq subyektlərinin təsərrüfat fəaliyyəti prosesində sahibkarların şəxsi maraqları ilə dövlətin və cəmiyyətin ictimai maraqları tez-tez toqquşur. Dövlətin heç bir müdaxiləsi olmadan bazar münasibətlərinin mövcud olması qeyri-mümkündür. Ba-

zarın tənzimləyici rolu iqtisadiyyatın, o cümlədən sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmi ilə tamamlanır [11, s.187]. Sahibkarlıq fəaliyyəti sahəsində bir çox inzibati-hüquqi tənzimləmə alətləri mövcuddur. Ən mühümlərindən biri dövlət nəzarətidir. Bazar iqtisadiyyatı şəraitində dövlət (xarici, idarədən kənar) nəzarəti əhəmiyyətli dərəcədə artır. Bu cür nəzarət qanunvericilik çərçivəsində aparılmalıdır. İnnovasiyalar olmadan bazara daxil olmaq demək olar ki, mümkün deyil. Məhz innovativ sahibkarlıq neft emalı müəssisələrinə bazarda rəqabət üstünlüyü əldə etməyə imkan verir və onların iqtisadi inkişafı üçün həlledici əhəmiyyət kəsb edir [12, s.88-89]. Neft emalı müəssisələrinin rəqabət qabiliyyətinin artması yalnız innovativ potensialın formalaşması ilə baş verəcəkdir.

## YEKUN

Hazırda neft-kimya müəssisələrinin rəqabət qabiliyyətinin artırılması innovasiya ilə bağlıdır. İnnovasiyasız və yeni yaradıcı ideyaların axtarışı olmadan səmərəli rəqabətədavamlı sahibkarlığı təsəvvür etmək mümkün deyil. İnnovativ sahibkarlığa dövlət dəstəyinin məqsədəuyğunluğu bir sıra amillər, o cümlədən sosial və makroiqtisadi amillərlə bağlıdır:

– iri müəssisələr daxilində fəaliyyət göstərən kiçik müəssisələr üçün əlverişli şərait yaradır;

– orta səviyyəli sahibkarlığın formalaşmasına kömək edir;

– bazar iqtisadiyyatı prinsipləri əsasında sosial sistemlərin sabitliyini möhkəmləndirir;

– iqtisadiyyatın şaxələndirilməsinə və sağlam rəqabət mühitinin formalaşmasına töhfə verir;

– innovativ müəssisələr işsizliyin azaldılmasını təmin edir, xeyli sayda işçini əhatə edir ki, bu da təkcə cəmiyyətin sosial inkişafına deyil, həm də iqtisadi artım tempinə müsbət təsir göstərir və s.

– neft emalı sənayesində sahibkarlığın inkişafı problemlərinin həlli üçün regionlararası əməkdaşlığın səmərəli təşkili;

– sahibkarlığın inkişafına dövlət dəstəyinin təmin edilməsi və s.

–

**Açar sözlər:** *neft emalı, neft emalı sənayesi, sahibkarlıq, sahibkarlığın inkişaf problemləri, sahibkarlığın inkişaf istiqamətləri, neft emalı sənayesinin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Aliyev, Sh.T. Problems Of Diversification Of Azerbaijani Economy In Modern Conditions. / VIII International scientific and practical conference «Current problems of social and labor relations», Makhachkala. 17-18. 12. 2020. – p.38-44. https://doi.org/10.2991/assehr.k.210322.080.*

*2. Сидоренко, К.А. Проблемы и пути развития нефтеперерабатывающего комплекса России / К.А.Сидоренко, С.А.Савина // Осознание Культуры - залог обновления общества. Перспективы развития современного общества: Материалы XXI Всероссийской научно-практической конференции, Севастополь, 10–11 апреля 2020 года, – С. 149-152*

*3. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 6 dekabr 2016.*

*4. Сорокин, В.А. Признаки предпринимательской деятельности / В.А. Сорокин // Актуальные научные исследования в современном мире. – 2021. – № 3-3(71). – С. 123-126.*

*5. Костина, М.Р. Проблемы государственного контроля в сфере предпринимательской деятельности / М.Р.Костина, А.Л.Шевцов // Эволюция государства и права: проблемы и перспективы: сборник научных трудов 2-й Международной научной конференции, Курск, 27 марта 2020 года.– С. 155-158.*

*6. Шадиева, М.Ю. К вопросу об оценке экономической эффективности предпринимательской деятельности / М.Ю.Шадиева, Б.М.Мусаева // Естественно-гуманитарные исследования. – 2021. – № 34(2). – С. 251-254*

*7. Azərbaycan sənayesi. Statistik məcтиə. Bakı, 2021, 243 s*

*8. Калиниченко, М.В. Перспективные направления ускорения развитияотечественных нефтеперерабатывающих предприятий / М.В.Калиниченко // Вестник Самарского государственного университета. Серия: Экономика и управление. – 2015. – № 9-1(131). – С. 101-106*

*9. Əliyev, Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri // "Xəbərlər" jurnalı, AMEA İqtisadiyyat İnstitutu, №5, 2020.-s. 5-12.*

*10. Гусяков, В.Ю. Государственное регулирование предпринимательской деятельности в нефтяной отрасли. Ученые записки Крымского*

*федерального университета имени В.И. Вернадского Юридические науки. – 2021. – Т. 7 (73). № 1. – С. 469-476.*

*11. Филина, Е.В. К вопросу о понятии государственного регулирования предпринимательской деятельности / Е.В.Филина, Г.М.Азнагулова // Modern Science. – 2020. – № 2-2. – С. 187-191.*

*12. Əliyev, Ş.T. Azərbaycanın kimya və neft-kimya komplekslərinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, 2012, 156 s.*

## РЕЗЮМЕ

### Направления развития предпринимательства в нефтеперерабатывающих промышленностях Азербайджана

В статье исследованы направления развития предпринимательства нефтеперерабатывающей промышленности Азербайджана. С этой целью исследованы и анализированы возможности развития нефтеперерабатывающей промышленности. Дана важность нефтеперерабатывающей промышленности в диверсификации структуры экономики страны. Обоснована важность усиления нефтеперерабатывающей промышленности и приведены серьёзные научные аргументации по необходимости ускорения развития нефтеперерабатывающей промышленности. Раскрыты проблемы и даны перспективы а также рассмотрены нынешние ситуации нефтеперерабатывающих сфер в Азербайджане. Подготовлены рекомендации и даны предложения по направлению развития предпринимательства в нефтеперерабатывающей промышленности в условиях новых вызовов.

**Ключевые слова:** *переработка нефти, нефтеперерабатывающая промышленность, предпринимательство, проблемы развития предпринимательства, направления развития предпринимательства, перспективы развития нефтеперерабатывающей промышленности.*

## SUMMARY

### Directions of entrepreneurship development in oil processing industry of Azerbaijan

The article investigates the directions of entrepreneurship development in the oil refining industry of Azerbaijan. Opportunities for the development of the oil refining industry were studied and analyzed. The importance of the oil refining industry in diversifying the structure of the country's economy was presented. The importance of expanding the oil refining industry is explored. The current state of oil refining industries in Azerbaijan was reviewed, problems were identified, and perspective were given. Recommendations and proposals were developed on the development of entrepreneurship in the oil refining industry in the context of new economic challenges.

**Keywords:** *oil refining, oil refining industry, entrepreneurship, entrepreneurship development problems, entrepreneurship development directions, oil refining industry development perspectives.*

UOT 330.34

# İNNOVASİYA İQTİSADİYYATININ KADR TƏMİNATI STRATEGİYASINDA YENİ YANAŞMALAR

**RÜSTƏM RÜSTƏMOV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin "Menecment" kafedrasının dissertantı*

*E-mail: r.c.rustam@gmail.com*

Elmi tədqiqatların və işlərin effektiv innovasiya sisteminin və balanslaşdırılmış sektorunun yaradılması üzrə dövlət prioritetləri səviyyəsində qoyulmuş vəzifələrə baxmayaraq, ölkəmizdə yüksək texnologiya və elm tutumlu istehsalatın vəziyyəti dünya bazarlarında onların lazımi rəqabət qabiliyyətli olmasını təmin etmir, yerli sənayedə köhnə texnologiyalar üstünlük təşkil edir, müasir elm və texnikanın, yeni idarəetmə sistemlərinin nailiyyətlərindən zəif istifadə olunur. Elm və təhsil sahəsində kifayət qədər yüksək potensiala malik olan ölkəmiz buna baxmayaraq innovasiya inkişafı baxımından dünyanın aparıcı dövlətlərindən əhəmiyyətli dərəcədə geri qalır [1]. Bu cür geri qalmanın səbəbi az deyil. Onlar arasında insan amili – rəhbərlərin, sahibkarların, idarəedən və sıravi işçilərin istehsalatın və xidmət sahəsinin innovasiya inkişaf tipinin reallaşdırılması ilə əlaqədar olan yeni kursu tətbiq etmək və həyata keçirmək bacarığı, zənnimizcə, heç də son yer tutmur. İqtisadiyyatda innovasiya prosesləri ilə insan resurslarının inkişafı arasında obyektiv qarşılıqlı əlaqələr və asılılıq mövcuddur [2].

İnnovasiya iqtisadiyyatının inkişafı texnika və texnologiyaların, iqtisadiyyatın və idarəetmənin yeni istiqamətləri üzrə kadr hazırlığını, innovasiya bacarıqlarına malik olan işçilərin hazırlığını nəzərdə tutan innovasiya işçi qüvvəsinin təkrar istehsalını nəzərdə tutur [3]. Müasir innovasiya proseslərinin inkişafı üçün həm yeni biliklərin əldə olunması, həm də onların iqtisadiyyatın istehsalat sektorlarına və sosial sferaya ötürülməsi eyni dərəcədə vacib şərtlərdir. İqtisadiyyatın kəmiyyət və keyfiyyət baxımından optimal balanslaşdırılmış yüksəkixtisaslı kadrlarla təmin olunması, eləcə də Azərbaycanda cəmiyyət qarşısında duran problemləri həll edə biləcək intellektual elitanın formalaşması probleminin həlli dövlətin ən vacib vəzifələrindəndir.

İnnovasiya iqtisadiyyatı istiqamətində irəliləmə hər şeydən əvvəl elmi-texnoloji kadrlara tələbat doğurur. Bununla bağlı məsələlər həm təhsilin, həm əmək bazarlarının, eləcə də elm, texnologiya və innovasiya siyasətinin inkişafına aiddir. Texnologiyaların inkişafı yalnız ixtisaslaşmış kadrlara tələbatı artırmır, həmçinin, həmin ixtisasın səviyyəsinə qarşı tələbləri yüksəldir [4]. Elmi-texniki kadrlara tələbatın artması müxtəlif ölkələrdə müxtəlif cür təmin olunur. Ali təhsilli insanların sayının artmasına baxmayaraq, elm və texnologiyalar sahəsində universitet məzunlarının payı digər sahələrlə müqayisədə o qədər də çox olmamaqla yanaşı, hətta, azalmağa doğru gedir. Bir çox inkişaf etmiş ölkələr üçün bu problemin həlli ali təhsilin və tədqiqat proqramlarının açıq olmasından, həmçinin tədqiqatlar və innovasiyalar üçün əlverişli şəraitin yaradılmasından ibarətdir [5].

İnsan kapitalının, xüsusən də elmi-texniki kapitalın innovasiya iqtisadiyyatındakı rolu daim artmaqdadır. Biliyin maddi rifahın yaradılma mənbəyi olduğu yeni iqtisadiyyatda insan kapitalının əhəmiyyəti maliyyə kapitalından az deyil. Buna görə də insan kapitalına qoyulan investisiyalar – innovasiya iqtisadiyyatının inkişafının açarıdır.

Elm və texnologiyalar sahəsində insan resursları yüksək texnologiyaların inkişafına əsaslanan iqtisadi inkişafın nüvəsini təşkil edir ki, o da öz növbəsində iş yerlərini yaradır və həyat səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılmasına gətirib çıxarır. Savadlı elmi-texniki kadrların hazırlanması ictimai və dövlət sektorun özəl sektora təqdim etdiyi əsas xidmətlərdən biridir [6]. Cəmiyyətin əmək resurslarının effektiv istifadəsi nəticəsində əldə etdiyi olduqca böyük üstünlüklər dövlətin elmi tədqiqatlar sahəsində təhsilə və təlimə daha artıq investisiya qoyması üçün əsasdır. İnnovasiya prosesinin əsası kimi fundamental biliklərin və elmin uzunmüddətli inkişafı adekvat və yaxşı təhsil almış elmi-tədqiqat heyətinin və müəllimlərin olmasından asılı olacaq.

Firmalar səviyyəsində aparılan analiz onu göstərir ki, şirkətlərdə elmi-tədqiqat kadrlarının sayı, bütün işçilərə nisbətdə şirkətin ölçüsündən və onun fəaliyyət sahəsindən asılı olmayaraq yeni məhsulların və istehsalat proseslərinin meydana gəlməsinə birbaşa təsir edir.

Elmi-texniki heyətin iqtisadiyyatın sektorları,

kiçik və böyük firmalar arasında və dövlət sərhədlərində irəliləməsi texnologiyaların vacib hərəkət kanalıdır. Yerdəyişmə zamanı ali məktəb məzunları, intellektual kadrlar müxtəlif ölkələrin iqtisadiyyatları üçün külli miqdarda iqtisadi mənfəət təmin edən xüsusi bilikləri də özləri ilə birlikdə daşıyır. Bu biliklər elm və texnologiyanın yeni yaranan və sürətlə inkişaf edən sahələrində xüsusi zərurət təşkil edir.

Elm və texnologiyalar sahəsində insan resursları həm də sahibkarlıq fəallığının mənbəyi olması ilə əhəmiyyət kəsb edir. Bu iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə tam həcmdə aiddir. Müəllim və alimlər tez-tez yüksək texnoloji şirkətlərin əsasını qoyur, dövlət tədqiqat sahəsini tərk etdiyi halda isə innovasiyaların, bilik və texnologiyaların sənayenin yenidən qurulmasına və iş yerlərinin yaradılmasına yer dəyişməsi üçün töhfə vermiş olurlar. Yüksək texnologiyalara əsaslanan yeni şirkətlər öz növbəsində yüksəkixtisaslı elmi və tədqiqat işçiləri üçün iş yerlərinin artan mənbəyinə çevrilir.

Son iki onillik ərzində kadr təminatının ən kəskin problemlərindən biri elmi-texniki kadr çatışmazlığıdır. Bütün iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə ötən əsrin 80-90-cı illəri boyunca, eləcə də XXI əsrin əvvəllərində, xüsusən, informasiya-kommunikasiya texnologiyaları ilə bağlı sahələrdə elmi-texniki heyətə tələbatın artması müşahidə olunurdu. Bu isə çox əhəmiyyətlidir, belə ki, İT sahəsində işçi defisiti dövlətlərin yüksək texnologiyaların inkişafından iqtisadi üstünlüklər əldə etmək imkanlarını məhdudlaşdıra bilər. Buna görə də yalnız universitet təhsilinə deyil, həmçinin, ali təhsildən sonrakı, istehsalat təhsili və treninqlər xətti ilə əməkdaşların təhsil almasına qoyulan investisiyaların artırılması çox vacibdir.

Elmi-texniki heyətin tərkib hissəsi kimi elmi-tədqiqat heyətinə tələbat da 1980-ci illərdən başlayaraq tədricən artmasına baxmayaraq, 90-cı illərin birinci yarısında bu artımın tempi ləngiməyə başladı.

Elmi-texniki kadrlara tələbatın artmasına təkan verən amillərdən biri xidmət sahəsinin genişlənməsi və burada yüksək texnologiyaların istifadəsinin artmasıdır. Proqram təminatı və telekommunikasiya xidmətləri kimi xidmət sahəsinin sürətlə inkişaf edən sektorlarının bir çoxunda xeyli sayda elmi-tədqiqat və elmi-texniki kadrlar çalışır [7].

İnsan resurslarının özəl sektorda istifadə olunması strategiyasında elmi-tədqiqat və elmi-texniki kadrlara tələbatın artması istiqamətində dəyişikliklər dövlət tədqiqat sektorunda məşğulluğa təsir edir. Bu kontekstdə innovasiya iqtisadiyyatı şəraitində kadr siyasətinin inkişafının vacib istiqaməti sənaye ilə iqtisadiyyatın dövlət sektorunda həyata keçirilən elmi-tədqiqat fəaliyyəti arasında qarşılıqlı əlaqənin güclənməsidir. Bu qarşılıqlı əlaqə gücləndikcə həm dövlət tədqiqat müəssisələri, həm də xüsusi firmalar işin daha çevik görülməsi və ən yeni elmi-texniki nailiyyətlərdən və biliklərdən istifadənin genişlənməsi məqsədi ilə öz fəaliyyətində getdikcə daha çox müvəqqəti yaradıcı kollektivlərin – innovasiya komandalarının işinə söykənir.

Müvəqqəti innovasiya komandalarının formalaşması ideyası bizim ölkəmiz, ilk növbədə isə şəxsi tədqiqat bölmələrinə malik olmayan, lakin digər təşkilatlarda artıq işlənib hazırlanmış layihələri özünün istehsal spesifikasına uyğunlaşdıraraq istifadə etmək imkanına malik olan müəssisələrimiz üçün də aktualdır.

İnnovasiya iqtisadiyyatının qurulması və fəaliyyəti üçün yüksəkixtisaslı intellektual kadrların çatışmazlığı şəraitində, eləcə də bu sahədə artan beynəlxalq rəqabət fonunda ali təhsili, ilk növbədə də elmi-texniki təhsili, eləcə də, istehsalat təlimi sistemini müasir innovasiya inkişafının tələblərinə cavab verən səviyyəyə gətirmək məsələsi getdikcə daha böyük aktuallıq qazanır. Elmi-texniki kadrlara tələbat artdıqca hökumətlər və özəl biznes işçilərin bilik iqtisadiyyatı şəraitində işləmək üçün bacarıqlarla təmin olunması istiqamətində yeni yollar axtarıb tapmağa çalışmalıdır.

Ali təhsil sahəsində aparılan siyasət uzun müddət ərzində təklifin artmasına fokuslanmışdır. Bu gün bu siyasət elm və texnika sahəsində müasir iqtisadi inkişafın tələblərinə cavab verən təhsilin keyfiyyətinin yüksəlməsi istiqamətində aparılır. Bundan əlavə, ali təhsil artıq müstəsna olaraq elmi-texniki kadrların hazırlanması mənbəyi, xüsusi ilə də onların informasiya-texnologiya tərkib hissəsi kimi nəzərdən keçirilə bilməz. Sənaye müəssisələri, firmalar əlavə təhsil institutu rolunu oynamalıdır. Dəqiq formalaşdırılmış tələblər və hər bir insanın imkanının analiz olunması şərti ilə işçilərin fasiləsiz təhsil alma, hazırlıq, ixtisasartırma prosesi ayrıca müəssisə çərçivəsində keyfiyyətli insan resurslarını inkişaf etdirməyə imkan verir. Dövlət təşkilatları və özəl şirkətlər işçilərin yeni bacarıqları mənimsəmək üçün, öz peşəkar səviyyəsini daima təkmilləşdirmək və ömürboyu öyrənmək üçün stimullaşdırılmasına yönəlmiş tədbirlər işləyib hazırlamalıdır [8]. Bu tədbirlər həm kadrların

öyrədilməsinə vəsait yatıran firmalar üçün vergi imtiyazları şəklində, həm də təhsilə çəkilən xərclərin bölünməsi ilə bağlı müxtəlif tədbirlər şəklində həyata keçirilə bilər. Firmalar, dövlət müəssisələri və təhsil institutları arasında tərəfdaşlıqlar həmçinin risklərin və təhsil xərclərinin bölünməsi məsələsinin həllində də yardım edə bilər.

Özəl sektorda elmi-texniki heyətin məşğulluğunun artmasına baxmayaraq dövlət elmi-tədqiqat təşkilatları və ali təhsil müəssisələri elmi-texniki heyətin əsas işəgötürəni kimi qalmaqdadır. Elm və təhsil əvvəlki kimi, hətta, dövlət sektorunun ən az rol oynadığı iqtisadiyyatlarda belə hökumətin başlıca vəzifəsi olaraq qalır. Buna görə də yeni nəsil tələbələri öyrətmək bacarığına malik olan elmi-texniki heyətin cəlb olunmasının, təlimləndirilməsinin və saxlanmasının stimullaşdırılması dövlətin müstəsna hüququdur. Dövlət tədqiqat müəssisələrindən alınan daha yüksək nəticələrə tələbatın artması bu sahənin daha da açıq olmasını və onun inkişafı ilə əlaqədar dövlət təşəbbüslərinin yenilənməsini tələb edir. Hal-hazırda innovasiya inkişafının tələblərinə uyğun olaraq özəl şirkətlərlə yanaşı, universitetlər və dövlət tədqiqat institutları da xaricdən gələn spesifik elmi-texniki informasiyadan daha dolğun istifadə hüququnu əldə etmək üçün çevik müvəqqəti işçi kollektivlərinin, innovasiya komandalarının işinə getdikcə daha çox ehtiyac duyur. Bunun üçün isə sənaye ilə tədqiqat və texnoloji tərəfdaşlıqlarda (məsələn, tədqiqat müqavilələri formasında) iştirak etməni inkişaf etdirmək lazımdır. Hal-hazırda Qərb ölkələrində dövlət tədqiqat sektorunda ənənəvi məşğulluq formaları (işə götürmənin müddəti, daimi məşğulluq) şirkətlərlə analogiyada öz yerini daha adekvat formalara verir.

Elmi tədqiqatlardakı tərəqqi və biznesdə innovasiyaların inkişafı dövlət tədqiqat bazası (hökumət laboratoriyaları və universitet tədqiqatları) ilə sahibkarlıq sektoru arasında qarşılıqlı əlaqənin səviyyəsindən və keyfiyyətindən getdikcə daha çox asılı olmağa başlayır.

Elmi tədqiqatlarla sənayenin qarşılıqlı təsirinin güclənməsinə yönəlmiş və elmi işlərin kommersiyalaşmasına yardım edən hərəkətlər çox vaxt elmi-texniki işçilərin mobilliyinə fokuslanır.

Biliklərin iqtisadi sahələrdə yayılmasının vacib mənbəyi kimi elmi-texniki kadrların mobilliyi problemi innovasiyaların kadr təminatı strategiyasının istiqaməti olmaqla yanaşı, həm də iqtisadiyyatın effektivliyini artırmaq məqsədilə işçilərin iqtisadiyyatın müxtəlif sektorları üzrə səmərəli yerləşdirilməsi üçün əsas vasitələrdən biridir. Elm və texnologiyaların inkişafı sürətlə baş verdiyinə görə biliyin müxtəlifliyinin və ixtisaslaşmasının dərəcəsi də artır. Mobillik tədqiqatçılara və praktiki işçilərə həmin bilik sahəsindəki inkişafla ayaqlaşmağa yardım edən vasitədir. O, həmçinin, yeni bilik sahələrini açmağa kömək edir, belə ki, müxtəlif elmi fənlərin nümayəndələri ilə real iqtisadi sektorun müxtəlif texnoloji sahələrinin işçilərinin qarşılıqlı fəaliyyətinə şərait yaradır. Bundan başqa, həddən artıq mobillik həm şirkət, həm də ayrı-ayrı işçilər üçün xərclərin artmasına gətirib çıxarır.

Elm və təhsil sahəsində elmi işçilərə və müəllimlərə dövlət-özəl tərəfdaşlıq strukturlarında sənaye ilə əməkdaşlıq etməyə imkan yaradan kadr-təşkilat islahatları da biliklərin mobilliyinə və yerdəyişməsinə zəmin yaradır. Mobilliyin və elmlə sənayenin əməkdaşlığının əqli mülkiyyət hüququnda və əldə olunan kommersiya nəticələrində iştirak etmək, birgə nəşrlərə görə mükafatlandırma, birgə patentləşdirmə kimi maliyyə mükafatı tədbirləri də biliklərin yerdəyişməsinə kömək edə bilər. Həmçinin onlar işçilərin praktik təlim keçməsi üçün imkanların genişlənməsini təmin edir. Lakin, medalın əks tərəfi də var. Universitetlər və dövlət tədqiqat müəssisələri elə situasiya ilə üz-üzə qalır ki, burada daha yüksək əməkhaqqı və ya işəgötürənin təkidi ilə cəlb olunan istedadlı işçilər özəl sektora keçərək, ali məktəblərdə müəllimlərin sayının, dövlət sektorunda isə elmi işçilərin sayının azalmasına səbəb olur. Xarici mobilliyin, xüsusən də intellektual işçilərin dövlət tədqiqat sektorunu tərk etməsinin alternativi sənaye ilə elm arasında daha çox əməkdaşlığın stimullaşdırılması, elmi-tədqiqat potensialının və istehsalatın birləşməsi və alimlərlə praktiki işçilərin firmadaxili əməkdaşlığıdır.

Elmi-tədqiqat fəaliyyətinin qloballaşması şəraitində, eləcə də ali təhsil sisteminin beynəlmiləlləşdirilməsi şəraitində elmi-texniki işçi qüvvəsinin beynəlxalq mobilliyi ayrılmaz xüsusiyyət təşkil edir [9]. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr yüksəkixtisaslı peşəkarların həmin ölkələrə miqrasiya etməsinə şərait yaradan yeni ali təhsil və elmi tədqiqatlar sistemini yaradır. İntellektual kadrlara olan tələbatın təmin olunmasına iqtisadiyyatın açıqlıq dərəcəsi müəyyən təsir göstərir, əcnəbi işçi qüvvəsinin müvəqqəti və daimi miqrasiyasına dair dövlət tədbirləri isə özəl sektorun bu tələbatı tənzimləmə-

sinə yardım edir. Beynəlmiləlləşdirilmiş ali təhsil və elmi-tədqiqat fəaliyyəti sistemlərinə malik ölkələr adətən əcnəbi elmi-texniki heyətin sayının artmasında böyük müvəffəqiyyətə nail olur. Lakin əcnəbi elmi-texniki tələbələrə və işçilərə istiqamətlənməyin hədd-hüdudu var, belə ki, dövlətin özünün gələcək nəsil alim və texnoloji kadrlarını yetişdirmək istiqamətindəki səylərini əvəz etmir.

Sahibkarlıq sektorunun elmi-texniki heyətin innovasiyaların inkişafına verdiyi töhfəsinin gücləndirilməsi üçün şərait yaratmasını stimullaşdırmaq dövlətin ən vacib vəzifələrindəndir. Özəl sektorun məşğulluq sistemində yaratdığı şərait tələbələr üçün, ilk növbədə, elm və texnologiyalar sahəsində təhsil almağa stimul yaratmaqda, əmək bazarında isə müvafiq kadrlara tələbatla təkliflər arasında uyğunluğun əldə olunmasında mühüm rol oynayır. İxtisaslaşmış işçilərin cəlb olunmasına və təhsil almasına biznes investisiyalarının yatırılmasının stimullaşdırılması üçün dövlət tərəfindən şərait yaratmaq da daxil olmaqla kompleks tədbirlər sistemi tətbiq olunmalıdır.

İnnovasiya iqtisadiyyatı üçün işçilərin formalaşdırılması texnika və texnologiyalardan, idarəetmə metodlarından kifayət qədər anlayışı olan ixtisaslaşmış kadrların hazırlanması ilə məhdudlaşmır. Bundan əlavə, onlar "innovasiya bacarıqlarına", yəni əmək fəaliyyəti prosesində müstəqil surətdə innovasiyaları təkmilləşdirmək qabiliyyətinə malik olmalıdır. Kadrların innovasiya bacarıqlarının başlanğıc göstəriciləri, təbii ki, onların peşə təhsilinin səviyyəsi və ixtisasıdır. Buna görə də innovasiyaların kadr təminatının əsasını həm iqtisadiyyatda innovasiya proseslərinə tələbata uyğun olaraq təhsil planında kadr hazırlığının idarəetmə mexanizmi, həm də innovasiyaların bilavasitə müəssisə və təşkilatlarda işlənməsi və tətbiq olunması ilə əlaqədar heyətin fasiləsiz inkişafı təşkil edir.

Təhsil sahəsi daha çox insan kapitalının inkişafı üçün başlanğıc şəraitin yaradılmasına təsir edir, innovasiya kadrlarının hazırlığının əsasını isə hər şeydən əvvəl ali təhsil sahəsində tədris təşkil edir. Lakin innovativ tədqiqat üslubunda təhsilə şərait yaratmaq üçün Azərbaycan ali məktəblərinin daimi fəaliyyətdə olan qabaqcıl elmi bazaya və düzəldilmiş elmi təhsil transferi sisteminə ehtiyacı var.

Azərbaycanda yeni təşkilati formalara – tədqiqat universitetlərinə prioritet dövlət dəstəyi göstərilir. Qərbdə bunlar artıq elm və təhsilin müasir inteqrasiya forması kimi çoxdan özünü təsdiq etmişdir. Çoxfunksiyalılıq, elmin və ən yeni texnologiyaların müasir istiqamətlərinə oriyentasiya və tədris etmənin yüksək səviyyəsi ilə yanaşı informasiyanın daha çox açıq olması və beynəlxalq elm və təhsil sisteminə inteqrasiya tədqiqat universitetlərinin səciyyəvi xüsusiyyətləridir.

Azərbaycanın kadrların hazırlığı üzrə innovasiya infrastrukturunun obyektləri ali təhsil sistemi çərçivəsində mərkəzləşmişdir. Yerli ali təhsil müəssisələrində hal-hazırda innovasiya fəaliyyətini təmin edən 2000-dən artıq struktur, o cümlədən kiçik innovasiya və xidmət müəssisələri fəaliyyət göstərir. Lakin son zamanlar baş verən müəyyən irəliləyişlərə baxmayaraq, bu gün mövcud olan innovativ kadrların hazırlıq infrastrukturu heç də kifayət qədər effektivliyə malik deyil. Texnoparklar və innovativ-texnoloji mərkəzlər çərçivəsində fəaliyyət göstərən firmaların yalnız kiçik bir qismi həqiqətən də innovasiyalar və müasir texnologiyaların istehsalı ilə məşğuldur.

İnnovasiya iqtisadiyyatının yaradılmasının əksər problemləri innovasiya proseslərini effektiv idarə etmək bacarığına malik olan ixtisaslı kadrların kəskin çatışmazlığı ilə əlaqədardır. Yerli mütəxəssislər, bir qayda olaraq, demək olar ki, elmi-texniki və analitik informasiya xarakterli istənilən vəzifənin tələb olunan səviyyədə öhdəsindən gəlmək üçün yetərincə ixtisasa malikdir. Əsas çətinliklər intensiv texnoloji dəyişiklik və dinamik rəqabət şəraitində yeni məhsulun və texnologiyanın bazara yeridilməsi strategiyasının formalaşmasının və reallaşdırılmasının peşəkarlığı ilə bağlı meydana gəlir.

## YEKUN

İnnovasiya iqtisadiyyatının inkişafı texnika və texnologiyaların, iqtisadiyyatın və idarəetmənin yeni istiqamətləri üzrə kadr hazırlığını və təkrar istehsalını nəzərdə tutur:

- Müasir innovasiya proseslərinin inkişafı üçün yeni biliklərin əldə olunması və onların iqtisadiyyatın istehsalat sektorlarına və sosial sferaya ötürülməsi eyni dərəcədə vacib şərtlərdir;
- İqtisadiyyatın kəmiyyət və keyfiyyət baxımından optimal balanslaşdırılmış yüksəkixtisaslı kadrlarla təmin olunması, eləcə də, Azərbaycanda cəmiyyət qarşısında duran problemləri həll edə biləcək intellektual elitanın formalaşması probleminin həlli dövlətin ən vacib vəzifələrindəndir;
- Bu səbəbdən innovativ fəaliyyətin kadr təminatı problemi, hər şeydən əvvəl, bütün ixtisas

səviyyəsində olan idarəçilərin peşəkar bacarığının çatışmazlığı ilə bağlıdır, ali məktəbinin ən mühüm vəzifəsi innovasiya proseslərini effektiv idarə etməyi bacaran yüksəkixtisaslı heyətin hazırlanmasından ibarətdir;

- İnnovasiya layihələrinin reallaşdırılmasında fəal iştirak etməklə ali təhsil müəssisəsi milli innovasiya sisteminin formalaşmasına, innovasiya mədəniyyətinin və cəmiyyətinin innovativ düşüncə üslubunun təşəkkül tapmasına əhəmiyyətli töhfə verə bilər və s.

**Açar sözlər:** *innovasiya, iqtisadiyyat, ictimaiyyət, insan amili, sosial texnologiyalar, insan resursları, inkişaf.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Fedorova, Y. – Yeni innovativ iqtisadiyyatda kadr siyasəti. Moskva, 2007.*
2. *Forrester Research. "Global e-Commerce Approaches Hyper-growth", the Forrester Brief Sanchez et al., 2000.*
3. *Armstronq, M. – İnsan Resurslarının Strateji İdarə Edilməsi – M.:İNFRA – M. – 2002.*
4. *Хакимова К.Р. Методический подход к формированию механизма разработки инновационно-инвестиционной стратегии предприятия // Экономика и управление: науч.-практ. журн. 2016. № 2 (130). С. 56-58.*
5. *Əliyev, Ş.T. Azərbaycanda yeni iqtisadi vasitələrin tətbiqində və innovasiya iqtisadiyyatına keçilməsində innovasiya texnologiyalarının mühüm əhəmiyyəti / "Yeni informasiya texnologiyalarının elmi-tədqiqat işlərinin informasiya təminatına tətbiqi" mövzusunda IV elmi-praktiki seminarın materialları, AMEA Elmi-İnnovasiya Mərkəzi, Bakı, 15 may 2009, s.186-190*
6. *Litvina, N. Nikolayev, O. – İnnovativ iqtisadiyyat: insan kapitalı, xarici təcrübə - M.: LAP Lambert Academic Publishing, 2013 – 172 s.*
7. *Алиев, Ш.Т Вектор специальных экономических зон в инноватизации статья //Журнал «Инновационная деятельность», г. Саратов, 2010, № 4 (13), 2010, с. 7-11.*
8. *Azərbaycan Respublikasının Təhsil Nazirliyinin rəsmi internet səhifəsi. https://edu.gov.az/.*
9. *Алиев, Ш.Т. Моделирование инноватизации национальной экономики в современных условиях // Россия, Москва. Журнал «Научное обозрение», № 6, 2014, с. 342-347.*

## РЕЗЮМЕ
## НОВЫЕ ПОДХОДЫ В КАДРОВОЙ СТРАТЕГИИ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ

Развитие инновационной экономики предполагает подготовку и воспроизводство кадров в новых областях техники и технологий, экономики и управления. Приобретение новых знаний и передача их в производственные отрасли экономики и социальную сферу являются не менее важными условиями развития современных инновационных процессов. Одной из важнейших задач государства является обеспечение экономики оптимально сбалансированными по количеству и качеству высококвалифицированными кадрами, а также формирование интеллектуальной элиты, способной решать задачи, стоящие перед обществом в Азербайджане.

**Ключевые слова:** *инновация, экономика, общество, управление, человеческий фактор, социальные технологии, человеческие ресурсы, развитие.*

## SUMMARY
## NEW APPROACHES IN THE STAFFING STRATEGY OF THE INNOVATION ECONOMY

The development of an innovative economy involves the training and reproduction of personnel in new areas of machinery and technology, economics, and management. Acquisition of new knowledge and their transfer to the production sectors of the economy and the social sphere are equally important conditions for the development of modern innovation processes. One of the most important tasks of the state is to provide the economy with optimally balanced highly qualified personnel in terms of quantity and quality, as well as the formation of an intellectual elite that can solve the problems facing society in Azerbaijan.

**Keywords:** *Innovation, economy, society, management, human factor, social technologies, human resources, development.*

UOT 338.012:338.246

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN DİVERSİFİKASİYALAŞDIRILMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ

**NİGAR HACIYEVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*

*E-mail: hajiyeva2021@inbox.ru*

Azərbaycanın iqtisadi siyasətinin əsas məqsədlərindən biri iqtisadi artımdır. İctimai rifahın səviyyəsi bilavasitə ölkə rəhbərliyinin iqtisadi artımı stimullaşdırmaq üçün həyata keçirdiyi siyasətin nə dərəcədə effektiv olacağından asılıdır. İqtisadi artım cəmiyyətin inkişafı üçün ilkin şərtlərin formalaşması və həyata keçirilməsi ilə xarakterizə olunan iqtisadi inkişafın tərkib hissəsidir. İqtisadi artım xeyli dərəcədə milli iqtisadiyyatın modernləşdirilməsi səviyyəsindən asılıdır. Milli iqtisadiyyatın modernləşdirilməsi həm neft, həm də qeyri-neft sektoruna müsbət təsir edir. Milli iqtisadiyyatın modernləşdirilməsi prosesinə iki əsas yanaşmanı ayırd etmək olar: innovativ və diversifikasiya. İnnovativ yanaşma modernləşmə prosesində ən son qabaqcıl texnologiyaların tətbiqini, yüksək rəqabətə davamlı, elmi, təhsil və texnoloji profillərin inkişaf etdirilməsini nəzərdə tutur. Modernləşmə prosesinin hərəkətverici qüvvəsi məhz innovativ inkişaf və buna uyğun elmi-tədqiqat işlərinə investisiya qoyuluşudur. Modernləşmənin diversifikasiya paradiqması, ilk növbədə, diqqəti iqtisadiyyatın xammal yönümlülüyündən uzaqlaşdırmağa, Azərbaycanın ÜDM-də qeyri-neft sektorunun və aqrar-sənaye kompleksinin payının artırılmasına, eləcə də regionların inkişafına yönəldir. Aydındır ki, ölkənin qeyri-neft sektorunda modernləşmə dəyişikliklərinin uğurla həyata keçirilməsi üçün hər iki konsepsiyanın birləşməsi lazımdır.

Məlumdur ki, əlverişli iqlim şəraiti kənd təsərrüfatında məhsuldarlığın artmasına kömək edir. Eyni zamanda, aqrobiznesin modernləşdirilməsində əsas aspekt aqrar-sənaye kompleksinin emal sahələrində istehsal həcminin artırılmasıdır ki, bu da dəyər zəncirinin genişlənməsinə şərait yaradır. Azərbaycan sənayesində modernləşmə dəyişiklikləri innovativ inkişafla ayrılmaz şəkildə bağlıdır ki, bu da təkcə ümumi iqtisadi paradiqmanı deyil, həm də onun ayrı-ayrı elementlərinin xarakterini müəyyən edir. İnnovasiya sistemi yerli sənaye kompleksinin davamlı inkişafını təmin etmək üçün elmi tədqiqatların və yüksək rəqabətə davamlı texnoloji inkişafın formalaşmasını və təkamülünü nəzərdə tutur. Qarşıya qoyulan vəzifələrin həlli zamanı elmi-tədqiqat və inkişaf işlərinə dövlət səviyyəsində dəstək vermək lazımdır. Ölkədə sənayenin modernləşdirilməsinin təşviqinin mühüm aspekti əlçatan istehsal infrastrukturunun yaradılmasını və bürokratik maneələrin azaldılmasını əhatə edən əlverişli biznes mühitinin formalaşdırılmasıdır. Bu məsələ çərçivəsində qeyd etmək lazımdır ki, Azərbaycan hökuməti sahibkarlar üçün optimal biznes mühitinin yaradılmasına hər cür töhfə verir [1, s.364]. Diversifikasiya ərazinin təsərrüfat subyektlərinin fəaliyyətinə təsir göstərmək üçün təşkilati, hüquqi, maliyyə, iqtisadi tədbirlərin həyata keçirilməsinə əsaslanır. Diversifikasiya əsasında istehsalın səmərəliliyini artırmaq, iflas risklərini azaltmaq, bazar konyunkturasının xarici dəyişikliklərinə vaxtında reaksiya vermək bacarığını inkişaf etdirmək və bazar imkanlarının müəyyən edilməsi və rəqabətqabiliyyətliliyin yaradılması əsasında subyektin fəaliyyətinin rentabelliyini təmin etmək məqsədilə öz fəaliyyətlərini dəyişmək mümkündür. Diversifikasiyaya həm geniş, həm də dar mənada baxmaq olar. Ən ümumi formada diversifikasiya, adətən, müxtəlif fəaliyyət növlərinin dəyişdirilməsi prosesi kimi başa düşülür. İqtisadiyyatın diversifikasiyasının bir neçə səviyyəsi var: mikroiqtisadi diversifikasiya, mezoiqtisadi diversifikasiya və makroiqtisadi diversifikasiya.

Mikroiqtisadi diversifikasiya konkret müəssisə səviyyəsində həyata keçirilir. Müəssisənin diversifikasiya strategiyasından istifadə etməsi şirkətin idarəetmə komandası, onun şöbələri və bölmələri arasında yüksək səviyyədə qarşılıqlı əlaqə şəraitində onun rəqabət üstünlüyünə çevrilir. Mezoiqtisadi diversifikasiya konkret olaraq regional iqtisadiyyatın səviyyəsinə və ya müəyyən bir ərazinin iqtisadi sisteminə aiddir. Makroiqtisadi diversifikasiya ölkə iqtisadiyyatında bir çox sahələrin inkişafı deməkdir ki, bu da Azərbaycan üçün hazırkı iqtisadi vəziyyətində son dərəcə əhəmiyyətlidir. Makroiqtisadi diversifikasiya milli sektorlararası əmək bölgüsünə əsaslanır. Bu, regionların inkişafına, yeni iş yerlərinin açılmasına və işsizliyin azalmasına töhfə verir ki, bu da öz növbəsində sosial gərginliyin azaldılmasına gətirib çıxarır. Makroiqtisadi diversifikasiya üçün manatın

proqnozlaşdırıla bilən məzənnəsi vacibdir ki, bu da xarici institusional investorlar üçün valyuta riskini azaltmağa imkan verir. Bu, qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq baxımından əhəmiyyətlidir.

İqtisadi proseslərə tətbiq olunduqda diversifikasiya yalnız müxtəliflik kimi başa düşülməməlidir. Müxtəliflik və diversifikasiya arasındakı əsas fərq ondan ibarətdir ki, birinci anlayış statik, ikinci anlayış isə dinamikdir. Birincisi, fərqlilik vəziyyətini, ikincisi, müxtəlifliyin xüsusiyyətlərinin və növlərinin çoxluğunu əks etdirir. İqtisadiyyatın diversifikasiyasının dinamikasının strukturunda dəyişikliklər, müxtəlif mərhələlərin spesifik xüsusiyyətləri, onun fəaliyyət göstərmə şərtləri, xarici və daxili mühitin müəyyən spesifik xassələri, iqtisadi diversifikasiyanın məqsəd və mexanizmlərində mümkün dəyişikliklərə səbəb ola bilər. Diversifikasiyanın nəticələri iqtisadi və təşkilati ehtiyatlardan tam istifadəyə, xüsusən də aşağıdakılara yönəldilməlidir: rentabelliyin artırılması; ictimai təkrar istehsalın balanssızlığının aradan qaldırılması; transformasiya və inkişafın statistik sabitliyinin təmin edilməsi; rəqabət qabiliyyətinin artırılması; risklərin azaldılması və iqtisadi diversifikasiyanın davamlı inkişafı və s.

İqtisadi təcrübədə diversifikasiya müxtəlif fəaliyyət növləri kimi çıxış edir, xüsusən: 1) investisiyaların diversifikasiyası; 2) bank aktivlərinin diversifikasiyası; 3) bankların və dövlətin valyuta ehtiyatlarının diversifikasiyası; 4) qiymətli kağızlara investisiyaların diversifikasiyası; 5) məhsulların diversifikasiyası; 6) istehsalın diversifikasiyası; 7) idxalın diversifikasiyası; 8) ixracın diversifikasiyası və s. İxrac və idxalın diversifikasiyası birlikdə xarici ticarətin diversifikasiyasını əhatə edir. İdxalın diversifikasiyası bir alış mənbəyindən asılılığı azaldır və ya aradan qaldırır. Məsələn, bir ölkə ilə münasibətlər pisləşərsə, digər ölkələrdə bu məhsulların alışını artırmaq olar. İxracın diversifikasiyası xarici bazara çıxarılan əmtəə və xidmətlərin çeşidinin artmasına gətirib çıxarır ki, bu da onun səmərəliliyinin artırılmasına kömək edir və milli iqtisadiyyatın dünya bazarındakı dalğalanmalardan, xüsusən də dünya qiymətlərinin dəyişməsindən asılılığını azaldır. Məsələn, Azərbaycanın ixracında neft-qaz ixracı üstünlük təşkil edir. Azərbaycanın ixracı üçün neft-qaz xammalının payını azaltmaqla daha yüksək emal mərhələsinin məhsullarının payını artırmaqla onun strukturunu dəyişdirmək vacibdir. Deməli, Azərbaycan gözlənilməz karbohidrogen qiymətlərindən daha az asılı olmaq üçün iqtisadiyyatın yeni sahələrini inkişaf etdirməlidir. İxrac gəlirlərinin sabitliyini təmin etmək üçün ixracın dəstəklənməsi tədbirləri həyata keçirilərkən, ilk növbədə, ixracda qeyri-neft sektorunun məhsullarının payının artırılmasına diqqət yetirilməlidir.

Diversifikasiya adətən uzunmüddətli prosesdir. Eyni zamanda, idarəetmənin ümumi iqtisadi şərtləri və onların uzun müddət ərzində sabitliyi böyük rol oynayır. İqtisadiyyatın diversifikasiyası üçün makroiqtisadi şərtlər arasında ölkədə gəlir hissəsi əsasən neft qiymətlərindən asılı olan büdcənin sabitliyini və balansını vurğulamaq lazımdır. Ona görə də iqtisadiyyatın davamlı inkişafı üçün maliyyə ehtiyatı yaratmaqla neftin dünya qiymətlərinin büdcə gəlirlərinə təsirini minimuma endirmək lazımdır. Bundan əlavə, inflyasiyanın aşağı səviyyəsi tələb olunur. İnvestisiyaya ciddi ehtiyacı olan sənaye sahələrində, o cümlədən, qeyri-neft sektorunun müəssisələrinin daxil olduğu sənaye sahələrində sənaye artımının intensivləşdirilməsi məqsədilə inflyasiyanın mərhələli şəkildə azaldılmasına yönəlmiş mövcud fiskal siyasət davam etdirilməlidir.

Diversifikasiyalaşdırma təkcə eyni əmtəə dəstinin istehsalının daim təkmilləşdirilməsi prosesi deyil, həm də daha yüksək səviyyəli yeni fəaliyyətlərə keçmək üçün daha mürəkkəb bacarıqlar toplusunun mənimsənilməsini tələb edən prosesdir. Diversifikasiya iqtisadiyyatın struktur modernləşdirilməsinin əsasına çevrilir. Diversifikasiyanın vacib şərti mikro və makro səviyyələrdə bazar və idarəetmə uyğunluğudur. Biliyə əsaslanan diversifikasiya edilmiş makroiqtisadiyyatın uğurlu inkişafı üçün aşağıdakıları təmin edən şərait yaratmaq lazımdır: ölkədə yüksək mənəviyyat, mədəniyyət və təhsil; rabitə və informasiyanın yayılması sənayesinin dinamik infrastrukturu; tədqiqat mərkəzləri, universitetlər və kiçik firmalar daxil olmaqla effektiv innovasiya sistemi; biliyin səmərəli yaradılmasını, yayılmasını və istifadəsini stimullaşdıran iqtisadi və institusional mühit [2, s.978].

Ümumiyyətlə, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə iki əsas yanaşma mövcuddur: üfüqi və şaquli diversifikasiya. Makroiqtisadi səviyyədə diversifikasiyaya birinci yanaşma iqtisadi agentlərin fəaliyyəti üçün dayanıqlı institutların yaradılmasını nəzərdə tutur. Bu, əlverişli investisiya mühitinin formalaşmasını, dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılmasını və bazarlarda rəqabətin saxlanmasını nəzərdə tutur. Bu tədbirlər bütün iqtisadi subyektlərin vəziyyətinin yaxşılaşdırılmasına yönəlib. Şaquli diversifikasiya adlanan ikinci yanaşma iqtisadiyyatın strukturunun dəyişdirilməsi, onun ayrı-ayrı

sahələrin maliyyə stimullaşdırılması əsasında təkmilləşdirilməsi üzrə fəal dövlət siyasətini nəzərdə tutur. Bu tədbirlər iqtisadi agentlərin bəzi qruplarını digərlərinə nisbətən daha əlverişli şəraitdə qoyur. Bu yanaşmaların heç biri ayrı-ayrılıqda iqtisadiyyatın diversifikasiyasında mühüm problemlərdən biri olan iqtisadiyyatın yenidən qurulması problemini əsaslı şəkildə həll edə bilməz. Şaquli diversifikasiya həm qısamüddətli, həm də tez nəticə verə bilər. Məsələn, ixrac və ya idxal olunan mallar üçün gömrük tariflərinin dəyişməsi səbəbindən, həm də faiz dərəcələrinin monetar tənzimlənməsi və ya inflyasiyanın hədəflənməsi mexanizmlərinin həyata keçirilməsi zamanı. Qısa müddətdə bir ildən üç ilədək, uzunmüddətli perspektivdə isə müvafiq olaraq beş ildən on ilə qədər vaxt intervalları nəzərdə tutulur. Sənaye və ya region səviyyəsində üfüqi diversifikasiya orta müddətli, üç ildən beş ilə qədər olan zaman intervalında nəzərəçarpacaq nəticə verməlidir.

Sürətli diversifikasiya vəzifəsinin qarşıya qoyulması dövlətin daha fəal müdaxiləsini tələb edir. Yalnız bazar iqtisadiyyatı çərçivəsində bu cür müdaxilə mexanizmlərinin adekvat tətbiqi rəqabət mühitini pozmadan, qeyri-neft sektorlarının sürətli inkişafı hesabına iqtisadiyyatı diversifikasiya etməyə qadirdir. Fəal diversifikasiya siyasətinin risklərinin əksəriyyəti məhz burada cəmləşmişdir. Diversifikasiya səviyyəsinin qeyri-neft sektorunun davamlı inkişafına təsiri ilə bağlı üç yanaşma mövcuddur: 1) Resurs yanaşması. Diversifikasiya əsasən hansı resurslara malik olmasından asılı olaraq həyata keçirildikdə bu yanaşma tətbiq olunur. Regionda mövcud resursların miqdarı və həcmi haqqında ilkin məlumatlardan istifadə edərək və bu məlumatlar əsasında sənaye sahələrində diversifikasiya səviyyəsini nə dərəcədə artırmaq mümkün olduğunu müəyyənləşdirmək olur; 2) Klaster yanaşması. Bu yanaşma qeyri-neft sektorunun genişləndirilməsi üçün şərait yaratmaqla sənayenin inkişafına dolayı təsir göstərməyi nəzərdə tutur. Klasterlər regional iqtisadiyyatın şaxələndirilməsi üçün inkişaf mərkəzləri və artım nöqtələri kimi çıxış edir və 3) Strateji yanaşma. Diversifikasiya strategiyasının növlərinə əsaslanan bu yanaşma yeni məhsulların çeşidinin artırılması kimi qiymətləndirilə bilər [3, s.7]. Diversifikasiyanın keyfiyyətcə təhlili üçün onun vəzifələrini vurğulamaq lazımdır: 1) yeni fəaliyyət sahələrinin inkişafı yolu ilə fəaliyyət göstərən müəssisələrin modernləşdirilməsi; 2) infrastrukturun inkişafı; 3) resursların (investisiya, əmək resursları) cəlb edilməsi və inkişafı üçün şəraitin yaradılması; 4) sahibkarlığın inkişafına dəstək göstərilməsi və 5) uzunmüddətli perspektivdə qeyri-neft sektorunun davamlı və tarazlı inkişafının təmin edilməsi [4, s. 402].

Qeyri-neft sektorunun diversifikasiyalaşdırılması üçün perspektivli istiqamətlərin səmərəli həyata keçirilməsi və onun artırılmasına şərait yaradılması məqsədilə zəruri tədbirlərin daim işlənib hazırlanması dövlətin fəal rolundan çox asılıdır. Azərbaycanda qəbul edilmiş dövlət proqramları və strateji yol xəritələrində qeyri-neft sektorunun diversifikasiyalaşdırılmasına aşağıdakılar vasitəsilə nail olunması nəzərdə tutulmuşdur: qeyri-neft sektorunda idxaləvəzedici istehsalların genişləndirilməsi; qeyri-neft məhsullarının ixrac həcminin artırılması və diversifikasiyasının təmin edilməsi; regional iqtisadi inkişafa nail olunması; İKT və qabaqcıl istehsal texnologiyalarından istifadə etməklə rəqabətqabiliyyətli və yüksək texnologiyalı məhsulların istehsalı [5, s.16].

Hazırda qeyri-neft sektorunun diversifikasiyasının inkişafı davamlı iqtisadi artım üçün şəraitin təmin edilməsində xüsusi yer tutur. Qeyri-neft sektorunun diversifikasiyalaşdırılması dayanıqlı iqtisadi artım yaratmaq üçün bir-biri ilə rəqabətədavamlı olan qeyri-neft sahələrinin seçilməsi prosesi kimi nəzərdən keçirilməlidir. Digər tərəfdən diversifikasiya təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə onun şaxələndirilmiş inkişaf prosesi kimi başa düşülür.

Respublika iqtisadiyyatının diversifikasiyası emal sənayesi və xidmətlər sahəsində sahibkarlığın inkişafı baxımından əhəmiyyətlidir. Ölkədə sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə yönəlmiş hərtərəfli siyasət həyata keçirilir. Ölkədə genişmiqyaslı iqtisadi islahatların həyata keçirilməsi nəticəsində Azərbaycan cəmiyyətində sahibkarlar meydana çıxmış, onların fəaliyyəti cəmiyyətin inkişafında mühüm rol oynamağa başlamışdır.

Qeyri-neft sektorunun diversifikasiyasında sahibkarlığın stimullaşdırılması və dəstəklənməsinə müstəsna rol verilir. Sahibkarlıq böyük innovativ potensiala malikdir. Bu səbəbdən iri və kiçik sahibkarlıq subyektləri arasında müqavilə münasibətləri dinamik inkişaf edərək birgə fəaliyyətdən sinergetik effekt əldə olunmasını təmin edə bilir. Və bu, təkcə yüksək texnologiyalı sənaye sahələrinə aid deyil. Belə müqavilə münasibətlərinin həyata keçirilməsi iqtisadiyyatın bütün sahələrinə müsbət təsir göstərər. Kənd təsərrüfatının diversifikasiyası qeyri-neft sektorunun inkişafı baxımından əhəmiyyətlidir. Kənd yerlərinin iqtisadiyyatının diversifikasiyası zama-

nı onun strukturunda əsas sahələr olan bitkiçilik və heyvandarlıq inkişaf etdirilir. Onlar ənənəvi olaraq xammal istehsalında ixtisaslaşır və müxtəlif mal və xidmətlər istehsal edən digər sənaye sahələrini resurslarla təmin etmək funksiyasını yerinə yetirirlər [6, s.399].

Qeyd edək ki, bir sıra dövlət proqramlarının icrası respublikanın regional inkişafı siyasətinin praktiki həyata keçirilməsinin və buna uyğun kənd təsərrüfatının iqtisadiyyatının inkişafının başlanğıc nöqtəsinə çevrilmişdir. Bu baxımdan aqrar sektorun struktur və institusional islahatı mühüm əhəmiyyətə malikdir. Məsələn, 2014-cü ilin aprelin 16-da regionlarda aqrar siyasətin təkmilləşdirilməsi, kənd təsərrüfatı sahəsinə dövlət dəstəyinin göstərilməsi, aqrar sektorla bağlı problemlərin həlli üçün bir sıra struktur bölmələri arasında səmərəli əməkdaşlığın qurulması məqsədilə "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman imzalanmışdır [7]. Bu fərman aqrar sənayenin inkişafı üçün idarəetmə aparatının təkmilləşdirilməsinə, təbii ki, iqtisadi göstəricilərin artmasına təsir etdi. Təkcə onu demək kifayətdir ki, 2020-ci ildə ölkədə kənd təsərrüfatının ümumi məhsulunun həcmi 8428,9 milyon manat olub ki, bu da özündən əvvəlki illərdən həm bitkiçilik, həm də heyvandarlıq məhsulu üzrə ən yüksək göstəricidir. 2020-ci ildə bitkiçilik məhsulunun həcmi 2014-cü ilə nisbətən 64,5 %, 2019-cu ilə nisbətən 7,4 %, heyvandarlıq məhsulunun həcmi isə müvafiq dövrlərlə müqayisədə 58,5 % və 7,7 % çoxdur.

Qeyri-neft sektorunun təşviqi regionların inkişafı və Azərbaycan Respublikasının regional inkişaf siyasətinin həyata keçirilməsi üçün güclü stimula çevrilmişdir. Respublikanın regionlarının kifayət qədər inkişaf etdirilməmiş təbii sərvətlərinin və insan potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi, onların iqtisadi inkişafının stimullaşdırılması ölkənin gələcək inkişafının sosial problemlərinin həllində mühüm rol oynayır [9, s.61]. Qeyri-neft sektorunun inkişafında bank sektorunun rolu böyükdür. Müasir cəmiyyətin infrastrukturunun ən mühüm elementləri olan kommersiya bankları əsas ictimai funksiyaları yerinə yetirirlər. Buna görə də onların fəaliyyətinin sabitliyi bütövlükdə iqtisadiyyatın səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Odur ki, qeyri-neft sektorunun fəaliyyətinin genişləndirilməsində onların rolunu artırmaq lazımdır [10, s.77].

## YEKUN

Beləliklə, qeyd etmək olar ki, hazırda bir çox ölkə və regionlar öz inkişaf prosesində çoxsaylı struktur maneələrlə üzləşir və həm davamlı inkişafa, həm də daxili və xarici mənfi təsirlərə tab gətirmək qabiliyyətinə töhfə verən effektiv yollar və prioritet sahələr axtarışındadır. Məhz belə prioritetlər sahəsinə qeyri-neft sektoru daxildir. Bu istiqamətdə divesifikasiya problemlərinin həlli və iqtisadiyyatın qeyri-neft təmayüllü sahələrinin inkişaf etdirilməsi məqsədilə bir qrup amillərə və məsələlərə xüsusi önəm verilməlidir:

– Daimi qeyri-sabitlik şəraitində səmərəli inkişaf strategiyasına nail olmaq, müxtəlif maneələri aradan qaldırmaq və iqtisadi sabitliyi qoruyub saxlamaq yollarından biri qeyri-neft sektorunun diversifikasiyalaşdırılması səviyyəsinin yüksəldilməsidir;

– Bütövlükdə davamlı iqtisadi artıma keçid, xarici və daxili şəraitdən asılılığı azaltmaq üçün iqtisadiyyatın diversifikasiyası üzrə fəal siyasət həyata keçirmək lazımdır;

– Mütləq və ya nisbi üstünlükləri olan qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilməlidir;

– Diversifikasiyalaşdırma potensialı yüksək olan sahələrin müəyyənləşdirilməsi və onların iqtisadi göstəricilərinin yaxşılaşdırılması qeyri-neft sektorunda əsas prioritetlərdəndir, bu istiqamətlərdə əsaslandırılmış fəaliyyət strategiyasının olması, onun məqsədli şəkildə məhsuldar mexanizmlər vasitəsilə reallaşdırılması təmin edilməlidir və s.

**Açar sözlər:** *diversifikasiyalaşdırma, milli iqtisadiyyat, qeyri-neft sektoru, qeyri-neft sektorunun inkişaf problemləri, qeyri-neft sektorunun diversifikasiyalaşdırılması, qeyri-neft sektorunun tənizmlənməsi.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Мамедова, П. В. Модернизация промышленности Азербайджана в контексте развития рыночной экономики / П.В. Мамедова // Евразийский юридический журнал. – 2019. – № 8(135). – С. 362-366.*

*2. Брындин, Е.Г. Креативное управление диверсификацией экономики // Динамика социальной трансформации российского общества: региональные аспекты: Материалы V Тюменского международного социологического Форума. Тюмень: Тюменский государственный университет, 2017. – С. 977-981.*

*3. Мансурова, М.Г. Приоритетные направления повышения диверсификации экономики*

*региона//Управление. 2021. Т. 9. № 1. С. 5–15.*

*4. Порохин, А.В. Основные направления диверсификации экономики региона / А.В. Порохин, Т.А. Яркова, Ю.Н. Соина-Кутищева // Фундаментальные исследования. – 2016. – № 9-2. – С. 399-403.*

*5. Aslanlı, K., İsmayıl Z., Ağayev R., Mehtiyev A. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. Bak: Qanun, 2013, 85 s.*

*6. Шимук, О.В. Комплексный подход к управлению диверсификацией экономики (на примере сельских территорий) // Государственное управление. Электронный вестник. – 2018. – № 68. – С. 397-409.*

*7. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 16 aprel 2014.*

*8. Azərbaycanın kənd təsərrüfatı. Statistik məстиə. Bakı, 2021, 775 s.*

*10. Исмаилов Ч.Н. Новые векторы экономического развития Азербайджана и региональная политика // Вестник Тверского государственного университета. Серия: География и геоэкология. – 2017. – № 2. – С. 54-62.*

*11. Джалилов А.Н. Основные приоритеты национальной экономики Азербайджанской Республики в условиях рыночной экономики // Экономический вестник Донбасса. – 2019. – № 1(55). – С. 73-78.*

## РЕЗЮМЕ

## ДИВЕРСИФИКАЦИЯ И МЕХАНИЗМЫ СОВЕРШЕНСТВОВАНИЯ НЕНЕФТЯНОГО СЕКТОРА В АЗЕРБАЙДЖАНЕ

В статье рассматривается диверсификация и механизмы совершенствования ненефтяного сектора в Азербайджане в контексте глобальных трансформаций. Раскрывается сущность проблем, мешающие развитию ненефтяной сферы экономики страны и предлагаются более эффективные механизмы по интенсификации их развития. Исследованы и анализированы возможности и резервы расширения структуры, повышения объёма выпускаемых продукций в разных сферах ненефтяного сектора. Обоснована необходимость повышения конкурентоспособности и экспортноориетированости ненефтяного сектора Азербайджана. Подготовлен ряд рекомендаций и даны предложения по диверсификации ненефтяного сектора экономики Азербайджана в ближайшей перспективе.

**Ключевые слова:** *диверсификация, национальная экономика, ненефтяной сектор, проблемы развития ненефтяного сектора, диверсификация ненефтяного сектора, регулирование ненефтяного сектора.*

## SUMMARY

## MECHANISMS OF DIVERSIFICATION AND IMPROVEMENT OF THE NON-OIL SECTOR IN AZERBAIJAN

The article examines the diversification and mechanisms for improving the non-oil sector in Azerbaijan in the context of global transformations. The essence of the problems that hinder the development of the non-oil sector of the country's economy is revealed and more effective mechanisms are proposed to intensify their development. The possibilities and reserves for expanding the structure, increasing the volume of manufactured products in various areas of the non-oil sector have been explored and analyzed. The necessity of increasing the competitiveness and export orientation of the non-oil sector of Azerbaijan is substantiated. A number of recommendations have been prepared and proposals have been made to diversify the non-oil sector of the Azerbaijani economy in the near perspective.

**Keywords:** *diversification, national economy, non-oil sector, problems of development of the non-oil sector, diversification of the non-oil sector, regulation of the non-oil sector.*

**UOT: 330.342.24**

# İNNOVASİYA İNFRASTRUKTURU İQTİSADİYYATIN PRİORİTET SAHƏSİ KİMİ

**SAMİR ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universitetinin dissertantı*
*E-mail: allahverdiyev.samir777@gmail.com*

İnnovasiya iqtisadiyyatının yaradılması Azərbaycan Respublikasının iqtisadi inkişafının prioritetlərindəndir. Resurs potensialına malik olan Azərbaycan iqtisadiyyatı qeyri-neft sektorunun inkişafına fokuslanmışdır. Azərbaycanda biliyə əsaslanan elmi-təhsil kompleksinin və sənayenin inkişafını sürətləndirən yeni innovasiya sahibkarlığı formalaşmışdır.

Respublika iqtisadiyyatının diversifikasiyasının məqsədi yeni növ məhsul və xidmətlərin istehsalı hesabına ÜDM-in artırılması, yerli və dünya bazarında yüksək texnoloji məhsulun rəqabətqabiliyyətliliyinin gücləndirilməsi, istehsalın səmərəliliyinin artırılması üçün yeni texnologiyaların tətbiqi və qabaqcıl texnologiyaların cəlb edilməsi, elmtutumlu sahələrin yaradılmasıdır[1].

Azərbaycan iqtisadiyyatında islahat aparılması şəraitində əsas məsələlərdən biri elmi təşkilatların, müəssisələrin, firmaların, şirkətlərin innovasiya fəallığının artırılmasıdır. Bu mərhələdə innovasiyanın inkişafının fərqli cəhəti daha proqressiv texnoloji proseslərə və çevik istehsalata tez bir zamanda keçiddir, bu da yeni rəqabətqabiliyyətli, dünya standartlarına cavab verən məhsul istehsal etməyə imkan verir.

Bu gün qarşıda duran əsas məsələ sabit iqtisadi artımın həlli üçün Azərbaycanın ehtiyat və imkanlarının birləşdirilməsidir. Bu isə bir tərəfdən, fundamental və tətbiqi elmlərin arasında əlaqələrin güclənməsi, digər tərəfdən isə innovasiya məhsulunun istehsalı və bazarın zəbt edilməsi halında mümkündür. İnnovasiya infrastrukturu daima inkişaf edir, onun yeni obyektləri formalaşır. İnnovasiya infrastrukturuna texnologiya transferi mərkəzləri, innovasiya-texnologiya mərkəzləri, texnoparklar, biznes-inkubatorlar, innovasiya fəaliyyəti üçün kadr hazırlığı mərkəzləri, vençur fondları və s. daxil edilir.

Bütün bunlara baxmayaraq Milli İnnovasiya Sisteminin (MİS) müxtəlif elementlərinin qarşılıqlı asılılıq mexanizmləri tam işləmirlər. Baxmayaraq ki, respublikada innovasiya sferasında bir sıra qanunverici və normativ aktlar qəbul edilmişdir, lakin indiyə qədər “innovasiyalar haqqında”, “müəssisələrin innovasiya fəaliyyəti haqqında”, “elm və dövlət elmi-texniki siyasəti haqqında”, innovasiya inkişafında əsas olan sənədlər, qanunlar qəbul edilməmişdir [5].

İnkubatorların, innovasiya mərkəzlərinin, texnoparkların, texnopolislərin, injinirinq, lizinq və digər təşkilatların normativ-innovasiya infrastrukturunun hüquqi bazasının formalaşma üzrə iş sona kimi yerinə yetirilməmişdir. Həmçinin, regional səviyyədə innovasiya potensialının möhkəmləndirilməsi məsələləri həll olunmamış qalmışdır.

Respublikada innovasiya proseslərinin təmin edilməsi üçün təşkilatlarda innovasiya menecmentinin öyrədilməsi, innovasiyaların informasiya bazasının yaradılması məqsədəmüvafiqdir. Ölkənin innovasiya sisteminin inkişafının prioritet istiqamətləri, əqli və sənaye mülkiyyəti bazarının inkişaf mexanizmi yaradılmasıdır. Yaradılan texnoparklar və innovasiya infrastrukturunun digər elementləri (elmi müəssisələr, universitetlər və s.) arasında sıx əməkdaşlıq, informasiya mübadiləsi demək olar ki, yox dərəcəsindədir.

Hər struktur ayrı-ayrılıqda fəaliyyət göstərir və digərinin işindən xəbər tutmur. Ona görə də işlərdə təkrarlamalar baş verir. İnnovasiya prosesinin iştirakçıları arasında bazarın tələblərinə vaxtında reaksiya vermək, rəqabətlilik və əlaqələrin genişlənməsi bütün təşkilatların səmərəliliyini artıracaq, məqsədyönlü siyasi tədbirlər innovasiya prosesinin inkişafına təkan verəcəkdir.

Qeyd edək ki, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, innovasiya subyektlərinin səmərəli fəaliyyəti, yalnız idarəetmənin müxtəlif səviyyələrində tədbirlər sistemini nəzərə alaraq, onun formalaşması və fəaliyyətinin bütün səviyyələrində səmərəli dövlət dəstəyi mexanizminin yaradılması şəraitində mümkündür. İnnovativ sahibkarlıq infrastrukturunun formalaşması sahəsində strateji və taktiki siyasətdə aşağıdakılar nəzərə alınmalıdır:

- qanunvericilik bazasının təkmilləşdirilməsi;
- innovasiyanın tətbiqi metodlarının təkmilləşdirilməsi;
- dövlətin maliyyə dəstəyi;
- vençur maliyyələşmənin inkişafı;
- kiçik, orta və iri innovativ sahibkarların qarşılıqlı

faəliyyətinin stimullaşması və təbliği;

- innovasiya infrastrukturunun inkişafı və təkmilləşdirilməsi: - sənaye parkları, sənaye məhəllələri, texnopolislər, texnoparklar, nanotexnoloji mərkəzlər və biznes-inkubatorlar və s. inkişafı və təkmilləşdirilməsi.

Bunlar respublikada innovasiya fəaliyyətinin kompleks sisteminin yaradılmasının vacibliyini şərtləndirir. Digər tərəfdən müasir dövrdə elm və elmtutumlu istehsalın inkişafının daha yeni formaları axtarılır. Bu məsələlərin həlli istiqamətlərindən biri texnoparkların yaradılması və inkişafıdır. Buna görə də innovasiya subyektləri şəbəkəsinin konsepsiyası elmə əsaslanan sahibkarlıq fəaliyyətinin inkişafına yönəldilir. İnnovasiya subyektlərinin formalaşması və səmərəli fəaliyyətinə aşağıdakılar təsir edir:

1. Normativ-hüquqi bazanın hazırlanması.
2. Dövlət dəstəklənməsinin iqtisadi mexanizmi.

İnnovasiya subyektlərinin dəstəklənməsi tədbirləri selektiv xüsusiyyətə malik olmalıdır. Bu tədbirlər dövlət və regional səviyyədə məqsədi, göstərilən nəticəni və ixtisaslaşdırılmış texnoparkların inkişafının əsas göstəricilərini müəyyən edən uyğun proqramlar qəbul edildikdə maksimal realizə edilir.

Qərarın proqram üsulunun seçilməsinə əsas, bütün səviyyədə aparılan dəyişikliklərin mərkəzləşmiş qaydada planlaşdırılması lazımdır. Tədbirlərin həyata keçməsinə istiqamətlənmiş ehtiyatların istifadəsinə səmərəli idarəetmə və nəzarət vacibdir. Belə proqramların üstünlüyü ondadır ki, onlar bir tərəfdən, dəqiq nəticələrə bağlanır, digər tərəfdən isə regional siyasətin əsas istiqamətini həyata keçirir.

2014-cü ilin “Sənaye İli”, 2015-ci ilin isə “Kənd təssərrüfatı İli” elan edilməsi Azərbaycan iqtisadiyyatının aparıcı sənaye və aqrar sahələrinin inkişafına səbəb olmuşdur. “Sənaye İli” ilə bağlı Tədbirlər Planı”nda 5 prioritet istiqamət müəyyən edilmişdir: sənaye potensialının gücləndirilməsi, sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi, normativ-hüquqi baza və idarəetmənin təkmilləşdirilməsi, təşkilati tədbirlər, təbliğat və təşviqat işləri. İnnovasiya texnologiyalarına əsaslanan qurumların yaradılması respublikada yerli məhsulların rəqabətqabiliyyətliliyini artırır, istehsal olunan məhsulların beynəlxalq bazara çıxarılmasına səbəb olur.

Bu gün Azərbaycanda ənənəvi sənaye müəssisələri ilə yanaşı hərbi sənaye, kosmik və bərpa olunan enerji sahələri fəaliyyətə başlayıb. Bu gün Orbitə Azərbaycanın peykləri - “Azərspace” və “Azərsky” çıxarılmış, bərpa olunan və alternativ enerji mənbələrinin inkişafı üzrə müasir infrastruktur yaradılır. “Sənaye İli” dövlət proqramına əsasən Sumqayıt, Mingəçevir və Gəncədə uyğun olaraq kimya, toxuculuq və metallurgiya sahələrinin inkişafı üçün innovasiya infrastrukturu subyektlərinin açılması üzrə işlər görülür.

2013-cü ildə yaradılmış “Azərbaycan Polad İstehsalı Kompleksi” QSC respublikanın polad və çuqun məmulatlarına olan daxili tələbatın ödənilməsinə kömək edəcək. İnnovasiya infrastrukturunun subyekti olan Sumqayıt Kimya Sənaye, Balaxanı Sənaye və Yüksək Texnologiyalar parklarını misal göstərə bilərik. Bu gün onların tam gücü ilə işləməsi sahəsində işlər gedir, yeni rezidentlər cəlb edilir. Respublikada regionlarda sahibkarlığın inkişaf etdirilməsi istiqamətlərində də işlər aparılır.

Məsələn, Neftçalada sənaye məhəlləsi yaradılmışdır, Şamaxıda, Xızıda aqroparkların əsası qoyulur. Azərbaycan Respublikası Prezidentinin “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” müvafiq fərmanına uyğun olaraq “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə”nin layihəsi hazırlanmışdır. Bu fərman əsasında regionların imkanları müəyyənləşdirilir [3].

Müstəqillik dövründə qəbul edilən proqramlardan biri də “Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”dır. Bu proqramların həyata keçməsi nəticəsində son illərdə yeni iş yerlərinin çoxu regionlarda açılmışdır. Bu illər regionlarda infrastrukturun inkişafına böyük investisiyalar qoyulur.

Ölkədə yüksək texnologiyalar əsasında innovativ Aqroparkların yaradılması rəqabətqabiliyyətli aqrar və aqrar-sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmışdır. Bu istiqamətdə dövlət tərəfindən sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etməklə, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır [3]. Azərbaycanda aqrotexnoparkların yaradılması kənd təsərrüfatı sahəsində biliklərin kommersiyalaşdırılması, aqrar sahənin modernləşdirilməsi, səmərəliliyin artırılması, ümumilikdə iqtisadiyyatın diversifikasiyası istiqamətində irəliyə atılmış bir addım ola bilər. İlk aqropark Şəmkirdə açılmışdır.

Bu baxımdan aqroparkların kadrlara ehtiyacı olduğundan sənaye-təhsil tandemi yaradılır. Hazırkı vəziyyətdə aqroparkların Gəncə və Lənkəran şəhərlərində yaradılması daha məqsədəuyğun hesab edilir. Çünki hazırda yalnız bu ərazilərdə aqroparkların yaradılması imkanları var. Gəncə və Lənkəran Dövlət Universitetlərində aqrar sahə üzrə kadrların hazırlanması da burada aqroparkların yaradılması üçün əsas səbəblərdən biridir.

Hər bir innovasiya yönümlü sahibkar innovasiyadan istifadədə ciddi seçim qarşısında qalır: - innovasiyanı kənardan cəlb etsin, onu özü işləyib hazırlasın, əsas innovasiya infrastrukturundan-elmi müəssisələrdən, biznes inkubatorlarından, texnoparklardan, klasterlərdən və s. istifadə etsin və ya öz mövcud strukturu daxilində yalnız innovasiya məhsulları istehsalı ilə məşğul olan xüsusi ixtisaslaşmış elmi-tədqiqat bölmələri yaratsın.

Birinci halda innovasiya layihələrini və innovativ fəaliyyətlə məşğul olan təşkilatları mükəmməl öyrənmək, ən başlıcası isə işlərin icrasını təmin etmək üçün qısa zamanda xeyli maliyyə vəsaitləri tələb olunur. Müəssisənin innovasiya potensialını qiymətləndirərək müəssisə rəhbəri, innovasiya fəaliyyətinə başlamaq imkanlarını müəyyən edir ki, innovasiya fəaliyyətinə başlamaq üçün müəssisənin maliyyə imkanları hansı səviyyədədir? Sözsüz ki, özünün innovasiya infrastrukturunu inkişaf etdirmək sənaye müəssisələrinə imkan verir ki, innovasiya məhsulunu hazırlamaq üçün birdəfəlik iki məbləğli xərclərdən azad olsun. Ona görə də iri sahibkar müəssisələr xarici ölkə kompaniyalarının qabaqcıl təcrübəsindən istifadə edərək, öz strukturu tərkibində xüsusi innovasiya bölmələri yaratsalar daha faydalı olar.

Azərbaycanda digər prioritet istiqamətlərdən biri respublikada innovasiya iqtisadiyyatının formalaşdırılması və təkmilləşdirilməsidir. Bu keçid innovasiya infrastrukturunun və potensialın struktur dəyişikliklərini tələb edir. Azərbaycanda resurslara əsaslanan sənayenin inkişafı ölkənin sosial-iqtisadi infrastrukuturunun yenidən qurulmasını tələb edir. Azərbaycanda baş verən sənaye inqilabının çağırışlarına uyğun olaraq sənaye siyasəti keyfiyyətcə yeni müstəviyə keçməklə innovasiya yönümlü sahibkarlığın inkişafı istiqamətinə yönəlmişdir.

Milli iqtisadiyyatın inkişaf mexanizmlərinin təkmilləşdirilməsində, təşkilati-iqtisadi mexanizmlərin daha məhsuldar şəkildə hazırlanmasında innovativ yanaşmalar önəmli rol oynayır. İqtisadiyyatını innovasiyaya əsaslanaraq inkişaf etdirmək istəyən dövlətlər bu məqsədə yönələn sənayeləşmə siyasəti həyata keçirməlidirlər. Burada əsas məqsəd sənayedə innovasiyanın tətbiqini və innovativ sənaye məhsullarının istehsalını artırmaqdır.

Çünki bu gün Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafa gedən yol əsas olaraq sənayeləşmədən keçir. Sənayeləşmə siyasətinin özü də innovasiyaların iqtisadiyyatda tətbiqi və yaradılan əlavə dəyərin təsiri ilə dəyişikliklərə məruz qalaraq zamanla yenilənməyə məcburdu. Yəni, innovasiya əsaslı iqtisadiyyata sahib olmaq istəyən dövlət davamlı olaraq innovasiyaları təqib etməli, başqa dövlətlərin təcrübələrini öyrənməli və innovasiyaların iqtisadiyyatda tətbiqinə münbit şərait yaratmalıdır [4]. Dövlət sənaye parkları vasitəsi ilə özünün innovasiya siyasətini təkmilləşdirə, iqtisadiyyatın innovasiyalaşdırılmasında, innovasiyayönlü məhsulların istehsalı hesabına iqtisadi artımın məhsuldar mənbələrinin formalaşdırlmasında yüksək nəticələr əldə etməyə imkan yaradar. Sənaye parkları ölkənin sənaye siyasətinin strateji hədəflərinin və vəzifələrinin yerinə yetirilməsində xeyli funksiyaları reallaşdırmaq potensialına malikdir.

Sənaye istehsalının diversifikasiyası innovasiya yönümlü olmalıdır və özündə fəaliyyətdə olan istehsalların müasirləşdirilməsi və elmtutumlu, yüksək texnoloji istehsalatların inkişafını cəmləşdirməlidir [4]. Sənaye parklarının fəaliyyəti hesabına innovasiya layihələrinin həyata keçirilməsi ölkəmizdə daha perspektivli və məhsuldar istehsal sahələrinin, müəssisələrin yaradılmasına əlavə stimullar verəcək və bununla yanaşı, iqtisadi artımın məhsuldar mənbələrini yaradacaqdır. Bunun üçün sənaye parklarının inkişaf etdirilməsi ilə bərabər, bu parklarda innovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi proseslərinin idarəetmə mexanizmlərinin yaradılması və inkişaf etdirlməsi tədbirləri görülməli, sənaye parklarında iqtisadi artımın səmərəlilik səviyyəsi yüksəldilməlidir [4].

## YEKUN

Yuxarıdakıları ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, innovasiya infrastrukturunu formalaşdırıb, inkişaf etdirilməsi ölkədə iqtisadiyyatın prioritet sahələrindən biridir. Bu məqsədlə aşağıdakıların həyata keçirilməsi vacib və əhəmiyyətlidir:

1. İnnovasiya sahibkarlığının inkişafı məqsədilə iri müəssisələrdə maddi-texniki bazanın yaradılması istiqamətində sahibkarlara lazımı dəstək göstərilməlidir.

2. İnnovasiya sahibkarlığının inkişafını təmin edən təkmil iqtisadi-hüquqi baza hazırlanmalıdır.

3. Azərbaycanda fəaliyyət göstərən innovasiya infrastrukturu subyektləri arasında əlaqə və əks-əlaqə sistemi yaradılmalıdır.

4. Ölkədə innovasiya infrastrukturu subyektlərini stimullaşdıran iqtisadi tədbirlər gücləndirilməlidir.

5.Müəssisələri innovativ düşüncəli kadrlarla təmin etmək üçün ölkədə bu istiqamətdə texniki-peşə yönümlü tədris müəssisələrinin yaradılması dövlət və hökumət orqanları tərəfindən nəzərə alınmalıdır.

6. İnnovasiya məhsullarının xarici bazara çıxarılmasında sahibkarlara dövlət orqanları tərəfindən köməklik göstərilməlidir.

**Açar sözlər:** İnnovasiya*, infrastruktur, texnoparklar, vençur fondlar, texnologiya transferi mərkəzləri, biznes-inkubatorlar.*

### ƏDƏBİYYAT SİYAHISI:

1. Qasımov F.H.,Nəcəfov Z.M. İnnovasiyalar:yaranması, yayılması və inkişaf perspektivləri//-Bakı: Elm, 2009, 416 s.
2. Eyvazova, N.K. Regionlarda innovasiyalı istehsalın təşkilinin zəruriliyi //-Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Elmi əsərlər toplusu,- 2017, №2,- s.88.
3. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili / A. D. Hüseynova; - Bakı: Elm və Təhsil, 2013. - 385 s.
4. Hüseynova, A.Azərbaycanda innovasiya fəaliyyətinin inkişaf yolu//-Bakı:Azərbaycan vergi jurnalı.-2015,4(124) s.130-144.
5. İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər/ Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu.-Bakı: "Çap ART" Nəşriyyatı,-2017, -36 s.
6. Веселовский, М.Я. Формирование инновационной инфраструктуры промышленной сферы // МИР (Модернизация. Инновации. Развитие), Москва, 2017,Т.8. №2, ст.250-262.

### РЕЗЮМЕ
### ИННОВАЦИОННАЯ ИНФРАСТРУКТУРА КАК ПРИОРИТЕТ ЭКОНОМИКИ

В статье рассматривается современное состояние, формирование, развитие и внедрение инновационной инфраструктуры как приоритетного направления экономики. Отмечается, что инновационная инфраструктура постоянно развивается, формируются новые ее объекты. По мнению автора, инновационная инфраструктура включает центры трансфера технологий, инновационно-технологические центры, технопарки, бизнес-инкубаторы, учебные центры инновационной деятельности, венчурные фонды и др. В статье показано, что создание и совершенствование инновационной инфраструктуры следует рассматривать как важное условие развития инновационной экономики. Однако на сегодняшний день не создана нормативно-правовая база для развития инновационной экономики, не подготовлены необходимые нормативно-технические документы. При этом отмечается, что адресные политические меры по развитию инновационного процесса будут стимулировать развитие инновационного процесса. В итоге выдвигаются предложения по формированию и развитию инновационной инфраструктуры.

**Ключевые слова:** инновации, инфраструктура, технопарки, венчурные фонды, центры трансфера технологий, бизнес-инкубаторы.

### SUMMARY
### INNOVATION INFRASTRUCTURE AS A PRIORITY AREA OF THE ECONOMY

The article discusses the current state, formation, development and implementation of innovation infrastructure as a priority area of the economy. It is noted that the innovation infrastructure is constantly evolving, its new facilities are being formed. The author's innovation infrastructure includes technology transfer centers, innovation-technology centers, technoparks, business incubators, training centers for innovation activities, venture funds, etc. The article shows that the creation and improvement of innovation infrastructure should be considered an important condition for the development of an innovation economy. However, to date, the legal framework for the development of the innovation economy has not been created, the necessary normative and technical documents have not been prepared. At the same time, it is noted that targeted political measures to develop the innovation process will stimulate the development of the innovation process. In the end, proposals are made for the formation and development of innovation infrastructure, which is a priority area of the economy.

**Keywords:** *Innovation, infrastructure, technoparks, venture funds, technology transfer centers, business incubators.*

UOT: 336.02: 336.027

# AZƏRBAYCANIN EMAL SƏNAYESİNDƏ VERGİ MEXANİZMİNİN SƏMƏRƏLİLİK PROBLEMLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**SAMİR ƏLƏSGƏROV**
*AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı*

*E-mail: samir_alesgerov@mail.ru*

Qeyd edək ki, Azərbaycanın strateji əhəmiyyətli sahəsi iqtisadiyyatın aqrar sektorunun inkişafına təsir göstərən emal sənayesidir. Emal sənayesinin səmərəli inkişafı balanslaşdırılmış istehlak bazarının inkişafı və bir çox sosial problemlərin həlli üçün ilkin şərtdir. İqtisadiyyatın sabit inkişafı üçün kənd təsərrüfatı məhsullarının istehsalının həcminin artırılması və keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, onun emalını da yaratmaq və inkişaf etdirmək lazımdır. Ona görə də emal sənayesinin inkişafı respublika üçün prioritet vəzifədir ki, onun həlli əhalinin məşğulluğunun və həyat səviyyəsinin, yerli büdcənin gəlir potensialının yüksəldilməsini təmin edəcəkdir.

Emal sənayesi milli iqtisadiyyatın mühüm tərkib hissəsidir. Onun vəziyyəti və inkişaf səviyyəsi təkcə əhalinin ərzaq və sənaye malları ilə təminatını və həyat keyfiyyətini deyil, həm də ticarətin və kənd təsərrüfatının vəziyyətini və inkişaf tempini müəyyən edir. Son vaxtlar ərzaq təhlükəsizliyinin təmin edilməsi problemi son dərəcə aktuallaşdığından və onun həlli, ilk növbədə, emal sənayesinin səmərəliliyindən asılı olduğundan bu sənayeni həm dövlət, həm də bazar tərəfindən hərtərəfli tənzimləmək, xüsusilə əhalinin ərzaq müstəqilliyinə nail olmaq üçün diqqət mərkəzində saxlamaq lazımdır.

Ümumiyyətlə, emal sənayesinin inkişafı çoxşaxəli və çoxfunksiyalı xarakter daşıyır. Bu sahənin inkişafı nəticəsində yeni müəssisələr və yeni iş yerləri açılır, regionların ehtiyatlarından fəal istifadə olunur, məhsuldar qüvvələrin məhsuldarlığı yüksəlir, ölkə əhalisinin gəlirləri artır və ümumilikdə yeni artım mənbələri formalaşır. Bütün bunlara əsaslanaraq Azərbaycan milli iqtisadiyyatın bir çox sahələrinin, o cümlədən, emal sənayesinin inkişafının intensivləşdirilməsi üzrə strateji yol xəritələri çərçivəsində strateji hədəflər müəyyən etmişdir. Emal sənayesinin inkişafı Azərbaycan üçün həmişə prioritet məsələ olub. Emal sənayesinin qarşısında duran əsas məqsədlər bunlardır:

- əhalinin təhlükəsiz və münasib qiymətə emal sənayesi məhsulları ilə təminatı;
- investisiya cəlbediciliyini artırmaq üçün istehsalın sabitləşməsinə və davamlı artım tendensiyasına nail olmaq;
- emal sənayesi məhsullarının keyfiyyətinin yaxşılaşdırılması;
- emal sənayesi məhsullarının dünya bazarında rəqabət qabiliyyətinin artırılması, o cümlədən xərclərin azaldılması hesabına həmin məhsulların ixrac həcminin artırılması;
- sənayenin yenidən qurulmasının təmin edilməsi;
- müəssisələrin texniki cəhətdən yenidən təchiz edilməsi və rəqabətqabiliyyətli keyfiyyətli məhsul istehsalına istiqamətləndirilməsi;
- ekoloji cəhətdən təmiz ərzaq məhsullarının istehsalının artırılması və s. [1, s.258].

Qarşıya qoyulan məqsədlər emal sənayesinin inkişafının əsas yollarını müəyyən edir: 1) şaxələndirmə və investisiyaların cəlb edilməsi yolu ilə emal sənayesinin istehsalının təkmilləşdirilməsi; 2) innovativ texnologiyalar əsasında emal olunmuş məhsulların rəqabət qabiliyyətinin artırılması və satış bazarının genişləndirilməsi; 3) emal sənayesinin inkişafı üçün müvafiq institusional şəraitin yaradılması; 4) sənayenin kadr və elmi təminatı.

Azərbaycan Respublikasının emal sənayesinin inkişafı həm sənaye, həm də ilkin təsərrüfat subyektləri səviyyəsində struktur və sektoral yenidənqurma yolu ilə, eləcə də bu əsasda istehsal səviyyəsinin artırılmasına imkan verən çevik, bazara uyğun sferanın yaradılması yolu ilə təmin edilə bilər. Azərbaycanda emal sənayesi ümumi məhsulun yaradılmasına, bütün səviyyəli büdcələrə vergi ayırmalarının həcminə görə respublika iqtisadiyyatında mədənçıxarma sənayesindən sonra gəlir. Belə ki, 2020-ci ildə sənayenin sahə strukturunda emal sənayesinin payı 31,8 % olmuşdur (mədənçıxarma sənayesi 61,3 %). Emal sənayesinin 29,1 %-i dövlət sektorunun, 70,1 %-i isə özəl sektorun payına düşür. Emal sənaye müəssisələrinin sayı isə 2515 olmuşdur. Emal sənayesinin məhsulu 11848,3 milyon manat olmuşdur ki, bu da ÜDM-in 16,4 %-i deməkdir [2].

Ümumiyyətlə, emal sənayesi iqtisadiyyatın ən mühüm sahəsi olub, inkişaf səviyyəsi əhalinin güzəranını müəyyən edir və ərzaq təhlükəsizliyinin tərkib hissəsidir. Kənd təsərrüfatının hərtərəfli inkişafı yalnız emal sənayesinin eyni vaxtda inkişafı ilə mümkündür. Bununla belə, emal sənayesinin kifayət qədər yüksək artım templərinin olmaması kənd təsərrüfatı məhsullarının istehsalı ilə emal sənayesi arasındakı disproporsiyalara nəzərəçarpacaq təsir göstərmir. Həmin disproporsiyaların aradan qaldırılması üçün emal sənayesi müəssisələrində idarəetmənin funksional xüsusiyyətləri ətraflı təhlil edilməlidir.

Yuxarıda qeyd edilənlər emal sənayesinin səmərəliliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Emal sənayesinin fəaliyyətinin səmərəliliyinin artırılması müəyyən stimullaşdırılma mexanizmləri tələb edir. Azərbaycan Respublikasının milli prioritetlərinə uyğun olaraq emal sənayesinin inkişafı və əsas istehsal fondlarının modernləşdirilməsi qarşıda duran əsas prioritetlərdəndir. Odur ki, emal sənaye istehsalının intensiv inkişafını və əsas fondların yenilənməsini stimullaşdırmaq tələb olunur ki, bunun üçün dövlət birbaşa və dolayı təsir üsullarından fəal şəkildə istifadə edir.

Emal sənayesində sabit iqtisadi artımın təmin edilməsi üçün dövlət, bazar və müəssisədaxili olmaqla üç əsas stimul növünü ayırmaq lazımdır. Emal sənayesinin stimullaşdırılması mexanizmini əsaslandırarkən, iqtisadi artımı sürətləndirmək üçün dövlət tərəfindən hansı stimulların tətbiqini müəyyən etmək lazımdır. Emal sənayesinin spesifikliyi əvvəlcədən müəyyən edir ki, bu sahənin inkişafının stimullaşdırılmasında dövlət əsas rol oynamalıdır. Stimullaşdırıcı kredit siyasəti kreditlər üzrə dövlət zəmanətlərinin və güzəştlərin verilməsini nəzərdə tutur. Lakin bu, müvəqqəti xarakter daşımalı, yekun nəticələrlə əlaqələndirilməli və xüsusi investisiya proqramları çərçivəsində verilməlidir. Emal sənayesinin dövlət tərəfindən stimullaşdırılmasının ən fəal forması təkcə birbaşa emal sənayesi üçün deyil, həm də onunla qarşılıqlı əlaqədə olan sənayelər üçün həyata keçirilən xüsusi məqsədli proqramlar çərçivəsində birbaşa büdcə dəstəyidir. Emal müəssisələrinin subsidiya şəklində birbaşa büdcə təminatı da məqsədəuyğundur. Belə stimullaşdırma formasının baha olmasına baxmayaraq, yerli istehsalçıların rəqabət qabiliyyətini bu yolla xeyli artırmaq mümkündür. Qiymət siyasətinin stimullaşdırıcı rol oynaması üçün qiymətqoyma prosesinin dövlət tənzimlənməsi, xüsusən də təbii inhisar subyektlərinin qiymət və tarifləri üzərində dövlət nəzarəti və maddi-texniki məhsulların qiymətlərinin formalaşmasına dövlət təsiri gücləndirilməlidir. Tələbin stimullaşdırılması da zəruridir. Çünki bu, emal sənayesinin inkişafına dolayı təsir göstərməklə yanaşı, cəmiyyətdə sosial gərginliyi azaldır. Lakin tələbin stimullaşdırılması həm də xeyli büdcə vəsaiti tələb edir.

Emal sənayesinin rəqabət qabiliyyətliliyinin artırılması baxımından vergi mexanizmlərinin səmərəli tətbiqi mühüm əhəmiyyət kəsb edir. Emal sənayesinin prioritet sahələrinin stimullaşdırılması sistemində məhz vergi mexanizmi mühüm rol oynayır. Səmərəli vergi mexanizmi emal sənaye müəssisələrinin fəaliyyətinin stimullaşdırılmasında mühüm vasitədir ki, bu da ölkənin ərzaq təhlükəsizliyi baxımından çox mühüm əhəmiyyət kəsb edir.

Ərzaq təhlükəsizliyini yalnız yüksək inkişaf etmiş emal sənayesi hesabına təmin etmək olar ki, bu da əhalini nəinki müxtəlif çeşiddə yüksək keyfiyyətli qida məhsulları ilə təmin etməyə, həm də kənd təsərrüfatı xammalının mümkün qədər və itkisiz saxlanılmasına və emal edilməsinə imkan verir. Bütün bunlar Azərbaycanın emal sənayesində vergi mexanizminin səmərəlilik problemlərinin nəzəri-metodoloji əsaslarının tədqiqinin mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

Vergi mexanizmi - vergi münasibətlərinin üsul və qaydalarının məcmusudur. Onların köməyi ilə vergi siyasətinin məqsədlərinə nail olunur. Vergi mexanizmləri vasitəsilə dövlətin vergi siyasəti həyata keçirilir, vergi sisteminin əsas kəmiyyət və keyfiyyət xarakteristikaları, konkret sosial-iqtisadi vəzifələrə münasibətdə onun məqsədyönlü istiqamətləndirilməsi müəyyən edilir.

Ölkənin sosial-iqtisadi inkişafını şərtləndirən göstəricilərdən biri kimi vergi mexanizminin inkişaf səviyyəsi çıxış edir. Vergilərin tətbiqi və vergi mexanizminin əsasını təşkil edən vergi taktikası iqtisadi və sosial strukturla sıx bağlıdır. Buna görə də həyata keçirilən vergi siyasətinin real olması və istifadə olunan vergilərlə həmin vergilərin mahiyyəti arasında uyğunluğun olması vacibdir [3, s.34].

Qeyd edək ki, vergi mexanizmi üç fundamental elementdən ibarətdir: 1. Vergi planlaşdırması. 2. Vergi tənzimlənməsi və 3. Vergi nəzarəti. Birinci element real iqtisadi şərait nəzərə alınmaqla vergi daxilolmalarının proqnozlaşdırılması sistemidir. Onun mahiyyəti ondan ibarətdir ki, hər bir vergi ödəyici-

si öz vergi öhdəliklərini minimuma endirmək üçün hüquqi vasitələrdən, o cümlədən müxtəlif metod və üsullardan istifadə edə bilər. Müxtəlif təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin vergi planlaşdırılması da vergi ödənişlərinin minimuma endirilməsinə yönəlib. Beləliklə, planlaşdırma həm fərdi şəkildə istiqamətləndirilə, həm də geniş təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətində istifadə oluna bilər. Vergi tənzimlənməsi vergilərin növünün, vergi dərəcələrinin dəyişdirilməsi, vergi güzəştlərinin müəyyən edilməsi, vergitutmanın ümumi səviyyəsinin aşağı salınması və ya artırılması, büdcəyə ayırmalar yolu ilə iqtisadiyyata dolayı təsir ölçüsüdür. O, sahibkarlıq subyektlərinin daxili və xarici fəaliyyəti üçün ümumi vergi mühitinin yaradılmasına, kapitalın prioritet sahələrin stimullaşdırılması məqsədilə güzəştli vergi şərtlərinin təmin edilməsinə yönəlib. Vergi nəzarəti vergitutma sahəsində düzəliş tədbirlərinin həyata keçirilməsinə dair qərarlar qəbul etmək, faktiki göstəriciləri nəzərdə tutulana yaxınlaşdırmaq məqsədi ilə vergi daxilolmalarının planlaşdırılmış məbləğindən kənara çıxma səbəblərinin təhlili üzrə tədbirlər kompleksidir [4, s.297].

Ümumiyyətlə, vergilər dövlətin maliyyə siyasətinin əsas alətlərindən biridir. Onlar insan həyatının və cəmiyyətin ən mühüm aspektlərinə təsir göstərir. Bu gün Azərbaycan üçün onların xüsusi aktuallığı ondan ibarətdir ki, bu sahədə islahatlar ölkədə müasir iqtisadi, sosial və siyasi transformasiyaların dərinliyini və xarakterini böyük ölçüdə müəyyən edir. Vergi alətlərinin səmərəliliyinin artırılması probleminin həlli iqtisadi inkişafın müasir mərhələsində əsas vəzifədir. Vergi alətlərindən istifadə etməklə müxtəlif fəaliyyət sahələrinə, məsələn, emal sahəsinə təsir göstərmək, onun innovativ inkişafını dəstəkləmək mümkündür.

Bazar münasibətləri şəraitində vergilər təkcə büdcə gəlirlərinin mənbəyi kimi deyil, həm də iqtisadiyyatın maliyyə tənzimlənməsinin mühüm aləti kimi istifadə edilməlidir. Qloballaşma və inteqrasiya prosesləri vergi sisteminə yeni tələblər qoyur. Vergi sistemində islahatlar sosial-iqtisadi inkişafla bağlı dövlət siyasətinin prioritetlərinə uyğun aparılmalı, bütün dövlətlərin büdcələrinə kifayət qədər məcmu vergi daxilolmaları təmin edilməlidir [5, s.225].

Bundan əlavə, vergi dərəcələrinin aşağı salınması büdcə kəsirinin və inflyasiyanın artması ilə müşayiət olunarsa, bu, emal müəssisələrinin investisiya fəallığına mənfi təsir göstərər. Ona görə də səmərəsiz vergi və ödənişlərin ləğvi yolu ilə vergi yükünün mərhələli şəkildə azaldılması, vergitutma bazasının genişləndirilməsi əsasında vergilərin fiskal səmərəliliyinin artırılması, innovasiyaları tətbiq və inkişaf etdirən, innovativ məhsullar istehsal edən emal müəssisələrinə güzəştlərin verilməsi, inzibatçılığın təkmilləşdirilməsi, vergilərin azaldılması strategiyası daha perspektivlidir.

Emal sənayesində vergi mexanizminin səmərəliliyi bu sahənin inteqrasiya əlaqələrinin genişləndirilməsində mühüm amildir. Bu əlaqələr mürəkkəb proses olmaqla emal sənayesi məhsullarının tədarükü, saxlanması, emalı və istehlakçılara çatdırılmasını təmin edir. İnteqrasiya əlaqələri müəssisələrdə istehsal proseslərinin son nəticələrinə təsir göstərən amillərdən biri kimi çıxış edir. İnteqrasiya əlaqələri nəticəsində emal sənayesinin son məhsul istehsalının inkişafına təsiri artırır [6, s.94].

Hazırda inteqrasiya olunmuş iqtisadiyyatın formalaşdırılmasının aktuallığı artır. Bu vəzifə müxtəlif mövcud neqativ halların aradan qaldırılmasına yönəlmiş antiböhran tədbirlərinin prioritet hissəsidir. İnteqrasiya və əməkdaşlıq iqtisadi artım üçün bəzi real imkanları formalaşdıran, bütün emal sənaye kompleksinin səmərəli fəaliyyətinin üsul və yollarına təsir edən, həmçinin istehsalın sonrakı inkişafı və səmərəliliyinin artımını sabitləşdirən şəxsi, ictimai və kollektiv maraqları birləşdirir. Bu gün inteqrasiya və kooperasiya emal sənaye kompleksinin sosial-iqtisadi inkişafı üçün obyektiv zərurət kimi çıxış edir [7, s.186].

Məlumdur ki, emal sənayesinin inkişafı müəyyən maliyyələşmə mexanizmləri tələb edir. Hazırda Azərbaycanda maliyyələşdirmə mexanizmlərinin inkişafı və bu sahədə qanunvericilik bazasına əlavə və dəyişikliklərlə bağlı bir çox qərarlar qəbul edilir. Bununla belə, nəzərə almaq lazımdır ki, hazırkı maliyyələşdirmə formalarının səmərəliliyinin təmin edilməsi mexanizmi elə də çevik deyil. Odur ki, mövcud ənənəvi maliyyələşdirmə mexanizmlərindən istifadə genişləndirilməlidir. Digər tərəfdən, dövlət büdcəsindən emal sənayesinə ayrılan subsidiyaların həcminin artırılması əmək məhsuldarlığının artırılması üçün o qədər də effektiv alət hesab olunmur [8, s.93]. Ona görə də vergi güzəştləri daha səmərəli maliyyə mexanizmi ola bilər.

Emal sənayesində birbaşa subsidiyalarla müqayisədə vergi güzəştlərinin həvəsləndirici alət kimi tətbiqinin səmərəliliyi təkcə dövlət üçün deyil, vergi

ödəyiciləri üçün əhəmiyyətlidir. Vergi güzəştlərinin əldə edilməsi mexanizmi subsidiyaların verilməsi mexanizmindən daha sadədir. Büdcə subsidiyaları ilə müqayisədə vergi güzəştlərinin geniş üstünlüklərinin olması rəqabətqabiliyyətli emal sənayesinin formalaşmasına böyük töhfə verir [9, s.41].

Azərbaycanda vergi yükünün azaldılması, vergi inzibatçılığının müasirləşdirilməsi, vergi xidmətində İKT-nin tətbiqi və genişləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunub. Səmərəli nəzarət mexanizmləri, iqtisadi inkişaf meyillərinə uyğun çevik vergi sistemi yaradılmışdır. İnnovasiya yönümlü sahələrin inkişafının stimullaşdırılması üçün müxtəlif vergi güzəştləri verilir [10, s.344].

## YEKUN

Hesab edirik ki, emal sənayesində innovasiyaları stimullaşdırmaq üçün vergi güzəştlərindən istifadə təcrübəsinin genişlənməsi bu prosesi nəzəri cəhətdən dərk etməyi zəruri edir və bunun üçün bir sıra məsələlərin xüsusi diqqətdə saxlanılması tələb olunur. Belə ki:

- Vergi stimullarının innovasiyalara təsir dərəcəsini nəzərə alaraq deyə bilərik ki, vergi güzəştləri təkbaşına innovasiyalarla bağlı vəziyyəti kökündən yaxşılaşdırmaq iqtidarında deyil, onların təsiri bir sıra amillərdən asılıdır. İnnovasiya üçün xüsusi stimulların təsiri bütövlükdə ölkədə əlverişli vergi iqlimindən asılıdır;
- İnnovasiyalar üçün vergi güzəştlərinin siyahısı kifayət qədər genişdir. Lakin texnoloji innovasiyalar sahəsində vergi güzəştlərinin nə dərəcədə effektli olduğu sual doğurur;
- Təcrübə göstərir ki, texnoloji innovasiyaların stimullaşdırılmasına yönəlmiş vergi güzəştlərindən iri müəssisələr istifadə edə bilər. İnnovasiyaları, o cümlədən texnoloji innovasiyaları stimullaşdıran vergi mexanizmlərini kifayət qədər populyar və effektiv hesab etmək olar;
- Azərbaycanda səmərəli vergitutma sistemindən istifadə əsasında vergi tənzimlənməsinin təkmilləşdirilməsi və emal sənayesinin inkişafını stimullaşdırmaq üçün əlavə mexanizmlər yaratmaq mümkündür. İqtisadiyyatda baş verən dəyişikliklər şəraitində prinsipial olaraq yeni yanaşmaların vaxtında tətbiq edilməsi zəruridir;
- Emal sənayesində vergitutma sisteminin təkmilləşdirilməsinin səmərəli alətlərindən biri inteqrasiya olunmuş vergitutma modeli ola bilər. Onun yaradılması və sonradan təcrübədə tətbiqi regional bazarların ayrı-ayrı seqmentlərinə münasibətdə həyata keçirilməlidir;
- İlk sınaq kimi emal sənayesi ilə bağlı kiçik və mikro sahibkarlıq subyektlərinə tətbiq etmək olar. Təklif olunan modelin mahiyyəti mövcud xüsusi vergitutma rejimlərinin imkanlarından istifadə etməkdir. Eyni zamanda inteqrasiya olunmuş vergitutma sisteminə tətbiq üçün mövcud meyarlar sistemləşdirilməli və hansısa vahid formaya gətirilməlidir və s.

**Açar sözlər:** *emal sənayesi, vergilər, vergi mexanizmi, vergi mexanizminin səmərəlilik problemləri, vergi mexanizminin nəzəri əsasları, vergi mexanizminin metodoloji xüsusiyyətləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Имашова, Д.Г., Имашов, С.Н. Особенности развития перерабатывающей промышленности // Вопросы структуризации экономики. -2013. -№ 4. с.258-261.*

*2. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.*

*3. Rzayev, P.Q. İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. Monoqrafiya. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2013, 392 s.*

*4. Корюкин, К.О. Налоговый механизм: понятие и проблемы совершенствования // Студенческая наука и XXI век. 2016. № 13. С. 197-199.*

*5. Челпанова, М.М. Основные направления совершенствования механизма налогового регулирования // Евразийский юридический журнал. – 2019. – № 2(129). – С. 225-226.*

*6. Quliyev Z.Q. Rəqabətədavamlı aqrar emal sənayesinin formalaşdırılması amilləri. Kənd təsərrüfatının iqtisadiyyatı, 2021, № 3 (37), s.93-99.*

*7. Анищенко, А.Н., Дудин, М.Н. Проблемы развития интеграционных процессов перерабатывающих и сельскохозяйственных предприятий // Продовольственная политика и безопасность, 2018, Т.5, № 4, С. 183-190.*

*8. Əzizova G., Süleymanova Ə. Azərbaycanda emal sənayesinin texnoloji intensivlik üzrə qiymətləndirilməsi və maliyyələşdirmə istiqamətləri. Azərbaycanın vergi jurnalı, 2019, 1 (138), s.85-96.*

*9. Гереев, Р.А. Налоговое стимулирование в системе государственной финансовой поддержки промышленного производства. Диссер-*

*тация на соискание ученой степени кандидата экономических наук. Москва, 2019, 181 с.*

*10. Qarayev İ. "İnnovasiya yönümlü vergi mexanizmlərinin xüsusiyyətləri. Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda Respublika elmi konfransının materialları. Sumqayıt, 25-26 aprel 2019, s.343-345.*

**РЕЗЮМЕ**

**ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКАЯ ОСНОВА ПРОБЛЕМЫ ЭФФЕКТИВНОСТИ НАЛОГОВОГО МЕХАНИЗМА В ПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА**

В статье рассматривается теоретико-методологическая основа проблемы эффективности налогового механизма в перерабатываюшей промышленности Азербайджана. Рассматриваются важнейшие факторы и проблемы, снижающие эффективность налоговых механизмов и налоговых инструментарий в перерабатывающих промышленностях и её предприятиях. Анализированы возможности совершенствования налоговых механизмов в контексте повышения эффективности и продуктивности перерабатывающих отраслей промышленности Азербайджана в нынешних условиях. Рассмотрены более прогрессивные формы и методы организации и развития налоговых механизмов, способствующие раскрытию возможностей и перспектив интенсификации развития перерабатывающей промышленности. Подготовлены предложения по совершенствованию действующих налоговых механизмов в сфере перерабатывающей промышленности Азербайджана.

**Ключевые слова:** перерабатывающая промышленность, налоги, налоговые механизмы, проблемы эффективности налоговых механизмов, теоретические основы налоговых механизмов, методологические особенности налоговых механизмов.

**SUMMARY**

**THEORETICAL AND METHODOLOGICAL BASIS OF THE EFFICIENCY PROBLEM OF THE TAX MECHANISM IN THE PROCESSING INDUSTRY OF AZERBAIJAN**

The article examines the theoretical and methodological basis of the problem of the effectiveness of the tax mechanism in the processing industry of Azerbaijan. The most important factors and problems that reduce the effectiveness of tax mechanisms and tax instruments in the processing industries and its enterprises are considered. The possibilities of improving tax mechanisms in the context of increasing the efficiency and productivity of the processing industries of Azerbaijan in the current conditions are analyzed. More progressive forms and methods of organization and development of tax mechanisms are considered, which contribute to the disclosure of opportunities and prospects for intensifying the development of the processing industry. Proposals have been prepared to improve the existing tax mechanisms in the processing industry of Azerbaijan.

***Keywords:*** *processing industry, taxes, tax mechanisms, problems of the effectiveness of tax mechanisms, theoretical foundations of tax mechanisms, methodological features of tax mechanisms.*

UOT 339.5

# İDXALƏVƏZLƏMƏ PROSESİNİN VƏ ONUN SOSİAL-İQTİSADİ İNKİŞAFDA ROLUNUN MAHİYYƏT XARAKTERİSTİKALARI

**İLHAM BƏDƏLOV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*

*E-mail: b_ilham1@mail.ru*

**Giriş.** Daxili bazarların açılması xarici ticarətdə əlavə üstünlüklər verir, lakin eyni zamanda iqtisadi müstəqillik və təhlükəsizlik problemlərini aktuallaşdırır. Axı, rəqabət qabiliyyətli daxili istehsalın, idxalın məhdudlaşdırılması və yerli istehsal mallarının dəstəklənməsi üçün vasitələrin və tənzimləyicilərin hələ formalaşmadığı istehlak bazarına çoxlu sayda malın daxil olması yerli malların idxal qarşısında rəqabət qabiliyyətini zəiflədir.

İdxaləvəzləmə prosesi idxalın mənfi aspektlərinə üstün gəlməyə və yerli malların istehsalının və daxili istehlakının artırılması və idxal mallarının istehlakının azaldılması (fiziki ifadədə) prosesinin yaxşılaşdırılmasına yönəlmişdir [12, c. 39].

Məqalənin məqsədi – idxaləvəzləmə prosesinin mahiyyət xarakteristikalarını və sosial-iqtisadi inkişafda rolunu tədqiq etməkdir.

İdxaləvəzləmə prosesinin genişmiqyaslı tətbiqi neokeynesian məktəbinin nümayəndələrinin – M.Brunonun, N.Karterin, A.Strauqun, X.Venerenin nəzəri modellərində iqtisadi inkişafın əsas məqsədlərindən biri olmuşdur. Onlar XX əsrin 60-70-ci illərində idxal mallarının tədricən yerli mallar tərəfindən sıxışdırılıb çıxarılması və milli iqtisadiyyatın maliyyələşdirilməsinin xarici mənbələrinin daxili mənbələrlə əvəzlənməsi yolu ilə “iki defisitli” iqtisadi artım modelini təklif etmişlər. Əvəzində bu modeldə yığım defisitinin və ticarət defisitinin azalmasının xaricdən alışlarla kompensasiya olunması təklif edilirdi.

“İdxaləvəzləmə” termini siyasi leksikada və publisistikada geniş və kifayət qədər sərbəst istifadə olunsa da, iqtisadiyyat nəzəriyyəsində qəbul edilmiş vahid nəzəri-metodoloji məzmunu müəyyən edilməmişdir, dəqiq institusional-hüquqi izahı yoxdur.

İqtisadi lüğətlərdə [7, c. 110; 13; 14] “idxaləvəzləmə” termini əsasən daxili bazarın yerli istehsal olan əvəzləyici mallar üçün boşaldılması məqsədilə gömrük məhdudiyyətlərinin tətbiqi yolu ilə idxal həcminin azaldılması kimi izah edilir. Yəni, idxaləvəzləmə probleminin əmtəə aspekti dəqiq vurğulanır.

İdxal olunan malların yerli mallarla əvəz edilməsinin əsasən idxal mallarının analoqlarının istehsal edildiyi sahələrin inkişafını nəzərdə tutmasına baxmayaraq, idxaləvəzləmə siyasəti həmçinin “idxalı əvəzləyici sənayeləşmə” də adlandırılır. Eyni zamanda, bəzi tədqiqatçılar idxalın ölkə daxilində artıq istehsal olunan mallarla əvəzlənməsi kimi idxaləvəzləməni (import substitution) və idxalın ölkənin öz ehtiyacları üçün istehsal edə biləcəyi mallarla əvəzlənməsi kimi idxal dəyişməsini (import replacement) fərqləndirməyi təklif edirlər [1].

Y.Jalela və V.Qaskonun fikrincə, idxaləvəzləmə ölkənin milli iqtisadiyyatının onun ərazisində istehsal edilmiş belə malların daxili bazarda satış payının artırılması sayəsində müəyyən əmtəə növlərinin idxalına tələbatının azalmasına yönəlmiş dövlət siyasətinin növüdür [2]. Verilmiş tərif, “əvəzləmə” terminindən irəli gəldiyi kimi, “idxal / milli istehsal” diskretliyindən qaçaraq, idxaləvəzləmənin təmin edilməsinin konkret alətlərindən təcrid olunmağa imkan versə də, yenə də yalnız mal idxalına aiddir.

Bizim nöqteyi-nəzərimizə görə, idxaləvəzləmə daha geniş anlamda, xüsusən yalnız əmtəə axınlarının deyil, həm də idxal edilə və ya dövlətin ərazisinə gətirilə bilən və onların daxili istehsalına, təchizatına, yaradılmasına və müvafiq olaraq, istehlakına təsir edə bilən bütün maddi və qeyri-maddi aktivlərin, maddiləşmiş forması olan və olmayan dəyərlərin idarə edilməsi kimi nəzərdən keçirilməlidir.

Bundan çıxış edərək, fikrimizcə, idxaləvəzləmənin iqtisadiyyatın real sektorunun inkişafının stimullaşdırılması və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi, idxalın “ağıllı” tərzdə saxlanması, ixrac həcminin artırılması, ölkənin ticarət balansının yaxşılaşdırılması yolu ilə həyata keçirilən, mal və xidmətlərin yerli istehsalının, idxalının və daxili bazarda satışının nisbətinin (həcminə və payına görə) yaxşılaşdırılması məqsədinə xidmət edən, dövlətin struktur siyasətinin ayrıca istiqaməti olduğunu iddia etməyə əsas vardır (şək. 1).




**Şək. 1 İdxaləvəzləmənin mahiyyət xarakteristikası elementləri.**

Effektiv idxaləvəzləmə siyasətinin birbaşa nəticəsi daxili istehlakın ümumi həcmində ölkə ərazisində hazırlanmış malların payının artmasıdır. Lakin onun nailiyyətləri kapital və maliyyə, əmək resursları və əqli kapital, texnologiyalar və nou-hau, maddi-texniki baza elementləri, innovasiya resursları, institusional mühitin elementləri sahələrində idxaləvəzləmədən əhəmiyyətli dərəcədə asılıdır. İnstitusional mühitin elementləri dedikdə, təsərrüfat subyektlərinin – daxili bazarda malların istehsalını (çatdırma, saxlama, satış) həyata keçirən rezidentlərin, onların kontragentlərinin, investorların, xidmət strukturlarının (konsaltinq, injinirinq, marketinq tədqiqatları), maliyyə-kredit sektorunun və işgüzar bazar infrastrukturunun subyektlərinin sayının və payının artması nəzərdə tutulur.

İdxaləvəzləmə siyasətinin həyata keçirilməsinin iqtisadi və sosial effektivliyi onun strategiyasının parametrlərinin anlaşılmasını tələb edir. Xüsusən, ərazi lokasiyasına görə, fikrimizcə, idxaləvəzləmə strategiyasının növlərini ayırd etmək məqsədəuyğundur. Bunlar şəkil 2-də öz əksini tapmışdır







**Şək. 2. İdxaləvəzləmə strategiyalarının meyar parametrləri**

Qeyd edək ki, daxilə yönəlmiş idxaləvəzləmənin strategiyası mal və xidmətlərin daxili bazarının genişlənməsinə; xaricə yönəlmiş idxaləvəzləmənin strategiyası – yerli məhsulların dünya bazarına çıxarılmasına; kompleks idxaləvəzləmənin strategiyası – yerli malların həm daxili, həm də xarici bazarda satış həcminin və payının artmasına istiqamətlənmişdir.

İdxaləvəzləmə siyasətinin həyata keçirilməsinin nəticələri əsasən müsbətdir və idxal proteksionizmi, tarif və qeyri-tarif məhdudiyyətləri [3], cari dövrdə əsasən idxal edilən malların daxili istehsalının stimullaşdırılması [4], eləcə də idxaləvəzləyici sənayeləşmə və xarici mal təchizatlarını əvəz edə bilən istehsal komplekslərinin inkişafı yolu ilə idxal mallarının yerli mallarla əvəzlənməsi vasitəsilə iqtisadi fəaliyyətin ayrı-ayrı əsas növlərinin artımına, ÜDM həcminin, məşğulluğun artırılmasına, iqtisadi agentlərin iqtisadi effektivliyinin və əhalinin həyat keyfiyyəti səviyyəsinin yüksəldilməsinə yönəlmişdir.

Lakin XX əsrin 70-ci illərinin əvvəllərində idxaləvəzləmə siyasəti müqayisəli üstünlüklər prinsipini pozması səbəbindən az qala ən böyük tənqidə məruz qaldı. Yəni, süni idxalda birbaşa və ya iqtisadi məhdudiyyətlərin tətbiqi digər dövlətləri qarşılıq göstərməyə və idxalı məhdudlaşdıran ölkədən olan mallar üçün analoji məhdudiyyətlər yaratmağa təhrik edir. Əlavə edək ki, ilk dəfə buna C.St. Mol diqqət yetirmişdir. O, ölkənin ixrac hesabına öz idxalının yerini doldurduğu təqdirdə xarici bazarda uğurlu ticarət apardığını göstərməklə idxalın ixracdan asılılığını

dürüst ifadə etmişdir. İxraca yönəlmiş inkişaf strategiyası İkinci Dünya müharibəsindən sonra Yaponiya və "Asiya pələngləri", 1980-ci illərin əvvəllərindən isə Çin tərəfindən uğurla həyata keçirilmişdir.

Lakin proteksionizm siyasəti də kifayət qədər çoxlu sayda tərəfdaşa malikdir. İqtisadi tsiklin eniş, resessiya və depressiya kimi mərhələlərində, eləcə də inkişaf etməkdə olan iqtisadiyyatlar üçün onun yalnız üstünlükləri deyil, həm də ümumilikdə obyektiv zərurəti güclənir. Axı, böhran halları maliyyə-iqtisadi imkanların pisləşməsinə, istehsal həcminin azalmasına və yerli istehsalçıların rəqabət mövqelərinin itirilməsinə gətirib çıxarır. Belə şəraitdə onlar öz daxili və xarici vəziyyətlərini müstəqil surətdə sabitləşdirə bilmir və dövlət dəstəyinə ehtiyac duyurlar.

Bu cür dəstək vəziyyətin yaxşılaşdırılmasına uyğun olaraq selektiv, düşünülmüş və elastikdirsə, yerli istehsal, bir qayda olaraq, yerli maddi və insan resursları, ucuz logistika və nəqliyyat xərcləri kimi faktorlu rəqabət üstünlükləri sayəsində təşəkkül tapmaq və sonrakı inkişaf üçün kifayət qədər potensiala malikdir. Beləliklə, məhz idxaləvəzləyici malların istehsalı tam haqlı ola bilər. Belə strategiyanın üstünlüklərinin nümunəsi Cənubi Amerikanın bir sıra dövlətlərinin müsbət təcrübəsi olmuşdur. Lakin beynəlxalq əmək bölgüsünün üstünlüklərinin inkişafı və istifadəsinin təbii və qazanılmış potensialının olduğu iqtisadi fəaliyyət növlərində həyata keçirilməsinə selektiv yanaşma zamanı idxaləvəzləmə siyasətinin inzibati istiqamətinin diskretliyini vurğulayaq. Məsələn, Azərbaycan Respublikası üçün bu, aqrosənaye istehsalı, kənd təsərrüfatı, aviasiya və raket-kosmik maşınqayırması, qida, toxuculuq, mebel, dəri, sellüloz və digər sənaye sahələri, nəqliyyat və rabitə xidmətlərdir.

İndi Azərbaycan Respublikasının iqtisadiyyatı bərpa və inkişafın mürəkkəb post-transformasiya və post-krizis vəziyyətindədir, idxal mallarının və xidmətlərinin daxili istehlak bazarının əksər seqmentlərinə nüfuz etməsi isə həddən çoxdur. Bu, idxaləvəzləmə probleminin heç olmasa qismən inzibati dövlət tənzimlənməsi və həll edilməsi zərurətinin olduğunu sübut edir. Bundan başqa, bu problemin kəskinliyinin təsdiqi ölkəmizdə ÜDM və idxal həcmlərinin dəyişməsi tendensiyasıdır (şək. 3).




**Şək. 3. 2009-2021-ci illərdə Azərbaycan Respublikasında ÜDM-in və idxalın artım templərinin nisbəti**

Müşahidə edə bildiyimiz kimi, idxalın artım tempi demək olar ki, 2009-2021-ci illəri əhatə edən bütün dövr ərzində ÜDM-in artım tempindən artıq olmuşdur. Yalnız iqtisadi-maliyyə kreditinin ÜDM-in azalmasına və XİF göstəricilərinin pisləşməsinə gətirib çıxardığı 2013-cü il istisna təşkil etmişdir. Lakin idxalın artım tempinin ÜDM-in artım tempindən 22 – 37% üstün olduğu 2006, 2008, 2010-2011 və 2013-2014-cü illərdə yerli iqtisadiyyatın idxal asılılığı problemlərinin xüsusilə kəskinləşməsi müşahidə olunmuşdur.

Fikrimizcə, yerli iqtisadiyyatın idxal asılılığı probleminin mürəkkəbliyi, bir tərəfdən, idxaləvəzləmə siyasətinin inzibati tədbirlərinin həyata keçirilməsi zərurətinin olduğunu iddia etməyə əsas verir, lakin digər tərəfdən, dünya təcrübəsi məhz iqtisadi xarakterli tədbirin yüksək effektivliyinin olduğuna inandırır. Buna görə də hesab edirik ki, idxaləvəzləmənin dövlət tərəfindən tənzimlənməsinə yanaşma, ən azından ilk mərhələlərdə, qarışıq olmalıdır. Yəni söhbət ayrı-ayrı malların və mal qruplarının idxalının saxlanmasından, eləcə də yerli istehsalın rəqabət qabiliyyətinin təşəkkül tapmasının, inkişafının və möhkəmlənməsinin aktiv stimullaşdırılmasından gedir.

Dövlətin idxaləvəzləmə siyasətinin ardıcıllığının müəyyən edilməsini məqsədəuyğun hesab edirik. Ona əməl edilməsinə görə əsas diqqət yerli istehsalın rəqabət qabiliyyətinin möhkəmləndirilməsinə edilməlidir, ayrı-ayrı proteksionist tədbirlər isə daha çox dəstək və islahatların məqsədlərinə tez çatmaq üçün istifadə olunacaq.

Təklif etdiyimiz dövlət siyasətinin konseptual ardıcıllığı üç prinsipial mərhələdən ibarətdir. Bu,

birincisi, təhlil və onun əsasında idxaləvəzləmənin imkanlarının və potensialının aşkarlanmasıdır.

İdxaləvəzləmə üzrə dövlət siyasətinin həyata keçirilməsinin ikinci prinsipial mərhələsi yerli istehsalın mövqelərinin bərpa edilməsinə və rəqabət qabiliyyətinin yaxşılaşdırılmasına aiddir.

Üçüncü mərhələ, fikrimizcə, artıq daha çox əmtəə hərəkəti sisteminin və ticarətin institusional infrastrukturunun gücü ilə yerli istehsal olan malın daxili bazarda mövqelərinin möhkəmləndirilməsinə, sonradan isə gücləndirilməsinə aid olmalıdır.

Nəticə etibarilə, idxaləvəzləmə üzrə bu hadisənin müsbət və mənfi nəticələrini vurğulayan iki mövqe vardır. İdxaləvəzləmə üzrə dövlət siyasətinin müsbət sosial-iqtisadi nəticələrinə aşağıdakıların aid edilməsi məqsədəuyğundur:

• iqtisadi fəaliyyətin milli təsərrüfat üçün vacib olan növlərinin təşəkkülü və inkişafı;

• yerli müəssisələrin zəif rəqabət qabiliyyətinin qorunmasının təmin edilməsi;

• vergi məhdudiyyətlərinin tətbiq edilməsi və idxaləvəzləyici məhsullarının ixracın stimullaşdırılması sayəsində ixraca yönəlmiş iqtisadiyyata keçid üçün şəraitin yaradılması;

• daha çox sosial effekti təmin edən idxaləvəzləyici məhsulların istehsalçılarına dəstək;

• innovasiyaların stimullaşdırılması, yeni texnologiyaların tətbiqi və birbaşa xarici investisiyaların tənzimlənməsi üçün maliyyə-investisiya institutlarının yaradılması;

• xarici bazarda davamlı rəqabət mövqelərini qazanan və dotasiyalı müəssisələrdən əhəmiyyətli xarici iqtisadi sosial effektə malik büdcə-dolduran müəssisələrə çevrilən istehsalat müəssisələrinin klasterlərinin formalaşdırılması.

Lakin ayrı-ayrı alimlər idxaləvəzləmənin rolunu mənfi qiymətləndirir və hesab edirlər ki, açıq iqtisadiyyatlarda universal tənzimləyici kimi bazar çıxış edir. Burada əsas mənfi nəticələr olaraq aşağıdakılar göstərilir:

• idxaləvəzləyici istehsalın aşağı effektivliyi;

• ölkə daxilində öz məhsullarının istehsalını başa çatdıran xarici şirkətlərin gəlirinin və mənfəətinin böyük hissəsinin başqa yerə axması;

• idxal mənşəli investisiya-texnologiya təminatının və aralıq mallarının istifadəsi nəticəsində idxal asılılığının dərinləşməsi və xarici valyutanın kənara axması;

• iqtisadiyyatın real sektorunun idxaləvəzləmənin tətbiq edildiyi seqmentlərində inkişafın ləngiməsi, çünki müəssisələr həddən çox gömrük məhdudiyyətlərinin istifadəsi səbəbindən kifayət qədər rəqabət qabiliyyəti potensialı qazana bilməyəcəklər.

Nəticə etibarilə, idxaləvəzləmənin iqtisadi rolu iqtisadi tərəqqi, ÜMM-in, investisiyaların həcminin artması, yerli istehsalın maddi-texniki və texnoloji bazasının modernləşdirilməsi, onun ixrac potensialının inkişafı, milli təsərrüfatın strukturunun diversifikasiyası və istehlakçı tələbinin rasionallaşdırılması üçün ilkin şərtlərin yaradılmasından ibarətdir [8]. Bu zaman yeni iş yerlərinin yaradılması, əməyin ödənişi səviyyəsinin qaldırılması və əhalinin əmək həyatının keyfiyyətinin yaxşılaşdırılması, vətəndaşların sosial təhlükəsizliyinin və mühafizəsinin gücləndirilməsi idxaləvəzləmənin sosial effektlərini müəyyən edir [9]. Məhz buna görə dövlətin sosial-iqtisadi inkişafında idxaləvəzləmənin lazımi effektivliyinin təmin edilməsi onun risklərinin minimuma endirilməsini, rasional strategiyaların, iqtisadi-təşkilati realizasiya mexanizminin taktikasının əsaslandırılmasını tələb edir [10].

## Nəticə

İdxaləvəzləmə dövlətin struktur siyasətinin mühüm istiqamətidir və onun məqsədi daxili mal və xidmət bazarında yerli istehsalın, idxal və satışın nisbətinin azaldılmasıdır ki, bu da iqtisadiyyatın real sektorunun inkişafının stimullaşdırılması və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi, idxalın qarşısının "ağılla" alınması, mal və xidmətlərin ixrac həcminin artırılması, ölkənin ticarət balansının yaxşılaşdırılması yolu ilə həyata keçirilir. İdxaləvəzləmə siyasətinin nəticəsi ölkə ərazisində hazırlanmış malların həcmində və payında, daxili istehlakın, kapital və maliyyənin, əmək resurslarının və əqli kapitalın, nou-hau və texnologiyaların, maddi-texniki baza elementlərinin, innovasiya resurslarının, institusional mühit elementlərinin ümumi həcmində baş verən dəyişikliklərdir.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Jacobs J. Cities and the Wealth of Nations. New York: Vintage Books, 1985.*

*2. Жалелаев Я.А. Проблемы формирования современных основ политики импортозамещения в Азербайджанской Республике / Я.А. Жалелаев, В.М. Гацько // стратегическая панорама. URL: http://www.niisp.org/vydanna/panorama/issue.php?s=epol2&issue=2006_1.*

*3. Интернет-ресурс Федерального исследовательского отдела библиотеки Конгресса США.*

*URL: countrystudies.us/south-africa/91.htm*

*4. Интернет-ресурс Института исследований торговли и коммерческой дипломатии США. URL: www.itcdonline.com/introduction/glossary2_i-p.html.*

*5. Статистический ежегодник Азербайджанской Республики за 2017 год. - Баку.: Государственная служба статистики АР, 2018. 534 с.*

*6. Внешняя торговля Азербайджана товарами и услугами в 2017 году. Баку: Государственная служба статистики АР, 2018. 156 с.*

*7. Завадовский И.С. Экономический словарь. URL: ftp://lib.sumdu.edu. az/ebooks/ebooks/KnigiCD / 78_cd.pdf.*

*8. Цап М. В. Обоснование необходимости и направлений формирования системы управления инвестиционно-инновационным обеспечением экономической безопасности предприятий реального сектора экономики / Цап М. В., Иляш Н.И. / / Проблемы развития внешнеэкономических связей и привлечения иностранных инвестиций: региональный аспект : сб. науч. трудов. - Воронеж: ВГУ, 2018. С. 145-148.*

## XÜLASƏ

Məqalədə idxaləvəzləmə anlayışının mahiyyəti nəzərdən keçirilir. Sosial-iqtisadi inkişafda idxaləvəzləmənin rolu təhlil edilir. Neokeynesian məktəbinin nümayəndələrinin – M.Brunonun, N. Karterin, A.Strauqun, X.Venerenin nəzəri modellərində idxaləvəzləmə prosesi tədqiq edilir. İdxaləvəzləmənin mahiyyət xarakteristikasının elementləri, idxaləvəzləmə strategiyalarının parametrləri, dövlətin idxaləvəzləmə siyasətinin ardıcıllığı açıqlanır. Milli iqtisadiyyatın idxal asılılığı probleminin mürəkkəbliyi səciyyələndirilir.

**Açar sözlər**: *idxaləvəzləmə, idxal, idxaləvəzləmənin elementləri, neokeynesçilik məktəbi.*

**Ilham Badalov**

## IMPORTANT CHARACTERISTICS OF THE IMPORT SUBSTITUTION PROCESS AND ITS ROLE IN SOCIO-ECONOMIC DEVELOPMENT

## SUMMARY

The article considers the essence of the concept of import substitution. The role of import substitution in socio-economic development is analyzed. The process of import substitution is studied in the theoretical models of the representatives of the Neo-Keynesian school - M. Bruno, N. Carter, A. Straug, H. Venus. Elements of the essential characteristics of import substitution, parameters of import substitution strategies, sequence of state import substitution policy are disclosed. The problem of import dependence of the national economy is characterized by its complexity.

**Keywords:** *import substitution, import, elements of import substitution, neo-Keynesian school.*

**Ильхам Бадалов**

## ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ ПРОЦЕССА ИМПОРТОЗАМЕЩЕНИЯ И ЕГО РОЛЬ В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

## РЕЗЮМЕ

В статье рассматривается сущность понятия импортозамещения. Анализируется роль импортозамещения в социально-экономическом развитии. Процесс импортозамещения исследуется в теоретических моделях представителей неокейнсианской школы - М. Бруно, Н. Картер, А. Страуг, Х. Венус. Раскрыты элементы сущностных характеристик импортозамещения, параметры стратегий импортозамещения, последовательность государственной политики импортозамещения. Проблема импортозависимости национальной экономики характеризуется своей сложностью.

**Ключевые слова:** *импортозамещение, импорт, элементы импортозамещения, неокейнсианская школа.*

УДК: 338.364.4

# ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКАЯ ОСНОВА РАЗВИТИЯ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ И ЕЁ ОСОБЕННОСТИ

**ЗАУР АЗИЗОВ**
*Диссертант Азербайджанского Технического Университета*

*E-mail: zfazizov@gmail.com*

Инновационная структура должна отличаться мобильностью и способностью оперативного реагирования на появившиеся инновационные идеи, которые, в конечном итоге, должны быть применены в производстве и в создании новой добавочной стоимости. Вопросы маневренности национальной инновационной системы и инновационной политики государства не должны ограничиваться лишь разработкой механизмов и инструментов государственной поддержки по усилению инновационной деятельности в стране. Очень важно создание и развитие более продуктивной инновационной сферы, которая сможет способствовать стимулированию инновационной деятельности и интенсивному распространению новых инновационных начал, идей, изобретений [1]. По своим особенностям инновационные функции и элементы инновационной экономики обуславливают комплексные и целенаправленные мероприятия по развитию национальной инновационной системы и ее основных подразделений. Особенности инновационных процессов, которые должны учитывать инновационный специалист при создании организационно-экономического механизма инновационной деятельности вытекают из преобладающего вида нововведения [2]. Для развития инновационных начал и усиления инновационной экономики необходимо создание соответствующих инновационных институтов, в том числе, региональной подсистемы национальной инновационной системы.

Эффективное использование инновационного потенциала регионов страны сможет серьезно повысить конкурентоспособность и расширить источники роста национальной экономики, сформировать новые направления добавочной стоимости и создать финансовую базу для этого. Более того, стимулирование и развитие инновационных субъектов позволит создать наукоемкие и технологические рабочие места, которые позволяют продуктивно освоить и использовать интеллектуальные ресурсы в стране. По мнению В.Л.Венского, инновации не являются однородными - каждая из них обладает специфическими качественными характеристиками, определяющими ее воздействие на хозяйственное развитие. Современные этапы развития мирового сообщества характеризуются ускоренными темпами научно-технического прогресса и возрастающей интеллектуализацией основных факторов производства [3]. Усиление основных компонентов инновационной экономики требует интенсивной разработки и реализации новой инновационной продукции и развития инновационного рынка в стране. Поэтому государство должно иметь четкий и сложенный подход по стимулированию и мотивации и, при необходимости, размещению государственного заказа на производство и выпуск конкурентоспособных инновационных товаров и продуктов. Аналогичный подход позволит ускорить технологический прорыв и способствует успешной интенсификации развития инновационной экономики страны. Общемировой тенденцией считается усиливающаяся конкуренция инновационных систем за ресурсы своего развития, прежде всего, за человеческий капитал. Экономическое развитие, то есть непрерывное обновление экономики как результат и причина обновления потребностей прогресса цивилизации, характеризуется усилением обратной связи «экономика-прогресс» [4].

Считаем, что для формирования полноценной инновационной экономики, в первую очередь, необходимо комплексное решение проблем эффективного использования человеческого капитала и интеллектуальных ресурсов в развитии инновационной экономики с учётом современных вызовов. Для динамичного развития инновационной экономики и обеспечения повышения инновационной активности необходимо рассмотреть и оценить ряд факторов: 1) разработка и реализация долгосрочных научно-технических программ и стратегий; 2) обеспечение финан-

совых вопросов и привлечение инвестиционных потоков в модернизацию производственных мощностей; 3) переход на новые экономичные виды техники; 4) существенное усиление инновационной активности на предприятиях и во всех инновационных структурах; 5) развитие инновационной среды и инвестиционно-инновационной деятельности в стране [5]. Комплексное рассмотрение вышеприведённых факторов и проблем могут ускорить последовательную реализацию важных этапов инновационного процесса и, в целом, сформировать и развить инновационную экономику. В число определяющих факторов и этапов развития инновационного процесса включаются объективные оценки новых инновационных идей и намерения подготовки совершенно новых инновационных продуктов, адекватность стратегии изготовления новой продукции и обеспечения ее адаптивности на инновационных товарных рынках, обоснование внедрения новой инновационной продукции в производство, и, наконец, выпуск конкурентоспособной инновационной продукции.

Отметим, что методологические подходы развития экономики страны с помощью активного применения инновационных функций позволяют формировать более продуктивные и устойчивые источники роста экономики страны в условиях глобальных преобразований и угроз. Создаются более надежные механизмы и направления деятельности с использованием возможных природных и экономических ресурсов, которые эффективно воздействуют на формирование новых источников добавочной стоимости, расширяют налоговую базу и создают благоприятные условия для повышения эффективности проводимой экономической и, в том числе, инновационной политики государства. Подобное развитие экономики страны с дальнейшим ускоренным переходом на инновационные основы стимулирует динамичность экономического роста и повышение конкурентоспособности страны [6]. Инновативные подходы и усиление инновативных функций в разных отраслях национальной экономики повышает потенциал для дальнейшего перехода на новый технологический уклад. Не случайно исследователь Е.И.Пискун подчеркивает, что ведущие экономисты мира рассматривают технологические инновации как фактор экономического роста, подчеркивая, что разработка и внедрение инноваций является базой научно-технического прогресса, толчком экономического развития, определяя его эффективность и рост производительности труда [7]. Технологические инновации и активное применение новых инноваций, применение изобретений и рационализаторских предложений, эффективное использование зарегистрированных технологических и инновационных патентов позволят активно внедрить разного рода новейшие технологии, увеличить объем инновационной продукции и активизировать экспортные поставки инновационной продукции в разных сегментах. При этом важнейшим фактором рассматривается системный подход углубления инновационных процессов. Отмечая важность этого фактора, исследователь С.Б.Рудич подчёркивает, что системный подход является одним из важнейших методологических основ исследования современных инновационных процессов, так как только на его фундаменте возможно получение правильного, адекватного действительности представления об инновациях как социальном феномене, охватывающем всех участников инновационного процесса в их взаимосвязи, во взаимоотношении с внешней средой, при способности к самоорганизации при общей нацеленности на создание и распространение нового знания [8]. Можно согласиться, что современные инновационные процессы являются важнейшим фактором, который может воздействовать на социально-экономические процессы и обеспечить не только инновационную активность, но и, в целом, экономическую активность в стране.

Более того, системный подход может способствовать углублению инновационных процессов, которые, в свою очередь, активизируют возникновение новых инноваций и других активных элементов инновационной деятельности, повышение эффективности других участников инновационных процессов, в том числе, генератора знаний и потенциальных создателей новых инноваций, изобретений и интеллектуальных ресурсов. Систематизация инновационных процессов поможет организации тесного взаимодействия ряда важнейших участников инновационной деятельности, в том числе, конечных потребителей и основных производителей инновационной

продукции, посреднических структур и подразделений по реализации инновационной продукции исследователями научно-исследовательских организаций, в целом, представителями науки - университетами, инновационными и технологическими центрами. При этом инновации выступают в качестве окончательного результата инновационной деятельности, который охватывает совершенно новый усовершенствованный продукт, либо технологический процесс, который активно внедряется на аналогичных рынках или применяется в производстве по повышению производительности и увеличению объёма высококачественного и высокотехнологичного продукта. С точки зрения методологии системного подхода, в условиях рыночной экономики и технологических параметров инновации делятся на две группы: продуктовые и процессные. Кроме того, с глобальной точки зрения внедрение новых инноваций, науки и высоких технологий способствуют существенному увеличению объёма наукоёмкого производства и повышению конкурентоспособности экономики страны. Такие результаты и успехи во многом зависят от методов стимулирования инновационной деятельности, мотивации участников инновационных процессов и эффективности, применяемой государственной поддержки по развитию национальной инновационной системы, улучшению инновационной среды, созданию востребованной высокотехнологичной инновационной инфраструктуры в стране. Подобные подходы широко распространены в развитых странах мира, где инновационное развитие страны считается приоритетной целью, и задачей государства и на этом мы подробно остановимся в следующем параграфе. Однако хотели бы коротко отметить, что в развитых странах для интенсификации инновационных процессов государство активно регулирует ряд инновационных процессов и циклы инновационного развития: 1) определяет важнейшие критерии развития инновационных процессов и предприятий; 2) разрабатывает и реализует оптимальные инновационные стратегии государства; 3) активно осуществляет комплексные и системные мероприятия по стимулированию инновационных процессов; 4) формирует альтернативные и более продуктивные источники финансирования и обеспечивает приток инвестиций к сферам инновационной деятельности и т.д. [9]. Кроме того, активная поддержка и мотивация разработки и реализации крупных целевых инновационно-инвестиционных проектов активно способствует раскрытию инновационного потенциала и ускорению формирования инновационной экономики в стране. Эффективное финансирование крупных инновационных проектов за счёт государственных средств, целевых программ по поддержке инновационной инициативы, идей, новшеств и, в целом, усиление инновационной деятельности в той или иной отрасли экономики страны. В ряде стран мира, наряду с прямым государственным методом регулирования инновационных процессов, активно используются косвенные методы мотивации и поддержки инновационной деятельности, например, либерализация налогового законодательства, оптимизация системы налогообложения прибыли, применение налоговых льгот, установление инвестиционных преференций, обеспечение доступности дешёвого кредитования участников и субъектов инновационных процессов в целом.

Отметим, что в Азербайджане за последние десятилетия формируется соответствующая инновационная среда и государственная инновационная политика со своей методологической особенностью и подходом. Одно из важнейших направлений и подходов инновационного развития и усиления инновационной активности рассматривается создание технологических парков с высокими технологиями и инновационными функциями**.** Подобное развитие инновационной среды в ближайшей перспективе позволит повысить инновативной уровень и потенциал в стране. Например, в развитых странах уровень инновационного потенциала находится на высоком уровне: в Японии 85%, в США 60%, а в Азербайджане лишь - 5%. Поэтому требуется более высокий темп перехода к инновационной экономике, так как современный мир требует переоценки стратегии планирования, финансирования исследований, инновационной политики. Для этого необходима объективная оценка тенденций инновационной деятельности [10]. Кроме того, для ускорения формирования важнейших элементов инновационной экономики, необходимо расширить научно-технический прогресс и инновационные процессы в стране.

Для этого требуется полноценное развитие информационно-коммуникационной технологии и инновационных процессов, которые смогут способствовать интенсивному развитию инновационного предпринимательства и улучшению жизненного состояния населения, повышению международного имиджа страны [11]. Кроме того, научно-технический прогресс может серьёзно воздействовать на углубление качественных изменений в обществе и в национальной экономике. Поэтому с методологической точки зрения, роль и функции государства в инновационных процессах и в обеспечении научно-технического прорыва страны очень велики.

Безусловно, большие перспективы имеются в активизации инновационной деятельности и инновационных процессов в перспективных ненефтяных секторах экономики за счёт ускорения применения новых высоких технологий, в том числе, цифровых технологий. К сожалению, созданная инфраструктура используется слабо и не нагружается перспективными инновационными проектами. Например, при Национальной Академии наук Азербайджана, в созданных парках высоких технологий имеются все условия для интенсивного развития инновационной деятельности, однако за прошедшие годы серьёзные сдвиги в этом направлении не наблюдались и число зарегистрированных резидентов минимальные, объём выпускаемой инновационной продукции мизерный, то есть не отражает реальных возможностей. Парк высоких технологий НАНА больше всего упоминался в научной среде и в обществе, информационных сетях частыми сменами руководителей этого парка, нежели информацией о выпуске новых инновационных продуктов и реализации инновационных проектов.

## ЗАКЛЮЧЕНИЕ

В ближайшей перспективе считаем, что в контексте теоретико-методологических подходов, необходимо учитывать ряд особенностей:

– требуется активизация проводимой работы по исследованиям потенциальных рынков с целью формирования серьёзной почвы для развития инновационных процессов, планирования новых конкурентоспособных инновационных продуктов и более стимулирующих механизмов привлечения иностранных инвестиций;

– необходимо расширение инновационных процессов позволит повысить инновативность и конкурентоспособность перспективных ненефтяных секторов экономики и существенно увеличить экспортный потенциал с выходом на финансоёмкие мировые технологические рынки;

– считаем, что требуются кардинальные изменения в организационных и методологических подходах по ведению инновационной деятельности и усилению хода инновационных процессов во всех новых инновационных инфраструктурах, в том числе, в созданных технопарках, промышленных парках, промышленных кварталах и специальных экономических зонах в стране и т.д.

Ключевые слова: теоретическая основа инновационной экономики, методологические особенности инновационной экономики, инновационная экономика, новые инновации, инновационное развитие, национально инновационная система.

## ЛИТЕРАТУРА:

1. *Freeman, C. The National System of Innovation in Historical Perspective. Cambridge Journal of Economics. – 1995. № 1. Vol. 19, –p. 71-95.*

2. *Мюллер, Р.У. Сущность и классификация инноваций // Фундаментальные исследования. – 2012. – № 6-1. – С. 244-248*

3. *Венский, ВЛ. Инновации: сущность, содержание и классификация // Вестник БДУ, Серия 3, 2008. - № 2. – с.67-71.*

4. *Комаров, В.М. Современные теории инноваций: проблемы и перспективы общего подхода. Авт-т дисс. канд. экон. наук. Москва. – 2011. – 28 с.*

5. *Тагиев, А.Г., Амиров, И.Б. Пути повышения инновационной активности на предприятиях Азербайджана. Международный научно-исследователь 11(42), Екатеринбург-2015. – с. 99-104.*

6. *Гордеев, О.И., Гордеев, С.О. Теоретические и методологические основы экономического роста на этапе становления инновационной экономики // РППЭ, – 2016. №1 (63), – с.77-82.*

7. *Пискун, Е.И. Управление инновационной деятельностью производственно-экономических систем в современных условиях. Дисс. д-ра экон. наук. – Харьков – 2015. – 521 с.*

8. *Рудич, С.Б. Методология исследования*

*инновационных процессов в региональных социально-экономических системах // Вестник ВолГУ. 2016. №4 (37). – с.82-93.*

9. *Воловельская, И.В., Диденко, К.В. Дудка И.Н. Методы стимулирования инновационной деятельности предприятий в современных условиях // Вісник економіки транспорту і промисловості № 68, 2019. – с. 247-253.*

10. *Huseynova, A. Methodology of Monitoring and Evaluation of the Innovation Potential of Azerbaijan // Информация и инновации. 2018. Т. 13, № 2. 2018. – с. 70–86.*

11. *Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.-376 s.*

**XÜLASƏ**

**İNNOVASİYALI İQTİSADİYYATIN İNKİŞAFININ NƏZƏRİ METODOLOJİ ƏSASLARI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ**

Məqalədə innovasiyalı iqtisadiyyatın inkişafının nəzəri metodoloji əsasları və onun xüsusiyyətləri tədqiq olunmuşdur. Bu məqsədlə innovasiyalı iqtisadiyyatın nəzəri əsasları araşdırılmış və ümumiləşdirmələr aparılmışdır. İnnovasiyalı iqtisadiyyatın metodoloji xüsusiyyətlərinə baxılmışdır. İnnovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi ilə bağlı proseslər araşdırılmışdır. Milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində innovativ yanaşmların əhəmiyyəti və rolu təhlil olunmuşdur. Milli innovasiya sisteminin yaradılmasının və inkişaf etdirilməsinin əsas meyarları və prinsipləri açıqlanmışdır. Müasir dövrdə innovasiyalı iqtisadiyyatın inkişaf etdirilməsi və bununla bağlı proseslərin sürətləndirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** *innovasiyalı iqtisadiyyatın nəzəri əsasları, innovasiyalı iqtisadiyyatın metodoloji xüsusiyyətləri, innovasiyalı iqtisadiyyat, yeni innovasiyalar, innovasiyalı inkişaf, milli innovasiya sistemi.*

**SUMMARY**

**THEORETICAL AND METHODOLOGICAL FUNDAMENTALS OF DEVELOPMENT OF INNOVATIVE ECONOMY AND ITS FEATURES**

The article examines the theoretical and methodological bases of the development of innovative economy and its features. Therefore, in the study the theoretical foundations of the innovative economy have been studied and generalized. The methodological features of the innovative economy were also considered. Moreover, the importance and role of innovative approaches in accelerating the development of the national economy was given. The main criteria and principles for the establishment and development of the national innovation system have been presented. Recommendations and proposals have been made to develop an innovative economy and accelerate related processes in contemporary times.

**Keywords:** *theoretical foundations of innovative economy, methodological features of innovative economy, innovative economy, new innovations, innovative development, national innovation system.*

UOT 330.52;330.142

# DAYANIQLI İNKİŞAF: YAŞIL MALİYYƏLƏŞDİRMƏ VƏ MÜXTƏLİFLİK

**GÜNEL HƏSƏNLİ**
*Azərbaycan Dövlət İqtisad Universitetinin magistrantı*

*E-mail: gunelhesenli18@gmail.com*

**Giriş**

Ekoloji tarazlığın pozulması karbon dioksid ($CO_2$) və digər istixana qazlarının artmasına səbəb oldu və nəticədə qlobal ekoloji problemlər yarandı. Texnoloji irəliləyişlərin tətbiqi ilə ətraf mühit çirklənmə, qlobal istiləşmə, ozon təbəqəsinin və təbii ehtiyatların tükənməsi, meşələrin qırılması və bioloji müxtəlifliyin itirilməsi kimi təsirlərə məruz qalmışdır [1]. İqlim dəyişikliyi səhiyyəyə, kənd təsərrüfatına və ölkənin ümumi iqtisadi fəaliyyətinə əks təsir göstərir. Bu halda, "yaşıl maliyyə" anlayışı ən əsas və sürətlə inkişaf edən konsepsiyalardan birinə çevrildi.

Bu məqalənin məqsədi həm tələb, həm də təklif tərəflərini əhatə edən bütün dünyada davamlı və dayanıqlı inkişaf üçün "yaşıl maliyyə"nin müxtəlifliyini araşdırmaq və aydınlaşdırmaqdır. Həm dövlətlər, həm də maliyyə institutları "yaşıl maliyyə"nin uğurlu istifadəsi ilə bağlı "yaşıl siyasətlər" haqqında geniş anlayış yaratmalı və bu prosesin uzunmüddətli perspektivdə necə təkmilləşdirilə biləcəyini nəzərdən keçirməlidir.

**"Yaşıl maliyyə": Ümumi baxış**

Xüsusilə, son 3 onillikdə istehsal müəssisələrinin sayının artması ətraf mühitə zərərli təsir göstərmişdir. Bəzi tənzimləyici çərçivələrin maliyyə ilə birbaşa əlaqəsi var. Maliyyə sektoru bu məsələyə laqeyd qalmadı və bəzi maliyyə məhsullarının "yaşıl maliyyə" adı altında həyatımıza daxil olmasını təmin etdi. "Yaşıl maliyyə" anlayışının dəqiq tərifi yoxdur. Yaşıl maliyyə sosial baxımdan ölkədə "yaşıl" iqlimi gücləndirəcək. "Yaşıl maliyyə"nin regionda ekoloji problemlərə səbəb olan amillərə təsirini qiymətləndirmək üçün sistematik empirik tədqiqatlar da vacibdir. "Yaşıl maliyyə" dayanıqlı layihələr və təşəbbüslər, ekoloji məhsullar və daha dayanıqlı iqtisadiyyatın inkişafını təşviq edən siyasətlərdən sonra maliyyə investisiyalarına aid edilə bilən geniş termindir [2].

Ekoloji innovasiyanın təsiri məhsuldarlıq və rəqabət qabiliyyəti üçün müsbətdir, bu da iqtisadiyyata xərclərin azaldılmasında və ekoloji cəhətdən davamlı böyümənin əldə edilməsində katalizator rolunu oynaya bilər [3].

"Yaşıl maliyyə"nin məqsədi dövlət, özəl və qeyri-kommersiya sektorlarından maliyyə axınlarının səviyyəsini (kreditləşmə, mikro-kredit və fondların idarə edilməsindən) dayanıqlı inkişaf məqsədlərinə qaldırmaqdır. Ekoloji və sosial risklərin daha yaxşı idarə edilməsi bunun əsas komponentidir, həm ədalətli gəlir dərəcəsi, həm də ekoloji faydalar təklif edən resursların mənimsənilməsi və daha çox şəffaflığın təmin edilməsidir. "Yaşıl maliyyə" gələcək və davamlı inkişaf üçün daha çox nəzərdə tutulmuş perspektivli sahədir.

Şirkətləri təşviq etmək üçün yaşıl maliyyənin ən vacib alətlərindən biri yaşıl enerji sertifikatıdır. İstehsal mərhələsində bərpa olunan enerji resurslarından istifadə edən şirkətlər yaşıl sertifikatlaşdırma sisteminə daxil edilə bilər və bu beynəlxalq sertifikatı alqı-satqı edə bilərlər və cari istehsalının hər kVt/saatına görə əlavə gəlir əldə etmək imkanı əldə edirlər (daha ucuz kredit tapmaqla resurs xərclərini azaltmaqla). Daha çox Hollandiya, Danimarka və İtaliyada tətbiq olunan bu sistemin birjası Lüksemburq Yaşıl Birjası adı altında fəaliyyət göstərir.

"Yaşıl maliyyə" aşağıdakılar daxildir:

- Bərpa olunan enerji
- Çirklənmənin qarşısını almaq və nəzarət etmək
- Dairəvi iqtisadiyyat təşəbbüsləri
- Biomüxtəlifliyin qorunması
- Təbii ehtiyatlardan və torpaqdan dayanıqlı istifadə
- "Yaşıl bina" və ipoteka

"Yaşıl maliyyə" inkişaf etməkdədir. Hər il dünyada 100 trilyon dollardan çox maliyyə davamlılıq və ətraf mühit ətrafında dövr edir. Beynəlxalq Maliyyə İnkişafı Klubunun 27 üzv dövləti tərəfindən 2020-ci il üçün maliyyə yatırımları aşağıdakı cədvəldə qeyd olunmuşdur: **[4]**




*Mənbə: https://www.climatepolicyinitiative.org*

İqtisadi artımın yaratdığı ətraf mühitə təsirlər ən yaxşı şəkildə inkişaf etməkdə olan ölkələr tərəfindən idarə olunur, çünki müəssisələrin izləməyə meyilli olduğu proseslər müəyyənləşdirilir və onlara riayət edilməsi tələb olunur. Qlobal ekoloji böhranın inkişaf etmiş ölkələrdə kütləvi material və enerji istifadəsi ilə daha da şiddətləndiyi aydın olsa da, inkişaf etməkdə olan ölkələrdə qeyri-adekvat qaydalar da qlobal ekoloji böhranı davam etdirir. İnkişaf etmiş ölkələrlə əlaqələr xarici ticarət hesabına qurulanda qlobal ekoloji problemlərə gətirib çıxarır. İnkişaf etmiş ölkələrdə ekoloji problemlərin şiddəti zəhərli tullantıların idarə olunmasını geniş şəkildə əhatə edən korporativ qanunlara əməl edilməməsi, köhnəlmiş mexanizmlərin istifadəsi, qurğulara və avadanlıqlara kifayət qədər xidmət göstərilməməsi və tənzimləyici orqanlar tərəfindən məsuliyyətin olmaması halları kifayət qədər yüksəkdir.

Aşağıdakı cədvəldə regionlar üzrə (inkişaf etmiş ölkələrdə) qlobal dayanıqlı investisiya aktivlərinin həcmi 2016, 2018 və 2020-ci illər üzrə göstərilmişdir:

| Regionlar | 2016 | 2018 | 2020 |
|---|---|---|---|
| **Avropa** | 12,040 | 14,075 | 12,017 |
| **ABŞ** | 8,723 | 11,995 | 17,081 |
| **Kanada** | 1,086 | 1,699 | 2,423 |
| **Avstraliya** | 516 | 734 | 906 |
| **Yaponiya** | 474 | 2,180 | 2,874 |
| **Cəmi** | 22,839 | 30,683 | 35,301 |

(məbləğ milyard ABŞ dolları ilə göstərilib)

*Mənbə: Qlobal Dayanıqlı İnvestisiyalara baxış 2020*

Verilmiş cədvələ əsasən, beş əsas bazarda qlobal dayanıqlı investisiyaların həcmi 2018-2020-ci illər üçün 15% artaraq 35.3 trilyon ABŞ dollarına çatıb. Cədvəldə Avropa ölkələrinə Avstriya, Belçika, Bolqarıstan, Danimarka, Fransa, Almaniya, Yunanıstan, İtaliya, İspaniya, Niderland, Polşa, Portuqaliya, İsveç, Birləşmiş Krallıq, Norveç, İsveçrə və Lixtenşteyn daxildir.

Qlobal miqyasda dayanıqlı investisiya axınları yüksəlməkdə davam edir, lakin Avropa ölkələrində 2020-ci il üçün azalma müşahidə edilib. Bu müxtəlif əhəmiyyətli dəyişikliklərlə bağlıdır. Bu bölgədə investisiyalar AB qanunları çərçivəsində müəyyənləşdirilir. Eyni zamanda pandemiyanın bu məsələdə rolu az deyil [5].

Aşağı karbonlu mühitə keçidi davam etdirmək üçün hələ də çox əhəmiyyətli maliyyə kəsiri var. Çoxsaylı milli hökumətlərin əldə etdiyi vədləri nəzərə alsaq, tapşırığın əhatə dairəsi təkcə dövlət maliyyəsindən o qədər kənara çıxır ki, qarşıya qoyulan hədəflərə çatmaq üçün maliyyə xidmətləri sektorunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsinə ehtiyac var. Növbəti bölmədə "yaşıl maliyyə"də müxtəlifliyin miqyasını və onun maliyyə sektoru ilə əlaqələri araşdırılacaq.

**"Yaşıl maliyyə" bazarında müxtəliflik**

Sadalanan "yaşıl maliyyə" məhsullarına daxildir, lakin məhdudlaşmır:

❖ Dayanıqlı enerji mənbələri – Dünyanın enerji ehtiyacı artdıqca bu enerji növünə investisiya da artacaqdır. Dövlətlərin mövqeyi bu dayanıqlı enerji tələbində əsas faktordur. Beynəlxalq Enerji Agentliyinin (İEA) hesablamalarına əsasən siyasətçilərin tənzimləmə siyasətinə 2030-cu ilədək dayanıqlı enerjiyə tələbin 40 % artacağı proqnozlaşdırılır. Məsələn, ətraf mühiti çirkləndirən qazlarla mübarizəyə daha ucuz borclanmalar gərəklidir [8].

❖ Yaşıl ipoteka – Bu ev sahiblərinə yaşıl enerjidən istifadəni təklif edir. Dizayn fiziki infrastrukturdansa dayanıqlı davranışı əhatə edir. Məsələn, Almaniya dövlətinin yaşıl ipoteka təşəbbüsü [9].

❖ Yaşıl binalar – Umumdövlətlərin ətraf mühit proqramına əsasən (UNEP, 2009) “eko-arxitektura” sözü bina tikintisində və dizaynında ekoloji dayanıqlı metod və innovasiyalardan istifadəni nəzərdə tutur. Bu proqrama əsasən əgər yaşıl texnologiyadan tam olaraq

istifadə olunacaqsa, 30-80 faiz civarında enerji qənaəti əldə oluna bilər [10]. Əlavə olaraq, Ümumdünya Yaşıl Tikinti Şurasının (WorldGBC, 2014) tərəfindən hesabat verilmişdir ki, ofis binalarının dizaynı da onun sahiblərinin sağlamlığına və məhsuldarlığına təsir edir. Buna görə də yaşıl binalar çox vaxt əsas maraqlı tərəflərə sosial və maliyyə gəlirləri təklif edir. Binalar istixana emissiyalarına əhəmiyyətli töhfə verir və qlobal istiləşmə protokollarında istehsal və nəqliyyata daha az diqqət yetirirlər. Ümumdünya Yaşıl Tikinti Şurasının məqsədi hamı üçün yaşıl memarlığa nail olmaqdır. Dizayn işçilərinin və digər maraqlı tərəflərin bunu etmək üçün yaşıl binanın dəyərinin nəticələrini və üstünlüklərini dərk etmələri mütləqdir [11].

❖ Yaşıl istiqrazlar - Dünya Bankı və Avropa İnvestisiya Bankı tərəfindən yaradılmışdır, o, yaşıl enerjilər, enerjiyə qənaət, mühafizə və enerjinin qorunması da daxil olmaqla, iqlimlə bağlı müəssisələrdə potensial olaraq trilyonlarla dolları keçə biləcək təşəbbüslərə yol açmışdır. İstiqraz buraxılışının gəlirlərinin xüsusi iqlim və ətraf mühit layihələri üçün ayrılması yeni, təsir yönümlü investorları cəlb etmək və bankın bu əsas ictimai mallara diqqəti cəmləmək üçün stimullarını yaxşılaşdırmaq imkanı verən böyük bir dəyişiklik idi [12].

❖ Eko – depositlər – Avstraliya təcrübəsinə əsasən, bank hər xərclənmiş dollara görə kənd təsərrüfatını dəstəkləmək üçün eyni kredit verir. Tullantıların, çirklənmənin və ya təbii ehtiyatların azaldılması və ya qorunmasına yönəlmiş yerli enerjiyə qənaət edən şirkətlərə kreditlər üçün tam sığortalanmış əmanətlərdir.

❖ Ekoloji lizinq - Avropa bankları tərəfindən kapitallaşdırılacaq əsas "yaşıl maliyyə" məhsulu sahələrindən biridir və burada onlar müştərilərinə güzəştli tariflərlə ətraf mühitə uyğun texnologiyalar təqdim edirlər. İctimai maarifləndirmə kampaniyaları və biznesin təşviqi proqramları vasitəsilə “yaşıl” icarəyə dəstək olaraq bəzi Avropa hökumətləri bu sahədə böyük rol oynamışlar. Məsələn, Hollandiya hökuməti uzun illərdir ki, yerli bankları bu malları ekoloji cəhətdən təmiz cihazlara investisiya qoymaq istəyən yerli şirkətlərə satmağa həvəsləndirir. Hökumət planına əsasən, bu investisiyalarla bağlı xərclər onların vergiyə cəlb olunan gəlirlərindən çıxarılacaq və ətraf mühitin mühafizəsi ilə bağlı məsrəflərin sürətləndirilmiş amortizasiyası, enerjiyə qənaət edən investisiya proqramı və ətraf mühitə sərmayələrin ödənilməsi sxemi də daxil edilmişdir.

❖ Mikromaliyyə - Kişik günəş panelləri kimi dayanıqlı layihələri maliyyələşdirmək üçün hazırda bir sıra xarici banklar kredit verilməsindən imtina edilən fiziki şəxslərə mikro kreditlər təklif etməyi düşünür.

Əgər ekoloji prosedurlara əməl edilmədiyinə görə bank borcalana kredit təklif etməməyə razı olarsa, həmin borcalan maliyyələşdirmə ilkin şərtlərini ciddi şəkildə yerinə yetirməyən başqa banka müraciət edə bilər. Dövlət, özəl və beynəlxalq bankların məqsədi borcalanın maliyyə almaq meyarlarına cavab verib-verməməsindən asılı olaraq vəsait təmin etmək olmalıdır.

Ümumiyyətlə, "yaşıl maliyyə" anlayışı nəinki məhsul və ya individual əməliyyat səviyyəsində həyata keçirilə, həmçinin bütün müəssisə və maliyyə xidmətləri qismində çıxış edə bilər. Ekoloji təhlükəsizlik müəssisə və institutlara qərar qəbul etmə baxımından mühüm ola bilər. Bu “daxili yanaşma” o deməkdir ki, təşkilatlar biznes qərarları qəbul edərkən təkcə fəaliyyət kursunun maliyyə nəticələrini deyil, həm də daha geniş iqtisadiyyat, cəmiyyət və ətraf mühit üçün təsirləri nəzərə alır. Bu münasibət, fəaliyyətlərdən, işçilərin işə götürülməsindən və böyüməsindən, investisiya strategiyasından tutmuş, məhsul dizaynı və qiymətqoyma, risklərin qiymətləndirilməsi, marketinq və maliyyə idarəçiliyinə qədər şirkətin hər sahəsinə təsir edə bilər.

**Nəticə və təkliflər**

Dünyamızda neft və neft məhsulları həddindən artıq istifadə olunur. Yaxın bir neçə onilliyin sonunda dünyanın bütün enerji ehtiyaclarının bərpa olunan mənbələr hesabına ödəniləcəyi proqnozlaşdırılır. Bərpa olunan texnologiyalar effektiv iqtisadi stimullarla dəstəklənərsə, ənənəvi üsullardan daha ucuz elektrik enerjisi istehsal etmək mümkündür. Bundan əlavə, inkişaf edən texnologiyalar sayəsində təhlükəsiz elektrik təchizatı bərpa olunan mənbələrdən təmin edilə bilər. İnvestorları ekoloji cəhətdən təmiz bərpa olunan enerjilərə cəlb etmək üçün maliyyə institutları tərəfindən "yaşıl maliyyə" məhsulları və xidmətləri buraxılmalıdır.

İnsanlar dünyamızın Yer səthinin 75%-ni dəyişdiriblər. Yer üzündə bir milyon heyvanın itirilmə təhlükəsi var, sərbəst iqlim dəyişikliyi davam edir. Bu fəlakətlərlə bağlı şoklar yarandıqca biz hazırlıqsız qalırıq. Sadə dillə desək, maliyyə sənayesi

bütöv təsir göstəricilərini – həm çirklənmənin azaldılması kimi müsbət maliyyələşdirmə nəticələrini, həm də biomüxtəlifliyin deqradasiyası və ya insan hüquqlarının pozulması kimi neqativləri – kəmiyyəti müəyyənləşdirmək və ifadə etmək üçün daha çox iş görməlidir. Bu cür mənalı müdaxilə həm də maliyyə bazarında mexanizmlərin dəyişdirilməsini tələb edir. İnvestisiya axınının dəyişdirilməsi tələb və məhsulun səmərəsiz meyillərindən uzaqlaşır. Emissiyaları aradan qaldıran və ətraf mühitimizi və biomüxtəlifliyimizi qoruyan tənzimləmə sistemi mövcuddur. Bütün bunlar investisiya tələb edir. Maliyyə qurumları araşdırmaya əməl etməlidir. Ən nəhayət, təşkilatlardan həqiqətən də öz işçilərini təlimləndirmələri tələb olunur ki, onlar öz layihələrini izləyə və bu şirkətlərin qaydalara uyğun olub-olmadığını müəyyən edə bilsinlər. Onlar müştərilərə hər hansı çatışmazlıq halında müvafiq problemləri aradan qaldırmaq üçün lazımi tədbirlər görməyə istiqamət verə bilərlər.

"Yaşıl maliyyə" siyasətinin məzmununu həyata keçirmək üçün şirkətlər üçün hazırlana biləcək mexanizm hazırlanmalıdır. Nəhayət, təkcə bank və tənzimləyici sektorlarda deyil, cəmiyyət üzvləri arasında "yaşıl maliyyə" ideyası haqqında məlumatlılığın artırılması üçün səylər vacibdir. Bu tədqiqatda irəli sürülən təkliflər nəzərə alınarsa, bu, yaşıl biznesi təşviq etməyə və inkişaf etdirməyə kömək edəcəkdir.

**Açar sözlər:** *"yaşıl maliyyə", dayanıqlı inkişaf, ətraf mühitin təhlükəsizliyinin maliyyələşdirilməsi, müxtəliflik*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Banga, J. (2019). The green bond market: A potential source of climate finance for developing countries. Journal of Sustainable Finance & Investment, 9(1), 17– 32. https://doi.org/10.1080/20430795.2018.1498617*

*2. Jeffrey R. Kosnett, Jeffrey R. Kosnett 2008 iyun “Green Is The Next Big Thing ” məqaləsi*

*3. BROWNE, Roland W.Chalon; (2011); “Green Financing: More Than A Trend”; http://www.environmentalleader.com; July 2011; (Erişim Tarihi 28.07.2012)*

*4. https://www.climatepolicyinitiative.org/publication/idfc-green-finance-mapping-2021/*

*5. Qlobal Sustainable İnvestment review 2020*

*6. Environmental Finance. 2007(a). In Brief: FTSE4Good Sets Out Climate Criteria. March. Environmental Finance. 2007(b). Corporate Profile: New Resource Bank (NRB) - Making Their Green, Greener. February.*

*7. Environmental Finance. 2007 (c). ABN Amro Launches Climate Change Index. March 29. http://www.environmental-finance.com/onlinews/0329abn.htm*

*8. International Energy Agency. (2018). World Energy Investment 2018. Paris: International Energy Agency.*

*9. Creating an energy mortgage for Europe building assessment briefing: Germany 2020 https://www.worldgbc.org/sites/default/files/EeMAP_Building_Assessment_Briefing_GERMANY.pdf*

*10. UNEP 2009 Annual report https://www.unep.org/resources/annual-report/unep-2009-annual-report*

*11. Health, Wellbeing & Productivity in Offices 2014 https://www.worldgbc.org/sites/default/files/compressed_WorldGBC_Health_Wellbeing__Productivity_Full_Report_Dbl_Med_Res_Feb_2015.pdf*

*12. Afsaneh Beschloss and Mina Mashayekhi - Finance & Development, December 2019, Vol. 56, No. 4*

## SUMMARY

### Sustainable development: green financing and diversity

Ecological inequality has led to carbon dioxide ($CO_2$) and other Greenhouse Gases upgrowth which eventually produced global environmental issues. With the induction of technological advancements, the environment has been affected by pollution, global warming, Ozone depletion, depletion of natural resources, deforestation, and loss of diversity. Climate change has an inverse impact on health, agriculture, and the country’s overall economic activities.

In this case, the Green finance notion has become one of the most pivotal and fastest-growing concepts. As the planet becomes economically sustainable, the estimates of green finance would need to be understood by both investors and contract staff and whether the risks of contributing are justified irrespective of the amount of arrival.

The purpose of this article elucidates, explore, and scope the diversity of Green Finance for susta-

inable development worldwide while evaluating the Green Finance Policy covering both the supply and demand side. Both states and financial institutions should establish a broad understanding of green policies with regard to the successful use of green finance, and consider how this process can be improved in the long run.

**Key words:** *Green finance, sustainable development, the protection of the environment, diversity.*

**РЕЗЮМЕ**

**Устойчивое развитие - зеленое финансирование и разнообразие**

Экологическое неравенство привело к увеличению выбросов углекислого газа ($CO_2$) и других парниковых газов, что в конечном итоге привело к глобальным экологическим проблемам. С появлением технологических достижений на окружающую среду повлияли загрязнение, глобальное потепление, истощение озонового слоя, истощение природных ресурсов, обезлесение и утрата разнообразия.

Изменение климата оказывает обратное воздействие на здоровье, сельское хозяйство и экономическую деятельность страны в целом. В данном случае понятие «зеленых» финансов стало одним из самых центральных и быстрорастущих концепций. По мере того, как планета становится экономически устойчивой, как инвесторам, так и персоналу, работающему по контракту, необходимо будет понимать оценки зеленого финансирования, а также то, оправданы ли риски внесения вклада независимо от суммы поступления.

Цель этой статьи разъяснить, изучить и оценить разнообразие зеленых финансов для устойчивого развития во всем мире, а также оценить политику зеленых финансов, охватывающую как сторону предложения, так и спрос. И государства, и финансовые учреждения должны обеспечить широкое понимание «зеленой» политики в отношении успешного использования «зеленых» финансов и подумать о том, как этот процесс можно улучшить в долгосрочной перспективе.

**Ключевые слова:** *«зеленые финансы», устойчивое развитие, защита окружающей среды, разнообразие.*

UOT 332.122

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏN BİZNES SUBYEKTLƏRİNİN MÖVCUD DURUMUNUN QİYMƏTLƏNDİRİLMƏSİ ÜSULLARI

**KAMİLƏ ƏSGƏROVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*
*E-mail: askerova.kamile@gmail.com*

## ƏSAS HİSSƏ

Artıq 30 ilə yaxındır ki, torpaqlarımız düşmən tərəfindən vəhşicəsinə istismar edilib, yeraltı və yerüstü təbii sərvətlərimizdən beynəlxalq normalara riayət olunmadan vəhşicəsinə istifadə olunub. Yenicə müstəqillik qazanmış dövlət üçün torpağın 20 faizinin işğalı, irimiqyaslı ağır, yüngül və yeyinti sənaye sahələrinin talan edilməsi, bir milyondan çox məcburi köçkünün sosial-iqtisadi problemlərinin həlli kimi vacib vəzifələr yaranıb. Qalib gəlmək və bütün digər problemləri həll etmək üçün ölkəmizin güclü iqtisadiyyatı olmalı idi. Çətin bir dövrdə ölkəmiz müstəqilliyini qoruyub saxlamaqla, regionda yeni geosiyasi vəziyyəti qoruyub saxlamaqla, heç bir dövlətdən asılı olmayaraq Cənubi Qafqazda güclü iqtisadiyyata malik dövlətə çevrilib. Neft-qaz sənayesinin inkişafı xarici investorların ölkə iqtisadiyyatına sərmayə qoymasına stimullaşdırmaqla yanaşı, beynəlxalq miqyasda bir neçə iri regional layihələrin həyata keçirilməsi üçün əlavə imkanlar yaratmışdır. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Cənubi Qafqaz Boru Kəmərini (CQBK), Trans-Anadolu Boru Kəmərini (TANAP), Trans-Adriatik Boru Kəmərini (TAP), Asiya və Avropanı birləşdirərək, Azərbaycanın iqtisadi baxımdan zəngin təbii resurslara malik bir ölkə olduğunu sübut edir (https://president.az/az/pages/view/azerbaijan/contract).

Qarabağ işğaldan azad olunduqdan sonra bu ərazilərdə biznes qurmaq istəyən şəxslər müraciət etmişdir. Müraciətlərə əsasən KOBİA işğaldan azad olunmuş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlardan müraciətlərin qəbulunu, onlara lazımi informasiya, əlaqələndirmə və məsləhət xidmətlərinin göstərilməsini davam etdirir.

İndiyədək işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya 900-dən çox müraciət daxil olub. Ərizələrin çoxu – 111 ərizə Şuşa şəhərində biznes subyektinin açılması üçün edilib.

Bu siyahıda ikinci yeri 108 ərizə ilə Ağdam şəhəri tutur. Müvafiq olaraq Füzuli üçün 62, Kəlbəcər üçün 49, Cəbrayıl və Xocavənd üçün ayrı-ayırılıqda 25, Zəngilan üçün 28, Laçın üçün 13, Qubadlı üçün 21 ərizə müraciət daxil olub. Digər bölgələr üçün edilən ümumi müraciətlərin sayı isə 485-dir.

Biznes qurmaq istəyənlər tikinti, ticarət və xidmətlər, sənaye, kənd təsərrüfatı, turizm, səhiyyə, təhsil, mədəniyyət, logistika üzrə müraciət ediblər. Bu sahələrdə də tikinti, ticarət və xidmət sahələri hər biri 27 faizlə liderlik edir. Müraciətlərin 20 faizi sənaye, 18 faizi kənd təsərrüfatı, 8 faizi isə turizm, səhiyyə, təhsil, mədəniyyət, logistika üzrə olmuşdur.

Qarabağın işğaldan azad olunması Qədim İpək Yolu və bu kimi beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsinə səbəb oldu. İstər siyasi, istərsə də iqtisadi cəhətdən regionun əsas oyunçusuna çevrilmiş Azərbaycan 44 günlük müharibədə güclü iradəsi və həmrəyliyi ilə gücünü bir daha göstərmiş və ərazilərimizi işğaldan azad etmişdir. Azərbaycanın 44 günlük müharibədə qələbəsi xarici investorların qeyri-neft sektorunun inkişafına sərmayə qoymasına əlverişli şərait yaradıb. İşğaldan azad edilmiş ərazilərin coğrafi-ərazi quruluşu, iqlim şəraiti, təbiəti və relyefi onların bütün maddi-iqtisadi ehtiyatlarından səmərəli istifadə imkanlarını genişləndirdi. Ərazinin münbit kənd təsərrüfatı torpaqları, su ehtiyatları və yeraltı təbii sərvətləri yerli sahibkarlarla yanaşı, xarici investorlar üçün də cəlbedicidir. Kiçik Qafqazın dağətəyi və orta dağlıq hissələri, düzənlikləri qızıl, mis, qurğuşun, sink, kobalt, civə, surma filizləri, dəmir filizləri, alunit və mərmər kimi faydalı qazıntılardan düzgün və səmərəli istifadə etmək üçün əlverişli imkan yaradır. Mənbəyi həmişə qarlı dağlardan başlayan təbii şirin su gölləri və bol çaylar, su anbarları, torpaq və bitki örtüyü işğaldan azad edilmiş ərazilərdə qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının və regional turizmin inkişafını sürətləndirəcək. İşğaldan azad edilmiş ərazilərin iqtisadi səmərəliliyini təmin etmək üçün proqramların planlı şəkildə həyata keçirilməsi çox vacibdir. Bildiyimiz kimi, işğaldan azad edilmiş ərazilərdə bütün istehsal, xidmət obyektləri, torpaq ehtiyatları özəlləşdirmədən kənarda qalıb. Həmçinin ərazidəki istehsal

müəssisələrinin fəaliyyəti dayanıb. Ölkənin iqtisadi yükünü azaltmaq və bütün dünya ilə ayaqlaşa biləcək iqtisadi sistem qurmaq üçün Dördüncü Sənaye İnqilabının reallıqlarını regiona tətbiq etmək vacibdir. Ərazilərin qısa müddətdə istehsalata cəlb edilməsi və sahibkarların əraziyə həvəsləndirilməsi üçün aşağıdakı genişmiqyaslı işlərin həyata keçirilməsi vacibdir (http://www.e-qanun.az/framework/34254):

- ➢ ərazi üzrə vahid kənd təsərrüfatı torpaqlarının elektron məlumat bazasını yaratmaq;
- ➢ regionlar üzrə müqayisəli üstünlüyə malik kənd təsərrüfatı məhsullarının elektron məlumat bazasının yaradılması;
- ➢ faydalı qazıntılara yerli və xarici bazarlara tələbat meyarlarını ayrıca müəyyən etmək.

İşğaldan azad edilmiş ərazilərdə təsərrüfat sisteminin düzgün qurulması, sahibkarlıq və istehsal fəaliyyəti üçün bir-biri ilə əlaqəli infrastrukturun yaradılması çox vacibdir. İnfrastruktur istehsal və xidmət prosesini dəstəkləyən istehsal və qeyri-istehsal sahələri kompleksidir və işğaldan azad edilmiş ərazilərə investisiyaların cəlb edilməsində və sahibkarlığın inkişafında əsas amildir. Bu baxımdan, ərazidə iqtisadi və sosial infrastrukturun tikintisi zamanı aşağıdakı sahələrin düzgün təşkili vacibdir (http://www.e-qanun.az/framework/34254):

- ▪ İşğaldan azad edilmiş ərazilərdə salınan "ağıllı qəsəbə" və kəndlər yeni magistral və dəmir yollarında salınmalıdır;
- ▪ Ərazidə daha çox alternativ enerji mənbələrinə əsaslanan elektrik enerjisi istehsalı formalaşmalıdır. Bu iş hidroenergetika, külək enerjisi, günəş panelləri və digər alternativ mənbələrə əsaslanmalıdır;
- ▪ Ərazilərdə su və kanalizasiya xətləri sistematik şəkildə qurulmalıdır ki, tullantılar daha sonra çirkab sutəmizləyici qurğularda təmizlənərək təkrar emal olunsun və kənd təsərrüfatı torpaqlarının suvarılması üçün təkrar istifadə olunsun;
- ▪ Rabitə qovşaqları bütün ərazilərdə yerləşdirilməli, vətəndaşların ucuz, dayanıqlı, mobil və sürətli internet xətlərinə çıxışı təmin edilməlidir;
- ▪ Əsas magistral və dəmir yollarının qovşağında logistik mərkəzlər və anbarlar tikilməlidir;
- ▪ İdxaldan asılılığın aradan qaldırılması üçün ərazilərdə kənd təsərrüfatı məhsulları emalı müəssisələri və yüngül sənaye klasterləri yaradılmalıdır;
- ▪ Bölgə üçün əhəmiyyət kəsb edən istehsal sahələri ilə birlikdə elmi-tədqiqat və təcrübə institutları və sınaq laboratoriyaları yaradılmalıdır.

Ümumiyyətlə, nəzərdə tutulan bütün məsələlər və istiqamətlər həm respublika, həm də işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün böyük iqtisadi əhəmiyyət kəsb edir. Son illərdə dövlətin qarşısında duran ən mühüm məsələlər qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsidir. İşğaldan azad edilmiş ərazilərin bərpası, yeni texnologiyalara əsaslanan və müasir standartlara cavab verən infrastrukturun qurulması qeyri-neft sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri üçün yeni perspektivlər vəd edir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (SMBDA) ilə Türkiyə Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi (MÜSİAD) arasında İstanbulda keçirilən "MÜSİAD Expo 2020" beynəlxalq sərgisi çərçivəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumu tərəflər arasında ticarət, investisiya, sənaye, birgə biznes tədbirlərinin təşkili, iş adamlarının hər iki ölkədə keçirilən sərgi və digər tədbirlərdə iştirakının təşviqi, qarşılıqlı missiyaların təşkili və s. sahələrdə əməkdaşlığı nəzərdə tutur. Müzakirələr zamanı MÜSİAD-ın vitse-prezidenti Mehmet Akif Özyurt Azərbaycanın “MÜSİAD Expo 2020” sərgisində “Qarabağ Azərbaycandır” stendi ilə təmsil olunmasından və işğaldan azad edilmiş ərazilərin iqtisadi və investisiya potensialının təqdimatından məmnunluğunu ifadə edib (https://www.smb.gov.az/az/all-news/kobia-ve-musiad-arasinda-emekdasliga-dair-anlasma-memorandumu-imzalanib).

Müraciət edən xarici şirkətlər işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasında investor və ya podratçı qismində iştirak etmək niyyətlərini bildiriblər. Xarici şirkətlərin seçimində ixtisas, təcrübə, yüksək keyfiyyət və münasib qiymət amilləri nəzərə alınmaqla, yeni texnologiya gətirən, yerli resurslardan (material və əmək resurslarından) istifadə edən şirkətlərə üstünlük verilməsi məqsədəuyğundur.

İnvestisiya cəlbediciliyinin artırılması üçün İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və davamlı inkişafı üzrə 2021-2025-ci illər üçün Dövlət Proqramı”nda investisiyaların təşviqi mexanizmi nəzərdə tutulub. Biznes fəaliyyəti iqtisadi inkişafın bütün mərhələlərində əsas

həlqədir və məhz bu sahənin inkişafı son nəticədə iqtisadiyyatın ümumi inkişafına kömək edir. Ölkə iqtisadiyyatı ayrı-ayrı təsərrüfat sahələrinin məcmusu şəklində formalaşır. Bu baxımdan, ölkə iqtisadiyyatının formalaşması və inkişafı son nəticədə onların inkişaf səviyyəsindən, müəssisələrin bazar fəaliyyətindən asılıdır. Beləliklə, dövlətin iqtisadi siyasətini, ilk növbədə, müəssisələrin yaradılmasına və inkişafına, onların normal inkişafını təmin edən müvafiq bazar şəraitinin formalaşmasına yönəltmək lazımdır (https://apa.az/az/sosial/azad-edilmis-erazilerin-2021-2025-ci-illerde-berpasi-ve-dayaniqli-inkisafina-dair-dovlet-proqrami-hazirlanir-650667).

İşğaldan azad edilmiş rayonlarda sahibkarlığın təşkili, idarə edilməsi və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni özündə əks etdirən, sistemli təhlillərə əsaslanan kompleks hüquqi, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. yanaşma xarakterli tədbirlərin işlənib-hazırlanması və həyata keçirilməsi tələb olunur. Başqa sözlə, meliorasiyaya konseptual yanaşmaya üstünlük verilməlidir. İşğaldan azad edilmiş ərazilərdə tikinti və abadlıq işlərinin aparılması üçün yerli daş karxanaları, qum, çınqıl, əhəng, sement və s. hasilat müəssisələrinin fəaliyyətini bərpa etmək üçün rayonları təmsil edən tikinti şirkətləri ərazilərə köçürülməli, işçiləri üçün ya konteyner tipli vaqonlar, ya da modul tipli evlər quraşdırılmalıdır. Həmçinin işğal olunmuş və minalardan təmizlənmiş ərazilərdə dövlət, özəl və xarici şirkətlərin cəlb edilməsi ilə respublika və yerli əhəmiyyətli avtomobil və dəmir yolları bərpa edilməlidir. Bu şirkətlər vasitəsilə ilk növbədə regionlarda mobil rabitə sistemi, daha sonra isə poçt rabitəsi şəbəkələri bərpa edilməlidir. Aparılacaq genişmiqyaslı tikinti-quraşdırma işləri nəzərə alınaraq, səyyar asfalt-beton və sement zavodlarının tikintisi, ərazilərin elektrik enerjisi ilə təminatı, su və qaz təchizatının bərpası həyata keçirilməlidir.

**Cədvəl 1: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə bölgüsü**

| | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Qarabağ iqtisadi rayonu cəmi | 10328 | 10139 | 133 | 56 | 12857 | 12692 | 114 | 51 |
| Xankəndi şəhəri | 1 | 1 | - | - | 838 | 838 | - | - |
| Ağcabədi rayonu | 2108 | 2070 | 27 | 11 | 2715 | 2689 | 15 | 11 |
| Ağdam rayonu | 1552 | 1524 | 22 | 6 | 1503 | 1478 | 17 | 8 |
| Bərdə rayonu | 4089 | 4037 | 40 | 12 | 5098 | 5053 | 35 | 10 |
| Füzuli rayonu | 1413 | 1380 | 22 | 11 | 1217 | 1187 | 21 | 9 |
| Xocalı rayonu | 11 | 9 | 1 | 1 | 29 | 27 | 1 | 1 |
| Xocavənd rayonu | 59 | 53 | 4 | 2 | 153 | 147 | 5 | 1 |
| Şuşa rayonu | 13 | 10 | 3 | - | 27 | 23 | 4 | - |
| Tərtər rayonu | 1082 | 1055 | 14 | 13 | 1277 | 1250 | 16 | 11 |

*Mənbə: https://www.stat.gov.az/source/entrepreneurship/*

Cədvəl 1-də əks olunan kimi fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə bölgüsünə əsasən 2019-cu ilə nisbətən Ağcabədi rayonu 1 say fərqi ilə orta sahibkarlıq nisbətində Bərdə rayonunu geri qoyur.

Cədvəl 2 (Əlavələr)

Cədvəl 2-dən göründüyü üzrə yuxarıdakı statistik məlumatlara əsasən iqtisadi rayonlar, inzibati ərazi vahidləri və iqtisadi fəaliyyət növləri üzrə ləğv edilmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 2019 və 2020-ci ilə nəzərən verilmişdir. Burada əsas xidmət sahələri götürülmüş və bu xidmət sahələri üzrə ləğv edilən sahibkarlıq subyektlərinin göstəriciləri əks olunmaqdadır. 2019-cu ilə nisbətdə ən çox ləğv olunan sahibkarlıq subyekti Ağcabədi rayonu üzrədir, 338 sayda mikro sahibkarlıq subyekti 2020-ci il üzrə ləğv edilmişdir, bunlar daxilində isə ləğv olunan əsas sahələr 1-ci sırada kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; 2-ci sırada nəqliyyat və anbar təsərrüfatı; 2-cü sırada isə digər sahələrdə xidmətlərin göstərilməsi subyektləridir.

**Cədvəl 2: İqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrdə muzdlu işçilərin sayı, nəfər**

| | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Qarabağ iqtisadi rayonu cəmi | 7510 | 942 | 1843 | 4725 | 7398 | 963 | 1622 | 4813 |
| Ağcabədi rayonu | 1673 | 188 | 318 | 1167 | 1536 | 238 | 220 | 1078 |
| Ağdam rayonu | 849 | 51 | 250 | 548 | 976 | 87 | 211 | 678 |
| Bərdə rayonu | 1917 | 348 | 610 | 959 | 1783 | 298 | 506 | 979 |
| Füzuli rayonu | 1366 | 172 | 370 | 824 | 1298 | 171 | 347 | 780 |
| Xocalı rayonu | ... | 8 | ... | ... | ... | 8 | ... | ... |
| Xocavənd rayonu | ... | 15 | 107 | ... | ... | - | 124 | ... |
| Şuşa rayonu | ... | 35 | ... | - | 56 | 10 | 46 | - |
| Tərtər rayonu | 1295 | 125 | 127 | 1043 | 1424 | 151 | 147 | 1126 |

*Mənbə: https://www.stat.gov.az/source/entrepreneurship/*

2019-cu il üçün Qarabağ iqtisadi rayonu daxilində biznes subyektləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri olan müəssisələrdə muzdlu işçilərin say çoxluğu Bərdə rayonundadır. 2020-ci ilin statistik göstəricilərinə nəzərən isə mikro sahibkarlıq subyekti üzrə müəssisələrdə muzdlu işçilərin sayı 298 nəfər, kiçik sahibkarlıq subyekti üzrə müəssisələrdə muzdlu işçilərin sayı Bərdə rayonu üzrə 506 nəfər, orta sahibkarlıq subyekti üzrə müəssisələrdə muzdlu işçilərin sayı Ağcabədi rayonu üzrə 1078 nəfərdir.

Beləliklə, araşdırma göstərir ki, regionların sosial-iqtisadi inkişafı üzrə ölkədə aparılan işlər sahibkarlığın inkişafına və onu iqtisadiyyatın əsas sektorlarından birinə çevrilməsinə şərait yaratmışdır.

Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, öz növbəsində kiçik və orta müəssisələrin sayının da artımına və fəaliyyətlərinin genişlənməsinə təkan vermişdir. Azərbaycanda kiçik və orta müəssisələr iki qrupa bölünür: fərdi sahibkarlar (yəni hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan şəxs), kiçik və orta müəssisələr (yəni hüquqi şəxslər). Fərdi sahibkarlar birmənalı olaraq hüquqi baxımdan kiçik müəssisələr hesab olunurlar, hüquqi şəxs kimi qeydiyyata alınan-

lar isə iki göstəriciyə (işçilərin sayına və illik dövriyyəyə) əsasən təsnif olunurlar.

**Açar sözlər:** *İşğaldan azad edilmiş əzazilər, biznes subyektləri, iqtisadi zonalar*

### ƏDƏBİYYAT SİYAHISI


1. *http://www.e-qanun.az/framework/34254*
2. *https://vergiler.az/news/economy/11072.html*
3. *https://president.az/az/articles/view/29172*
4. *https://www.smb.gov.az/az/all-news/kobia-ve-musiad-arasinda-emekdasliga-dair-anlasma-memorandumu-imzalanib*
5. *https://apa.az/az/sosial/azad-edilmis-erazilerin-2021-2025-ci-illerde-berpasi-ve-dayaniqli-inkisafina-dair-dovlet-proqrami-hazirlanir-650667*
6. *https://www.stat.gov.az/source/entrepreneurship/*
7. *http://interfax.az/view/808077/az*
8. *http://edf.gov.az/az/content/162*


## METHODS OF ASSESSING THE CURRENT SITUATION OF BUSINESS ENTITIES OPERATING IN THE OCCUPIED TERRITORIES

### SUMMARY


One of the most pressing issues today is the organization of the work of business entities in the administrative territories liberated from occupation after the Second Karabakh War and the role that the state will play in this direction.

The role of the state in the organization of business depends on the fiscal policy to be determined and applied. The fiscal policy chosen by the state has a direct impact on the activities of individual legal entities and individuals, their solvency and liquidity in the implementation of fiscal and regulatory functions of taxes. Some aspects of modern scientific approaches to determining and assessing the tax burden, the causes and consequences, trends and ways of unequal distribution of the tax burden among economic entities, as well as the impact of fiscal policy on the tax burden are discussed in separate scientific papers on fiscal policy. and there are still no positions that are completely similar in methodological approaches to its calculation.

In addition, the planning of business development strategies in these areas, the organization and management of this planning work is one of the main priorities. The idea of the state creating economic zones in the liberated territories is a key issue. Because the significant impact of direct fiscal policy will be reflected in these zones.


**Keywords:** *Liberated members, business entities, economic zones*

## МЕТОДЫ ОЦЕНКИ ТЕКУЩЕГО ПОЛОЖЕНИЯ ХОЗЯЙСТВЕННЫХ СУБЪЕКТОВ, РАБОТАЮЩИХ НА ОККУПИРОВАННЫХ ТЕРРИТОРИЯХ

### РЕЗЮМЕ


Одним из наиболее актуальных вопросов сегодня является организация работы субъектов предпринимательства на административных территориях, освобожденных от оккупации после Второй карабахской войны, и роль, которую будет играть в этом направлении государство.

Роль государства в организации бизнеса зависит от определяемой и применяемой фискальной политики. Выбранная государством фискальная политика оказывает непосредственное влияние на деятельность отдельных юридических и физических лиц, их платежеспособность и ликвидность при реализации фискальной и регулирующей функций налогов. Некоторые аспекты современных научных подходов к определению и оценке налогового бремени, причины и последствия, тенденции и пути неравномерного распределения налогового бремени между хозяйствующими субъектами, а также влияние фискальной политики на налоговое бремя рассматриваются в отдельных научных статьях. работ по фискальной политике, и до сих пор нет положений, полностью близких по методологическим подходам к ее расчету.

Кроме того, планирование стратегии развития бизнеса в этих сферах, организация и управление этой работой по планированию является одним из основных приоритетов. Идея создания государством экономических зон на освобожденных территориях является ключевым вопросом. Потому что в этих зонах будет отражаться существенное влияние прямой фискальной политики.


**Ключевые слова:** *Освободившиеся участники, хозяйствующие субъекты, экономические зоны.*

UOT 339.5

# MİLLİ İQTİSADİYYATIN DAVAMLI TƏŞƏKKÜLÜNDƏ EFFEKTİV GÖMRÜK SİYASƏTİNİN YERİ VƏ ROLU

**ADİL MƏMMƏDOV**
*Bakı Avrasiya Universiteti, magistrant*

*E-mail: memmedovadil47@gmail.com*

**Giriş**

Beynəlxalq kommersiya əməliyyatları müəyyən hüquqi normaların istifadəsi və onların aparılmasının konkret metodları əsasında həyata keçirilir. Kommersiya əməliyyatlarının ən əsas hüquqi formalarından biri – beynəlxalq ticarət sövdələşməsidir. Beynəlxalq ticarət sövdələşməsinin həyata keçirilməsinin məcburi şərti onun xarici tərəfdaşla bağlanmasıdır.

Beynəlxalq alqı-satqı müqavilələri barədə hələlik iki konvensiya məlumdur:

1. Malların beynəlxalq alqı-satqısı barədə Vyana Konvensiyası (1980-ci il);

2. Beynəlxalq alqı-satqı müqavilələrinə tətbiq edilən hüquqi qaydalara dair Yeni Haaqa Konvensiyası (1985-ci il).

Bu konvensiyalarda beynəlxalq ticarət sövdələşmələri terminlərinin dəqiq təfsiri verilmişdir:Beynəlxalq ticarət sövdələşməsi – müxtəlif ölkələrin tərəfləri (iki və ya çox) arasında miqdarı və keyfiyyəti müəyyənləşdirilmiş mal vahidləri və ya xidmətləri üzrə müqavilənin bağlanmasıdır. Beynəlxalq ticarətdə milli iqtisadiyyatın inkişafını xarakterizə edən bütün proseslər dəqiq əks olunur. Bu proseslər satıcılar, alıcılar, vasitəçilər arasında qarşılıqlı əlaqələrin mürəkkəbliyini və bazar agentlərinin ziddiyyətlərini göstərir. Müqavilənin beynəlxalq xarakteri, onun subyektlərinin müxtəlif ölkələrdə yerləşən kommersiya müəssisələrinin olmasındadır. Tərəflər müxtəlif dövlətlərə məxsus olsalar onların müəssisələri bir dövlətin ərazisində yerləşsə belə, onların arasında bağlanmış müqavilə də beynəlxalq sayılır. Eyni zamanda bir dövlət daxilində fəaliyyət göstərən, lakin firmaları müxtəlif xarici ölkələrdə yerləşən müəssisələr arasında bağlanmış müqavilələr də beynəlxalq sayılır.“Ticarət sövdələşməsi” dedikdə, material əşya formasında mal mübadiləsini və əsas xidmətlərin göstərilməsi, həmçinin beynəlxalq ticarət dövriyyəsini təşkil edən xidmətlər barədə olan bütün müqavilələr başa düşülməlidir.

**Ticarət xarakterli sövdələşmələr**

Təkcə mülki hüquq normaları əsasında deyil, həm də ticarət hüququnun xüsusi normaları əsasında bağlanılır və yerinə yetirilir.

Alqı-satqı müqavilələri mal göndərmə şərtlərinə görə iki yerə ayrılır:

1. birdəfəlik mal göndərmə və fasiləli mal göndərmə müqavilələri;

2. pul, mal və qarışıq formalarda ödənişli müqavilələr.

Birdəfəlik mal göndərmə müqavilələri, bəzən "birdəfəlik saziş" də adlandırılır. Bu tip müqavilə, satıcının alıcıya göndərəcəyi malı bütünlüklə və əvvəlcədən razılaşdırılmış vaxtda göndərilməsi şərtini nəzərdə tutur.

Bu göndərişlər iki cür olur:

1. qısamüddətli göndərmələr;

2. uzunmüddətli göndərmələr.

Öhdəliklər yerinə yetirildikdən sonra tərəflər arasında hüquqi münasibətlər kəsilir. Fasiləli mal göndərmə müqavilələri müntəzəm olaraq müqavilələrdə göstərilən miqdarda malın müəyyən edilmiş müddət ərzində dövrlər üzrə göndərilməsi şərtlərini nəzərdə tutur. Bu müddət qısa və uzun ola bilər. Uzunmüddətli müqavilələr əsasən xammal, yarımfabrikatlar və s. üzrə bağlanılır.

Ödənişi pul formasında olan müqavilələr – tərəflərin müqaviləyə uyğun olaraq seçilmiş hesablaşma formaları və ödəniş qaydaları əsasında valyuta ilə hesablaşmalarıdır. Ödənişi mal formasında olan müqavilələr – bir və ya bir neçə malın satılmasının, digər malların alınması ilə əlaqələndirilməsi və hesablaşmanın valyuta ilə aparılmasıdır. Bu cür müqavilələrə mübadilə və kommersiya razılaşmaları aiddir. Barter razılaşmalarında müəyyən edilmiş miqdarda malların sadə mübadiləsi nəzərdə tutulur. Bu zaman müqavilədə ya dəyişdiriləcək malların miqdarı, ya da hansı məbləğ dəyərində göndəriləcək mallar göstərilir. Milli iqtisadiyyatımızın da struktur yenidənqurulmasının zəruriliyini nəzərə alsaq, idxal taariflərimizin dar nomenklaturda müəyyən edilmə-

sini daxili bazarımızın səmərəli tənzimlənməsini və ölkədə mütərəqqi istehsalların qurulması və inkişafına proteksionist yardımı təmin etməyə imkan verməyəcəyini görə bilərik Ölkə ərazisinə gətirilən yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyi sahəsində münasibətlər hüquqi cəhətdən, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Sertifikatlaşdırma haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Baytarlıq haqqında" AR-in qanunları və bu sahə ilə əlaqədar digər qanunvericilik aktları, habelə beynəlxalq müqavilələrdə nəzərdə tutulan qaydalarla tənzimlənir.

Ərzaq mallarına mikrobioloji göstəricilərin 4 qrupu üzrə nəzarət həyata keçirilir:

1. sanitar göstəriciləri – mezofil aerob və fakültativ – anaerob mikroorqanizmlərin bağırsaq çöpləri qrupu bakteriyalarının miqdarı, enterokokilər;
2. şərti – patogen mikroorqanizmlər;
3. patogen mikroorqanizmlər;
4. korlama mikoorqanizmləri

Yeyinti məhsullarının əsas keyfiyyət meyarları aşağıdakılardır:

- əsas qida elementlərini özündə birləşdirən, keyfiyyət göstəriciləri – zülallar, yağlar, karbohidratlar, vitaminlər, makro və mikroelementlər;
- kaloriliyi. Bu göstəricilər markalaşdırmada mütləq göstərilməlidir.

Məlumdur ki, hər bir ölkədə malların, proseslərin, xidmətlərin məcburi və könüllü sertifikatlaşdırılması sistemi mövcuddur və sertifikatlaşdırmanın həyata keçirilməsi hökumət tərəfindən xüsusi səlahiyyət verilmiş orqanlara həvalə olunaraq onların hüquq, vəzifə və məsuliyyətlərini müəyyənləşdirir. Sertifikatlar malın təhlükəsizliyini, onun müəyyən olunmuş tələblərə uyğun gəldiyini və sertifikatlaşdırma qaydalarına uyğun verildiyini təsdiq etməklə təqdim olunur. Sertifikatları verən orqan isə sertifikatlaşdırma orqanları hesab olunur.

Gömrük orqanının vəzifəli şəxsi tərəfindən gömrük rəsmiləşdirilməsi zamanı sertifikatda olan aşağıdakılar yoxlanılır:

- sertifikatda olan imzalar və möhürlər;
- idxal olunan malların sertifikata uyğunluğu;
- sertifikatın fəaliyyət müddəti;
- gömrük rəsmiləşdirilməsi üçün digər məlumatlar.

Sertifikatlaşdırma malların standartlara, texniki şərtlərə uyğunluğunu təsdiq edərək mallardan imtinanın, onlara veriləcək reqlamentasiyaların qarşısını alır və iqtisadiyyatın təhlükəsizliyinə təminat verir.

**İdxal-ixrac göndərişlərinin təşkili zamanı malları sertifikatlaşdırılması**

İki növ sertifikatla.d;rma mühüm əhəmiyyətə malikdir:

1. Malın uyğunluq sertifikatlaşdırılması;
2. Malın mənşə sertifikatlaşdırılması

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən mallar üçün aşağıdakı hallarda mütləq sertifikat təqdim olunmalıdır:

1. AR-in gömrük tarifi üzrə tarif güzəştləri verdiyi ölkələrdə istehsal olunmuş mallara;
2. İdxalı miqdar məhdudiyyətləri və ya xarici iqtisadi fəaliyyətin digər tənzimləmə metodları ilə tənzimlənən ölkələrin malları;
3. Əgər beynəlxalq razılaşmalarda və AR-in ətraf mühitin mühafizəsi, əhalinin sağlamlığı, Azərbaycan istehlakçılarının hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulan hallarda, habelə AR-in digər vacib maraqlarında;
4. Gömrük rəsmiləşdirilməsi üçün təqdim olunan sənədlərin içərisində malın mənşəyi haqqında sənəd olmadıqda, yaxud gömrük orqanının bəyan olunan malın mənşəyi haqqında şübhələri olduqda.

Azərbaycan Respublikasının xarici ticarət-iqtisadi əlaqələrini şərti olaraq iki mərhələyə bölmək olar:

1) Müstəqillik elan olunanadək SSRİ-nin tərkibində olan Azərbaycanın ticarət-iqtisadi əlaqələri;
2) Müstəqil Azərbaycan Respublikasının ticarət-iqtisadi əlaqələri.

**Nəticə**

Milli iqtisadiyyatın davamlı təşəkkülündə iştirak edən tərəflərdən asılı olmayan xüsusi orqanlar tərəfindən həyata keçirilir. Sertifikatlaşdırma iştirakçıları malları göndərilənlərin və alıcıların maraqlarını ifadə edirlər. Bu məqsədlə milli sertifikatlaşdırma aparılması üçün sifarişçi-istehsalçı sertifikatlaşdırma orqanına sifariş göndərilməlidir. Bu sifarişdə istehsal olunacaq məhsulun fiziki-kimyəvi, texniki xarakteristikası, son nəticədə isə istehsalçı buraxılan məhsulun konkret standartların tələblərinə uyğun gəldiyini göstərir və malların sertifikatlaşdırılmasını xahiş edir. Bunun əsasında sertifikatlaşdırma üzrə orqan tərəfindən sertifikatlaşdırmanı aparacaq laboratoriya müəyyən olunur. Əgər sertifikatlaşdırma üzrə müsbət nəticələr əldə olunarsa, sınaq protokolu tərtib olunur və onlardan bir nüsxəsi malların sertifikatlaş-

dırılması üzrə orqana, sürəti isə mallar istehlakçısına göndərilir.

**Açar sözlər:** *gömrük siyasəti, ticarət sövdələşmələri, beynəlxalq ticarət, mal göndərilməsi, ərzaq malları və s.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: 2017, 900 s.*

*2. Qəribov A.H., Əzizov A.Ə., Əhmədova S.E. Beynəlxalq ticarət əməliyyatları. Dərs vəsaiti. Bakı: Biznes Universitetinin nəşriyyatı, 2017. 255 s.*

*3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: iqtisad universiteti, 2009, 415 s.*

*4.www.customs.gov.az*

## SUMMARY

### The role of effective customs policy inthe formation of the national economy

*The article examines the effectiveness of customs policy in the macroeconomic processes of the country and the effective organization of international commercial activities in this direction. It was noted that international commercial transactions are regulated by certain regulatory mechanisms and are more global in nature. In this sense, the execution of transactions has been identified as a necessary factor in the regulation of international commercial transactions. It is substantiated that the regulation of trade agreements and the presence of conventions in these processes were mentioned as a necessary mechanism for the implementation of international trade transactions. At the same time, trade transactions were discussed and it was shown that this concept includes the exchange of goods and basic services in the form of tangible goods, as well as services that make up the cycle of international trade.*

**Keywords:** *customs policy, trade deals, international trade, shipping, food, etc.*

## РЕЗЮМЕ

### Роль эффективной таможенной политики в формировании национальной экономики

В статье рассматривается эффективность таможенной политики в макроэкономических процессах страны и эффективная организация международной коммерческой деятельности в этом направлении. Было отмечено, что международные коммерческие операции регулируются определенными регулятивными механизмами и носят более глобальный характер. В этом смысле осуществление сделок было определено как необходимый фактор в регулировании международных коммерческих сделок. Обосновано, что регулирование торговых соглашений и наличие конвенций в этих процессах упоминались как необходимый механизм для осуществления международных торговых операций. В то же время были обсуждены торговые операции и показано, что это понятие включает обмен товарами и базовыми услугами в виде материальных товаров, а также услугами, составляющими цикл международной торговли

**Ключевые слова:** *таможенная политика, торговые сделки, международная торговля, морские перевозки, продукты питания и др.*

UOT: 334.021: 330.1

# STRENGTHENING THE FINANCIAL RESOURCES OF BANKS IN THE CONTEXT OF THE DEVELOPMENT OF DIGITAL PAYMENTS IN AZERBAIJAN

**G.E.GULIYEVA**
*UNEC*
*E-mail: qxanum00@mail.ru*

**V.H.IBRAHİMOV**
*EU businesses school, MBA banking*
*E-mail: ivusal@gmail.com*

**S.A.SADIGOVA**
*UNEC*
*E-mail: sarasadiqova02@mail.ru*

Technological advances, which have reached unprecedented speeds in the 21st century, have further complicated economic processes, and this technological advancement, which has made the world smaller, has made it impossible to retreat from economic governance and make it necessary to study competitive events. In this regard, the rapid development of the banking sector in particular is about to reveal a new and completely different economic structure. Geographical markets are disappearing, and even money is becoming a virtual means of payment rather than a physical entity. As a result, the process of state regulation of the exchange rate in central economic governments based on the control of money is developing in the direction of disappearance. Just as the discovery of money was a turning point in human history, the absence of physical money and the abolition of control over the money supply is such a revolutionary development. This trend is expected to remove political and economic boundaries.

Since the beginning of banking in Azerbaijan, customer service has traditionally been carried out mainly through physical contact in bank branches. Telephone banking, terminal banking, internet banking, television banking and mobile banking have emerged in the active development of remote banking services, covering payments and transfers from one individual to another. However, digital banking is no longer just digital communication channels with one customer, but digital products that meet the needs of customers around the clock.

As we know, during the pandemic in 2020, the number of electronic payments increased. People made their needs such as food, clothing, etc. through electronic orders and payments. However, the increase in the number of digital payments has not increased their volume. One of the reasons for the non-increase in payments is that citizens will be able to make payments electronically through POS terminals in 2020, the economic stagnation due to the pandemic,people's wages State According to the Statistics Committee, despite the decline in nominal incomes, the average monthly nominal wage appears to have increased in 2020. Even if we take into account the CPI, the real average monthly salary has increased.https://www.stat.gov.az/news/macroeconomy.php? page = 4)Decrease during 2020or temporary downtime can have an impact on reducing people's spending. The decline in wages was mainly due to the pandemic in tourism, entertainment and a number of other service sectors. However, as a result of targeted measures, the number of labor contracts in the private sector as of January 1, 2021 has not only decreased, but even increased by 24.0% or 154,000 compared to the beginning of 2020, and 794,000 labor contracts were registered.(https://apa.az/en/social_xeberler/Pandemiya-dovrund-908-min-iscinin-is-yeri-v-mkhaqqi-gliri-qorunub-632925, 2021). Another main reason for non-increase of payments is when examining the types of cards.

**Table 1: Fast money transfers**

| Year, month | Fast money transfer systems | | | | | |
|---|---|---|---|---|---|---|
| | Bank entries | | | Transfers outside the bank | | |
| | Number, thousand units | Amount, mln. Manat | Amount of one payment, manat | Number, thousand units | Amount, mln. Manat | Amount of one payment, manat |
| 2009 | 1295.3 | 722.2 | 557.5 | 326.9 | 149.1 | 456.0 |
| 2010 | 1627.9 | 876.9 | 538.7 | 447.9 | 306.6 | 684.6 |
| 2011 | 1834.7 | 1046.2 | 570.2 | 464.8 | 416.4 | 895.9 |
| 2012 | 2082.3 | 1245.8 | 598.3 | 695.6 | 542.5 | 779.9 |
| 2013 | 2526.1 | 1565.5 | 619.7 | 985.9 | 779.6 | 790.8 |
| 2014 | 2626.8 | 1634.2 | 622.1 | 1306.9 | 979.7 | 749.6 |
| 2015 | 2280.2 | 1251.2 | 548.7 | 1278.4 | 800.8 | 626.4 |
| 2016 | 2284.8 | 1455,1 | 636.9 | 974.8 | 618.4 | 634.4 |
| 2017 | 2568.7 | 1812.3 | 705.5 | 982.0 | 627.7 | 639.2 |
| 2018 | 2918.9 | 1952.6 | 669.0 | 1068.5 | 662.5 | 620.0 |
| 2019 | 3251.9 | 2092.1 | 643.4 | 1320.9 | 927.7 | 702.3 |
| 2020 | 2223.7 | 1636.6 | 736.0 | 981.6 | 803.7 | 818.8 |
| 01 | 229.4 | 154.7 | 674.5 | 122.3 | 70.4 | 575.7 |
| 02 | 220.4 | 157.3 | 713.7 | 100.5 | 87.6 | 872.1 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 03 | 185.6 | 112.7 | 607.1 | 86.7 | 67.9 | 783.8 |
| 04 | 101.4 | 73.7 | 726.9 | 53.6 | 46.4 | 864.6 |
| 05 | 124.1 | 94.0 | 757.6 | 61.3 | 51.4 | 839.0 |
| 06 | 190.4 | 155.8 | 818.5 | 79.3 | 66.4 | 837.2 |
| 07 | 197.4 | 154.4 | 782.3 | 78.8 | 65.8 | 835.0 |
| 08 | 198.9 | 148.1 | 744.4 | 82.3 | 71.0 | 862.6 |
| 09 | 207.9 | 154.1 | 741.0 | 87.3 | 74.8 | 857.5 |
| 10 | 192.0 | 140.2 | 730.1 | 75.4 | 67.8 | 899.4 |
| 11 | 178.5 | 142.5 | 798.4 | 73.3 | 68.3 | 932.2 |
| 12 | 197.6 | 149.0 | 754.0 | 81.0 | 66.0 | 814.4 |

**Source:** *Central Bank of the Republic of Azerbaijan-https://www.cbar.az/*

A number of pandemic-related jobs have been closed or suspended. Here, the issue of state support comes to mind. Thus, the increase in the number of social cards in 2020 compared to 2019 by 1,060,000 is mainly due to social payments made by citizens to the government during the pandemic. Therefore, although the number of card transactions has increased, the volume has not increased.

As can be seen from Table 1 and Figure 2, we observe the impact of the devaluation of the manat and the problems it creates on the expenditure of the population's income on the number of fast money transfers in banks, both inbound and outbound. Also, the revocation of the licenses of some banks can be seen as an explanation for the decline in the number of POS terminals and ATMs in some years. While the number of instant money transfers (included in the bank) was 3251.9 in 2019, in 2020Was 2223.7. This decrease was also reflected in the total amount of payments. Thus, the total amount of transfers in 2019 will be 927.7 million. manat, and in 2020 - 803.7 million. manat. We can note that the reason for this decline is the economic recession that manifested itself in 2020.

One of the main objectives of the Central Bank in the "State Program for the Expansion of Digital Payments in the Republic of Azerbaijan" approved by the

**Graph 1: Number of fast money transfers**




***Source:*** *Central Bank of the Republic of Azerbaijanhttps://www.cbar.az/compiled by the author on the basis of.*

**Graph 2: Amount of instant money transfers**




***Source:*** *Central Bank of the Republic of Azerbaijanhttps://www.cbar.az/compiled by the author on the basis of.*

Decree of the President of the Republic of Azerbaijan No. 508 dated September 26, 2018 is to create a digital ecosystem that includes innovative payment solutions.

As a result of the work done in recent years to create an ecosystem of digital payments in the country, significant progress has been made in the infrastructure of contactless payments.So that,During 202026% of payment cards in circulation (2.3 million units) and 53% of POS-terminals (29.5 thousand units) support contactless payments(https://www.cbar.az/press-release-2707/odnis-kartlari-il-aparilan-tmassiz-mliyyatlarin-limiti-yuksldilmisdir,2020). For comparison, during the same period in 2018, these figures were 7% (409 thousand units) and 32% (21 thousand units), respectively.has done.

As in all countries, the demand for pandemic digitalization, contactless payments, e-commerce, e-banking services in Azerbaijanhas been updated. The spread of the virus by touching the surface during a pandemic has led the population to prefer contactless payments without touching the POS-terminal. In order to increase the ability of the population to make contactless payments during a pandemic, in many countries around the world have increased the limits for cashless transactions with contactless cards without entering a PIN-code. Using a similar experience, the Central BankIn 2020Increased the limit of contactless payments on cards without entering the PIN-code from 50 (fifty) to 100 (one hundred) manats and expanded the opportunities for consumers to make daily contactless payments more easily, quickly and securely.

In accordance with the strategy of expanding the contactless card infrastructure in the country, the Central Bank is working to ensure support for contactless payments on all bank cards and POS-terminals in the near future. (https://www.cbar.az/press-release-2707/odnis-kartlari-il-aparilan-tmassiz-mliyyatlarin-limiti-yuksldilmisdir, 2020).

Another key issue in digital banking is the number of age groups in which the population has the right to operate in the bank and their access to ATMs and POS terminals. In order to assess this possibility, it is necessary to determine the number of ATMs and POS terminals per 1,000 people of working age. The result will provide information on the access of this group of people to ATMs and POS terminals.

**Table 2:Number of ATMs and POS terminals per 1,000 people of working age (2010-2020)**

| Indicator | Age of working age (thousand people) | Number of ATMs (per 1000 people) | Number of POS terminals (Per 1,000 people) |
|---|---|---|---|
| 2010 | 6,167.9 | 0.306 | 1,276 |
| 2011 | 6,285.9 | 0.339 | 2,103 |
| 2012 | 6,395.7 | 0.353 | 5,763 |
| 2013 | 6,473.6 | 0.374 | 5,141 |
| 2014 | 6,548.9 | 0.398 | 11,148 |
| 2015 | 6,616.4 | 0.407 | 12,136 |
| 2016 | 6,677.8 | 0.367 | 10,752 |
| 2017 | 6,705.5 | 0.362 | 9,763 |
| 2018 | 6,771.6 | 0.369 | 9,762 |
| 2019 | 6,842.5 | 0.386 | 9,860 |
| 2020 | 6,894.5 | 0.393 | 8,284 |

***Source:*** *of Azerbaijan RepublicCompiled by the author on the basis of information from the State Statistics Committee and the Central Bank.*

*(https://azstat.org/statHtml/statHtml.do?orgId=994&tblId=DT_AA_002&vw_cd=MT_ATITLE&list_id=&scrId=&seqNo=&language=en&obj_var_id=Icon2path;https://www.cbar.az/, 2021).*

As can be seen from Table 2, the maximum number of ATMs per 1,000 able-bodied people reached its maximum in 2015. After the start of the process of revoking the licenses of banks due to devaluation, a decrease was observed in 2016-2017. The growth in 2018-2020 is noticeable as a result of the right strategy implemented by banks in order to improve customer service. The maximum number of POS terminals in 2015 is also observed. However, the number of POS terminals per 1,000 able-bodied people has been declining since 2015, with the exception of 2019. In 2020, this figure is the worst in the last 7 years with 8,284.

An analysis of the number of physical accounts per 1,000 people in the working age population based on the number and composition of customers' bank accounts may be important for the purpose of the study to determine accessibility from another spectrum - access to ATMs and post-terminals.

The sharpest increase in the number of individual customer accounts per 1,000 able-bodied people occurred in 2020. The main reason for this is that the population uses banking services to easily use payment systems in connection with the pandemic. In legal entities, one of the most significant breaks in the number of accounts occurred in 2016, and com-

pared to 2015, there was a decrease of 8.44. The main reason for this is the sharp drop in oil prices and the devaluation that forced legal entities to close their accounts.

**Table 3:Number of individual and legal entity customer accounts per 1,000 able-bodied people**

| Indicator | Age of working age (thousand people) | Number of customer accounts of individuals (Per 1,000 people) | Number of customer accounts of legal entities (per 1000 people) |
|---|---|---|---|
| 2014 | 6,548.9 | 1568.43 | 26.81 |
| 2015 | 6,616.4 | 1883.58 | 28.02 |
| 2016 | 6,677.8 | 1849.01 | 19.58 |
| 2017 | 6,705.5 | 1957,62 | 25.25 |
| 2018 | 6,771.6 | 2176.91 | 31.99 |
| 2019 | 6,842.5 | 2314,08 | 37.59 |
| 2020 | 6,894.5 | 2607.61 | 37.98 |

***Source:*** *of Azerbaijan RepublicCompiled by the author on the basis of information from the State Statistics Committee and the Central Bank.*

*(https://azstat.org/statHtml/statHtml.do?orgId=994&tblId=DT_AA_002&vw_cd=MT_ATITLE&list_id=&scrId=&seqNo=&language=en&obj_var_id=Icon2path;https://uploads.cbar.az/assets/69744a62000d89f5272f05560.pdf, 2021).*

**The result**

1) With the information obtained, banks should accelerate their activities to improve the quality of service in this area, with the forecast that the use of Internet banking will increase in the coming years.

2) Banks need to increase their investment in information technology and improve their websites in terms of security and convenience.

3) Banks should inform their customers more about internet banking, help raise awareness and strengthen their work by taking incentive measures.

4) Systematic meetings should be organized where all banks can discuss international experience in digital banking, security systems and legal regulations.

The research was carried out with the financial support of the Science Development Foundation under the President of the Republic of Azerbaijan.

Grant № EİF-GAT-5-2020-3(37)-12/10/5-M-10

**LITERATURE**

*1. State Tax Service of the Republic of Azerbaijan, Department of International Relations, Department of International Experiences and Innovations. E-Commerce Payment Systems.http://www.taxes.gov.az/uploads/beynelxalq/2015/_b2.pdf,2015.*

*2. Aliyev AG (2013). "Problems of informatization of society and economy". Baku, "Science", 460 pages.*

*3. Aliyeva AS, Abbasova VA, Tusai AA (2019). "Innovative features of Internet banking are technology. International Conference on "Corporate Governance and Innovative Economic Development". Center of Scientific Innovations of ANAS. Baku, March 31, pp.177-180.*

*4. Tagiyev XR Electronic banking services in Azerbaijan - current situation and development perspectives // Tax Journal of Azerbaijan, №3.2019, pp.179-194.*

*5. Tagiyev XR The role and importance of cashless payments in the country's economy // Journal of Qafqaz University, №2, 2013, pp.162-170.*

*6. Tagiyev XR, Rustamov TH, Suleymanov ZS The use and development prospects of electronic money in Azerbaijan // Azerbaijan Tax Journal, №4, 2015, pp.159-172.*

*7. Aslıyüksek MK (2016). Information Technologies and Digitalization Reflection in the Knowledge Literature in Turkey: Example of Information World Magazine (2000-2014). World of Information, 17 (1), pp.87-103.*

*8. Ban Ü., Ercan MK (2005). "Value-Based Operating Finance Financial Management". Gazi Kitapevi. Ankara, 321s.*

*9. Savaş Ö., Molu F., Atlı M. and Yazıcı H. (2014). Consumer Testing in the Banking Sector: Digital Branch, XTM. XVI. Academic Cognitive Conference, Mersin University, Mersin, 371p.*

*10. Daniel E. and Storey C. (2019). Online banking: strategic and management challenges. Long Range Planning, 30 (6): p.890-895.*

*11. Katz RL (2017). Social and Economic Impact of Digital Transformation. International Telecommunications Union, 352p.*

*12. https://www.cbar.az/page-23/the-low-value-payments-clearing-and-settlement-system*

*13. https://www.cbar.az/press-release-2885/ani-odnislr-sistemind-qr-kodla-odm-functionality-is-used*

14. https://www.cbar.az/press-release-2959/next-meeting-held-between-central-bank-and-azerbaijan-fintech-association-on-expansion-of-digital-payments-ecosystem-in-the-country

15. https://www.stat.gov.az/source/demoqraphy/

**Azərbaycanda rəqəmsal ödənişlərin inkişafı kontekstində bankların maliyyə resurslarının gücləndirilməsi**

**XÜLASƏ**

Rəqəmsal ödəmə sistemləri indi insanların həyatında, real həyatda çox vacib rol oynayır, çünki ödəmələr evdə, ən yaxın bankomatda, küçədəki avtomatlarda və s. həyata keçirilir. Ən dəyərli insan qaynaqlarından biri olan zamana qənaət edilir və Covid 19 epidemiyasının qızışdığı bir dövrdə sağlamlıq üçün etibarlı bir mühit yaradır. Plastik kartlar inkişaf etsə, dinamika müsbət olsa da, infrastruktur hələ inkişaf etmiş ölkələrə çatmayıb, nəticədə plastik kartların inkişafı üçün araşdırılma, problemlər və onların həll i yollarının müəyyənləşdirmə ehtiyacı nağdsız ödənişlər sahəsində mövcud olan mühüm inkişaf problemlərindən biridir.

**Açar sözlər:** *elektron, bank, rəqəmsallaşma, texnologiya.*

**Strengthening the financial resources of banks in the context of the development of digital payments in Azerbaijan**

**SUMMARY**

Digital payment systems now play a very important role in people’s lives, in real life, because payments can be made at home, at the nearest ATM, on the street vending machines, and so on. It saves time, which is one of the most valuable human resources, and creates a safe environment for health at a time when the Covid 19 epidemic is in full swing. Although plastic cards are developing and the dynamics are positive, the infrastructure has not yet reached developed countries, and the need to research, identify problems and solutions for the development of plastic cards is one of the important development problems in the field of cashless payments.

**Key words:** *electronics, banking, digitalization, technology.*

**Укрепление финансовых ресурсов банков в контексте развития цифровых платежей в Азербайджане**

**РЕЗЮМЕ**

Цифровые платежные системы сейчас играют очень важную роль в жизни людей, в реальной жизни, ведь расплачиваться можно дома, в ближайшем банкомате, в уличных торговых автоматах и так далее. Это экономит время, которое является одним из самых ценных человеческих ресурсов, и создает безопасную среду для здоровья в период, когда эпидемия Covid 19 в самом разгаре. Хотя пластиковые карты развиваются и динамика положительная, инфраструктура еще не дошла до развитых стран, и необходимость исследования, выявления проблем и решений для развития пластиковых карт является одной из важных проблем развития в сфере безналичных расчетов.

**Ключевые слова:** *электроника, банковское дело, цифровизация, технологии.*

UOT 330.34; 330.35

# AZƏRBAYCANDA BİZNES İNFRASTRUKTURUNUN İNKİŞAF TENDENSİYALARI

**GÜLNUR HÜMBƏTZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), magistr*
*E-mail: gulnur.elesgerova@bk.ru*

**Giriş**

Elmi tədqiqatlar innovasiya prosesinə rəhbərlik edir, iqtisadiyyatın mütərəqqi sahələri olan sənaye və elmi müəssisələrin yaradılmasına öz töhfəsini verir. Bu iş aktualdır, çünki hazırda Azərbaycanda və bütün dünyada yüksək texnologiyalarla bağlı olan sənayelər ölkələrə öz sosial-iqtisadi potensialını artırmağa imkan verir və bu prosesdə müasir innovativ strukturlar əsas rol oynayır.

Biznes və xidmət sahələri elmi-texniki sahədə istehsalın inkişafına müsbət təsir göstərən şərait yaradan, yüksəkixtisaslı kadrlara və təcrübə bazasına malik elmi-innovativ infrastrukturun subyektidir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı strateji vəzifədir. Azərbaycan hökuməti istehsal sektorunun inkişafı üçün bütün mümkün tədbirləri görür. Belə tədbirlər birbaşa dövlət investisiyaları və sahibkarların tətbiq olunan iqtisadiyyatda fəal işləməsinə stimuldur. Məqalənin əsas məqsədi Azərbaycanda biznes infrastrukturunun inkişaf tendensiyalarını təhlil etmək və gələcək perspektivlərini müəyyənləşdirməkdir. Azərbaycanda bazar münasibətlərinin əsasını və strukturunu sahibkarlıq fəaliyyəti təşkil edir ki, bunun üçün ölkədə kifayət qədər hüquqi baza formalaşıb: bir sıra qanunlar qəbul edilib - “Sahibkarlıq fəaliyyəti haqqında”, “Səhmdar cəmiyyətləri haqqında”, “Torpaq islahatı haqqında”, “Antiinhisar fəaliyyəti haqqında”, “Əmtəə birjası haqqında”, “Qiymətli kağızlar haqqında” və s.

Biznesin inkişafının şaxələndirilməsi məqsədilə NFSE aşağıdakı tədbirləri həyata keçirir: xarici investisiyaların cəlb edilməsi, vergi sisteminin təkmilləşdirilməsi, kiçik və orta biznesin fəaliyyətinin tənzimlənməsi üçün proqramların hazırlanması, o cümlədən milli sahibkarlıq konsepsiyası, sahibkarlıq infrastrukturunun formalaşdırılması, sənaye zonalarının (biznes şəhərcikləri və biznes inkubatorlarının), texnoparkların yaradılması, innovativ özəl sektor müəssisələrinə güzəştli kreditlərin verilməsi. 2008-ci il yanvarın 1-dən sahibkarlıq subyektlərinin fəaliyyətinin “bir pəncərə” sistemi üzrə qeydiyyatı sistemi tətbiq edilmişdir. 2007-ci ilin avqust ayından vergi bəyannamələrinin elektron sənəd formasında təqdim edilməsi təcrübəsi tətbiq edilmişdir. Bununla əlaqədar olaraq hüquqi şəxslərin qeydiyyatı müddəti 53 gündən 3 günə, prosedurların sayı isə 15-dən 5-ə endirilib. Azərbaycan iqtisadiyyatının bütün sahələrində bazarın liberallaşdırılmasına və biznesin inkişafı üçün əlverişli şəraitin yaradılmasına yönəldilib. Əgər 20 il əvvəl respublikada sahibkarlıq fəaliyyəti zəif inkişaf edirdisə, hazırda ölkədə ÜDM-in 80 %-i, daxili ticarət dövriyyəsinin 99,4 faizi, xarici ticarət dövriyyəsinin 20 faizi, vergi daxilolmalarının 63 faizi özəl sektorun payına düşür (Alon, T. M., Doepke, M., Olmstead-Rumsey, J., & Tertilt, M., 2020).

## 1. Azərbaycanda Biznes İnfrastrukturu

Ölkədə müəssisələrin yalnız 12,3 faizi dövlət, 79,2 faizi özəl, 3,7 faizi isə birgə müəssisələrdir. Qalan 4,8%-i isə 100% xarici kapitallı müəssisələrdir. Azərbaycan Prezidentinin 2011-ci ilin oktyabrında imzaladığı, sahibkarların dövlət, xüsusilə SKMF tərəfindən maliyyələşdirilən güzəştli kreditlərə çıxışının asanlaşdırılmasını nəzərdə tutan fərmanı ölkədə sahibkarlığın inkişafı istiqamətində növbəti addım oldu. 2011-ci ildə fond 160 milyon dollar məbləğində güzəştli kreditlər verib. Bu vəsait Azərbaycanın rayonlarında 160-dan çox sənaye, kənd təsərrüfatı, ticarət və digər müəssisələrin tikintisinə sərf edilmişdir (Novruzov V., 2012).

2011-ci ildə SKMF 843 investisiya layihəsini 93,3 milyon dollara maliyyələşdirib. Biznes mühitinin inkişafı üçün Azərbaycanın investisiya siyasətinin mərkəzi məqsədləri xarici investisiyaların cəlb edilməsi və investisiya fəaliyyətinin həyata keçirilməsi üçün şərait yaratmaqdan ibarətdir. 2011-ci ildə xarici şirkətlərin və beynəlxalq maliyyə institutlarının Azərbaycan iqtisadiyyatına investisiyaları 2010-cu illə müqayisədə 3,2% artaraq 3 milyard 256 milyon dollar təşkil edib. Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunda lider Böyük Britaniyadır ki, onun xarici investisiyaların ümumi həcmində xüsusi

çəkisi 46,2% təşkil edir. İlk beş investisiya ölkəsinə həmçinin ABŞ (bütün investisiyaların 14,3%-i), Yaponiya (9,1%), Norveç (5,1%) və Türkiyə (4,1%) daxildir. Beynəlxalq maliyyə təşkilatları arasında 2011-ci ildə Dünya Bankının Azərbaycana yatırdığı investisiyaların xüsusi çəkisi xarici investisiyaların ümumi həcminin 7,3%-ni təşkil etmişdir. AYİB - 5,3%; Asiya İnkişaf Bankı - 2,4%; İslam İnkişaf Bankı - 0,1%. 2011-ci ildə ölkədə 10 mindən çox müəssisə açılıb, ölkə iqtisadiyyatına cəlb edilmiş investisiyaların həcmi müsbətdir (Novruzov V., 2012).

Qeyd edək ki, bu gün Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyaların təxminən 70%-i birbaşadır. Azərbaycan üçün bu, yeni texnologiyalar, əlavə kapital, istehsalın artması, yeni təşkilati texnologiyaların inkişafı və təkmilləşdirilmiş idarəetmə, yeni iş yerləri deməkdir. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2011-ci ildə Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 3,1 milyard dollar təşkil edib. Əvvəlki illə müqayisədə artım 836,4 milyon dollar təşkil edib. Birbaşa xarici investisiyaların ümumi strukturunda 1,583 milyard dollar və ya 77,9%-i neft-qaz sektoruna yönəldilib. Əsas vəsaitlər BP Exploration (Şahdəniz) və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən xərclənib.

Eyni zamanda, Azərbaycan adambaşına yığılmış birbaşa investisiyaların həcminə görə digər ölkələrdən xeyli geri qalır ki, bu da 2011-ci ildə 450 dollar təşkil edib. 2003-cü ildən 2011-ci ilə qədər Azərbaycan fəal şəkildə investisiya siyasəti aparmış və digər ölkələrin iqtisadiyyatına 5,7 milyard dollar sərmayə yatırmışdır. Təkcə Gürcüstan iqtisadiyyatına 3 milyard dollara yaxın sərmayə qoyulub. (Alon, T. M., Doepke, M., Olmstead-Rumsey, J., & Tertilt, M., 2020)

Bildiyiniz kimi, bu gün yeni biliklərin istehsalı və tətbiqi iqtisadi artımın əsas mənbəyinə və dünya bazarında ölkənin əsas rəqabət üstünlüyünə çevrilir. İnkişaf etmiş ölkələrin iqtisadi artımı 70% insan potensialının inkişafı, 30% isə məhsuldar kapital və təbii ehtiyatlarla müəyyən edilir. Azərbaycanda innovasiyaların fəal şəkildə həyata keçirilməsinin zəruriliyini dərk etməsinə baxmayaraq, innovativ fəaliyyətə investisiya kifayət qədər aşağı səviyyədə qalır, baxmayaraq ki, bir çox müəssisələrdə səmərəli texnologiyaların istifadəsi ilə seçilən inkişaflar mövcuddur (Musayev V., 2016).

Azərbaycanın innovativ inkişaf yoluna keçidini ləngidən səbəblər, gördüyümüz kimi, bunlardır:

- bazar islahatları başa çatmayıb, ona görə də bir çox bazar mexanizmləri hələ də işləmir;
- özəlləşdirmə prosesi başa çatmayıb;
- inkişaf etməmiş kredit və maliyyə sistemi;
- fond bazarları inkişaf etməmişdir;
- maliyyə axınlarının xammal sənayesindən yüksək texnologiyalı sahələrə ötürülməsi üçün effektiv mexanizmlər yaradılmamışdır.

İnnovativ inkişaf yoluna getmək üçün təhsil sistemini təkmilləşdirmək, yeni texnologiyalara yiyələnmək və mürəkkəb, yüksək texnologiyalı sənayelərə üstünlük vermək lazımdır. Bütün bu vəzifələr Azərbaycanın 2011-2014-cü illər üçün yeni investisiya siyasəti proqramında öz həllini tapacaqdır. Azərbaycan iqtisadiyyatında islahatların aparılması üçün ən mühüm dövlət prioritetləri sırasında kiçik müəssisələrin inkişaf etdirilməsi vəzifəsi də var.

**2. Azərbaycanda Biznes İnfrastrukturunun İnkişaf Xüsusiyyətləri**

Təcrübə göstərir ki, bu gün istehlakçı tələbatının ən tam ödənilməsi əsasən kiçik müəssisələrin səmərəliliyi ilə müəyyən edilir. İnnovasiyaların və ixtiraların tətbiqinin yüksək templəri, texnoloji dəyişikliklərin mobilliyi, xidmət sektorunun və məşğulluğun sürətli inkişafı, qiymət və qeyri-qiymət rəqabəti bir tərəfdən qiymətlərin aşağı düşməsinə, digər tərəfdən isə istehlakçının yüksək keyfiyyətli məhsul və xidmətlər alması, dövlətə vergi daxilolmaları şəklində böyük vəsaitlər əldə etmək imkanı - bütün bunlar kiçik müəssisələrin ölkə iqtisadiyyatına töhfəsini təşkil edir. Apardığımız araşdırmalara görə, Azərbaycanda kiçik biznesin inkişafının əsas problemi başlanğıc kapitaldır ki, bu da öz biznesini açmaq istəyən hər kəsə nəsib olmur. Kommersiya biznesi üçün bank komissiyaları 20%-i keçir və təəssüf ki, bütün vətəndaşlar SKMF-də güzəştli kreditlərdən istifadə edə bilmir. Bu baxımdan naşı iş adamları üçün xüsusi bank infrastrukturunun yaradılması aktual görünür (Musayev V., 2016).

Beynəlxalq təcrübədə sübut edilmişdir ki, kiçik biznes milli iqtisadiyyatda mühüm yer tutur. O, iqtisadiyyatın artım tempini, ümumi milli məhsulun strukturunu və keyfiyyətini müəyyən edir. Dünyanın inkişaf etmiş ölkələrində kiçik və orta biznes uzun müddətdir ki, iqtisadiyyatın "mühərriki" olub. Ha-

zırda Azərbaycanda makroiqtisadi sabitlik sayəsində kiçik və orta sahibkarlığın (KOS) aktiv inkişafı müşahidə olunur. Ölkədə kiçik və orta sahibkarlıq subyektləri hüquqi şəxslərin 22,4 faizi, fiziki şəxslərin isə 77,6 faizi fəaliyyət göstərir. ÜDM-in strukturunda KOM-ların payı 10% daxilində dəyişir (məsələn, avrozona ölkələrində bu rəqəm 40%-i ötür). Kiçik və orta biznesin əsas vəzifəsi iqtisadiyyatın bütün sahələrində ölkənin rəqabət qabiliyyətini artırmaqdır. 2012-ci il Davos İqtisadi Forumunun reytinqinə əsasən, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə dünyada 55-ci yerdə, MDB məkanında isə birinci yerdədir.

Azərbaycan ən qədim sivilizasiya mərkəzlərindən biridir, zəngin və qədim tarixə malik ölkədir. XX əsr Azərbaycan xalqının tarixinə sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında dəyişikliklər dövrü kimi daxil olmuşdur. Hazırda genişmiqyaslı siyasi və iqtisadi islahatlar aparılır ki, bu islahatların məqsədi dünya iqtisadi birliyinə inteqrasiya etmək qabiliyyətinə malik iqtisadiyyat yaratmaqdır. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə respublika həyatının bütün sahələrində aparılan uğurlu islahatlar ölkə iqtisadiyyatının dinamik inkişafı üçün təkan olmuşdur. Düşünülmüş iqtisadi siyasət və onun uğurla həyata keçirilməsi, şübhəsiz ki, Azərbaycanın yaxın gələcəkdə iqtisadi cəhətdən inkişaf etmiş dövlətə çevrilməsinin əsasını qoyur. Azərbaycan iqtisadiyyatının yüksəlişi indi daha çox onun gələcək islahat proseslərinin nə qədər sürətlə və uğurla getməsindən asılıdır (Musayev V., 2016).

Eyni zamanda, aparılan islahatların əsas məqsədi əhalinin sosial rifahının nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmasıdır. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” fərman və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı 2004-2008-ci illər üçün ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı üçün konseptual əsaslar qoyuldu. Növbəti onillikdə 600 min yeni iş yerinin yaradılması, işsizliyin və yoxsulluğun aradan qaldırılması, regionların inkişaf etdirilməsi, iqtisadiyyatın sənayedə və aqrar sektorda rolunun artırılması məqsədi ilə müvafiq tədbirlər kompleksi nəzərdə tutulmuşdur. İqtisadiyyatın ən gəlirli sahələrindən biri turizmdir ki, bu da respublikada işsizliyin aradan qaldırılmasında və yoxsulluğun azaldılmasında mühüm rol oynaya bilər. Ölkənin nəhəng turizm potensialından maksimum istifadə, aqrar kompleks və emal müəssisələrinin dəstəklənməsi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında prioritet istiqamətlərdən biri kimi müəyyən edilib (Novruzov V., 2012).

Qlobal təcrübə sübut edir ki, sahibkarlıq bazar iqtisadiyyatının mühüm tərkib hissəsidir, onsuz dövlət proporsional inkişaf edə bilməz. O, iqtisadi inkişafın sürətini, ümumi milli məhsulun strukturunu və keyfiyyətini müəyyən edir. Sahibkarlıq qabiliyyəti o deməkdir ki, materialların və ya əqli mülkiyyət sahiblərinin sosial fəaliyyətin müəyyən sahələrində daha çox faydalı olması və müəyyən bir işi görmək ehtimalı daha yüksəkdir. Bu qabiliyyət bir tərəfdən sahibkarın fərdi mentalitetindən, digər tərəfdən isə onu əhatə edən iqtisadi şəraitdən asılıdır. Sahibkarlıq qabiliyyətləri ya ictimai fəaliyyət prosesində, ya da təhsil prosesində əldə edilir.

Müasir dövrdə ikinci yol uzunmüddətli perspektivdə üstünlük təşkil edir - birinci yol, yəni üstünlük prosesi. Dövrün tələblərinə cavab verən təhsil prosesi vasitəsilə insanlar sahibkarlıq bacarıqlarına yiyələnirlər. Sahibkarlıq bir növ insan kapitalıdır. Daha aydın desək, sahibkarlıq qabiliyyəti fayda və xidmətlər yaratmaq üçün bütün digər istehsal amillərini birləşdirməyi hədəfləyən bir növ insan kapitalıdır. Bu, sahibkarlıq fəaliyyətidir və sosial həyatın müxtəlif sahələrində bu qabiliyyət üçün əlverişli şəraitdən istifadə etmək lazımdır. Sahibkarlıq fəaliyyəti fayda əldə etmək üçün öz riski və riski altında müstəqil, sistematik məhsuldar məhsul, xidmət və ticarət fəaliyyətidir (Əliyeva M., Bakı, 2012).

Sahibkarlıq fəaliyyəti anlayışı iqtisadiyyatın yaranması ilə iqtisadçıların marağına səbəb olmuşdur. Sahibkarlıq fəaliyyətinin elmi tədqiqi R.Kantillon, A.Smit kimi iqtisadçılar tərəfindən aparılmışdır. Onların hər biri sahibkarlıq fəaliyyətinin müxtəlif komponentlərinə diqqət yetirmişdir. “Sahibkarlıq” anlayışından ilk dəfə 18-ci əsrdə ingilis bankir və iqtisadçısı Riçard Kantillon (1680-1734) tərəfindən istifadə edilmişdir. Kantillona görə, sahibkarlıq davamlı risk şəraitində tələb və təklifi tarazlaşdıran iqtisadi fəaliyyətdir. Sahibkar Kantillon dedikdə, bazarda istehsalın uyğunlaşmalarını əldə edərək onları kapitala çevirən şəxs nəzərdə tutulur. Kapitalın fəaliyyətinin son nəticəsi bazarda sahibkarın istehsal xərclərindən yüksək bazar qiymətinə satılan məhsul-

lardır. İstehsal olunan məhsulun bazar qiyməti əvvəlcədən bilinmədiyi üçün biznes həmişə kommersiya riski ilə üzləşir (Novruzov V., 2012).

Dünyanın aparıcı alim-iqtisadçıları müxtəlif yollarla, yəni müxtəlif nöqteyi-nəzərdən: iqtisadi, psixoloji, inzibati, fəlsəfi və s. sahibkarlıq anlayışını ortaya qoymuşlar. L.Mises və F.Hakerin fikrincə, iş adamı insanların real ehtiyaclarını ödəmək üçün ən iqtisadi imkanları seçməlidir. Amerikalı alim, professor R.Heydrix sahibkarlıq dəyəri ilə yeni bir şey yaratmaq prosesini təsvir edir və sahibkar vaxt və enerji alan, bütün psixoloji riski öz üzərinə götürən, pulu alan və əldə edən şəxsdir. Amerikalı iqtisadçı İ. Kirsner sahibkarı "tarazlaşdırıcı qüvvə" kimi təqdim edir və əsas diqqəti sahibkarın idarəetmə bacarıqlarının mövcudluğu, seçim və qərar qəbul etmə azadlığı kimi şəxsi keyfiyyətlərinə yönəldir. Fəlsəfi nöqteyi-nəzərdən sahibkarlığı ruhun xüsusi əhval-ruhiyyəsi, işgüzar romantizm forması, insan imkanlarının reallaşdırılması vasitəsi kimi xarakterizə etmək olar (Novruzov V., 2012).

Beləliklə, sahibkarlıq şəxsi biznesin təşkili və idarə edilməsində innovasiyaların tətbiqinə əsaslanan, təşəbbüs, məsuliyyət və risk götürməyə əsaslanan aktiv iqtisadi fəaliyyətdir. Bu fəaliyyətin mərkəzində fəal insan amili dayanır. Sahibkarlıq fəaliyyəti ciddi subyektiv məsələ olduğu üçün yeni ideyalar tələb edən təfəkkürdür. Məhz buna görə də hər bir insanın fəaliyyəti işin sonunda öz uğurlarını nümayiş etdirir.

Qərb ölkələrində sahibkarlıq innovativ bazar potensialının davamlı axtarışına, müasir texnologiyalar üzərində cəmləşməsinə, məqsədə nail olmaq üçün müxtəlif mənbələrdən vəsait cəlb etmək və istifadə etmək qabiliyyətinə əsaslanan xüsusi, qabaqcıl, antibürokratik biznes forması kimi müəyyən edilir.

İnsanların davranışını müəyyən edən bir sıra motivlər var. İlkin motiv təbii ki, müəyyən ehtiyacların ödənilməsidir. Son motivasiya, "özünü təkmilləşdirmə" özünü işdə sübut etməyə çalışır. Bu halda konkret fəaliyyət sahəsini seçmək vəzifəsinin əhəmiyyəti yoxdur.

Bu, o deməkdir ki, hər kəs nəyə qadir olduğunu, qabiliyyətini və əhəmiyyətini sübut etmək istəyir. İnsanlar öz işlərində özlərini ifadə etməyə çalışırlar, bəzi nəticələrdə özlərini təqdim edirlər və adı ilə bağlı nəsə edirlər. Müvəffəqiyyəti qarşısına məqsəd qoyan insanlar işin cəlbediciliyi və özünü ifadə etmək imkanı ilə maraqlanır. İnsanlar bu maraq sahəsini tərk edərək azad iqtisadi fəaliyyət sahəsinə daxil olurlar. Çünki sahibkarlıq fəaliyyəti insanın öz ideyalarının və qazanclarının özünü təmin edən sahibi olmağa imkan verən iqtisadi fəaliyyətdir (Novruzov V., 2012).

Biznes problemləri ilə bağlı işlərin ümumiləşdirilməsi sahibkarlıq fəaliyyətinin aşağıdakı xüsusiyyətlərini vurğulamağa şərait yaradır:

- sosial resursların tənzimlənməsi və səmərəli birləşməsində fəaliyyət, iqtisadi resursların tənzimlənməsində qərar qəbul etmə azadlığının olması: öz və borc vəsaitlərinin nisbəti, sahibkarlıq institutunun növü, dövlətin idarəetmə mexanizmi ilə nəzərdə tutulur.
- ən son ideyaları axtarın. İ.Şumpeter sahibkarın qabaqcıl işinin bir neçə istiqamətini müəyyən etmişdir: müasir məhsulun istehsalı və ya tanınmış məhsulun modernləşdirilməsi; innovativ istehsal formasından istifadə; yeni satış bazarının öyrənilməsi; yeni resurslar mənbəyinin cəlb edilməsi;
- uğurlu nəticənin əldə edilməsində qeyri-dəqiqliyin və ya sahibkarlıq riskinin olması. Sahibkarlıq riski "məsuliyyət" anlayışı ilə əlaqələndirilir və sahibkarın kollektiv resurslardan - şəxsi və cəlbedici - səmərəli istifadə üçün məsuliyyətini bildirir. (Авдокушин Е.Ф., 2017)

Sahibkarlıq riskinin miqdarı sahibkarın məsuliyyətinin miqyası, ilkin, əmlak, düzgün olmayan qərarlara görə, sahibkarlıq riskinin səviyyəsi isə sahibkarın tənzimləmə qabiliyyətinin dərəcəsi, ölkədəki iqtisadi vəziyyətin sabitliyi, sahibkarlıq fəaliyyəti ilə müəyyən edilir. Buradan belə nəticə çıxır ki, sahibkarlıq fəaliyyəti mülkiyyətçi, novator və idarəçi funksiyalarını özündə birləşdirir.

**Nəticə**

Ölkədə normal həyat səviyyəsinə nail olmaq üçün sahibkarlıq fəaliyyəti vergi qanunvericiliyi əsasında formalaşmalıdır. Çünki sahibkarlıq bazar prosesinin hərəkətverici qüvvəsidir. Sahibkar-istehsalçı istehsalın inkişafının mənbəyi olan istehsal prosesindən sahibkarlıq gəliri əldə edir. Bunun üçün o, istehlakçı tələbatının bütün göstəricilərinə cavab verən məhsul istehsal edir. Hər bir məhsulun qiyməti məhsulun uğurlu satışına yönəlib. Yəni xərclərin səviyyəsi elə müəyyən edilir ki, məhsulun qiyməti aşağı olsun və bu da öz növbəsində istehlakçı tələbini yaradır. Çün-

ki aşağı qiymət məhsulun satışını artırır (Musayev V., 2016).

Sahibkarın məhsulunun dəyəri digər əlavə məsrəfləri də nəzərə almaqla keyfiyyətə də önəm verir ki, o, daha səmərəli sata bilsin. Başqa sözlə, sahibkar bazar prosesinin hərəkətverici qüvvəsidir. O, istehlaka tələb yaradır, təklifin keyfiyyətini müəyyən edir. Bazar iştirakçılarının əsas hissəsindən hardan alqı-satqı ilə bağlı məlumat yoxdur.

Bu zaman sahibkar bazar mexanizminin aləti kimi çıxış edir. Öz baxışı və əzmkarlığı ilə sahibkarlıq bazarı formalaşır və gəlirlidir. O, kütlənin istehlakına rəhbərlik edir və öz növbəsində məhsul istehsal edir. Sahibkar bazar və bazar seqmentləri arasında əlverişli əlaqə yaradır. İşəgötürənin səyləri alınan məlumatlardan istifadə edərək istehsalı və istehlakı təyinat yerinə yönəltməkdir.

Sahibkarlıq rəqabətin hərəkətverici qüvvəsi kimi bazarda rəqabətin gedişinə fəal təsir göstərir, mövcud məhsulları yeni məhsullarla müqayisə etməyə imkan verir. Bu, həm də rəqabətli bazarda sahibkarın roludur. Müsabiqə rəqabətli bir prosesdir. Bu, passiv bazar iştirakçıları arasında deyil, problemin mahiyyətini bilən bazar iştirakçıları arasında gedən prosesdir. Dəyişən mühitdə və məkanda nəyin faydalı olduğunu tez anlayır və buna uyğun hərəkət edirlər. Bazarın rəqabət qabiliyyəti ondan ibarətdir ki, bazar iştirakçısı cari prosesləri tez başa düşür, onun əsas vəzifəsi bazarda tələb olunan məhsulu rəqibdən daha sürətli işləmək və istehsal etməkdir.

Sahibkar innovasiya və riskin hərəkətverici qüvvəsidir. O, hansı sahələrdə innovativ resurslara diqqət yetirməli və risk dərəcəsinin nə qədər olduğunu başqalarından tez və daha yaxşı bilir. Qeyd etmək lazımdır ki, risk iş görmək və qazanc əldə etməklə bağlı olacaq. Azərbaycan Respublikası təbii və intellektual ehtiyatlarının həcminə görə keçmiş Sovet İttifaqı ölkələri arasında birincilərdəndir. Ölkədə kömür və torf istisna olmaqla, demək olar ki, bütün təbii ehtiyatlar var.

Ölkənin əlverişli geosiyasi mövqeyi də müqayisə olunmazdır. Amma bu, dünyada və milli bazarda rəqabət aparmaq üçün kifayət etmir. Milli istehsal xərclərinin qlobal səviyyədən aşağı olmasını təmin etmək üçün təbii ehtiyatlardan səmərəli istifadə edilməlidir. Bunun üçün bütün istehsal dövrü yeni texnoloji əsasda qurulmalıdır. Beynəlxalq rəqabət üçün intellektual resurslardan geniş istifadə edilməlidir.

## ƏDƏBİYYAT


1. *Əliyeva M. Azərbaycanda istehsal infrastrukturunun inkişafı problemləri. Bakı, 2012. 140 s.*
2. *İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi İqtisadi Təhlil və Analitik-İnformasiya Departamenti. Musayev Vüsal. Hesabat Dekabr 2016*
3. *Novruzov V. "Hazırda auditin inkişaf konsepsiyası haqqında", Günümüzdə Şəffaflığın Artırılmasında Auditin Rolu Beynəlxalq Elmi-Praktik Simpozium toplusu 15-16 Mart 2012, Bakı, ss. 17-25.*
4. *Авдокушин Е.Ф. Международные финансовые отношения (основы финансомики). - М.: Дашков и К, 2017. - 132 с*
5. *Барышникова Н. С., Артеменко В. Г. Финансы организаций (предприятий): Учебное пособие - СПб.: Проспект Науки, 2018. - 320 с.*
6. *Кузнецов Н.В., Хабиб М.Д. Анализ развития системы мониторинга цифровизации экономики. E-Management. 2020;3(1):86-98.*
7. *Попов Ю. И. Управление проектами: учебное пособие. – М: ИНФРА-М, 2018. - 208 с.*
8. *Тютюкина Е.Б. Финансы организаций (предприятий). - М.: Дашков и К, 2018. - 543 с.*
9. *Alon, T. M., Doepke, M., Olmstead-Rumsey, J., & Tertilt, M. (2020). The impact of COVID-19 on Gender Equality, National Bureau of Economic Research-NBER Working Paper Series, no. 26947*
10. *AMIA (Mexican Automotive Industry Association) (2020), "Reporte de ventas de vehículos ligeros nuevos por marca en marzo de 2020", 2 April*
11. *World Health Organization (2020). Considerations in adjusting public health and social measures in the context of COVID-19*
12. *http://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITES I_.pdf*
13. *http://www.azerbaijans.com/content_533_tr.html*
14. *http://www.iteconomic.com/klassifikaciya-infrastruktury.aspx*


## XÜLASƏ


Məqalədə maliyyə qloballaşması şəraitində Azərbaycanda biznes mühitinin inkişafı problemlərindən bəhs edilir. Daxili biznes mühitinin üzləşə biləcəyi məsələlərə, xüsusən də yeni qlobal maliyyə böhranlarına çox diqqət yetirilir. Bazar iqtisadiyyatının mobilliyini və dinamikliyini təmin edən və onun əsas

elementlərindən biri hesab edilən azad rəqabətin formalaşmasında və inkişafında kiçik və orta sahibkarlıq xüsusi yer tutur. İqtisadiyyatın bazar sisteminin təkmilləşdirilməsi istiqamətində tənzimləmə siyasətini həyata keçirən hökumətimiz kiçik və orta sahibkarlığın yaradılması və inkişafı istiqamətində bir sıra məqsədyönlü və sistemli tədbirlər həyata keçirir. Lakin bu sahədə hələ də problemlər var.

Eyni zamanda, kiçik və orta sahibkarlığın səmərəli fəaliyyətini təmin etmək üçün dövlətin ilkin siyasəti davamlı olmalı, bazar prinsipləri əsasında iqtisadi fəaliyyətlə məşğul olan sahibkarlar arasında yarana biləcək inhisarçılıq meylləri aradan qaldırılmalı, haqsız rəqabətin qarşısının alınması və aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Kapital qoyuluşlarında kiçik və orta müəssisələrin olması, maliyyə, vergi və kredit qaydalarının olması, texniki və informasiya bazasının aşağı səviyyədə olması, onların əraziyə səpələnməsi, daxili bazarın kifayət qədər qorunmaması, bazarın olmaması infrastruktur və onun müasir tələbləri kifayət qədər qanunvericilik bazasının olmaması, mövcud qanunvericilikdə bir sıra boşluqların olması, adekvat qanunvericiliyin olmaması bu sahədə problemlərin mövcudluğundan xəbər verir.

***Açar sözlər:*** *biznes mühiti, siyasət, infrastruktur, region, investisiyalar.*

**SUMMARY**

The article discusses the problems of developing the business environment in Azerbaijan in the context of financial globalization. Much attention is paid to the issues facing the domestic business environment, especially the new global financial crisis. Small and medium enterprises play a special role in the formation and development of free competition, which provides mobility and dynamism of the market economy and is considered one of its key elements. Implementing a regulatory policy to improve the market system of the economy, our government is taking a number of targeted and systematic measures to create and develop small and medium enterprises. However, there are still problems in this area. At the same time, in order to ensure the effective operation of small and medium enterprises, the state's initial policy must be sustainable, monopolistic tendencies among entrepreneurs engaged in economic activities based on market principles must be eliminated, and measures must be taken to prevent and eliminate unfair competition. Presence of small and medium enterprises in capital investments, availability of financial, tax and credit rules, low level of technical and information base, their scattering in the territory, insufficient protection of the domestic market, lack of market, lack of infrastructure and its modern requirements. The existence of a number of gaps, the lack of adequate legislation indicates the existence of problems in this area.

*Keywords: business environment, politics, infrastructure, region, investments.*

UOT 33

# AZƏRBAYCANDA İNNOVASİYALARIN MALİYYƏLƏŞDİRİLMƏSİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**N. F. HƏSƏNOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası, dissertant*

*E-mail: natevan.hesenova@mail.ru*

## GİRİŞ

Milli iqtisadiyyatın sürətlə dünya iqtisadiyyatına inteqrasiya etməsi və rəqabət qabiliyyətinin çoxalması tələbi Azərbaycanda innovasiya potensialının dəyərləndirilməsinə ehtiyac olduğunu göstərir. Yeniliklərin ölkəmizə kütləvi axınını yarada bilən innovativ iqtisadiyyatın formalaşmasına tələb get-gedə artır. Bundan başqa, iqtisadi münasibətlərin transformasiyası ölkədəki innovasiya fəaliyyəti sferasına təsirsiz ötüşməmiş, hətta ciddi zərbə vurmuşdur. Ölkə iqtisadiyyatı uzun illər İEÖ-in "xammal əlavəsinə" çevrilmişdir. Bu şərait ölkəmizin iqtisadi sistemində innovasiya məkanını formalaşdırmağa imkan verməmişdir. Lakin innovasiya potensialını inkişaf etdirmək və bütün istehsal dövründə yeniliklərdən effektiv şəkildə istifadə etmək üçün mümkün olan bütün vasitələrdən yararlanmaq zərurətə çevrilmişdir. İqtisadiyyatda innovasiya imkanlarını yaradan əlaqələrin qurulması birbaşa institusional mühitin dəyişdirilməsi ilə bağlıdır. İnnovasiya iqtisadiyyatı xüsusilə mədəni mühitin, elm və təhsil, yaradıcılıq azadlığı şərtlərinin, kəşf və ixtiraların tərəqqisini tələb edir. Texnoloji irəliləyiş, innovasiya strategiyası yalnız geniş miqyası əhatə edən dövlət proqramaları və dəstəyi ilə həyata keçirilə bilər. Aktiv innovasiya potensialı ölkədaxili iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsini və dünyada rəqabət üstünlüklərinin artım sürətini tənzimləyən vacib faktorlardan biri kimi hesab edilə bilər. İqtisadi tərəqqinin yeni mərhələsində iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi üçün innovasiyaların idarə olunması ilə əlaqədar məsələlər metodoloji və elmi-nəzəri araşdırmaların aparılmasını tələb edir. İqtisadi sistemin rəqabət üstünlüklərinin təkmilləşdirilməsi üçün innovasiyaların təsir üsullarının təhlili və qiymətləndirilməsi eyni zamanda praktik əhəmiyyətə malikdir ki, bu da tədqiqat üçün seçilmiş mövzunun aktuallığını müəyyənləşdirir.

XXI əsrin əvvəllərində respublikamızda həyata keçirilən güclü islahatların getdikcə dərin vüsət alması, cəmiyyətin sosial-iqtisadi cəhətdən həyat səviyyəsinin daha da yüksəlməsinə şərait yaratmışdır. Yaxşı investisiya mühitinin formalaşmasında vacib addımlar atılıb, dövlət maliyyə idarəçiliyi beynəlxalq meyarlara adekvat olmuşdur. Belə iqtisadi siyasətin sayəsində enerji təhlükəsizliyi təmin olunmuş, Azərbaycan beynəlxalq arenada etibarlı enerji ixracatçısına və regionda ən əhəmiyyətli tranzit mərkəzlərindən biri olmuşdur. Qeyri-neft iqtisadiyyatında çoxşaxəli iş yerlərinin açılması, istehsal və eləcə də kommunal infrastukturun geniş miqyasda inkişafı sözügedən dövrlərdə ümumilikdə ölkənin dinamik və davamlı inkişafının əsasını təşkil etmişdir. Son dövrlərdə təhsil sferasında əhəmiyyətli nailiyyətlərə nail olmaq da birbaşa ölkəmizin modernləşməsinə yönəlmiş iqtisadi siyasətlə əlaqəlidir. Bütün sahələrdə əldə olunan nailiyyətlər beynəlxalq reytinq qurumlarının (“Fitch Ratıngs”, “Moodys”, “Standart & Poors (S&P)” ölkə iqtisadiyyatına dair hər il yaxşılaşan qiymətləndirmələrində də əks olunmuşdur. Qeyd edək ki S&P beynəlxalq reytinq agentliyi Azərbaycanın reytinqinə yenidən baxaraq ölkənin xarici və yerli valyutada uzun və qısamüddətli kredit reytinqini öz hesabatında “BB+/B” səviyyəsində müəyyən etmişdir. S&P aşagı neft qiymətləri şəraitində Azərbaycan üçün proqnozlaşdırır ki, iqtisadi göstəricilər stabil və orta kimi olacaqdır. Hesabatda qeyd edilən digər bir məsələ isə iqtisadi artımın 2019-2022-ci illərdə davam etməyi və xarici balansda müəyyən qədər kiçik də olsa profisit olacağı ilə bağlı proqnozlardır. Məhz bu, ölkədə innovasiyaların maliyyələşdirilməsi baxımından da yaxşı xəbərdir. İxrac yönümlü model özündə rəqabət qabiliyyətliliyin yüksəldilməsi və artırılmasını nəzərdə tutur. Qeyri-neft iqtisadiyyatında optimal inkişafı ilə birlikdə, innovasiya fəaliyyətinin stimullaşdırılması və miqyasının genişləndirilməsi ölkəmizdə biliyə əsaslanan iqtisadiyyatın formalaşmasına əlverişli zəmin yaradır. Qarşıda duran hədəflərə çatmaq üçün ölkənin bütün potensialından istifadə etmək, mövcud resurslardan səmərəli şəkildə istifadəyə şərait yaratmaq vacib amildir. Bu nöqteyi, nəzərdən innovasiya infrastrukturunun təkmilləşdirilməsi, rəqabət üstünlükləri nəzərə alınmaqla bərabər elmi-texniki tərəqqinin inkişafı istiqamətində etibarlı və təhlükəsizlik “elektron hokumət” xidmətlərinin tətbiqi müasir idarəetmənin formalaşmasının

əsas istiqamətlərindən biri hesab olunur. İstənilən iqtisadi inkişaf təhsil və səhiyyədə keyfiyyətə nail olmağa, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması və s. bu kimi prioritetlərin səmərəli maliyyələşdirilməsindən keçir. Bu sahədə görülən işlərdən ən bariz nümunə isə, sözsüz ki, ölkəmizdə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliynin təsis edilməsidir. Bu, Prezident İlham Əliyevin innovasiyalar məsələsinə önəm verdiyini bir daha təsdiqləyir. Vətəndaşlara dövlət qurumlari tərəfindən göstərilən xidmətlərın müasir innovasiyaları tətbiq etməklə həm keyfiyyətli, həm də rahat formada həyata keçirilməsi artıq günün tələbinə çevrilmişdir. Diqqət etmək lazımdır ki, bütün bunların həyata keçirilməsi dövlət idarəçiliyində innovasiyaların maliyyələşdirilməsinə böyük təkan verir. Belə yeni üfüqlər innovativ mühitdə qarşıya qoyulan hədəflər sayəsində açılmışdır. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, innovativ mühitdə ölkəmiz son dövrlər ərzində ciddi uğurlara nail olmuşdur. Bu, həm biznes, həm zəka, həm də intellekt sahəsidir. Həmçinin innovasiya və şəffaflığa stimul verən, xidmət edən bir sahədir. Ona görə də biz innovasiyalardan istifadənin genişləndirilməsi üçün bu sahənin maliyyələşdirilməsinə diqqət etməliyik. Beləliklə, dinamik inkişaf mərhələsində olan Azərbaycanda çoxşaxəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, şaxələndirilməsi, əhalinin rifahının beynəlxalq standartlara çatdırılması elmin, mədəniyyətin, başqa sözlə, ictimai həyatın bütün sahələrində yeni nailiyyətlərin əldə olunmasına imkanlar yaradır.

Ölkəmiz yeni iqtisadi modelə keçməklə iqtisadiyyatı islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına təmin edir. İnnovasiyaların tipləri üzrə sənayedə texnoloji innovasiyalara çəkilmiş xərcləri göstərən qrafikə əsaslanaraq bir sıra əsaslı göstəricilərə diqqət edək.

**Qrafik 3: İnnovasiyaların tipləri üzrə sənayedə texnoloji innovasiyalara çəkilmiş xərclər, min. AZN**




***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/industry/az/019_2.xls*

Mədənçıxarma sənayesində texnoloji innovasiyalara çəkilən xərclər ümumi sənayedə çəkilən xərclərin cəmi 0,2 faizini təşkil edir. Yerdə qalan böyük hissə isə emal sənayesinin payına düşür. Yuxarıdakı qrafikdən də aydın görünür ki, emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclərdə 2005-ci ilə baxarkən 2017-ci ildə iki dəfəyə yaxın artım olmuşdur. Bunu da, öz növbəsində, emal sənayesinin əsas tərkib hissəsi olan "məhsul innovasiyaları" və "proses innovasiyaları" alt-qruplarında olan dəyişikliklə izah etmək olar. Emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclər özünün ən maksimumuna 49 493 min manat olmaqla 2007-ci ildə çatmışdır. Bu da həmin ili innovasiya tətbiqi üzrə digər illərdən fərqləndirir. Yeni iqtisadi modelə qədəm qoymuş ölkəmizdə müasir tendensiyalar davamlı olaraq izlənilir və tətbiq edilir. Buna misal olaraq Azərbaycan Respublikası Prezidentinin 22.02.2017-ci il tarixində "Rəqəmsal ticarət qovşağı kimi Azərbaycanın mövqeyinin güclənməsi və xarici ticarət əməliyyatlarının genişlənməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" Fərmanı ilə Rəqəmsal Ticarət Qovşağının yaradılmasını qeyd edə bilərik. Bu, ölkədə innovasiyaların maliyyələşdirilməsi üçün yeni imkanlar yaradır. Bu ölkəmizin rəqəmsal ticarət qovşağı kimi mövqeyinin artırılması məqsədi ilə yaradılmış olan elektron dövlət-özəl tərəfdaşlıq platformasıdır. Rəqəmsal Ticarət Qovşağının yaratdığı imkanlar aşağıdakılardır:

- Xarici investorlara görə həm elektron, həm də Mobil rezidentlik;
- Elektron və mobilizə edilmiş imza;
- Hüquqi şəxsin onlayın qeydiyatı;
- Elektron ödəniş və elektron sənəd göndərmək imkanı;
- Qarşılıqlı olaraq imzaların tanınması və eyni zamanda validasiyası.

Elektron və mobil rezidentlik qeyri-rezidentlərə verilən rəqəmsal və mobil identifikasiyadır. Dünyanın müxtəlif yerlərindən biznesmenlər ölkəmizdə iş qurmaqla yaanşı, idarəçiliklə məşğul ola, bir sözlə Rəqəmsal Ticarət Qovşağının təklif etdiyi sərhədlərarası elektron xidmətlərdən yararlana bilər. Azərbaycan dünyada Estonyadan sonra elektron rezidentlik təklif edən ikinci və mobil rezidentlik təklif etmiş birinci ölkə hesab olunur. Rəqəmsal ticarət qovşağı dünyada birinci dəfə İngiltərədə, sonra Azərbaycanda, daha sonralar isə Malayziyada, Birləşmiş Ərəb Əmirliklərində və Taylandda yaradılmışdır.

İnnovasiyaların maliyyələşdirilməsi digər fərqli bir istiqamətdə, yəni kosmik sənayedə də öz əksini tapmışdır. Azərbaycanda kosmik sənayenin inkişafı nəticəsində telekommunikasiya peyklərinin orbitə çıxardılmasını da əlavə etmək olar. Xüsusilə vurğulamaq yerinə düşər ki, bu cür mürəkkəb sənayenin yaradılması ölkəmizdə iqtisadiyyatın şaxələnməsi baxımından sənayenin inkişafına stimul verməklə ölkənin ümumilikdə iqtisadiyyatın müasir dünya ilə inteqrasiyasını sürətləndirmiş olur. Qeyd etmək lazımdır ki, "Azərbaycanda kosmik sənayenin yaranması və telekommunikasiya peyklərinin orbitə çıxardılması haqqında" ölkə Prezidentinin sərəncamı, həmçinin, kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət proqramının təsdiqlənməsi ölkədə kosmik sahənin inkişafında mühüm rol oynamışdır. İqtisadiyyatda kosmik tipli sənayenin yaradılması və həmçinin digər çoxməqsədli peyklərin orbitə çıxardılması birinci növbədə informasıya mübadiləsində informasiya təhlükəsizliyinin təmin olunması və eyni zamanda nəticə etibarı ilə innovasiya potensiallı iqtisadiyyatın yaranması istiqamətində görülən işlər sırasında öz xususi və strateji labüdlüyü ilə seçilir. Azərbaycanın birinci peyki olan "Azerspace-1" peyki 7 fevral 2013-cü ildə orbitə buraxılmışdır.Bununla kifayətlənməyərək orbitə çıxardılan digər bir peykimiz "Azərspace 2" ölkə büdcəsinə əlavə 400 milyon dollar gətirəcək. Ümumilikdə 3 peykimizin orbitə çıxarılması ölkəmizin dünyada imicinin daha da yüksəldilməsi, kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığın güclənməsi, informasiya təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir (http://www.aztv.az/readnews.php?lang=az&id=33630). Bununla yanaşı, AR-nın kosmik sənayedə qazandığı uğurlar həm də qeyri-neft sahəsinin tərəqqisi deməkdir. AR-nın müdafiə və hərbi potensialının gücləndirilməsi işində xüsusi rola malikdir. Ümumilikdə isə ölkəmizdə müşahidə xidmətləri sahəsində ayrıca dövlət proqramı hazırlanır ki, bu proqram da 2019-2022-ci illəri əhatə edəcək. Artıq bununla əlaqədar işlər bitmək üzrədir. Vahid məqsəd isə müasir çağırışlara və müasir təşəbbüslərə cavab olaraq qeyri-neft sənayesinin şaxələndirilməsindən və rəqabətqabiliyyətliliyin formalaşdırılmasından ibarətdir.

Müasir dövrdə ölkənin innovasiya fəaliyyətinin ölçülməsi məqsədi ilə İqtisadi Əməkdaşlıq və Inkişaf Təşkilatına (İƏİT) üzv olan, inkişaf edən və inkişaf etməkdə olan ölkələrdə İnnovasiya İcmal Tədqiqatı (İİT) həyata keçirilir. Ümumiyyətlə, hər bir ölkədə tətbiq olunan tədqiqatlar eyni struktura və innovasiya ilə əlaqədar oxşar suallara malikdir. Məlumat üçün qeyd edilməlidir ki, İİT-ə müvafiq olaraq tətbiq olunacaq qiymətləndirmə Oslo Təlimatına (2005) əsaslanır və həm ümumi ölkə iqtisadiyyatının innovasiya fəaliyyətinin və həm də ölkə iqtisadiyyatında fəaliyyət göstərən müxtəlif sahələrin innovasiya fəaliyyətinin qiymətləndirilməsi məqsədilə istifadə edilə bilər. Bu gün ölkəmiz inkişaf etməkdə olan ölkələrin sırasında qərarlaşır, ancaq, qlobal iqtisadiyyata uyğunlaşma çərçivəsində inkişafın dayanıqlı olması üçün elmi potensialdan da səmərəli istifadəni tələb edir. Çünki, elmin inkişafı sayəsində iqtisadiyyatın istehsal potensialı artır, xammaldan istifadə edilmə dərəcəsini azaldaraq, başqa sözlə, umumi milli məhsulun strukturunun dəyişilməsinə əlverişli imkan yaradır. Ölkə Prezidentinin 2016-cı il 20 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycanda informasiya cəmiyyətinin inkişafına aid Milli Strategiyanin həyata keçməsi ilə bağlı 2016-2020-ci illər ərzində nəzərdə tutulan Dövlət Proqramında qarşıya qoyulan hədəflər arasında rəqəmsal mühitdə əqli mülkiyyətin, həmçinin müəlliflərin huquqlarının təmin edilməsi ilə əlaqəli problemlərin həlli önəmli məsələlərdən hesab olunur. Ölkəmiz yeni iqtisadi innovasiyalı inkişafa qədəm qoyaraq "Made in Azerbaıjan" brendinin tanınmasına çalışır. Təsadüfi deyildir ki, ölkəmiz 2018-ci ildə Davos İqtisadi Forumunun rəqabətqabiliyətlik indeksinə görə 35-ci yerdə mövqe tutmuşdur. Odur ki, müasir şəraitdə innovasiya yönümlü inkişafın prioriteti elm və texnologiyanın kommersiyalaşması, yəni, innovasiyaların bazar mühitinə çıxardılması və istehlakçıya çatdırılmasıdır. Başqa sözlə, misal olaraq elmi-tədqiqat islərinin sayəsində edilən hər hansı müxtəlif fəaliyyət, habelə əqli mülkiyyət hüququnun istifadə edilməsindən yaranmış royalti, özəl müştərilər ilə arada bağlanmış tədqiqat kontrakt və müqavilələri və s. nəzərdə tutulur. Digər beynəlxalq bir indeks isə "Qlobal İnnovasiya İndeksi"dir. Bu indeks üzrə də Azərbaycan 2016-cı ildə 85-cı yerdə olduğu halda, 2017-ci ildə isə 82-cı yerdə qərarlaşmışdır. Qlobal İnnovasiya İndeksində Azərbaycanın mövqeyi ilə əlaqəli bəzi ziddiyyətli məqamları, həmin hesabatdan irəli çıxan uyğunsuzluqları bir qırağa qoysaq, aydındır ki, bizim istifadə etməli olduğumuz böyük potensialımız vardır. Kreativ iqtisadiyyatın inkişafdakı rolu böyükdür. İnnovasiyaların maliyyələşməsi kreativ iqtisadiyyatın payının dayanıqlı formada art-

masına səbəb olmuşdur. Keçid iqtisadiyyatı dövrünü yaşayan ölkələrdə də elm və innovasiyalar sahəsində dövlət siyasətinin formalaşması birinci dərəcəli əhəmiyyət kəsb edir. Ölkəmiz də öz növbəsində "bilik istehsal edən" ölkələrin arasında özünəməxsus yerini layiqli bir şəkildə tutur. Ölkə Prezidenti İlham Əliyev bu məsələ ilə əlaqədar çıxışlarında vurğulamışdır ki, "qara qızıl"ın insan kapitalına çevrilməsi Azərbaycanda real vəziyyətdir. Buna görə məhz təsadüfi deyildir ki, qeyri-neft iqtisadiyyatının inkişafında önəmli rol oynayan və innovasiyalı fəaliyyətə dəstək olan dövlət milli iqtisadiyyatın modern relslər üstündə irəliləməsi prizmasında yeni strateji istiqamət və hədəflər müəyyənləşdirmişdir.

## NƏTİCƏ

AR öz müstəqilliyini qazandığı ildən bu yana çətin və şərəfli bir yol keçmişdir. SSRİ kimi nəhəng dövlətin dağılmasından sonra digər sovet ölkələri ilə birlikdə, Azərbaycanda da siyasi gərginlik, iqtisadi çətinlik və sosial baxımdan gərgin vəziyyətin yaranması ilə nəticələnmişdi. İqtisadi mühitdə bazar iqtisadiyyatı, innovasiya mühiti və s. bu kimi yeni istiqamətlər ölkə iqtisadiyyatının çətin dövrlərində baş verirdi. Mövcud olan problemlərə baxmayaraq müstəqilliyin ilk illərindən etibarən hökumət Heydər Əliyevin rəhbərliyi sayəsində getdikcə daha da dirçəlməyə və inkişaf istiqamətində inamlı addımlar atmağa başladı. İlk olaraq müstəqilliyimizin dayanıqlı olması üçün iqtisadi islahatlar həyata keçirildi. Bu siyasət hal-hazırda da uğurla davam etdirilir. Bu, onu deməyə imkan verir ki, iqtisadiyyatımızın əsas inkişaf istiqamətlərindən birini ölkənin innovasiya potensialı təşkil edir. Məhz bu nöqteyi-nəzərdən ölkə iqtisadiyyatının gələcək sosial-iqtisadi tərəqqisi ilk olaraq iqtisadiyyatın yeni innovasiyaların təşkili və o cümlədən, tətbiqi sayəsində rəqabətqabiliyyətli mal və xidmətlərin həm kəmiyyət nöqteyi-nəzərindən, həm də keyfiyyət baxımından artırılması ilə əlaqədardır. AR-nın innovativ mühitdə qeyri-neft sahəsindəki artımda maraqlı olması dayanıqlı iqtisadi tərəqqinin təmin olunması mövqeyinin iqtisadi əsasıdır. Bütün bunlar AR üçün bu xarici iqtisadi inteqrasiya baxımından yeni imkanlar açır, milli iqtisadiyyatın tərəqqisində ümumdünya kontekstindən yararlanmağı zəruri edir. Milli maraqların qorunması çərçivəsində ümumilikdə dövlətin innovasiya siyasətinin əsas məqsədlərini aşağıdakı kimi sıralaya bilərik:

• iqtisadi, hüquqi və təşkilati şəraitin yerli məhsulların rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində innovasiyaların həyata keçirilməsində əlverişliliyinin artırılması,

• elm və texnikadan səmərəli istifadə sayəsində sosial-iqtisadi məsələlərinin həllinə müsbət yanaşmalar,

• innovasiya potensialının səmərəli yerləşdirilməsi və effektiv idarə edilməsi,

• elmi-texniki tərəqqinin ölkənin inkişafına, mühüm sosial vəzifələrin yerinə yetirilməsinə, mütərəqqi struktur yeniliklərinin edilməsində təsir imkanlarının artırılmasına xidmət etməsi və s.

Əsas hədəflərə çatmaq üçün dövlət innovasiya siyasətinin reallaşması zamanı öz vəzifə və öhdəliklərini qəbul edib və onları yerinə yetirir. Bunlara misal olaraq beynəlxalq müstəvidə milli innovasiya məhsullarının qorunması və beynəlxalq əlaqələrin səmərəliliyində mütərəqqi tədbirlərin reallaşması, rəqabətliliyin artırılmasında innovasiya fəaliyyətinin inkişafı ilə elm, təhsil, maliyyə-kredit sferalarının qarşılıqlı inteqrasiyası ilə təmin olunması göstərilə bilər.

Qeyri-neft sənayesində rəqabətqabiliyyətli fəaliyyətə söykənən daxili istehsalın dəstəklənməsi ilə əlaqəli əlavə tədbirlər haqqında Ölkə başçısının 2018-ci il 19 sentyabr tarixli Fərmanı qeyri-neft sahəsindəki problemlərə innovativ həllər ehtiva edir. Onu da qeyd etmək olar ki, ölkədə qeyri-neft sahəsinin intensiv və rəqabətədavamlı tərəqqisinin təmin edilməsi yönündə həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sahədə potensial imkanlar genişlənmiş, istehsal sahələri yeni təşəkkül tapmış, innovasiyalardan geniş istifadə nəticəsində milli istehsal fonunda qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi, ixrac qabiliyyəti artmışdır.

Eyni zamanda, qlobal innovasiyaların təsiri dövrün yeni çağırışlarını meydana gətirməkdədir. Regional prosedurların intensivləşdirilməsi, iqtisadiyyatın daha açıq və şəffaf olması, rəqabətqabiliyyətli maliyyə və ticarət əməliyyatlarının reallaşdırılmasının zəruriliyi bu cür çağırışlar arasısındadır. Qeyd etmək lazımdır ki, müasir texnologiyalar birinci mərhələdə iqtisadiyyatın rəqəmsallaşması sayəsində istehsal üsullarını dəyişir, başqa sözlə, xidmət və ya məhsul bazarı üçün hüdudların anlayışına yeni mahiyyət gətirir. Yuxarıda qeyd olunanlardan əlavə olaraq onu da deyə bilərik ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business" hesabatında Azərbaycan mövqeyini

yaxşılaşdırmışdır. Belə ki, "Doing Business 2019"-da ölkəmizi dünyada daha çox islahat aparmış ölkə elan olunmuşdur. Bu hesabatda ölkəmizin mövqeyini 2 il əvvəllə müqayisə etsək 32 pillə irəlilədiyini deyə bilərik, belə ki, 190 ölkənin sırasında 25-ci yerdə qərarlaşmışdır. Və bir çox dünya ölkələrindən irəlidə olmaqla bərabər MDB ölkələri sırasında lider mövqeyə yüksəlmişdir. Maliyyə təhlükəsizliyi və iqtisadi sabitlik həyata keçirilən iqtisadi islahatların sayəsində istehsalın bir çox sferalarında, xüsusilə kənd təsərrüfatında, qeyri-neft sektorunda və digər əlaqəli sektorlarda xeyli müsbət nailiyyətlər əldə edilmişdir. Dövlət-biznes əməkdaşlığında qarşılıqlı inam formalaşmış və bu effektiv münasibətlər gələcəkdəki iqtisadi inkişaf üzrə təməl prinsiplərə çevrilmişdir. Həyata keçirilən islahatlar sayəsində vətəndaş və sahibkarların məmnunluq dərəcəsinin artırılması, bu sahədə şəffaflığa nail olunması ilə bərabər, fərqli sektorlar üzrə inzibati prosedurların sayının optimallaşdırılması ilə xərclərin azaldılmasına, dövlət tərəfindən göstərilən xidmətlərin keyfiyyət amilinə diqqət yetirilməlidir. Ölkəmiz yeni iqtisadi modelə keçməklə iqtisadiyyatı islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına təmin edir. İEOÖ-də də elm və innovasiyalar sektorunda dövlət siyasətinin formalaşması I dərəcəli əhəmiyyət daşıyır. Ölkəmiz "bilik istehsalı edən" ölkələr arasında layiqli öz yerini tutur. Bu səbəbdən də, təsadüfi deyil ki, qeyri-neft sahəsinin tərəqqisində xüsusi rol oynayan İKT və innovativ fəaliyyəti dəstəkləyən iqtisadiyyatımızın milli perspektivlərinin modern relslər üzərində irəliləməsi üçün strateji istiqamətlər müəyyənləşdirilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI


1. *Azərbaycan Respublikası Vergi Məcəlləsinin nəzəri və praktiki izahatı, 2019.*

2. *"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı şəhəri, 29 dekabr 2012-ci il.*

3. *Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı şəhəri, 2012-ci il 29 dekabr.*

4. *Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydasının təsdiq olunması haqqında 2018-ci il 24 avqust tarixli Fərman.*

5. *Elmin inkişafı üzrə Milli Strategiyanın 2009-2015-ci illəri əhatə edən Dövlət Proqramı, 2009-cu il 4 may tarixli sərəncam.*

6. *"Azərbaycan Respublikası regionlarının inkişafı üzrə 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramı"nın təsdiq olunması haqqında 2019-cu il 29 yanvar tarixli Prezident Fərmanı.*

7. *Azərbaycanın statistik göstəriciləri 2012. Bakı, 2012, http://www.stat.gov.az*

8. *"Qeyri-neft iqtisadiyyatında rəqabətli daxili istehsalın dəstəklənməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 sentyabrın tarixli Sərəncamı.*

9. *A.H. Tağıyev, İ.B.Əmirov – İnnovasiya menecmenti – 2010.*

10. *Dövlət Statistika Komitəsinin illik məcmuəsi – 2018.*

11. *D.F.Cavadov, R.Y.Ağayev və Z.N.Qurbanov (2004) "İqtisadiyyatın Dövlət Tənzimlənməsi" Bakı, "Nasir". - 446 səh.*

12. *Əhmədov.Ə.M. Qloballaşmanın və milli iqtisadiyatın formalaşması. Bakı: 2003, 423 s.*

13. *Əliyev T.M "İnnovasiyaların təşkil və idarəedilməsi prosesi" Bakı, 2010.*

14. *Ə.Q.Əliyev, Şahverdiyeva R.O. "İnnovasiya strukturunun fəaliyyəti səmərəsinin kompleks qiymətləndirilməsinin elmi metodoloji əsasları, Bakı, 2012.*

15. *Əliyev I.I. Heydər Əliyev yolu: Azərbaycan inkişafın müasir mərhələsində, Bakı, Azərbaycan, 2008.*


## XÜLASƏ


Ölkəmizin iqtisadi inkişafında önəmli rola malik olan neft və qazın tükənən sərvətlər olması qeyri-neft sektoruna diqqətin artırılması ehtiyacını daha da gücləndirir. Belə ki, bu istiqamətdə informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi sahəsində xeyli işlər görülməli və əlverişli iqtisadi münasibətlər üçün yaxşı zəmin yaradılmalıdır. İnnovasiyaların tətbiqi və bunun sayəsində insan kapitalının inkişafı əsas fərqləndirici cəhətdir. Azərbaycan iqtisadiyyatında innovasiyaların tətbiqinin mövcud vəziyyəti onu deməyə imkan verir ki, rəqabətqabiliyyətinin və sosial-iqtisadi inkişaf tempinin formalaşması müasir texnologiyaların, yeni innovativ mühitin araşdırılması və tətbiqindən, biliklərin artırılması və onun əqli kapitala çevrilməsindən asılıdır. Onu da vurğulayaq ki, bütün bunların əsasında elm və innovasiyalar sahəsində düşünülmüş dövlət siyasəti dayanır. Məhz bu nöqteyi-nəzərdən mövcud durumda qəbul edilmiş bir sıra strategiyaları, dövlət proqramlarını göstərmək olar. Son dövrlərdə ticarət dövriyyəsinin daha da artması, qloballaşma meyilləri ilə bərabər regional inteqrasiyaların

da genişləndiyi həqiqətini əks etdirir. İxtisaslaşmağa rəqabət mühitində üstünlük verilməsi, innovasiya potensialının inkişaf etdirilməsi və bununla da optimal əlavə dəyərin yaradılmasının təşviq edilməsi və eləcə də ölkənin makro və mikro səviyyədə rəqabətə dayanıqlılığının artması mövcud vəziyyətin real iqtisadiyyatda təzahürüdür.

**Açar sözlər:** *informasiya, innovasiya, elektron ödəniş, elektron sənəd, texnologiya, qeyri-neft sektoru.*

**РЕЗЮМЕ**

Истощение запасов нефти и газа, играющих важную роль в экономическом развитии нашей страны, еще более усиливает необходимость уделять больше внимания ненефтяному сектору. Таким образом, в этом направлении предстоит проделать большую работу по расширению использования информационно-коммуникационных технологий и созданию хорошей основы для благоприятных экономических отношений. Главной отличительной чертой является применение инноваций и, следовательно, развитие человеческого капитала. Современное состояние инноваций в азербайджанской экономике позволяет говорить о том, что формирование конкурентоспособности и темпы социально-экономического развития зависят от исследования и применения современных технологий, новой инновационной среды, приумножения знаний и их превращения в интеллектуальный капитал. Следует отметить, что все это основано на продуманной государственной политике в области науки и инноваций. Именно с этой точки зрения можно показать ряд стратегий и государственных программ, принятых в текущей ситуации. Недавний рост товарооборота отражает тот факт, что региональная интеграция расширяется вместе с глобализацией. Предпочтение специализации в конкурентной среде, развитие инновационного потенциала и, следовательно, продвижение оптимальной добавленной стоимости, а также повышение конкурентоспособности страны на макро- и микроуровнях является проявлением сложившейся ситуации в реальной экономике.

**Ключевые слова:** *информация, инновации, электронный платеж, электронный документ, технология, ненефтяной сектор.*

**SUMMARY**

The depletion of oil and gas, which play an important role in the economic development of our country, further increases the need to pay more attention to the non-oil sector. Thus, a lot of work should be done in this direction to expand the use of information and communication technologies and create a good basis for favorable economic relations. The main distinguishing feature is the application of innovations and, consequently, the development of human capital. The current state of innovation in the Azerbaijani economy allows us to say that the formation of competitiveness and the pace of socio-economic development depends on the research and application of modern technologies, a new innovative environment, increasing knowledge and its transformation into intellectual capital. It should be noted that all this is based on a well-thought-out state policy in the field of science and innovation. It is from this point of view that a number of strategies and state programs adopted in the current situation can be shown. The recent increase in trade turnover reflects the fact that regional integration is expanding along with globalization. The preference for specialization in a competitive environment, the development of innovation potential and thus the promotion of optimal value added, as well as increasing the country's competitiveness at the macro and micro levels is a manifestation of the current situation in the real economy.

**Key words:** *information, innovation, electronic payment, electronic document, technology, non-oil sector.*

UOT 339.1

# MƏNZİL TİKİNTİSİNİN REALLAŞMASINDA MARKETİNQ TƏDQİQATININ ROLU VƏ ONUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**XORRƏM ƏDİBNİYA**
*Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), İqtisadiyyat İnstitutunun doktorantı*

*E-mail: xorremadibniya@gmail.com*

**Giriş**

Tikinti təşkilatının praktiki fəaliyyətində marketinq konsepsiyasının reallaşdırılması bazar münasibətləri şəraitində bir tərəfdən çevikliyi və obyektiv bazar amillərinə uyğunlaşmağı, digər tərəfdən, müxtəlif marketinq metodları vasitəsilə onlara məqsədyönlü şəkildə təsir göstərməyin üsullarının axtarışını tələb edir. Eyni zamanda, bazar şəraitinə uyğunlaşma və bazar proseslərinin məqsədyönlü surətdə tənzimlənməsi yalnız bu proseslərin öyrənilməsi şərti ilə mümkün olur. Tikinti biznesi praktikasında müxtəlif araşdırmaların sistematik olaraq hazırlanması və həyata keçirilməsi prosesi kimi, tikinti təşkilatının qarşısında dayanan konkret marketinq vəzifələrinə uyğun olan nəticələrin əldə edilməsi məqsədilə toplanmış informasiyanın təhlili sahəsində marketinq tədqiqatlarının aktuallığı və öyrənilməsi zəruriyyətinə, məhz bu mövqelərdən yanaşılmasını tələb edir.

Dünyanın əksər ölkələrində tikinti sənayesi bir çox digər sənaye sahələri ilə müqayisədə ifrat rəqabət qabiliyyəti, yüksək risk və adətən aşağı mənfəət marjası ilə xarakterizə olunur. Bu intensiv rəqabət qabiliyyətinin əsas səbəbi kapital qoyuluşu az olan şirkətlər üçün digər sənayelərlə müqayisədə tikinti sənayesinə girişin nisbətən asanlığıdır. Tikinti sənayesi üzrə marketinq planı və ya marketinq strategiyası qurmağın bir sıra çətinlikləri mövcuddur.

**Mənzil tikintisi sahəsində marketinq tədqiqatının rolu**

Tikinti marketinqi ilə bağlı bir neçə araşdırma aparılmışdır ki, onların əksəriyyəti tikinti marketinqi üçün xüsusi nəzəriyyələrin, strategiyaların və təcrübələrin işlənib hazırlanmasından daha çox tikinti şirkətlərində mövcud marketinq təcrübəsini əhatə edir.

Marketoloqlar marketinq strategiyalarını işləyib hazırlamazdan və müştərilər üçün dəyər yaratmağı planlaşdırmazdan əvvəl bazar haqqında tam və kifayət qədər məlumat əldə etməlidirlər. Onlar marketinq araşdırması və ya marketinq tədqiqatı aparmaqla tələb olunan məlumatları əldə edə bilərlər. İnşaat sənayesində bir çox praktiklər və bəzi tədqiqatçılar bu iki terminin ekvivalent olduğuna inanırlar və adətən "marketinq tədqiqatı" terminindən istifadə edirlər [2, s.138].

İngilis mənşəli söz olan marketinqin mənası bazar fəaliyyəti olaraq başa düşülür. Marketinq potensial müştərilərin məhsul və xidmətlərlə maraqlanması prosesidir. Bu tərifdə açar söz "proses"dir. Marketinq məhsul və ya xidmətləri araşdırmaq, təşviq etmək, satmaq və yaymaqdan ibarətdir [13, s.195]. Marketinqin üç əsas məqsədi var:

- hədəf bazarınızın diqqətini çəkmək;
- istehlakçını məhsulu almağa inandırmaq;
- müştəriyə yerinə yetirilməsi asan olan spesifik, aşağı riskli bir variantın təklif edilməsi [14, s.122].

Tikintidə marketinq yeni müştərilər, yeni tikinti növləri və yeni bazarlar axtarmaq, müştəriləri məmnun etmək və onları sadiq saxlamaq, bazar araşdırması və təhlili, əlavə xidmətlər təklif etmək, layihənin dəyərinin hesablanması və qiymətlərin müəyyən edilməsi, təkliflər təqdim etmək kimi fəaliyyətlərdən ibarətdir. Marketinqə təşkilati bir funksiya və müştərilərə dəyər yaratmaq, çatdırmaq üçün bir sıra proseslər və təşkilata fayda verən müştəri münasibətləri kimi də baxmaq olar. Marketinq, bazar təhlili və seqmentasiyası vasitəsilə hədəf bazarları seçmək, habelə istehlakçı davranışını anlamaq elmidir [10, s.235].

**Tikinti sənayesində marketinq strategiyalarının seçilməsi**

Tikinti şirkəti marketinq səylərini təkmilləşdirmək və eyni zamanda satış dövrünü qısaltmaq istəyirsə, hesaba əsaslanan marketinq strategiyasını seçməlidir. Hesaba əsaslanan marketinq daha çox müştərilərin olduğu bir neçə hesablara yönəlmiş yüksək hədəflənmiş marketinq kampaniyalarının inkişafına diqqət yetirən strateji marketinq taktikasıdır [12, s.95-101]. Bu baxımdan, hesaba əsaslanan marketinq:

- ✓ Satış dövrünü qısaltmağa kömək edir;
- ✓ Zənglə əlaqəni minimuma endirir;
- ✓ Marketinq büdcəsindən səmərəli istifadəni təmin edir [8, s.35-36].

**Sxem1. Marketinqdə məzmun strategiyası**




***Mənbə:*** *Haghi,H., Zabihi, H. Sosial və Mədəni Davamlılıq. -2012 [8].*

Bundan əlavə, məzmun marketinq strategiyasının həyata keçirilməsi tikinti şirkətləri üçün böyük bir sıçrayış kimi görünə bilər. Marketoloqların məzmun marketinqinin tətbiqi üstünlükləri haqqında dediklərinə nəzər salsaq:

❖ Bloqları olan bizneslər digər şirkətlərə nisbətən 67% daha çox gəlir əldə edirlər.

❖ Alıcıların 47%-i satış nümayəndəsi ilə əlaqə saxlamazdan əvvəl 3-5 məzmuna baxır [5, s.62-68 ].

Hər hansı bir təşkilati layihənin cəlb edəcəyi və ya təsir edəcəyi bütün daxili işçilər və komandalar onun maraqlı tərəfləri adlanır. Şirkətin mənfəət əldə etməsində və onun bölüşdürülməsində ortaq olanlar isə hissədarlar adlanır. Maraqlı tərəflərin təhlili layihə başlamazdan əvvəl bu şəxslərin müəyyən edilməsi prosesidir.

Müştəri təhlili (və ya müştəri profili) şirkətin biznes planının və ya marketinq planının kritik hissəsidir. O, hədəf müştəriləri müəyyən edir, bu müştərilərin ehtiyaclarını müəyyən edir və sonra məhsulun bu ehtiyacları necə ödədiyini müəyyənləşdirir. Müştəri təhlili adətən aşağıdakı mərhələlərdən keçir:

- Müştərilərin kim olduğunu müəyyənləşdirmək;
- Onların ehtiyaclarını müəyyənləşdirmək;
- Müştəriləri oxşar xüsusiyyətlərə və davranışlara görə qruplaşdırmaq;
- Sadiq müştərilərin profilini yaratmaq [1, s 70-72].

Tez-tez verilən suallar müştərilərin veb saytdakı təcrübəsini yaxşılaşdırmaq üçün əhəmiyyətli bir yoldur. Bu, məhsul və ya xidmətin ətrafında ən çox verilən suallara cavab verməyə imkan verir. Tez-tez verilən suallar müştərilərin maraqlandığı biznes sahə ilə bağlı xüsusi sorğuları həll etməyə imkan verir. Bu metod həmçinin hədəf auditoriyası ilə əlaqə saxlamağın başqa bir yolunu təmsil edir.

**Tikinti sənayesində marketinq tədqiqatlarının aparılması istiqamətləri**

Tikinti və istehlakçı bazarlarının marketinq tədqiqatları oxşar prinsiplərə və prosedurlara söykənir. Hər şey problemin müəyyən edilməsindən, məsələnin qoyuluşundan başlayaraq, analitik hesabatın hazırlanması ilə başa çatır [3, s.36-38]. Marketinq tədqiqatları üçün informasiya bir sıra tələblərə cavab verməlidir bunlar aşağıdakılardır:

- bütövlük (mənbə üzrə informasiya axtarışının tam həcmdə həyata keçirilməsinin məcburi olması);
- aktuallıq (müəyyən zaman kəsiyində uyğunluq);
- informasiyanın əlçatan və həqiqi olması;
- sərbəstlik (müxtəlif mənbələrdən götürülmüş məlumatlar təhlil olunur) [4, s.118-124].

Tikinti sahəsində marketinq tədqiqatlarının bağlı olduğu ən vacib faktorlar aşağıdakılardır:

- Bazarda daşınmaz əmlak məsələsi üzrə tələblərin bütöv halda öyrənilməsi və gələcək dövrə uyğun proqnozlaşdırılması;
- Bazar göstəricilərinə uyğun olaraq yeni tikinti məhsulunun mövcud və gələcəkdəki vəziyyətinin dəyərləndirilməsi;
- Tikinti təşkilatı tərəfindən onun istehsal, satış və digər imkanlarının real qiymətləndirilməsi [7, s.55].

**Layihəyə əsaslanan marketinq praktikaları**

Sənayenin layihəyə əsaslanan fəaliyyətinin əhəmiyyəti tikinti layihələrinin uzunmüddətli olması səbəbindən bəzi tikinti şirkətləri mövcud marketinq təcrübələrinə əsaslanan layihə tərtib edilməsindədir. Bu təcrübələr potensial layihənin müəyyən edilməsi ilə başlayır və hətta layihənin həyata keçirilməsindən sonra da davam edir. Müəssisələr eyni vaxtda bir çox layihələrdə iştirak edə, müxtəlif mərhələlərdə ola bilər və hər bir layihə üçün xüsusi marketinq praktikasına ehtiyac vardır.

Birinci mərhələdə potensial layihələr marketinq araşdırma sistemi və biznes şəbəkəsindəki əlaqələr vasitəsilə nəzərdən keçirilir və müəyyən edilir. Potensial layihələr ümumi və portfel marketinq strategiyaları baxımından araşdırılır. Strategiyalara uyğun layihələr üçün daha çox məlumat toplanır və resurslar ilk növbədə səfərbər olunur [10, s.403].

Bununla belə, planlaşdırma strategiyaları və işlərin həyata keçirilmə sürəti dəyişir, bu da marketinq layihələrinin idarə edilməsini daha da çətinləşdirir. Layihə idarəçiliyi və marketinq layihəsinin idarə edilməsinin mahiyyəti olduqca oxşar olsa da, iki elementi fərqlilik təşkil edir. Bu elementlər – Tədqiqat və Məlumatlardır.

Tədqiqat - marketinq layihəsinin idarə edilməsi vəzifələrini, tədqiqat hissəsini əhatə edir. Tədqiqat layihə başlamazdan əvvəl aparıla bilər və ya layihənin idarə edilməsi planının bir hissəsi ola bilər.

Məlumat - hər bir marketinq layihəsinin vacib komponentidir. Məlumatlar layihənin məqsədlərinə çatdığını və marketinq təşəbbüslərini təsdiqləmək üçün toplanır [12, s.154-160].

**Tikinti müəssisələrində marketinq prosesi**

Tikinti biznesində marketinq planını yaratmaq və həyata keçirmək üçün lazım olan ümumi prosesləri başa düşmək vacibdir. Marketinq planı, maliyyə planı kimi monitorinq edilməli və lazım gəldikdə düzəliş edilməli, həmçinin dəyişən rəqabət mühitinə uyğunlaşdırılmalıdır. Tikinti bazarında qiymətlər dəyişkən olur. Potensial gəlir mənbələrindən istifadə etmək üçün tikinti marketinq planları müvafiq olaraq dəyişməlidir.

Bundan əlavə, dövlət və özəl tikinti müəssisələrinə olan müştəri tələbi arasında mühüm fərqlər mövcuddur. Bu fərqlər tikinti məhsulu istehsalı, satışı və qiymətinə təsir göstərir [4, s.218-220].

Bütün bu xüsusiyyətlərə baxmayaraq, tikinti marketinqi skeptisizmlə görülən və satışla sinonim hesab edilən yeni bir fenomendir. Podratçılar və tikinti müəssisələri ən çox təhlil edilən müəssisələrdir (55%), yəqin ki, bu tip müəssisələrin digər fəaliyyət sahələrinə nisbətən daha geniş və mürəkkəb olması ilə əlaqədardır [1, s.275].

Tikinti sənayesində yenidənqurma, yəni rekonstruksiya üzrə marketinqin planlaşdırılmasına bir sıra amillər təsir edə bilər. Bu amillər, ümumiyyətlə, dörd kateqoriyaya bölünür: model, bazar, idarəetmə və ölçülər. Əgər yeni ərazilərin mənimsənilməsi zamanı müvafiq olaraq, ümumi xərclər bir-birinə bərabər olarsa, onda üstünlüyü rekonstruksiyaya vermək lazımdır. Çünki, rekonstruksiya yalnız şəhərin mövcud yaşayış rayonlarının keyfiyyətini artırmır, o həmçinin bir sıra üstünlüklərə təminat verir ki, bunlara aşağıdakıları aid etmək olar:

- kiçik azmərtəbəli tikililərin yeni, çoxmərtəbəli tikililərlə əvəz olunması və şəhərin ərazisinə qənaət olunması;
- abadlaşdırma və yaşıllaşdırma səviyyəsinin yüksəlməsi;
- əhalinin sanitar-gigiyenik şəraitinin yaxşılaşdırılması;
- yol-nəqliyyat infrastrukturunun inkişafı və ondan səmərəli istifadə olunması [6, s.160-163].

Bundan başqa, marketinq prosesi reklamçıların və müəssisələrin öz bizneslərinin gücünü və qazanc potensialını anlamaq üçün istifadə etdikləri bir vasitədir. Marketinq modelləri şirkətin və onun məhsullarının reklamı ilə bağlı ümumi strategiyaları və parametrləri nəzərdən keçirir.

SHY marketinq modeli - seqmentləşdirmə, hədəfləmə və yerləşdirmə deməkdir. Bu, müəssisənin müştərilərə necə müraciət etdiyinə diqqət yetirən yanaşmadan istifadəni əsaslandıran məşhur modeldir [11, s.7-10].

**Sxem2. SHY marketinq modelinin izahlı təhlili**




***Mənbə:*** *Mokhtariani.M.,Sebt,H,M.,Davoudpour,H. Tikinti Marketinqi -2017[11].*

**Tikinti sənayesində qiymət strategiyası və 4-lü marketinq konsepsiyasının tətbiqi**

Rəqabət gəlir, mənfəət və bazar payının artımına nail olmaq məqsədi ilə oxşar məhsul və xidmətlər satan şirkətlər arasında aparılır. Bazar rəqabəti şirkətləri marketinq qarışığının dörd komponentindən istifadə etməklə satış həcmini artırmağa sövq edir. Bunlar məhsul, yer, qiymət və reklamdır. Marketinq strategiyası adətən məhsuldan başlayır. Marketoloqlar bazara hansı məhsulun təklif olunacağını dəqiq bilməsələr, paylama sistemini planlaşdıra və ya qiymət təyin edə bilməzlər [9, s.160-168].

❖ ***Məhsul*** - bir şirkətin müştərilərə təklif etdiyi mal və ya xidmətə aiddir. Həmçinin, məhsul mövcud istehlak tələbini ödəməlidir və ya bir məhsul o qədər

cəlbedici ola bilər ki, istehlakçılar ona sahib olmaq lazım olduğuna inanar və bu, yeni tələbat yarada bilər.

❖ ***Qiymət*** - istehlakçıların bir məhsul üçün ödədiyi xərcdir. Marketoloqlar qiyməti məhsulun real və qəbul edilən dəyəri ilə əlaqələndirməli, eyni zamanda tədarük xərclərini, mövsümi endirimləri və rəqiblərin qiymətlərini də nəzərə almalıdırlar..

❖ ***Yer*** - bir şirkət yerlə bağlı qərarlar qəbul edərkən, məhsulu harada satmalı olduqlarını və məhsulu bazara necə çatdıracaqlarını müəyyənləşdirməyə çalışır.

❖ ***Təbliğat, yəni reklam*** - ictimaiyyətlə əlaqələr və tanıtım strategiyasını əhatə edir. Bir məhsulu tanıtmağın məqsədi istehlakçılara ona nə üçün ehtiyac duyduqlarını və nə üçün müəyyən bir qiymət ödəməli olduqlarını aşkar etməkdir.

Qiymət strategiyası məhsula olan tələbata və həmin məhsulun istehsalının dəyərinə əsaslanır. Bununla belə, qiymət 4-lü konsepsiyanın digər komponentləri ilə tarazlıqda deyilsə, qiymət məhsulun uğuruna böyük təsir göstərə bilməz. Bəzi məhsullar (xüsusilə də xidmət məhsulları) üçün çox aşağı qiymətə sahib olmaq satışa zərər verə bilər [13, s.318].

Qiymət həm də rəqabətli bazar mexanizmindən istifadə edərək iqtisadiyyatın məhsulunu paylayır və bölüşdürür. Qiymətlə bağlı qərarların qəbulu zamanı dəyişən şərtlərə uyğunlaşmaq lazımdır ki, bunlara sürətli texnoloji tərəqqi, artan yeni məhsulların sayı, xidmətlərə daha geniş və daha təkidli tələb, yeni və daha güclü xarici rəqiblər və sərtləşdirilmiş hüquqi məhdudiyyətlər daxildir [15, s.542].

Tikinti layihəsinin qiymətinin müəyyən edilməsində ilk addım işin həcmi üçün təxmini kəmiyyətlərin və dəyərlərin hesablanmasını nəzərdə tutan xərclərin hesablanmasıdır. Xərclər hesablandıqdan sonra layihə üçün təkliflər hazır olunur. Müqavilə əsasən ya sabit qiymətdən, ya da xərclə əvəz oluna bilən qiymət metodundan istifadə etməklə müəyyənləşdirilir..Tikinti sənayesində sabit qiymətli birdəfəlik müqavilələrə üstünlük verilir. Podratçı hər bir xərc üçün təklif əvəzinə layihənin ümumi qiymətini təqdim edir. Birdəfəlik müqavilələr, əsasən başa çatdırılması asan olan, dəqiq müəyyən edilmiş əhatə dairəsi olan layihələrə tətbiq edilir [10, s.301].

## NƏTİCƏ

Mənzil bazarının inkişafında və onun formalaşmasında marketinq tədqiqatlarından geniş istifadə olunması, ona təsir edən xarici və daxili amilləri hərtərəfli araşdırmaqla marketinq strategiyasının işlənilməsini həyata keçirməkdir. Bu halda mənzil bazarında tələb və təklifi nəzərə almaqla qiymət siyasətinə əsaslanaraq, qiymətlərə dolayı yolla dövlətin tənzimləmə funksiyasını həyata keçirmək lazımdır. Layihənin planlaşdırılması və icrasının köhnə üsullarından fərqli olaraq təkmilləşdirilmiş texnologiyanın tətbiqi layihələrin ümumi məhsuldarlığına müsbət təsir göstərmişdir. Müəyyən olunduğu kimi, məlumat və kommunikasiya tikinti sənayesində məhsuldarlığa təsir edən mühüm amillərdir.

Tikintinin idarə edilməsi strukturunun bir çox modellərini araşdırmaqla belə bir nəticəyə gəlmək mümkündür ki, marketinqin təşkilində çevik və daha mütərəqqi idarəetmə strukturunu təşkil etməklə onun dövrü olaraq təkmilləşdirilməsinin əsas yollarından biri düzgün marketinq strategiyalarının tətbiqidir. Bu strukturlar bölmələr arasında ünsiyyəti həvəsləndirmək, öz konfliktlərini həll etmək, inkişaf etmiş informasiya və əlaqələr sisteminə malik olmaq kimi xüsusiyyətləri özündə əks etdirməlidir.

Tikintidə qiymət strategiyaları adətən xərcləri əhatə edən yanaşmalara əsaslanır. Əksər modellər müştərilərin ən aşağı təklif verəni seçdiyini düşünür. Əksər modellərdə nəzərdə tutulan layihə haqqında tarixi və cari məlumatlardan, həmçinin, rəqiblər və ümumi sənaye haqqında digər məlumatlardan istifadə edilir.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Allahverdiyeva M.A. Beynəlxalq marketinq. Dərslik. İqtisad Universiteti Nəşriyyatı, - Bakı, 2010, - 444 s.*

*2. Axundov,Ş. Beynəlxalq Marketinq. Dərslik.- Bakı, 2005.- Əbilov,Zeynalov və oğulları.-632səh.*

*3. Barker K. Planning policy, planning practice and housing supply // Oxford Review of Economic Policy. - 2008.Vol.24. - No 1. - pp.34–49.*

*4. Cümşüdov, S.Q. Müəssisə iqtisadiyyatı : Dərslik. – Azərb. Politexnik İn-tu, Bakı- 2008. - 356 s.*

*5. David, M. Blank and Louis Winnick // The Structure of the Housing Market [Journal]. - The MIT Press, 2009. – pp.62-75.*

*6. Ədibniya, X.Ş. Mənzil fondu bazarının formalaşmasında marketinq tədqiqlarının rolu // - Bakı: Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri. – 2010.№ 3, –159-165s.*

*7. Əzizova, M.Ə. Yeni şəraitdə mənzil probleminin*

*həlli istiqamətləri. - Bakı, 2006. -147 s.*

*8. Haghi,H., Zabihi, H. Social and Cultural Sustainability // International Journal of Architecture and Urban Development. - 2012. No.2(4). - pp.31-38.*

*9. Həziyev, V.B.Strateji planlaşdırmanın əsasları /V.B. Həziyev, N.M. Kərimov.–Bakı: - 2004. - 280 s.*

*10. Косточенко, В.В. Менеджмент строительства.–Москва: Феникс, -2009. - 438 с.*

*11. Mokhtariani.M., Sebt, H,M., Davoudpour, H. Construction Marketing: Developing a Reference Framework// Advances in Civil Engineering-2017. Vol 4.-pp.1-14. DOI:10.1155/2017/7548905*

*12. Məmmədov,A.T.Marketinqin Əsasları-Dərs vəsaiti.-Bakı-2007.İqtisad Universiteti Nəşriyyatı-306s.*

*13. Məmmədov X., Mirzəyev S. Marketinqin əsasları, Bakı, Qapppoliqraf, 2001.-350s.*

*14. Şükürov, T.Ş., Şükürov R.Ş. Marketinq tədqiqatları / T.Ş.Şükürov, R.Ş.Şükürov.- Bakı, 2003.-230 s.*

*15. Vəliyev, T.S. İqtisadi nəzəriyyə.-Bakı, 2001. -691s.*

**Хоррам Шириндил оглы Адибния**
***Национальная Академия Наук Азербайджана (НАНА), докторант Института экономики***

**Роль маркетинговых исследований в реализации жилищного строительства и их основные черты**

**РЕЗЮМЕ**

Строительство является одной из важнейших отраслей экономики, и его развитие означает внедрение новой строительной продукции для всей экономики, перепрофилирование существующих зданий и создание рабочих мест для проектов реконструкции. Недвижимость, созданная в строительстве, является неотъемлемой частью национального богатства страны как нефинансовые производственные фонды. В связи с этим важно определить роль маркетинговых исследований в осуществлении жилищного строительства и их основные черты. В статье освещены вопросы выбора маркетинговых стратегий в строительной отрасли, способы реализации контент-маркетинговых стратегий. Приведены общие процессы, необходимые для создания и реализации маркетингового плана в строительном бизнесе, и пояснительный анализ маркетинговой модели СТР. Также были рассмотрены практики проектного маркетинга, ценовая стратегия и направления применения 4-й концепции маркетинга.

**Ключевые слова:** *строительство, маркетинг, планирование продаж, реновация, рыночная конкуренция.*

**Khorram Shirindil oglu Adibniya**
***Azerbaijan National Academy of Sciences (ANAS), doctorant of the Institute of Economics***

**The role of marketing research in the realization of housing construction and its main features**

**SUMMARY**

Construction is one of the most significant sectors of the economy, and its development means the introduction of new construction products for the entire economy, the reorientation of existing buildings and the creation of jobs for reconstruction projects. Real estate created in construction is an integral part of the country's national wealth as non-financial production assets. In this regard, it is important to determine the role of marketing research in the implementation of housing construction and its main features.The article highlights the selection of marketing strategies in the construction industry, and ways to implement content marketing strategies. The general processes required to create and implement a marketing plan in the construction business and an explanatory analysis of the STP marketing model were mentioned. Also, project-based marketing practices, pricing strategy and application directions of the 4P's of marketing concept were considered.

**Keywords:** *construction, marketing, sales planning, renovation, market competition.*

UOT 339.9; 339.9.061(100)

# QEYRİ-NEFT SEKTORU SAHƏLƏRİNƏ YÖNƏLDİLMİŞ XARİCİ İNVESTİSİYALARIN ƏHƏMİYYƏTİ

**TOĞRUL QULİYEV**
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər və iqtisadiyyat*
*fakültəsinin II kurs magistrantı*

*E-mail: togrul.guliyev.90@gmail.com*

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra milli iqtisadiyyatımızın qurulması və inkişafı yolunda bir sıra mühüm addımlar atılmışdır. Bunlardan biri də xarici investisiyaların ölkəyə cəlb edilməsi idi. Sözsüz ki, zəngin neft-qaz ehtiyatlarına malik Azərbaycan üçün, ilk növbədə, bu sahə xarici sərmayəçilərin diqqətini cəlb etdi. Lakin aparılan uğurlu iqtisadi islahatlar nəticəsində bu sahədə də müəyyən tənzimləmələr aparıldı və neftlə yanaşı, qeyri-neft sektoru sahələrinə də xarici sərmayələrin cəlb olunmasına başlandı.

İlk növbədə, xarici sərmayə qoyuluşlarının hüquqi və iqtisadi əsasını qoyan qanun qəbul edildi. 1992-ci ildə "Xarici investisiya qoyuluşlarının qorunması" haqqında qanun qəbul edildi. Zamanın tələblərinə uyğun olaraq növbəti illərdə bu qanuna əlavə və dəyişikliklər edildi. Qanunun əsas məğzini hökumətin xarici sərmayəyə zəmanət verməsi təşkil edirdi. Müstəqilliyin inkişafı gedişində bütün xarici sərmayə qoyuluşlarının zəmanət altına alınması hüquqi baxımdan daha da təkmilləşdirildi. Belə ki, 1995-ci ildə qəbul edilmiş "İnvestisiya fəaliyyətləri haqqında" qanun 2005-ci ildə əlavə və dəyişikliklərlə zamanın və bazarın tələblərinə uyğunlaşdırılmış oldu [1, 15].

Ölkədə iqtisadi islahatların müsbət nəticələri əldə olduqca xarici sərmayəçilərin marağı daha da artmış oldu. Statistik məlumatlara görə, 2001-ci ildə Azərbaycan iqtisadiyyatına qoyulan sərmayənin 70%-i xarici sərmayəyə aid edilir. 2002-ci ildə artıq bu göstərici 80,5%-ə çatmışdır. Qoyulan sərmayənin 70%-dən çoxu neft sektoruna aid olsa da, qeyri-neft sektoru sahələrinə də müəyyən investisiyalar qoyulmuşdur. Müvafiq olaraq, 1,6% elektrik enerjisi və su sərfiyyatı, 1,9% emal sənayesi, 1% kənd təsərrüfatı, 0,2% inşaat sektoru, 8,7% nəqliyyat, 1,4% rabitə sahəsinə sərmayə qoyulmuşdur [3, 78].

Azərbaycan iqtisadiyyatına qoyulan sərmayələr iqtisadi canlanmaya gətirib çıxarmış, qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərmişdir. Qeyd edək ki, müstəqilliyini təzə bərpa etmiş Azərbaycana qoyulan investisiyaların həcmi indiki illə müqayisə edildikdə, uğurlu nəticələrin əldə edildiyini görə bilərik. Statistik məlumatlara əsasən, əgər 1995-ci ildə xarici investisiyaların həcmi 375,1 milyon dollar olmuşdursa, 2020-ci ildə bu rəqəm 6125,4 milyon dollara çatmışdır [9].

Ticarət əlaqələrinin genişlənməsi də ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsinə gətirib çıxarır. Bu investisiyalar neft sektoruna qoyulsa da, qeyri-neft sektoru sahələrində rəqabətədavamlı ixrac məhsullarının istehsal edilməsi və dövlətin bu sahələrin inkişafı ilə bağlı siyasəti nəticəsində qeyri-neft sektoruna da xarici investisiyalar qoyulmuşdur. Hazırda da bu proses xarici iqtisadi əlaqələr konteksində davam etdirilir.

Qeyd etmək lazımdır ki, son dövrdə ölkənin qeyri-neft sektoruna investisiya yatıran ölkələrin marağı xeyli artmışdır. Belə ölkələrə Türkiyə, Niderland, ABŞ, İran, Almaniya, Rusiya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, İsveçrə, İtaliya, Fransa və Yaponiyanı göstərmək olar. Azərbaycan Çin, Fransa, Gürcüstan, Almaniya, İngiltərə, İran, İtaliya, Qazaxıstan, Qırğızıstan, Pakistan, Polşa, Türkiyə, Ukrayna, ABŞ və Özbəkistanla ikitərəfli sərmayənin qorunması müqaviləsinə imza atmışdır. İkitərəfli Sərmayə Müqavilələri, bəzi sərmayədarlar üçün ölkədə inamverici mühitin təmin olunmasında müsbət rol oynamaqdadır.

Rəsmi statistik məlumatlara əsasən, 2022-ci ilin yanvar ayında 118 ölkə ilə ticarət əlaqələri saxlanmışdır. 2022-ci ilin yanvar ayında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki illə müqayisədə 1,6 dəfə artaraq 232,2 milyon dollar təşkil etmişdir. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (30,6 faiz), Türkiyəyə (30,4 faiz), Gürcüstana (6,2 faiz), İtaliyaya (4,7 faiz), İsveçrəyə (3,3 faiz), Çinə (2,8 faiz), Niderlanda (2,3 faiz), Rumıniyaya (1,8 faiz), ABŞ-a (1,7 faiz), Türkmənistana (1,7 faiz), Almaniyaya (1,5 faiz), Özbəkistana (1,4 faiz), Ukraynaya (1,3 faiz), İspaniyaya (1,3 faiz), Belarusa (1,3 faiz), Qazaxıstana (1,2 faiz) göndərilmiş malların payı daha çoxdur [7].




Diaqramdan göründüyü kimi, 2022-ci ilin yanvar ayı ərzində qeyri-neft məhsullarının icrac olunduğu ölkələr içərisində qonşu dövlətlər olan Rusiya və Türkiyə üstünlük təşkil edir.

2022-ci ilin yanvar-fevral ayları ərzində qeyri-neft-qaz sektoruna yönəldilmiş əsas investisiyaların həcmi 601,8 milyon manat olmuşdur ki, onun 81,1 milyon manatı qeyri neft-qaz sənayesinin payına düşmüşdür. Əvvəlki illə müqayisədə qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 12,1 faiz artdığı müşahidə edilir.

Qeyd edək ki, istifadə olunmuş vəsaitin 984,3 milyon manatı və ya 73,5 faizi məhsul istehsalı sahələrinə, 240,6 milyon manatı (17,9 faizi) xidmət sahələrinə, 114,8 milyon manatı (8,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf edilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 779,5 milyon manatını və ya 58,2 faizini daxili vəsaitlər təşkil etmişdir. Bu vəsaitlərin 815,9 milyon manatı və ya 60,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir [9].

Qeyri-neft məhsullarının ixracının artırılması, dünyada Azərbayanın qeyri-neft məhsullarına marağın artırılması və bu sahələrə xarici investorların cəlb edilməsi məqsədilə dövlət tərəfindən mühüm qərarlar verilmişdir. Bunlardan biri 2016-cı ildə ölkə başçısının imzaladığı fərman və sərəncamlardır. Belə ki, 2016-cı ilin yanvarında "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam və 2016-cı ilin martında "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" prezident fərmanı imzalanmışdır [4]. Bu qərarların qəbul olunmasında əsas məqsəd qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabət qabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının artırılması, bu istiqamətdə yeni bazarlara çıxışın təmin edilməsi idi. Bunun üçün müvafiq tədbirlərin görülməsi nəzərdə tutulurdu ki, bunlardan biri də Azərbaycan Respublikasının ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi idi. Müvafiq fərmana əsasən, ixrac təşviqinin ödənilməsi Azərbaycan Respublikasının ərazisində istehsal edilən və istehsal prosesində istifadə olunan yerli komponentlərin və Azərbaycan Respublikasının ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq həyata keçirilməli idi.

Qeyri-neft sektorunun inkişafına dövlət qayğısının nəticəsidir ki, son illərdə görülmüş işlər sayəsində müəyyən uğurlar əldə edilmişdir. Qeyri-neft sektoru üzrə məhsulların ixracının artırılması istiqamətində verilmiş qərarlar və onların icrası nəticəsində xeyli artım əldə edilmişdir. Son statistik məlumatlara əsasən, 2022-ci ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ixracı 6 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə 461,8 milyon ABŞ dolları təşkil etmişdir. Bu da 2021-ci illə müqayisədə qeyri-neft sektoru üzrə ixracın 130,6 milyon ABŞ dolları və ya 39,4% artdığını göstərir [9].

2022-ci ilin fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə 82,7 milyon ABŞ dolları olmaqla birinci sıradadır. Bu siyahıda Rusiya Federasiyası 48 milyon ABŞ dolları olmaqla ikinci və 13,6 milyon ABŞ dolları olmaqla Gürcüstan üçüncü yerdə dayanır [6].

Xarici ticarətin gömrük statistikasına əsasən, 2022-ci ilin ilk iki ayı ərzində qeyri-neft məhsullarının ixrac olunduğu əsas ölkələr və ixracın dəyəri aşağıdakı cədvəldə göstərilmişdir: [7]

| Ölkələr | Min ABŞ dolları ilə | Ümumi ixraca nisbətən %-lə |
|---|---|---|
| **Cəmi** | **461 800.76** | **100.00** |
| Türkiyə | 153 319.92 | 33,20 |
| Rusiya | 119 076.21 | 25,79 |
| Gürcüstan | 28 091.92 | 6,08 |
| İsveçrə | 21 008.65 | 4,55 |
| İtaliya | 19 386.33 | 4,20 |
| ABŞ | 11 583.97 | 2,51 |
| Çin | 9 973.12 | 2,16 |
| Ukrayna | 9 085.92 | 1,97 |
| Rumıniya | 8 626.78 | 1,87 |
| Türkmənistan | 6 549.24 | 1,42 |
| Qazaxıstan | 6 492.88 | 1,41 |
| Bolqarıstan | 6 188.04 | 1,34 |
| **Digər ölkələr** | **62 417.79** | **13,50** |

Azərbaycanın qardaş ölkə Türkiyə ilə iqtisadi əlaqələri xüsusilə əhəmiyyətlidir. İqtisadi əlaqələrin hüquqi bazasını "Ticarət və iqtisadi müttəfiqlik müqaviləsi"(1992), "Azərbaycanla Türkiyə arasında ikili vergiləndirmənin qarşısının alınması müqaviləsi"(1994), "Birgə iqtisadi komissiya (KEK)" (1997) və s. təşkil edir. Türkiyə ilə bir çox sahələrdə olduğu kimi, qeyri-neft sektoru sahəsində də sıx əməkdaşlıq mövcuddur. Türkiyə qeyri-neft sektorunun inkişafı baxımından bu sahəyə sərmayə qoyan dövlətlər içərisində xüsusi əhəmiyyətə malikdir [1, 266].

Xaçmaz ərazisində Azərbaycan-Türkiyə müştərək toxum müəssisəsi qurulmuşdur. Bu müəssisədə 2005-ci ilə kimi arpa və buğda toxumları, 2005-ci ildən etibarən isə qarğıdalı, günəbaxan, zeytun və digər bitkilərin istehsalı aparılmışdır. İki ölkə arasında 1992-ci ildə turizm sahəsində müttəfiqlik müqaviləsi də imzalanmışdır ki, burada turizm sahəsində kadr hazırlığı üçün Türkiyədə təhsil almaq, həmçinin, hər iki ölkə arasında qarşılıqlı turların təşkili nəzərdə tutulmuşdur [1, 265-267].

Təhsil sahəsində də müttəfiqlik əlaqələri davam etməkdədir. Qarşılıqlı tələbə mübadiləsindən əlavə, Türkiyə 1993-2001-ci illər ərzində məktəblərin təmiri, dərs vəsaitlərinin təşkili və digər ehtiyacların həll edilməsi üçün Azərbaycana 102 570 dollar yardım etmişdir. Bundan başqa, nəqliyyat, maliyyə, sosial müdafiə və digər qeyri-neft sektoru sahələrində də əməkdaşlıq hər iki ölkə arasında davam etdirilir.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı Türkiyə Azərbaycanın haqlı mübarizəsini dəstəkləmişdir. Hər iki ölkə arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" də tarixi-siyasi əhəmiyyəti ilə yanaşı müxtəlif sahələrdə birgə əməkdaşlığı nəzərdə tuturdu. Bu tarixi-siyasi sənədə əsasən də, qardaş Türkiyənin regiona investisiya qoyacağı şübhə doğurmur. Bundan başqa, Qarabağın sosial-iqtisadi inkişafı ilə bağlı Türkiyə arasında daha bir neçə sənəd imzalanmışdır. Bunlardan biri də 2020-ci ilin dekabrında GOSB Texnoparkı ilə memorandumun imzalanmasıdır. Memorandumda Qarabağda texnoloji park və mərkəzlərin açılması, hər iki tərəfin gələcək birgə fəaliyyətini əks etdirən məsələlər qeyd edilmişdir. Prezident İ. Əliyevin 2021-ci ilin mayında imzaladığı sərəncama əsasən, Qaşqaçay filiz yatağı "Eti Bakır A.Ş." şirkətinə, Elbəydaş və Ağduzdağ filiz yataqları "Artvin Maden A.Ş." şirkətinə öyrənilmə, tədqiq, kəşfiyyat, işlənmə və istismar məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilmişdir ki, bu da regiona Türkiyə tərəfindən investisiya yatırılacağının aydın təzahürüdür [8].

Respublikamızda qeyri-kredit investisiyaların əksər hissəsi neft sektoruna yönəlirsə, digər sahələrə də vəsait ayrılmaqdadır. Məsələn, tikintiyə 5,2 %, nəqliyyat və rabitəyə 2,0 % ticarət və xidmət sahələrinə isə 1,2 % vəsait qoyulmasını qeyd etmək olar.

Bazar iqtisadiyyatına keçidi uğurla başa çatdıran Azərbaycan Respublikası təbii resuslardan məqsədli şəkildə istifadə edərək ölkə iqtisadiyyatını gücləndirmək və neftdən asılılığı minumuma endirmək məqsədilə bir çox işlər görmüşdür. Dövlət səviyyəsində həyata keçirilmiş işlərin icrası nəticəsində ölkəmizdə tikinti, kənd təsərrüfatı, turizm, nəqliyyat, İKT sektorunda davamlı artım tendensiyası müşahidə edilməkdədir. Bu tendensiyanın nəticəsidir ki, son illərdə ölkəmizdə yaradılmış yeni iş yerlərinin əksəriyyəti qeyri-neft sektoru sahələrinə aiddir. Nəticə etibarilə son illərdə qeyri-neft sektoru sahələrinə xarici investisiyaların yatırılması artmaqda davam edir. Bunu rəsmi göstəricilərə əsasən demək mümkündür. Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, qeyri-neft sektoru sahələrinə ayrılmış xarici investisiyaların həcminin ildən-ilə artdığını göstərmək olar. Bütün bunlar iqtisadiyyatın qeyri-neft sektoru sahələrində ÜDM-in də artmasına müsbət təsir göstərmişdir ki, bunu da aşağıdakı cədvəldən görmək mümkündür:

| **ÜDM** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|
| **Cəmi, milyon manatla** | 60 425,2 | 70 337,8 | 80 092,0 | 81 896,2 | 72 578,1 | 92 857,7 |
| **Neft-qaz sektoru** | 19 552,6 | 25 005,4 | 32 231,7 | 30 051,9 | 20 417,5 | 33 930,6 |
| **Qeyri-neft sektoru** | 35 951,1 | 40 328,0 | 41 662,0 | 44 481,8 | 45 312,2 | 51 082,9 |
| **əvvəlki ilə nisbətən %-lə** | | | | | | |
| **Cəmi** | 96,9 | 100,2 | 101,5 | 102,5 | 95,8 | 105,6 |
| **Neft-qaz sektoru** | 100,1 | 94,7 | 100,5 | 100,4 | 93,7 | 101,8 |
| **Qeyri-neft sektoru** | 95,6 | 102,8 | 102,0 | 104,0 | 97,1 | 107,2 |

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin Azərbaycanda qeyri-neft sektoruna daxil olan xarici investisiyaların ölkələr üzrə məbləği haqqında məlumatları təqdim etsə də, həmin vəsaitlərin yönəldiyi sahələr haqqında məlumat tam şəkildə açıqlanmamışdır. Mərkəzi Bank da illik tədiyyə balansı ilə bağlı məlumatında qeyri-neft sektoruna cəlb edilən xarici investisiyaların ümumi məbləğini təqdim etsə də, sahələr və layihələr barədə məlumat verilməmişdir. Qeyd edilən faktların göstərilməsi, mövzunun daha dərindən və analitik təhlilini aparmağa imkan verəcəkdir.

Hazırda ölkəmizdə Qaradağ Sənaye Parkının, Mingəçevir Yüksək Texnalogiyalar Parkının, Mingəçevir Sənaye Parkının yaradılmasını təmin edən Azərbaycan Respublikası Prezdentinin müvafiq qərarları əsasında yaradılan iqtisadi zonalarda xarici investisiyaların yönəldilməsi üçün əlverişli imkanlar yaratmışdır. İqtisadi zonaların yaradılması haqqında qəbul edilmiş bu qərarlarda 7 il ərzində regionlar üzrə investisiya layihələrinin əmlak vergisindən tam, mənfəət vergisindən isə 50 faiz azad olunması nəzərdə tutulmuşdur. Bundan başqa, tədbirlər planında yatırılmış olan investisiyaların risklərini minimuma endirməyə və gələcək gəlirliyinin artırılmasına geniş imkanlar açır.

Milli iqtisadiyyatımızın gücləndirilməsi, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və dünya iqtisadiyyatına inteqrasiyası üçün dövlət tərəfindən əhəmiyyətli addımlar atılmışdır. Müxtəlif sahələrin və regionların inkişafı üçün qəbul edilmiş dövlət proqramları, kiçik və orta sahibkarlığın inkişafına şərait yaradılması, kənd təsərrüfatına müxtəlif subsidiyaların yönəldilməsi, nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində nailiyyətlər qazanılmışdır. Sözügedən sahələrin hər birinə müəyyən qədər xarici investisiyalar qoyulmuş, beynəlxalq iqtisadi təşkilatlar da müəyyən kreditlər ayırmışdır. Hazırda da bu proses davam etməkdədir. Sözsüz ki, bütün bunlar bu sahədə iqtisadiyyatın canlanmasına şərait yaradır.

**Açar sözlər:** *qeyri-neft sektoru, xarici investisiyalar, Azərbaycan iqtisadiyyatı, ixrac, iqtisadi əlaqələr*

## ƏDƏBİYYAT SİYAHISI

1. *İbrahimov F.M. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalar və onun milli iqtisadiyyatın dirçəlməsində rolu. Bakı 2007. 153 s.*
2. *Aras O. N., Süleymanov E. Azərbaycan iqtisadiyyatı. Bakı, "Şərq-Qərb" Mətbəəsi, 2010, 327 s.*
3. *Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı, "İqtisad Universiteti" 415 s.*
4. *Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // https://e-qanun.az/framework/32254*
5. *https://economy.gov.az/article/azerbaycan-i-nvestisiya-shirketi-asc-nin-2021-ci-il-uzre-fealiyyetinin-yekunlarina-dair-melumat/32232*
6. *https://ereforms.gov.az/files/review/pdf/az/fa8fb7c987527e78818dcae723e3fe49.pdf*
7. *https://customs.gov.az/uploads/foreign/2022/2022_1.pdf?v=1645100051*
8. *https://marja.az/71657/kelbecerdeki-qizil-yatagi-turkiye-sirketine-verildi-serencam?fbclid=IwAR0aWBiFAfkzA_iyYobltwZ7brE8xkQexJBvj1QuE6kUn8SZJ0tEQ*
9. *https://www.stat.gov.az/source/system_nat_accounts/*

## РЕЗЮМЕ

В статье говорится об инвестициях в ненефтяной сектор и их значении. Развитие ненефтяного сектора в экономике Азербайджана является одним из актуальных вопросов. Важной частью политической линии государства является развитие ненефтяного сектора. В первые годы после восстановления независимости иностранные инвестиции были направлены в основном в нефтяной сектор. Развитие отраслей ненефтяного сектора также важно для снижения зависимости от нефтяных месторождений в экономическом развитии. В результате проводимых с этой целью реформ иностранные инвестиции уже направлены в ненефтяной сектор. Так же, как иностранные инвестиции играют положительную роль в экономике, это имеет значение в ненефтяном секторе.

**Ключевые слова:** *ненефтяной сектор, иностранные инвестиции, экономика Азербайджана, экспорт, экономические связи*

## SUMMARY

The article deals with the investments made in the non-oil sector and their importance. The development of the non-oil sector in the economy of Azerbaijan is one of the pressing issues. An important part of the political line of the state is the development of the non-oil sector. In the first years after the restoration of independence, foreign investment was mainly directed to the oil sector. In order to reduce dependence on oil sectors in economic development, the development of non-oil sectors is also important. As a result of the reforms carried out to this end, foreign initiatives have already been directed to the non-oil sector. Just as foreign investment plays a positive role in the economy, it is also important in the non-oil sector.

**Keywords:** *non-oil sector, foreign investment, Azerbaijan economy, export, economic relations.*

UOT 339.9; 339.9.061(100)

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU

**XƏYAL RAQİBOĞLU**
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi,*
*magistrant*

*E-mail: xeyalxm.xm@gmail.com*

## Giriş

Getdikcə daha da genişlənən iqtisadi əlaqələr və ölkələrin qarşılıqlı asılılığı beynəlxalq əmək bölgüsünün üstünlüklərindən daha geniş istifadəyə töhfə verməklə dünya iqtisadi əlaqələrinin çoxşaxəli tənzimlənməsi rolunun artırılmasını tələb edir. Lakin çoxtərəfli tənzimləmənin inkişafının miqyası və istiqaməti daha çox dövlətlərin spesifik maraqlarından və onların siyasətindən asılıdır. Ticarət və beynəlxalq iqtisadi münasibətlər məsələlərində çoxşaxəli tənzimləmə onun iştirakçılarının milli suverenliyinə toxunmadan hökumət qərarlarına təsir göstərir. Bu istiqamətdə dövlət siyasəti sahəsində təkcə tənzimləmə müdaxilə etmir, həm də dünya iqtisadi əlaqələrinin inkişafına kömək edir, xarici iqtisadi fəaliyyət sferasının iştirakçılarına hökumətlərarası səviyyədə və iqtisadi beynəlxalq təşkilatlar çərçivəsində dəstək verir. Beynəlxalq iqtisadi təşkilatlar öz iştirakçıları tərəfindən razılaşdırılan məqsədləri, səlahiyyətləri və digər "xüsusi" siyasi və təşkilati normaları olan şaxələndirilmiş dövlətlərarası münasibətlərin institutudur.

## Metod

Tədqiqat işi bir neçə metodlarla aparılmışdır, bunlardan birincisi, təhlil metodudur. Tədqiqat işlərində ən çox istifadə olunan metodlardandır. İkinci metod, sintez metodudur. Birinci metoddan fərqli olaraq, sintez, daha detallı bir araşdırma üçün fərdi elementləri (xassələri, atributları) vahid, bütöv hala gətirmək üçün nəzərdə tutulmuşdur. Bu tədqiqat metodu təhlil metodu ilə olduqca sıx bağlıdır, çünki həmişə fərdi analiz nəticələrini birləşdirən əsas element kimi mövcuddur. İstifadə edilən üçüncü metod isə müqayisəli metoddur. Bu metod vasitəsilə sonda analiz edilən tədqiqat işləri və ədəbiyyatlar qarşılaşdırılacaqdır. İstifadə etdiyimiz digər bir metod problemin aydınlaşdırılması metodudur. Dissertasiyanın yazılması zamanı məqsəd və vəzifələri təyin etmək üçün problemləri düzgün müəyyənləşdirmək və təhlil etmək vacibdir.

## Araşdırma modeli

Beynəlxalq münasibətlərlə bağlı müasir nəzəriyyələrin çoxsaylı təsnifatı mövcuddur. Bu təsnifatların bəzisində coğrafi meyarlar əsas götürülür və bunun əsasında da anqlo-sakson konsepsiyasına, bəzisində beynəlxalq münasibətlərə sinfi yanaşmaya, məsələn, sovet və Çin nöqteyi-nəzərindən izaha, digərlərində isə ("üçüncü dünya"nı təmsil edən ölkələrin müəllifləri) qlobal izah etmə metoduna üstünlük verirlər. Bu cür tipologiya çərçivəsində isveçrəli müəllif Filipp Brayar ümumi nəzəriyyələrə siyasi realizmi, tarixi sosiologiyanı və beynəlxalq münasibətlərin marksizm-leninizm nöqteyi-nəzərindən izahını aid edir. Bundan başqa, beynəlxalq münasibətlərin çoxlu xüsusi nəzəriyyələri mövcuddur ki, onların sırasına beynəlxalq aktorlar nəzəriyyəsi (Baqat Korani), beynəlxalq sistem çərçivəsində qarşılıqlı təsir nəzəriyyəsi (Corc Modelski, Samir Amin, Karl Kayzer), dünya strategiyaları, konfliktləri və tədqiq olunması nəzəriyyələri (Lüsyen Puarye, Devid Sinqer, Yoxan Qaltunq), inteqrasiya nəzəriyyələri (Amitai Etsioni, Karl Doyç), beynəlxalq təşkilatlar nəzəriyyəsi (İnis Klod, Jan Siotis, Ernst Xaast) daxildir.

Siyasi realizm (Q. Morqentau, R. Aron, X. Bal), bixeviorizm (D. Sinqer, M. Kaplan), klassik marksizm (K. Marks, F. Engels, V. Lenin), neomarksizm və ya "asılılıq" məktəbi (İ. Vallerstayn, S. Amin, A. Frank, F. Kardoza) kimi istiqamətləri ayırırlar. Buna oxşar formada da Daniel Kolyar "Təbii vəziyyət" klassik nəzəriyyəsinə (daha doğrusu, siyasi realizm), "beynəlxalq aləm" nəzəriyyəsinə (və ya siyasi idealizm), marksist ideoloji cərəyanına və onun çoxsaylı interpretasiyalarına, anqlo-sakson cərəyanına, beynəlxalq münasibətlərin fransız məktəbinə diqqət yetirir. Marsel Merl hesab edir ki, beynəlxalq münasibətlərlə bağlı müasir elmdə əsas istiqamətlər tradisionistlər (ənənəviçilər), yəni klassik məktəbin davamçıları (Hans Morqentau, Stenli Hoffman, Henri Kisincer), anqlo-sakson bixeviorizm və funksionalizm sosioloji konsepsiyaları (Robert Koks, Devid

Sinqer, Morton Kaplan, Devid İston), marksist və neomarksist cərəyanlarla (Pol Baran, Pol Suzi, Samir Amin) təmsil olunurlar. Beynəlxalq münasibətlərlə bağlı müasir nəzəriyyələrin müxtəlif təsnifatının nümunələrini artırmaq da olar.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin əsasını XX əsrin ortalarında ingilis tarixçisi E. Karr, ABŞ politoloqları N. Morqentau və R. Aron qoymuşlar. Onlar beynəlxalq münasibətlər nəzəriyyəsinə siyasi realizm düşüncəsi gətirərək, bu 21 münasibətlərin ümumi tənzimləmə mexanizminə malik olmaması, vahid mərkəzdən idarə olunmaması, hamı üçün məcburi normaların yoxluğu üzündən qeyri-sabit xarakter daşımasını əsaslı dəlillərlə sübuta yetirmişlər. Siyasi realizm cərəyanına görə, beynəlxalq münasibətlərin əsas subyektləri olan milli dövlətlər öz milli maraqlarını təmin etmək üçün başqa subyektlərlə beynəlxalq məkanda mübarizə aparır və hər bir subyekt öz gücünə görə məxsusi maraqlarını təmin edir. Bu səbəbdən beynəlxalq münasibətlərdə dövlətlərarası münaqişələr və müharibələr baş verir. Beləliklə, siyasi realistlər beynəlxalq münasibətlərin əsasına dövlətlərin fərqli milli maraqlarını və bu əsasda daim davam edən münaqişələri qoyaraq, vəziyyətdən çıxışı böyük dövlətlərin güc balansının (müvazinətin) yaranmasında görürlər (SSRİ və ABŞ arasındakı ideoloji-sinfi qarşıdurmanı və silahlanma yarışını əsaslandırırlar). Əlbəttə, siyasi realizm nəzəriyyəsi beynəlxalq münasibətlər haqqında ilk təkmil nəzəriyyə olmaq etibarilə uzun müddət (1945-1980-ci illər) həm siyasi dairələrin, həm də dünya elmi ictimaiyyətinin diqqət mərkəzində olmuşdur. 1980-ci illərin əvvəllərində beynəlxalq aləmdə siyasi realizm nəzəriyyəsinə yeni bir alternativ nəzəriyyə məktəbi opponentlik etməyə başlayır. “Neorealizm” adlanan bu nəzəriyyəni elmi ədəbiyyata Kenned Uols özünün “Beynəlxalq siyasət nəzəriyyəsi” adlı kitabı ilə gətirmişdir. K. Uols beynəlxalq münasibətləri vahid bir orqanizm - dövlətlərarası əlaqələr sistemi kimi xarakterizə edir.

**Analiz**

Müasir elmi və tədris ədəbiyyatında “dünya iqtisadiyyatı” və ya “dünya iqtisadiyyatı” anlayışının vahid şərhi yoxdur. İstər yerli, istərsə də xarici elmdə onun tərifinə müxtəlif yanaşmalar mövcuddur. Onlardan ən mühümləri fərqləndirilir: (4, Павлов, 2018)

– dünya iqtisadiyyatı - beynəlxalq əmək bölgüsü sistemi ilə bir-biri ilə bağlı olan milli iqtisadiyyatların məcmusudur. Bu tərif dünya iqtisadiyyatının milli iqtisadiyyatların cəmi kimi konsepsiyasına əsaslanır və tam deyil;

– dünya iqtisadiyyatı - dünya sənaye və maliyyə münasibətləri sistemi. Bu yanaşma dünya iqtisadiyyatının əsas komponentlərini - real istehsal sferasını və tədavül sferasını əks etdirir;

– dünya iqtisadiyyatı - milli-dövlət və qeyri-dövlət strukturlarının, habelə beynəlxalq əmək bölgüsü və siyasi əlaqələr əsasında onların qarşılıqlı əlaqəsinin məcmusu kimi (3, Чучулина Е, 2020).

Dünya iqtisadiyyatı bir sistem kimi malların, xidmətlərin, habelə iqtisadi resursların (istehsal amillərinin) hərəkəti ilə bir yerdə saxlanılır. Bu əsasda ölkələr arasında beynəlxalq iqtisadi əlaqələr yaranır (xarici iqtisadi əlaqələr, dünya iqtisadi əlaqələri). Onlar formalarına görə təsnif edilə bilər. Ənənəvi olaraq əmtəə və xidmətlərin beynəlxalq ticarəti ayrıca forma kimi seçilir. Beynəlxalq kapital hərəkəti, beynəlxalq əmək miqrasiyası, beynəlxalq bilik mübadiləsi kimi beynəlxalq iqtisadi münasibətlərin formalarının əsasında iqtisadi resursların (istehsal amillərinin) hərəkəti dayanır. İqtisadi resursların qalan hissəsinə gəldikdə isə təbii ehtiyatlar hərəkətsizdir və onların əsasında istehsal və istehlak olunan məhsulların beynəlxalq ticarəti vasitəsilə, demək olar ki, həmişə dolayı yolla dünya iqtisadi münasibətlərinə cəlb olunur. Sahibkarlıq qabiliyyəti kimi amil adətən kapital, əmək və innovasiya ilə birlikdə hərəkət edir və buna görə də beynəlxalq iqtisadi münasibətlərin ayrıca forması kimi çıxış etmir. Ayrı-ayrılıqda, beynəlxalq ticarətdən və iqtisadi resursların (xüsusilə kapitalın) hərəkətindən qaynaqlansa da, dünya iqtisadiyyatında daha böyük müstəqillik əldə etmiş beynəlxalq valyuta münasibətlərini ayrıca qeyd etmək lazımdır (6, Мальганова, 2014).

Beynəlxalq iqtisadi əlaqələr dünya ölkələri arasında ticarət, əmək miqrasiyası, kapitalın çıxarılması, beynəlxalq kredit, valyuta və elmi-texniki əməkdaşlıq üzrə əlaqələrdən ibarətdir. Beynəlxalq iqtisadi münasibətlərin formalaşma dövrlərinə aşağıdakılar daxildir (15, Хасбулатова, 2014):

– İki Dünya müharibəsi arasındakı dövr

(1920-1940);

– İkinci Dünya müharibəsindən sonrakı dövr (1945-1990);

– Beynəlxalq iqtisadi əlaqələrin müasir inkişafı dövrü (1990-cı ildən sonra).

Beynəlxalq iqtisadi münasibətlərin obyekt və subyektləri aşağıdakılardır (Cədvəl 1.1).

**Cədvəl 1: Beynəlxalq iqtisadi münasibətlərin obyektləri və subyektləri**

| BİM-in obyektləri | BİM-in subyektləri |
|---|---|
| – dünya ticarətində mal və xidmətlər;<br>– pul və əmək resursları;<br>– informasiya və texnologiya;<br>– ölkə əməkdaşlığı. | – dünya ölkələri və beynəlxalq təşkilatlar;<br>– transmilli şirkətlər, korporasiyalar, maliyyə institutları və<br>– banklar;<br>– beynəlxalq valyuta institutları;<br>– firma və müəssisələr, təsərrüfat subyektləri;<br>– elmi müəssisələr və mərkəzlər;<br>– fərdi |

**Mənbə:** *8, Əliyev Ş.T. 2015: s.28.*

Beynəlxalq iqtisadi münasibətlərin əsasını aşağıdakılar təşkil edir:

- beynəlxalq əmək bölgüsü;
- mal və xidmətlərin mübadiləsi;
- dünya bazarı və dünya ticarəti;
- transmilli şirkətlər;
- beynəlxalq valyuta-maliyyə münasibətləri;
- beynəlxalq sahibkarlıq və investisiya fəaliyyəti;
- beynəlxalq elmi-texniki əlaqələr;
- informasiya texnologiyaları və innovasiyaların mübadiləsi.

Müasir dünya iqtisadiyyatı xüsusi üzvi vahid sistem kimi XIX əsrin sonu - XX əsrin əvvəllərindən dünya bazarı əsasında formalaşmağa başladı. İndi dünya iqtisadiyyatından beynəlxalq və dünya iqtisadi əmək bölgüsünə, istehsalın və mübadilənin beynəlmiləlləşməsinə və inteqrasiyasına əsaslanan, bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərən qlobal iqtisadi sistem kimi danışmaq olar. Müasir dünya iqtisadiyyatı bütöv bir sistemdir, lakin bütövlük tədricən inkişaf edir. O, beynəlxalq əmək bölgüsünün təkamülü, dünya birliyinə daxil olan ölkələrin iqtisadi həyatının beynəlmiləlləşməsi prosesi, ölkə qruplarının sosial və iqtisadi proseslərin dövlətlərarası tənzimlənməsinin regional iqtisadi komplekslərinə (birliklərinə) inteqrasiyası ilə formalaşmışdır. Dünya iqtisadiyyatının tarixi milli dövlətlər arasında mübadilə fəaliyyəti və onun məhsulları ilə bağlı beynəlxalq əmək bölgüsü (BƏB) ilə başlayır. Ölkələr arasında əmək bölgüsü ictimai ərazi əmək bölgüsündə bir addımdır. O, ayrı-ayrı ölkələrin iqtisadi cəhətdən səmərəli istehsal ixtisaslaşmasına əsaslanır və müəyyən nisbətlərdə ixtisaslaşdırılmış istehsalın bir-birini əvəz etməsində nəticələri göstərir. Beynəlxalq əmək bölgüsü iki əsas formada mövcuddur: beynəlxalq ixtisaslaşma və beynəlxalq istehsal kooperasiyası (7, Aslanov, 2013).

Beynəlxalq ixtisaslaşma - bircins istehsalın təmərküzləşməsinin artmasının milli istehsalın mütərəqqi diferensiallaşmasına əsaslandığı ölkələr arasında əmək bölgüsü forması. Beynəlxalq əmək bölgüsündə ixtisaslaşma son nəticədə dünya bazarı üçün müəyyən məhsulların və hissələrin istehsalında ölkələrin və regionların ixtisaslaşmasını təmin edəcəkdir (2, Серова, 2017).

Beynəlxalq əmək bölgüsü nəzəriyyəsi öz əsaslandırmasını və inkişafını klassik siyasi iqtisad məktəbində, xüsusən onun yaradıcıları - Adam Smit və Devid Rikardonun əsərlərində alır. Klassiklərin əsas nailiyyəti istehsalın müqayisəli məsrəfləri nəzəriyyəsidir. Bu nəzəriyyənin əsasını müəyyən əmtəələrin istehsalı ilə bağlı xərclərdə ölkələrarası fərqlərin mövcudluğu ideyası təşkil edir. Bu vəziyyət belə qənaətə gəlməyə əsas verir ki, daha sərfəli tələbat olan bütün malların əvəzinə ən az xərc tələb edən əmtəə istehsalına diqqət yetirilsin. Bu məhsulun istehsalı üzrə ixtisaslaşma birja vasitəsilə xarici bazarlarda yerli istehsalı digər ölkələrlə müqayisədə daha çox məsrəf tələb edən mallar almaq imkanı verəcək. Ən böyük iqtisadi təsir üstünlük maksimum olan əmtəə istehsalı üzrə ixtisaslaşma olacaq. Əgər ölkə beynəlxalq səviyyədən aşağı xərclərlə hər hansı məhsul istehsal edə bilmirsə, o zaman beynəlxalq səviyyədən artıq olması ən aşağı maya dəyəri olan malların istehsalında ixtisaslaşmaq nisbətən səmərəli olar. İdeyalar klassiklərin həyatında öz əksini tapmış və müasir beynəlxalq ticarət nəzəriyyələrində daha da

inkişaf etdirilmişdir (11, Kozak., Shengelia, və b. 2014: 9).

Beynəlxalq münasibətlər nəzəriyyəsi kimi dünyada təkcə cərəyan (məktəb) statusu almış nəzəriyyələri deyil, eyni zamanda xüsusi nəzəriyyələri də qeyd edirlər. Belə nəzəriyyələr sırasına aşağıdakı tematik beynəlxalq münasibətlər nəzəriyyələrini aid etmək olar (9, Həsənov, 2005: 24):

- qlobal beynəlxalq sistem nəzəriyyəsi (bu nəzəriyyənin tərəfdarları beynəlxalq münasibətlər sistemini dövlətlərarası əlaqələrlə, dövlətlərin iyerarxik düzümü (böyük, orta və kiçik dövlətlər) və onlar arasındakı münasibətlərlə izah edərək belə iddia edir ki, dünya siyasəti yalnız böyük (super) dövlətlər arasındakı münasibətlərdən asılıdır);
- beynəlxalq birlik nəzəriyyəsi (bu nəzəriyyənin tərəfdarları da beynəlxalq münasibətləri əsasən dövlətlərarası əlaqə kimi xarakterizə edir və onların maraqlarındakı ümumi faktorları dünya siyasətinin əsasında duran hərəkətverici qüvvə kimi qiymətləndirirlər);
- dünya (qlobal) birliyi nəzəriyyəsi (bu nəzəriyyəyə görə, qloballaşma şəraitində dünya siyasətini milli dövlətlər deyil, qeyri-dövlət aktorları, transmilli birliklər və qlobal dünya əhalisi müəyyən edir);
- təhlükələr balansı nəzəriyyəsi (bu nəzəriyyəyə görə, dünyanı hərəkət etdirən, dünya siyasətini istiqamətləndirən əsas faktor dövlətlərin təhlükəsizliyi məsələsidir. Dövlətlər bir-biri ilə əlaqələrə, münaqişələrə, ittifaqlara və inteqrativ birliklərə də məhz təhlükələrin qarşısını almaq, balans yaratmaq məqsədi ilə daxil olur);
- humanitar müdaxilə nəzəriyyəsi (bu nəzəriyyəyə görə, dünyanı yalnız transmilli təşkilatların köməyi ilə, ümumbəşəri dəyərləri qorumaqla, ölkələrin daxili həyatına beynəlxalq müdaxilə (humanitar müdaxilə) yolu ilə idarə etmək, münaqişələrin və müharibələrin qarşısını almaq olar. Bu müdaxilənin qaydaları, şərtləri və hamı tərəfindən qəbul edilən normaları olmalıdır);
- beynəlxalq rejim nəzəriyyəsi (bu nəzəriyyəyə görə, dünyada vahid davranış, qanun, norma, prinsip və prosedur qaydaları işlənməli və ümumi beynəlxalq rejim şəklində beynəlxalq münasibətlərə və dövlətlərarası əlaqələrə tətbiq edilməlidir);
- antihegemon blok nəzəriyyəsi (bu nəzəriyyəyə görə, qloballaşma dövlətləri və xalqları qeyri-bərabər vəziyyətə salır ki, bu da beynəlxalq münaqişələrə səbəb olur. Onların fikrinə görə, insanların maraqları bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələrdə öz əksini tapdığına görə, heç bir dövlətin hegemonluğuna haqq qazandırmaq olmaz. Hegemonluq istismara yol açır ki, onun qarşısını almadan beynəlxalq münasibətləri münaqişələrdən xilas etmək olmaz).

Göründüyü kimi, beynəlxalq münasibətlər nəzəriyyəsi istər cərəyanlar, istərsə də fərdi formada müxtəlif istiqamətlər üzrə beynəlxalq aləmin reallıqlarını, dövlətlərarası əlaqələrin müxtəlif aspektlərini, beynəlxalq münasibətlərin subyekt və obyektlərini hərtərəfli təhlil edir. Bu nəzəriyyələrin əksəriyyəti bir-birindən qidalanır, bir-birini bu və ya digər təlimlər üzrə təkrar edir və tamamlayır. Əlbəttə, beynəlxalq münasibətlər nəzəriyyəsinin bütün cərəyanlarına, onların oxşar və fərqli cəhətlərinə, dünya siyasətinə yanaşmalara və bu yanaşmaların mahiyyətinə, meyarlarına bu məqalədə geniş nəzər salmaq qarşıya qoyulan vəzifələr sırasına daxil deyil. Ümumiyyətlə, beynəlxalq münasibətlər nəzəriyyəsi ayrıca bir fənnin proqramı çərçivəsində tədris olunduğundan, bu nəzəriyyələr haqqında qısaca icmal verməklə kifayətləndik. Çünki beynəlxalq münasibətlər nəzəriyyələri haqqında ümumi təsəvvürə malik olmadan, bu elmin başqa sahələrinə giriş çox çətin və demək olar ki, qeyri-mümkündür.

Dövlətlərin iqtisadi siyasətinin tənzimlənməsi həm regional, həm də beynəlxalq aspektlərdə baş verir və beynəlxalq özəl və ictimai hüquq normalarına əsaslanır. Bu hüquqlara dövlətlər, hüquqi və fiziki şəxslər, iqtisadi birliklər arasında iqtisadi münasibətlər təsir edir. Müəyyən edilmiş normalar adi və şərti olaraq bölünür. Normalara əməl olunması həm dövlətlərin özləri, həm də beynəlxalq hüquq normalarına əməl olunmasına kollektiv şəkildə nəzarət edən beynəlxalq regional təşkilatlar tərəfindən təmin edilir. İqtisadi əlaqələr isə getdikcə mürəkkəbləşir, buna görə də müəyyən dövlətlər arasında müvafiq beynəlxalq qaydalar və normalar dəyişir (13, Луковникова, 2018).

Qeyri-hökumət təşkilatları dünya iqtisadi əlaqələrinin tənzimlənməsində, onların inkişafına köməklikdə mühüm rol oynayır. Əsasən bunlar sahibkarların birlikləridir:

- Beynəlxalq Ticarət Palatası;
- əmtəə ixracatçıları və istehsalçıları birliyi;
- qeyri-hökumət təşkilatları tərəfindən yaradılmış inkişaf fondları;
- iqtisadi siyasətin əlaqələndirilməsi məqsədilə

müxtəlif ölkələrin sahibkarları tərəfindən keçirilən konfranslar və "dəyirmi masa"lar;

- beynəlxalq biznes qaydalarının inkişafı.

Müasir mərhələdə beynəlxalq tənzimləmənin əsas vəzifələri aşağıdakılardır (Cədvəl 2):

**Cədvəl 2: Beynəlxalq tənzimləmənin əsas vəzifələri**

| № | |
|---|---|
| 1 | dünya iqtisadiyyatının inkişafında və pul-maliyyə sferasında sabitliyin təmin edilməsi |
| 2 | ölkələr arasında müxtəlif formalarda iqtisadi əməkdaşlığın formalaşması, ölkələr və qruplar arasında ticarət-iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılması |
| 3 | fərdi sahibkarlığın inkişafına köməklik göstərilməsi |
| 4 | konkret ölkədə və ya dünya bazarında böhrandan çıxmaq üçün konkret tədbirlərin təsdiqi |
| 5 | ayrı-ayrı regionların iqtisadi inteqrasiyası istiqamətində qərəzsiz tendensiya ilə əlaqədar olan dövlətlərin makroiqtisadi siyasətlərinin əlaqələndirilməsi |

***Mənbə:*** *14, Шумилов В. М., Гудков И. В., Мауленов К. С., Шумилов Ю. В. ; под ред. Шумилова В.М. 2019*

Beynəlxalq iqtisadi təşkilatlar dövlətlərarası iqtisadi münasibətlərin bütün tərəflərinə həlledici təsir göstərirlər. Beynəlxalq hüquqi tənzimləmənin inkişafında BMT-nin hökumətlərarası təşkilatları xüsusi əhəmiyyət kəsb edir. Onlar öz fəaliyyətləri zamanı milli hüquq sistemlərinə və dövlət qanunvericiliyinə mühüm təsir göstərən mexanizmlər və normalar hazırlayırlar. Beynəlxalq iqtisadi təşkilatların məqsəd və funksiyaları aşağıdakılardır (12, Ломакин, 2006):

- beynəlxalq iqtisadi münasibətlərin ən mühüm problemləri üzrə tədqiqat və tədbirlər görmək;
- valyutanın sabitləşməsinin təmin edilməsi;
- ticarət maneələrinin aradan qaldırılmasına və dövlətlər arasında geniş mal mübadiləsinin təmin edilməsinə yardım;
- texnoloji və iqtisadi tərəqqiyə kömək etmək üçün şəxsi kapitala əlavə olaraq vəsaitlərin ayrılması;
- əmək münasibətlərinin və əmək şəraitinin yaxşılaşdırılmasının stimullaşdırılması;
- dünya iqtisadi münasibətlərinin tənzimlənməsi çərçivəsində qərar və tövsiyələrin təsdiqi.

Qeyd etmək olar ki, beynəlxalq hökumətlərarası təşkilatlar obyektiv zərurət əsasında dövlətlər arasında çoxşaxəli əməkdaşlığın təşkilati formaları kimi yaradılır. Bu təşkilatlar, ilk növbədə, beynəlxalq iqtisadi əlaqələrin inkişafı ehtiyacları ilə müəyyən edilir. Beynəlxalq tənzimləmənin əsas istiqamətləri vardır:

**Sxem 1: Beynəlxalq tənzimləmənin əsas istiqamətləri**




***Mənbə:*** *14, Шумилов В. М., Гудков И. В., Мауленов К. С., Шумилов Ю. В. ; под ред. Шумилова В.М. 2019*

Geniş mənada beynəlxalq iqtisadi hüquq, bu iqtisadi əməliyyatların bir dövlətin hüquq sistemindən kənara çıxması şərti ilə istənilən növ iqtisadi əməliyyatları tənzimləyən qaydalar məcmusudur. Məhdudlaşdırıcı mənada beynəlxalq iqtisadi hüquq beynəlxalq iqtisadi münasibətləri tənzimləyən beynəlxalq hüquq normalarının məcmusudur. Bu yanaşma ilə aşağıdakılar tənzimlənir: malların, investisiyaların, maliyyənin, işçi qüvvəsinin transsərhəd hərəkəti ilə bağlı ictimai şəxslər (dövlətlər, beynəlxalq təşkilatlar) arasında münasibətləri, yəni, maddi və qeyri-maddi nemətlər və ya geniş mənada resurslar (10, Musayev, 2006).

Beynəlxalq iqtisadi hüququn təkamülü beynəlxalq ticarət hüququndan başlayıb və ilk növbədə, beynəlxalq investisiya hüququna doğru davam edir. Müasir dövlətlər beynəlxalq xüsusi hüquq münasibətlərində fəal iştirak edirlər. Belə ki, dövlətlər (dövlət orqanları) beynəlxalq alqı-satqı müqavilələri, iş müqavilələri və s. xarici hüquqi şəxslərlə, beynəlxalq təşkilatlarla isə qəbul edən ölkənin hüquqi şəxsləri ilə. Bu cür beynəlxalq iqtisadi münasibətlər üçün dövlət toxunulmazlığı problemi həmişə aktual olmuşdur. Dövlətin toxunulmazlığı ondan ibarətdir ki,

bir dövlət digər dövlətin məhkəməsinə tabe deyil. İctimai hüquq münasibətlərində hüquq münasibətinin hər iki tərəfi dövlət toxunulmazlığına malikdir. Qərb hüquq nəzəriyyəsi "parçalanma toxunulmazlığı" ("funksional immunitet") doktrinasını işləyib hazırlamışdır. Onun mahiyyəti ondan ibarətdir ki, suverenlik funksiyalarını həyata keçirmək üçün xarici fiziki/hüquqi şəxslə mülki-hüquqi müqavilə bağlayan dövlət (məsələn, səfirlik binasının tikintisi) bu immunitetlərə malikdir. Eyni zamanda, əgər dövlət kommersiya məqsədi ilə xüsusi şəxslə belə bir müqavilə bağlayırsa, o zaman o, hüquqi şəxsə bərabər tutulmalı və müvafiq olaraq immunitetlərdən istifadə etməməlidir (5, Пономарева, 2017).

**Nəticə**

Aparılan tədqiqatlar göstərir ki, müasir dövrdə qloballaşma meyli daha qabarıq nəzərə çarpır. Qeyd etdiyimiz kimi, müasir dövrdə qloballaşma dünya iqtisadiyyatının inkişafında keyfiyyətcə yeni mərhələ olmaqla vahid qlobal bazarın yaranmasına xidmət edir. Hazırda qloballaşma iqtisadi həyatın bütün sferalarını, o cümlədən elmi-tədqiqat, sənaye, xidmət, maliyyə və s. sahələri əhatə edir. Tədqiqatlar göstərir ki, artıq qlobal inteqrasiyanın qarşısını heç bir regionallaşma meyli ala bilmir. Əksinə, regional inteqrasiyanın sürətlənməsində bir amil kimi çıxış edir. Belə ki, dünyanın müxtəlif bölgələrində yaranan regional və regionlararası iqtisadi birliklər qloballaşma prosesinin-dərinləşməsi üçün şərait yaradır. Doğrudan da, müasir regional blokları nəzərdən keçirsək, heç də onların "möhkəm qala" olmadığını görərik. Onlar digər ölkələr üçün də açıqdırlar. Bunun bariz nümunəsi kimi Avropa İttifaqını göstərmək olar. Əgər fəaliyyətinin ilk dövrlərində bu birlikdə cəmi 6 ölkə birləşirdisə, hal-hazırda onun 27 üzvü vardır və digər Avropa ölkələri də bu birliyə üzv olmağa çalışırlar. Eyni zamanda, nəzərə almaq lazımdır ki, regional birliklər region daxilində özünü təminat üçün deyil, beynəlxalq ticarətdən daha çox gəlir götürmək məqsədilə yaradılırlar.

**Açar sözlər:** *iqtisadiyyat, beynəlxalq, ticarət.*

## ƏDƏBİYYAT SİYAHISI

***Məqalə***

*1. Relations .- Edited by Yuriy Kozak, Temur Shengelia - Tbilisi : Publishing House "Universal",- 224 pp.*

*2. Серова Д. Б. Клопот Е.А. (2017). Протекционизм и свободная торговля в международных экономических отношения // Роль Евразийского экономического союза в глобали-зации российской экономики: Сборник статей по итогам Международной научно - практической конференции. Стерлитамак,- стр. 292.*

*3. Чучулина, Е.В. (2020). Мировая экономика и международные экономические отношения. Пермский государственный национальный исследовательский университет. - Электронные данные. – Пермь, 171 стр.*

*4. Павлов К. Экономические взаимосвязи между приграничными регионами: внутреннее и внешнее приграничье// Проблемы теории и практики управления.. 2018, № 1. - стр. 33-42.*

*5. Пономарева, Е. С. (2017). Мировая экономика и международные экономические отношения // Экономический журнал Пермского государственного университета, 425 стр.*

*6. Мальганова И.Г. (2014). Мировая экономика и международные экономические отношения Казань 253 стр.*

***Kitablar***

*7. Aslanov, H. H., (2013). Beynəlxalq iqtisadi münasibətlərin qlobal aspektləri və tənzimlənməsi xüsusiyyətləri. Bakı Universitetinin Xəbərləri, №4, Sosial-siyasi elmlər seriyası, səh.100-108.*

*8. Əliyev, Ş.T. (2015). Azərbaycanın xarici iqtisadi siyasəti. Dərs vəsaiti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 185 səh.*

*9. Həsənov, Ə.M. (2005). Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 631 səh.*

*10. Musayev, A. (2006). Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarlarına inteqrasiyası. Bakı, 420 səh.*

*11. Kozak, Y., Shengelia, T., Sporek, T., Lebedeva, S., Gribincea, A., Kozak, A., Kravchenko, I., Zakharchenko, O., Aliabieva, D. (2014). An Introduction to International Economic.*

*12. Ломакин, В. (2006). Мировая экономика. М., 620 стр.*

*13. Луковникова Н. С. (2018), К вопросу о внешней торговле в свете развития международных экономических отношений., 215стр.*

*14. Шумилов, В. М., Гудков И. В., Мауленов К. С., Шумилов Ю. В. ; под ред. Шумилова В.М. (2019). Подробнее Международное экономическое право, с.545.*

*15. Хасбулатова, Р. И. (2014). Международная*

*торговая политика: учебник для бакалавриата и магистратуры / под ред.. - М. : Издательство Юрайт, 597 стр.*


**РЕЗЮМЕ**

Мировая экономика- это в основном общая совокупность отношений между национальными экономиками отдельных стран и внешним миром. Следует отметить, что под влиянием бурного развития мировой хозяйственной системы и происходящих в мире глобальных экономических преобразований большинство отраслей национальных экономик отдельных стран связаны внешнеторговыми и экономическими связями. Это позволяет говорить о том, что мировая экономика в целом состоит из внешнеэкономических связей национальных экономик отдельных стран. Система мирового хозяйства это сложная система основанная на международных экономических отношениях (экономические отношения, мировые экономические связи и др.). Эти отношения возникают между предпринимательскими субъектами, юридическими и физическими лицами (резидентами и нерезидентами) различных стран.

Благоприятное развития мировой экономики для всех стран зависит от ряда факторов и условий. Торговля среди них играет важную и решающую роль. Влияние торговли на экономику многогранно. Развитие и расширение мировой экономики как единого организма требует установления и ускорения всестороннего сотрудничества между странами. Исторически развитию международной торговли способствовало решение таких вопросов. Торговля способствует решению очень важной проблемы для развития подсистем мировой экономики как "приобретения знаний". Развитие торговли закладывает знания таким образом, чтобы все страны могли их приобрести. Мировая торговля даёт возможность странам, занимающимся торговлей, знакомится с новыми методами, технологиями, научными открытиями, передовым опытом, интенсивно созданными ноу-хау, созданными во всем мире. Степень участия мировых подсистем в международной торговле в конечном итоге отражается в двух важных показателях- объемах импорта и экспорта. Улучшение обоих этих показателей может привести к оптимальному развитию экономик как стран-экспортеров, так и стран-импортеров. Экспорт и импорт Создаёт условия для современной техники, технологий, методов работы и так далее. Информация должна быть доступна через получателей и грузоотправителей.


**Ключевые слова:** *экономика, международный, торговля.*


**SUMMARY**

The world economy is mainly aggregate of relations between individual countries' national economies and external world. It should be noted that, the rapid development of world economy system and globalization in world is related with the most areas of individual countries' national economies and external trade-economic relationship. This allows to say that, totally world economy basically consists of international economic relations of individual countries' national economies. World economy system is complex system based on international economic relations (economic relations, world economic relationships and etc.). This relationships are created between different countries' business entity, juridical and and natural persons (residents and non-residents).

The affordable development of world economy for all country is depend on some factors and conditions. Between them, trade is important and decisive. The impact of trade to economy is many-field. The growth and expansion of world economy as unit organism requires to make and accelerate comprehensive relationship among countries. Historically development of international trade had helped to solve such issues. The trade contributes to solve that problem which is "to get a knowledge" and this problem is very important to progress subsystem of world economy. World trade creates opportunity to countries which is engaged in trade for being acquinted with new metods, technology, scientific discovery, advanced experience, know-how that created intensively in all world. The degree of the World subsystems' participation in international trade is reflected in two important indicators in a final result – the volume of import and export. If two of this indicators are improved, both exporting and importing country's economies may improve. Export and import create condition for modern technique, technology, work methods and etc. İnformation must be gotten by means of receivers and consignors.


**Key words:** *economy, international, trade.*

# Fəlsəfə və Sosiologiya

UOT 7203.01

## MULTİKULTURALİZM MƏDƏNİ DİALOQ KONSEPTİ KİMİ

**NƏRMİNƏ QASIMOVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin baş müəllimi*
*E-mail: narmina_gasimova@mail.ru*

Çoxmədəniyyətli cəmiyyətdə mədəni plüralizm konsepti eyni müstəvidə fəaliyyət göstərən müxtəlif mədəniyyətlərə tolerant münasibət, fərqli mənşəyə malik insanların birgəyaşayışının təmin edilməsi şəraitində ən yaxşı nümunə kimi istifadə olunur. Mədəni plüralizmin kökləri çox qədimdir. Heç bir xalq, millət və mədəniyyət öz-özünə, təkcə yarana bilməz. Mədəniyyətin inkişafı müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsindən, bir-birinə nüfuz etməsindən və sintezindən asılı bir prosesdir. Mədəni universallıq sivilizasiyaların inkişafını təmin edir.

Müasir cəmiyyətdə mədəni universallıq müxtəlif mədəni ənənələrin qlobal sivilizasiya kontekstində kreativ dialoqudur. Mədəni plüralizm prinsipləri mədəni postmodernizmin əsas qayəsidir və mədəni əlaqələrin inkişaf etdirilməsi zamanın tələbidir. Multimədəni, yaxud mədəni plüralist bir cəmiyyətdə hər şeydən əvvəl aparıcı hakim bir mədəniyyət yoxdur və burada “mədəniyyət” anlamı “etnos” anlamı ilə əlaqələndirilmir. Burada “özünün” və “özgənin” mədəniyyəti deyə anlamlar itir. Eyni zamanda, bu, etnik müxtəliflikdən, mədəni rəngarənglikdən daha çox, həyat tərzlərinin, mədəni plüralizmin əsas ideyası ayrı-ayrı identik mədəniyyətlərin paralel şəkildə mövcudluğu deyil, qarşılıqlı əlaqədə olması, bir-birinə təsir göstərməsi və transformasiyasıdır [4].

Cəmiyyətlərin və mədəniyyətlərin yaxınlaşması prosesi fonunda siyasi-mədəni cəmiyyətdə milli-mənəvi dəyərlər önə çəkilir. Dünya mədəniyyəti ilə tanışlıq, müxtəlif dinlərə sitayiş, digər etnosların adət-ənənələrinə hörmət mənəvi dəyərlərin zənginləşməsinə səbəb olur və çoxmillətli mədəni sferada yaşam tərzini formalaşdırır ki, bu da, öz növbəsində müasir cəmiyyətdə mədəni plüralizmi yaradır. Dünya mədəniyyəti anlayışı humanist prinsiplərin mövcudluğu üçün baza rolunu oynamaqdadır. Mədəniyyətlərin dialoqu, mədəni plüralizm geniş kütlə tərəfindən qəbul edildikdə, nəzəriyyədən praktikaya keçərək bir çox cəmiyyəti narahat edən məsələlərin həllinə şərait yaradır.

Qloballaşan cəmiyyətdə insanlar miqrasiyaya uğrayaraq müxtəlif mədəniyyətlərlə tanış olurlar və bu halda mədəni dialoq üçün mövcud şərait yaranmış olur. Təbii ki, sivil cəmiyyətdə istənilən mədəniyyət qarşılıqlı anlayışla qəbul edilməli və fərqli mədəniyyətlərin bir-birinə hörmət etməsinə, anlaşmasına şərait və zəmin yaradılmalıdır. Fərqli etnosların və etnik mədəniyyətlərin mübadiləsi və dialoqu daha intensiv xarakter alaraq beynəlxalq mədəni dialoqlara ehtiyacı daha da artırır. Beləliklə də siyasi-mədəni cəmiyyətdə milli-mənəvi dəyərlərin önəm daşıması dünya mədəniyyəti ilə tanışlıq, müxtəlif dinlərə sitayiş, digər etnosların adət-ənənələrinə hörmət mənəvi dəyərlərin zənginləşməsinə, habelə, çoxmillətli mədəni cəmiyyətdə multikultural diskurslara şərait yaradır.

Müasir dünyada baş verən sosial-mədəni proseslər fonunda etnoslar arasındakı qarşılıqlı anlaşma mədəni dialoqun bütün prinsiplərini özündə ehtiva edərək mədəniyyətlərin dialoqunun nəzəriyyədən praktikaya tətbiqi alternativsiz multikulturalizm siyasətinin tətbiqini aktuallaşdırır.

Cəmiyyətin mədəni inkişafı mədəniyyətlərarası dialoqun müsbət yöndə inkişafına zəmin yaradır. Müxtəliflikdə birlik konsepsiyasına əsaslanan multikulturalizm siyasəti etnik mədəni müxtəlifliyin tənzimlənməsinə xidmət etməklə bərabər sivilizasiyaların və qütblərin yaxınlaşmasını da nəzərdə tutur.

Polietnik cəmiyyətlərdəki etnik-mədəni müxtəlifliklər tanındıqda və qorunduqda onlar arasında dialoq və əməkdaşlıq münasibətləri formalaşır ki, bu da cəmiyyətdə siyasi sabitliyin və dinamik inkişafın əsas qarantıdır. Müxtəliflikdə birliyə əsaslanan cəmiyyət etnik- mədəni müxtəlifliyə münasibətdə tolerantlıq nümayiş etdirməklə yanaşı fərqli mədəniyyətlərin birləşməsinə və onlar arasında qarşıdurma təhlükəsinin aradan qaldırılmasına , həmçinin mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə səbəb olur. Multikulturalizm siyasətinin tətbiq olunduğu cəmiyyətlərdə dini radikalizm, dini ekstremizm, islamafobiya, antisemitimzm meyilləri öz fəaliyyətini məhdudlaşdırır və demək olar ki, ictimaiyyət tərəfindən dəstəklənmir və zaman-zaman dayaqlarını itirir. Dini dözümlülüyün hakim olduğu cəmiyyətlərdə insanlar doğru olaraq yekdil ideya ətrafında birləşərək bütün dinlərin bəşəriyyəti və insanları ülvi niyyətlərə sövq etdiyini anlayırlar. Təbii ki, dini dözümlülük faktı da mədəniyyətlərin yaxınlaşma-

sının və dialoqunun zəruri şərtlərindəndir.

Qloballaşma şəraitində dünyada intensiv mədəni dialoqla bərabər qarşılıqlı mübadilə də mövcuddur ki, bu da özlüyündə interkulturalizmin təşəkkülünə, sivilizasiyaların yaxınlaşmasına zəmin yaradır. Belə ki, ölkələrin yaxınlaşması elm və təhsil sahəsində mübadilədə, iqtisadi əlaqələrin inkişafında, qlobal problemlərin həllində ümumi nailiyyətlərin əldə olunmasına xidmət göstərir.

Çoxmədəniyyətli cəmiyyətdə mədəni plüralizm konsepti eyni müstəvidə fəaliyyət göstərən müxtəlif mədəniyyətlərə dözümlü münasibət, fərqli insanların birgəyaşayışının təmin edilməsi şəraitində ən yaxşı təcrübə kimi istifadə olunur. Mədəni universallıq sivilizasiyaların inkişafını təmin edən əsas amillərdəndir və müasir cəmiyyətdə multikulturalizm siyasəti mədəni ənənələrin qlobal sivilizasiya kontekstində kreativ dialoqunun təminatçısıdır.

Mədəniyyətlərin müxtəlifliyi heç də bəşəriyyəti, sivil cəmiyyətləri narahat etməməlidir. Hər hansı bir xalqın mədəniyyəti digər bir xalq və ya millət üçün qəbuledilməz olsa belə, ona hörmətlə yanaşılmalıdır. Müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsindən Ellinizm, Əndəlüz, Sovet mədəniyyətləri kimi zəngin və fərqli yeni mədəniyyətlər yaranır. Çoxmədəniyyətli cəmiyyətin etnik cəhətdən inkişafı üçün bu məsələnin əhəmiyyətli olmasına baxmayaraq, mədəni müxtəliflik qloballaşan dünyada bir çox inkişaf etmiş dövlətlərdə heç də yekdilliklə dəstəklənən siyasi kurs deyildir. Lakin, bu da bir faktdır ki, bu gün əksər dünya dövlətləri bu və ya digər dərəcədə kultural müxtəlifliklə qarşılaşmışlar. Bu isə, öz növbəsində, mədəni müxtəlifliyi doğuran əsas şərtlərdəndir.

Tolerantlıq, dini dözümlülük müasir sivilizasiyada insanların təhlükəsiz şəraitdə yaşamasının ən mühüm şərtlərindən biridir. Tolerantlığın tərkib hissəsi olan multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri vasitəsidir. Fərqli mədəniyyətlərin mahiyyətini, xarakterik əlamətlərini, tarixini öyrənmədən digər mədəniyyətlərə qarşı tolerant münasibət, onların daşıyıcılarına hörmət bəsləmədən mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq mümkün deyil. Demokratiyanın fundamental prinsiplərindən biri kimi digər mədəniyyətlərə münasibətdə etnik, dini, siyasi dözümlü davranış tərzi liberal cəmiyyətin nail olmaq istədiyi əsas nailiyyətdir.

Bu gün müasir dünyada intensiv mədəni dialoqla bərabər qarşılıqlı mübadilə də mövcuddur ki, bu da özlüyündə qarşılıqlı mədəni fəaliyyətə, mədəniyyətlərin yaxınlaşmasına münbit şərait yaradır. Sivilizasiyaların yaxınlaşması sonda həm də iqtisadi birlik üçün əhəmiyyətlidir. Belə ki, ölkələrin yaxınlaşması elm və təhsil sahəsində, qlobal problemlərin həllində ümumi nailiyyətlərin əldə olunmasına xidmət göstərir. Tolerantlıqla həmahəng olan multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri vasitəsidir.

Müasir qloballaşan dünyada mədəniyyətlərarası sərhədlərin ləğv edilməsi, tolerantlıq problemi, yeni inteqrativ ideyalar, müxtəlif mədəniyyətlərin dialoqu fonunda səylərin əldə olunması modern cəmiyyətləri narahat edən aktual problemlərdəndir. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri vasitəsidir.

Multikulturalizm siyasətinin düzgün aparılmasının nəticəsində cəmiyyətdə yaranan sosial fraqmentasiya, dezinteqrasiya hallarının qarşısını almaq üçün etnik, irqi, dini və mədəni qrupların nümayəndələri arasında dialoq və əməkdaşlıq münasibətləri inkişaf etdirilməlidir. Bu isə interkulturalizmlə bağlıdır. Əgər multikulturalizm etnik-mədəni müxtəlifliyin tanınmasına və qorunmasına yönəlmişdirsə, interkulturalizm bu müxtəlifliyi tanımaqla və qorumaqla yanaşı onlar arasında dialoq və əməkdaşlığın inkişafına böyük önəm verir. Bu isə öz növbəsində çoxmədəniyyətli cəmiyyətlərdə inteqrasiya proseslərini gücləndirir [3].

Hazırki şəraitdə inkişaf edən müasir cəmiyyət müxtəlif mədəniyyətlərin vahid müstəvidə fəaliyyətinin məcmusu kimi təzahür etməkdədir. Ümummədəni müstəvidə mədəniyyətlərarası dialoq prosesi kompromiss məzmuna malik variantdır. Cəmiyyətin tarixi inkişaf modelinə multikulturalizm fenomeni nöqteyi-nəzərindən yanaşsaq, qloballaşma kontekstində mədəni konsensus müasir dünyanın hərtərəfli tərəqqisinə və siyasi problemlərin müsbət yöndə həllində ən düzgün təcrübədir.

Qloballaşma dünya xalqlarının anlaşmasına və mədəniyyətlərin həmrəyliyinə multikultural aspektdən yeni yanaşma tələb edir. Bu proses müxtəlif ölkələrin mədəniyyətlərinin, cəmiyyətlərinin, iqtisadiyyatlarının beynəlmiləl kontekstdə yaxınlaşmasını tələb edir. Yalnız multikultural və tolerant məfkurələrin harmonik mövcudluğu şəraitində dünya xalqlarının, etnosların, mədəni-etnik qrupların birgəyaşayışı mümkündür.

Multikulturalizm etnik-mədəni müxtəlifliyi tənzimləmə siyasəti və müxtəlif mədəniyyətlərə hörmətlə yanaşma metodu olmaqla bərabər, özündə həm də humanizm və tolerantlıq prinsiplərini ehtiva edir. Bu siyasətin əsasını təşkil edən mədəni plüralizm və mədəni dialoq cəmiyyəti təşkil edən ayrı-ayrı qrupların harmonik qarşılıqlı fəaliyyətini tənzimləyir, müəyyən ərazidə məskunlaşan xalqların alt və ya asılı kimi kateqoriyalara bölünməsinin qarşısını alır. Beləliklə də,

cəmiyyət onu təşkil edən müxtəlif etnik qrupları və mədəniyyətləri, habelə onların mənsub olduqları dinləri necə varsa, eləcə də qəbul edir.

Multikulturalizm strategiyası polietnik tərkibli dövlətlərdə etnik qruplar arasında tolerant münasibətə əsaslanır. Multikulturalizmin pozitiv istiqaməti heterogen cəmiyyətdə konstruktiv mədəni dialoqun reallaşmasına zəmin yaradır. Bu hal ümummilli identikliyin zəifləməsi deyil, əksinə etnomədəni azlıqların aid olduqları müstəvidə daha tez adaptasiya olmalarına müsbət şərait yaradır [5].

Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqa malikdir. Cəmiyyəti assimiliyasiyadan inteqrasiyaya aparan bu konsepsiya əhalinin müxtəlif təbəqələri ilə yanaşı milli və dini azlıqlar tərəfindən də rəğbətlə qarşılanır. Mədəni inteqrasiya siyasətinin hərtərəfli konsepsiyasının olmaması və həyata keçirilməməsi nəticəsində “qeyri-adaptiv strateqiya sosial-siyasi sabitliyə təhlükə yaradır”[2].

Milli mədəniyyətlər ümumbəşəri və ortaq dünya mədəniyyətinin tərkib hissəsidir. Bəşər sivilizasiyasının mövcud olması dünyanın humanist və harmonik inkişafından asılıdır. Mədəniyyətlərin milliliyinin və ümumbəşəriliyinin vəhdəti yalnız multikultural cəmiyyətdə mümkündür.

Qloballaşan dünyada multikulturalizm siyasəti etnik-mədəni müxtəlifliyin tənzimləmə siyasəti və mədəniyyətlərarası dialoq konsepti kimi təzahür edir. Müstəqil Azərbaycan Respublikasında da multikulturalizm siyasəti uğurla həyata keçirilir. Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması və ölkə ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının təmin edilməsi demokratik prinsiplər əsasında həyata keçirilir.

Azərbaycanda multikulturalizm siyasətinin uğurla həyata keçirilməsində Prezident İlham Əliyevin mühüm xidmətləri vardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin multikulturalizm siyasətinə yüksək önəm verməsi dövlətin həm daxili, həm də xarici siyasətində özünü büruzə verir və bu məqsədyönlü siyasətin nəticəsidir ki, Azərbaycan multikulturalizmin və tolerantlığın ünvanına çevrilmişdir.

Prezident İlham Əliyevin multikulturalizm haqqında söylədiyi fikirdə bu siyasətin əhəmiyyəti bir daha vurğulanmışdır: “Multikulturalizm siyasəti müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir” [1].

**Açar sözlər:** *multikulturalizm, mədəniyyət, plüralizm, dialoq, sivilizasiya, subkultura, tolerantlıq, etnos, etnik azlıqlar, etnik-mədəni müxtəliflik, interkulturalizm.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Əliyev İ. “Azərbaycan tolerantlıq örnəyidir” (çıxışlar, nitqlər, görüşlər, təbriklər) , s. 242, Bakı 2015*

*2. Михайлов.С.В «Этническая миграционные волны и проблемы социально-политической стабильности», с. 38, Москва 1995*

*3. Multikulturalizmə giriş, s.271 , Bakı 2019*

*4. Хантигтон.С.С «Столкновение цивилизаций», с.248, Москва 2004*

*5.Усовская.Е.А «Мультикультурализм как теория и практика мультикультуральной каммуникации» elib.bsu.by*

## РЕЗЮМЕ

Главная цель межкультурного диалога разных нации состоит из взаимопонимания, уважения цивилизации других народов. Мультикультурализм усиляет культурные связи и идею соотношения. Мультикультурализм побеждает в том обществе, в котором субкультуры считаются богатством народа. Мультикультурализм является неотемлемой частью Азербайджанского общества и многих общин, вошедших в глобальный процесс. Президент Ильхам Алиев успешно проводит политику мультикультурализма.

**Ключевые слова:** *мультикультурализм, культура, плюрализм, диалог, цивилизация, субкультура, толерантность, этнос, этнические меншества, этно-культурные разнообразия, интеркультурализм.*

## SUMMARY

The important aim of the dialogue between cultures consists of understanding and respecting the culture of civilization of the opposite side and accepting it. Multiculturalism intensify cultural relations and the idea of correlation. If any society considers subcultures wealth of its people, there. Multiculturalism is wins an integral part of Azerbaijan society and a lot of communities which have joined the global processes. President Ilham Aliev successfully pursue policy of multiculturalism.

**Keywords:** *multiculturalism, culture, pluralism, dialog, civilization, subculture, tolerance, ethnos, ethnic minorities, ethnic cultural diversity, interculturalism.*

UOT: 316: 316.04

# MODERNLEŞMEYLE BİRLİKTE DEĞİŞEN AİLE YAPISI: GELENEKSEL AİLEDEN ÇEKİRDEK AİLEYE GEÇİŞ

**TÜRKAN BAĞIRZADƏ**
*Samsun On dokkuz Mayıs Universitetinin magistri,*
*Körfez, 19 Mayıs Ünv., 55270 Atakum/Samsun, Türkiyə*
*E-mail: trkn_22@outlook.com*

Toplumların yapılarını oluşturan, toplum içindeki yapıları belirleyen belirli kurumlar vardır. Bu kurumlar da kendi aralarında belli başlı işlevleri yerine getirir. Bunlardan birisi de aile kurumudur; zamanla ailenin işlevi değişiklik göstermiş, eski fonksiyonlarının, yapısının yerini yenileri almıştır. Bu gibi değişiklikleri anlamak için öncelikle aileyi tanımlamak gerekmektedir. Ailenin tanımını yapacak olursak birçok tanımın varlığından bahsetmemiz gerekiyor. En genel tanımıyla aile, biyolojik ilişkiler sonucu insan neslinin devamını sağlayan, toplumsallaşma sürecinin ilk ortaya çıktığı, karşılıklı ilişkilerin belirli kurallara bağlandığı, o günedek toplumda oluşturulmuş maddi ve manevi zenginlikleri kuşaktan kuşağa aktaran; biyolojik, psikolojik, ekonomik, toplumsal, hukuksal vb. yönleri bulunan toplumsal bir birimdir (Sayın, 1990; 2). Aile, sosyoloji literatüründe üzerinde çok fazla durulan temel kurumlardan biridir. Aile kurumu üzerine yapılan çalışmalar, tartışmalar hem ailedeki, hem de toplumdaki değişim ve dönüşümleri anlamaya, onları analiz etmeye ve açıklamaya önemli katkılar sağlayacaktır. Aile hakkında literatürde çeşitli tanımlamalar yapılmıştır. Bu tanımların bazı yönlerden farklı olmasına karşın hepsindeki ortak vurgu ailenin toplumsal hayat için vazgeçilemez bir olgu olmasıdır. Bu ehemmiyetinden dolayı da aile, sosyal bilimlerin üzerinde önemle durduğu bir konu olmaktadır.

**Geçmişten Günümüze Aile.** İnsanlık tarihi oluşup geliştiğinden beri toplumlarda aile kurumu da oluşup gelişmeye başlamıştır. Geçmişten günümüze kadarki aşamada aile, belirli tarihsel evrimlerden geçerek değişim ve dönüşüme uğramıştır. İlk aşamada avcı ve toplayıcı toplumlarda aile tipi yer almaktadır. Bu toplulukta anaerkil bir yapının var olduğu kabul edilmektedir. Yani anasoylu akrabalığa dayanan ve en önemli rolün kadın tarafından oynandığı bir klan dizgesinin varlığına dikkat çekilmektedir (Reed, 1994; 12). Bu toplumlarda ortak bir iş bölümü anlayışı erkeğin avlandığı, kadının ise yiyecek topladığı bir düzene göre belirlenmiştir. Zamanla doğayla mücadele gibi zor koşullar erkeğin kadına nazaran daha ön plana çıkmasına neden olmuştur. Cinsiyete dayalı iş bölümü çoğalmaya ve farklılaşmaya başlamış, fiziksel özelliklerinin kadına oranla daha güçlü ve fazla olmasından dolayı erkekler daha ön plana çıkmıştır. Bununla da erkekler evin yönetimini ele almış, kadınlar ikincil plana itilmiştir. Toplumda iş dışında cinsel ilişkiler yaşamında da düzenlemeler oluşmaya başlamıştır. Düzenlenen bazı yasaklar 'kandaş aile'nin oluşmasına neden olmuştur. Engels (2010; 44-45) ailenin ilk aşaması olarak kabul edilen kandaş ailenin oluşumunu şu şekilde açıklamıştır: *'karı-koca grupları, kuşaklara göre ayrılmışlardır (…) bu aile biçimi içinde, yalnızca yukarı kuşakla aşağı kuşak arasında, ana-babalarla çocuklar arasında, evlilik hak ve ödevleri söz konusu edilemez yani bunlar bir biriyle evlenemezler. (…) birinci, ikinci ve öbür derecelerdeki erkek ve kız kardeşlerle kuzen ve kuzenlerin hepsi, kendi aralarında erkek ve kız kardeştir; (…) hepsi bir birinin karısı ve kocasıdır. Bu dönemde, erkek ve kız kardeş bağlantısı, tamamen doğal bir biçimde kendi aralarında cinsel ilişki kurulması sonucunu verir. Bu tür bir ailenin tipik biçimi, bir tek çiftten gelme dölden türer; bu döl içindeki her farklı kuşak bireyleri, kendi aralarında kardeş ve bu nedenden ötürü de, karı kocadırlar.'*

Reed (1995; 9), 'çaprazlama yeğenler'in birlikteliği ile oluşan bu ailenin evliliğe atılan ilk adım olduğunu ileri sürmektedir. Belirli bir süreç sonrasında ise 'kandaş aile' yerini 'ortaklaşa aile' tipine bırakmıştır. Kısaca bu aile tipiyle birlikte de anne-baba ve çocuklar arasındaki cinsel ilişkiler yasaklanmış, aynı zamanda kardeşler arasındaki ilişkilere de yasak getirilmiştir. Yasakların artması ve düzenlemelerin gelmesiyle birlikte 'ortaklaşa aile' de kendi yerini 'iki-başlı aile'ye bırakmıştır. Morgan'ın (1998: 136) ifadesiyle, 'iki-başlı aile biçiminde, bir kadın ve bir erkek arasında evlilik söz konusudur. Ama ayrı bir evde birlikte yaşama du-

rumu söz konusu değildir. Evlilik tarafların bu işi istedikleri süre boyunca devam etmektedir.' Diğer evliliklerde olduğu gibi bu evlilik tipinde de çocuklar anneye ait olmuşlardır. Bu tarihsel süreç içerisinde ailesel gücün kadına ait olduğunu görmekteyiz.

İlkel toplumlarda, tarım tekniklerinin gelişmesi, madenlerin bulunması gibi çeşitli nedenlere bağlı olarak insanlık tarihinde ilk defa tüketilenden fazlası üretilmeye başlamıştır. Artık üretim alanı değerli alan olmuş ve erkekler üretim araçlarının gelişimine katkıda bulunan aletlerin yapımıyla uğraşmaya başlamıştır. Böylelikle kadınlara da hiçbir değeri kalmayan ev alanı kalmıştır. Sonuç olarak da kadınlar toplumun güçsüz kesimi olarak kabul edilmiş ve üretim sürecinden dışlanmaya başlamışlardır. Tüm bu gibi gelişmelerin bir sonucu olarak, kadın toplum içindeki yerini ve saygınlığını yitirmeye başlamıştır. Bununla beraber anaerkillik döneminde kadınların sahip olduğu güçler de kaybolmaya başlamıştır. Böylece, erkeklerin kadınların yeniden üretici gücünü kontrol etmeye başladıkları ataerkillik sistemi yükselmeye başlamıştır (Marshall, 1999: 22). Toplumda oluşan bu gibi değişiklikler ilkel toplumun çökmesine ve çöken kalıntı üzerine Ataerkil toplum yapısının kurulmasına neden olmuştur. Artık toplum üretim araçlarına sahip olanlar ve olmayanlar olarak sınıflara ayrılmıştır. Zamanla üretim araçlarını elinde tutanların çıkarlarını korumak için üst yapıya ihtiyaç duyulmuştur. Bununla birlikte de devlet, hukuk, din gibi kurumlar sınıfsal içerik kazanmaya başlamıştır (Marx, 2004: 216). Devlet otoritesinin yaygınlaşması ile birlikte Ataerkil sistem garanti altına alınmış ve diğer üstyapı araçları olan, hukuk, eğitim, aile gibi tüm kurumlar da erkek egemen düşünce altında gelişmeye başlamıştır (Adak, 2012; 24-25). Ataerkil düzenin oluşumundan sonra birtakım yasalar ile birlikte aile ve evliliğin düzenlenmesine başlanmıştır. Bu durum toplumda 'tek eşli aile' tipini ortaya çıkarmıştır. Fakat bu aile tipi kadınlara ev işleri ve çocuk bakımından sorumlu tutulmayı dayatan bir zorunluluk olarak oluşmuştur. Erkekler ise evin hizmetlerini gerçekleştirmesi için kullandığı köle kadınlar ve cariyeler ile çok eşli bir yaşam sürmüştür (TİB, 2006: 27). Aynı zamanda zina ve fuhuş da ilk kez bu toplumda ortaya çıkmıştır.

Gitgide zayıflayan köleci toplum zamanla yerini Feodal topluma bırakmıştır. Bu toplumda da hane içerisinde evin reisi olarak erkek (baba) belirlenmiştir. Evlilikler artık daha çok çıkar ilişkisine göre gerçekleştirilmekteydi. Örneğin; egemen sınıftaki kadın ve erkekler birbirlerini ile topraklarının birleşmesi için evlenmekteydi. Aile içi ilişkiler de şekillenmeye başlamış; köydeki aileler çocuklarını geleneklere uygun bir şekilde yetiştirmeye çalışmışlardır. Fakat bunu da belirtmek gerekir ki, ister köylü ailesinde, isterse de egemen sınıfa mensup olan soylu ailesinde çocuklar hiçbir zaman ailenin merkezi yerinde olmamışlardır. Çocuklar ilk duygusal bağlılıklarını aile dışındaki bireylerle kurmuşlardır (Poster, 1989; 210). Toplumun gelişmesine ek olarak zamanla 'esnaf ve zanaatkâr ailesi' tipi de ortaya çıktı. Bu ailenin geçimi için erkek ve kadın kendi aralarında üretim süreci içerisinde belli görevlerden sorumlu olmak üzere iş birliği yapmışlardır. Geçim için verilen cabalar toplumda aynı zamanda yeni yapılanmaların oluşumuna da neden olmuştur. Üretici güçlerin gelişmesi, üretim biçimlerinin değişmesi, yeni bir sınıf olarak karşımıza çıkan burjuvazinin iktidarı ele geçirmesi feodal sistemin çöküşüne neden olmuştur. Toplumda oluşan bu çözülme daha sonrasında yerini kapitalist üretim biçimine vermiştir. Bu değişen yapılar doğal olarak toplumun önemli kurumlarından olan aileyi de etkilemiştir. Feodal döneminde, ekonomik olarak kabul edilen geniş aile, yerini sanayi toplumlarında çekirdek aileye bırakmıştır (Adak, 2012; 29). Çekirdek ailenin tam olarak ortaya çıkış tarihine bakacak olursak, 1750'lerde burjuvazi arasında oluştuğu düşünülmektedir. Bu aile tipinde de erkek geçimi sağladığı için egemen otoriteye sahip olan kişidir. Mutlu ailenin ilk şartı kadının çocuklarıyla ilgilenmesidir. Artık bu aile tipinin oluşmasıyla birlikte kadının rolü annelik olarak belirlenmiştir. Diğer dönemdekinden farklı olarak bu ailede anne ve çocuk arasında duygusal bir bağ da oluşmaktadır. Bu dönemde artık ailenin ilişkilerini belirleyici faktör topluluğun gelenekleri olarak belirlenmiştir. Bu durumla da ebeveynlerin çocuklar üzerindeki gücü önemli düzeyde artmıştır. Aile, sıcak bir yuva olarak tanımlanmış fakat bu durum işçi sınıfı için geçerli olamamıştır. Bunun nedeni ise çalışma saatlerinin oldukça yoğun ve fazlalığından kaynaklanmaktadır. Bu sınıfa mensup kişilerin çocukları da sağlıksız beslendiğinden dolayı fazla yaşayamamıştır. Bu gibi nedenlerden dolayı işçi sınıfı ile burjuvazi sınıfının ailesi ve aile yapısı arasında farklılıklar ortaya çıkmıştır. Paraya daha fazla ihtiyaç duyan ve bu yüzden düşük ücretle çalıştırılan işçi sınıfındaki ka-

dınlar çalışma hayatına atılmış ve onlar da çocuklarına fazla zaman ayıramamıştır. Böylelikle çocuklar da otoriteyi fazla hissedememişlerdir. Zamanla bu duruma çözüm aranmış, çocuklar ve kadınlar kötü koşullardan uzak tutulmaya çalışılmıştır. İş saatleri düzenlenmiş, işçi sınıfının da ailesiyle fazla zaman geçirmesi sağlanmıştır. Bu durum beraberinde işçi sınıfının da burjuva ataerkil düzeni benimsemesine neden olmuştur (Marx, 2004: 216).

1980 li yıllarda toplumda oluşan enformasyon devrimi sürecinde sanayi sonrasında oluşan toplumlarda farklı yeni sınıflar ortaya çıkmıştır. Aynı zamanda kadın ve aile alanında da değişimler oluşmuştur. Bu dönemde artık kadınlar iş hayatında daha fazla yer almaya başlamıştır. Bu durum beraberinde aile içinde kadının yerinin değişmesine de neden olmuştur. Ekonomik bağımsızlığını elinde bulunduran kadın, aile içi kararların belirlenmesinde daha fazla söz sahibi olmaya başlamıştır (Adak, 2011: 47-48). Kadın ve erkek arasındaki eşitsizlikler devam etse de ev içi işbölümünde eskiye oranla daha eşit bir paylaşım gerçekleştirilmiştir. Aile kurumu, erkek ve kadının evlilikten beklentileri de değişime uğramıştır. Artık eskiden farklı olarak çiftler birbirinden farklı beklentiler beklemiş ve bunun doğrultusunda evliliklerini ilerletmeye başlamıştır. Çiftler için önemli olan şey duygusal bağ, sadakat, cinsel uyum gibi faktörler olarak değişim göstermiştir.

**Evlilik:** Aile kurumu tarihsel dönem içerisinde yapısı ve türleri bakımından çeşitli farklılıklara uğramıştır. Bireyler için önemli bir alan olan aile aynı zamanda bireyin yaşamını, hayatını da etkileyen ilk sosyal kurumdur. Birey aile içinde doğar, büyür, gelişir ve vefat eder. Aileden bahsederek değinmek gereken ilk şey evliliktir. Evlilik, karşıt cinsten iki yetişkin bireyin cinsel ilişkilerinin toplumun koyduğu kriterler çerçevesinde yürütülmesidir (Adak, 2012; 41). Aynı zamanda evlilik bireyler arasında bir sözleşme vasıtasıyla oluşmaktadır. Evliliğin evlenen kişilerin sayısına göre sınıflandırılması mümkündür. Genel olarak iki sınıflandırılması yapılmaktadır. Bunlar; tek eşli (monogami) ve çok eşli (poligami) evliliklerdir. Tek eşli evlilikler bir erkek ve bir kadın arasında gerçekleşir. Çok eşli evlilikler ise kadının veyahut erkeğin birden fazla kişiyle evlenmesi durumudur. Bu duruma göre çok eşli evlilikler de kendi içinde çok karılılık (polijini) ve çok kocalılık (poliandri) olmak üzere ikiye ayrılmaktadır. İlkel toplumlarda yağma; avcı-toplayıcı topluluklarda ise erkek ölümleri nedeniyle kadın nüfusunun çokluğu çok kadınla evliliği doğurmuştur (Doğan, 2009: 135). Günümüz yaşantısından farklı olarak eski zamanlarda insanlar tercihli evlilikler yapmaktaydı. Yani bu evlilik türlerinin temelinde dayanışma, iş birliği, toprakları birleştirme gibi çıkarlar yatmaktaydı. Bu evliliğin birçok çeşitleri de vardır. Bunlar; levirat, sororat, beşik kertmesi, berder evlilik, taygeldi evlilik, kardeş çocukları evliliği, bir dizi erkek kardeşin bir dizi bacıyla bireysel evliliği ve otura kalma evliliğidir (Doğan, 2009; 137-138). Bu evlilik çeşitlerinden birkaçını açıklamak gerekirse, Levirat; erkeğin ölümü sonucu kadının kayınbiraderi ile evlenmesi, sororat; leviratın tam tersi kadının ölmesi sonucu erkeğin baldızıyla evlenmesidir. Bu evlilik türlerinde asıl amaç, çocukların ve mal-mülkün korunmasıdır. . Berder evlilik çeşidinde ise iki aile anlaşır ve daha sonra aile kızlarını alacak olan oğlanın ailesine verir yani değişiklik yaparlar. Bu evlilikteki amaç da masraflardan kaçınmak ve gençler üzerinde otorite sağlamaktır.

Ailenin, evliliğin tamamlayıcısı, en önemli sonucu ise çocuklardır. F. Müler Lyer, insanları evliliğe sürükleyen dürtülerden bahseder. Bu dürtüleri ise ekonomik ihtiyaçlar, çocuk arzusu ve sevgi olarak nitelendirir. Bir diğer önemli kavramsa akrabalık kavramıdır. Akrabalık; evlilik veya soy bağı aracılığıyla oluşturulan ilişkilerin sonucunda belirli yükümlülükleri, değerleri ve statüleri içeren toplumsal sistemdir (Adak, 2012; 43). Akrabalığın oluşmasında önemli ve belirleyici iki etken vardır; bunlar toplumsal anlaşma bağı ile kan bağıdır. Akrabalığı, evliliği kısacası aile kurumunu korumak için toplumlarda ensest ilişkileri yasaklayan tablolar mevcuttur.

**Ailenin Yapısı ve Türleri:** Ailenin türüne ilişkin bazı önemli ve çeşitli sınıflandırmalar yapılmaktadır. Genel olarak aileyi üç türe ayırabiliriz. Bunlar: Sanayi öncesi ailesi; Sanayi ailesi ve Sanayi ötesi toplum ailesidir.

Sanayi öncesi süreçte toplumlarda geniş aile tek ve egemen aile tipi olarak bilinmekteydi. Fakat sanayi devrimiyle birlikte yeni yapıya geçit birçok kurumu olduğu gibi aileyi de etkilemiştir. Sonuç olarak aile yapısı değişime uğramış ve çekirdek aile yapısına geçilmiştir. Geleneksel geniş ailenin bazı fonksiyonları çekirdek aileyi oluşturmuştur, bazı-

ları ise başka kurumlara aktarılmıştır. Yani ailenin yapısında bir çözülme yaşanmıştır. Günümüzde ise (sanayi ötesi toplumlarda) çekirdek aile dışında yeni aile türleri de ortaya çıkmaktadır. Bunların en önemlileri ve gereklileri ise Ogburn'un 'çözülen aile'si, Pollak'ın 'parçalanmış aile' ve 'tamamlanmamış aile'leridir (Sayın, 1990; 20-21). Genel olarak Ogburn'un görüşlerine bakacak olursak çözülen aile ile birlikte modern hayatta ailenin yok olacağı görüşünde olduğunu söyleyebiliriz. Parçalanmış aile ise dul eş ve çocuklarından oluşan aile türüdür. Tamamlanmamış ailede ise çekirdek aile hiçbir zaman kurulmaz. Bu aile türü gayrimeşru çocuklardan ve annelerden oluşmaktadır (Kongar, 1991; 74).

**Geleneksel Geniş Aile:** Bu aile türü özellikle sanayi öncesi toplumlarda ve daha çok kırsal yörelerde görülmektedir. Akrabalık bağlarını içerir ve birçok üyeden de oluşur. Bu aile türünün amacı; aile bağlarının güçlendirilmesidir. Bunun için hatta çocukların evlendikten sonra bile eve yakınlığına dikkat edilir. Geleneksel geniş ailenin o döneme bağlı olarak pek çok işlevi bulunmaktaydı. Örneğin; ilk olarak bu aile türü hem üretim hem de tüketim birimi olarak karşımıza çıkmaktadır. Bunun dışında neslin devamının sağlanması çok önemli idi. Çocukların eğitimi ve onlara geleneklerin, dini bilgilerin aktarılması da aile kurumuna bağlı olmuştur. Aynı zamanda boş zamanların değerlendirilmesi de aile içinde gerçekleştiriliyordu. Bu aile türünde ortaklaşa mülkiyet de söz konusudur. Mülk ailenin en yaşlı ve en büyük erkeğine aittir ve mülkün denetiminden de o sorumludur. Aile içindeki bireylerin her birinin belirli statüleri, mevkileri de bulunmaktaydı ve bu statüler aileler tarafından verilmekteydi. Geleneksel geniş ailede hane halkını dışarıdan gelebilecek her türlü tehlikelere korumak, güvenliği sağlayan bir rol anlayışı da bulunmaktadır. Aynı zamanda bu aile türünde tüm hane halkının belirlenmiş bir rolleri de vardır. Bireylerden beklenilen şey rollerini sorunsuz yerine getirmeleridir. Aile üyelerin bu durumunu, gelenekleri, dini bilgileri uygulayıp uygulamadıklarını da denetlemektedir.

**Çekirdek Aile:** Bu aile türü özellikle sanayi devrimi sonrası kent toplumlarında karşımıza çıkmaktadır. Bu aile türünü geleneksel geniş aileden ayıran bazı özellikler vardır. Bunlardan en önemlisi hem aile içi bireylerin sayının az olması hem de aile kurumuna düşen işlevlerin geleneksel geniş aileye oranla daha az olmasıdır. Çekirdek ailenin genel itibarıyla iki işlevi bulunmaktadır. Bunlardan ilki, soyun devamı yani üreme işlevi diğeri ise aile içi bireyleri psikolojik doyumunun sağlanmasıdır. Geleneksel geniş ailede ise aile neredeyse çoğu işlevden sorumluydu, zamanla bu işlevlerin bazıları ortadan kalkmış bazılarını ise toplumun diğer kurumları üstlenmiştir. Bunun dışında çekirdek ailede alınan kararlar sadece aile içi bireyler tarafından onaylanır fakat geleneksel geniş ailede ise akrabalar tarafından da onay alınması önemli bir husustur. Geleneksel geniş ailelerde evlenen kişilerin ailenin büyükleriyle birlikte yaşamaları istenir ya da en azından evlerin birbirine oldukça yakın mesafede olması beklenilir. Aynı zamanda çekirdek ailede kişiler eş seçiminde de ikamet ettikleri yerde olduğu gibi özgürdürler.

Çekirdek aile aynı zamanda birey üzerinde oluşan stres, kaygı gibi olumsuz durumları da hafifletmektedir. Aile ile ilgili alınan çoğu karar aile üyeleri tarafından da onaylanmaktadır. Bu özelliğinden dolayı da çekirdek aile geleneksel geniş aileye oranla daha eşitlikçi aile türü olarak karşımıza çıkmaktadır. İki aile türü arasında var olan bir diğer farklılık ise çekirdek ailenin daha fazla kırılgan olmasıdır. Bunun da ilk ve en önemli kanıtı boşanma oranlarının daha fazla olmasıdır. Geleneksel geniş ailelerde birinci evlilikten sonra da evlenme durumu eşlerden birinin ölmesi halinde gerçekleşmekteydi. Sanayi sonrası toplumlarda ise bu durum oldukça yaygın hal almış ve boşanmaların artışına da neden olmuştur. Çekirdek aile az kişiden oluştuğu için kişilerden birisinin aileden kopması aile yapısını oldukça derinden etkileyecektir. Bu durumda da aile temel işlevini gerçekleştiremeyecektir. Anne veya babanın ölümü ise ailenin birliğini oluşturan sevginin zayıflamasına aynı zamanda ailenin biyolojik işlevinin ortadan kalkmasına neden olacaktır. Eşlerin çocuk sahibi olamama durumunda ise aile içinde birkakım kopukluklar olacaktır. Aynı zamanda bu durumda ailenin biyolojik ve toplumsallaşma işlevinden bahsetmek de olanaksız olacaktır. Çocuğun olmaması bazı hallerde eşler arası ilişkinin tamamen kopmasına da yol açmaktadır (Gökçe, 1990; 222).

**Yeni Aile Türleri:** Sanayileşmeyle birlikte geleneksel geniş aile türünden yeni aile türüne; çekirdek

aileye geçiş söz konusu oldu. Bu değişim sonucu ise aile içi bireylerin sayısı azalarak çekirdek aile sayısı artış göstermiştir. Modernleşmenin hızla artımı ile çekirdek aile de kendi içerisinde bir parçalanmaya uğramıştır. Boşanma oranlarının artış göstermesi toplumda tek ebeveynli ailelerin çoğalmasına neden olmuştur. Ülkeler geliştikçe aile yapısı da zamanla değişime uğramaktadır. Artık çekirdek aileye sahip bireyler tek çocuk sahibi kişilerden oluşmaktadır. Eskiye oranla aileye yeni beklentiler daha fazla yüklenmiştir. Özellikle çiftler bir birinden romantik ve müşterek bir evlilik beklemektedir. Yakın geçmişte evlilik temel amacı çocuk sahibi olmak olan kocanın yönetimindeki bir iş ortaklığı olarak görülürken artık iki eşin yardımlaşma, karşılıklı cinsel tatmin ve iki ya da üç çocuğu özenle ve sevgi ile yetiştirerek uyum yaratmak amacıyla girdikleri bir sevgi ilişkisi olarak görülmektedir (Adak, 2011; 52). Çocuğun değişen konumu ise ailede oluşan bir başka değişim alanıdır. Artık çocuk sahibi aileler geçmişe nazaran daha fazla çocuk merkezli aile yapısına sahiptirler. 1960'lardan bu yana ebeveynlerin çocuklarıyla geçirdikleri zaman iki kat artış göstermiş, aileler çocuklarına daha fazla eşitlikçi davranmıştır.

**Yeni Geniş Aile.** Bu aile türü boşanma sonrasında eşlerden birisinin yeniden evlenmeleri sonucu oluşan aile tipi olarak karşımıza çıkmaktadır. Boşanmış birey yeniden evlendiği zaman önceki evliliğinden sahip olduğu çocuğunu da yanında getirir ve yeni ailesi ile birlikte geniş aileyi oluşturur. Bu aile türü Üvey Aile veya eklemli aile olarak da tanımlanmaktadır. Üvey Aile, yetişkinlerden en az birinin daha önceki bir evlilikten ya da ilişkiden çocuklarının olduğu aile türüdür (Adak, 2011; 53). Bu ailenin dezavantajı olarak ise çocukların yeni rol ve ilişkileri benimsemekte güçlük çektikleri olarak söyleyebiliriz.

**Tek Ebeveynli Aile.** Bu aile türünü meydana getiren çeşitli etkenler vardır. Bunlara örnek olarak artan boşanma oranlarının fazlalığını, evlilik dışı birliktelikleri eşlerden birinin kaybı gibi durumları söyleyebiliriz. Bu ailelerin karşılaştığı en büyük sorunlardan birisi toplum tarafından onaylı olmamalarıdır. Aynı zamanda ekonomik güvensizlik de mevcuttur. Evlilik dışı oluşan doğumlar da tek ebeveynli ailelerin sayısını artırmaktadır. Aynı zamanda savaşların çıkması erkek nüfusunun azalmasına neden olmuştur ve dolayısıyla birçok kadın çocuğu ile birlikte tek yaşamaya maruz kalmıştır. Bunun dışında herhangi bir erkeğin yardımına ve desteğine ihtiyacı olmadan, evlenmeden bazı kadınlar sayıları az olsa da çocuk sahibi olabiliyorlar. Yani tek anne olmayı seçiyorlar. Genellikle bu durumu tercih eden kadınlar gelir sahibi, kentli ve eğitimli kadınlardır. Toplumsal eğilim genel olarak çocuk sahibi olmayı aile kurumu içerisinde istemekte ve kabul etmektedir (Güneş, 2011; 38). Özellikle Batı toplumlarında tek ebeveynli aileler yaygın hale gelmektedir.

**Babasız Aile.** Batı toplumlarında oluşan büyük değişimler sonucu ortaya çıkan yeni aile türlerinden bir tanesidir. Özellikle 1930 ve 1970'li yıllar babasız yıllar olarak adlandırılmaktadır. Bunun nedeni ise bu dönemlerde çocuk sahibi erkeklerin savaşa katılmalarıdır. Savaştan dönebilen babalar döndükleri zaman da yoğun bir tempoyla çalışmak zorunda kalmışlardır. Dolayısıyla çocuklarıyla oldukça az bir zaman içerisinde birlikte vakit geçirebilmişlerdir. Fakat artan boşanma ve ayrılma durumları da bu kavramın anlamını kısmen de olsa değiştirmiştir. Bu kavram, boşanma ve ayrılma sonucunda babanın çocuklarıyla olan beraberliğini ve ilişkilerini sürdürememesi anlamına bürünmektedir (Canatan ve Yıldırım, 2009: 98-99). İkinci dünya savaşı babalarından uzak kalan erkek çocukların daha az erkeksi olacakları da düşünülmekteydi. Savaş sonrası dönemde ise babalık bir hobi olarak sunulmaya başladı. Babanın imajı güler yüzlü ve sıcakkanlı olarak çizildi. 1970 döneminde ise yeni baba imajı gelişti. Gelişen yeni baba imajında babanın rolü ev işleriyle, çocuklarla ilgilenmek ve evde karısıyla iş bölümü yapmaktı (Feyzioğlu ve Kuşçuoğlu, 2011). Kısacası oluşan dönemsel değişiklikler babanın aile içindeki imajını, rolünü derinden etkilemekteydi. Aynı zamanda bu duruma ekonomik değişiklikler de etki etmekteydi. Toplumda artık evlilik dışı ilişkilerin artması, tek ebeveynli aile tipi, boşanma oranının çoğalması babalık kurumunun toplumsal olarak zayıflamasına da neden olmuştur.

**Birlikte Yaşama.** Modern toplumlarda artık evlilik farklı şekillere evrilmektedir. Artık evli gibi yaşamak kelimesi evliliğin sadece birlikte yaşamak olarak anlaşılmasına neden olmaktadır (Marshall, 1999; 223). Bu durumu kabul edip uygulayan çiftlerin sayısı da gitgide artmaktadır. Bunun nedeni ise boşanmaların artmasından, çiftlerin evlilik ve onun

getirdiği sorumlulukları almak istememelerinden kaynaklanmaktadır. Bu durumun artması toplum tarafından durumun ayıplanma oranını düşürmeye de etki etmektedir. Aynı zamanda birlikte yaşama oranının artış göstermesine etki eden bir diğer durum da cinsel özgürlüktür. Özellikle 1960 dönemiyle birlikte cinsel özgürlük bir güncel harekete dönüşmüş ve bu dönem sonrasında refah düzeyi yükselmiştir. Aynı zamanda kadınlar ekonomik bağımsızlıklarını kazanmış ve bu dönemde gebeliği önleyici yöntemler de gelişmiştir. Bu da birlikte yaşamanın artmasına neden olan bir diğer etkendir. Artık gençler birlikte yaşamaya evlilikten önceki aşama olarak da bakmaktadır. Uzun süreli ilişkileri olan bir çift, gitgide daha fazla zaman geçirerek, sonunda kendi evlerinden birinden vazgeçmekte ve bir arada yaşamaya başlamaktadır (Giddens, 2008: 275).

**Bekâr Kalma.** Evliliğin kötü sonuçlanması, boşanma oranlarının artması gençler üzerinde etki etmiş ve artık çoğu kişi bekâr kalmayı tercih etmiştir. Özellikle bu durum ile ilgili batı toplumlarına bakacak olursak çoğu kişinin evliliği istemediğini, bekâr kalmayı tercih ettiğini görürüz. En azından bu toplumlarda evlilik yaşı yükselmiş, gençler erken yaşta evliliğe karşı çıkmıştır. Kişiler arasında ise bekâr yaşamın getirdiği bağımsızlık duygusu daha önemli olmaya başlamıştır. Bireyler sanal ortamlarda sosyalleşerek evlilik ve aile bağlamında yalnızlaşmayı tercih ediyor (Adak, 2011; 226).

**Gey/Lezbiyen Birliktelikleri.** Günümüzde çoğu ülke eşcinseller arasındaki evlilikleri onaylamadığından gey ve lezbiyenlerin arasındaki ilişkilerin zemini, yasadan çok, kişisel adanmışlık ve karşılıklı güven üzerine kurulmaktadır (Giddens, 2008: 277). Artık toplumlarda bu tür çiftlere karşı tepkiler de oldukça azalmıştır. Teknolojinin gelişmesiyle birlikte kadınlar yapay döllenmeyi tercih ederek anne de olabilmektedir. Bu yolu tercih edip hamile olan anneler ise eşcinsel ailelerin oluşmasına neden olmaktadırlar. Çocuk tercih eden çiftlerin çoğunluğunu da lezbiyen birliktelik yaşayan kadınlar oluşturmaktadırlar (Adak, 2011: 233).

## SONUÇ

Toplumda oluşan çeşitli değişimler aile kurumunu yapısı, türleri, işlevleri bakımından değişime uğratmaktadır. Özellikle kentleşme ve sanayileşme süreci içerisinde aile yapısında değişiklik olmuş ve geleneksel geniş aileden çekirdek aile yapısına geçilmiştir. Bununla da toplumda eskiden var olan akrabalık bağları kısmen de olsa zayıflamış dahası geleneksel geniş ailenin işlevlerinin bazıları ortadan kalkmış bu işlevleri ise başka kurumlar üstelenmiştir. Modernleşme beraberinde farklı aile türlerini de ortaya çıkarmış, gençlerin çoğu bekâr kalmayı tercih etmiş, evliliğe alternatif olarak birlikte yaşamaya üstünlük vermişlerdir. Doğal olarak bu süreçte de evliliğin yaş oranı yükselmiştir. Aynı zamanda modernleşmeyle birlikte eşcinsel birlikteliklerde de artım başlamış hatta gelişen teknoloji sayesinde lezbiyen çiftler hamile kalarak annelik hakkına da sahip olmuşlardır.

Evlilik kurumuna bireyler eskisinden fazla önem ve anlam yüklemiş, çiftlerin birbirinden beklentisi yükselmiştir. Eskiden çıkar doğrultusunda oluşan evliliklerde günümüzde çiftler arasında cinsellik uyumu, arkadaşlık, duygusal bağ gibi etkenler daha ön plana çıkmıştır. Evlilikte eskiden daha farklı olarak çocuk merkezi bir konumda yer almış ve ebeveynlerin asıl amaçları iyi bir evlat yetiştirmek olmuştur. Aynı zamanda çocuk sayısında, aile nüfusu sayısında da bir azalma söz konusu olmuştur. Aileler bazı ülkelerde hatta tek çocuktan ibaret olmaktadır. Aile kurumunun bugünkü günümüzde ve en azından yakın gelecekteki dönemlerde de önemli bir kurum olma niteliğini devam ettireceğini söylemek yanlış olmayacaktır.

## KAYNAKÇA:


1. *Canatan, K.;Yıldırım, E. (2009), Aile Sosyolojisi, Açılım Kitapi, İstanbul.*
2. *Poster, M. (1989) Eleştirel Aile Kuramı, Çeviren, Hüseyin Tapınç, Ayrıntı Yayınları, İstanbul.*
3. *Güneş, F. (2011), 'Aile, Evlilik, Akrabalık ve Hane', Aile Sosyolojisi, T.C. Anadolu Üniversitesi Yayını, Editörler, Aytül Kasapoğlu, Nadide Karkıker, Eskişehir.*
4. *Sayın, Ö. (1990), Aile Sosyolojisi-Ailenin Toplumdaki Yeri, Ege Üniversitesi Edebiyat Fakültesi Yayınları, İzmir.*
5. *Reed, E. (1994) Kadının Evrimi I, Çeviren; Şemsa Yeğin, Payel Yayınları, İstanbul.*
6. *Reed, E. (1995) Kadının Evrimi II, Çeviren; Şemsa Yeğin, Payel Yayınları, İstanbul.*
7. *Gökçe, B. (1990), 'Aile ve Aile Tipleri Üzerine Bir İnceleme', Aile Yazıları I-Temel Kavramlar, Yapı*

*ve Tarihi Süreç, T.C. Başbakanlığı Aile Araştırma Kurumu Başkanlığı Yayınları, Ankara.*

8. *Tüm İktisatçılar Birliği Araştırması (1975) Türkiyede Kadının Sosyo-Ekonomik Durumu, Tüm İktisatçılar Birliği Yayınları No: 13, Ankara.*
9. *Engels, F. (2010) Ailenin, Özel Mülkiyetin ve Devletin Kökeni, Çeviren: Hasan İlhan, Alter Yayıncılık, Ankara.*
10. *Giddens, A. (2000) Sosyoloji, Çeviren: Hasan Özel; Cemal Güzel, Ayraç Yayınevi, Ankara.*
11. *Adak, N. (2011) 'Toplumun Temel Yapı Taşı: Aile' , Kurumlara Sosyolojik Bakış, Birey Kitabevi, İstanbul.*
12. *Marshall, G. (1999), Sosyoloji Sözlüğü, Çevirenler; Osman Akınbay; Derya Kömürcü, Bilim ve Sanat Yayınları, Ankara.*
13. *Morgan, L.H. (1998) Eski Toplum, Çeviren: Ünsal Oskay, Payel Yayınları,* İstanbul.
14. *Doğan, İ. (2009), Dünden Bugüne Türk Ailesi, Atatürk Kültür Merkezi Yayını, Ankara*
15. *Kongar, E . (1991) Türkiye'de Aile Yapısı. Aile Yazıları. T.C. Başbakanlığı Aile Araştırma Kurumu Başkanlığı Yayınları, Ankara.*
16. *Marx, K., 2004. Kapital Cilt 1 (7. b.). (A. Bilgi Çev.). Ankara: Kuban Matbaacılık, Sol Yayınları.*

## ÖZET

Bu çalışma aile yapısında görülen değişimlerin tespitini ve bunların ele alınmasını amaçlamıştır. Modernleşmeyle birlikte ailenin yapısı gittikçe küçülmeye başlamış geleneksel aile yapısı anlayışının yerini çekirdek aile yapısı almıştır. Çalışmayla birlikte özellikle sanayi öncesi toplumlarda ve kırsal yörelerde görünen geleneksel geniş aileden sanayi devrimi sonrası kent toplumlarının aile yapısı olarak karşımıza çıkan çekirdek aileye geçişi, ailenin değişimini inceleyeceğiz. Toplumun doğal olarak sosyolojinin birey üzerinde etkisi olan, onu topluma hazırlayan ilk ve önemli kurumlarından birisi olan ailenin, bu çalışmada eskiden günümüze kadar uğradığı ve maruz kaldığı değişiklikleri incelemek amaçlanmıştır.

**Anahtar Kelimeler:** *Aile, Aile Türleri, Evlilik, Evlilik Türleri, Modernleşme.*

## SUMMARY

## FAMILY STRUCTURE CHANGING WITH MODERNIZATION: FROM TRADITIONAL FAMILY TO NUCLEAR FAMILY

This study aimed to identify and address the changes seen in the family structure. With modernization, the structure of the family has started to shrink and the traditional family structure has been replaced by the nuclear family structure. With the study, we will examine the transition from the traditional large family, which appeared especially in pre-industrial societies and rural regions, to the nuclear family, which emerged as the family structure of urban societies after the industrial revolution, and the change of family. It is aimed to examine the changes that the family, which is one of the first and important institutions of society that naturally has an effect on the individual and prepares it for society, has been subjected to in this study.

**Key words:** *Family, Family Types, Marriage, Marriage Types, Modernization.*

UOT 1

# QƏRB İDEOLOQLARININ ARAŞDIRMALARINDA YUMŞAQ GÜC AMİLİ

**ORXAN NAĞIYEV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*

*E-mail: orkhan.naghiyev@outlook.com*

"Yumşaq güc" konsepsiyası politoloq J.Nay tərəfindən neoliberalizm nəzəriyyəsi çərçivəsində işlənib hazırlanmışdır. J.Nay "soft power" dedikdə, siyasi hakimiyyətdə "...istədiyinə məcburiyyət və ya ödəmə ilə deyil, cazibə yolu ilə nail olmaq bacarığı"nı ehtiva edirdi [10, s.191], yaxud "başqalarını istədiyinizi istəməyə inandırmaq qabiliyyəti və ya güc tətbiq etməyin dolayı / əməkdaşlıq üsulu olaraq" şərh edirdi [11, s.8]. J.Nayın fikrincə, beynəlxalq münasibətlərdəki "yumşaq qüvvə" mənbələri, "ilham verən və cəlb edən" vasitələrin məcmusu kimi çıxış edir. J.Nayın araşdırmalarında mədəniyyət, ideologiya və ayrı-ayrı sosial təsisatlar vasitəsilə cəlb etmək qabiliyyəti "yumşaq" təsir üsulu kimi şərh edilir və "sərt qüvvəyə" qarşı idarəetmə üsulu kimi təqdim olunur. J.Nay siyasi-praktik fəaliyyətinin analizinin nəticəsi olaraq, ABŞ-ın qlobal liderlik xüsusiyyətlərinin əsaslarını müəyyənləşdirməyə çalışmış və əldə etdiyi nəticələr üzərində "yumşaq güc" konsepsiyasını işləmişdir. O, ABŞ-ın liderliyinin təməlində cəzbedici amerikan həyat tərzinin və mədəniyyətinin dayandığını göstərir. ABŞ-a miqrant axınının çoxluğunu da bununla izah edir. Belə demək olar ki, ABŞ-ın liderliyinə şərait yaradan ilk amil kütləvi cəlb etmə və yayılma imkanlarının üstünlüyü ilə bağlıdır. Digər tərəfdən ABŞ-ın liberal demokratik idarəetmə forması bir çox inkişaf etməkdə olan ölkələr tərəfindən sosial inkişaf modeli olaraq qəbul edilir və müəyyən məqamları mənimsənilərək reallaşdırılır. J.Nay göstərir ki, ABŞ-ın "yumşaq güc" siyasətinin üçüncü məqamı "diplomatik səylərlə" bağlıdır. Belə ki, ABŞ "böhran vəziyyətlərinin həllində sanksiyaların tətbiqi və ya hərbi gücün istifadəsi əvəzində" diplomatiyanın tətbiqinə üstünlük verir və bu zaman yumşaq qüvvə nümayiş etdirir [11, s.8].

J.Nayın yumşaq güc nəzəriyyəsini hakimiyyətlə bağlı relyasion (əlaqəlilik) konsepsiya kimi qəbul edirlər. J.Nay "yumşaq güc" anlayışını şərh edərkən ABŞ-ın malik olduğu hakimiyyətin üç ölçüsünü təqdim edir: 1) hərbi güc; 2) iqtisadi güc; 3) "yumşaq güc" [12, s.5-6].

Bu gün "yumşaq güc" anlayışının bir çox şərhləri mövcuddur. J.Nay tərəfindən təqdim olunan "soft power" termini həm "yumşaq güc", həm "yumşaq hakimiyyət", həm də "çevik güc" kimi tərcümə olunur. "Yumşaq güc" məfhumu həm akademik anlamda, həm də praktik effektivlik baxımından böyük maraq doğurur [2, s.213]. J.Nay əmindir ki, bir ölkənin "yumşaq gücü" əsaslı şəkildə üç mənbəyə söykənir: "onun mədəniyyəti (başqaları üçün cəlbedici olan məqamları ilə), onun siyasi dəyərləri (özü bu dəyərlərə əsasən davrandıqda və digər ölkələrlə münasibətlərdə) və onun xarici siyasəti (başqaları bunu qanuni və əxlaqi cəhətdən düzgün hesab etdikdə)". Mədəniyyət, dəyərlər və xarici siyasət yumşaq gücün yeganə mənbəyi deyil. İqtisadi resurslar da yalnız "sərt" deyil, həm də "yumşaq" güc mənbəyinə çevrilə bilər. Onlar həm cəlb etmək, həm də məcbur etmək vasitələri kimi istifadə edilə bilər [5, s.153].

Akademik və siyasi dairələrdə "yumşaq güc" anlayışının artan populyarlığı, "yumşaq güc" reytinqlərini yaratmaq və qiymətləndirmə üsullarını inkişaf etdirmək cəhdlərinə səbəb olmuşdur. J.Nay, bu konsepsiyanı irəli sürərkən onun ölçü modelini təklif etməmişdir, ancaq ölkənin müəyyən "yumşaq güc" mənbələrinə (məsələn, Nobel mükafatçıları, yaxşı ekologiya, humanitar yardımın göstərilməsi, ömrü və digərləri) əsaslanmışdır. O, "yumşaq gücün" təsir imkanlarını aşağıdakı faktorlara əsaslanaraq qiymətləndirməyi təklif edir:

-ölkənin beynəlxalq aləmdə cəlbedici imicə malik olub-olmaması;

-siyasətinin qanuni olub-olmaması;

-dəyərlərin hər kəs tərəfindən paylaşılması [13, s.2]

Hazırda "yumşaq güc" anlayışı tədqiqatçılar tərəfindən aşağıdakı mənalarda fəal şəkildə istifadə olunur:

1) dövlətin ölkə daxilində və xaricdə siyasi səfərbərlik qabiliyyəti;

2) simvolik resursların köməyi ilə digər insanlara təsir etmək;

3) insanlara sizi sevdirmək bacarığı;

4) sivilizasiya və humanitar-mədəni fəaliyyətlərin köməyi ilə dünyaya təsir;

5) xarici siyasət problemlərinin həlli üçün hərtərəf-

li alətlər toplusu [6, s.11].

J.Nay "yumşaq gücün" şəbəkəli idarəçilik və təsir forması kimi təzahürünün mövcudluğunu göstərir və bunu belə şərh edir: "virtual domen daxilində həm "sərt", həm də "yumşaq" gücün təzahürləri bir arada mövcuddur. "Sərt güc" – xidmətdən imtina hücumudur. "Yumşaq güc" – norma və standartların təyini ilə bağlıdır. Məsələn, proqramlaşdırma cəmiyyətinin yeni açıq mənbəli proqram təminatı standartlarına riayət etməsi yumşaq güc nümunəsidir. Kiber resurslar da möhkəm güc yarada bilər. Məsələn, dövlət və ya qeyri-dövlət nümayəndələri Botnetlərdən istifadə edərək virus hücumu təşkil edə bilərlər. Buna nümunə olaraq, İnternet sisteminə, bəzi dövlətlərə və ya şirkətlərə qarşı yüz minlərlə xüsusi yoluxmuş kompüter şəbəkələri göstərmək olar" [5, s.215].

"Yumşaq alətlər"in tərəfdarları hesab edirlər ki, qlobal sistemdəki dəyişikliklər hakimiyyətə yeni yanaşmaların inkişaf etdirilməsini tələb edən "dumanlı güc məkanı" (hazy power space) yaratmışdır. Onlar bu gün neoliberalizmə və konstruktivizmə marağın təsadüfi olmadığını iddia edirlər. Belə ki, bu paradiqmalar dünya siyasətinin dəyişən mahiyyətini əks etdirir. "Yumşaq gücün" artan əhəmiyyəti, onların fikrincə, aşağıdakı amillərin istifadəsi ilə əlaqədardır:

1) məcburiyyətdən əməkdaşlığa prioritetinin dəyişməsinə səbəb olan milli iqtisadiyyatların qarşılıqlı asılılığı;

2) güc tətbiqində, xüsusən də nüvə gücləri arasında artan xərclər;

3) ən azından Qərbdə üzvləri "müharibə etikası" ilə məşğul olmayan "firavan cəmiyyət" iddiası;

4) vətəndaş şüurunun və şəbəkə əməkdaşlığının inkişafı.

Tədqiqatçılar göstərirlər ki, "yumşaq güc" iki əsas mənbədən qaynaqlanır:

1) beynəlxalq mənbə (beynəlxalq normalara riayət edilməsi, müqavilələrə və öhdəliklərə riayət edilməsi, siyasətdə çoxtərəfli olmaq üçün səy göstərmək və birtərəfli yanaşmadan qaçmaq, ortaq bir işə töhfə vermək, iqtisadi açıqlıq siyasəti);

2) daxili mənbə ("mədəni güc" və siyasi institutlardan yaranan, inkişaf etmiş mədəniyyət, yüksək həyat keyfiyyəti, vətəndaş azadlıqları, liberalizm, plüralizm, demokratiya və s.) [1, s.82].

Qüvvə, enerji kimi şərh olunan "yumşaq güc" fenomeni beynəlxalq siyasi münasibətlərdə plastiklik, gözəgörünməzlik, kövrəklik, incəlik, cazibədarlıq və hətta qadınlıq xüsusiyyətlərinə malikdir. Yumşaq gücün semantik antipodu güc funksiyalarının idarə edilməsində müəyyən möhkəmliyi ifadə edən, sabitlik, əyilməzlik, düzlük, soyuqluq, təsir üsullarında kobudluq və məqsədə çatmaq kimi şərh olunan "sərt güc" anlayışıdır və bu, "əzələli" güc təzyiqi kimi qəbul edilir. Subyektiv olaraq "sərt güc" termini ilə işarələnən güc sosial subyektlərin boyun əyməyə və tabe olmağa məcbur olduğu kənardan təzyiq kimi qəbul edilir. "Çevik güc" isə elə hərəkət edir ki, subyektlər ona sərbəst və könüllü şəkildə tabe olsunlar, onun göstərişlərini öz müstəqil seçimlərinin nəticəsi kimi qəbul etsinlər. "Çevik gücün" alətləri intellektual nümunələr, koqnitiv cazibələr, cəlbedici ideyalar və simvollar, cazibədar reklam və media şəkilləridir. "Çevik güc" subyektlərin psixi strukturlarını düzgün istiqamətdə, incə şəkildə yenidən formatlaşdırmaq üçün psixoloji cəhətdən cəlbedici təsir üsullarından biri kimi istifadə edir [6, s.10].

"Ağıllı güc" termini ABŞ-ın 67-ci dövlət katibi Hillari Klinton (2009-2013) tərəfindən ABŞ-ın xarici siyasətinin əsaslandırılması məqsədilə istifadə edilmişdir. "Ağıllı güc" konsepsiyasında "yumşaq" və "sərt" gücün birgə istifadəsi nəzərdə tutulur. "Ağıllı güc" termini 2003-cü ildə J.Nay tərəfindən "yumşaq gücün" effektiv xarici siyasət yarada biləcəyinə dair yanlış təsəvvürləri aradan qaldırmaq üçün" təqdim edilmişdir [14, s.160]. J.Nayın təqdmatına əsasən "ağıllı güc" həm "yumşaq gücün", həm də "sərt gücün" eyni zamanda balanslı şəkildə istifadəsini nəzərdə tutur. O, qeyd edir ki, əsl "ağıllı güc" "iqtisadi inkişafa nail olmaq, vətəndaşların sağlamlığını yaxşılaşdırmaq və qorumaq, ekoloji problemlərlə mübarizə, açıqlıq və sabitlik"dədir və "bütün bunlar hərbi və iqtisadi gücün "yumşaq gücə" investisiya ilə tamamlanmalıdır" [14, s.163]. O da məlumdur ki, yalnız nəhəng dövlətlər "ağıllı gücə" sahib ola və idarəçilikdə ondan istifadə edə bilərlər. Belə ki, "yumşaq gücdən" hər bir dövlət istifadə edə bilər, lakin "sərt gücün" tətbiqi güclü iqtisadiyyat, hərbi və elmi əsaslar tələb edir. Heç nəyə baxmayaraq dövlətlər "yumşaq gücdən" istifadə etməyə üstünlük verməlidirlər [14, s.114].

Son illərdə "ağıllı güc" termini elmi, ekspert və siyasi və diplomatik dairələrdə kifayət qədər geniş yayılmışdır. J.Nay və bir sıra digər müəlliflərin əsərlərində "ağıllı güc" "yumşaq" və "sərt" güc resurslarına üstünlük verilən davranış formasında arzu olunan nəticələrə aparan strategiya tətbiq etmək qabiliyyəti kimi şərh olunur. Strateji resursların sərt növ-

lərinə adətən hərbi müdaxilə, iqtisadi sanksiyalar və diplomatik təzyiq daxildir. Yumşaq gücə - dəyərlər, ideallar, mədəniyyət, bilik, təlim proqramları, diplomatik incəsənət, humanitar və sosial yardım, mədəni diplomatiya aid edilir. J.Nay öz əsərlərində ayrı-ayrı dövlətlərin xarici siyasətində uğurlu ağıllı güc strategiyasına dair bir sıra nümunələr gətirir [4, s.179-182].

J.Nayın məqalələrindən birində Çinin "yumşaq güc"dən fərqli olaraq "kəskin gücə" güvəndiyi deyilir. Müəllif göstərir ki, kəskin güc avtoritar rejimlərdə vətəndaşların davranışlarına nəzarət etməyə və ölkə haqda beynəlxalq rəyi manipulyasiya etməyə kömək edir. "Kəskin güc" informasiyanın manipulyasiyası ilə əlaqəli "sərt güc" növüdür. Dürüstlük və aşkarlıq xalq diplomatiyasının həyata keçirilməsində "yumşaq" və "kəskin" qüvvələr arasında bölgü xətti yaradır [2, s.213].

Qeyd edilməlidir ki, ABŞ-ın xarici siyasətində tətbiq edilən "yumşaq güc" beynəlxalq aləmdə ciddi rəqiblərə malikdir. Əsas rəqib Avropanın "yumşaq gücü" hesab edilir. J.Nay qeyd edir ki, Avropanın "yumşaq güc" resursları heyranedicidir. Avropa ölkələrinin ədəbiyyat sahəsində qazandıqları uğurlara (Fransa ədəbiyyat sahəsində Nobel mükafatlarının sayına görə dünyada birinci yerdədir), miqrantlara sığınacaq verilməsində (Böyük Britaniya və Almaniya - dünyada ilk yerləri tutur), inkişaf etməkdə olan ölkələrə kömək etmək üçün əhəmiyyətli vəsaitlərin ayrılması buna nümunə ola bilər. Bundan əlavə, Avropada ABŞ-dan daha güclü sosial təminat sistemi və həmkarlar ittifaqları var və əmək bazarı daha çox tənzimlənir [3, s.34-35].

Hazırda "yumşaq gücün" hərtərəfli nəzəri modelinin yaradılması üzrə iş aparılır, onun tərkib elementləri yumşaq gücün müəyyən növ və yarımnövlərini təmsil edən aşağıdakı komponentlər ola bilər:

1) İqtisadi yumşaq güc – iqtisadi cəlbedicilər (iqtisadi cəlbedicilik göstəriciləri, o cümlədən investisiya siyasəti);

2) Human Capital Soft Power - ümumi və ali təhsil sisteminin, elmi və texnoloji fəaliyyətin cəlbediciliyinə əsaslanan humanitar sərmayə;

3) Mədəni Yumşaq Güc - mədəni təsir alətləri, yəni - ölkənin mədəni irsinin əhəmiyyətinin və əzəmətinin beynəlxalq səviyyədə tanınması, milli mədəniyyətin populyarlaşdırılması siyasəti, mədəniyyətlərarası kommunikasiyaların genişləndirilməsi;

4) Siyasi yumşaq güc - siyasi demokratiya və insan hüquqlarının müdafiəsi institutlarının inkişaf səviyyəsinin göstəriciləri sistemi;

5) Diplomatik yumşaq güc - ölkənin diplomatik reputasiyası, danışıqlar prosesində diplomatik səylərin səmərəliliyinin göstəriciləri, sülhsevərlik dərəcəsi, təcavüzün qarşısını almaq və təhdidləri neytrallaşdırmaq bacarığı, qlobal gündəm yaratmaq bacarığı [8, s.235].

RGM-lərə görə, yumşaq güc indekslərinin nomenklaturası aşağıdakı 13 parametrin birləşməsindən ibarətdir:

1) Media ixracı: filmlər, musiqi, kompüter oyunları, kitablar daxil olmaqla media məhsullarının ixracı.

2) Dil qəbulu: bir ölkənin dövlət dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi yayılması.

3) Olimpiadalar: Olimpiya Oyunlarına ev sahibliyi etmək, ev sahibi ölkəyə digər ölkələrin idman göstəriciləri ilə tanınmaq və heyran olmaq üçün unikal imkan yaradır.

4) İkonların gücü və ya "ulduz gücü": siyasətçilərdən tutmuş elm və mədəniyyət xadimlərinə qədər dünyanın 100 ən nüfuzlu adamının reytinqində qeydə alınan xarizmatik fiqurların təsiri (məsələn, Cənubi Afrikanın yumşaq gücünə töhfə verən Nelson Mandela təsir simvolu hesab olunur).

5) Ən çox bəyənilən şirkətlər: Fortune jurnalı tərəfindən müntəzəm olaraq dərc edilən ən nüfuzlu biznes şirkətlərinin top siyahısına daxil olmaq.

6) Qanunun aliliyi: bu indeks Dünya Bankı tərəfindən hazırlanmışdır və kreditləşmə perspektivlərini aydınlaşdırmaq üçün dövlət qurumlarının keyfiyyətini ölçmək və qiymətləndirmək cəhdidir. Buraya ölkənin ümumi imicinə təsir edən cinayətkarlığın, zorakılığın və korrupsiyanın səviyyəsinin reytinqi daxildir [15, s.3].

7) Azadlıq indeksi: müəyyən bir ölkədə onun qlobal kredit qabiliyyətinə təsir edən azadlıq səviyyəsi. Reytinqdə vətəndaşların hüquqlarını pozan ölkələr dünya ictimaiyyətinin gözündə legitimliklərini itirirlər. Avtoritar statusa malik olan ölkələr də yüksək reytinq qazanmır.

8) Seçici fəallığı: əhalinin mövcud hökumətə inamının göstəricisi olan parlament və ya prezident seçkilərində vətəndaşların seçici iştirakının dərəcəsi və nəticədə ölkə daxilində yumşaq gücün inkişaf səviyyəsi.

9) CO2 emissiyaları: Ətraf mühitin mühafizəsi səylərini qiymətləndirən digər qlobal aktorlar tərəfindən hörmət edilən atmosferə karbon qazı emissiyalarının azaldılmasına yönəlmiş fəaliyyətlər. "Qlobal

inteqrasiya" çətir termini ilə qeyd olunan indekslər ayrıca qrupa bölünür. Bu qrupa qlobal inteqrasiya prosesində iştirak edən yumşaq güc resursları daxildir.

10) İmmiqrasiya: immiqrantların sayının artması ölkənin xarici vətəndaşlar üçün cəlbediciliyinin göstəricisidir ki, bu da onun yumşaq gücünün yüksək səviyyəsini göstərir. İnsanlar konkret ölkənin, onun dəyərlərinin, vətəndaşların hüquqi və sosial müdafiə səviyyəsinin lehinə "ayaqları ilə" səs verirlər [15, s.4].

11) Turizm daxilində dəyərlər mübadiləsi, digər ölkələrin tarixi və mədəniyyətinin öyrənilməsi, geniş ictimaiyyətin mədəniyyətlərarası ünsiyyətə cəlb olunduğu bir sənaye kimi başa düşülür.

12) Universitetlərin reytinqi: bir çox keyfiyyət və kəmiyyət göstəricilərini, o cümlədən "daxililəşdirmə" səviyyəsini özündə əks etdirən xarici tələbələrin, habelə təhsil mübadiləsi proqramları çərçivəsində təhsil almağa göndərilən tələbələrin sayı ilə ölçülən dünya universitetlərinin reytinqi.

13) İngilis dilini mükəmməl bilmək: İngilis dilini mükəmməl bilmək qlobal dünya sisteminə inteqrasiya üçün ilkin şərt kimi qəbul edilir.

Belə demək olar ki, "yumşaq güc" beynəlxalq siyasətdə aparıcı mövqe tutmağa çalışan dövlətlər üçün zəruri olan keyfiyyətlər və alətlər məcmusudur. Nəzərə alınmalıdır ki, "yumşaq güc"dən istifadə etməyə çalışan dövlətin fəaliyyət istiqamətlərinə nəzarət və idarə imkanları məhduddur. Bu mənada bir çox tədqiqatçılar "yumşaq güc"ün xarici siyasətdə tətbiq edilməsi üçün əlverişli olmasına əmin deyillər. Politoloq Robert Kaufman hesab edir ki, "yumşaq güc" "mövcuddur, lakin onun demokratik və avtoritar rejimlərə tətbiqi arasında rasional ayrılıq lazımdır". Onlar əmindirlər ki, ABŞ və zəif ölkələr və ya geosiyasətin əsas axınında olmayan ölkələr tarixən "yumşaq güc"ə meyillidirlər, çünki "onların yumşaq güc"dən istifadə etmək üstünlüyü var" [9, s.9].

Bir sıra araşdırmaçılar göstərirlər ki, "yumşaq güc" dövlətin imicini yüksəltməyə kömək etsə də, onun mənfi təsirləri də vardır. Belə ki, "yumşaq güc"ün istifadəsi əsasında siyasi ekspansiyaya şərait yaranır. Müxtəlif cəlbedici resurslardan istifadə edən dövlətlər öz siyasi nüfuzlarını gücləndirməyə və genişləndirməyə nail olurlar. Məsələn, inkişaf etmiş ölkələr öz sosial siyasi sistemləri və rifah halları ilə cəlbediciliyə malikdirlər. İnkişaf etməkdə olan ölkələr isə öz inkişaf xətlərini müəyyənləşdirərkən bir qədər tərəddüd edirlər. İnformasiya bolluğu və təbliğat mexanizmləri ayrı-ayrı dövlətlərin inkişaf xüsusiyyətlərini mənimsəməyə və özününküləşdirməyə çətinlik yaradır. Digər tərəfdən, belə bir fikir formalaşmışdır ki, informasiya bolluğu yayğınlıq yaratığı halda, informasiya texnologiyaları "yumşaq güc"ə nəzarət etməyə imkan yaradır.

Müasir dövrdə ABŞ "yumşaq güc"dən istifadə edən lider ölkələrdəndir və "yumşaq güc" vasitəsilə özünü təbliğ məqsədilə külli miqdarda vəsait xərcləyir [7]. ABŞ öz inkişaf modelinin təbliği sayəsində ayrı-ayrı fərdlərə, cəmiyyətlərə, dövlətlərə "yumşaq güc" tətbiq etmiş olur. ABŞ xalq diplomatiyasına, təhsil və mübadilə proqramlarına, hərbi əlaqələrə və təbii fəlakətlərdən zərər çəkmiş ölkələrə və inkişafa yardıma ehtiyacı olan ölkələrə böyük sərmayələr sərf edir. Digər tərəfdən o da vurğulanmalıdır ki, ABŞ özünün nəhəng hərbi sənayesi sayəsində müxtəlif dövlətlərə hərbi dəstək və təsir etməyə çalışır, öz nüfuz dairəsini genişləndirmək üçün ölkələr arasında hərbi əməkdaşlıq və birgə hərbi təlimlər keçirir. NATO vasitəsilə ABŞ öz nüfuz dairəsini genişləndirməyə nail olur. Eyni zamanda demokratiyanın yayılması adı altında hərbi müdaxilələrə yol verir, "yumşaq güc" deyil, "sərt güc" tətbiq edir.

"Yumşaq güc"dən istifadənin digər nümunəsi Qərbi Avropadır. Avropa İttifaqı fenomeni sosial problemləri birgə həll etməyə qadir olan Avropa ölkələrində insan hüquq və azadlıqları, qanunun aliliyi, sosial ədalət və bərabərlik prinsipi, həssas təbəqələrə yönələn sosial imtiyazlar, mədəniyyət və s. amilləri birləşdirir və bu əsasda insanları cəlb etməyə nail olur. Əgər "ağıllı güc" hüquqi əsaslarda rasional fəaliyyəti əxz edirsə, "sərt güc" dedikdə, əsasən də ABŞ-ın timsalında "demokratiyanın diffuziyası" adı altında hərbi vasitələrlə müdaxilənin genişləndirilməsi nəzərdə tutulur.

Belə bir ümumiləşdirmə etmək olar ki, "yumşaq gücdən" həm xeyirxah, həm də bədxah məqsədlərlə istifadə edilə bilər. "Yumşaq güc"ün tətbiqi metodları bilavasitə təbliğat və təşviqatla bağlıdır və bu baxımdan idarə edilməsi asandır. "Yumşaq güc"dən istifadə edən dövlət, ilk növbədə, nəyə nail olmaq istədiyini müəyyənləşdirir və bu istiqamətdə fəaliyyət mexanizmlərini qurur. Məsələn, Qərbin başlıca siyasi məqsədi standart mədəni-əxlaqi dəyərlərin yaradılmasına və yayılmasına nail olmaqdır və müxtəlif KİV və İnternet xidmətlərindən istifadə etməklə öz məqsədinə çatmışdır. "Yumşaq güc"ün tətbiqində

maraqlı məqamlardan biri odur ki, insanlar bu gücə məruz qaldıqlarını düşünmürlər və öz seçimləri əsasında yeniliklərə yiyələndiklərini, öz dünyagörüşlərində, əxlaqi dəyərlərində, davranış xüsusiyyətlərində və həyat tərzlərində dəyişiklikləri öz istəkləri əsasında etdiklərini düşünürlər.

Bugünkü dünyanın sürətlə dəyişən geosiyasi mənzərəsi dövlətlər qarşısında yaranan təhdid və çağırışlara adekvat reaksiyanın yeni formalarının tapılması problemi, habelə beynəlxalq arenada onların təsirini artırmaq vəzifəsi qoyur. O, da qeyd edilməlidir ki, "yumşaq güc" mexanizmləri beynəlxalq siyasi arenada olduğu kimi, hər bir dövlətin öz daxili siyasətində də istifadə edilir. Daxili siyasətdə "yumşaq güc"ün tətbiqi iqtidar və müxalifət münasibətlərinin də yenidən nəzərdən keçirilməsi zərurətini ön plana çıxarır.

## ƏDƏBİYYAT SİYAHISI

***Rus dilində***

*1. Д. М. Ковба, А. С. Исаков. «Мягкая сила»: рецепция концепта //ГУМАНИТАРНАЯ ДИПЛОМАТИЯ: ЛИЧНОСТЬ, СОЦИУМ И МИР, 2018.*

*2. Лебедева М.М. «МЯГКАЯ СИЛА»: ПОНЯТИЕ И ПОДХОДЫ. Вестник МГИМО-Университета. 2017. 3(54). С. (212-223)*

*3. Най Дж. «Мягкая» сила и американо-европейские отношения // Свободная мысль – XXI. 2004. № 10. С. 34, 35.*

*4. Най Дж. С. – мл. Умная сила: эссе // Политическая наука. 2012. № 4. С. 179–182.*

*5. Най, С. Джозеф (младший). Будущее власти / С. Джозеф Най, младший; пер. с англ. В.Н. Верченко. – Москва: АСТ, 2014.*

*6. О. Ф. Русаковой Soft power: теория, ресурсы, дискурс / Екатеринбург: Издательский Дом «Дискурс-Пи», 2015, (376 с.)*

*İngilis dilində*

*7. Foreign Policy. (2016). The War on Soft Power. [online] Available at: http://foreignpolicy.com/2011/04/12/the-war-on-soft-power/ [Accessed 11 November 2021].*

*8. H, Gregory G. Paper Tiger? Chinese Soft power in East Asia // Political Science Quarterly. Volume 126. Number 2. Summer 2011. P. 232–241.*

*9. McDowell, K. (2008). Public Diplomacy at the Crossroads: Definitions and Challenges in an "Open Source" Era. The Fletcher Forum of World Affairs, 32(3), 7-17.*

*10. Nye J. Soft power: the means to success in world politics. Public Affairs, 2004.*

*11. Nye Jr. J. The Paradox of American Power: Why the World's Only Superpower Can't Go It Alone, Oxford University Press, 2002.*

*12. Nye J. Bound to Lead: The Changing Nature of American Power. Basic Books, 1990.*

*13. Nye, J.S. Soft power: the means to success in world politics. New York: Public Affairs. 2004.*

*14. Nye, J. (2009). Get Smart: Combining Hard and Soft Power. Foreign Policy, (80), p.160.*

*15. The New Persuaders II: A 2011 Global Ranking of Soft Power // Institute for government. P. 15. URL: http://www.instituteforgovernment.org.uk/sites/ default/files/publications/The%20New%20PersuadersII_0.pdf [Accessed 31 October 2021]*

## XÜLASƏ

**QƏRB İDEOLOQLARININ ARAŞDIRMALARINDA YUMŞAQ GÜC AMİLİ**

Keçmiş dövrlərdə dolayı yolla yumşaq güc ilə bağlı söylənilən fikirlər J.Nay tərəfindən neoliberalizm nəzəriyyəsi çərçivəsində konsepsiyalılaşdırılaraq müasir formada işlənməyə başlamışdır. İlkin mənada hərbi olmayan yollar vasitəsilə başqalarına təsir kimi başa düşülən "yumşaq güc" mahiyyət etibarilə ABŞ xarici siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Müasir ədəbiyyatda Nayın işlətdiyi "yumşaq güc" ilə yanaşı "sərt güc", iqtisadi güc, "ağıllı güc" kimi anlayışlar da istifadə olunur. Nayın "yumşaq güc" anlayışının kontret tərifini verməməsi və geniş mənada işlətməsi bu konsepsiyanın müxtəlif formalarda şərh olunmasına gətirib çıxarmışdır. Belə olduqda bu anlayışlar arasında sərhədi müəyyən etmək və onlara xas olan xüsusiyyətləri araşdırmaq xüsusi əhəmiyyət kəsb edir.

Məqalədə "yumşaq güc"ün hərtərəfli nəzəri modelinin yaradılması üzrə aparılan akademik araşdırmalar nəzərdən keçirilmiş, onun başlıca indikatorlarının müəyyən edilməsi yolunda iş aparılmışdır.

Məqsəd: Qərb ideoloqlarının "yumşaq güc"ü necə interpretasiya etdiklərini öyrənmək və müasir pratktikada dünya dövlətləri tərəfindən ondan necə və hansı məqsədlər üçün istifadə olunduğunu ortaya çıxarmaqdır.

Metodologiya: Arşdırmada müasir sosial elmlərdə əsas metodoloji yanaşmalardan sayılan müqayisə-

li təhlildən istifadə edilmişdir.

Elmi yenilik: Tədqiqatın başlıca elmi yeniliyi "yumşaq güc" anlayışının xarakterik xüsusiyyətlərini aydınlaşdırmaq və onun digər paralel anlayışlar (sərt güc, ağıllı güc, mədəni güc və s.) ilə oxşar və fərqli xüsusiyyətlərini müəyyən etməkdən ibarətdir. Bundan başqa Qərb ölkələrinin nümunəsində müasir dövrdə "yumşaq güc"dən praktiki istifadə formaları da nəzərdən keçirilmişdir.

**Açar sözlər:** *Nay, yumşaq güc, hərbi güc, sərt güc, ağıllı güc, mədəniyyət, siyasi dəyərlər, xarici siyasət.*


## РЕЗЮМЕ

## ФАКТОР МЯГКОЙ СИЛЫ В ИССЛЕДОВАНИИ ЗАПАДНЫХ ИДЕОЛОГОВ

В прошлом косвенные представления о мягкой силе концептуализировались Дж. Найем в рамках теории неолиберализма и начали развиваться в современной форме. Мягкая сила, изначально рассматриваемая как влияние на других невоенными средствами, по сути, стала неотъемлемой частью внешней политики США. В современной литературе наряду с используемой Найем мягкой силой, так же используется понятия жёсткая сила, экономическая сила, интеллектуальная сила. Так как Най не дал конкретного определения концепции мягкая сила и использовал его в широком смысле, привела к интерпретации этого понятия в различных формах. В этом случае особенно важно определить границы между этими понятиями и изучить их особенности. В статье дается обзор академических исследований по созданию комплексной теоретической модели мягкой силы, и ведется работа по выявлению ее основных показателей.

Цель: изучить, как интерпретируется «мягкая сила» западных идеологов, и выявить, как и для каких целей она используется мировыми державами в современной практике.

Методология: в исследовании использован сравнительный анализ, который является одним из основных методологических подходов в современных социальных науках.

Научная инновация: основная научная инновация исследования заключается в уточнении характеристик концепции мягкой силы и выявлении ее сходств и различий с другими параллельными концепциями (острая сила, умная сила, культурная сила и т.д.). Кроме того, рассматривается практическое использование мягкой силы в современном мире на примере западных стран.


**Ключевые слова:** *Най, мягкая сила, военная власть, острая сила, умная сила, культура, политические ценности, внешняя политика.*


## SUMMARY

## THE ROLE OF SOFT POWER IN WORKS OF WESTERN IDEOLOGUES

J.Nye has conceptualised thoughts about soft power, which were used in indirect ways in the past, in neoliberal theory and developed it in its modern form. Primarily understood as influencing others through non-military means, soft power has become an integral part of US foreign policy. In modern literature concepts such as sharp power, economic power, smart power are used along with Nye's definition of soft power. Nye's broad interpretation of the concept has led to its interpretation in different forms. Therefore, it is particularly important to define the boundaries between these concepts and study their specific features.

This article examines comprehensive academic research on soft power and tries to identify its main indicators.

Objective: To study how Western ideologues interpret the phenomenon of soft power and how world countries practice it in their international relations.

Methodology: The study uses comparative analysis, one of the main methodological approaches in modern social sciences.

Scientific innovation: The main scientific innovation of this article is to clarify characteristics of the concept of soft power and identify its similarities and differences with other parallel concepts (sharp power, smart power, cultural power etc.). In addition, practical usage of soft power in the case of Western countries in the modern world has also been investigated.


**Keywords:** *Nye, soft power, military power, sharp power, smart power, culture, political values, foreign policy.*

**UOT 1**

# ALBER KAMYUNUN QİYAM FƏLSƏFƏSİNİN MAHİYYƏTİ

**SEVİNC HÜSEYNOVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi*

*E-mail: sevinc101578@gmail.com*

İnsanın mənəvi azadlığı, xoşbəxtliyi müasir dövrün fundamental problemlərindəndir. İndi insanın məqsədi dərk etmək deyil, birinci növbədə, özünün dəyişməsidir. Fransız ekzistensializmində də müasir cəmiyyətdə əxlaqın, varlığın, həyatın, bəşəri münasibətlərin mənasızlaşması faktı narahatcılıqla qarşılanırdı. Onlar müasir epoxanın tənqidinə və sosial konfiktlərin nəticəsində yaranan disqarmoniyaya xüsusi diqqətlə yanaşırdılar. Ekzistensialistlər fəlsəfi və bədii əsərləri ilə cəmiyyətin sıxıntısını aradan qaldırmağa, kollektiv həyatdan indvidual həyata keçmənin vacibliyinə çalışırdılar. Fransız ekzistensializmi cəmiyyətə yeni həqiqət gətirməyi ən başlıca məsələ hesab edirdi. Bu həqiqət fərdin xilasına, onun yaşamasına aparmalı idi. Bu işdə fəlsəfə tarixində öz sözünü kifayət qədər bacarıqla deyə bilən filosoflardan biri də fransız fəlsəfəsində əvəzsiz xidmətləri olan Alber Kamyu idi.

Bəşəriyyətin taleyinə biganə qalmayan A.Kamyu yeni epoxoda insanın azadlıq və xoşbəxtlik aləminə doğru irəliləməsi üçün mükəmməl fəlsəfə yaratmışdı. Onun fəlsəfəsi müasir dövrün insan fəlsəfəsinin təşəkkülü və inkişafı baxımından qiymətlidir. Bu filosof sivilizasiyasının antihumanist prinsiplərinə qarşı özünün humanist insanı ideyalarını qoyur. Kamyunun ideyaları özündə mükəmməl insan yaratmağı nəzərdə tuturdu. Şəxsiyyətlərarası münasibətləri qaydaya salmaqla Kamyu təkcə fərdi deyil, bütöv cəmiyyəti kamilləşdirməyə çalışırdı. Bu yolda onun məqsədi müasir epoxanın qəribəliklərini, xaosunu, anlaşılmazlığını oxucuya çatdırmaq, eyni zamanda insan varlığının dünyaya münasibətində ciddi dəyişikliyə nail olmaq idi. Onun fəlsəfi konsepsiyası təkcə düşüncəmizə deyil, həm də reallığımıza təsir göstərdiyindən müasirliyimizi daha yaxşı dərk etmək imkanı verir. Bəşəriyyətin ədalətsizliyinə etiraz etmək hüququna malik antropoloji yönümlü doktrinanın yaradılması Kamyu fəlsəfəsində əsas meyardır. Kamyu insanlıq üçün dünyəvi əxlaq yaratmaq missiyasını qarşısına məqsəd qoymuşdur.

Fransız ekzistensializminin müdriklik təcəssümü kimi fəlsəfə tarixində yer alan A. Kamyu son dərəcə bənzərsiz filosof, eləcə də yazıçı idi. O, yaradıcılığını milyonlarla iztirab içərisində boğulan insanın harayına həsr etmişdi. Kamyu inanırdı ki, müasir epoxa fərdi özünə tabe edərək insanın özü-özündən özgələşməsinə gətirib çıxarır. Kamyu "Kənar adam", "Vəba", "Xoşbaxt ömür", "Süqut" və.s. romanların "Kaliqula", "Anlaşılmazlıq" kimi pyeslərin, "Sizif haqqında əfsanə", "Üsyankar adam" və s. kimi fəlsəfi əsərlərin müəllifidir. O, əsərlərində dövrün bütün ziddiyyətlərini, tragizmini təsvir edirdi. Fəlsəfi sistemini pessimizim üzərində kökləyən Kamyu haqlı olaraq yazırdı: "XVII əsr riyaziyyat, XVIII əsr fizika, XIX əsr biologiya, bizim XX əsr isə qorxu əsridir".

Kamyu fəlsəfəsinin əsas məsələsini və məqsədini insana itirilmiş mənəviyyatın qaytarılması, total absurdlaşma şəraitində epoxanın məntiqini açmaq və metafizikasını yaratmaq təşkil edirdi. Kamyunun insan fəlsəfəsi sözün, əsl mənasında, kamillik və özünüdərkin nail olunmasına həsr olunmuşdur. Epoxanın təzadları, məntiqsizliyi, ədalətsizliyi bir moralist kimi onu narahat edirdi. Kamyunun əsas məqsədi insanı özünə inamlı güclü varlıq kimi yanaşmağı və yaşamağı öyrətmək idi.. Kamyunun fəlsəfədə ən çox rəğbət bəslədiyi filosof Kyerkeqor idi. O, bədii əsərlərində və eləcə də fəlsəfi motivlərin formalaşmasında Kyerkeqor fəlsəfəsindən bəhrələnmişdir. Kamyu üçün daha bir filosof Qusserl də önəmli rol oynayırdı. Ədəbiyyatda Kamyunun kumiri pessimist ruhda yazan, "Sosial qayda-qanun absurd hissi yaradır" deyən yazıçı Malro idi. Kamyu gənc yaşlarında "Ölüm haqqında" və "Malronun fəlsəfəsi" adlı essesini yazıçıya həsr etmişdir.

Bir ekzistensialist filosof kimi o, varlığın həqiqət olmasını tələb edirdi. Bunun üçün filosof real düşüncələrdən, qayda-qanunlardan imtina etməyi lazım bilirdi. O, boş və mənasız varlığa qarşı mübarizə meydanına qoşulur. Burada Kamyu fəlsəfəsinin pessimist xarakteri özünü göstərir. Kamyu əmindir ki, insanın bu prosesdən uzaqlaşması üçün o, özünü

təsdiq etməlidir. Filosofun fikrincə, dünya və insan varlığı irrasionaldır, həyat başdan başa absurddur, həyatı yaşamaq və ya ona son qoymaq - bu əslində Kamyu fəlsəfəsində önə çəkilən və onu düşündürən əsas məqamdır. İnsan həyatını necə yaşamalı? Dünyadan nə tələb etməli? Bu filosofun insan fəlsəfəsinin mərkəzi problemidir. Digər tərəfdən həyata son qoymaq da Kamyu fəlsəfəsinə aiddir. Bəs, onda necə etməli? Bu 2 yolu Kamyu əsərlərin də geniş oxucu kütləsinə yüksək şəkildə çatdırmağı bacarmışdır. Kamyuya görə, mövcudluq, ekzistensiya həyatın əsasını təşkil edir. O, "Sizif haqqında əfsanə " əsərində göstərirdi ki, fəlsəfədə yeganə vacib problem mövcuddur, bu problem də intihar problemidir, "həyatı yaşamağa dəyərmi?"- sualı fərdi reallıqla üzbəüz qoyur (1). Bu sualı filosof həmçinin fəlsəfənin qlobal problemi hesab edirdi. Kamyu həyatın mənası problemini bütün problemlərdən əhəmiyyətli problem hesab edirdi.

Absurd Kamyu fəlsəfəsinin əsas fundamental problemi idi. Absurd insanın etdiyi nə varsa, mənasızdır. Bu cür insan danışığına, hərəkətlərinə, münasibətlərinə heç bir məna verə bilmir. O, insanlarla, dünya ilə münasibətdən məhrumdur. Absurdun dərkinə qədər sadə insan gələcəyə qayğı ilə yanaşaraq həyatının qaydaya salınmasına ümid edir. Lakin absurd bu mənzərəni dağıdır, insan dərk edir ki, həqiqət nə yerdə, nə də göylərdə mövcuddur. Xaos və mənasızlıq hər yerdə hökmranlıq edir. Absurd hissi bizi hər tərəfdə izləyir. Həyatın eyni ritmdə getməsi insanı bir gün nəyə görə sualı qarşısında qoyur, insanın həyatı boyu etdikləri bəzən ona mənasız və darıxdırıcı gəlir. Burada zamanla insan arasındakı konflikt məsələsinə münasibətdə Kamyu Xaydeggerə yaxınlaşır.

Onun nəzərincə, dünya və insan varlığı irrasionaldır. Filosof bundan o nəticəyə gəlir ki, insan və dünya faciəvi olaraq bir-birlərinə qarşı durmuşlar. Kamyu insanın gücünü həyatın mənasızlığından qaçmamaqda, ona qarşı mübarizə etmək əzəmətində görürdü. Bu mənada Kamyu fəlsəfi sistemi özünüdərkin fundamental prinsipi kimi – özünü seçməni və özünü yaratmanı götürür. "Mən yalnız öz həyatlarını sonadək sərf etməyi qarşılarına məqsəd kimi qoyan qəhrəmanları seçdim"(2).

Kamyunun demək olar ki, əksər əsərləri dünyada hökm sürən zülmə, ədalətsizliyə qarşı yönəlmişdir. Məsələn, "Üsyan" əsəri Kamyu yaradıcılığında önəmli yerlərdən birini tutur. Bu əsər birbaşa olaraq diktatura ideologiyasının tənqidi, totalitar rejimlərin hakimliyinə, insan mövcudluğunun kölə vəziyyətinə salınması ilə bağlı reallıqlara həsr olunmuşdur. İnsan ləyaqətinin təsdiqinə, azadlığının dərk olunmasına çalışan Kamyu bu yolla insanı gələcəyə hazırlayırdı. O, bildirirdi ki, dünyada insan həyatından və onun azadlığından önəmli heç nə yoxdur. Vicdan məsələsi də Kamyuya doğmadır. Onun fikrincə, vicdan həm insanı, həm də bəşəriyyəti xilas etmiş olacaqdır. Kamyu müharibədən sonrakı dövrdə bəşəriyyətin özgələşmə prosesi ilə üz-üzə dayandığına ciddi diqqət yetirirdi. Özgələşmə faktının əsas səbəbi absurd hissinin yaratdığı reallıq təşkil edir. Absurdun dərki insana dünyaya yeni tərzdə yanaşmaq imkanı verir. Absurd üsyankar ruh doğurur. Absurd duyğusu qeyri varlıq – heçlik hissini yaratsa da, özü ilə məna gətirir. Absurd üsyan, qiyam faktını yaradaraq insan üçün, tarix üçün müstəsna bir rola malikdir. Qiyamın yazırdı: "Kamyu – dərin fəlsəfi mənası vardır. O, metafizik, yəni nəyisə yaradan, nəyinsə nəyəsə çevrilmə qüvvəsini özündə daşıyan fenomendir"(3). Kamyu fəlsəfəsində ədalətsizliyə qarşı metafizik və siyasi üsyan ideyası üstünlük təşkil edir. Kamyunun fəlsəfəsi ilə tanış olmaq bizə bunu deməyə əsas verir ki, o, yer üzərində yüksək əxlaqın hakimliyinə çalışırdı. Dünyada gözəlliyin də, ədalətin də bərqərar olması bu əxlaqdan asılıdır. Bir əxlaq filosofu kimi onu insanın və mədəni sərvətlərin taleyi narahat edirdi. Cəmiyyətin vulqarlaşması, bəsitləşməsi insanın insan kimi məhvinə şərait yaradır. Ədalətsizlik bu dövrün ən başlıca prinsipinə cevrildi. İnsanın vicdanının susması, eləcə də qəddarlıq üçün geniş imkanlar yaradan müasir dövr hər tərəfdən insan humanizmini heçə endirməyə çalışır. Dünyaya sahibolma hissi onu qazanılmış dəyərlərdən əl çəkməyə sövq etməkdədir. Humanizm filosofu kimi Kamyu insanı xilas etməyə, onu dəyərləndirməyə çağırırdı. Bu mühüm missiyanı Kamyu fəlsəfənin əsas məqsədi hesab edirdi. Çünki fəlsəfə necə yaşamaq, necə düşünməyi öyrədə bilən yeganə bilik sahəsidir. Filosof insana həyat və onun sualları ilə bağlı düşüncələrdə daha əzəmətli, güclü olmağı aşılayırdı. Filosof insanı dünyanın qəribəliklərinə baş vurmağa sövq edirdi. Kamyu fəlsəfəsində insanla dünyanın münasibəti belə açıqlanır, "dünya yad və qəribə olaraq insan üçün mənim deyildir" düşüncəsini formalaşdırır. Nə qədər paradoksal olsa da, Kamyu fəlsəfəsində insan öz mövcudluğunun axtarışında absurd əldə edir və "absurd insana" çevrilir.

Düşünən insan özünü bu absurdun nöqteyi-nəzərindən çıxış edərək dərk etməyə çalışırdı. Kamyu absurdu epoxanın əsas anlayışı hesab edirdi. Filosof insanın gücünü həyatdan qaçmaqda deyil, ona qarşı mübarizə etməkdə görürdü. O, iddia edirdi ki, insanın axtardığı sualları dünya bizə cavablandıra bilməz. Dünyanı mənasız sükut adlandıran filosof dünyanın "susmağına" qarşı qiyam və insanı qoyurdu. Qiyam onun nəzərincə aktiv və təsirlidir. Ona görə də o, qiyam edən insanı dağıdıcı deyil, əksinə dünyaya harmoniya gətirən bir qüvvə hesab edirdi.

Kamyu sübut edir ki, mövcud vəziyyətin insanı kölə vəziyyətinə salması, onu alçaltması üsyan hissinin formalaşması faktını yaradır. Üsyana qalxan insan iztirablarını, günahını, əziyyətini aradan qaldırmağa yönəlir. Qul bütün ömrü boyu ağasının əmrlərinə tabe olmaqdan imtina edir. O, bilir ki, bu vəziyyət uzun çəkəcək və dərk edirdi ki, bu anı yaşamaq ölümə bərabərdir, həyat belə davam edə bilməz, ya hər şey, ya da heç nə. Qul üsyana qədər hər cür əziyyətə dözür, baxmayaraq ki, özünə qarşı edilənləri ədalətsiz hesab edir, üsyana "yox" deyən zaman artıq hər şey dəyişilir. Əgər buna qədər o, ağasının əmrlərinə tabe olaraq onun ardınca addımlayırdısa, lakin indi onunla üz-üzə dayanıb "daha bəsdir" deyərək üsyana qalxır. Üsyanın başlanması şüurun yaranması deməkdir. Qiyam şüuru tarixi hərəkətə gətirir. Kamyunun qiyam fəlsəfəsinin mədəniyyəti olduqca maraqlıdır. Kamyu mövcudluğu qiyamsız təsəvvür etmirdi. Ona görə də Dekartın "düşünürəm, deməli mövcudam" devizini "üsyan edirəm deməli, mövcudam" devizi ilə əvəz etdi. Qiyamın köməyi ilə Kamyu simasızlaşma, qeyri -insanilikla mübarizə etməyə cəhd edirdi. Lakin Kamyu qiyamla inqilabın fərqləndirilməsini lazım bilirdi.O, hesab edirdi ki, bütün inqilabların əsasında azadlıq dayansa da, qiyamın xarakteri tamamilə fərqlidir.O, belə nəticəyə gəlir ki, qiyam vasitəsilə ədalət, həmrəylik baş verirsə, inqilabda, bir qayda olaraq, dağıtmaq, məhv etmək dayanır. Nəticə etibarilə inqilab yalnız detallara təsir göstərə bilir, nəinki prinsiplərə. Əslində bu iki anlayışı bir-birindən fərqləndirən Kamyu qiyamı inqilabdan üstün hesab edirdi. Filosof inqilaba ancaq metafizik qiyamın məntiqi nəticəsi kimi baxırdı. Kamyu tam əminliklə sübut edirdi ki, azadlığın dərki və onun əldə olunması qiyamdan keçir. Dünyanın mənasız qanunlarına və məntiqinə qarşı çıxmaq azadlıqla nəticələnir. Ona görə də qiyam şüuru yaradıcı şüurdur. Onun kökündə həyat enerjisi, insan əzəməti dayanır. Qiyam özünün dediyi kimi "bizim tarixi reallığımızdır"(4). Lakin bu şüur rasionallığa deyil, irrasionallığa söykənir. Filosof zəkaya inanmadığından ona şübhə ilə yanaşırdı. Kamyu fəlsəfəsində mövcudluq zəka ilə deyil, qiyamla yanaşı dayanır. Qiyamın strukturu onun üçün çox vacibdir. Qiyam Kamyuda inqilabi xarakterdə deyil, əxlaqi xarakterdə nəzərdən keçirilir. O, bəşəriyyəti, dünyanı konkret insanı narahat edən absurd gerçəkliyə qarşı yönəlir. Kamyu fəlsəfəsinin məntiqinə görə insan dünya ilə daim mübarizə etməlidir. O, nə dünyanın mənasızlığından qaçmalı, nə də onunla barışmalıdır.Kamyunun gəldiyi qənaətə görə insanın ən vacib məqsədi qiyam etməkdir. Filosof əmindir ki, qiyam itirilmiş dəyərlərin yenidən bərpasına zəmin yaradacaq. Bir sözlə, Kamyunun qiyam anlayışı özü ilə pozitiv enerji gətirir.

Kamyu qnoseoloji problemləri, eləcə də ontoloji problemləri kənara qoyaraq diqqətini etik problemlər üzərində cəmləmişdi. İnsan həyatının mənasını tapmaq azadlıq və vicdanı bərqərar etmək, əslində Kamyu üçün fəlsəfənin digər problemlərindən öncə gəlir. Filosofu cəmiyyətin maraqları da əsla maraqlandırmırdı. Onun etik problemlərinə necə yaşamaq, fərdin dünyadakı yeri daxil idi.

Kamyu sözün əsl mənasında, yüksək moralist idi. Pessimizim prinsiplərinə söykənən Kamyuda diqqəti çəkən bir məqam da var. Kamyu hesab edirdi ki, insan əzablara düçar olsa da, o mübarizə etməyə də qadirdir. Filosof son dərəcə qətiyyətlə sübut edirdi ki, insan mübarizəsi mənasız deyildir. Bu mənada onun fəlsəfəsi pessimizim daxilində optimizim axtarmaqdır. Kamyunun mənəviyyat axtarışının əsasında heç bir bəxşiş olmadan vicdanın rahat olması uğrunda mübarizə etmək dayanır. Onun konkret insanı sərhəd situasiyası ilə üzbəüz dayanmış həyatın illuzuyalarına son qoya bilməyə qadir olan bir varlıqdır. II Dünya müharibəsi ərəfəsində bütün ölkələrdə olduğu kimi, Fransanın da sosial, mənəvi, iqtisadi aləmində kəskin krizis müşahidə olunurdu. Faşizmin tüğyan etməsi nəticəsində insanlıq nəinki sabaha ümidini itirmiş, hətta yaşadığı an ərzində bir heçlik olduğunu dərk etmişdir. İşğal illəri fərdi ruhu zorakılıqla üzbəüz qoymuşdu. Konkret insanın düşdüyü məntiqsiz vəziyyət, keçirdiyi hisslər, bütün bəşəriyyətə aid idi. Fərdin ümidsiz vaziyyətə düşdüyü psixoloji mühit fərdi düşüncə çərçivəsindən çıxaraq ictimai düşüncəyə qədər yüksəlirdi.

Bu prosesin nəticəsində cəmiyyətin həmrəy ol-

ması ideyasının zəruriliyi yaranır. Tənha fərdilik insanlar arasında həmrəlik hissinin formalaşmasına zəmin yaradır. Kamyuya görə, həmrəlik ideyası ümumi təhlükəyə qarşı çevrilir. Həmrəylik ideyasının əsas məqsədi ədaləti bərpa etməkdir. O, sübut edir ki, ümumbəşəri faciənin qarşısını almaq üçün həmrəlik olduqca vacibdir. Üsyançı öz hədləri çərçivəsindən kənara çıxaraq digərləri ilə birləşməyə məcburdu.

Kamyu- qiyami 2 növ olmaqla bir-birindən ayırır. Bunlardan birincisi-fərdi qiyamdır. Bu cür qiyam fərdi düşüncə üçün xarakterikdir.

İkinci növ qiyam – kollektiv qiyamdır. Onu Kamyu həqiqi qiyam adlandırır. “Cuma” povesti, “Mühasirə vəziyyətində” kimi pyesləri kollektiv qiyama misal ola bilər. Göründüyü kimi Kamyunun kollektiv qiyamının əsasında yalnız özünü düşünmək, eqoizm prinsipləri dayanmır. Əksinə, kollektiv qiyam humanizm prinsiplərini formalaşdırır. Bu qiyam vasitəsilə subyekt başqaları ilə ünsiyyətə daxil olur. Fərdi iradə ilə kollektiv iradə birləşir.

Kamyu əmindir ki, absurd fəlsəfəsi ilə azadlığın dərk edilməsi prosesi yaranır, azadlıq və absurd arasında möhkəm əlaqə olduğuna Kamyu heç bir şübhə etmir. Filosofun absurd ideyası əslində fərdin müəyyən psixoloji momentləri yaşamasına imkan verir.

Yüksək pessimizm ilə düşünən filosof "əbədi ədalət" axtarışında idi. Qiyam vasitəsilə "əbədi ədalətin" reallaşmasına inanan Kamyu ədalət və azadlığı yalnız konkret fərd üçün deyil, bütün bəşəriyyət üçün tələb edirdi. Ədalət carçısı fəlsəfi sistemini konkret fərd səviyyəsindən ictimai səviyyəyə qaldırırdı. Lakin Kamyu əxlaqın obyektivlik prinsiplərini kənarlaşdırmaqla insana "absolyut azadlıq" istəyirdi. Bu səbəbdən də Kamyu fəlsəfəsində insan və əxlaq anlayışları heç də obyektiv zərurətə deyil, subyektiv irrasionallığa tabedir. Kamyu fəlsəfi doktrinalarında ictimailikdən irəli gələn norma və qaydalardan imtina edərək yaşamağı təklif edirdi. Kamyu fəlsəfəsi həmçinin qeyd edildiyi kimi dünyanın və insanlığın xilas edilməsi proqramına əsaslanırdı. Əlbəttə ki, bu xilas ekzistensional anlam daşımalı idi. Bəşəriyyətin xilası üçün gözəlliyin hakimliyinə Kamyunun heç bir şübhəsi qalmır. O, Dostayevskinin ardınca gedərək dünyanı, gözəlliyin xilas edilməsi ideyasını dəstəkləyirdi. Kamyu fəlsəfi proqramı insan mövcudluğunun izahının konkret tarixi analizindən uzaq idi.

İnsan həyatının tragik mənzərəsini təsvir etməyə çalışan Kamyu tarixi və cəmiyyəti özgələşmə sferasına aid edir. Kamyu fəlsəfəsində cəmiyyət daxilində nə varsa absurd adlanırdı. Şəxsiyyətin və cəmiyyətin Kamyu yanaşmasına görə, insan ictimai sferada özünün individuallığını itirmiş olur. Bu səbəbdən də Kamyu ekzistensializmin ənənəsinə sadiq olaraq insanlar arasındakı münasibəti də özgələşməyə aid edirdi. Kamyunun yaratmaq istədiyi fəlsəfə insan üçün təhlükə mənbəyi olan cəmiyyətin qeyri-real mənzərəsi, texniki aparatın fərdi manipulyasiya etməsi, sosiallığın yaratdığı zorakılıq və s. ilə mübarizəyə həsr edilmişdi. Əbədilik arzusunda olan Kamyu əsərlərində insan mövcudluğunun əsas problemlərini qabardırdı. Həyat, insan, cəmiyyət haqqında apardığı analizlərin nəticəsində filosof gerçəkliyin absurddan ibarət olması qənaətinə gəlir. Absurd həyat, tənhalıq, zorakılıq, həyatın tragizmi Kamyu fəlsəfəsində fərdin özgələşməsi halını yaradır. Bu tip özgələşmə müasir dövrün krizisinin təzahür formasını əks etdirir. Kamyunun qəhrəmanları nəinki dünyaya, hətta özlərinə qarşı dərin özgələşmə hissini yaşayırlar. Kamyunun pessimizmə və individualizmə əsaslanan nəzəriyyəsi müasir dövrün problematikasının əsas praktik xüsusiyyətlərini özündə əks etdirir. Özgələşmənin sosial və psixoloji aspektlərinə yanaşarkən fransız filosofu göstərir ki, mahiyyət və mövcudluğundan məhrum olan insan dünyayla yadlaşmağa məcburdur. O, istər aləm üçün, istərsə də digər insanlarla münasibətdən zövq ala bilmir. Dünya onun üçün dərkedilməzdir.

Kamyu fəlsəfəsinə də digər burjua filosofları üçün tipik olan elmə zidd getmək və irrasionalizm xasdır. Anti-elm mövqedə dayanan Kamyu insanı obyektiv qanunlarla, ictimai prinsiplərlə münasibətdə öyrənməkdən uzaq idi. Lakin zəkaya münasibətdə Kamyu başqa mövqedə tutmuşdur. Onun irrasionalizmi rasionalizmə də yol acırdı. Filosof zəkanı gerçəkliyin dərk olunması yolunda əsas şərt hesab edirdi. Onun fikrincə, zəka insanı hər şeyi öyrənməyə sövq edir. Bunun nəticəsində dünyanın həqiqi üzü bəlli olur. Beləliklə, Kamyu üçün zəka çox önəmli olmaqla yanaşı, həyat fəlsəfəsinin aşkarlanması baxımından qiymətlidir. “Absurd öz hədlərini bilən aydın zəkadır”. Bu baxımdan Kamyu digər ekzistensialist filosoflar kimi rasionallığı tamamilə kənara qoymur. İrrasional və rasional momentləri birləşdirməklə filosof ekzistensializm çərçivəsində yeni yanaşma təklif etdi. Zəka Kamyu üçün gerçəkliyə yaxınlaşmaq imkanı yaradır. Absurd gerçəkli-

yin, absurd həyatın, absurd siyasi sistemlərin dərki zəka vasitəsilə baş verir. Beləliklə, irrasionalizmdən rasionalizmə keçid Kamyu fəlsəfəsində tam aydınlığı ilə diqqət çəkir.

Yuxarıda qeyd olunanlardan çıxış edərək, deməliyik ki, Kamyu ədaləti bərpa etmək, xoşbəxtliyi yaratmaq üçün mühüm bir metod və prinsip yaratmaqla bəşəriyyətin və insanın qarşısında duran ən vacib şərtlərin konturlarını təyin etmişdir. Kamyunun insanlığın yaşaması və ucalmasına həsr etdiyi fəlsəfəsi sözsüz ki, fəlsəfi problematikalar içərisndə xüsusi aktuallıq və dəyərə malikdir. Mükəmməl insan fəlsəfəsi yaradan Kamyu insana dəyər verməklə onu tarixin bəzəyi, həqiqətin carcısı hesab edirdi. Mənanı və dəyərləri özündə cəmləşdirən yalnız insandır. Bununla Kamyu insanı dövrün eybəcərliyindən,mənasızlığından, haqsızlığından azad ola bilən bir varlıq hesab edirdi. Kamyunun insanı özündə güc, ədalət, iradə nümayiş etdirməklə tarixi, zamanı dəyişməyə malik azad bir varlıqdır.

**Acar sözlər:** *absurd, qiyam, özgələşmə, müasir dövr, dünya.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. А.Камю. Бунтуюущий человек М, 1990, s, 13*

*2. Ədəbiyyat qəzeti №9, 2017, 20 may.*

*3. F.ismayılov 20-ci əsr Qərb fəlsəfəsi tarixi. Bakı 2000, s,613.*

*4. Т.А. Сахарова. От философии существования к структурализму М, 1974 4. s, 42.*

*5. К.М.Долгов. От Киркегора до Камю М, 1990, s, 355.*

## RESUME

French existentialist A. Camus's work has a special place in the return of traditional humanist values in solving the problem of man and the world. The main criterion of the philosopher's philosophy is the creation of anthropological doctrine. The philosopher, known as a philosopher, considered solidarity to be a fundamental moral value. According to the philosopher, the absurd is a source of power, power. Camus believed that the absurd reigned in all spheres of human existence. Therefore, his work was dedicated to solving the problem of the absurd. Camus believed that his philosophy would eliminate the problem of the meaninglessness of life, consciousness, and morality.

**Keywords:** *absurd, rebellion, alienation, modern age, world.*

## РЕЗЮМЕ

Особое место в возвращении традиционных гуманистических ценностей в решении проблемы человека и мира занимает творчество французского экзистенциалиста А. Камю. Главным критерием философии философа является создание антропологического учения. Философ, известный как философ считал солидарность фундаментальной моральной ценностью. По мнению философа, абсурд – это источник власти, могущества. Камю считал, что абсурд царит во всех сферах человеческого бытия, поэтому его творчество было посвящено решению проблемы абсурда. Камю считал, что его философия устранит проблему бессмысленности жизни, сознания и нравственности.

**Ключевые слова:** *абсурд, бунт, отчуждение, современность, мир.*

UOT 316

# MÜASİR AZƏRBAYCAN GƏNCLİYİNİN İSLAM DƏYƏRLƏRİ RUHUNDA TƏRBİYƏSİ NARKOMANİYA VƏ ALKOQOLİZMƏ QARŞI MÜHÜM MÜBARİZƏ TƏDBİRİDİR

**GÜLNAR QƏDİROVA**
*Naxçıvan Dövlət Universitetinin magistrantı*

*E-mail: 7gulnar@mail.ru*

Əsrlər boyu Avropa ilə Asiya arasında təbii körpü sayılan Azərbaycanda müxtəlif dinlərin, millətlərin nümayəndələri bir ailə kimi dinc və mehribanlıqla birgə yaşamışlar. Müasir Azərbaycanın bugünkü həyatında bu vacib amillər özünü göstərməkdədir. Azərbaycan Respublikası İslam Konfransı Təşkilatının, eləcə də Avropa Şurasının üzvüdür. Bu gün demokratik dəyərlərdən biri kimi, etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi birgəyaşayış normasıdır. Bu mənada, "Azərbaycan uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olub. O, islam dininin yayılmasında və eyni zamanda, Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynayıb" (15, s.6). Müasir dünyamızda "din mənəvi istinad nöqtəsi olmaqla yanaşı, mədəniyyətlərarası münasibətlər, qloballaşma və təhlükəsizlik baxımından da strateji əhəmiyyətə malikdir. Xüsusilə XX əsrin sonlarından etibarən beynəlxalq aləmdə din güclü ideoloji təsirə malik olan amilə çevrildi" (4, s. 5).

Ona görə də dünyada baş verən "hadisələri təhlil etdiyimiz zaman meydana çıxan əsas nəticələrdən biri də budur ki, tarixdə olduğu kimi hazırda da din, fövqəltəbii hadisə olmaqla bərabər siyasi arenada təsiredici faktor olaraq istifadə olunur. Məhz XX əsrdən bu yana din və dövlət, məktəb və məscid münasibətləri ciddi şəkildə həm regional, həm də qlobal siyasətdə öz aktuallığını mühafizə etməkdədir" (14).

İslam bizim müqəddəs dinimizdir. Biz öz dini və milli ənənələrimizə çox sadiqik. Çalışırıq ki, gənc nəsil də vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alsın. Ulu Öndər Heydər Əliyev dindarlarla, din xadimləri ilə görüşlərində, bu sahə ilə bağlı tədbir və beynəlxalq konfranslarda həmişə diqqəti bütün dinlərin, xüsusilə də, İslamın dözümlülük xüsusiyyətinə, insanların vəhdətinə və birgəyaşayışın mükəmməl harmoniyasına yönəldirdi. O, deyirdi ki, "İslam dini bizi heç vaxt işğalçılığa, qəsbkarlığa sövq etməmişdir. Biz sülhsevər millətik. Bizim dinimiz də insanlara dostluq, qardaşlıq, sülh, barışıq yolu göstərmişdir. Biz həmişə bu yolla getmişik"(15, s.6).

Çar Rusiyası, Azərbaycanın şimal hissəsi də daxil olmaqla, XIX əsrin 60-cı illərinin ortalarına qədər bütün Qafqazı işğal etdi. Çarizmin Qafqazı işğal etmək siyasəti torpaqların ilhaqı və yerli idarəçiliyin ləğv edilməsi ilə bitmək bilmədi. Buna görə də Rusiya imperiyası Qafqazda öz qayda-qanunlarını bərqərar etmək, xristianlığı yaymaq, bölgədə İslamın oynadığı mühüm rolu mümkün olduğu qədər məhdudlaşdırmaq siyasəti yürüdürdü. "Lakin Qafqazın hər yerində bu siyasət ciddi müqavimətlə qarşılandı" (7, s.7).

Əminliklə qəbul olunmuşdur ki**,** tarixin müxtəlif zamanlarında Azərbaycanda heç vaxt milli-dini zəmində ayrı-seçkilik və qarşıdurmalar baş verməmiş, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Halbuki Sovet dövründə Azərbaycanda İslam, yaxud İslamla bağlı mədəniyyət tarixi çox zəif, həm də təhrif edilmiş şəkildə tədqiq edilmişdir. Elə ona görə də Ulu Öndər Heydər Əliyev "İslam sivilizasiyası Qafqazda" adlı Beynəlxalq Simpoziumda çıxış edərkən bununla bağlı olaraq demişdir ki, o zamanlarda "Azərbaycan alimləri çox nadir, müstəsna hallarda islamşünaslıqla, İslam dininin tədqiqi ilə məşğul olur, bu barədə kitab yazırdılar" (1).

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münasibətləri modeli cəmiyyətin sağlam inkişafı, milli-mənəvi dəyərlərin qorunması, insanların dini etiqadına olan hörmət və ehtiram baxımından əvəzolunmaz xarakter daşıyır (4, s.6).

Azərbaycanda dövlətin din siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin iyununda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu qurum ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsi sahəsində müxtəlif funksiyaları yerinə yetirir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz fəaliyyətində hüquqi cəhətdən əsasən Azərbaycan Respublikasının Konstitusiyasına, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa və digər norma-

tiv-hüquqi aktlara əsaslanır (14).

Dinimizin müqəddəs kitabı "Qurani- Kərim"də əxlaq tərbiyəsi məsələləri və əxlaqa verilən yüksək dəyərlər özünün hərtərəfli şərhini tapmışdır. "Qurani- Kərim"də əxlaq dinin əsas təməl daşı, insanlığı, dünyanı öz üzərində saxlayan dirəklərdən biri hesab edilir. İslamda tərbiyənin məqsədi sadəcə uşaqlara gözəl əxlaq və faydalı biliklər verməkdən ibarət deyil. "Qurani-Kərim" əxlaqi davranışların və onun insanın formalaşmasında, kamilləşməsində və şəxsiyyət kimi inkişafında göstərdiyi təsiri bizə göstərən ən dəyərli xəzinədir. Quranın bütün ayələri tərbiyəvi və əxlaqi əhəmiyyət daşıyır (10, s.288).

Allah (c.c.) tərəfindən bütün bəşəriyyətə göndərilən, səmavi kitabı "Qurani-Kərim" olan sonuncu din olan İslam dinini təbliğ edən peyğəmbərlər bəşər övladını doğru yola dəvət etmişlər. İslam Həzrət Adəmdən (s) etibarən bütün peyğəmbərlərin Allahdan (c.c.) alıb təbliğ etdikləri ortaq əsasların hamısını özündə ehtiva etməkdədir. "Qurani- Kərim"də buna işarə ilə deyilməkdədir: "Allah: "Dini doğru-dürüst qoruyub saxlayın, onda ayrılığa düşməyin!- deyə Hz. Nuha tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi. Sənin dəvət etdiyin (tövhid dini) müşriklərə ağır gəldi..." (Şura 42/13) (12, s. 467)

Məhz bu özəlliyinə görə İslam, Yəhudilik və Xristianlığı bir din, Tövrat və İncili isə vəhyin nəticəsi olaraq qəbul etməklə yanaşı, yəhudi və xristianları yanlış davranışlarına görə tənqid etməkdə, Allahın (c.c.) ayələrini dəyişdirmələri səbəbindən qınamaqdadır.

Allahın (c.c) sevdiyini sevmək, sevmədiklərindən üz çevirmək, əmrlərinə uymaq, qadağalardan qaçmaq, peyğəmbərlərin, xüsusilə də İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s.ə.s.) göstərdiyi yolla addımlamaq da tövhidin vacib göstəricilərindən sayılır. İnsan günahlardan uzaq olmağa çalışmaqla Allaha (c.c.) yaxınlaşmış olur. Sadəcə nəzəri baxımdan Allaha inanmaq yetərli olmayıb, yəni bu inancın praktik olaraq hərəkətlərlə göstərilməsi və dəstəklənməsi lazımdır. İnanc və ibadət ölçüləriylə qazanılmış olan imanın, hər cür müxtəlif tutumlu dünyəvi davranışa istiqamət verməsi real tövhid əqidəsinin əks olunması deməkdir. Peyğəmbərlərin hamısı insanları bu tövhid anlayışına çağırmışlar. Tövhid inancı peyğəmbərlərin gətirdikləri dinlərin hamısında dəyişməyən və ən öndə gələn bir məsələdir (9, s.18).

"Qurani-Kərim"də narkotiklə bağlı heç bir ayə olmasa da, təfsirçilər hesab edirlər ki, müqəddəs kitabda adıkeçən haramlar arasında narkotik vasitələr də yer almaqdadır. Məsələn, "Əl-Əraf" surəsinin 157-ci ayəsində belə buyrulur: "O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula–ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər). Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (Quranın) ardınca gedənlər məhz onlar nicat tapanlardır!" (12).

İslam alimlərinin fikrincə, müqəddəs kitabda bu barədə hansısa konkret fikir mövcud olmasa belə, narkotik vasitələr zərərli olanlar sırasındadır. Belə ki, Peyğəmbər (s) hədislərində zərərli olan və şər daşıyıcısına çevrilən hər şeyi pisləyərək ondan uzaq durmağın vacibliyini buyurub. Quranın "Əl-Bəqərə" surəsinin 195-ci ayəsində deyilir: "Malınızdan Allah yolunda xərcləyin və öz əllərinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir." (16).

Odur ki, dinin və müqəddəs kitabların günah, yaxud zərərli, xeyirsiz hesab etdiyi narkotik vasitədən uzaq durmağa nail olan insan əsirinə çevrildiyi şərə qalib gəlir. SSRİ dövründə yaşadığımız müddətdə narkotizmə qarşı nəinki mübarizə aparılmamış, eləcə də bu problemin mövcudluğu inkar edilmişdir. Lakin Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra narkotizmə qarşı mübarizə özünün yeni mərhələsinə başladı. "Yeni mərhələnin əsas xüsusiyyəti isə məhz ondan ibarətdir ki, narkotizmə qarşı mübarizədə dövlət orqanları ilə ictimai təşkilatlar hamılıqla birgə fəaliyyət göstərirlər" (6, s.166).

Müasir dövrümüzdə də mənəvi böhran yaşayan gənclərimizin cəmiyyətə yararlı şəxsiyyət kimi yetişdirilməsində və formalaşdırılmasında İslam dəyərlərinin rolunu xüsusilə vurğulamalıyıq. İslam övladı tərbiyəsindən, təhsil verilməsindən, ailə qurulması və ailədaxili münasibətlərdən, şəxsi gigiyena və təbabətdən tutmuş, cəmiyyətin idarə olunması, məhkəmə-hüquq sisteminin tənzimlənməsi, millətlərarası və dinlərarası münasibətlər aparılması, xeyriyəçiliyə, iqtisadi münasibətlərə qədər cəmiyyət və insan həyatının bütün sahələri üzrə baxışlara, tövsiyyə və göstərişlərə malikdir. Müasir dövrdə ümumi qəbul edilən fikir budur ki, "narkomaniyanın sosial xarakteri tibbi xarakterindən daha

çox olduğundan o, sosial xəstəlik hesab edilir. Buna görə də, narkomaniya ilə effektli mübarizə üçün ancaq müalicə və reabilitasiya kifayət deyildir" (2,s.43).

Narkomaniya özü ilə yalnız bir insanın fiziki və mənəvi xəstəliyini gətirmir, zəncirvari pisliklərə qapı açır və açmaqda da davam edir. Beləliklə də, bir şəxsin bəlası olmaqdan daha çox, cəmiyyətin ümumi böyük bəlasına çevrilir. Elə buna görə də Quran ayələrinə və hədislərə istinad edən İslam alimləri belə bir ümumi nəticəyə gəliblər ki, narkotik vasitələri təbliğ və istehsal etmək, satmaq da ondan istifadə etmək qədər günah və haramdır. Belə ki, bu işlərlə məşğul olan insan şərin yayılmasına xidmət etmiş olur. "Qurani- Kərim"də isə belə deyilir: "...Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın..." (Əl-Maidə, 2) (12).

Beləliklə, narkomaniya cəmiyyətin qorxunc xəstəliyidir. Narkotik aludəçilərini düçar olduqları bəladan xilas etmək üçün onları qınaq obyektinə çevirmək, düşdükləri bəlaya görə cəmiyyətdə yad ünsür kimi görmək heç zaman düzgün deyildir, yəni, onlara dostca yanaşmaq, sevgi və mərhəmətlə yaralarını sarmaq lazımdır. Göstərilənlərin hamısı cəmiyyətin mənəvi və fiziki deqradasiyasına səbəb olur, cəmiyyətun malik olduğu dəyərləri məhv edir və onun genefondunu ciddi şəkildə təhlükə altında saxlayır. Narkomaniya bütövlükdə millətin fiziki və əxlaqi sağlamlığını hədələyir (5, s.50).

Müasir dövrümüzdə insanlığın baş bəlasına çevrilmiş narkomaniya, xüsusilə də gənclər arasında geniş yayılmışdır. Narkotiklərin hamısı bütövlükdə yalnız fiziki deyil, həm də psixoloji asılılıq yaradır ki, bu da belə xəstələrin müalicəsini çətinləşdirir. Narkotik vasitələr insanın iradəsini məhv etdiyindəndir ki, heç də hamı bu asılılıqdan xilas ola bilmir. Bəzi hallarda tibbi müalicənin aciz qaldığı narkomaniya bəlasının aradan qaldırılmasında insanların dini inancı, imanı böyük psixoloji dəstək rolunu oynayır (9, s.19). Belə ki, narkotikaya aludəçiliyin səbəbləri müxtəlif olsa da əksər hallarda gənclərin bu öldürücü vərdişə tutulmasına məhz mənəvi iztirablar səbəb olur. Ümumi mənəvi dəyərlərin silinib getməkdə olduğu cəmiyyət həyatı insanda özünə və ətrafına inamsızlıq, güvənsizlik yaradır, onun depressiv vəziyyətə düşməsinə səbəb olur.

Elə ona görə də insanın günahlardan uzaq olmağa çalışması Allaha yaxınlaşmaq üçün vacib sayılan vasitələrdən biridir. Odur ki, dinin və müqəddəs kitabların günah, yaxud zərərli, xeyirsiz hesab etdiyi narkotik vasitələrdən və s. uzaq durmağa nail olan insanlar əsirinə çevrildikləri mənəvi boşluğa qalib gəlirlər. İslam dininin qanunlar toplusu olan "Qurani- Kərim"də narkotiklə bağlı heç bir ayə yoxdur. Lakin təfsirçi islam alimləri hesab edirlər ki, adı keçən haramlar arasında narkotik vasitələr də yer alır. Bəlli olduğu kimi, İslamda insanın özünə zülm etməsi, xətər yetirməsi, basqa sözlə, bilərəkdən özünü hansısa təhlükəyə atıb canına qıyması və bu yolla Allahın əmanətinə xəyanət etməsi pislənilmişdir (9, s.20).

Buna görə də biz müsəlmanlar Allahın haqq din olaraq göndərdiyi İslamı öyrənərək, onun gözəlliklərini və ən əsası, təməl dəyərlərini dərindən bilib həyatımızı bu dayaqlar üzərində inşa etdirməliyik. Bütün dünyaya İslamın sülh mesajını verməliyik. Gənclərin İslam dəyərləri ilə yaşaması üçün bizlər gözəl nümunə olmalı və bütün dünyaya həqiqətləri çatdırmalıyıq. Bütün bu fikirlər İslamı, onun gözəlliklərini və əsası özünə xas dəyərlərini anlatmağa yetməz. Qeyd etdiklərimiz bu dəyərlərin yalnız və yalnız cüzi bir hissəsidir. Lakin düşünürük ki, İslamın gənclərin formalaşmasında nə qədər böyük əhəmiyyətə malik olduğunu az da olsa izah edə bildiksə, bu da bizim vəzifə borclarımızdan biri hesab edilməlidir.

Bu mənada dünya, yaşam, zamanla bağlı sualların cavabını İslamda tapmaq mümkündür. İslam kamilləşmək istəyən hər bir insanı o mərhələyə çatdıra bilər. Yetər ki, insanın daxili gücü, iradəsi buna imkan versin. Bu gün müstəqil dövlətin azad düşüncəli gənci kimi qarşımızda həllini hələ də tapmamış vacib məsələlər dayanır. Tariximizi yaddaşlarda düzgün şəkildə nəsildən-nəsilə ötürmək gəncliyimizin borcudur (11, s.34).

## ƏDƏBİYYAT SİYAHISI

1. *Azərbaycan Prezidenti Heydər Əliyevin "İslam sivilizasiyası Qafqazda" mövzusundakı Beynəlxalq Simpoziumda nitqi. "Azərbaycan" qəzeti, 12 dekabr 1998-ci il.*

2. *Ağalarov Cəlal. Narkomanlarla sosial işin aparılması. "Sosial və humanitar elmlərin müasir problemləri". Bakı Dövlət Universiteti. Elmi əsərlər toplusu. Buraxılış № 13, cild 1, 2014, 179 səh. (səh.43-47).*

3. *Əhmədova Jalə. Alkoqolizm və narkomaniyadan asılılığın yaranma səbəbləri və problemin həlli yolları haqda. Bakı Dövlət Universiteti. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi*

*əsərlər toplusu. Buraxılış № 8, 2012., 229 səh. (səh.176-180).*

*4. Heydərov Səyavuş, Qənbərov Asəf, Qafarov Anar. Din və ideoloji təhlükəsizlik. Ön sözün müəllifi: Mübariz Qurbanlı. Bakı, "Tuna," - 2020, 276 səh.*

*5. Hüseynov Ədil. Narkomaniya bəşəriyyətin üzləşdiyi ən böyük sosial problem kimi. "Sosial və humanitar elmlərin müasir problemləri". Bakı Dövlət Universiteti. Elmi əsərlər toplusu. Buraxılış № 27, (I hissə), 2021, 335 səhifə. (səh.47-50).*

*6. İnqilabzadə Fizzə. Azərbaycanda narkotizm və narkobiznesə qarşı mübarizə. "Sosial və humanitar elmlərin müasir problemləri". Bakı Dövlət Universiteti. Elmi əsərlər toplusu. Buraxılış № 22, 2019, (I hissə), 548 səhifə. (səh.166-168).*

*7. İsgəndərli Anar. Ön söz. "Şeyxülislamlıq Zirvəsi: Hacı Allahşükür Paşazadə". Bakı, "Nurlar" Nəşriyyat- Poliqrafiya Mərkəzi, 2014. 272 səh. (s.6-11).*

*8. Kamali Məhəmməd Həşim. Şəriətdə və halal qida istehsalında halal və haramı şərtləndirən amillər. Beynəlxalq "İdrak" ictimai birliyi. Bakı, 2020. 74 səh.*

*9. Məmmədova Aynurə. Gənc nəslin formalaşmasında islam dəyərlərinin rolu və əhəmiyyəti. "Azərbaycanda İslam həmrəyliyi: İslam dəyərləri və Azərbaycan gəncliyi" mövzusunda tələbə, magistrant və doktorantların respublika elmi-nəzəri konfransının materialları. Bakı, "Qaya" nəşriyyatı, 2017. 80 səh. (s.18-20).*

*10. Məmmədova Samirə."Qurani-Kərim"də əxlaq məsələlərinin qoyuluşuna dair. Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi əsərlər, cild 84, № 6, 2017. 332 s. (s.288-290).*

*11. Qəmbərli Sədəfxanım. Müasir Azərbaycan gəncliyi və İslam dəyərləri. "Azərbaycanda İslam həmrəyliyi: İslam dəyərləri və Azərbaycan gəncliyi" mövzusunda tələbə, magistrant və doktorantların respublika elmi-nəzəri konfransının materialları. Bakı, "Qaya" nəşriyyatı, 2017, 80 səh.(s. 33-35).*

*12. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı: "Şərq- Qərb" nəşriyyat evi, 2012. 696 səh.*

*13. Sağlam gənclik, sağlam həyat, sağlam nəsil naminə: tövsiyə-biblioqrafik vəsait. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası. Bakı, 2018.-33 səh.*

*14. Əfqan Vəliyev. Məktəb və məscid arasında. STM https://stm.az › news ›24 sen 2019).*

*15. Vəliyev Teymur, Vəliyev Vicay. İslam dünyasında həmrəyliyin möhkəmlənməsində Azərbaycanın rolu. "Azərbaycanda İslam həmrəyliyi: İslam dəyərləri və Azərbaycan gəncliyi" mövzusunda tələbə, magistrant və doktorantların respublika elmi-nəzəri konfransının materialları. Bakı, "Qaya" nəşriyyatı, 2017, 80 səh. (s.5-7).*

*16. Hüseyn L. Din günah hesab edir… - Reyting. az https://reyting.az › 16935. 27-06-2019*

**Açar sözlər:** *Müasir Azərbaycan, İslam dini, "Qurani-Kərim", İslam dəyərləri, tərbiyə məsələləri, sevgi və dostluqla yaşamaq, narkotizmə və alkoqolizmə qarşı mübarizə.*

## ВОСПИТАНИЕ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ МОЛОДЕЖИ В ДУХЕ ИСЛАМСКИХ ЦЕННОСТЕЙ ЯВЛЯЕТСЯ ВАЖНОЙ МЕРОЙ БОРЬБЫ С НАРКОМАНИЕЙ И АЛКОГОЛИЗМОМ

**Резюме**

В Азербайджане, считавшемся веками естественным мостом между Европой и Азией, представители разных религий, национальностей жили мирно и дружно, как одна семья. В сегодняшней жизни современного Азербайджана проявляются эти важные факторы. Азербайджан на протяжении многих веков был одним из главных центров исламской цивилизации. Он сыграл важную роль в распространении ислама и в то же время в становлении мусульманского Возрождения.

Модель государственно-религиозных отношений, основа которой была заложена великим лидером Гейдаром Алиевым и успешно продолжена Президентом Ильхамом Алиевым, имеет неоценимый характер с точки зрения здорового развития общества, сохранения национально-духовных ценностей, уважения к религиозным убеждениям людей.

В священной книге нашей религии "Коран" вопросы нравственного воспитания и высоких нравственных ценностей нашли свое всестороннее толкование. Все аяты Корана имеют воспитательное и нравственное значение. Бога (ср.в) Любить то, что он любит, отвернуться от того, что он не любит, следовать Его заповедям, избегать запретов, следовать указаниям пророка (ср.A.s.) шаг по указанному пути также считается одним из важных показателей таухида. Человек становится ближе к Богу, стараясь держаться

подальше от грехов. Поэтому зло, которое религия и священные книги считают грехом или злом, побеждает зло, которое становится пленником человека, который сумел держаться подальше от наркотиков.

За время нашего существования во времена СССР не только не велась борьба с наркобизнесом, но и отрицалось существование этой проблемы. Однако после обретения Азербайджаном независимости в борьбе с наркобизнесом начался новый этап. Главная особенность нового этапа заключается в том, что в борьбе с наркотизмом государственные органы и общественные организации осуществляют совместную деятельность.

Поэтому мы, мусульмане, изучая ислам, посланный Аллахом как истинную религию, глубоко зная его красоту и, самое главное, его основные ценности, должны строить свою жизнь на этих опорах. Жизнь людей в любви и дружбе является одним из основных принципов ислама. Необходимо вновь обсудить формы мероприятий, которые должны быть реализованы в этой области, на повестку дня должно встать проведение современных, эффективных проектов.

**Ключевые слова:** *современный Азербайджан, исламская религия, «Священный Коран», исламские ценности, вопросы воспитания, жизнь в любви и дружбе, борьба с наркотизмом и алкоголизмом.*

## EDUCATING MODERN AZERBAIJANI YOUTH IN THE SPIRIT OF ISLAMIC VALUES IS AN IMPORTANT MEASURE TO COMBAT DRUG ADDICTION AND ALCOHOLISM

**Summary**

In Azerbaijan, which for centuries was considered a natural bridge between Europe and Asia, representatives of different religions and nationalities lived peacefully and amicably as one family. These important factors manifest themselves in the life of modern Azerbaijan today. Azerbaijan has been one of the main centers of Islamic civilization for many centuries. He played an important role in the spread of Islam and at the same time in the formation of the Muslim Renaissance. The model of state-religious relations, the foundation of which was laid by the great leader Heydar Aliyev and successfully continued by President Ilham Aliyev, has an invaluable character in terms of healthy development of society, preservation of national and spiritual values, respect and respect for people's religious beliefs.

In the holy book of our religion "The Qur'an"questions of moral education and high moral values have found their comprehensive interpretation. All the verses of the Quran have educational and moral significance. To love what he loves, to turn away from what he does not love, to follow His commandments, to avoid prohibitions, to follow the instructions of the prophet (cf. a.s.) a step along this path is also considered one of the important indicators of Tawhid. A person becomes closer to God, trying to stay away from sins. Therefore, the evil that religion and the holy books consider to be sin or evil overcomes the evil that becomes a prisoner of a person who has managed to stay away from drugs.

During our existence in Soviet times, not only was there no fight against drug trafficking, but the existence of this problem was denied. However, after Azerbaijan gained independence, a new stage began in the fight against drug trafficking.The main feature of the new stage is that state bodies and public organizations carry out joint activities in the fight against drug addiction.

Therefore, we Muslims, studying Islam, sent by Allah as a true religion, deeply knowing its beauty and, most importantly, its basic values, should build our lives on these pillars. The life of people in love and friendship is one of the basic principles of Islam. It is necessary to discuss again the forms of measures to be implemented in this area, the implementation of modern, effective projects should be on the agenda.

**Key words:** *modern Azerbaijan, Islamic religion, "Holy Quran", Islamic values, issues of education, life in love and friendship, the fight against drug addiction and alcoholism.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

İRADƏ NURİYEVA: MÜTƏQİLLİYƏ GEDƏN YOLDA DİL AMİLİNİN ROLU.................................. 5

ГЮЛЬНАЗ ГАСАНОВА: РОЛЬ ИНФОРМАЦИОННЫХ СЛУЖБ
В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ........................................................................................... 8

ФАРИДА АЛИЕВА: ЭВОЛЮЦИЯ МИГРАЦИОННОЙ ПОЛИТИКИ
США: ОСНОВНЫЕ ЭТАПЫ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ...................................................... 16

RƏNA MİRZƏZADƏ: SOYQIRIM + GENOSİD CİNAYƏTİNƏ
BEYNƏLXALQ SİYASİ - HÜQUQİ BAXIŞ............................................................................................ 21

SƏRXAN HÜSEYNLİ: İDLİB - SURİYA SƏHNƏSİNDƏ SON DÜYÜN....................................... 26

ELVİN HƏSƏNOV: TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YAXIN ŞƏRQ SİYASƏTİNƏ DAİR..... 29

VÜQAR İSMAYILOV: KLASSİK MÜHARİBƏLƏRİN
TRANSFORMASİYASI VƏ DRONLAR.............................................................................................. 35

FARAH MAMMADOVA: SISTERS OF THE CALIPHATE.
UNDERSTANDING AND ADDRESSING THE PROBLEM
OF ISIS FEMALE RECRUITMENT.......................................................................................................... 40

HƏCƏR SƏFİYEVA: İRAN XARİCİ SİYASƏTİNİN HƏYATA
KEÇİRİLMƏSİ MEXANİZMİ VƏ PRİORİTET İSTİQAMƏTLƏRİ............................................... 46

SİMNAR MAMEDOV: DAVAMLI İNKİŞAF KONSEPSİYASININ
FORMALAŞMASI VƏ ƏSAS MÜDDƏALARI.................................................................................... 53

KANAN AHMADZADA: COERCIVE POWER FROM A LIBERAL PERSPECTIVE:
CONSIDERATIONS ON COERCING POLITICALLY UNREASONABLE PERSONS............... 59

LƏMAN ZÜLQƏDƏROVA: KİPR PROBLEMİ
BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINDA.................................................................................... 68

AYTƏN QURBANOVA: ORTA ŞƏRQ NÜMUNƏSİNDƏ
PROQNOZLAŞDIRILAN SU MÜHARİBƏLƏRİ................................................................................ 73

## TARİX

YƏHYA BABANLI: AZƏRBAYCAN DİASPORUNUN TƏKAMÜL PROSESİ,
İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ LOBBİÇİLİK ELEMENTLƏRİ.................................................... 77

AYNUR HƏŞİMOVA: VII-IX ƏSRLƏRDƏ QARABAĞIN
TARİXİ-SİYASİ COĞRAFİYASI...... 83

## İQTİSADİYYAT

ZİBEYDƏ ŞƏKƏRƏLİYEVA: AZƏRBAYCANDA QEYRİ-NEFT İXRAC POTENSİALININ
YÜKSƏLDİLMƏSİNDƏ LOGİSTİKA-TİCARƏT SİSTEMİNİN STRATEJİ ASPEKTLƏRİ...... 87

GÜLƏNDAM İSMAYILOVA: AZƏRBAYCANDA EMAL SƏNAYESİNİN İQTİSADİ
İNKİŞAF PROSESLƏRİNDƏ ROLU VƏ STRATEJİ ƏHƏMİYYƏTİ...... 92

CƏMİLƏ QULİYEVA: QARABAĞIN SOSİAL-İQTİSADİ
İNKİŞAFININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ...... 97

AİDƏ BƏXTİYAROVA: AZƏRBAYCANDA NEFT-KİMYA EMAL
MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTİNİN ARTIRILMASI
POTENSİALININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ...... 102

GÜLNARƏ ƏHMƏDOVA : İNNOVATİV İNKİŞAFIN
TƏNZİMLƏNMƏSİNİN METODOLOJİ ASPEKTLƏRİ...... 107

VÜQAR TAĞIYEV: AZƏRBAYCANIN NEFT EMALI SƏNAYESİNDƏ
SAHİBKARLIĞIN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ...... 113

RÜSTƏM RÜSTƏMOV: İNNOVASİYA İQTİSADİYYATININ
KADR TƏMİNATI STRATEGİYASINDA YENİ YANAŞMALAR...... 118

NİGAR HACIYEVA : AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN
DİVERSİFİKASİYALAŞDIRILMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ...... 123

SAMİR ALLAHVERDİYEV: İNNOVASİYA İNFRASTRUKTURU
İQTİSADİYYATIN PRİORİTET SAHƏSİ KİMİ...... 128

SAMİR ƏLƏSGƏROV: AZƏRBAYCANIN EMAL SƏNAYESİNDƏ VERGİ MEXANİZMİNİN
SƏMƏRƏLİLİK PROBLEMLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI...... 132

İLHAM BƏDƏLOV: İDXALƏVƏZLƏMƏ PROSESİNİN VƏ ONUN SOSİAL-İQTİSADİ
İNKİŞAFDA ROLUNUN MAHİYYƏT XARAKTERİSTİKALARI...... 137

ЗАУР АЗИЗОВ: ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКАЯ ОСНОВА РАЗВИТИЯ
ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ И ЕЁ ОСОБЕННОСТИ...... 142

GÜNEL HƏSƏNLİ: DAYANIQLI İNKİŞAF:
YAŞIL MALİYƏLƏŞDİRMƏ VƏ MÜXTƏLİFLİK...... 147

KAMİLƏ ƏSGƏROVA: İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏN BİZNES SUBYEKTLƏRİNİN MÖVCUD DURUMUNUN QİYMƏTLƏNDİRİLMƏSİ ÜSULLARI.................... 152

ADİL MƏMMƏDOV: MİLLİ İQTİSADİYYATIN DAVAMLI TƏŞƏKKÜLÜNDƏ EFFEKTİV GÖMRÜK SİYASƏTİNİN YERİ VƏ ROLU.................... 157

G.E.GULIYEVA, V.H.IBRAHİMOV, S.A.SADIGOVA: STRENGTHENING THE FINANCIAL RESOURCES OF BANKS IN THE CONTEXT OF THE DEVELOPMENT OF DIGITAL PAYMENTS IN AZERBAIJAN.................... 160

GÜLNUR HÜMBƏTZADƏ: AZƏRBAYCANDA BİZNES İNFRASTRUKTURUNUN İNKİŞAF TENDENSİYALARI.................... 165

N. F. HƏSƏNOVA: AZƏRBAYCANDA İNNOVASİYALARIN MALİYYƏLƏŞDİRİLMƏSİ VƏZİYYƏTİNİNQİYMƏTLƏNDİRİLMƏSİ.................... 171

XORRƏM ƏDİBNİYA: MƏNZİL TİKİNTİSİNİN REALLAŞMASINDA MARKETİNQ TƏDQİQATININ ROLU VƏ ONUN ƏSAS XÜSUSİYYƏTLƏRİ.................... 177

TOĞRUL QULİYEV: QEYRİ-NEFT SEKTORU SAHƏLƏRİNƏ YÖNƏLDİLMİŞ XARİCİ İNVESTİSİYALARIN ƏHƏMİYYƏTİ.................... 182

XƏYAL RAQİBOĞLU: BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU.................... 186

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

NƏRMİNƏ QASIMOVA: MULTİKULTURALİZM MƏDƏNİ DİALOQ KONSEPTİ KİMİ.................... 193

TÜRKAN BAĞIRZADƏ: MODERNLEŞMEYLE BİRLİKTE DEĞİŞEN AİLE YAPISI: GELENEKSEL AİLEDENÇEKİRDEK AILEYE GEÇİŞ.................... 196

ORXAN NAĞIYEV: QƏRB İDEOLOQLARININ ARAŞDIRMALARINDA YUMŞAQ GÜC AMİLİ.................... 203

SEVİNC HÜSEYNOVA: ALBER KAMYUNUN QİYAM FƏLSƏFƏSİNİN MAHİYYƏTİ........ 209

GÜLNAR QƏDİROVA: MÜASİR AZƏRBAYCAN GƏNCLİYİNİN İSLAM DƏYƏRLƏRİ RUHUNDA TƏRBİYƏSİ NARKOMANİYA VƏ ALKOQOLİZMƏ QARŞI MÜHÜM MÜBARİZƏ TƏDBİRİDİR.................... 214

**Təsisçi:**
**"Kaspi MY" MMC**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel.: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 300**
**Sifariş №**

**"PrintMe" nəşriyyatının**
**mətbəəsində çap olunub**

**Founder:**
**"Kaspi PD" MMC**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 300**
**Order №**

**Published by**
**"PrintMe" publishing house**